**Bakı Dövlət Universiteti**

**Tarix Fakültəsi**

**“Azərbaycanşünaslıq” Elmi-Tədqiqat Mərkəzi**

**“Dünya azərbaycanlıları: tarixi demoqrafiya” bölməsi**

# DÜNYA AZƏRBAYCANLILARI:
# TARİX VƏ MÜASİRLİK

(Elmi-nəzəri toplu)

## III BURAXILIŞ

*Bakı Dövlət Universiteti və Tarix fakültəsinin 90 illik, «Dünya azərbaycanlıları: tarixi demoqrafiya» bölməsinin 20 illik yubileyinə həsr olunur.*

**BAKI – 2009**

**Baş redaktor:** **Akademik A.M.MƏHƏRRƏMOV**

**Elmi redaktorlar:** **Prof.S.T.Hacıyev**
**Prof.R.C.Süleymanov**
**Prof.L.L.Həsənova**
**t.e.n.Y.H.Gözəlova**

**Redaksiya heyəti:** **Böyük elmi işçi U.M.Paşayeva**
**Elmi işçi G.T.Novruzova**
**Kiçik elmi işçi A.Ə.Məmmədova**
**Kiçik elmi işçi S.Z.Quliyeva**

**Dünya azərbaycanlıları: tarix və müasirlik**. Elmi-nəzəri toplu. III buraxılış. – Bakı, “MBM” nəşriyyatı, 2009, 298 s.

*Qeyd:* 1. Redaksiya heyəti ilə müəlliflərin mövqeyi uyğun gəlməyə bilər.
2. Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.
3. Redaksiya heyəti və müəlliflər təklif və qeydlərlə əlaqədar müzakirələrə hazırdırlar.

*Ünvan:* Bakı, Z.Xəlilov k. 23
Bakı Dövlət Universiteti, IV tədris binası, 10-cu mərtəbə, 1007-ci otaq
Telefon: 012-537-04-61
Email: dacontact@mail.ru

İSBN 978-9952-29-043-8

## MÜNDƏRİCAT


**I BÖLMƏ.**

«Dünya azərbaycanlıları: tarixi demoqrafiya bölməsi»nin tarixindən
*Redaksiya heyəti* ........................................................ 5

Dünya azərbaycanlılarının öyrənilməsi: struktur yanaşma
*K.K.Şükürov* ........................................................ 13

**II BÖLMƏ. PLAN İŞİ ÜZRƏ BAŞA ÇATDIRILMIŞ TƏDQİQATLAR**

**XIX-XX əsrlərdə Şimali Azərbaycanda demoqrafik vəziyyət**

Quba xanlığının əhalisi ........................................................ 16

Dərbənd əhalisi XIX – XX əsrin əvvəllərində ........................ 34

Naxçıvan xanlığının əhalisi ................................................... 71

Qazax sultanlığı ........................................................ 88

**Şimal-Qərbi Azərbaycanın əhalisi (tarixi-demoqrafik tədqiqat)**

Car-Balakən camaatlığının ərazisi və əhalisi .......................... 103

Şəki xanlığının əhalisi ........................................................ 132

**Qərbi Azərbaycanın əhalisi XIX-XX əsrlərdə** ...................... 142

**Rusiya Federasiyasında Azərbaycan diasporu** ...................... 178

**III BÖLMƏ. XVIII-XX ƏSRLƏRDƏ AZƏRBAYCANIN ƏRAZİSİ VƏ ƏHALİSİ**

Илисуйское султанство: территория и этническая история
*Э.М.Летифова* ........................................................ 187

Çuxur-Səəd bəylərbəyliyinin ərazisi
*B.Ş.Şabiyev* ........................................................ 197

XVIII əsrin əvvəllərində Cənubi Qafqaz ərazisində demoqrafik vəziyyət haqqında (Gəncə-Qarabağ əyaləti üzrə)
*A.A.Abbasova* ........................................................ 202

Borçalı azərbaycanlılarının soykökü
*K.H.Məmmədov* ........................................................ 206

XIX əsrin II yarısında Bakı əhalisinin tərkibində sosial dəyişikliklər barədə
*Y.Ə.Rzayeva-Əliyeva* ........................................................ 210

XIX-XX əsrlərdə Azərbaycanda miqrasiya proseslərinin tarixi köklərinə dair
*U.M.Paşayeva* ........................................................................ 216

Территориальные изменения на Южном Кавказе с октября 1917 года по май 1918 год
*С.О.Мустафаева* ................................................................ 222

XX əsrin əvvəllərində Azərbaycanda çarizmin köçürmə siyasətinə dair
*H.O.Əhmədov* .................................................................... 230

XX əsrdə Naxçıvan əhalisinin say dinamikası və yerləşməsi
*X.Q.Babayev* ..................................................................... 234

Ermənistan SSR-də azərbaycanlılara qarşı soyqırım siyasəti
*Ş.F.Fərəcov* ...................................................................... 243

## IV BÖLMƏ. ÜMUMİ TARİX MƏSƏLƏLƏRİ

Eldənizlərin hakimiyyəti dövründə Azərbaycanın beynəlxalq ticarət əlaqələri
*Y.H.Gözəlova* ................................................................... 246

Видный мыслитель Азербайджана Ахмед бек Ага оглы о международном положении и русско-японской войне в начале XX века
*Səidə Əli qızı* ..................................................................... 253

Məcburi miqrasiya və beynəlxalq hüquq
*U. M. Paşayeva* ................................................................. 258

Azərbaycan diasporu
*G.T.Novruzova*................................................................... 265

İslam Konfransı Təşkilatının Azərbaycanla əlaqəli qətnamələrində qaçqın və məcburi köçkünlər problemi
*S.Z.Quliyeva* ..................................................................... 287

Avropa İttifaqının yardım proqramları və Azərbaycan (1999-2004-cü illər)
*Leyla Vaqif qızı* ................................................................ 291

Azərbaycanda toxuculuğun inkişafı tarixindən
*Y.M.Abdullayeva* ............................................................. 295

# I BÖLMƏ

## «DÜNYA AZƏRBAYCANLILARI: TARİXİ DEMOQRAFİYA BÖLMƏSİ»NİN TARİXİNDƏN

*REDAKSİYA HEYƏTİ*

***Bakı Dövlət Universiteti və Tarix fakültəsinin 90 illik yubileyləri xoş təsadüf nəticəsində daha bir əlamətdar hadisə – fakültənin aparıcı elmi qurumlarından biri olan «Dünya azərbaycanlıları: tarixi demoqrafiya» bölməsinin yubileyi ilə eyni vaxta düşür. İyirmi yaşını qeyd etdiyimiz bu aparıcı elmi qurumun tarixinə və elmi fəaliyyətinə nəzər salmaq yerinə düşər.***

Tarix elmi cəmiyyətsiz mövcud ola bilmədiyi kimi, cəmiyyət də tarixsiz mövcud deyil. Bu baxımdan müasir tarix elminin komponentlərindən biri olan əhali tarixinin inkişafı həm də müasir ictimai inkişafın tələblərindən biridir. Tarix elmi üçün əhali tarixinin öyrənilməsinin əhəmiyyəti cəmiyyətdə baş verən siyasi proseslərin, həmçinin sosial-iqtisadi tarixin öyrənilməsində oynadığı mühüm rolla müəyyən olunur. Təsadüfi deyil ki, XX əsrin II yarısında əhali tarixinin öyrənilməsinin daha geniş miqyas alması əhali haqqında biliklər sisteminə daxil olan yeni bir elmi sahənin – tarixi demoqrafiyanın yaranması və inkişafı ilə nəticələnmişdir.

Müasir tarixi-demoqrafik ədəbiyyatda tarixi demoqrafiyanın problemləri şərti olaraq aşağıdakı kimi təsnif edilmişdir: birinci və ya tarixi demoqrafiya probleminin mərkəzi qrupu əhalinin təkrar istehsalı, doğum, ölüm, nikah, ailə demoqrafik davranış və i.a., ikinci qrup problemlər əhalinin sayı, yerləşməsi, tərkibi (milli, sosial və s.), miqrasiya və s., üçüncü qrup problemlər əvvəlkinə əsaslanan ümumi səciyyəli məsələləri əhatə edir; onlar demoqrafik inkişaf qanunauyğunluğunun, həmçinin siyasət və onun sosial nəticələrinin öyrənilməsinə aiddir.

Cəmiyyətin öyrənilməsində demoqrafiya, həmçinin tarixi demoqrafiyanın oynadığı rol bütün dünyada olduğu kimi, Azərbaycanda da bu elm sahələrinin inkişafına maraq yaratmışdır. Bu istiqamətdə tədqiqatlar aparmaq məqsədilə 1989-cu ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsində

«Azərbaycanın Tarixi Demoqrafiyası» elmi tədqiqat laboratoriyası yaradılmışdır. Lakin təəssüflər olsun ki, dünya azərbaycanlılarının (Azərbaycan Respublikasında və onun sərhədlərindən kənarda qalan tarixi Azərbaycan torpaqlarının tərkibinə daxil olduğu ölkələrdə, həmçinin xaricdə yaşayan azərbaycanlılar) tarixi demoqrafik problemlərinin sistemli şəkildə öyrənilməsi kimi mühüm bir vəzifəni yerinə yetirən bu elmi tədqiqat laboratoriyası bir müddət sonra bağlanılmışdır.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra tariximizin sovet ideologiyasının təsiri altında saxtalaşdırılmış və ya heç öyrənilməmiş bir çox məsələlərinin tədqiqinə ehtiyac yarandı. Gülüstan (1813) və Türkmənçay (1828) sülh müqavilələri ilə Azərbaycan torpaqları Rusiya və İran arasında bölüşdürüldükdən sonra yaranmış «tarixi Azərbaycan torpaqları» və ya «itirilmiş torpaqlar» problemi Vətən tarixşünaslığının həmin dövrdə tədqiqata cəlb edilmiş ən ciddi problemlərindən biri idi. Çarizmin ərazi islahatları nəticəsində müasir sərhədlərimizdən kənarda qalmış Azərbaycan ərazilərinin tarixinin, həmçinin burada baş vermiş soyqırımlar, deportasiya və digər miqrasiya proseslərinin mənbələr əsasında öyrənilməsi Dağlıq Qarabağ kimi süni şəkildə yaradılmış ərazi münaqişələrinin həqiqi tarixinin üzə çıxarılması baxımından da prinsipial əhəmiyyət kəsb edirdi. Digər tərəfdən, yeni bir siyasi mühitdə vahid Azərbaycan tarixinin yazılması məsələsi də artıq zamanın tələbinə çevrilmişdi ki, bu da regionların tarixinin öyrənilməsini zəruri edirdi. Tədqiqat obyektini məhz bu problemlər təşkil edən Azərbaycanın tarixi demoqrafiyasının sistemli şəkildə tədqiqinin vacibliyinə xüsusi diqqət yetirən əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Y.M.Mahmudovun (həmin dövrdə Tarix fakültəsinin dekanı) təşəbbüsü ilə 1994-cü il dekabrın 12-dən «Dünya azərbaycanlıları: tarixi-demoqrafiya» elmi tədqiqat laboratoriyası yenidən fəaliyyətini davam etdirməyə başladı. Laboratoriyada onun elmi rəhbərliyi altında tarixi-demoqrafiya məktəbi yaradıldı və Azərbaycan tarixşünaslığında ilk dəfə «itirilmiş torpaqlar» problemi tədqiqat obyektinə çevrildi. Əsas elmi istiqamətə uyğun olaraq tarixi Azərbaycan ərazilərində və onun hüdudlarından kənarda məskunlaşmış azərbaycanlıların tarixi-demoqrafik problemləri, miqrasiyası (məcburi köçürülmələr, diaspora və s.), bu gün erməni təcavüzkarlarının işğalı altında olan Vətən torpaqlarında baş verən etno-demoqrafik proseslər, habelə sosial-siyasi və mədəni həyatın digər aktual problemləri araşdırılmağa başlanıldı və bu gün də həmin istiqamətdə araşdırmalar davam etdirilir. Tədqiq olunan mövzular tarixşünaslığımızda bu problemlərlə bağlı boşluqların aradan qaldırılması baxımından böyük əhəmiyyət kəsb etdiyi kimi, dövlətçiliyimiz üçün də mühüm rol oynayır.

Azərbaycanın XIX–XX əsr tarixinin yenidən tədqiqi nəticəsində konkret problemlərlə (xanlıqların tarixi, Rusiyanın Qafqazı və Azərbaycanı işğalı, azərbaycanlılara qarşı həyata keçirilən deportasiya, soyqırım siyasəti və s.) bağlı yeni tarixi faktlar aşkar edilmiş, uzun zaman gizli saxlanılmış və

ya tamamilə təhrif edilmiş hadisələrə tarixi qiymət verilmişdir.

Qeyd edək ki, müasir dövrdə dünya dövlətləri daxili və xarici siyasətə birbaşa təsir göstərən əhali problemini daha çox diqqət mərkəzində saxlamağa çalışırlar. Bunun üçün hökumətlər öz demoqrafik inkişaf proqramlarını, konsepsiyalarını həyata keçirirlər. Müstəqil Azərbaycan Respublikasında da demoqrafik proseslərin öyrənilməsinə və dövlətin demoqrafik siyasətinin müəyyənləşdirilməsinə diqqət artırılmışdır. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin «Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasının» təsdiq edilməsi haqqında 9 dekabr 1999-cu il tarixli sərəncamı Azərbaycanın müasir əhali problemlərinin tarixi köklərinin öyrənilməsi üçün tarixi-demoqrafik tədqiqatları zəruri edir. Dövlətin demoqrafik siyasətinin əsas məqsəd, vəzifə və prinsiplərinin müəyyən olunduğu bu konsepsiyada qeyd edildiyi kimi, «müasir dövrdə dünya əhalisinin sürətli artımı və demoqrafik proseslərdə baş verən dəyişikliklər ayrı-ayrı dövlətlərin ölkə daxilində və beynəlxalq aləmdə yeritdiyi siyasətə daha çox təsir göstərir və həmin məsələlərlə bağlı bir çox problemlərə «demoqrafik aspekt» verərək, onların qoyuluşuna və həll edilməsinə tamamilə yeni mövqelərdən və normalardan yanaşılmasını tələb edir. Bu baxımdan, respublikamızda yaranmış demoqrafik vəziyyəti düzgün qiymətləndirmək, ona dünya miqyasında bu proseslərdə baş vermiş dəyişikliklər fonunda tarixi səpgidə yanaşmağı tələb edir».

Bu istiqamətdə araşdırmalar aparan «Dünya azərbaycanlıları: tarixi demoqrafiya» laboratoriyası Azərbaycan dövlətinin demoqrafik siyasətindən və Demoqrafik İnkişaf Konsepsiyasından irəli gələn məsələlərin elmi istiqamətdə həyata keçirilməsində mühüm rol oynamağa başlayır.

Bununla yanaşı, 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I qurultayında Ümummilli lider H.Ə.Əliyev Azərbaycanda və onun hüdudlarından kənarda yaşayan bütün azərbaycanlıları öz ərafında birləşdirən Azərbaycançılıq ideyasını irəli sürür. O, öz çıxışında bu ideyanın mahiyyətini açıqlayaraq qeyd edir ki, ***Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir.***

Qeyd edək ki, H.Ə.Əliyevin bu çıxışına ilk reaksiya Bakı Dövlət Universitetindən gəlir. Çünki, təqribən bir ay əvvəl bu məsələləri dərindən araşdırmaq məqsədilə Tarix fakültəsində struktur dəyişiklikləri aparılmış və «Dünya azərbaycanlıları: tarixi-demoqrafiya», «Azərbaycanın maddi-mədəniyyət tarixi» və «Tarixi tədqiqatlarda kompüter» elmi tədqiqat laboratoriyaları bir mərkəzdə birləşdirilərək «Azərbaycanşünaslıq» Elmi Tədqiqat Mərkəzi yaradılmışdır (struktur dəyişikliklərinə əsasən laboratoriyalar mərkəzin bölmələrinə çevrilirlər). Digər elmi tədqiqat müəssisələrində çalışan alimlər tədqiqatlara cəlb olunurlar.

«Dünya azərbaycanlıları: tarixi demoqrafiya» bölməsinin fəaliyyətinin əsas istiqamətlərindən biri də yüksək ixtisaslı kadr hazırlığı işini həyata ke-

çirməkdir. Bu məqsədlə bölmədə aspirant və dissertantlar fəaliyyət göstərirlər. Başa çatdırılmış tədqiqatlar müəllifləri tərəfindən elmi dərəcə almaq məqsədilə Dissertasiya Müdafiə Şurasına təqdim edilir.

Bu illər ərzində aşağıdakı tamamlanmış tədqiqatlar namizədlik dissertasiyası kimi İxtisaslaşdırılmış Müdafiə Şuralarına təqdim olunmuşdur:

| **Mövzu** | **A.A.F.** | **Müdafiəyə təqdim edildiyi il** | **Müdafiə edildiyi il** |
|---|---|---|---|
| "Şimal-Qərbi Azərbaycan tarixi-demoqrafik tədqiqat (XIX əsrin əvvəlləri – 70-ci illər)" | Z.Ə.Cavadova | 2001 | 2004 |
| "Quba xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat)" | S.Ə.İbişov | 2002 | 2007 |
| "XIX əsrin II yarısı – XX əsrin əvvəllərində azərbaycanlıların sahibkarlıq fəaliyyəti" | S.S.Xəlilova | 2002 | 2005 |
| "Naxçıvan bölgəsinin tarixi (1828-1920-ci illər)" | İ.F.Kazımov | 2003 | 2003 |
| "XVIII əsrdə Rusiyanın Cənubi Qafqaza qarşı işğalçılıq siyasətində dini amillər" | A.A.Abbasova | 2005 | 2009 |
| "Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat)" | N.Ə.Quliyev | 2006 | 2007 |
| "Rusiya Federasiyasında Azərbaycan diasporu (tarixi-demoqrafik tədqiqat)" | G.T.Novruzova | 2006 | 2011 |
| "Car-Balakən camaatlığı XVII əsrin sonları – XIX əsrin 30-cu illərində (tarixi-demoqrafik tədqiqat)" | A.Ə.Məmmədova | 2008 | 2011 |
| "Dərbənd əhalisi XIX-XX əsrin əvvəllərində (tarixi-demoqrafik tədqiqat)" | A.A.Hacıyev | 2009 | |

Hazırda aspirant və dissertantlar tərəfindən "Ermənistan azərbaycanlılarının tarixi-demoqrafik vəziyyəti: 1920-1990-cı ilin başlanğıcı" (Ş.F.Fərəcov); "Bakı şəhərinin əhalisi XIX-XX əsrin əvvəllərində (tarixi-demoqrafik tədqiqat)" (Y.Ə.Rzayeva); "Cənubi Qafqazda ərazi və sərhəd dəyişiklikləri (1917-1922-ci illər)" (S.O.Mustafayeva); "Erməni millətçilərinin Qərbi Azərbaycanı erməniləşdirmək siyasəti (Dərələyəz mahalının materialları əsasında)" (V.İ.İsayev); "Cənub-Qərbi Azərbaycanda etnik proseslər və Rusiyanın ermənipərəst siyasəti (1828-1917-ci illər)" (T.Ə.Şirvanova); "Avropa ölkələrində Azərbaycan diasporu" (T.R.Bağıyev); "XX əsrin 20-ci illərində Azərbaycanda ictimai-siyasi və iqtisadi vəziyyət" (G.K.Rəhmanzadə); "Naxçıvan bölgəsinin əhalisi

(1920-1991-ci illər) (X.Q.Babayev)"; "Heydər Əliyevin əsərləri Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatı ilə əlaqələrinin öyrənilməsində mənbə kimi" (S.Z.Quliyeva) mövzularında tədqiqatlar aparılır.

1994-2009-cü illər ərzində bölmədə plan üzrə Şimal-Qərbi Azərbaycanın əhalisi, XIX-XX əsrlərdə Şimali Azərbaycanda demoqrafik vəziyyət (tarixi-demoqrafik tədqiqat), Qərbi Azərbaycan: tarixi-demoqrafik araşdırma (XIX-XX əsrlər) problem mövzularının tədqiqi tamamlanmışdır. Bu istiqamətlərdə «Deportasiya problemi (tarixi-demoqrafik tədqiqat)» (A.Ə.Paşayev), «XIX əsrin birinci yarısında Şimali Azərbaycanın əhalisi» (H.Y.Verdiyeva), «Şimal-Qərbi Azərbaycan tarixi-demoqrafik tədqiqat (XIX əsrin əvvəlləri – 70-ci illəri)» (Z.Ə.Cavadova), «Quba xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat)» (S.Ə.İbişov), «Naxçıvan bölgəsinin tarixi (1828-1920-ci illər)» (İ.F.Kazımov), «XVIII əsrdə Rusiyanın Cənubi Qafqaza qarşı işğalçılıq siyasətində dini amillər» (A.A.Abbasova), «XIX əsrin II yarısı – XX əsrin əvvəllərində azərbaycanlıların sahibkarlıq fəaliyyəti» (S.S.Xəlilova), «Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat)» (N.Ə.Quliyev), «Rusiya Federasiyasında Azərbaycan diasporu (tarixi-demoqrafik tədqiqat)» (G.T.Novruzova), «Car-Balakən camaatlığı XVII əsrin sonları – XIX əsrin 30-cu illərində (tarixi-demoqrafik tədqiqat)» (A.Ə.Məmmədova), «Dərbənd əhalisi XIX-XX əsrin əvvəllərində (tarixi-demoqrafik tədqiqat)» (A.A.Hacıyev) mövzularının tədqiqi başa çatdırılmışdır. Bu tədqiqatlarda XIX-XX əsrlərdə tarixi Azərbaycan ərazilərində əhalinin yerləşməsi, say dinamikası, miqrasiyası və digər əhali problemləri öz həllini tapmışdır. Araşdırmalar zamanı əsas diqqət Azərbaycanın şimal, şimal-qərb və qərb ərazilərinin əhalisinin və sərhədlərinin öyrənilməsinə yönəldilmişdir.

XX əsrdə baş verən siyasi proseslərin əhalinin demoqrafik göstəricilərinə təsiri miqrasiyanın öyrənilməsi əhəmiyyətini də artırmışdır. Bunu nəzərə alaraq, XIX-XX əsrlərdə Azərbaycan ərazisində miqrasiya prosesləri, onun səbəbləri və istiqamətləri, müxtəlif etnosların bu ərazidə məskunlaşması, ictimai-siyasi proseslər nəticəsində yaranan məcburi köçkün və qaçqın problemi, azərbaycanlıların miqrasiyasının səbəbləri, diasporun formalaşmasının öyrənilməsi əsas məqsəd kimi müəyyənləşdirilmiş və 2008-2011-ci illər üçün bölmə əməkdaşları tərəfindən «XIX-XX əsrlərdə Azərbaycanda miqrasiya prosesləri (tarixi-demoqrafik tədqiqat)» problem mövzusu kimi tədqiqata cəlb edilmişdir. Hazırda bölmə əməkdaşları bu problemin tərkib hissəsi olan "Rusların Azərbaycana miqrasiyası" (A.N.Mustafayev); "Azərbaycanda azsaylı xalqların miqrasiya prosesləri" (N.H.Quliyeva); "XX əsrin II rübündə Azərbaycanda əhalinin miqrasiyası" (H.O.Əhmədov); "XX əsrdə Azərbaycanda köçkün və qaçqın problemlərinin tarixi-hüquqi aspektləri" (U.M.Paşayeva); "Azərbaycanlıların xarici ölkələrə miqrasiyası və Azərbaycan diasporunun formalaşması" (G.T.Novruzova); "XIX-XX əsrlərdə İrəvan quberniyasından və Ermənistan SSR-dən azərbaycanlıların miqrasiyası" (Ş.F.Fərəcov); "XIX-XX əsrdə Şimal-Qərbi Azərbaycan ərazisində miqrasiya prosesləri"

(A.Ə.Məmmədova); "XIX-XX əsrlərdə Dərbənd şəhərində miqrasiya prosesləri" (A.A.Hacıyev); "Miqrasiya proseslərinin nəzəri araşdırılması" (S.Z.Quliyeva) mövzuları üzərində araşdırmalar aparırlar.

Tədqiqatların elmi-nəzəri və əməli nəticələri, bu nəticələrdən irəli gələn təkliflər dünyada qloballaşma prosesinin daha da dərinləşdiyi bir vaxtda Azərbaycan Respublikasının dövlət siyasətinin formalaşdırılması, regional demoqrafik siyasətin həyata keçirilməsi, ərazi-sərhəd məsələlərinin həlli, o cümlədən Azərbaycana qarşı ərazi iddialarının rədd edilməsi, regionun və onun əhalisinin tarixinin saxtalaşdırılması cəhdlərinin qarşısının alınması, yerli əhalinin yaşadığı bölgənin tarixi keçmişi barədə maarifləndirilməsi baxımından dəyərli töhfədir. Bununla yanaşı, aparılan tədqiqatlar və əldə olunan elmi nəticələr Azərbaycan tarixi, Azərbaycanın tarixi demoqrafiyası kimi ümumiləşdirilmiş dərsliklərin hazırlanmasında istiqamətverici rol oynayır. Bu məqsədlə bölmədə elmi nəticələrin nəşri daim diqqətdə saxlanılır. Bununla yanaşı, bölmə əməkdaşlarının respublikanın ictimai-siyasi həyatında, elmi tədbirlərdə iştirakı da onların elmi nəticələrinin ictimaiyyətə çatdırılmasında mühüm rol oynayır.

1999-cu ildə laboratoriyaların əməkdaşlarının 5 monoqrafiyası (ümumi həcmi 75,5 ç.v.), 1 kitabça, 32 məqalə və beynəlxalq konfrans və simpoziumlarda dinlənilmiş 18 məruzəsinin tezisi (25,5 ç.v.) çap olunmuşdur. Bu çap əsərlərindən 2 monoqrafiya, «Dünya azərbaycanlıları: tarixi-demoqrafiya» elmi tədqiqat laboratoriyası əməkdaşlarının payına düşür. Qeyd edək ki, Tarix Fakültəsinin Elmi Şurası bu göstəriciləri yüksək qiymətləndirmiş, fakültənin dekanlığı isə Elmi Şuranın qərarına əsasən əməkdaşların mükafatlandırılması üçün rektorluğa müraciət etmişdir. BDU rektorluğunun 2/112 saylı 2001-ci il 31 mart tarixli əmri ilə səmərəli elmi fəaliyyətlərinə görə laboratoriyaların əməkdaşlarına (prof.A.N.Mustafayev, böyük elmi işçi T.M.Dostiyev, aparıcı elmi işçi H.Y.Verdiyeva, böyük elmi işçi U.M.Paşayeva, kiçik elmi işçi Y.H.Gözəlova, aspirant E.M.Lətifova) təşəkkür edilmiş və 1 aylıq əmək haqqı məbləğində mükafatlandırılmışlar.

Təkcə 2001-2009-cu illərdə bölmə əməkdaşlarının 12 monoqrafiyası – «Azərbaycan əhalisi: öyrənilməsi və qaynaqları» (2004); «Demoqrafiya» Ensiklopedik lüğət (2001); «Türkmənçay-1828» (2006) (K.K.Şükürov); «Rusiya imperiyasının Şimali Azərbaycanda köçürmə siyasəti» (1999) (H.Y.Verdiyeva), «Azərbaycan tatlarının ailə məişəti və mənəvi mədəniyyəti» (2005) (N.H.Quliyeva); «Şimal-Qərbi Azərbaycan: İlisu sultanlığı» (1999) (E.M.Lətifova), «Şimal-Qərbi Azərbaycan (tarixi-demoqrafik araşdırma)» (1999), «Şimal-Qərbi Azərbaycanın əhali tarixi və tarixi-demoqrafiyası (XIX əsrin əvvəlləri – 70-ci illəri)» (2002) (Z.Ə.Cavadova); «Quba xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat)» (2004) (S.Ə.İbişov); «Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat)» (2006) (N.Ə.Quliyev); "Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər)" (2007) (İ.F.Kazımov); «Car-Balakən camaatlığı (XVII əsrin sonu –

XIX əsrin 30-cu illəri)» (A.Ə.Məmmədova) (2009) və s., dərslik, proqram, 200-dən artıq elmi məqaləsi çap olunmuşdur. H.Y.Verdiyeva, N.H.Quliyeva, G.T.Novruzova, A.Ə.Məmmədova və S.Z.Quliyevanın xarici ölkələrdə məqalə və tezisləri çap edilmişdir.

Tarixi-demoqrafiya sahəsində aparılan tədqiqatların ictimaiyyətə çatdırılması məqsədilə 1997-ci il dekabrın 30-da Azərbaycan Respublikası Prezidentinin İcra aparatı ilə birlikdə ölkədə ilk dəfə olaraq «Dünya azərbaycanlıları: demoqrafik proseslər, müasirlik» mövzusunda elmi-praktik konfrans keçirilmişdir.

Qeyd edək ki, bölmə əməkdaşları müntəzəm olaraq beynəlxalq və respublika səviyyəli elmi konfranslarda araşdırmalarının nəticələrini ictimaiyyətə təqdim edirlər. Onlar Azərbaycan xalqının Ümummilli lideri H.Ə.Əliyevin anadan olmasının 80 və 85 illik yubileyləri münasibətilə respublikada və BDU-da keçirilmiş elmi konfranslarda da fəal iştirak etmişlər. H.Ə.Əliyevin məzunu olduğu Tarix fakültəsində bu konfranslar daha yüksək səviyyədə təşkil edilmiş, tələbə, magistr, aspirantların və professor-müəllim heyətinin ayrıca keçirilmiş konfranslarında dinlənilmiş məruzələr çap olunmuşdur. Həmin konfranslarda bölmə əməkdaşlarından H.Y.Verdiyeva, H.O.Əhmədov, U.M.Paşayeva, G.T.Novruzova, Ş.F.Fərəcov, A.Ə.Məmmədova, A.A.Hacıyev, S.Z.Quliyeva, Leyla Vaqif qızının təqdim etdikləri məruzələr maraqla qarşılanmış, S.Z.Quliyevanın məruzəsi YAP Gənclər təşkilatı tərəfindən I yerə layiq görülmüşdür.

2009-cu ildə Bakı Dövlət Universitetinin və Tarix fakültəsinin 90 illik yubileyləri münasibətilə keçirilən konfranslarda da bölmə əməkdaşlarının (H.Y.Verdiyeva, N.H.Quliyeva, U.M.Paşayeva, Ş.F.Fərəcov, G.T.Novruzova, A.A.Hacıyev, A.Ə.Məmmədova, S.Z.Quliyeva, Leyla Vaqifqızı) məruzələri dinlənilmişdir.

Bunlarla yanaşı, bölmədə ayrı-ayrı tədqiqat mövzuları ilə bağlı vaxtaşırı elmi seminarlar ("İrəvan quberniyasında rus məskənləri (XIX-XX əsrin əvvəllərində)" (2002, aparıcı elmi işçi H.Y.Verdiyeva), "1950-70-ci illərdə Qərbi Azərbaycanda (Ermənistan SSR) azərbaycanlıların demoqrafik vəziyyətinə dair" (2002, elmi işçi Ş.F.Fərəcov), "Car-Balakən camaatlığında çarizmin xristianlaşdırma siyasəti" (2002, aspirant A.Ə.Məmmədova), Cənubi Qafqaz əhalisinin antropologiyası (2002, baş müəllim K.H.Məmmədov), "1920-1930-cu illərdə Azərbaycan SSR-də milli ziyalı kadrların say dinamikası" (2002, kiçik elmi işçi H.O.Əhmədov) "Azərbaycan, Ermənistan və Gürcüstan respublikalarında qaçqınların hüquqlarına dair qanunvericilik sənədlərinin müqayisəli təhlili" (2006, böyük elmi işçi U.M.Paşayeva); "Qarabağa tarixi baxış: əsaslar və dəlillər" (2007, aparıcı elmi işçi t.e.d.H.Y.Verdiyeva) və s.) da keçirilir. Belə seminarlar tədqiqatçıların araşdırmalarının nəticələrini birlikdə müzakirə etməyə imkan verir.

Beləliklə, yuxarıda göstərilənlərin nəticəsi kimi demək olar ki, «Azərbaycanşünaslıq» Elmi Tədqiqat Mərkəzinin «Dünya azərbaycanlıları: tarixi

demoqrafiya» bölməsi 20 il ərzində tarixi-demoqrafik tədqiqatların aparılmasında və eyni adlı məktəbin formalaşmasında mühüm rol oynamışdır və bu gün də öz missiyasını yerinə yetirir.

*   *
*

2003 və 2004-cü illərdə aparıcı elmi işçi K.K.Şükürovun təşəbbüsü ilə bölmənin «Dünya azərbaycanlıları: tarix və müasirlik» adlı elmi-nəzəri toplusu nəşr olunmuşdur.

Toplunun elmi ictimaiyyətə təqdim edilən III buraxılışı Bakı Dövlət Universiteti və Tarix fakültəsinin 90 illik, «Dünya azərbaycanlıları: tarixi demoqrafiya» bölməsinin 20 illik yubileyinə həsr olunur. I bölmədə qurumumuzun tarixi və elmi fəaliyyəti, dünya azərbaycanlılarının öyrənilməsi məsələləri əks olunur. Toplunun II bölməsi oxucuları bölmədə plan işləri üzrə aparılan tədqiqatların nəticələri ilə tanış etmək məqsədi daşıyır. Bölmə əməkdaşlarının, aspirant və dissertantlar, həmçinin Tarix fakültəsinin əməkdaşlarının topluya təqdim etdikləri məqalələr III bölmədə "XVIII-XX əsrlərdə Azərbaycanın ərazisi və əhalisi", IV bölmədə isə "Ümumi tarix məsələləri" başlıqları altında toplanmışdır.

Bölmə əməkdaşları ilə birlikdə toplunun hazırlanmasında iştirak edən hər kəsə öz dərin minnətdarlığımızı bildiririk.

# DÜNYA AZƏRBAYCANLILARININ ÖYRƏNİLMƏSİ: STRUKTUR YANAŞMA*

*K.K.ŞÜKÜROV*
Tarix elmləri doktoru

1991-ci il dekabrın 16-da Naxçıvan MR Ali Məclisi həmin ayın 31-ni Dünya azərbaycanlılarının həmrəylik günü elan edilməsi haqqında qərar qəbul etmişdi. Müvafiq təklif respublika parlamenti tərəfindən dekabrın 25-də təsdiq olunmuşdu. 2001-ci il noyabrın 9-10-da Dünya azərbaycanlılarının I qurultayı (Bakı) keçirilmişdi. Xaricdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət komitəsi yaradılmışdı və s.

Bu faktlardan aydın olur ki, Azərbaycanın ictimai-siyasi həyatında yeni bir hərəkat, yeni bir baxış və dövlət siyasətinin yeni bir istiqaməti meydana gəlmişdi. Bütün bunlar ictimai fikrin diqqətindən kənarda qala bilməz.

Adətən olduğu kimi bu halda da problemi bütün reallığı ilə dərk edib, hərtərəfli öyrənmək və müvafiq elmi-təcrübi nəticələr çıxarmaq əvəzinə tələsiklik, pərakəndəlik, məsələnin ayrı-ayrı istiqamətlərində təcridlilik və i.a. mənfi meyllər özünü büruzə vermişdir. İrəliləmək və yeni nailiyyətlər əldə etmək üçün bu mənfi meyllər tezliklə aradan qaldırılmalı və onun əvəzinə daim zənginləşdirilməli olan bir konsepsiya qoyulmalıdır.

İlk əvvəl «Dünya azərbaycanlıları»nın elmi anlayışı müəyyənləşdirilməlidir. Bunun üçün onun məzmunu və mahiyyəti aydın dərk olunmalıdır. Məzmunu etibarı ilə onu belə ifadə etmək olar: Dünya azərbaycanlıları = Azərbaycan Respublikasında yaşayan azərbaycanlılar + xaricdə yaşayan azərbaycanlılar. Tarixi-coğrafi ərazisi ilə siyasi sərhədləri üst-üstə düşən və titul xalqının adı bir mənalı olan xalqlar üçün bu formulanın həlli elə bir çətinlik törətmir. Azərbaycan Respublikası Dünya azərbaycanlılarının yeganə dövləti olmaqla onun tarixi-coğrafi ərazisinin bir hissəsini əhatə edir və anlayışın özəyinə çevrilir.

«Azərbaycanlı» anlayışının məzmun mürəkkəbliyi də bu formulaya təsir göstərir (Bəzən «azərbaycanlı» əvəzinə Azərbaycan türkü anlayışı da istifadə olunur. Bu daha çox elmi-publisistik janr üçün xarakterikdir. Burada, əsasən, rəsmi qaynaqlar üzrə təhlil aparılır). Məlumdur ki, bu anlayış həm konkret etnos, həm də coğrafi mənsubiyyəti bildirir. Lakin diqqətlə nəzərdən keçirilsə bu iki sifətin bir anlayışda ifadə olunması burada uğurlu

---

* Məqalə aktuallığını qoruduğu üçün yubiley nömrəsində yenidən nəşr olunur (Dünya azərbaycanlıları: tarix və müasirlik. I Buraxılış. Bakı, 2003, s.7-11).

hesab oluna bilər. «Dünya azərbaycanlıları» anlayışı qayəsi etibarı ilə parçalanmanı deyil, birliyi ifadə edir. Bu birlikdə təkcə etnik azərbaycanlı deyil, Azərbaycanın bütün milli azlıqları, ümumən Azərbaycanın ona sədaqəti olan hər bir qeyri-azərbaycanlı vətəndaşı milli eqoizmdən uzaq olsa, özünü keyfiyyətcə yeni bir tamın tərkib hissəsi kimi hiss edə bilər.

«Xaricdə yaşayan azərbaycanlılar» həm «Dünya azərbaycanlıları»nın tərkib hissəsi, həm də müstəqil bir məcmu kimi çıxış edir. Yenə də təkrar etmək lazımdır ki, adi halda bu anlayış heç bir problem yaratmır. Azərbaycan gerçəkliyində isə onun strukturunun aydınlaşdırılması zərurəti ortaya çıxır. Bir az sadə şəkildə onu belə ifadə etmək olar: **Xaricdə yaşayan azərbaycanlılar = Azərbaycan Respublikası sərhədlərindən kənarda qalan Azərbaycanın tarixi-coğrafi ərazisində yaşayan azərbaycanlılar + keçmiş sovet məkanındakı (MDB ölkələri) azərbaycanlılar + planetin digər ölkələrindəki azərbaycanlılar.** «Xaricdə yaşayan azərbaycanlılar» anlayışı altında bu differensiyanın nəzərə alınmaması xarakterik səhvlərdəndir. Belə ki, bu anlayış altında Gürcüstan azərbaycanlıları ilə tutaq ki, İsveçdə yaşayan azərbaycanlıları eyniləşdirmək elmi-metodoloji cəhətdən düzgün olmaz, çünki Borçalı orada yaşayan azərbaycanlıların dədə-baba torpağıdır. Bu halda «Dünya azərbaycanlıları» mahiyyəti etibarı ilə Azərbaycanın arzu olunan milli ideologiyasının əsaslarından biri kimi irəli çıxır. Tarixi-coğrafi ərazisi parçalanmış və böyük bir hissəsi qonşu dövlətlərin tərkibində qalmış torpaqlara Azərbaycan dövlət səviyyəsində heç bir iddia irəli sürmür. Lakin həmin torpaqlarda yaşayan azərbaycanlılar Dünya azərbaycanlılarının tərkib hissəsi kimi Azərbaycan dövlətinin siyasi və mənəvi dəstəyinə malikdir. Belə olduqda, siyasi sərhədlərə baxmayaraq tarixi-coğrafi ərazinin etnik mənsubiyyətini qorumaq mümkündür. Ermənistanın Qərbi Azərbaycan torpaqlarını azərbaycanlısızlaşdırmaq siyasətinin mahiyyəti də aydın olur. «Dünya azərbaycanlıları» ideologiyası siyasi iradəyə əsaslandıqda heç olmasa digər qonşu dövlətlərdəki azərbaycanlıların tarixi taleyini belə sınaq qarşısında qoymağa imkan vermir.

Keçmiş sovet məkanında MDB ölkələrində yaşayan azərbaycanlılarla planetin digər ölkələrində yaşayan azərbaycanlıların mövqeyindəki fərqləri də görməmək olmaz. Ona görə də onları mexaniki şəkildə birləşdirmək düzgün deyil.

Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların və xaricdə yaşayan azərbaycanlıların bir ümumi toplum – Dünya azərbaycanlıları kimi dərk edilməsi həmin üzvi hissələr arasında dialektik əlaqəni ehtiva edir. Məsələn, Azərbaycan Respublikasında yaşayan hər bir azərbaycanlı potensial olaraq xaricdə yaşayan azərbaycanlıya çevrilə bilər və ya əksinə. Bu baxımdan xaricdə yaşayan azərbaycanlılarla iş dedikdə, potensial imkanlar da qiymətləndirilməlidir. Ölkənin daxilində yaşayan azərbaycanlının bu məsələlərdən daha çox xəbərdar olması onun xaricdə yaşayan azərbaycanlıya çevrilməsi şəraitində fəaliyyət istiqamətinin müəyyənləşdirilməsini asanlaşdıra bilər və i.a.

«Dünya azərbaycanlıları» formulası və buradan irəli gələn elmi-nəzəri mühakimələr onun öyrənilməsinə konseptual baxışın əsasını təşkil edir. Müasir elmi inkişaf səviyyəsi də araşdırmanın predmet prinsipindən problem prinsipinə keçməsini irəli sürür. Burada ayrı-ayrı ölkə və xalqların həyatından analogiyalar axtarmaq, qanunauyğunluqlar tapmaq da olar. Bunları inkar etmədən orijinal yanaşma yollarını tapmağa daha böyük ehtiyac vardır.

Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların problemləri və s. Azərbaycan Respublikasının müstəsna səlahiyyətindədir. Xaricdə yaşayan azərbaycanlıların qayğı və problemləri isə onların yaşadığı dövlətlərə uyğun olaraq ümumi siyasətdən irəli gələn konkret münasibətlə tənzimlənə bilər. Xaricdə yaşayan azərbaycanlılardan bəhs olunduqda yol verilən anlaşılmazlıqdan biri onun diaspora ilə eyniləşdirilməsidir. Yuxarıda qeyd olunduğu kimi xaricdə yaşayan azərbaycanlıların əksər hissəsi Azərbaycan Respublikasının siyasi sərhədlərindən kənarda qalan tarixi Azərbaycan torpaqlarında yaşayır. Diaspora isə miqrasiya ilə bağlıdır. Bu anlayış MDB məkanında və planetin digər ölkələrində miqrasiya yolu ilə məskunlaşmış azərbaycanlılara şamil edilməlidir. Beləliklə, Dünya azərbaycanlılarının öyrənilməsində yeni bir istiqamət ayrılır.

Azərbaycanlıların xarici ölkələrə miqrasiyasının coğrafi mənbələrini Azərbaycan Respublikası və onun sərhədlərindən kənarda qalan tarixi Azərbaycan torpaqlarının tərkibinə daxil olduğu ölkələr (azərbaycanlılar həmin ölkənin öz daxilində də diaspora yarada bilər) təşkil edir. Belə bir vəziyyətdə miqrasiya rəftarı həlledici yerə keçir. Məhz o, miqrasiyanın istiqamətini və i.a. vacib məsələləri müəyyən edir. Buna görə də hər hansı ölkədə meydana gəlmiş diasporun coğrafi mənbələri müxtəlif ola bilər. Əsas məsələ bu faktorun rolu və onun özünü göstərə biləcək mənfi təsirinin aşkar edilməsi, yaxud bu faktorun daha tez aradan qaldırıldığı diaspora modelinin müəyyənləşdirilməsi və tətbiq olunmasıdır. Diasporanın dinamikada öyrənilməsi, onun inkişaf səviyyəsinin göstəricilər toplusu aşkar edilməlidir.

Diaspora formalaşdığı dövlətin və onun xalqının müəyyən keyfiyyətlərini özündə əks etdirdiyi kimi, nüfuzlu bir qüvvəyə çevrildikdə yaşadığı mühitdə də öz izini qoya bilər.

Diaspora-Vətən və Vətən-diaspora münasibəti də maraq doğurur.

Göründüyü kimi Dünya azərbaycanlıları, onun anlayışından tutmuş ən adi problemlərinədək kompleks şəkildə öyrənildikdə düzgün dərk edilə bilər. Bu isə bir sıra elmlərin birgə əməkdaşlığı nəticəsində mümkündür. Yalnız bu zəmində əldə olunan obyektiv biliklər doğru-düzgün siyasət hazırlanmasına, onun reallaşdırılmasına imkan verər.

# II BÖLMƏ. PLAN İŞİ ÜZRƏ BAŞA ÇATDIRILMIŞ TƏDQİQATLAR

## XIX–XX əsrlərdə Şimali Azərbaycanda demoqrafik vəziyyət

### QUBA XANLIĞININ ƏHALİSİ*

**Xanlığın yaranması, ərazisi və sərhədləri.** Quba xanlığı XVII əsrin sonu – XVIII əsrin birinci yarısında Azərbaycan ərazisində baş verən ictimai-siyasi və iqtisadi proseslərin nəticəsində yaranmışdır. Xanlığın mərkəzi Xudat şəhəri olmuşdur. Mərkəz Surxay xan və Hacı Davudun başçılığı ilə üsyançılar tərəfindən dağıdıldıqdan sonra 1748-ci ildə Quba şəhərinə köçürülmüşdür.

Tarixi qaynaqlarda Quba xanlığının hüdudları haqqında dəqiq məlumatlar saxlanılmışdır. Xanlıq şimalda Dərbənd və Qazıkumuk hakimliyi, Samur çayı, cənubda Şirvanla, şərqdə Xəzər dənizi, qərbdə Şəki xanlığı ilə həmsərhəddir. Fətəli xanın hakimiyyəti illərində isə Şimal-Şərqi Azərbaycan xanlıqları (Dərbənd, Şamaxı, Bakı, Cavad xanlıqları) Quba xanlığının ətrafında birləşdirilmişdir. Bu ərazilər Şimali Azərbaycan ərazilərinin demək olar ki, yarısını əhatə edirdi.

Tarixdən məlum olduğu kimi, Fətəli xanın ölümü ilə eyni vaxtda onun yaratdığı Şimal-Şərqi Azərbaycan dövləti də parçalanmağa başlayır. Qeyd etmək lazımdır ki, XVIII əsrin sonu – XIX əsrin birinci otuzilliyi təkcə Quba xanlığının deyil, ümumiyyətlə Azərbaycan xanlıqlarının bir dövlət qurumu kimi zəifləməsi Rusiya dövləti tərəfindən işğal olunduğu tarixi mərhələdir. XIX əsrin birinci rübündə Azərbaycan ərazisində Rusiya-İran və xanlıqlar arasında gedən müharibələr də bu zəifləməyə səbəb olmuşdur.

Rusiya işğallarına qarşı əhalinin müqavimət hərəkatı bir neçə mərhələdə davam etmişdir. Şeyx Əli xanın başçılıq etdiyi müqavimət hərəkatının da nəticəsi olmur və Quba xanlığında işğal rejimi daha da möhkəmlənir, əyalət komendant tərəfindən idarə olunmağa başlayır.

Bütün bu hadisələr Quba xanlığının əhali tarixinə ciddi təsir göstərmiş bu və ya digər dərəcədə onun bütün problemlərində müəyyən iz qoymuşdur.

---

* Mövzu 1999 və 2001-ci illərin elmi hesabatları, bölmənin aspirantı olmuş t.e.n.S.Ə.İbişovun "Quba xanlığının əhalisi" monoqrafiyası əsasında hazırlanıb.

**Əhalinin say dinamikası və yerləşməsi.** Quba xanlığının siyasi və sosial-iqtisadi tarixi əsas götürülməklə əhalinin say dinamikasının öyrənilməsində aşağıdakı mərhələləri ayırmaq olar:

1) XVII əsrin sonları – XVIII əsrin ortaları, yəni, Quba xanlığının yaranmasından onun ərazisinin genişləndirilib Şimal-Şərqi Azərbaycan dövləti qurulmasınadək; 2) Şimal-Şərqi Azərbaycan dövlətinin əhalisi – XVIII əsrin ortaları – 80-ci illəri; 3) Şimal-Şərqi Azərbaycan dövlətinin dağılmasından Rusiya işğalınadək, yəni XVIII əsrin 90-cı illəri – 1810-cu il. Qeyd etmək lazımdır ki, burada və sonrakı problemlərin öyrənilməsində böyük əhəmiyyəti nəzərə alınaraq 1831-ci il kameral təsvirinin materiallarına geniş yer verilir.

İlk mərhələ haqqında məlumat azdır. Tarixi qaynaqların göstərdiyinə görə XVIII əsrin ortalarında Quba xanlığında 100 kənd və 2.600 həyət olmuşdur.

Quba xanlığı əhalisinin say dinamikasının öyrənilməsinin ikinci mərhələsinə gəldikdə, burada materiallar olmadığından dolayı məlumatlardan istifadə etmək lazım gəlmişdir.

İlk dəfə Quba xanlığının hakimiyyəti altında olan və ondan asılı vəziyyətdəki torpaqlarda yaşayan əhalinin ümumi sayını hesablamış prof.H.Abdullayev Fətəli xandan asılı vəziyyətdə olan Salyan, Qəbələ, Talış xanlığının əhalisini çıxmaqla qalan əhalinin ümumi sayını 345.764 nəfər göstərmişdir.

1 saylı cədvəldə birləşdirilmiş və asılı vəziyyətə salınmış torpaqlarla birlikdə Quba xanlığının əhalisi göstərilmişdir. Cədvəldən göründüyü kimi Fətəli xanın dövründə Quba xanlığının əhalisi birləşdirilmiş və asılı vəziyyətə salınmış torpaqların əhalisi ilə birlikdə təqribən (Talış xanlığını çıxmaqla) 250.858 nəfər olmuşdur. Əhalinin say miqdarının hesablanmasında əsasən 1796-cı və 1798-ci ilə dair mənbələrdən istifadə olunub. Hər ailə 6 nəfər hesabı ilə götürülmüşdür. Göstərilən əhalinin 139.858 nəfəri Fətəli xanın hakimiyyəti altında olan Şimal-Şərqi Azərbaycan dövlətinin payına düşürdü.

Cədvəl 1

Birləşdirilmiş və asılı vəziyyətə salınmış torpaqlarla birlikdə Quba xanlığının əhalisi (1757-1789)

| Torpaqlar | Quba xanlığına tabe olduğu dövr | ərazisi, kv.v. | əhalisi (nəfərlə) |
|---|---|---|---|
| 1. Quba xanlığının özü | --- | 10.500 | 50.550 |
| 2. Quba xanlığına birləşdirilmiş torpaqlar; o cümlədən | | | |
| - Salyan | 1757-1789 (+32) | --- | 6.000 |
| - Dərbənd xanlığı | 1759-1796 (+37) | 680 | 19.380 |
| - Bakı xanlığı | 1767-1789 (+22) | 3.500 | 12.000 |
| - Şamaxı xanlığı | 1768-1789 (+21) | 14.500 | 32.928 |
| - Samur camaatlığı | --- | | 10.000 |

| | | | |
|---|---|---|---|
| - Cavad xanlığı | 1768-1789 (+21) | | 9.000 |
| 3. Asılı torpaqlar | | | |
| - Talış | 1783-1789 (+6) | 5.000 | --- |
| - Şəki | 1786-1789 (+3) | 9.000 | 90.000 |
| - Cənubi Tabasaran | 1786-1789 (+3) | ---- | 21.000 |
| | | 43.18 | 250.858 |

**Qeyd:** Əhalinin say miqdarının hesablanmasında əsasən 1796-cı və 1798-ci illərə dair mənbələrdən istifadə edilib. Ümumiyyətlə, əhalinin sayına dair göstəricilər müxtəlif mənbələr, iqtisadi-təsvir xarakterli materiallar əsasında hesablandığından fərqli rəqəmlər əldə olunub.

Fətəli xanın birləşdirdiyi Şimal-Şərqi Azərbaycan torpaqları əhalisinin tarixi-demoqrafik vəziyyəti araşdırıldığından XVIII əsrin 60-90-cı illərində Quba xanlığından yarımasılı və tam asılı xanlıqların əhali tarixi də nəzərdən keçirilir.

1) Quba xanlığı

Fətəli xanın ölümündən sonra Şimal-Şərqi Azərbaycan dövləti dağılır. Bu dövrdə Quba xanlığına birləşdirilmiş və ondan asılı olan torpaqlar ayrılır. Yalnız Dərbənd xanlığı Quba xanlığına tabe olmaqda davam edirdi. Üçüncü mərhələdə əhaliyə dair əsas məlumatlar 1796-cı ilə aiddir. Fətəli xanın ölümündən 7 il sonra Rusiya qoşunlarının Azərbaycana hərbi müdaxiləsi ilə əlaqədar olaraq tərtib olunmuş "tarixi təsvirlərdə" Quba xanlığı əhalisinin ümumi demoqrafik vəziyyəti haqqında geniş məlumat verilir. P.Q.Butkov, İ.T.Drenyakin, A.Q.Serebrov, F.F.Simonoviç Cənubi Dağıstanın təsvirinə dair tarixi qeydlərində əhalinin ailələr üzrə ümumi say tərkibini, mahallar üzrə bölgüsünü, həmçinin Quba xanlığındakı kəndlərin siyahısına dair məlumatlar verilmişdir. Qeyd etmək lazımdır ki, yuxarıdakı müəlliflərin Quba xanlığı əhalisinin ümumi sayı haqqındakı məlumatları təxminən oxşardır. Lakin, Simonoviç digər rus zabitlərindən fərqli olaraq həm də, xanlıqda mövcud olan kəndlərin adbaad siyahısını tərtib etmişdir. Problemi daha dərin tədqiq etmək məqsədilə F.F.Simonoviçin Quba xanlığı əhalisinin mahallar və kəndlər üzrə yerləşməsinə dair məlumatlarının əksər hissəsi 2 saylı cədvəldə qruplaşdırılmışdır. Mənbədə, Xınalıq və Buduq mahallarında yerləşən kəndlərin siyahısı Dağıstan adı altında verilir. Göstərilən cədvəldə 1796-cı ilə dair statistik məlumatlar əsasında əhalinin kəndlər və mahallar üzrə yerləşməsi, şəhər əhalisinin ümumi sayı öz əksini tapmışdır.

Tarixi mənbələrdən məlum olur ki, 1796-cı ildə Quba xanlığının 288 kəndində və Quba şəhərində olan 2.000 ailə (V.Zubovun raportlarının birində həmin dövrdə Quba şəhərində 2.000 ailə yaşadığı göstərilir) ilə ümumilikdə 8.425 ailə yaşamışdır. Hər bir ailəni 6 nəfər götürsək, 1796-cı ildə Quba xanlığında 50.550 nəfər adam yaşadığı məlum olur.

1796-cı il məlumatlarında Quba xanlığında 6.364 həyəti özündə birləşdirən 245 kəndin olduğunu və orada 23.147 nəfər kişi cinsli əhali yaşadığını qeyd edən P.Q.Butkov, 1798-ci ilə dair qeydlərində göstərir ki, "Quba əyalətində 266 kənd və orada hər ailəyə 3 nəfər kişi cinsli əhali düşməklə 23.147 nəfər əhali yaşamışdır". Göründüyü kimi sonralar Rusiyanın məşhur hərb tarixçisi kimi tanınmış P.Q.Butkov 1796-cı il məlumatlarında müəyyən dəqiqləşdirmələr etmişdir. Beləliklə, hər bir ailədə yaşayan kişilərin sayına bərabər qadın götürsək (23.147x2=46.294) XVIII əsrin sonunda Quba xanlığında təxminən 46.294 nəfər əhali yaşadığı bilinər. Yuxarıdakı rəqəm göstəriciləri statistik tədbirin nəticəsi olmadığı üçün nisbi qəbul olunmalıdır.

XIX əsrin başlanğıcı üçün Quba xanlığı əhalisinin ümumi say tərkibini, mahallar üzrə əhalinin bölgüsünü öyrənmək baxımından S.Bronevskinin 1807-ci ilə aid olunan məlumatları necə əldə etdiyi haqqında yazırdı: "İndiyə kimi Qafqazın heç bir yerində həyətlərin sayı, sakinlərin siyahıya alınması aparılmamışdır. Biz Qafqaz ölkəsinin əhalisi haqqında bütün yazılı və şifahi məlumatları toplayıb onların əsasında nisbətən dəqiq cədvəlin tərtib olunmasına cəhd göstərmişik". 1796-cı və 1807-ci ilə dair mənbələrdə Quba xanlığında yaşayan əhalinin ümumi sayı və mahallar üzrə bölgüsünə dair rəqəm göstəriciləri 2 saylı cədvəldə sistemləşdirilmişdir.

Cədvəl 2

Quba xanlığı əhalisinin ümumi sayı və mahallar üzrə yerləşməsi (XVIII əsrin sonu və XIX əsrin əvvəlləri)

| İllər | Mahallar | Kəndlərin sayı | Həyətlərin ümumi sayı | Şəhər əhalisi | Kişi cinsli əhali | Ümumi əhali |
|---|---|---|---|---|---|---|
| 1796 | Buduq və Xınalıq | 18 | 950 | | | |
| 1796 | Quba mahalı | 99 | 2.200 | 2.000 | | |
| 1796 | Müşkür | 31 | 470 | | | |
| 1796 | Şabran | 67 | 1.190 | | | |
| 1796 | Rustov | 29 | 675 | | | |
| 1796 | Sədan | 20 | 340 | | | |
| 1796 | Bərmək | 24 | 600 | | | |
| Nəticə | 7 mahal | 288 | 6.425 | 2.000 | | |
| 1807 | Buduq | 12 | 375 | | | |
| 1807 | Xınalıq | 4 | 610 | | 23.147 | 46.000 |
| 1807 | Quba mahalı | 88 | 3.813 | 2.000 | | |
| 1807 | Müşkür | 18 | 273 | | | |
| 1807 | Şabran | 68 | 1.335 | | | |
| 1807 | Rustov | 22 | 422 | | | |
| 1807 | Sədan | 5 | 112 | | | |
| 1807 | Bərmək | 22 | 603 | | | |
| Nəticə | 8 mahal | 245 | 7.964 | 2.000 | 23.147 | 46.000 |

2 saylı cədvəldən göründüyü kimi XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Quba xanlığı əhalisinin mahallar üzrə paylanmasında müəyyən dəyişikliklər olsa da, ümumi demoqrafik vəziyyətindən elə bir ciddi dəyişiklik yoxdur.

Quba xanlığının əhali tarixinə dair tarixi qaynaqların araşdırılması müəyyən elmi nəticələr əldə etməyə imkan verir. Belə ki, Quba xanlığının siyasi və sosial-iqtisadi vəziyyətində baş verən dəyişikliklər bilavasitə əhalinin demoqrafik durumuna təsir göstərən amil kimi izlənilir. XVIII əsrin I yarısında müəyyən demoqrafik dəyişikliklərə məruz qalan əhali, XVIII əsrin II yarısında yüksələn xətlə inkişaf etməyə başlayır. Bu dövrdə əhalinin say dinamikasında nəzərəçarpacaq dəyişikliklər baş verir. Fətəli xanın hakimiyyət başına gəlməsi və Quba xanlığının siyasi qüdrətinin artması əhalinin yerləşməsində və say dinamikasında güclü dəyişikliklərə səbəb oldu. Quba xanlığı ətrafında Salyan, Dərbənd, Bakı, Cavad, Şamaxı xanlıqlarının birləşdirilməsi xanlığın inzibati ərazi baxımından genişlənməsi ilə yanaşı, əhalinin artımına da müsbət təsir göstərmişdir. Beləliklə, XVIII əsrin 60-80-ci illərdə Fətəli xanın Azərbaycan xanlıqlarını birləşdirmə siyasəti Quba xanlığının əhali tarixində mühüm rol oynamışdır.

Göstərilən dövrdə birləşdirilmiş və asılı vəziyyətə salınmış torpaqlarla birgə Quba xanlığının əhalisi təqribən 250.858 nəfər olmuşdur. Bu əhalinin 139.858 nəfəri bilavasitə Fətəli xanın hakimiyyəti altında olan Şimal-Şərqi Azərbaycan dövlətinin payına düşürdü. Əhalinin ümumi say miqdarı ilə bağlı hesablamalar 1796-cı ilə dair məlumatlar əsasında aparılmışdır. Bu rəqəmləri nisbi qəbul etmək lazımdır, belə ki, yerli demoqrafik qaynaq olmadığından, xanlıqlar dövründə əhalinin siyahıyaalınması keçirilmədiyindən Fətəli xan tərəfindən birləşdirilmiş torpaqlarda yaşayan əhalinin dəqiq sayını müəyyənləşdirmək qeyri mümkündür. Lakin, buna baxmayaraq tarixi materialın verdiyi imkan daxilində, əhalinin say dinamikasındakı əsas mərhələlər aydınlaşdırılmışdır. Fətəli xanın ölümündən (1789) sonrakı dövr Quba xanlığı əhalisinin say dinamikasında xüsusi mərhələni təşkil edir. Fətəli xanın ölümündən sonrakı 17 il (1789-1806) Quba xanlığının Şimal-Şərqi Azərbaycan xanlıqları sistemində siyasi mərkəz statusunu itirdiyi bir dövr olduğu üçün, xanlığın inzibati-siyasi baxımdan parçalanması əhalinin vəziyyətinə də təsir göstərdi. Qaynaqlar Quba xanlığı əhalisinin XVIII əsrin sonunda Fətəli xanın dövrünə nisbətən xeyli azaldığını təsdiqləyir. Həmin dövrdə xanlıq ərazisində Quba şəhəri ilə birlikdə 8 mahalda təxminən 8.425 həyət cəmləşmişdi. XVIII əsrin son onilliyində Quba xanlarına tabe olan xanlıqların müstəqillik qazanması, digərlərinin isə separatçılıq meylləri xanlığın tərkibində olan mükəlləfiyyətli əhalinin sayının azalmasına səbəb olmuşdu. Əhalinin azalması, mənbələrin göstərdiyi kimi xanın qoşunlarının sayının və kəndlərin sayının azalmasında bir daha nəzərə çarpırdı. Tarixi qaynaqlar Fətəli xanın ordusunun ayrı-ayrı dövrlərdə 25.000, 40.000 göstərirsə, Şeyx Əli xanın hakimiyyət dövrünə dair qaynaqda bildirilir ki, Şeyx Əli xan döyüşə ən çoxu atlı və piyadalardan ibarət 5.000 qoşun çıxara bilər.

1796-cı ilə dair məlumatlarda Quba xanlığındakı kəndlərin sayı həmin dövr üçün 245 və ya 288 göstərildiyi halda, qeyd olunan mənbələrdə Fətəli xanın dövründə Quba xanlığında təkcə 400-ə yaxın kiçik kəndin yerləşdiyi vurğulanır.

2) Şamaxı xanlığı

XVIII əsrdə Azərbaycanın siyasi xəritəsində mühüm yer tutmuş və tarixi Şirvan ərazisində meydana gələn xanlıqlardan biri də Şamaxı xanlığı olmuşdur.

Şamaxı xanlığı Şimal-Şərqdə Quba xanlığı, Şərqdə Bakı xanlığı, Şimal-Qərbdə Şəki xanlığı, Cənub-Qərbdən isə Qarabağ xanlığı və Kür çayı ilə əhatə olunmuşdu.

Xanlıqdakı ümumi tarixi demoqrafik durumu öyrənmək üçün, Şamaxı xanlığının əhali tarixinə dair məlumatlar şərti olaraq iki qrupa (xronoloji dövr və elmi səviyyə baxımından) bölünüb. Belə bir bölgü digər xanlıqlara da aiddir.

Xanlıqlar dövrünün nüfuzlu tədqiqatçısı H.Abdullayev göstərir ki, 1796-cı il məlumatlarına görə Şamaxı xanlığında 144.000 nəfər adam yaşayırdı.

Şamaxı xanı Mustafa xanın 1820-ci ildə İrana qaçmasından sonra xana məxsus əmlakın müsadirə olunması məqsədi ilə aparılan Şirvan əyalətinin təsviri Şamaxı xanlığının əhali tarixini öyrənmək üçün əhəmiyyətli qaynaqdır. 1820-ci ildə tərtib olunan həmin tarixi sənədə əsasən xanlığın əhalisinin ümumi durumu 3 saylı cədvəldə sistemləşdirilmişdir.

Cədvəl 3

Şamaxı xanlığında əhalinin mahallar üzrə yerləşməsi
(1820-ci il göstəricilərinə görə)

| s/n | Mahallar | Kəndlərin sayı | Vergi ödəyən ailələrin sayı | Vergi ödəməyən ailələrin sayı |
|---|---|---|---|---|
| 1. | Qobustan | 27 | 946 | 230 |
| 2. | Həsən | 20 | 271 | 143 |
| 3. | Houz | 39 | 480 | 161 |
| 4. | Elat | 22 | 885 | 131 |
| 5. | Sərdəri | 46 | 813 | 396 |
| 6. | Nəvahi | 3 | 90 | 38 |
| 7. | Qarabağlar | 8 | 64 | 38 |
| 8. | Qarasubasar | 11 | 457 | 360 |
| 9. | Lahıc | 6 | 306 | 68 |
| 10. | Balakənd | 10 | 248 | 55 |
| 11. | Xasayurd | 9 | 100 | 55 |
| 12. | Əgərat | 7 | 105 | 58 |
| 13. | Qoşun | 32 | 730 | 268 |
| 14. | Xançoban | 46 | 1085 | 473 |
| 15. | Salyan | 25 | 1400 | * |

| | | | | |
|---|---|---|---|---|
| 16. | Rudbar | 18 | 324 | 98 |
| 17. | Muğan | --- | 300 | 100 |
| Cəmi | | 328 | 8.604 | 2.672 |

* mənbədə məlumat yoxdur.

Cədvəldən göründüyü kimi 1820-ci ildə Şamaxı xanlığında 17 mahal, 328 kənd olmuşdur. Sənəddə vergi ödəyən sosial qrupların say miqdarı 8.604 ailə, vergi ödəməyənlərin sayı isə 2.672 ailə göstərilir.

1831-ci il kameral təsvirinə görə Şirvan əyalətində 22.922 ev və ya ailə sayılmışdır. Bu ailələrdə 69.627 nəfər kişi cinsli əhali qeydiyyatdan keçmişdir. Əhali köhnə Şamaxı şəhəri də daxil olmaqla, Salyan və 387 kənd üzrə 389 icmada yerləşmişdi. Əyalətdə kameral təsvirlərin nəticəsinə görə hər bir kv. verstə 4,8 nəfər adam düşürdü. Şirvan əyaləti inzibati ərazi baxımından Şamaxı xanlığının hüdudlarına uyğun gəldiyindən əyalətdə qeydə alınmış 22.922 ailənin hər birinin orta hesabla 6 nəfər olduğunu götürsək, onda əyalətdə ümumi əhalinin 137.532 nəfər olduğunu qəbul edə bilərik.

Şamaxı xanlığının siyasi mərkəzi sayılan Şamaxı şəhəri əhalisinin ümumi vəziyyətinə nəzər salaq. Əvvəla, qeyd etmək lazımdır ki, araşdırılan dövrdə qədim Şamaxı şəhəri tənəzzül dövrünü yaşayırdı. XVIII əsrin son illərinə aid olunan tarixi qaynaqlarda Şamaxı şəhəri əhalisinin 710-780 evdən ibarət olması göstərilir. Bu göstərici əvvəlki tarixi dövrlərə nisbətən xeyli aşağı idi.

3) Dərbənd xanlığı

Dərbənd xanlığı Quba xanlığına birləşdiriləndən Rusiya işğalına qədər (1806-cı il) Quba xanlığının ayrılmaz tərkib hissəsi olmuşdur. Azərbaycanın qədim şəhərlərindən sayılan Dərbənd şəhəri eyni adlı xanlığın mərkəzi idi. Dərbənd şəhəri Quba xanlarının əsas siyasi iqamətgahı sayılır, həm də Quba xanlığı ilə etnik-mədəni və iqtisadi-siyasi baxımdan sıx bağlılıq təşkil edirdi.

XIX əsrin başlanğıcına dair əhalinin ümumi say miqdarına dair mənbələr də təxminən 1796-cı il məlumatlarını təkrar edir. S.Bronevski əsərində göstərir ki, 1796-cı ildə Dərbənd şəhərini rus qoşunları tutanda əhalinin 2.189 evdən ibarət olduğu məlum olub. Arxiv sənədlərində Dərbənd şəhəri və ətraf kəndləri əhalisinin ümumi say tərkibi haqqında məlumat saxlanılmışdır. 1813-cü ilə dair qaynaqda göstərilir ki, Dərbənd şəhərində 1.522 ev var idi və orada yaşayan kişi cinsli əhalinin sayı 4.175 nəfərdən ibarət olmuşdur. Həmin tarixi sənəddə kəndlərdə yaşayan əhalinin sayı 284 ailə göstərilir. Bir az əvvəlki tarixi dövrə aid (1811-ci il) qaynaqda isə Dərbənddəki əhalinin 790 ailədən ibarət olduğu, hər iki cinsdən olan əhalinin isə 4.740 nəfər olduğu göstərilir. 1811-ci ilə dair olan göstəricini qeyri-ciddi qəbul etmək olar. Çünki Quba xanlığının əhalisi də həmin sənəddə 12.813 ailə, ümumi sayı isə 76.878 nəfər, yəni 1810-cu il göstəricilərinə nisbətən təxminən 2 dəfə çox göstərilmişdir.

1831-ci il kameral təsvirlərinə görə Dərbənd şəhəri Sabnova kəndi ilə birlikdə 1.795 evi və 5.139 kişi cinsli əhalini özündə birləşdirirdi. 1796, 1807, 1811, 1813 və 1832-ci illərdə, həmçinin XIX əsrin ortalarına dair olan rəqəm göstəricilərinə əsasən, həmin dövrdə Dərbənd şəhərində və xanlığında əhalinin say dinamikasını izləmək olar. Həmin qaynaqlarda əksəriyyət etibarı ilə əhalinin ümumi sayı kişi cinsli 5.735 nəfər, qadın 6.297, ümumilikdə 12.052 nəfər qeyd olunur, diqqət verilsə əhalinin artıb azalmasındakı vəziyyət aydın olar.

4) Bakı xanlığı

Quba xanlığından asılı dövrdə Bakı xanlığının əhalisinin tarixi-demoqrafik vəziyyətinin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Bakı xanlığı əhalisinin ümumi say tərkibi haqqında XVIII əsrin sonu - XIX əsrin əvvəllərinə dair müəyyən məlumatlar toplanmışdır.

Bakı xanlığı Quba xanlığına birləşdirildikdən sonra 1806-cı ilə qədər, yəni Rusiya işğalı altına düşənə qədər Quba xanlarından asılı olmuşdur. Xanlığın əhalisi isə Dərbənd, Quba, Şamaxı, Cavad, Salyan xanlıqlarının əhalisi ilə birgə Fətəli xan dövlətinin himayəsi altında olmuşdur.

XVIII əsrin son dövrlərinə dair qaynaqlarda Bakı xanlığında eyni vaxtda 1.410 həyət olduğu göstərilir. Mənbədə ermənilər yaşayan evlərin sayı – 40 ev göstərilir. Digər bir mənbəyə görə Bakı şəhərində 620 həyət, ətrafında olan 34 kənddə 850 həyət, Maştağa qəsəbəsində isə 350 həyət var idi. Bakı qalası Hüseynqulu xanın idarəsi altında idi.

Bakı xanlığı əhalisinin dinamikasını öyrənmək üçün, əhalinin ümumi sayındakı dəyişikliklərə nəzər salaq. XIX əsrin birinci rübündə Bakı xanlığının əhalisi sürətlə artmağa başlayır. 1813-cü il 30 aprel tarixli məlumatda Bakı şəhərində ətrafı ilə birlikdə 1.892 nəfər, 37 kənddə isə 4.602 nəfər kişi cinsli əhalinin yaşadığı göstərilmişdir. Ümumi əhalinin sayı isə 6.494 kişi cinsli əhalidən ibarət olmuşdur. Həmin tarixi sənədin əhalinin şəhər və kəndlər üzrə yerləşməsini öyrənmək baxımından lazımlı mənbə olduğunu nəzərə alaraq burada veririk.

Bakı xanlığındakı əhalinin sosial qruplar üzrə bölgüsünü müəyyənləşdirmək üçün sonrakı dövrlərə dair göstəricilərlə müqayisə məqsədilə 1816-cı il sənədi çox böyük elmi əhəmiyyət kəsb edir. Kameral təsvirlərin yekun sənədinə görə Bakı qalasında şəhər ətrafı ilə birlikdə 1.358 ailə, 40 kənddə isə 3.454 ailə yaşamışdır. Ümumi göstəricidə 4.812 evdə 15.428 nəfər kişi cinsli əhali yaşayırdı. Qadınların sayının kişilərlə eyni olduğunu nəzərə alsaq onda Bakı əyalətində, o dövrdə 30.856 nəfər əhali yaşadığını qəbul edə bilərik.

Bakı şəhəri və xanlığın əhalisinin artımı Quba və Şamaxı xanlıqlarının, həmçinin Muğan əhalisinin miqrasiyası hesabına xeyli artmışdı. Bakı şəhəri əhalisinin kəndlər və şəhər üzrə yerləşməsi, həmçinin ümumi sayı 1813-cü il məlumatları əsasında 4 saylı cədvəldə verilib.

Cədvəl 4

Bakı şəhəri və ətraf kəndlərin əhalisinin ümumi sayı

| s.n | Bakı qalası və ətraf kəndləri | əhalinin sayı (nəfərlə) |
|---|---|---|
| 1 | Bakı qalası | 1.892 |
| 1 | Güzdək | 70 |
| 2 | Hökməli | 145 |
| 3 | Qobu | 135 |
| 4 | Xırdalan | 92 |
| 5 | Xocasən | * |
| 6 | Biləcəri | 112 |
| 7 | Saray | 183 |
| 8 | Masazır | 73 |
| 9 | Novxanı | 202 |
| 10 | Corat | 88 |
| 11 | Fatmai | 177 |
| 12 | Binəqədi | 138 |
| 13 | Digah | 91 |
| 14 | Məhəmmədbəyli | 68 |
| 15 | Qaragilə | 25 |
| 16 | Kürdəxanı | 86 |
| 17 | Pirşağı | 98 |
| 18 | Buzovna | 263 |
| 19 | Şagan | 51 |
| 20 | Mərdəkan | 94 |
| 21 | Zığ | 71 |
| 22 | Əmircan | 216 |
| 23 | Ramana | 80 |
| 24 | Balaxanı | 286 |
| 25 | Qulu Məhəmməd | 71 |
| 26 | Maştağa | 582 |
| 27 | Bilgəh | 93 |
| 28 | Nardaran | 139 |
| 29 | Zirə | 94 |
| 30 | Suraxanı | 90 |
| 31 | Qala | 332 |
| 32 | Türkan | 32 |
| 33 | Hövsan | 64 |
| 34 | Bulduklu | 33 |
| 35 | Zabrat | 38 |
| 36 | Sabunçu | 50 |
| 37 | Keşlə | 56 |
| Cəmi | | 4602 |

* mənbədə məlumat yoxdur.

Bakı kəndlərində 4.602 nəfər, Bakı qalasında isə 1.892 nəfər əhali yaşadığını nəzərə alsaq onda ümumilikdə əyalətdə 1813-cü ildə 6.494 nəfər kişi cinsli əhali yaşadığı məlum olar. Kişi cinsli əhalini qadınlarla bərabər sayda götürsək 6.494x2=12.988 rəqəmini əldə etmiş olarıq.

**Əhalinin tərkibi.** Quba xanlığının əhali tarixinə dair qaynaqların öyrənilməsi Quba xanlığı əhalisinin tərkibinə dair elmi ümumiləşdirmələr aparmağa imkan yaratmışdır. Əhalinin sosial-zümrə, etnik, yaş-cins tərkibinin öyrənilməsi Quba xanlığının əhali tarixinin əsas tədqiqat obyektlərindəndir. Xanlıq əhalisinin yaş-cins strukturunun öyrənilməsi bu istiqamətdə xüsusi elmi yanaşma tələb etmişdir. Tarixi demoqrafik araşdırma üçün əhalinin yaş-cins strukturunun öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Lakin təəssüflə qeyd etmək lazımdır ki, xanlıqlar dövrü üçün belə qaynaq demək olar ki, yoxdur. Bu boşluğu aradan qaldırmaq məqsədilə 1831-ci il kameral təsvirin materiallarına müraciət etmək lazım gəldi.

Quba əhalisinin **sosial** mənzərəsi ayrı-ayrı zümrələrin cəmiyyətdəki rolları, hüquqi vəziyyəti və vəzifələri xanlıqlar dövrünün araşdırıcılarının nəzər diqqətindən kənarda qalmamışdır. Tarixi sənədlərdə, eləcə də Azərbaycan və rus tarixşünaslığında Quba xanlığının əhalisinin sosial silki strukturu barədə kifayət qədər geniş məlumatlar toplanmışdır. Lakin, Quba xanlığının əhali tarixi mövcud tarixşünaslıqda konkret tədqiqat obyektinin mövzusu olmadığından bu məsələ tarixi-demoqrafik baxımdan öyrənilməmişdir. Azərbaycanın tarixi-demoqrafiyası ilə bağlı bəzi nəşrlərdə isə Quba xanlığı əhalisinin sosial təbəqələrinə dair demoqrafik say göstəricilərində isə ziddiyyətli rəqəmlərə rast gəlirik.

Əhalinin sosial-silki strukturuna tarixi-demoqrafik baxımdan yanaşmazdan öncə, xanlığın əhalisinin sosial tərkibinə nəzər salaq. Xanlığın əhalisinin sosial bazasına daxil olan ictimai təbəqələri ayrı-ayrılıqda nəzərdən keçirdikdə məlum olur ki, əhalinin sosial nərdivanının yüksək pilləsində cəmiyyətdəki mövqelərinə, hüquq və vəzifələrinə görə Quba bəyləri dayanırdılar. Araşdırdığımız dövrdə bəylər Azərbaycan xanlıqlarının hamısında ali-imtiyazlı silki təşkil edirdilər. Bu zümrəyə xanların özü və ailə üzvləri, qohumları, sultanlar və onların varisləri, məliklər daxil idilər. Əhalinin sosial tərkibi barədə məlumatlar 5 saylı cədvəldə verilmişdir.

Cədvəl 5

Quba əyaləti əhalisinin sosial tərkibi, 1810-cu il (mahallar üzrə)

| s\n | mahallar | Verqi verməyənlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Bəylər | Axundlar | Seyidlər | Mollalar | Yüzbaşılar | Kəndxudalar | Nökərlər | yasavullar |
| 1. | Bərmək | 23 | 6 | 17 | 12 | 7 | 10 | 83 | - |
| 2. | Şabran | 20 | 10 | 11 | 16 | 5 | 190 | 202 | 17 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 3. | Şəşpər | 5 | 22 | 11 | 12 | 3 | 12 | 147 | 7 |
| 4. | Müşkür | 10 | - | - | 8 | 4 | 12 | 54 | 3 |
| 5. | Tip | 12 | 9 | 4 | 18 | - | 22 | 156 | 18 |
| 6. | Xınalıq | 1 | 5 | - | 6 | 5 | - | 19 | - |
| 7. | Buduq | 3 | 4 | 30 | 8 | - | 5 | 32 | 2 |
| 8. | Yuxarı Baş | 1 | 6 | | 10 | 15 | - | 7 | - |
| 9. | Sırt | 1 | - | - | 15 | | 20 | 10 | 1 |
| 10. | Ənik-Dərə | - | 1 | - | 7 | - | 8 | 10 | - |
| | Cəmi | 76 | 63 | 73 | 112 | 39 | 99 | 720 | 48 |

Cədvəl 5 (davamı)

| s\n | mahallar | həyətlərin sayı | | |
|---|---|---|---|---|
| | | vergi verməyən | vergi verən | ümumi |
| 1. | Bərmək | 158 | 382 | 540 |
| 2. | Şabran | 292 | 440 | 732 |
| 3. | Şəşpər | 221 | 419 | 640 |
| 4. | Müşkür | 91 | 185 | 272 |
| 5. | Tip | 239 | 391 | 630 |
| 6. | Xınalıq | 36 | 604 | 640 |
| 7. | Buduq | 85 | 438 | 523 |
| 8. | Yuxarı Baş | 39 | 599 | 638 |
| 9. | Sırt | 47 | 437 | 484 |
| 10. | Ənik-Dərə | 26 | 135 | 161 |
| 11. | Quba şəhəri | 310 | | 310 |
| 12. | Kulqat | - | 124 | 124 |
| | Cəmi | 1544 | 4154 | 5698 |

Bakı əhalisinin sosial tərkibinə dair məlumatlar 6 saylı cədvəldə verilib.

Cədvəl 6

Bakı əyaləti əhalisinin sosial tərkibi (ailələr üzrə)

| Bakı əyaləti üzrə | 1816-ci il | | 1832-ci il | |
|---|---|---|---|---|
| | Evlərin sayı | Kişilər (nəfərlə) | Evlərin sayı | Kişilər (nəfərlə) |
| Bəylər | 56 | | 86 | 303 |
| Ruhanilər | 120 | | 101 | 299 |
| Kəndlilər | 2.487 | 7.362 | 4.625 | 14.826 |
| Cəmi | 2.663 | 7.362 | 4.812 | 15.428 |

Bakı əyalətinin əhalisi müsəlman xalqlarına xas olan ierarxiyaya – bəylərə, ruhanilərə və kəndlilərə bölünürdü. Tarixi sənədlərdə kəndlilər zümrəsi, həmçinin tacirlər və sənətkarlar bir yerdə göstərilir.

XVIII əsrin ortalarında Azərbaycanda yaranmış xanlıqlar arasında Quba xanlığı əhalisinin **etnik tərkibi** tərkibinə nəzər saldıqda məlum olur ki, bu xanlıq polietnik dövlət qurumlarından biri olmuşdur. Burada, tarixin sınağından

birgə çıxmış bir sıra xalqlar: azəri türkləri, qafqazdilli xalqlar (ləzgilər, xınalıqlar, buduqlar, qrızlar və s.), tatlar, yəhudilər və sonralar bura köçürülmüş ermənilər birgə yaşayırdı. Əvvəlki tarixi mərhələdə olduğu kimi, Azərbaycanın bu bölgəsində araşdırılan dövrdə də əhalinin böyük əksəriyyəti azəri türklərindən ibarət idi.

Tarixi qaynaqların göstərdiyi kimi, mənşə müxtəlifliyi əhalinin dilində, fiziki görünüşündə, hətta mənəvi keyfiyyətində də öz əksini tapırdı.

Öyrənilən dövrə dair demoqrafik mənbələrdə Quba xanlığı əhalisinin sayı konfessional baxımdan göstərilmişdir. Quba xanlığında yaşayan türk, ləzgi, tatların sayı müsəlman olduqları üçün birlikdə verilirdi.

Göründüyü kimi, Quba xanı təbəələrin hamısına müdrik hökmdar gözüylə baxır, ayrı-seçkiliyə yol vermirdi. Tədqiqat prosesində, maraqlı bir faktla üzləşdik. XVIII əsrin sonu və XIX əsrin əvvəllərinə dair bir çox rus müəlliflərinin əsərlərində, həmçinin statistik tədbirlərin konfessional baxımdan həyata keçirilməsində Rusiyanın Qafqazda yürütdüyü ("parçala və hökmranlıq et" prinsipi altında) müstəmləkəçilik siyasətinin ideoloji tərəflərini görürük. Göstərilən dövrə dair demoqrafik sənədlərdə əhalinin milli-dini tərkibinin statistik baxımdan öyrənilməsi nəticə etibarilə işğalçılıq planının reallaşmasına xidmət etməli idi.

Mənbələrin təhlili Quba xanlığı ərazisində yaşayan ermənilərin XVIII əsrdə bu əraziyə köçürüldüyünü isbat edir. Onların az bir qismi isə tarixi təkamül prosesində qriqoriyanlaşıb erməniləşən tatlardan ibarət olmuşdur. Rusiya işğalı Quba xanlığı əhalisinin tərkibinə mənfi təsir göstərən faktor rolunu oynamışdır.

Şamaxı xanlığında da başqa etnik qruplar yaşayırdı. Tat, ləzgi, erməni, yəhudi və qaraçıların Şamaxı xanlığı ərazisində yaşaması haqqında mənbələrdə məlumat saxlanılıb. 1831-ci il kameral təsvirin nəticələrinə görə azəri türkləri 62.934 nəfər (kişi cinsli əhalinin sayı ilə), ermənilər 6.375 nəfər, yəhudilər 332 nəfər, qaraçılar 200 ailə göstərilir. Kameral təsvirlərdə əhalinin tərkibi konfessional baxımdan öyrənildiyindən müsəlman olan digər etnik qruplar da siyahıda azəri türklərilə birlikdə verilib. Ləzgilər, əsasən dağlıq ərazidə yaşayır, onların da sayı müsəlman əhalisi ilə birlikdə qeyd olunub. Ərəblər də həmçinin həmin ümumi siyahıda verilir. Kameral təsvirlərə görə 1831-ci ildə Köhnə Şamaxı şəhərində 1.889 ev, mənbədə tatar evi, 4.711 nəfər kişi cinsi, o cümlədən 225 ev erməni (541 nəfər kişi, 527 nəfər qadın) göstərilmişdir.

Erməni əhalisinin Şamaxı xanlığında belə sürətli artımı miqrasiyalar nəticəsində ola bilərdi. Onların böyük əksəriyyəti Ağa Məhəmməd şah Qacarın Qarabağ xanlığına hücumu dövründə Qarabağ məlikliklərindən gəlmiş, əsrlər boyu erməniləşmiş albanlar idi.

Dərbənd şəhəri əhalisinin etnik tərkibinə dair 1813-cü il məlumatları 7 saylı cədvəldə sistemləşdirilib.

Cədvəl 7

Dərbənd şəhəri və ətraf kəndlərdə olan əhalinin etnik tərkibi və ümumi sayı (1813-cü il 1 may məlumatlarına görə)

| Əhalinin etnik tərkibi | Evlərin sayı | Kişi əhalinin sayı (nəfərlə) |
|---|---|---|
| Dərbənd şəhəri | 1.810 | |
| Müsəlmanlar* | 1.435 | 3.953 |
| Yəhudilər | 59 | 166 |
| Ermənilər | 28 | 56 |
| Cəmi | 1.522 | 4.175 |

* Öyrənilən dövrün statistik sənədlərində əhalinin etnik tərkibi konfessional baxımdan verilirdi. Tüklər, ləzgilər və digər xalqlar ümumi olaraq müsəlman kimi göstərilirdi.

Əhalinin milli tərkibi haqqındakı qaynaqlarda türklər, tatarlar, erməni və yəhudilərin adı çəkilir. Şəhər əhalisi arasında türkmənlər, farslar, yəhudi və ermənilər var. Ümumilikdə, 130 ailə erməni və 50 ailəyə qədər yəhudi var.

Ümumiyyətlə, XIX əsrin əvvəllərində Quba xanlığı əhalisinin tarixi-demoqrafik durumunda baş verən bir çox dəyişikliklər, bilavasitə Quba xanlığının Rusiya işğalı altına düşməsi ilə bağlıdır. General Bulqakovun başçılığı altında rus qoşunlarının Quba şəhərini (1806-cı ilin sentyabrında) tutması ilə eyni vaxtda Quba xanlığının süqutu başlanır. Rus qoşunlarının şəhərə yaxınlaşmasını bilən Quba xanı Şeyx Əli xan demək olar ki, şəhər əhalisinin hamısını xanlığın dağlıq mahallarına köçürür. Şəhərdə demoqrafik boşluq yaranır və gələcək 1806–1810-cu il Quba üsyanı üçün zəmin hazırlanır.

Quba xanlığının işğalı nəticəsində Şeyx Əli xanın başçılığı altında xanlıq əhalisinin böyük əksəriyyətinin iştirak etdiyi Quba üsyanı başlanır. İşğal prosesi, xanlıq əhalisinin demoqrafik durumunda kəskin dəyişiklik yaratmışdır. Belə ki, 1807-ci ildə Quba xanlığının mahallarında 7.964 həyət qeydə alınmışdısa, 1810-cu ildə rus məmurlarının həyata keçirdiyi statistik tədbirin yekun sənədinə görə Quba xanlığı ərazisində 5.698 həyət qeydə alınmışdır. Xanlığın inzibati-siyasi mərkəzi sayılan Quba şəhəri isə daha böyük tənəzzülə uğramışdı.

Belə ki, əgər 1807-ci ildə Quba şəhəri üzrə 2.000 həyət qeydə alınmışdısa, 1810-cu ildə şəhər üzrə cəmisi 310 həyət qeydə alınmışdır. Əhalinin demoqrafik durumunda əmələ gələn dəyişiklik göz qabağındadır. 1810-cu il Quba üsyanı dövründə şəhər əhalisinin evlərində Sevastopol polkunun iki hərbi hissəsi – 1.600 nəfərə qədər şəxsi heyət yerləşdirilmişdi. Mənbələrin təhlili 1810-cu il Quba üsyanındakı məğlubiyyətin əhalinin demoqrafik durumuna mənfi təsir göstərən faktor kimi nəzərdən keçirməyə imkan verir. 1810-cu il Quba üsyanı yatırıldıqdan sonra Şeyx Əli xanın tərəfdarlarına amansız divan tutuldu. Təəssüflər olsun ki, 1806-1810-cu il Quba üsyanı dövründə öldürülən, sürgün olunan və digər repressiyalara məruz qalan Quba sakinlərinin dəqiq sayı məlum deyil. Rusiya işğalı əhalinin demoqrafik vəziyyətinə kəskin təsir göstərmişdir. XVIII əsrin II yarısında qısa tarixi dövr ərzində adı dillər

əzbəri olmuş Quba şəhəri Rusiya işğalı dövründə tənəzzülə uğramışdı. XIX əsrin ortalarına dair mənbədə Quba şəhəri belə təsvir olunurdu: 1840-cı ilə qədər şəhər bərbad vəziyyətdə olub, ensiz əyri küçələr, keçilməz palçıqlar Quba şəhərinə dağıdılmış, kasıb kənd görünüşü verirdi. Həmin dövrdə Quba şəhərində olmuş məşhur rus səyahətçisi İ.Berezin Quba şəhərinin kasıblığını xüsusi vurğulamış, şəhər əhalisinin halına acıdığını qeyd etmişdi.

Arxiv sənədlərinin araşdırılması 1826-cı il Quba iğtişaşları ilə 1810-cu il Quba üsyanı arasında olan varislik əlaqəsini sübut edir.

İnqilabaqədərki rus qafqazşünaslarının əsərlərində və sovet dövrü tarixşünaslığında sonuncu Quba xanı Şeyx Əli xanı adətən fərasətsiz, yelbeyin və yaxud İranın agenti kimi qələmə vermişlər. Lakin, Şeyx Əli xan haqqında olan tarixi məlumatların müqayisəli təhlili onun müəyyən çatışmazlıqlarına baxmayaraq, xeyli müsbət keyfiyyətlərə də malik olduğunu isbat edir. Şeyx Əli xan ömrünün sonuna qədər əqidəsindən dönmədən Rusiya işğalına qarşı mübarizə aparmışdır. 1810-cu il Quba üsyanının tarixinin öyrənilməsi Qafqaz xalqlarının həmrəyliyini isbat edir. Şeyx Əli xanın qoşunlarının tərkibində akuşenlər, tabasaranlılar, darginlər, ləzgilər rus qoşunlarına qarşı çiyin-çiyinə vuruşmuşlar. Tarixi qaynaqlarda göstərilir ki, Dağıstanın bütün camaatlıqları və hakimləri – Aslan xan Kürinli və Tarku Şamxalını çıxmaqla rus qoşunlarına qarşı silah qaldırmışdılar.

Qeyd etmək lazımdır ki, Azərbaycan tarixşünaslığında Quba əyaləti əhalisinin Rusiyaya qarşı 1826-cı il və 1837-ci il tarixli üsyanları ilə bağlı araşdırmalar aparılıb kifayət qədər məlumat toplansa da bilavasitə Quba xanlığının işğalı dövründə geniş vüsət alan 1806-1810-cu il üsyanı haqqında ötəri, bəzən isə hətta qərəzli bəhs olunmuşdur.

Halbuki, 1810-cu il Quba üsyanının daha dərindən öyrənilməsi, bu hadisənin Rusiya işğalı dövründə xanlıq əhalisinin demoqrafik mənzərəsində yaranan dəyişkənliyi aşkar etməyə, Vətən tarixində olan bu boşluğu aradan qaldırmağa imkan verir. Quba üsyanının səbəbi, xarakteri, gedişi və Şeyx Əli xanın siyasi fəaliyyəti ilə bağlı faktları təhlil edərək, belə nəticəyə gəlmək olur ki, Şeyx Əli xanın 1811-ci ildə Quba xanlığını ruslardan azad etmək mücadiləsi baş tutmur və Quba xanlığında işğal rejimi daha da möhkəmlənir.

**Əhalinin miqrasiyası.** Quba xanlığının əhali tarixində miqrasiyalar da mühüm rol oynamışdır. Hüseyn Əli xanın (1722–1758) ölümü ilə Fətəli xanın hakimiyyət başına keçməsi və siyasi sabitliyin bərqərar olmasından sonra xanlığın ərazisinə əhalinin güclü miqrasiyası müşahidə olunur. Öyrənilən dövrdə Quba xanlığı ərazisində Fətəli xanın icazəsi ilə məskunlaşmış əhalinin bir qismi Cənubi Azərbaycandan gəlmişdi. Qonşu xanlıqlardan, həmçinin Cənubi Azərbaycanın Muğan, Ərdəbil, Gilan və digər bölgələrindən müəyyən əhali kütləri könüllü olaraq Quba xanlığının təbii-coğrafi baxımdan əlverişli bərəkətli torpaqlarına köçüb məskunlaşdılar. Quba xanlığı ərazisində əhalinin mexaniki artımının daha bir mənbəyi Fətəli xanın Qarabağ, Şamaxı xanlıqları ilə hərbi-siyasi toqquşmalar zamanı ordunun tutduğu ərazilərin əhalisini öz xanlığının

münbit torpaqlarına köçürməsi ilə bağlıdır. Bu qəbilədən köçürülən əhalinin sayı azlıq təşkil edir. Gəlmə əhalinin əsas qismi Müşkür, Şabran, Bəmək mahallarında məskunlaşmışdılar. Azərbaycanın cənub xanlıqlarından gəlmiş əhali arasında şahsevənlər üstünlük təşkil edirdilər. Onlar Quba xanlığı ərazisində Bayandurlu, Xarmandalı, Ustaclı, Ləman, Qaradağlı, Qəbəli və s. kəndlərin əsasını qoymuşdular.

Tarixi Azərbaycan məkanında meydana gəlmiş xanlıqlar arasında sabit sərhəd mövcud olmamışdır. Quba xanlığının güclənməsi ilə paralel olaraq əhalinin bu əraziyə axınını daxili miqrasiyalara aid etmək və xanlıqlar dövrü üçün qanunauyğun hal hesab etmək lazımdır. Ümumi dil, etno-mədəni və psixoloji köklərlə möhkəm bağlılıq təşkil edən Azərbaycan xanlıqları əhalisinin daha güclü və möhkəm mərkəzləşdirilmiş dövlət qurumuna ehtiyacı var idi. Fətəli xan dövlətinin ərazisinə əhalinin daimi axını bununla izah olunur. Beləliklə, Quba xanlığına digər xanlıqlardan əhalinin miqrasiyası, hərbi-siyasi və iqtisadi məqsədlər üçün həyata keçirilən köçürülmə, bütövlükdə xanlığın əhalisinin demoqrafik durumunda mühüm rol oynamış gələcəkdə Fətəli xanın Şimal-Şərqi Azərbaycan torpaqlarını birləşdirməsinə öz təsirini göstərmişdi.

Fətəli xanın birləşdirdiyi Azərbaycan xanlıqları sistemində fəal əhali hərəkəti mövcud olmuşdur. Xanlıqlar dövründə siyasi pərakəndəlik güclü sərhəd məhdudiyyəti ilə müşayiət olunmayıb. Tarixi Şirvan ərazisində XVIII əsrdə təşəkkül tapan Quba və Şamaxı xanlıqları arasındakı siyasi müstəvidə olan ədavət əhali əlaqələrinin inkişafına mane olsa da dərin tarixi kökə söykənən əlaqələr bu dövrdə də davam etmişdir.

Şamaxı xanlığının Dilmanlı, Hacımanlı, Baskal, Çağan, Köçəri Xəlilli, Təlabi, Kalva, Sor-Sor, Nügədi, Xan-Əli, Tircan və bir çox kəndlərinin əhalisinin müəyyən hissəsi Quba xanlığından gəlmişdilər. Qeyd etmək lazımdır ki, 1768-ci il iyun ayında Şamaxı xanlığının Quba xanlığına birləşdirilməsi Fətəli xan tərəfindən Şimal-Şərqi Azərbaycan torpaqlarının bir bayraq altında toplanması prosesində həlledici rol oynamışdır. Fətəli xan Şamaxı xanlığının inzibati siyasi mərkəzi sayılan Köhnə Şamaxı şəhərini öz dövlətinin mərkəzinə çevirmək niyyətində idi. O, bu məqsədlə özünə sosial-siyasi dayaq yaratmaq üçün Quba, Dərbənd, Salyan, Niyazoba əhalisindən 1.000 həyətin Şamaxı şəhərinə köçürülməsini planlaşdırır, lakin bu ailələrin böyük əksəriyyətinin göstərilən yerə köçməsinə baxmayaraq Şamaxı xanlarının inadkar mübarizəsi nəticəsində Şimal-Şərqi Azərbaycan dövlətinin mərkəzinin Köhnə Şamaxıya köçürülməsi planı baş tutmur. Fətəli xana qarşı hərbi müxalifət təşkil edən Qarabağ xanlığı, Kartli-Kaxetiya çarlığı və Avar xanlığının kəskin müqaviməti də paytaxtın Şamaxıya köçürülməməsində öz rolunu oynamışdı. Akademik Samuel Qotlib Qmelin yazır ki, Fətəli xanın Şamaxıya gəlib getməsini heç kim hiss etmirdi, o həddindən artıq ehtiyat edirdi.

Mənbələrin müqayisəli təhlili xanlıqlar dövründə əhali köçürtmələrinin bir sıra xüsusiyyətlərini göstərməyə imkan verir. Köçürülmə tədbirləri sadə xalq kütlələrinə ağır başa gəlsə də, onlar yeni yaşayış yerlərində repressiya ilə

üzləşmirdilər. Bir xanın təbəəliyindən çıxıb, digər xanın hakimiyyətini qəbul edən əhali üçün yaşayış yerləri ayrılır və onlar müvəqqəti olaraq vergilərdən azad olunurdular. Mənbələrdə bu haqda faktiki sənədlər qalmışdır. 1820-ci ildə Şamaxı əyaləti əhalisinin təsvirinə dair statistik sənəddə Şamaxı xanlığına Quba və Qarabağ xanlıqlarından gəlmə əhali vergi və mükəlləfiyyətdən azad olmuş sosial təbəqələr siyahısında verilmişdir.

Beləliklə, XVIII əsrin sonu - XIX əsrin birinci rübünə aid demoqrafik məlumat əsasında Fətəli xanın birləşdirdiyi Azərbaycan xanlıqları sistemində Şamaxı xanlığının əhali payını (çəkisini) nisbətən müəyyən edə bilərik. XIX əsrin əvvəllərinə dair demoqrafik mənbələri XVIII əsrin son dövrlərində tərtib olunmuş rəqəm göstəriciləri ilə müqayisə etdikdə Şamaxı xanlığında yaşayan əhalinin etnik tərkibi ilə əlaqədar olaraq təzadlı nəticələr əldə olunur. Erməni əhalisinin Şamaxı xanlığında belə sürətli artımı miqrasiyalar nəticəsində ola bilərdi.

Quba xanlığının Dərbənd xanlığı ilə qarşılıqlı əhali hərəkətlərinin öyrənilməsi bu iki xanlığın bütövlükdə Quba-Dərbənd xanlığı kimi adlandırılması üçün əsas vermişdir. Tarixşünaslıqda çox vaxt Quba xanlığı Quba-Dərbənd xanlığının sinonimi kimi işlənilməsi bu xanlıqlar arasında ümumi tarixi köklərə söykənən əhali hərəkətləri ilə bir daha təsdiqlənir. Dərbənd şəhəri Quba xanlarının əsas siyasi iqamətgahı sayılmış, həm də bu şəhərlər etnik-mədəni və iqtisadi baxımdan sıx bağlılıq təşkil etmişdir.

Quba xanlığının əhali tarixinə, həmçinin digər qonşu xanlıqların (Şamaxı, Dərbənd, Bakı) tarixi demoqrafiyası ilə bağlı demoqrafik mənbələrin öyrənilməsi onların xarakterik xüsusiyyətlərini müəyyənləşdirməyə imkan vermişdir. Statistik tədbirlərdə əhalinin tərkibi imtiyazlı və qeyri-imtiyazlı və ya vergi və mükəlləfiyyət daşıyan və vergi ödəməyən əhali qrupları üzrə öyrənilmişdir. Statistik tədbirlərin konfessional tərkibi də nəzərə alınmışdır. Səfəvi-Osmanlı qarşıdurmalarının tarixini, həmçinin 1720-ci il hadisələrinin səbəblərini öyrənən Rusiya hakim dairələri "parçala və hökmranlıq et" ideyasını demoqrafik tədbirlərə də tətbiq edirdi. Əhalinin sünni və şiə tərkibinin də öyrənilməsi Rusiyanın dövlət sənədlərində bu haqda dəqiq məlumat verilir.

Quba xanlığı əhalisinin XVIII əsrin ortalarından 1831-ci ilə qədər ümumi sayının ciddi dəyişikliyə məruz qaldığı 8 saylı cədvəldən aydın görünür.

Cədvəl 8

Quba xanlığının ümumi əhalisi (XVII əsrin sonları – 1831-ci il)

| | XVII əsrin sonu – XVIII əsrin ortaları | XVIII əsrin 50-ci illəri - 1789-cu il | 1796 | 1807 | 1810 | 1831 |
|---|---|---|---|---|---|---|
| Ailələrlə | 2.600 | --- | 8.425 | 9.964 | 5.698 | 17.343 |
| Nəfərlə | 15.600 | 130.858 | 50.550 | 59.784 | 34.632 | 115.137,6 |

Azərbaycan ərazisində mərkəzləşdirilmiş dövlətin dağılması bəzi elat tayfaların miqrasiyasına gətirib çıxartdı ki, yeni müstəqil dövlət qurumları

olan xanlıqlar bu tayfalardan hərbi qüvvə kimi istifadə etməyə başladılar. Eləcə də Fətəli xan köçürtdüyü döyüşkən türk ellərindən hərbi qüvvə kimi istifadə etmək niyyətində idi.

Beləliklə, Quba xanlığı əhalisinin tarixi demoqrafik baxımdan öyrənilməsi böyük əhəmiyyətə malik olub, Azərbaycanın əhali tarixinin dərindən tədqiqinə hərtərəfli kömək göstərir. Quba xanlığının hakimiyyəti altında olan Şimal-Şərqi Azərbaycan xanlıqlarının əhalisi etno-mədəni, tarixi-coğrafi və sosial-iqtisadi baxımdan ümumi inkişaf yolu keçmişdir.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycan Milli Elmlər Akademiyası tarix İnstitutunun elmi arxivi. İş 466, 581, 1795 (2), 1795 (4), 3703, 3561
2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi. f. 24, 47, 75.
3. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
4. Azərbaycan tarixi. (Uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı: Azərbaycan, 1996, 872 s.
5. Azərbaycan tarixi. VII cilddə. III c. Bakı, 1999.
6. Babayev Z.B. Qədim Quba. Bakı, 1996
7. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989
8. Əliyev F.M. XVII əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri. Bakı, 1960
9. Əsədov F. Dərbənd xanlığı (tarixi oçerk). Bakı: Bakı Universiteti, 2004, 94 s.
10. Fərzəlibəyli Ş.F. Quba tarixi Bakı, 2001
11. İbişov S.Ə. Quba xanlığının əhalisi. Bakı, 2004
12. İsgəndər bəy Hacınski. Qubalı Fətəli xan. Bakı, 1959.
13. Mustafayev T.T. XVIII əsrin birinci yarısında Azərbaycanda Rusiyaya meylin güclənməsi. Bakı, 1986
14. Osmanov İ. Quba. Bakı, 1970
15. Şükürov K.K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı: Elm, 2004, 978 s.
16. Şükürov K.K., Cavadova Z. Kameral təsvirlər Şimali Azərbaycanın əhali tarixi və demoqrafiyasına dair qaynaq kimi // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2000, № 4, s. 45-62.
17. Verdiyeva H. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın əhalisi. Bakı, 1993.
18. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı: Elm, 1987, 254 s.
19. Абдуллаев Г.Б. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку: Изд. АН Азерб. ССР, 1965, 621 с.
20. Акты, собранные Кавказской Археографической комиссией тт. I I-VII. Тифлис, 1868-1878
21. Алиев Ф.М. Миссия посланника русского государства А.П.Волынскогов Азербайджане (1716-1718). Баку, Элм, 1979
22. Ахвердов А.И. Описание Дагестана – 1804 г. история, география и этнография Дагестана XVIII-XIX вв. М., 1958.

23. Багиров Ф.Э. Из истории переселенческого движения в Закавказье (Азербайджане) в XIX веке. Изв. АН Азербайджана. Серия истории, философии и права. Баку, Элм, 1994. № 1-4, с. 99-114.
24. Бакиханов А. Гюлистан-и Ирам. Баку: Элм, 1991
25. Бартольд В.В. Место Прикаспийских областей в истории мусульманского мира. Курс лекции прочитанный в 1924 году на восточном факультете АГУ. … Баку, Общество Обследования и Изучения Азербайджана от 22 нября, 1924 года, за № 17, с. 150.
26. Броневский С.М. Новейшие географические и исторические известия о Кавказе. Типография С.Селивановского, Москва, 1823, ч. 2, с. 465.
27. Брук С.И., Кабузан В.М. Этнический состав населения России (1719-1817). Советская этнография, 1980, № 6.5
28. Бутков П.Г. материалы для новой истории Кавказа с 1722 по 1803 г. СПб, ч. 1, Изд. Мператорской АН, 1868.
29. Бутков П.Г. Сведения о кубинском и Дербендском владения – 1798 г. история, география и этнография дагестана XVIII-XIX вв. Москва, Идз.Восточной литературы, 1958, с. 209-212.
30. Валуев П.Н. Фатали хан Кубинский. Баку, Изд. АН ССР – Азербайджанский филиал института истории, 1942, с. 27.
31. Дренякин И.Т. Описание Ширвана 1796 г. История, география иэтнография дагестана XVIII-XIX вв. М., Изд. Восточной литературы, 1958, с. 157-172.
32. Зубов П. Подвиги русских в странах Кавказских с 1800 по 1834 год. Том 1. ч.2, СПб, 1835
33. Ибрагимбейли Х.. Россия и Азербайджан в первой трети XIX века. М., Наука, 1969.
34. История Азерабйджана по документам и публикачиям. Под ред.академика З.М.Бунятова. Баку, Элм, 1990.
35. Кабузан В.М. Изменения размешении населения России в XVIII в – в первой половине XIX в. М., Наука, 1971
36. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку: Изд. АН Азербайджанской ССР, 1948.
37. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку: Элм, 1993
38. Петрушевский И.П. Система русского колониального управления в Азербайджане в I пол. XIX в. // Колониальная политика Российского царизма в Азербайджане. М.-Л., 1936
39. Сборник материалов для описания местностей и племен Кавказа. Вып.46. Махачкала, Изд. Ассоциации Северокавказских Горских краеведческих организации и Дагнаркомпроса, 1929, с. 318
40. Шнитников Ф.А. Описание Кубинской провинции 1832 г. История, география и этнография дагестана XVIII-XIX вв. Москва, 1958,с.330-331.
41. Штукинъ, Дербентъ. Кавказский календар на 1852. Тифлис, 1851. с.316-329.

# DƏRBƏND ƏHALİSİ XIX–XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ*

**Yaranması, ərazisi və inzibati idarəetmə sistemi.** Dərbənd şəhərinin yaranması, onun adı haqqında qaynaqlarda və tədqiqat əsərlərində müxtəlif rəvayətlər və mülahizələr öz əksini tapmışdır. Antik qaynaqlarda Kaspi və ya Alban qapıları, erkən orta əsr alban, erməni və gürcü mənbələrində Çora, Çoqa, Çola, hun qapıları, Bizans mənbələrində Tzor, Tzur, fars qaynaqlarında Daruband, Suriya mənbələrində Toraya qapıları kimi xatırlanan, ərəb müəlliflərinin Bab-əl-Əbvab, türklərin Dəmir qapı, rusların Jeleznıye vorota və s. adlandırdıqları Dərbənd şəhərinin salınması tarixini dəqiq müəyyənləşdirmək mümkün deyildir. Dərbənddə aparılmış arxeoloji qazıntı işləri nəticəsində sübut edilmişdir ki, Dərbənd təpələrində qədim yaşayış məskəni eradan əvvəl IV minilliyin sonu – III minilliyin əvvəllərində meydana gəlmişdir. Bu faktı arxeoloqlar tərəfindən tapılmış daş və tunc baltalar, həmçinin tunc dövrünə aid dulusçuluq məmulatları sənədləşdirir. Lakin Dərbəndin şəhər tipli yaşayış məntəqəsi kimi meydana çıxmasını eradan əvvəl IV–III minilliyə aid yaşayış məskəni ilə bağlamaq doğru olmazdı.

Dərbənd tarixə Qafqaz qapılarında mühüm dayaq məntəqəsi, qala kimi düşdüyü üçün onun şəhər kimi meydana çıxması da burada ilk müdafiə məqsədli tikililərin salınması ilə bağlıdır. Tədqiqatçıların fikrincə, Dərbənd təpələrində müdafiə xarakterli erkən istehkamların yaranması eradan əvvəl VIII-VII əsrlərə aiddir. Bununla belə Dərbənd şəhərinin və istehkamlarının salınması haqqında digər mülahizələri də nəzərdən keçirməyə dəyər.

Bəzi orta əsr mənbələrində, həmçinin Firdovsinin «Şahnamə»sində verilən məlumata əsasən Dərbənd, daha doğrusu Dərbənd təpəsində ucaldılmış qala İran hökmdarı Lehrasp tərəfindən tikilmişdir. Bu rəvayət XIV əsr salnaməçisi Həmdullah Qəzvininin «Nüzhətül qülub» əsərində belə əksini tapmışdır: «Ərəbcə onu fars Səriri, Dərbənd və ya Filan…, türkcə dəmir qapı adlandırırlar. Onu Kəyani Lehrasp tikmiş, onun nəvəsi İsfəndiyar bəy Kiştasf ibn Lehrasp tikintini başa çatdırmışdır».

Dərbəndin İran hökmdarı Lehrasp tərəfindən salınması haqqında ən dolğun rəvayət XIX əsr Dərbənd alimi Mirzə Heydər Vəzirovun «Dərbəndnamə» adlı tarixi salnaməsində öz əksini tapmışdır. Salnamənin məlumatına əsasən, şəhərin Narınqala hissəsi xəzərlərin Azərbaycana basqınlarının

* Mövzu 2007-ci ilin elmi hesabatı və bölmənin dissertantı olmuş A.A.Hacıyevin elmi tədqiqat işi əsasında hazırlanıb.

qarşısını almaq məqsədi ilə Solomonun müasiri Kəyanilər sülaləsindən olan İran hökmdarı Lehrasp tərəfindən ən yüksək, su ilə zəngin və iqlimi təmiz olan yerdə salınmış, bundan 270 il sonra onun nəticəsi İsfəndiyarın oğlu Bəhmən qaladan dəniz sahilinə qədər sədd tikdirmiş, səddin ətrafında İrandan köçürülən ailələri yerləşdirərək onlara Narınqaladakı qarnizona şimal barbarlarına qarşı mübarizədə kömək göstərmək əmrini vermişdi. Mirzə Heydər Vəzirov Narınqalanın e.ə. 733-cü ildə inşa edildiyini göstərmişdir.

Tarixi mənbələrdə və bəzi epik ədəbiyyatda Dərbənd şəhərinin Peşdadilər sülaləsindən olan İran hökmdarı Cəmşidin oğlu Firudin tərəfindən salınması haqqında da rəvayət mövcuddur. Dərbəndin Makedoniyalı İsgəndər tərəfindən salınması haqqında rəvayət orta əsr ədəbiyyatlarında daha geniş yayılmışdır. Lakin tədqiqatçıların əksəriyyəti bu rəvayətin tarixi əsasa malik olmadığını göstərirlər. Belə ki, İsgəndərin yürüşünün iştirakçılarının heç biri, həmçinin antik dünyanın ən mötəbər tarixçiləri olan Strabon, Plutarx, Arrian öz əsərlərində İsgəndərin Qafqaza yürüşü haqqında məlumat verməmişlər. Bununla belə eranın ilk əsrlərində yaşamış bəzi antik müəlliflər, o cümlədən Pompey Troq, Yuli Solin İsgəndərin Qafqazı fəth etməsi və 17 günə 6 min addım uzunluğunda sədd tikdirməsini qələmə almışlar. Qafqaz uğrunda Parfiya-Roma müharibələrinin kəskinləşdiyi dövrdə yaranmış bu fikirlər real tarixi gerçəkliklərdən çox uzaqdır. Orta əsr şərq ədəbiyyatında Dərbənd şəhəri və istehkamlarının Makedoniyalı İsgəndər tərəfindən tikilməsi fikrinin geniş yayılmasına çox ehtimal ki, Qurani-Kərimin 18-ci surəsində əksini tapmış İsgəndər Zülqərneyin Yəcuc-Məcuc xalqına qarşı sədd tikdirməsi rəvayəti böyük təsir göstərmişdir. XII əsr böyük Azərbaycan şairi N.Gəncəvi «İsgəndərnamə» poemasında Dərbənd səddinin tikilməsini belə təsvir edir: «İsgəndər Elbrusa doğru hərəkət edərək Şirvandan keçib, o vaxtlar hələ şəhərin olmadığı, lakin uca dağ başında quldur dəstəsinin toplaşdığı qalanın yerləşdiyi Dərbənd keçidinə yaxınlaşdı… 40 günlük mühasirədən sonra qalanı ələ keçirən İsgəndər əhalini Qıpçaq ölkəsinin basqınlarından qorumaq üçün Dərbənddə daşdan sədd tikilməsi əmrini verdi». Azərbaycan tarixçisi A.Bakıxanov «Gülüstani-İrəm» əsərində Makedoniyalı İsgəndərin qəddar şimal tayfalarından olan Qoq və maqoqlara qarşı Dərbənd səddini tikdirməsi haqqında rəvayəti təsvir etmişdir. Dərbəndin Makedoniyalı İsgəndər tərəfindən salınması haqqında rəvayəti Dərbənddə olmuş demək olar ki, əksər Avropa səyyahları – Gilyom de-Rubruk, Marko Pola, Ambrozio Kantarini, Adam Oleari və başqaları da təkrarlamışlar.

Dərbənd səddi və istehkamlarının tikilməsi haqqında başqa bir məlumat isə Sasani hökmdarları II Yəzdəgird (439-457), I Qubad (488-496, 498/99-531) və I Xosrov Ənuşirəvanın (531-579) adı ilə bağlıdır. Rəvayətə görə, II Yəzdəgird Makedoniyalı İsgəndər tərəfindən tikilmiş səddi taparaq onu qumdan təmizləmiş və səddin tikintisini mis və qurğuşun pilitələrlə başa çatdırmışdır. Görkəmli şərqşünas V.V.Bartold belə hesab edir ki, II Yəzdəgirdin hakimiyyətinin sonuna yaxın üsyan qaldırmış albanlar onun tikdirdiyi

qalanı dağıtmış və bu da 454-cü ildə hunların yürüşünü asanlaşdırmışdı. Dərbənd istehkamlarının tikintisi haqqında bir rəvayət də Sasani hökmdarı I Qubadın adı ilə bağlıdır. «Dərbəndnamə» də əksini tapmış rəvayətə görə, I Qubad Xəzər xaqanı ilə aralarındakı düşmənçiliyə son qoyaraq onun qızı ilə evlənmiş və Sasani dövləti ilə Xəzər xaqanlığı arasında sərhəd məntəqəsi rolunu oynayan qala tikdirmişdi. Rəvayətə əsasən qalanın tikintisində 6 min usta və fəhlə, 10 min əsgər iştirak etmişdi. Qalanın özülünü qazanlar guya dənizin içərilərinə doğru uzanan, az qala Qara dənizə qədər çatan qədim daş səddi tapmış və onu təmizləyərək bərpa etmişdilər. Bundan sonra «İsgəndər səddi»ndən cənubda daha bir sədd inşa edilmişdi. İnşaatçılar şəhərdə dəmir qapılar düzəldərək onu Bab-əl-Əbvab və yaxud Bab-əl Dərbənd adlandırmışdılar.

Erkən orta əsr qaynaqlarının əksəriyyəti Dərbənd şəhəri və istehkamlarının tikintisini I Xosrov Ənuşirəvanla bağlayırlar. Ərəbdilli qaynaqların məlumatına əsasən I Xosrov Qafqaz dağlarının Xəzər dənizinə qovuşduğu yerdə Bab-əl-Əbvab şəhərini saldırmış, bir tərəfdən dağlarda Təbəristan istehkamlarına, o biri tərəfdən 1 mil dənizin içərilərinə doğru uzanan məşhur sədd tikdirərək, bütün sədd boyu hər üç mildən bir dəmir qapılar qoydurmuşdu. Erməni mənbələrinə görə, I Xosrov İranı xəzərlərin hücumundan qorumaq üçün Dərbənd şəhərini tikdirmiş və Çor qapılarını bağlamışdı. I Xosrov tərəfindən Dərbənd şəhərinin tikintisinin başa çatdırılması 542-ci ilə aid edilir.

V.V.Bartold belə hesab edir ki, Dərbənd keçidində yaşayış istehkamların tikintisindən çox-çox əvvəl mövcud olmuş, istehkamların salınması isə ehtimal ki, II Yəzdəgirdin dövründə baş vermişdir. N.A.Maqomedovun fikrincə, Dərbəndin əsaslı şəkildə möhkəmləndirilməsi III əsrdə Sasani dövləti yarandıqdan sonra başlamış, VI əsrdə başa çatdırılmışdır. Bütün bu rəvayət və mülahizələri yekunlaşdıraraq belə bir qənaətə gəlmək olar ki, Dərbənd şəhər tipli yaşayış məskəni kimi hələ eradan əvvəl I minilliyin VIII-VII əsrlərində təşəkkül tapmağa başlamış, erkən orta əsrlərdə (təxminən III-VI əsrlər) isə artıq istehkamlarla möhkəmləndirilmiş qala şəhərə çevrilmişdi.

Dərbənd yerləşdiyi çox mühüm hərbi-siyasi və iqtisadi mövqeyinə görə əsrlər boyu gərgin mübarizə meydanına çevrilmiş, onun tarixi siyasi proseslərlə zəngin olmuşdur. Bununla yanaşı, Şimali və Cənubi Qafqazın qovşağında yerləşən Dərbəndin inzibati baxımdan mənsubiyyəti məsələsi ilə əlaqədar bəzi hallarda yalnış mülahizələr meydana çıxmışdır. Belə ki, bir çox Dağıstan tarixçiləri zaman-zaman Dərbəndi Dağıstan şəhəri kimi qələmə verməyə cəhd göstərmişlər. Bu cür mülahizələrin əsassızlığını sübut etmək üçün rus işğalına qədər Dərbəndin Azərbaycan dövlətçiliyi çərçivəsinə daxil olduğunu sənədləşdirən bəzi faktlara qısaca toxunmağa ehtiyac yaranır. Məlum olduğu kimi, Makedoniyalı İsgəndərin imperiyası dağıldıqdan sonra Dərbənd eradan əvvəl IV əsrin sonundan başlayaraq eranın 705-ci ilinə qədər Azərbaycan dövləti olan Qafqaz Albaniyasının tərkibində olmuşdur. Bu faktı antik yunan, Roma müəllifləri ilə yanaşı, erkən orta əsr alban, gürcü və erməni tarixçilərinin məlumatları da təsdiq edir. Alban tarixçisi Musa Kalankatlının eranın ilk əsrlərində Albaniyada

xristianlığın yayılması haqqında məlumatı Dərbənd bölgəsinin alban torpağı olmasını sənədləşdirir: «Yelisey öz sərəncamına Şərqi (Albaniyanı) alır… Öz təbliğini o, Çolada başlayır və müxtəlif yerlərdə şagird toplayaraq, onlara xilaskarı (İsanı) andırmağa çalışırdı». Alban patriarx taxtının 552-ci ilə qədər Çolada yerləşməsi, bundan sonra Partava (Bərdəyə) köçürülməsi faktı Dərbənd bölgəsinin beş əsr ərzində davamlı olaraq Azərbaycan dövlətçiliyinin tərkibində mühüm siyasi-ideoloji mərkəz olduğunu bir daha təsdiq edir. Mehranilər sülaləsi dövründə də Dərbənd Albaniya dövlətinin tərkibində qalırdı. Bu barədə M.Kalankatlı maraqlı məlumat verir: «…Xəzərlər qarət və talan məqsədi ilə Albaniyaya basqın etdilər… Ordusunu götürüb Cavanşir Böyük Kür çayının o biri sahilinə keçdi və Xəzərlərə hücum etdi, o günü böyük qələbə qazandı və barbar qəbilənin başçısına bu sözləri dedi: «Get və Çola darvazasından geriyə çəkil və bir daha buraya qayıtma». III-VII əsrlərdə Albaniya Sasani dövlətinin vassalına çevrilsə də alban hökmdarları özlərinin daxili müstəqilliklərini saxlamış və Albaniyanın daxili inzibati bölgü sistemində heç bir dəyişiklik baş verməmişdi. VII-IX əsrlərdə bütün Cənubi Qafqaz ölkələri kimi tarixi Atropatena və Albaniya torpaqları da ərəb Xilafətinin tərkibinə daxil edilmişdi. Xilafət dövründə Azərbaycan, Arran, Gürcüstanın bir hissəsi, Ermənistan, Əlcəzirə və Kiçik Asiyanın bir hissəsi əvvəlcə dördüncü, sonra üçüncü ərəb əmirliyinin tərkibinə daxil edilmişdi. Ərəb müəllifləri bu dövrdə Dərbəndi Azərbaycan və Arranın tərkibində göstərirlər. Ərəb tarixçisi Təbərinin yazdığına görə, «Azərbaycan böyük ölkə olub, cənubunda Həmədan, şimalında isə Dərbənd yerləşirdi». X əsrin məşhur ərəb coğrafiyaçısı Məsudi yazır ki, «Bab-ül-Əbvabdan Tiflisə qədər bütün Ran (Arran – tarixi Albaniya) ölkəsində yerdə boyaq bitir».

Xilafət dövrünün görkəmli tədqiqatçısı akademik Z.Bünyadov Dərbənd ilə bərabər Çola şəhərini də VII-IX əsrlərdə Azərbaycanın «böyük» və «məşhur» şəhərləri sırasına daxil etmişdir. Xilafət dövründə ərəblərin Bizansın Qara dənizdən keçən əsas ticarət yollarını pozaraq bu yolları Şərqə – Xəzər dənizinə keçirməsi nəticəsində Dərbəndin hərbi-strateji əhəmiyyəti ilə yanaşı, iqtisadi çəkisi də artmış və Xəzərin ən mühüm ticarət-liman şəhərlərindən birinə çevrilmişdi. IX əsrin ortalarında Bağdad xilafətinin zəifləməsi nəticəsində işğal edilmiş ərazilərdə, o cümlədən Azərbaycanda siyasi oyanış yerli dövlətçilik ənənələrinin bərpasına səbəb olmuşdu. Belə bir dövrdə tarixi Albaniya torpaqlarında yarımmüstəqil və müstəqil xırda dövlətlər yaranmağa başlamışdı. 861-ci ildə müstəqil Şirvanşahlar dövlətinin yaranmasından az sonra, 869-cu ildə Dərbənddə müstəqil əmirliyin əsası qoyulmuşdu. Əsası ərəb mənşəli Haşim ibn Suraka əs-Suləmi tərəfindən qoyulan Dərbənd Haşimi əmirliyi 1077-ci ilə qədər mövcud olmuşdu. Doğrudur, bəzi vaxtlarda qısa müddət Şirvanşahlardan və Sacilərdən asılı hala düşsə də, əksər hallarda müstəqil olan Dərbənd əmirliyi Cənubi Dağıstanın bəzi torpaqlarını da öz hakimiyyəti altına almağa müvəffəq olmuşdu. XI əsrin II yarısından Səlcuq imperatorluğunun tərkibinə qatılan Dərbənd, Azərbaycan Atabəyləri dövründə (1136-1225) inzibati baxımdan Şirvanşahların ərazisi kimi onların

suverenliyi altında olmuşdu. XIII əsrdə başlanan monqol işğalları nəticəsində 1239-cu ildən 1357-ci ilə qədər Dərbənd bütün digər Azərbaycan torpaqları kimi monqol imperatorluğunun, Hülakülər dövlətinin (1256-1357) tərkibinə qatılmışdı. Bütün XIII-XIV əsrlər boyu Azərbaycan uğrunda baş vermiş aramsız müharibələr zamanı Qızıl Orda dövləti bəzi vaxtlarda Dərbəndi ələ keçirə bilsə də bu hal ötəri xarakter daşımış və Dərbənd yenidən Hülakü ulusunun tərkibinə qatılmışdı.V.Piriyev XIII-XIV əsr qaynaqlarının məlumatlarını araşdıraraq sübut etmişdir ki, bütün XIII-XIV əsrlər boyu Dərbənd inzibati baxımdan Şirvanın vilayəti kimi Hülakülər dövlətinə daxil olmuşdur. XIV əsrin son rübündə Toxtamış və Teymurun əsas hədəflərindən biri olan Dərbəndin mühafizəsi Teymur tərəfindən yenidən Şirvanşah I İbrahimə (1382-1417) həvalə edilmiş və XV əsrin sonu – XVI əsrin əvvəlinə qədər Dərbənd Şirvanşahlar dövlətinin tərkibində qalmışdı. Səfəvilər dövlətinin yaranması ilə Azərbaycan tarixində yeni bir mərhələ – mərkəzləşmiş Azərbaycan dövlətinin təşəkkülü dövrü başlamışdır. Dərbənd bəzi istisnalar olmaqla 1501-ci ildən 1736-cı ilə qədər Səfəvilər dövlətinin tərkibində mövcud olmuşdur. 1578-ci ildə Səfəvi-Osmanlı müharibəsinin başlanması ilə əlaqədar Osmanlı işğalı altına düşən Dərbənd 1590-cı ildə bağlanmış İstanbul barışığına əsasən müvəqqəti olaraq Osmanlı idarəsi altına keçsə də, XVII əsrin başlanğıcında itirilmiş Azərbaycan torpaqlarını qaytarmaq uğrunda mübarizəyə başlayan Şah I Abbas (1587-1629) 1606-cı ildə Dərbəndi işğaldan azad edərək Səfəvi idarəçiliyinə qaytarmışdı. 1606-cı ildən 1722-ci ilə qədər fasiləsiz olaraq Səfəvi idarə sisteminə əsasən Şirvan bəylərbəyliyinin tərkibində olan Dərbənd XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin tənəzzülü ilə əlaqədar I Pyotrun Xəzər yürüşü zamanı rus işğalının qurbanına çevrilmişdi. 1722-ci ilin 23 avqustunda I Pyotr tərəfindən işğal edilən Dərbənd 1735-ci ilə qədər Rusiya imperiyasının tərkibində qalmışdı. Səfəvi dövlətinin əvvəlki qüdrətini və sərhədlərini bərpa etmək uğrunda mübarizəyə başlayan Nadir xan Əfşar rusları Xəzər sahili bölgələrdən çıxarmağa nail olmuş və 1735-ci il Gəncə müqaviləsinə əsasən bütün Xəzərsahili vilayətlər, o cümlədən Dərbənd Səfəvi dövlətinə qaytarılmışdı.

1736-cı ildə Səfəvi dövlətini süquta uğradaraq Əfşarlar dövlətini yaradan Nadir şahın (1736-1747) keçirdiyi inzibati islahat nəticəsində Səfəvi dövlətinin ərazisinə daxil olan tarixi Azərbaycan torpaqlarında mövcud olan Təbriz, Qarabağ, Şirvan və Çuxur-Səəd bəylərbəylikləri ləğv edilərək onların əraziləri Azərbaycan adlı yeni inzibati vahiddə birləşdirilmişdi. Beləliklə, 1736-1747-ci illərdə Dərbənd inzibati baxımdan Azərbaycan vilayətinin tərkibində olmuşdu. Nadir şahın ölümü ilə Əfşarlar dövləti süquta uğramış və Azərbaycan tarixində yeni dövr – xanlıqlar dövrü başlanmışdı. 1747-ci ildə Azərbaycan ərazisində yaranmış xırda dövlətlərdən biri də Dərbənd xanlığı idi. Nadir şahın ölümündən sonra Dərbənd əhalisi onun təyin etdiyi hakimi – Məhəmmədəli xanı şəhərdən qovaraq İmamqulu xanın oğlu Məhəmməd Hüseyni Dərbənd xanı qoydular.

Dərbənd xanlığı Dərbənd şəhərindən əlavə Ulus mahalı (9 kənd) və Samur çayının sahilində yerləşən Müskür, Nizabat (Niyazabat), Şabran, Rustau və Beşbarmağı da əhatə edirdi. Lakin Dərbənd xanlığı uzun müddət öz müstəqilliyini qoruyub saxlaya bilmədi. Belə ki, Dərbəndin mühüm hərbi-strateji mövqeyini nəzərə alan Fətəli xan 1759-cu ildə onu ələ keçirərək Quba xanlığına birləşdirdi. Bəzi tədqiqatçılar yalnış olaraq Dərbəndin Qubalı Fətəli xan tərəfindən ələ keçirilməsini 1765-ci ilə şamil edirlər. Beləliklə, 1759-cu ildən Rusiya işğalına qədər Dərbənd Quba xanlığının tərkibində mövcud olmuşdu.

XVIII əsrin sonunda Ağa Məhəmməd şah Qacarın Şimali Azərbaycan xanlıqlarına və Gürcüstana yürüşü Rusiyanı Cənubi Qafqazda öz nüfuzunu bərpa etmək üçün mühüm tədbirlər görməyə məcbur etdi. Bu hərbi əməliyyat zamanı rus qoşunları 1796-cı il mayın 10-da V.Zubovun rəhbərliyi altında Dərbəndi işğal etsələr də, II Yekaterinanın ölümündən sonra I Pavelin (1796-1801) xarici siyasət kursunu dəyişməsi ilə rus qoşunları Cənubi Qafqazdan, o cümlədən Dərbənddən çıxarıldı.

Beləliklə, Dərbəndin tarixi keçmişinə müraciətdən göründüyü kimi, bəzi istisnalar olmaqla bütün dövrlərdə şəhər Azərbaycan dövlətçiliyi çərçivəsində mövcud olmuşdur. Dərbəndin inzibati baxımdan Dağıstan ərazisinə daxil edilməsi yalnız şəhərin Rusiya tərəfindən 1806-cı ildə işğalından sonrakı dövrə aiddir.

1796-cı ildə rus qoşunlarının Cənubi Qafqazdan çıxarılmasından sonra Dərbəndin idarə olunması yenidən Quba xanı Şeyxəlinin əlinə keçdi. Rusiyanın əleyhdarı olan Şeyxəli xanın bəzi tədbirləri, o cümlədən qiyamçı gürcü şahzadəsi Aleksandra sığınacaq verməsi, İran şahı Baba xanla (Fətəli şah) gizli danışıqlar aparması çar hökumətini narahat etməyə bilməzdi. Digər tərəfdən Şeyxəli xanın Dərbənddə hakimiyyətindən narazı olan qüvvələr və Qazıqumux hakimi Surxay xan Şeyxəli xanın kiçik qardaşı Həsən xanı hakimiyyətə gətirmək istəyirdilər. Rus generalı Knorrinqin 28 may 1800-cü il tarixli məlumatından aydın olur ki, Dağıstan hakimlərinin yardımı ilə artıq Dərbənddə hakimiyyət Həsən xanın əlinə keçmişdi. Həsən xan Şeyxəliyə qarşı mübarizədə havadar əldə etmək məqsədi ilə general Knorrinqin yanına nümayəndə göndərərək Rusiya hakimiyyətini qəbul etməyə hazır olduğunu bildirmişdi. Yaranmış şəraiti əldən buraxmayan çar I Aleksandr 28 avqust 1801-ci il tarixli fərmanı ilə Həsən xanı Dərbənd hakimi təsdiq edərək, onu öz himayəsinə almışdı. Lakin Həsən xanın Dərbənddə hakimiyyəti uzun sürmədi. 1802-ci ilin əvvəllində onun ölümündən sonra Dərbənddə hakimiyyət yenidən Şeyxəli xanın əlinə keçmişdi.

I Aleksandr Knorrinqə göndərdiyi 1801-ci il 24 dekabr tarixli sərəncamında ittifaq müqavilələri bağlamaq yolu ilə Dağıstan hakimlərini, Quba, Dərbənd, Bakı və Talış xanlarını Rusiyanın vassalı halına salmaq istiqamətində fəaliyyət haqqında göstəriş vermişdi. 1802-ci il dekabrın 26-da Rusiya Quba, Talış xanları, Tarku şamxalı, Qaraqaytaq üsmisi və Tabasaran hakimi

ilə Georgiyevsk traktatını (Bakı xanı Georgiyevskə gəlməmişdi. Bakının strateji mövqeyinə xüsusi əhəmiyyət verən çar hökuməti Bakı xanı ilə 1803-cü ildə ayrıca müqavilə imzalamışdı) imzalamaqla Qafqazda öz nüfuzunu möhkəmləndirməyə cəhd göstərsə də bu müqavilə yalnız kağız üzərində qalmış, heç bir real nəticə verməmişdi. 1802-ci ildə general P.D.Sisianovun Qafqazın baş komandanı təyin edilməsindən sonra Rusiya Cənubi Qafqazda açıq təcavüz yoluna əl atmış oldu. Sisianov I Aleksandra ünvanladığı 8 yanvar 1803-cü il tarixli raportunda Dərbənd və Bakının dərhal ələ keçirmək zərurətini irəli sürsə də, bu tədbirin 1804-cü ilin yazına qədər təxirə salınması göstərişi verilmişdi. Sisianovun Car-Balakən, İlisu sultanlığı və Gəncə xanlığını işğal etməsi Qafqaz uğrunda İran-Rusiya ziddiyyətlərinin keyfiyyətcə yeni – hərbi müstəviyə keçməsinə səbəb oldu. I Rus-İran müharibəsi (1804-1813) zamanı Sisianov Qarabağ, Şəki, Şirvan xanlıqlarını tabe etdikdən sonra Rusiya üçün xüsusi hərbi-strateji əhəmiyyət kəsb edən Bakıya daxil olsa da, onun qətlə yetirilməsindən (8 fevral 1806-cı il) sonra rus qoşunları Xəzər donanması ilə Sara adasına, oradan isə Qızılyara aparıldı. Beləliklə, Sisianovun Dərbəndi işğal etmək arzusu ürəyində qaldı.

Sisianovun ölümündən sonra Qafqazdakı rus ordusunun komandiri vəzifəsinə təsdiq edilmiş və yeni yürüşə hazırlaşan general-leytenant Q.İ.Qlazenap Pəricə xanımın əri Tarku şamxalı, rus ordusunun generalı Mehdi xanın yardımı ilə Dərbənddə Şeyxəli xana qarşı çıxış və təbliğatı gücləndirdi. Rus qoşunlarının Dərbəndə yaxınlaşması xəbərindən sonra Dərbənddə Şeyxəli xana qarşı rusپərəst Əlipənah bəyin qiyam qaldırması Şeyxəli xanı Dərbəndi tərk etməyə məcbur etdi. Dərbənddəki rüspərəst qruplaşmalar 1806-cı il iyunun 21-də Qlazenapın düşərgəsinə nümayəndə heyəti göndərərək rus qoşunlarını şəhərə dəvət etdilər. Beləliklə, 22 iyun 1806-cı ildə rus qoşunları müqavimətsiz Dərbənd şəhərini işğal etdilər. Rus işğalından sonra Dərbəndin idarə edilməsində yeni mərhələ başlanır. 1806-cı il iyulun 2-də Qafqazın baş komandanı təyin edilən general Qudoviçin əmri ilə avqustun 16-da Qlazenap öz vəzifəsini general Bulqakova təhvil verdi.

Qlazenapın təklifinə əsasən I Aleksandrın 1806-cı il 23 avqust tarixli fərman ilə Rusiyaya göstərdiyi sədaqət və xidmətin müqabilində Tarku şamxalı Mehdi Dərbənd xanı vəzifəsinə təyin edilir. Fərmana əsasən, Dərbənd şəhəri istisna olmaqla Mehdi xana Dərbənd xanlığının bütün gəlirlərindən və xanın əvvəlki səlahiyyətlərindən istifadə hüquqları verilirdi. Dərbənd şəhərinə aid edilən Sabnovadan başqa Ulus mahalının digər kəndləri (Ərəblər, Azadoğlu, Bilici, Calqan, Qulxar, Mollakənd, Molla Xəlil, Selik, Nügədi) Dərbənd xanının idarəçiliyinə verilirdi. 1830-cu ildə Mehdi xanın ölümündən sonra baron Rozenin etirazı nəticəsində onun varisi Süleyman paşaya Dərbənd xanı titulu verilmədi.

Rus işğalından Dərbənd quberniyasının yaranmasına qədər Dərbənd şəhərində «hərbi-xalq» idarə üsulu təşkil edilmişdi. Dərbənd qalasının müdafiəsini təşkil etmək üçün daimi hərbi qarnizon yaradıldı və 1806-cı ilin

avqustunda komendant vəzifəsi təsis edildi. Çar hakimiyyətinin təmsilçisi olan komendant şəhərdə qayda-qanuna nəzarət etməli, qalada yerləşən qarnizonu idarə etməli, şəhəri düşmənlərdən qorumalı, həmçinin inzibati, təsərrüfat, maliyyə və polis nəzarəti funksiyalarını həyata keçirməli idi. Dərbənd əhalisinin xahişini, əhali arasında nüfuzunu və Rusiyaya sədaqətini nəzərə alan Qlazenap şəhər rəisi və yaxud naibi vəzifəsinin icrasını 1807-ci il 9 mart tarixli sərəncamla Əlipənah bəyə tapşırdı. Şəhər rəisi və ya naib vergilərin toplanması, xırda məhkəmə işlərinə baxılması, qalanın komendantı mayor Lukyanovun nəzarəti altında və digər bəylərin iştirakı ilə şəhərin idarə edilməsi səlahiyyətlərinə malik idi. Şəhərin hər bir məhəlləsinə təyin edilən kəndxudalar həmin məhəllədə yerləşən qoşun hissəsini mənzillə təmin etməli, qayda-qanunun icrasına və təmizliyə nəzarət etməli idi. Kəndxudalar qalabəyinə, o isə öz növbəsində qalanın komendantına tabe idi. Beləliklə, faktiki olaraq şəhərdə bütün hakimiyyət komendantın əlində cəmlənmişdi. Dərbəndin yuxarıda göstərilən idarə sistemi 1812-ci ilə qədər dəyişməz qaldı. Komendantların vəzifə səlahiyyətlərindən sui-istifadə hallarının qarşısını almaq məqsədi ilə 1812-ci ildə Dərbənd qalasının komendantı Dağıstan hərbi-dairə rəisinə tabe edildi. Komendantın sədrliyi, iki bəy və mülki əhalinin iki nümayəndəsindən təşkil edilmiş yeni şəhər məhkəməsi mahiyyət etibarı ilə heç bir dəyişikliyə səbəb olmadı. 1812-ci ilin fevralında yaradılmış Dərbənd əyaləti 1840-cı il 10 aprel qanunu qüvvəyə minənə qədər fəaliyyət göstərdi. Gülüstan sülh müqaviləsinə (1813) əsasən, İran Dərbəndin Rusiya tərəfindən işğalını rəsmi olaraq tanımış oldu.

Cənubi Qafqazda mülki idarə sisteminin tətbiqi haqqında hələ 1830-cu ildə Qafqazın baş komandanı İ.F.Paskeviç layihə hazırlasa da, 1831-ci ildə onu əvəz etmiş baron Rozen həmin layihəni təkmilləşdirmək üçün qəbul etməmişdi. 1837-ci ilin martında senator Qanın rəhbərliyi altında yaradılmış komissiyanın hazırladığı yeni layihə 1840-cı il aprelin 10-da I Nikolay tərəfindən təsdiq edildi. 10 aprel 1840-cı il «Əsasnamə»sinə görə, Cənubi Qafqaz Gürcü-İmeret quberniyası və xüsusi hərbi-dairə idarəsinə malik olan Xəzər vilayətinə bölündü. Xəzər vilayətinin tərkibinə Şirvan, Qarabağ, Şəki, Talış, Bakı, Dərbənd və Quba qəzaları daxil edildi. Mərkəzi Dərbənd şəhəri olan Dərbənd qəzası Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətlərindən təşkil edilmişdi. Bölgədə hərbi əməliyyatların getməsi ilə bağlı olaraq Dərbənd qəzası Dərbənd hərbi-dairə rəisinə tabe edilmişdi. Cənubi Qafqazda tətbiq edilmiş yeni idarə sistemi 1846-cı ilə qədər dəyişməz qalmışdı. Yeni idarə üsulunun yarıtmaz olduğu 10 aprel 1840-cı il qanunu qüvvəyə mindikdən az sonra ortaya çıxdı. Belə ki, 1842-ci ildə Qafqaza ezam edilmiş knyaz Çernışev və Pozen idarə sisteminin dəyişdirilməsi təklifi ilə çıxış etdilər. Qafqazın idarə edilməsində dəyişikliklər Qafqazın canişini təyin edilmiş qraf M.S.Vorontsovun dövründə baş verdi. 14 dekabr 1846-cı il tarixli «Əsasnamə»yə görə, Xəzər vilayəti ləğv edilərək onun ərazisində Şamaxı və Dərbənd quberniyaları yaradıldı. Dərbənd quberniyasının tərkibinə Dərbənd və

Quba qəzaları, Samur və Dargin dairələri Kürə və Qazıqumux xanlıqları, başqa sözlə Avar Koysu çayından cənuba doğru bütün Dağıstan əraziləri daxil edildi. Quberniyanın başçısı təyin edilən hərbi qubernator inzibati-polis, təsərrüfat, maliyyə və məhkəmə funksiyasını icra etməklə yanaşı, Cənubi Dağıstandakı rus qoşunlarının komandiri səlahiyyətlərinə də malik idi. Dərbəndin qubernatoru vəzifəsinə knyaz Arqutinski-Dolqorukov təyin edilsə də, 1847-ci ilin noyabrın 8-də onun Xəzərsahili vilayətlərdə rus qoşunlarının komandanı vəzifəsinə keçirilməsindən sonra 1850-ci ilə qədər Dərbənd qubernatoru A.İ.Qaqarin olmuşdu. 1850-1856-cı illərdə bu vəzifəni Y.F.Minkviç, 1857-1858-ci illərdə Z.S.Manyukin, 1858-1860-cı illərdə isə D.K.Aseev icra etmişdi.

Şimali Qafqaz xalqlarının milli-azadlıq hərəkatını boğduqdan sonra çar hökuməti Dağıstanın və Azərbaycanın idarə sistemini yenidən dəyişdirmək qərarına gəldi. 1860-cı il aprelin 5-də knyaz A.İ.Baryatinski tərəfindən qəbul edilən və 10 iyun 1860-cı ildə imperator fərmanı ilə təsdiq edilən «Əsasnamə»yə görə, Dağıstan vilayəti yaradıldı. Yeni qanunla Dərbənd quberniyası ləğv edilərək onun tərkibindəki Quba qəzası yeni yaradılmış Bakı quberniyasına, Dərbənd isə Dağıstan vilayətinə daxil edildi. Şimali, Cənubi, Orta və Yuxarı Dağıstan hərbi bölgələrindən ibarət olan Dağıstan vilayətinin tərkibində daha iki mülki idarə – Dərbənd şəhəri və Ulus mahalından ibarət olan Dərbənd şəhər rəisliyi və Petrovsk şəhər idarəsi yaradıldı. Dərbənd şəhərinin rəisi vəzifəsini 1860-1863-cü illərdə M.T.Loris-Melikov; 1863-1868-ci illərdə M.Q.Cemarcidze, 1868-1878-ci illərdə A.V.Komarov, 1878-1883-cü illərdə isə A.P.Madatov yerinə yetirmişdilər. Qeyd etmək lazımdır ki, ərazisi təqribən 216 kv. verst olan Ulus mahalının idarəsi də şəhər rəisinə tabe olan pristavın ixtiyarına verilmişdi. 23 avqust 1866-cı il tarixli kənd icmaları haqqında «Əsasnamə» yə uyğun olaraq 1876-cı ildə Ulus mahalı 4 kənd icmasına bölündü (I-Qullar, Selik, Azadoğlu, Nügədi; II-Bilici, Molla Xəlil; III-Ərəblər, Bayat, Mollakənd, Xoşmənzil, Əqləbi; IV-Calqan). Şəhər rəisliyi dövründə Dərbəndin genişləndirilməsi və abadlaşdırılması istiqamətində xeyli işlər görülmüş, həmçinin yeni-yeni zavodlar və dəyirmanlar istifadəyə verilmişdi. Rusiya hərbi nazirinin 31 oktyabr 1867-ci il tarixli 361 saylı əmrinə görə Dərbənd qalasının ləğv edilməsi ilə şəhər özünün strateji-müdafiə əhəmiyyətini itirmiş oldu.

Dövlət Şurasının təklifi əsasında Qafqazın hərbi-xalq idarə sistemində bəzi dəyişikliklər haqqında 12 iyun 1883-cü il tarixli fərmanla Dərbənd inzibati mərkəz statusunu itirdi və şəhər rəisi vəzifəsi ləğv edildi. Dərbənd rəisliyi dövründə şəhərə daxil olmayan ərazilər Kürə dairəsinə daxil edildi. 1883-cü ildən şəhər özünüidarəsi yaradılana qədər şəhər təsərrüfatının idarə olunması iqamətgahı Temirxan-Şura şəhəri olan Dağıstan vilayətinin hərbi qubernatorunun ali nəzarəti altında fəaliyyət göstərən qalabəyinin ixtiyarına verildi.

Dərbənd şəhərinin idarə olunmasında növbəti dəyişiklik 1895-ci ilə aiddir. 29 may 1895-ci il tarixli qanunla Zaqafqaziya diyarı və Stavropol qu-

berniyasının şəhərlərində şəhər «Əsasnaməsi»nin tətbiq edilməsi nəzərdə tutulurdu. Qanuna əsasən şəhər ictimai idarəsinin iki formasının tam (şəhər duması və şəhər idarəsi) və sadə (şəhər nümayəndələri, şəhər ağsaqqalı və onun köməkçisi) yaradılmasına icazə verilirdi. Şəhər idarəsi formasının seçilməsi şəhərin vəsaiti, gəliri, istehsal gücü və s. kimi amillərdən asılı idi. Marena istehsalının tənəzzülə uğraması və s. nəticəsində Dərbəndin iqtisadi potensialı nəzərə alınaraq şəhərdə sadə idarə forması tətbiq edildi. Şəhər nümayəndələrinin seçkisi dörd ildən bir seçicilərin xüsusi yığıncağında gizli səsvermə yolu ilə həyata keçirilməli, seçicilərin siyahısı isə seçkilərə üç ay qalmış müəyyənləşdirilməli idi. Qaydalara görə Rusiya təbəəsi olan, şəhərdə beş ildən az olmayaraq yaşayan, il ərzində 100 rubldan artıq əmlaka malik 25 yaşından yuxarı kişilərə səsvermə hüququ verilirdi. Seçiləcək nümayəndələrin sayı Dağıstan vilayəti qubernatorunun istəyindən asılı olaraq 12 nəfərdən - 15 nəfərə qədər ola bilərdi. Daxili işlər nazirinin təsdiq etdiyi 30 may 1893-cü il tarixli məlumata əsasən, şəhər yığıncağına seçilən qeyri-xristian (müsəlman) nümayəndələrinin sayı ümumi tərkibin 20%-indən (1/5) artıq ola bilməzdi. Bu qayda şəhər əhalisinin etnik və dini tərkibinə tamamilə zidd olmaqla yanaşı, çarizmin müstəmləkəçilik siyasətinin bariz nümunəsi idi. Belə ki, 1846-cı ildə Dərbənd şəhərində seçki hüququna malik olan xristian əhali 165 nəfər olduğu halda, müsəlman əhali 726 nəfərdən ibarət idi.

Dağıstan vilayəti qubernatorunun göstərişi ilə şəhər yığıncağına seçiləcək 15 nümayəndədən 12-si xristian, 2-si müsəlman, 1-i isə yəhudiləri təmsil etməli idi. 1896-cı il yanvarın 26-da keçirilmiş seçkilər zamanı şəhər yığıncağına 6 erməni, 6 rus, 2 azərbaycanlı və 1 yəhudi nümayəndə seçilmişdi. Nümayəndələrin ilk yığıncağında şəhərin səlahiyyətli nümayəndələrinin sədri vəzifəsinə rus millətindən olan N.İ.Novomarevski təyin olundu.

Dərbəndin müsəlman əhalisi şəhər nümayəndələrinin tərkibi ilə bağlı dəfələrlə hakimiyyət orqanlarına kəskin şəkildə öz etirazlarını bildirdikdən sonra Daxili işlər nazirinin 31 iyul 1897-ci il tarixli, 7072 saylı göstərişi ilə növbəti seçkilərdən başlayaraq şəhər yığıncağına seçiləcək müsəlman nümayəndələrinin sayı ümumi tərkibin yarısını təşkil etməli idi. 1900-cü il fevralın 28-də keçirilmiş ikinci seçkilər zamanı şəhər yığıncağının səlahiyyətli nümayəndələrinin 7-si azərbaycanlıları, 4-ü erməniləri, 3-ü rusları, 1-i isə yəhudiləri təmsil edirdi. Şəhər yığıncağı nümayəndələrinin sədri vəzifəsinə rus millətindən olan S.A.Juqenko, şəhər starostası vəzifəsinə azərbaycanlı Heydərov Qasım bəy seçildilər.

Çox maraqlıdır ki, 1904-cü ilin may-iyun aylarında keçirilmiş üçüncü seçkilər zamanı səlahiyyətli nümayəndələrin yarısını ermənilər təşkil etmişdilər. Belə ki, 15 nümayəndənin 6-sı azərbaycanlı, 7-si erməni, 1-i rus və 1-i yəhudi olmuşdu. 1904-cü il seçkilərindən sonra şəhərin starostası Heydərov Qasım bəy, onun köməkçiləri isə Vəkilov Həmid bəy və S.A.Ter-Qazaryans təyin edilmişdilər. 1908, 1912 və 1916-cı illərdə keçirilmiş növbəti seçkilərdə şəhər yığıncağı nümayəndələrinin tərkibində elə də ciddi dəyişikliklər baş verməmişdi. 1908-ci ildə Dərbənd şəhərinin starostası

Heydərov Qasım bəy, köməkçisi Vəkilov Həmid bəy, 1912-ci ildə starosta İ.N.Xuqesov, köməkçisi Vəkilov Həmid bəy, 1916-cı ildə keçirilmiş sonuncu seçkilərdə isə şəhərin starostası Vəkilov Həmid bəy seçilmişdi.

Beləliklə, 1896-cı ildən 1917-ci il Oktyabr çevrilişinə qədər Dərbənddə şəhər «Əsasnaməsi»nə uyğun olaraq şəhər özünüidarə orqanı fəaliyyət göstərmişdi. Dərbəndin XIX-XX əsrin əvvəllərində siyasi tarixinin şərhindən göründüyü kimi Rusiya işğalının ilk mərhələsində (1806-1860-cı illər) Dərbənd Rusiya imperiyası tərkibində Azərbaycanın ərazi vahidi kimi mövcud olmuşdur. 1806-1840-cı illərdə Şimali Azərbaycanın digər bölgələrində olduğu kimi Dərbənddə də komendant (hərbi-xalq sistemi) idarə üsulu tətbiq edilmiş, 10 aprel 1840-cı il qanununa görə yaradılmış Dərbənd qəzası Xəzər vilayətinin tərkibinə qatılmış, 14 dekabr 1846-cı il islahatı nəticəsində isə Dərbənd qəzası Dərbənd quberniyasının inzibati-ərazi vahidi olmuşdu. Yalnız 1860-cı ildə Dərbənd tarixi Azərbaycan torpaqlarından qopardılaraq yeni yaradılmış Dağıstan vilayətinə daxil edilmişdi. Bu isə çarizmin bütövlükdə Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda yeritdiyi ayrı-seçkilik, müstəmləkə siyasətinin növbəti mürtəce təzahürlərindən biri idi.

Bütün tarixi dövrlərdə olduğu kimi, XIX-XX əsrin əvvəllərində də Dərbənd inzibati və etnik baxımdan Dağıstana məxsus olmamışdır. Dərbənd xanlığı haqqında məlumat verən rus qafqazşünası S.Bronevski yazır ki, xanlıq ərazisinin uzunluğu Xəzər sahilində Darbax çayından Samur çayına qədər 45 verst, eni isə dənizdən Tabasaran hakimliyinin başlandığı dağlara qədər 15-20 verstdir. Dərbənd xanlığı şimalda Qaraqaytaq, qərbdə Tabasaran və Qazıqumıx, cənubda Quba, şərqdə Xəzər dənizi ilə sərhəddədir.

**Əhalinin say dinamikası.** Azərbaycanın şimal sərhədində minilliklər boyu sözün əsl mənasında dəmir qapı rolunu oynayan Dərbəndin əhalisinin sayı haqqında xanlıqlar dövrünə sənədlərin dövrümüzə gəlib çıxmaması, Rusiya işğalının ilk onilliklərinə aid statistik məlumatların azlığı və ya əhalinin tərkibi baxımından məhdud xarakterli olması Dərbənd şəhərinin əhalisinin tərkibini bütün dolğunluğu ilə bərpa etməyə imkan vermir. Bununla belə, XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Dərbənddə olmuş rus səyyah, alim və zabitlərinin yazıları, həmçinin əhali siyahıyaalma materialları həmin boşluğun qismən də olsa doldurulması baxımından mühüm əhəmiyyət kəsb edir (Bax: cədvəl 1). Həmin məlumatlar dəqiq statistik bazaya malik olmayıb təxmini hesablamalar əsasında meydana çıxsa da, şəhər əhalisinin cinsi, etnik-dini, sosial tərkibi haqqında müəyyən məlumatları əks etdirir. Lakin onu da qeyd etmək lazımdır ki, bu məlumatlar azacıq fərqlərlə də olsa demək olar ki, oxşardır.

1806-cı ildə Dərbənd Rusiya tərəfindən işğal edildikdən sonra çar məmurları əhalini vergiyə cəlb etmək məqsədi ilə müxtəlif illərdə siyahıyaalmalar keçirmişdilər. 1806-1830-cu illər arasında Qafqazın baş komandanının göstərişi ilə Dərbəndin komendantı tərəfindən keçirilmiş sayımlar, 1831-1873-cü illərdə keçirilmiş kameral təsvirlər hökuməti fiskal baxımından maraqlandırdığı üçün Dərbənd əhalisinin sayını gerçəklik baxımından tam dol-

ğunluğu ilə əks etdirmir. Bu sayım və kameral təsvirlərin çoxsaylı qüsurlarla müşahidə olduğunu çar məmurları və rus qafqazşünasları özləri də etiraf edirdilər. Bütün bunlara baxmayaraq, 1806-1873-cü illərdə keçirilmiş sayımlar Rusiya işğalına qədərki təxmini hesablamalardan fərqli olaraq konkret rəqəmlərə söykəndiyi üçün daha mötəbərdir.

1808-1811-ci illərdə Gürcüstanda və Qafqaz xəttindəki rus qoşunlarının baş komandanı olmuş general A.P.Tormasovun göstərişi ilə 1811-ci ildə Dağıstan əhalisinin sayını əks etdirən cədvəldə Dərbənd qalası və onun ətrafında yaşayan əhali barədə məlumat vardır. Lakin bu cədvəldə verilmiş rəqəmlər o qədər də inandırıcı deyildir. Belə ki, 1812-1816-cı illərdə Qafqazın baş rəisi olmuş general N.F.Rtişevin əmri ilə 1810-cu il sayımı əsasında 1813-cü ildə tərtib edilmiş «Dərbənd şəhəri və dairəsində ev və əhali sayı haqqında» cədvəldə əksini tapmış rəqəmlər A.P.Tormasov üçün hazırlanmış cədvəldəki məlumatlardan kəskin şəkildə fərqlənir.

N.F.Rtişevə 1813-cü ildə təqdim olunmuş cədvəl üzrə Dərbənd şəhərində 1.522 evdə kişi cinsindən olan 4.175 nəfərin, Ulus mahalındakı doqquz kənddə isə 284 ailənin yaşaması qeydə alınmışdır. 1811 və 1813-cü il tarixli cədvəllər arasındakı kəskin fərq fikrimizcə bir sıra amillərlə bağlıdır. Görünür A.P.Tormasova təqdim olunmuş 1811-ci il tarixli cədvəl 1807-1808-ci illərdə Dərbənddə keçirilmiş sayım materiallarını əks etdirir. Həmin dövrdə isə Rusiya işğalı və birinci Rusiya-İran müharibəsi ilə əlaqədar Dərbənd əhalisinin başqa bölgələrə miqrasiyası istisna deyildir.

Dərbənddə həyata keçirilmiş ilk müfəssəl siyahıyaalma 1824-cü ilə aiddir. Çox maraqlıdır ki, tarixi ədəbiyyatlarda 1824-cü il siyahıyaalma rəqəmləri ilə bağlı müxtəlif fikirlər mövcuddur. S.A.Sultanov Dərbənd tarixinə həsr etdiyi əsərində 1810-cu ildə şəhərdə 11.060 nəfərin yaşadığını göstərdiyi halda, A.N.Kajlayev 1824-cü ildə Dərbənddə 12.870, 1855-ci ildə 11.060 nəfərin yaşadığını qeyd etmişdir. Çox təəssüf ki, hər iki müəllif hansı mənbəyə istinad etdiklərini göstərməmişlər.

1832-ci ildə Dərbənddə keçirilmiş ilk kameral təsvir materiallarına görə, Dərbənd qalası, forştat və şəhərə aid olan Sabnova kəndində 1.795 ev və 5.139 nəfər kişi cinsi qeydə alınmışdır. 1833-cü ildə Dərbənddə baş vermiş dəhşətli aclıq əhalinin bir qisminin tələf olması, bir qisminin isə başqa yerlərə köçməsinə səbəb olmuşdu. Bu faktı 1842-ci ildə şəhərdə keçirilmiş kameral təsvirin nəticələri dolayısı ilə olsa da təsdiq edir. Həmin sayım materiallarına görə, 1842-ci ildə Dərbənddə qeydə alınmış 1.708 ailədə hər iki cinsdən 10.713 nəfər olmuşdur. Göründüyü kimi 1832-ci illə müqayisədə 1842-ci ildə ailələrin sayı 87-yə qədər azalmışdı. XIX əsrin 40-50-ci illərində Dərbəndin iqtisadi inkişafının sürətlənməsi, marena istehsalının genişlənməsi kimi faktorlar əhalinin artımına gətirib çıxarmışdı. XIX əsrin 50-ci illərində keçirilmiş siyahıyaalma materialları bu artımı sənədləşdirir.

A.K.Kərimov 1851-ci ildə Dərbənddə 13.470 nəfərin yaşadığını göstərmişdir. Lakin bəzi tədqiqatçılar, o cümlədən E.İ.Kozubski və A.N.Kajla-

yev Dərbənddə 13.470 nəfərin yaşaması faktının 1859-cu ilə şamil olunduğunu bildirmişlər.

Dağıstan vilayətində 1866-cı və 1873-cü illərdə keçirilmiş kameral təsvirlər də əhalinin sayını müqayisə etməyə imkan verir. Dərbənddə əhalinin sayının 1866-cı ilə nisbətən azalmasına marena istehsalının tənəzzülü kəskin şəkildə təsir göstərmişdi.

1875-ci ildə nəşr edilmiş «Сборник сведений о Кавказских гортсах» adlı külliyyatın VIII buraxılışında qafqazşünas A.V.Komarovun «Dağıstan vilayətinin əhalisi» adlı məqaləsində 1865-1867-ci illərə aid Dərbənd əhalisinin sayı haqqında məlumat verilmişdir. Qeyd etmək lazımdır ki, A.V.Komarovun bu məlumatları 1865-1867-ci il kameral təsvirləri, vergi siyahıları və müəllifin şəxsi yazışmaları, sorğuları əsasında toplansa da Dərbəndin yalnız türk, tat və yəhudi əhalisinin sayını konkret göstərir. Dərbənddə yaşayan rus, erməni və başqa millətlərin sayı ümumi şəhərlər qrafasında verildiyi üçün Dərbənddə nə qədər rus, erməni və digər millətlərin yaşamasını müəyyən etmək mümkün deyildir.

Kameral təsvirlərin əhali haqqındakı məlumatları çar hökumət orqanlarını qane etmədiyi üçün 1873-cü ildən sonra Qafqazda kameral təsvirlərin keçirilməsi dayandırıldı. Dövlət Şurasının 24 fevral 1886-cı il tarixli qərarı ilə kameral təsvirlər ailə siyahıları ilə əvəz edildi. Yeni qaydalara əsasən, əhali şəhərli, kəndli və gəlmə kateqoriyalarına bölünməklə onların hər birinin sayı vergi ödəmə qabiliyyəti, etnik, dini və sosial tərkibi haqqında ətraflı məlumatların verilməsi nəzərdə tutulurdu. Dövlət Şurasının həmin qərarına əsasən, 1886-cı ildə Dərbənd şəhərində də əhalinin ailə siyahıları üzrə sayımı keçirilmişdir. Bu sayım materialları iki dəfə – 1890 və 1893-cü illərdə Tiflisdə nəşr edilmişdir.

1897-ci ildə Rusiya imperiyası əhalisinin ilk ümumi siyahıyaalınması həyata keçirildi. Həmin siyahıyaalınmanın nəticələrinə görə, Dərbənd şəhəri əhalisinin sayı 14.649 nəfər olmuşdur. Dağıstan vilayətinin icmal materiallarına əsasən, 1899-cu ildə şəhərdə əhalinin sayı 17.836 nəfərə çatmışdır. Dağıstan vilayətinin 1901-ci ilə aid yaddaş kitabçası və ünvan təqvimində verilmiş materiallar göstərir ki, həmin ildə Dərbənddə rus ordusunda xidmət edən 590 kişi və 120 qadın əsgər də daxil olmaqla 18.546 nəfər yaşayırdı. Dağıstan vilayətinin icmal materiallarında əksini tapmış 1902-1911-ci illərə aid statistik rəqəmlərdən göründüyü kimi XIX əsrin sonu, xüsusilə də XX əsrin əvvəllərində Dərbənd şəhərinin əhalisinin say dinamikasında nəzərə çarpacaq dərəcədə artım baş vermişdir (bax cədvəl 1). 1898-ci ildə Petrovsk-Dərbənd sərnişin dəmir yolunun tikintisinin başa çatdırılması, 1900-cü ildə Dərbənd-Bakı dəmir yolunun işə salınması və Petrovsk-Biləcəri xəttinin Ümumrusiya dəmir yol qovşağına qoşulmasının Dərbəndin kənd təsərrüfatı məhsullarının, xüsusilə də üzümçülüyün, balıq sənayesinin sürətli inkişafına təkan verməsi əhalinin artımına əsaslı təsir göstərmişdir.

1917-ci ildən sonra Dərbənd şəhəri əhalisinin kəskin şəkildə azalması bir sıra amillərlə bağlı olmuşdur. 1918-1920-ci illərdə Rusiyada baş vermiş vətəndaş müharibəsi, Dərbənddə tüğyan edən yoluxucu xəstəliklər və 1920-1921-ci illərdə qeydə alınmış quraqlıq nəticəsində yaranmış aclıq əhali arasında kütləvi ölüm hallarına səbəb olmuşdur. Digər tərəfdən, bolşevik terroru nəticəsində kütləvi qırğınlar və qırmızı terror təqibindən yaxa qurtarmaq üçün əhalinin imtiyazlı təbəqələrinin başqa ölkələrə, xüsusilə də Türkiyəyə köçməsi əhalinin azalmasının başlıca səbəbləri idi.

1926-cı ildə SSRİ-də keçirilmiş Ümumittifaq siyahıyaalınmasına görə, Dərbənd şəhərində əhalinin sayı nisbətən artaraq 23.097 nəfərə çatmışdır. Bu artım 1920-21-ci ildən sonra Rusiyada yaranmış nisbi sakitliklə bağlı olmuşdur.

Cədvəl 1

Dərbənd əhalisinin say dinamikası

| № | İllər | İstinad edilən mənbə | Əhalinin sayı | Ev və ya ailənin sayı |
|---|---|---|---|---|
| 1 | 1770 | S.Q.Qmelin | - | 4.000 |
| 2 | 1796 | V.Zubovun yürüşünün iştirakçıları | - | 2.500 |
| 3 | 1796 | F.F.Simonoviç | - | 3.225 |
| 4 | 1798 | P.Q.Butkov | 9.300 | - |
| 5 | 1804 | A.İ.Axverdov | 10.000-dən çox | 2.000 |
| 6 | 1811 | A.P.Tormasov | 4740 | 790 |
| 7 | 1813 | N.F.Rtişev | 4.175 k.c. | 1.806 |
| 8 | 1820 | Qamba | 7-8 min | - |
| 9 | 1824 | Fon Krabbe | 11.060 | - |
| 10 | 1825 | E.İ.Eyxvald | 26.000 | 1.800 |
| 11 | 1830 | polk.Rozenfeld | 10.616 | 2.115 |
| 12 | 1831 | M.K.Kovalevski və İ.F.Blaramberq | - | 4.000 |
| 13 | 1832 | Kameral təsvir | 5.139 k.c. | 1.795 |
| 14 | 1842 | Kameral təsvir | 10.713 | 1.708 |
| 15 | 1850 | Dərbənd qubernatoru | 12.032 | - |
| 16 | 1851 | Kameral təsvir | 13.470 | 2.447 |
| 17 | 1866 | Kameral təsvir | 14.514 | 3.097 |
| 18 | 1865-1867 | A.V.Komarov | 13.524 | 6.682 |
| 19 | 1873 | Kameral təsvir | 11.278 | 2.762 |
| 20 | 1886 | Ailə siyahısı (1890 nəşri) | 11.535 | 2.617 |
| 21 | 1886 | Ailə siyahısı (1893 nəşri) | 15.265 | - |
| 22 | 1893 | General Yüzbaşov | 14.412 | 3.173 |
| 23 | 1896 | Dağıstan vilayətinin icmalı | 14.614 | - |
| 24 | 1897 | Dağıstan vilayətinin icmalı | 15.152 | - |
| 25 | 1897 | Ümumrusiya siyahıyaalması | 14.649 | - |
| 26 | 1899 | Dağıstan vilayətinin icmalı | 17.836 | - |
| 27 | 1901 | Dağıstan vilayətinin yaddaş kitabı | 18.546 | - |

| | | | | |
|---|---|---|---|---|
| 28 | 1902 | Dağıstan vilayətinin icmalı | 18.958 | - |
| 29 | 1903 | Dağıstan vilayətinin icmalı | 20.983 | - |
| 30 | 1904 | Dağıstan vilayətinin icmalı | 21.515 | - |
| 31 | 1905 | Dağıstan vilayətinin icmalı | 23.230 | - |
| 32 | 1906 | Dağıstan vilayətinin icmalı | 29.777 | - |
| 33 | 1907 | Dağıstan vilayətinin icmalı | 30.761 | - |
| 34 | 1908 | Dağıstan vilayətinin icmalı | 35.415 | - |
| 35 | 1909 | Dağıstan vilayətinin icmalı | 33.167 | - |
| 36 | 1910 | Dağıstan vilayətinin icmalı | 32.871 | - |
| 37 | 1911 | Dağıstan vilayətinin icmalı | 32.716 | - |
| 38 | 1915 | A.N.Kajlayev | 33.540 | - |
| 39 | 1917 | Narodı Daqestana | 31.100 | - |
| 40 | 1920 | Dərbənd şəhər siyahıyaalması | 20.102 | - |
| 41 | 1923 | Dərbənd şəhər siyahıyaalması | 18.859 | - |
| 42 | 1926 | Ümumittifaq siyahıyaalması | 23.097 | - |

**Əhalinin yerləşməsi.** F.F.Simonoviçin 1796-cı ildə verdiyi məlumata əsasən, Dərbənd xanlığına daxil olan Dərbənd dairəsinə Sabnova, Peremişki, Calqan, Caqutkənd, Abasova, Rukal, Ulus dairəsinə isə Ərəblər, Yuxarı Ərəblər, Mollakənd,Bayatlar, Dərbənd Qala, Kural, Zardien, Urucba, Azadoğlu, Ustaclı, Selik, Nügədi, Malakalin, Padar və Bilici kəndləri daxildir. P.Q.Butkov 1798-ci ildə Dərbənd xanlığına şəhər və 15 kəndin daxil olduğunu göstərmişdir. A.İ.Axverdovun 1804-cü ilə aid olan məlumatına əsasən, Ulus mahalında 15 kənd olmuşdur. Qafqazda rus qoşunlarının baş rəisi olan general N.F.Rtişevin 1813-cü il tarixli məlumatında Ulus mahalında Ərəblər Sorsor, Mollakənd, Bilici Padar, Dərbənd Qala, Molla Xəlil, Selik, Azadoğlu, Nügədi, Calqan adlı doqquz kəndin olması göstərilir. Rus zabitləri M.K.Kovalevski və İ.F.Blaramberq 1831-ci ildə Dərbənd ətrafında 17 kəndin olması haqqında məlumat vermişlər. Rus qafqazşünası A.V.Komarovun 1875-ci ildə Tiflisdə nəşr olunan məqaləsində 1865-1867-ci illərdə Dərbənddə 13 türk, 1 tat və 4 yəhudi yaşayış məskəninin olması qeyd olunmuşdur. E.İ.Kozubski göstərir ki, 1806-cı ildə Dərbənd xanlığına şəhərlə yanaşı, Ulus mahalındakı Ərəblər, Azadoğlu, Bilici, Calqan, Qullar, Mollakənd, Molla Xəlil, Selik, Nügədi və mahalın şəhərə şamil edilən Sabnova kəndləri daxil idi. Q.B.Hüseynovun yazdığına görə isə, Ulus mahalında doqquz yaşayış məskəni olmuşdur. 1840-cı il 10 aprel qanununa əsasən, yaradılmış Dərbənd qəzasına Dərbənd şəhəri, Ulus mahalındakı kəndlərlə yanaşı, Tabasaran və Qaraqaytaq da daxil edilmişdi. 1846-cı ildə yaradılmış Dərbənd quberniyasının tərkibinə daxil olan Dərbənd qəzasının ərazisi yenə də dəyişməz qalmışdı. 1860-cı ildə Dağıstan vilayəti təşkil edilərkən onun tərkibinə daxil edilmiş Dərbənd şəhər rəisliyinə Dərbənd şəhəri və Ulus mahalı da qatılmışdı. 1883-cü ildə Dağıstan vilayətinin inzibati idarə sistemində edilmiş bəzi dəyişikliklər nəticəsində Dərbənd şəhər rəisliyi ləğv olundu, Ulus ma-

halı Kürə dairəsinə daxil edildi. Bu tarixdən etibarən Ulus mahalında olan kəndlərdən yalnız biri – Sabnova kəndi inzibati baxımdan Dərbənd şəhərinə şamil olundu. Beləliklə, 1806-cı ildən 1883-cü ilə qədər Ulus mahalına daxil olan bütün kəndlərin Dərbəndə aid olması aydınlaşmış oldu. 1883-cü ildən çarizmin süqutuna qədər Dərbənd inzibati anlayışına Dərbənd şəhəri və Sabnova yaşayış məskəni daxil idi. Dərbənd şəhərində əhalinin yerləşməsini müəyyənləşdirmək üçün şəhərin quruluşu və daxili bölgü sistemini nəzərdən keçirmək lazımdır. Dərbənd şəhəri tarixən quruluşuna görə üç hissədən ibarət olmuşdur. Narınqala adlanan birinci hissədə xan sarayı və saray xidmətçilərindən olan heyət, Dərbənd adlanan ikinci hissədə əhalinin yaşayış binaları və ictimai xarakterli tikililər yerləşirdi. Dubara adlanan üçüncü hissədə isə yaşayış yox idi.

Şəhərin Dubara hissəsində əhalinin məskunlaşmasına ilk dəfə XVIII əsrin sonunda başlanmışdı. Qazıqumuxlu Surxay xanın Dərbənd xanlığına məxsus Abasova kəndini dağıtmasından sonra Şeyxəli xan o kənddə yaşayan yəhudiləri Dubaraya köçürməyə başlamışdı. Dubara hissəsində əhalinin intensiv məskunlaşması Rusiya işğalından sonra, şəhərin birinci baş planı həyata keçirilərkən başlanmış və orada bir neçə erməni və yəhudi ailəsi yerləşdirilmişdi.

Kameral təsvir materiallarında verilən məlumatlardan aydın olur ki, Rusiya işğalı dövründə şəhərin əhalisi Dərbənd qalası, forştat və Sabnova ərazisində məskunlaşmışdı. 1897-ci il Ümumrusiya siyahıyaalma materillarına görə, əhali Dərbənd şəhərində və şəhər ətrafında olan Aşağı əsgər məhəlləsi, Araboqaqarı bağı, forştat və Sabnova kəndində yaşayırdılar. Onu da qeyd etmək lazımdır ki, Dərbənddə əhalinin məskunlaşmasında etnik və dini prinsipə də riayət olunurdu. Belə ki, şəhərin müsəlman əhalisi 9 mahalda, forştat və Sabnova kəndində, rus, erməni və yəhudi icmaları isə ayrıca mahallarda məskunlaşmışdı. 1824-cü ildə Dərbənd şəhərinin ikinci baş planına uyğun olaraq şəhərin qədim hissəsi və Dubaranın yenidən qurulmasına başlandı. Bununla əlaqədar olaraq bütün yoxsul əhali şəhərin cənub divarlarının arxasına, keçmiş xan bağının ərazisinə köçürüldü. Şəhərin cənub divarlarının arxasında yaradılmış yoxsullar məhəlləsi xalq arasında Quruq (quru, susuz yer), rəsmi sənədlərdə isə Müsəlman forştatı adlandırılmağa başlandı.

Qafqazın baş rəisi general Yermolov Qafqazdakı hərbi düşərgələri oturaq yaşayış məskənlərinə çevirərək, rus köçkünlərini orada məskunlaşdırmaq məqsədi ilə ailəli əsgərlərdən ibarət xüsusi hissələr yaratmağa başlamışdı. Bunun nəticəsində əsgər məhəlləsi «soldatskiye slabodki» adlanan yaşayış məskənləri yarandı. Dərbənddə belə məhəllə şəhərin şimal divarlarının arxasında, Kefar yüksəkliyi zonasında yerləşirdi. 1832-ci ildə Qazi Molla Dərbəndi mühasirəyə alarkən Kefar yüksəkliyindəki ailəli əsgərlərin kazarma və yaşayış binalarını yandırdı. Bundan sonra onlar üçün şəhərin daxilində yeni ərazi ayrılmış və ikinci əsgər məhəlləsinin yaradılması 1843-cü ildə başa çatdırılmışdı.

Ermənilərin Dərbəndə köçürülməsi hələ 1724-cü ildə I Pyotrun göstərişinə əsasən başlansa da, onların bu bölgədə intensiv məskunlaşması Dərbəndin Rusiya tərəfindən işğalından sonrakı dövrə təsadüf edirdi. Ermənilər Dərbəndin rus və yəhudi əhalisinin məskunlaşdığı hissələrdə yerləşmişdi. Dərbəndin yəhudi məhəlləsi isə XVIII əsrin sonunda, o zaman şəhərin hələ tikilməmiş hissəsi olan Dubarada meydana gəlmişdi.

Dərbənd şəhərində əhalinin məskunlaşması haqqında bəzi məlumatlara XVIII əsrin sonu – XIX əsrin əvvəllərinə aid rus səyyahları, V.Zubov, Qlazenap yürüşünün iştirakçılarının yazılarında, həmçinin Qafqaz xəttindəki rus qoşunlarının komandanlarının hesabatlarında rast gəlmək mümkündür. F.F.Simonoviçin 1796-cı ildə verdiyi məlumata görə, Dərbənd şəhərində 2.180 ev, Dərbənd xanlığına daxil olan Dərbənd dairəsinə məxsus Sabnova, Peremişki, Calqan, Caqutkənd, Abasova və Rukal kəndlərində 265 ev, Ulus dairəsinə məxsus olan Ərəblər, Yuxarı Ərəblər, Mollakənd, Bayatlar, Dərbənd Qala, Kural, Zardien, Urucba, Azadoğlu, Ustaclı, Selik, Nügədi, Malakalin, Padar, Bilici kəndlərində isə 780 ev olmuşdur. Müəllifin məlumatından aydın olur ki, Ulus mahalının Zardien kəndi dağıdılmış vəziyyətdə olmuşdur və Ustaclı kəndində isə yaşayış yoxdur. P.Q.Butkov Dərbənd xanlığında əhalinin şəhər və digər yaşayış məntəqələri üzrə yerləşməsinin sayı haqqında ayrı-ayrılıqda məlumat verməsə də, göstərir ki, 1798-ci ildə Dərbənd şəhəri və ətrafındakı 15 kənddə 9.300 nəfər yaşayır. A.İ.Axverdovun 1804-cü ilə aid məlumatına əsasən, Dərbənd şəhərində 2000-dən çox ev, hər iki cinsdən 10.000-dən çox əhali yaşayır, Ulus mahalına məxsus 17 kəndin əhalisi isə 2000 silahlı qoşun çıxarmaq iqtidarındadır. Qafqazın baş rəisi general N.F.Rtişevin 1813-cü ildə tərtib etdiyi «Dərbənd şəhəri və dairəsində ev və əhalinin sayı haqqında cədvəl» də əksini tapmış 1810-cu il sayımının materiallarına görə, Dərbənd şəhərində qeydə alınmış 1.522 evdə 4.175 kişi cinsindən olan əhali yaşayırdı. Həmin cədvəldə Ulus mahalının Ərəblər Sorsor kəndində 60, Mollakənddə 12, Bilici Padar kəndində 75, Dərbənd Qala kəndində 30, Molla Xəlil kəndində 12, Selik kəndində 15, Azadoğlu kəndində 30, Nügədi kəndində 25, Calqan kəndində 25 evin (cəmi 284 ev) olması göstərilmişdir. M.K.Kovalevski və İ.F.Blaramberqin 1831-ci ildə verdiyi məlumata görə, Dərbənd şəhərində 2000, şəhərin ətrafındakı 17 kənddə isə 2000-ə qədər ev olmuşdur. Dərbənd komendantı polkovnik Rozenfeldin 22 aprel 1830-cu ildə tərtib etdiyi «Dərbənd əyaləti əhalisinin sayı haqqında cədvəl» də göstərilir ki, Dərbənd şəhərində 1.911 ev, hər iki cinsdən olan 9.618 nəfər, forştat hissəsində 161 ev, hər iki cinsdən 801 nəfər, Sabnova kəndində 43 ev, hər iki cinsdən 197 nəfər olmuşdur. 1832-ci ildə Dərbənddə keçirilmiş kameral təsvir materiallarında Dərbənd qalası, forştat və Sabnovada 1.795 ev və kişi cinsindən olan 5.139 nəfərin qeydə alınması faktı öz əksini tapsa da, bu rəqəmlərin şəhərin daxili bölgü vahidləri üzrə necə paylanması haqqında heç bir məlumat verilməmişdir. Çox maraqlıdır ki, Dərbənddə keçirilmiş kameral təsvirlər içərisində yalnız 1851-ci

il tarixli sayım materiallarında əhalinin ailələrin sayı üzrə şəhərin mahalları və icmaları arasında bölüşdürülməsi haqqında məlumat verilmişdir. Həmin məlumatlara görə, Dərbənd şəhərinin I mahalında (Çar təpədə) 321, II mahalında (Mikri) 127, III mahalında (Bayat ucarıda) 95, IV mahalında (Gen küçədə) 188, V mahalında (Peyinlik başında) 290, VI mahalında (Bazar və yaxud Xan küçədə) 232, VII mahalında (Orta təpədə) 398, VIII mahalında (Bayat qapısında) 121, IX mahalında (Carçıda) 261, erməni icmasının yaşadığı məhəllədə 83, yəhudi məhəlləsində 182, forştatda 104, Sabnovada 45 ailə məskunlaşmışdı. Çox təəssüf ki, kameral təsvir materiallarında şəhərin məhəllələri üzrə əhalinin sayı göstərilməmişdir. 1851-ci il sayımına görə, Dərbənddə 2.447 ailə qeydə alınmışdı.

Rusiya imperiyasında əhalinin ümumi siyahıyaalınması haqqında 5 iyun 1895-ci ildə verilmiş «Əsasnamə» ilə 1897-ci il yanvarın 28-də Dərbənddə keçirilmiş sayım materiallarında bütövlükdə olmasa da, Dərbəndin ayrı-ayrı hissələrində yerləşmiş əhalinin sayı haqqında bəzi məlumatlar öz əksini tapmışdır. Belə ki, siyahıyaalma materiallarına görə, Dərbənd şəhərində hər iki cinsdən olan 13.349 nəfər, Aşağı əsgər məhəlləsində 247, Araboqaqarı adlanan hissədə 323, forştatda 452, Sabnova kəndində 278, cəmi 14.649 nəfər əhali qeydə alınmışdı.

XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Dağıstan vilayətinin qubernatorlarının illik hesabatları və bu hesabatlara əlavə kimi dərc edilən icmal materiallarında əhalinin Dərbənd şəhərinin daxili inzibati vahidləri üzrə bölgüsü haqqında heç bir məlumat yoxdur.

Bolşevik işğalından sonra Dərbənd Dağıstan Muxtar Respublikasının tərkibinə daxil edilərək Dərbənd dairəsinə çevrilmişdi. Dərbənd dairəsi inzibati baxımdan 17 kənd sovetinə bölünmüş və kənd sovetlərinin tərkibində 77 xırda inzibati ərazi vahidləri yaradılmışdı. 1926-cı ildə SSRİ-də keçirilmiş əhalinin ilk Ümumittifaq siyahıyaalınması materillarında Dərbənd dairəsi əhalisinin inzibati-ərazi vahidləri üzrə paylanması haqqında məlumatlar öz əksini tapmışdır.

**Əhalinin tərkibi.** XIX-XX əsrin əvvəllərində Dərbənd şəhəri əhalisinin **etnik** və dini mənsubiyyət baxımından tərkibinin araşdırılması elmi və praktik nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edir. Uzun əsrlər boyu türk-oğuz yurdu kimi məşhur olan Dərbəndin Rusiya tərəfindən işğalından sonra tədricən inzibati cəhətdən Azərbaycandan ayrılması və Dağıstan vilayətinin tərkibinə qatılması, sovet imperiyası dövründə isə qəti olaraq DSSR-ə verilməsi kimi amillərdən istifadə edən bəzi Dağıstan tarixçilərinin Dərbəndi tarixən Dağıstan ərazisi olaraq təsdiq etmələri fonunda bu problem daha aktual səslənir.

XVIII əsrin sonu – XIX əsrin əvvəllərinə aid məxəzlərdə Dərbənd şəhəri, Dərbənd xanlığının etno-siyasi xəritəsində Azərbaycan türkləri, yəhudi və erməni etnoslarının adı çəkilir. Adı çəkilən etnoslar içərisində Dərbəndin aborigen əhalisi yalnız türklərdən ibarət olmuşdur. «Kitabi Dədə Qorqud»

dastanlarında Dərbəndin oğuz yurdu kimi xatırlanması, hətta Qorqud atanın məzarının Dərbənddə olması haqqında qaynaqların məlumatları heç də təsadüfi deyildir. Azərbaycanın sərhəd qapısı, şimal köçərilərinin hücumlarından müdafiə olunmaq üçün istehkam qalası olan Dərbənd tarixi boyu Azərbaycan dövlətlərinin və Azərbaycanın da daxil olduğu imperiyaların diqqət mərkəzində olmuşdur. Dərbənd səddlərini qorumaq üçün Sasanilərin köçürdüyü farslar, xilafətin köçürdüyü ərəblər zaman keçdikcə türklərlə qaynayıb-qarışaraq öz etnik simalarını itirsələr də Dərbəndin tarixi yaddaşında izlərini saxlamışlar. XVI-XVIII əsrlərdə Səfəvi şahları və Nadirin Qaramanoğlu, Qorçi, Bayat, Ustaclı, Miqri və s. kimi türk tayfalarını Dərbənddə yerləşdirməsi onsuzda bölgədə hegemon olan türklərin mövqeyini daha da gücləndirmişdi. Hazırda Dərbənd şəhərinin daxilində və ətrafındakı çoxsaylı türk toponimləri (Miqri, Bayat ucarı, Bayat qapı, Carçı, Genküçə, Peyinlik başı, Orta təpə, Mollakənd, Molla Xəlil, Azadoğlu, Dərbənd Qala, Bilici Padar və s.) Dərbəndin türk yurdu olmasını təsdiqləyir.

XVIII əsrin sonunda Dərbənd və ətrafında qeydə alınan etnoslardan biri də yəhudilər olmuşdur. Dərbənd ətrafında məskunlaşan yəhudilərin ilk hissəsini dağ yəhudiləri təşkil edirdi. Azərbaycan tarixi-demoqrafik ədəbiyyatında olan fikrə görə, İran ərazisindəki qədim yəhudi məskənlərinin sakinləri (onlar İran dillərindən birinə keçmişdi) Sasani hökmdarı II Yəzdəgirdin dövründə bir sıra qəbilələrlə birlikdə şimali Azərbaycanın şimal-şərq regionlarına köçürülmüşdü. Avropa (rus) yəhudilərinin Dərbəndə gəlməsi isə XIX əsrin sonuna, balıqçılıq sənayesinin inkişafı dövrünə təsadüf edir. Tədqiqatçıların əksəriyyəti belə hesab edir ki, dağ yəhudiləri Assuriya çarı Sarqon tərəfindən (e.ə.VIII əsr) İsraildən Mesopotamiyaya, daha doğrusu İranın cənub-qərbinə köçürülmüş və həmin bölgə əhalisinin dilini (tat dili) qəbul etmiş yəhudilərin varisləridir. Sonradan onlar müxtəlif səbəblərlə bağlı Şimali Azərbaycan və Dağıstana köçürülərək Xəzər xaqanlığının təsiri altında iudaizmi qəbul etmişdilər. XVIII əsrin sonunda yəhudilər Dərbənd şəhərinin Dubara adlanan hissəsində yəhudi məhəlləsinin əsasını qoymuşdular.

XVIII əsrə qədər Dərbənd şəhəri və onun ətrafında ermənilər yaşamamışdır. Ermənilərin Dərbənddə məskunlaşması I Pyotrun Xəzərsahili bölgələrə yürüşü dövrünə təsadüf edir. Xəzərsahili bölgələri ələ keçirən I Pyotr özünə sosial-etnik dayaq yaratmaq məqsədi ilə ermənilərdən istifadə etməyə çalışırdı. I Pyotr Astarxan general-qubernatoru Matyuşkinə göndərdiyi 4 oktyabr 1722-ci il tarixli təlimatda Dərbənddə ticarət-sənətkarlıq və əkinçiliklə məşğul olmaq istəyən ermənilərə torpaq sahəsi ayrılması haqqında göstəriş vermiş və həmçinin patriarx İsa və bütün erməni xalqına ünvanladığı qramotada ermənilərə məskunlaşmaq üçün Gilan, Mazandaran, Bakı və Dərbənddə yer ayrıldığını bildirmişdi. Qerberin məlumatına görə, I Pyotrun hakimiyyətinin sonuna doğru ermənilər Dərbəndin bütöv bir küçəsini zəbt etmişdilər. V.Zubovun yürüşü zamanı ermənilərin ruslara tərəf keçməsi əhalinin qəzəbinə səbəb olduğu üçün II

Yekaterinanın ölümündən sonra Dərbəndi tərk etsələr də, 1806-cı ildə yenidən qayıtmağa başlamışdılar.

Dərbənd şəhərində rus, ukraynalı, polyak, alman və s. millətlərin məskunlaşması isə bilavasitə Rusiya işğalından sonrakı dövrə təsadüf edir.

İndi isə XIX-XX əsrin əvvəllərinə aid mənbələrdə Dərbənd əhalisinin etnik tərkibi haqqında məlumatları nəzərdən keçirək. N.F.Rtişevin 1810-cu il sayım materialları əsasında 1813-cü ildə tərtib etdiyi cədvələ görə, Dərbənd şəhərində qeydə alınmış 1.435 müsəlman evində (ailəsində) kişi cinsindən olan 3.953 nəfər, 28 erməni ailəsində 50 nəfər, 59 yəhudi ailəsində isə 166 nəfər kişi cinsindən olan əhali yaşamışdır. Həmin cədvəldə Dərbəndə aid olan Ulus mahalının 9 kəndində 284 ailənin yaşaması göstərilsə də, ailələrdəki əhalinin sayı və etnik tərkibi haqqında məlumat verilməmişdir. 1820-ci ildə Dərbənddə olmuş Fransanın Tiflisdəki səfiri Qambanın yazdığına görə, Dərbənddə yaşayan 7-8 min əhalinin 2/3 hissəsini iranlılar (farslar) təşkil edir. Aydın məsələdir ki, müəllifin iranlı adlandırdığı əhali Azərbaycan türkləri idi. Qambanın məlumatına əsasən, şəhərdə qarnizon və inzibati işçilərdən əlavə 600-700 erməni, 200-300 yəhudi və bir neçə ərəb də olmuşdur. Müəllif həmin ərəbləri islamın ilk çağında İranı fəth edən ərəblərin varisləri kimi göstərmişdir.

1824-cü ilin iyulun 16-da Dərbənd komendantı fon Aşeberqin keçirdiyi siyahıyaalmanın nəticələrinə görə, şəhər əhalisinin etnik mənzərəsi aşağıdakı qaydada olmuşdur.

Cədvəl 2

Dərbənd şəhər əhalisinin etnik tərkibi (1824-cü il)

| Etnoslar | Əhalinin ümumi sayı | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|---|
| | | Sayı | Ümumi sayına nisbətən %-i | Sayı | Ümumi sayına nisbətən %-i |
| Cəmi əhali | 11.060 | 5.773 | 52,2 | 5.287 | 47,8 |
| azərbaycanlı | 10.377 | 5.407 | 52,1 | 4.970 | 47,9 |
| yəhudi | 444 | 230 | 51,8 | 214 | 48,2 |
| erməni | 239 | 136 | 56,9 | 103 | 43,1 |

1824-cü il sayımına görə, Dərbənd şəhəri əhalisinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil etmişdir. 1825-ci ildə Dərbənddə olmuş prof. E.İ.Eyxvald göstərir ki, Dərbənd şəhərində 1.800 evdə 26 minə qədər əhali yaşayır və onun çoxusunu şiə-tatarlar təşkil edir. Müəllif şəhərdə erməni və yəhudilərin olmasını da qeyd edərək bildirir ki, hazırda burada rus qarnizonu və məmurları da çoxdur. M.K.Kovalevski və İ.F.Blaramberqin 1831-ci ilə aid məlumatlarında Dərbənd şəhəri və ətrafındakı 17 kənddə olan 4 minə yaxın ailənin əhalisinin əsasən müsəlmanlardan ibarət olması göstərilmişdir.

1830-cu illə müqayisədə 1843-cü ildə Dərbənd əhalisinin etnik tərkibində müəyyən dəyişikliklər baş vermişdi. Belə ki, 1830-cu ildə Dərbənddə 9.963 nəfər azəbaycanlı, 455 yəhudi, 198 erməni qeydə alındıgı halda, 1843-

cü ildə bu nisbət müvafiq olaraq 9.572, 871 və 284 nəfər təşkil etmişdi. Başqa sözlə desək 1830-cu ilə nisbətən 1843-cü ildə Dərbənddə azərbaycanlı əhalinin sayı 391 nəfər azaldıgı halda, yəhudilərin sayı 416, ermənilərin sayı isə 86 nəfər artmışdı.

1886-cı ildə Dərbənddə 1.561 rus, 29 polyak, 13 alman, 56 gürcünün yaşaması faktı çarizmin xristianlaşdırma, ruslaşdırma siyasətindən xəbər verirdi. 1897-ci ildə Ümumrusiya siyahıyaalınmasının materialları Dərbənd şəhəri əhalisinin tərkibində yeni dəyişikliklərin üzə çıxdığını nümayiş etdirir.

Maraqlıdır ki, 1886-cı illə müqayisədə Dərbənddə azərbaycanlıların sayı 773 nəfər artdığı halda, ermənilərin sayı 254, yəhudilərin sayı 387, rusların sayı isə 469 nəfər azalmışdır. Diqqət çəkən məqamlardan biri də ondan ibarətdir ki, 1886-cı ildə Dərbənddə qeydə alınmış 1.169 nəfər tatar və avar əhalisi 1897-ci il sayım materiallarında qeyd edilmir. Bununla bağlı tarixi ədəbiyyatlarda da heç bir məlumat verilməmişdir.1886-cı il sayım materiallarından fərqli olaraq, 1897-ci il siyahıyaalınmasında Dərbəndin etnik xəritəsində kartvel, latış, ləzgi, fars, türk, tat və fin kimi yeni etnoslar yer almışdır. Lakin onlar, ləzgilər istisna olmaqla Dərbənd əhalisinin etnik tərkibində ciddi bir dəyişiklik yarada bilməmişdilər. XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid Dağıstan vilayətinin qubernatorlarının illik hesabatları və onlara əlavə olunan icmallarda əhalinin etnik tərkibi haqqında xüsusi məlumat verilmədiyi üçün 1897-1926-cı illər arasında Dərbənd şəhərinin əhalisinin tərkibindəki dəyişiklikləri tam dəqiqliyi ilə izləmək mümkün deyildir. Həmin sənədlərdə verilmiş Dərbənd əhalisinin dini mənsubiyyətinə görə, tərkibi erməni və yəhudilərin sayını müəyyənləşdirməyə imkan verdiyi halda, digər etnosların sayını dəqiqləşdirmək mümkün deyildir. Buna görə də XX əsrin əvvəllərində Dərbənd əhalisinin etnik tərkibini yalnız 1926-cı il Ümumittifaq siyahıyaalınması materialları əsasında izləmək məcburiyyətində qaldıq.

Cədvəl 3

Dərbənd əhalisinin etnik tərkibi (1926-cı il)

| Etnoslar | Ümumi sayı | Kişi | Qadın |
|---|---|---|---|
| Bütün əhali sayı | 23.097 | 11.617 | 11.480 |
| azərbaycanlı | 7.831 | 3.842 | 3.989 |
| rus | 5.499 | 2.730 | 2.769 |
| erməni | 812 | 424 | 388 |
| dağ yəhudiləri | 6.597 | 3.152 | 3.445 |
| yəhudi | 148 | 74 | 74 |
| ləzgi | 868 | 502 | 366 |
| fars | 432 | 263 | 169 |
| avar | 51 | 46 | 5 |
| gürcü | 80 | 56 | 24 |
| dargin | 16 | 16 | 0 |
| kumık | 53 | 50 | 3 |
| lak | 34 | 29 | 5 |

| | | | |
|---|---|---|---|
| alman | 48 | 22 | 26 |
| tatar | 74 | 42 | 32 |
| ukraynalı | 83 | 59 | 24 |

Cədvəldən göründüyü kimi, 1897-ci illə müqayisədə 1926-cı ildə Dərbənd şəhərində azərbaycanlıların sayı 9.767 nəfərdən 7.831 nəfərə qədər, yəni 1.936 nəfər azalmışdı. Bunun müqabilində şəhər əhalisinin tərkibində ermənilərin, xüsusilə də rusların və yəhudilərin xüsusi çəkisi xeyli artmışdı. Belə ki, 1897-ci ilə nisbətən 1926-cı ildə Dərbənd şəhərində ermənilərin sayı 621 nəfərdən 812 nəfərə (191 nəfər artım), yəhudilərin sayı 2.181 nəfərdən 6.745 nəfərə (4.564 nəfər və ya iki dəfədən çox artım), rusların sayı isə 1.092 nəfərdən 5.499 nəfərə (4.407 nəfər və ya dörd dəfə artım) qədər yüksəlmişdi. Təhlillər göstərir ki, Dərbənd şəhəri əhalisinin türk-müsəlman simasının itirilməsi və sıxışdırılması prosesinin ən qızğın mərhələsi XX əsrin əvvəllərinə təsadüf etmişdir. 1806-1926-cı illərdə həyata keçirilən müstəmləkəçilik, böyük millətçilik, ruslaşdırma, «proletar beynəlmiləlçiliyi» siyasəti nəhayət ki, XX əsrin ilk rübündə öz nəticəsini vermişdi. XVIII əsrin sonunda başdan-başa türk yurdu olan Dərbənddə artıq 1926-cı ildə əhalinin yalnız üçdə bir hissəsi azərbaycanlılardan ibarət idi.

**Dini tərkib.** F.F.Simonoviçin 1796-cı ilə aid yazısında Dərbənd şəhərində islamın Əli və sünni təriqətinə məxsus 2.080, qriqoryan təriqətinə məxsus 90 ailənin yaşaması göstərilmişdir. Müəllif, Dərbənd dairəsinə aid olan 780 ailənin dini mənsubiyyəti haqqında məlumat verməmişdir. N.F.Rtişevin 1813-cü ilə aid hesabatında göstərilir ki, 1810-cu il sayımına görə Dərbənddə qeydə alınan 1.435 müsəlman ailəsində kişi cinsindən olan 3.953, 28 erməni ailəsində 50, 59 yəhudi ailəsində isə 166 nəfər yaşayır. Bu hesabatda Dərbəndin müsəlman əhalisinin şiə və sünni təriqəti arasında hansı nisbətdə bölünməsi, həmçinin Ulus mahalına daxil olan 9 kənddə qeydə alınan 284 ailənin dini mənsubiyyəti göstərilməmişdir. 1820-ci ildə Dərbənddə olmuş Qambanın yazdığına görə, Dərbəndin 7-8 minlik əhalisinin $^{2}/_{3}$ hissəsi fars, 600-700 nəfəri erməni, 200-300 nəfəri yəhudi və bir neçəsi ərəbdir. Müəllif əhalinin dini mənsubiyyətini göstərməsə də, fars və ərəb kimi qeyd etdiyi əhalinin müsəlman, ermənilərin qriqoryan, yəhudilərin isə iudaizmə inanması şübhə doğurmur. Kazan Universitetinin professoru E.İ.Eyxvaldın 1825-ci ildə yazdığına əsasən, Dərbənddə olan 1.800 ailədə 26.000 nəfər əhali yaşayır ki, onların da çoxu şiələrdir. Müəllif şəhərdə az miqdarda erməni və yəhudi, həmçinin çoxsaylı rus məmurlarının olmasını da nəzərdən qaçırmamışdır. Dərbənd komendantı fon Aşeberqin 1824-cü ildə Dərbənddə keçirdiyi siyahıyaalmanın nəticələrinə əsasən, şəhərdə 10.377 müsəlman (5.407 kişi, 4.970 qadın), 239 erməni – (136 kişi, 103 qadın), 444 yəhudi (230 kişi, 214 qadın) qeydə alınmışdır. Erməni və yəhudilərin dini mənsubiyyəti göstərilməsə də, onların qriqoryanlıq və iudaizmə inanması şəksizdir. Dərbənd komendantı polkovnik Rozenfeldin 22 aprel 1830-cu il tarixli hesabatında da Dərbənd əhalisinin dini

tərkibi haqqında müəyyən məlumatlar vardır. Hesabatdan aydın olur ki, həmin dövrdə Dərbənd şəhəri, forştat və Sabnova kəndində olan 1.986 müsəlman ailəsindəki 9.963 (5.184 kişi, 4.779 qadın), 87 yəhudi ailəsindən 455 (243 kişi, 212 qadın) və 42 erməni ailəsindəki 198 (107 kişi, 91 qadın) nəfər müvafiq olaraq islam, iudaizm və xristianlığın qriqoryan təriqətinə sitayiş edirdilər. 1832-ci ildə Dərbənddə keçirilmiş kameral təsvir sənədlərində əhalinin bütövlükdə tərkibi, o cümlədən dini tərkibi haqqında qənaətbəxş məlumatlar verilməmişdir. 1832-ci il sayımına görə, Dərbənd şəhəri, forştat və Sabnovada qeydiyyata alınmış 1.795 ailədə kişi cinsindən olan 5.139 nəfər yaşayır ki, onların 30-u erməni, 50-yə qədəri isə yəhudi ailəsidir.

1897-ci il Ümumrusiya siyahıyaalınmasının nəticələrinə görə, Dərbənd şəhərində 1.135 nəfər pravoslav, 3 nəfər təfriqəçi, 296 nəfər katolik, 25 nəfər protestant, 10.383 nəfər müsəlman, 2190 nəfər iudey, 613 nəfər müxtəlif xristian təriqətlərinə məxsus, 4 nəfər qeyri-xristian əhali yaşayırdı. Çox maraqlıdır ki, 1897-ci il sayımında qriqoryan əhalinin sayı göstərilməmişdir. Halbuki, 1897-ci ilə aid qubernator icmalında Dərbənd şəhərində hər iki cinsdən 942 qriqoryan əhalinin yaşaması faktı öz əksini tapmışdır.

XIX əsrin əvvəlləri də daxil olmaqla Dərbənd şəhəri əhalisinin dini tərkibində pravoslav, qriqoryan və iudaizmə inanan yəhudi əhalisinin sayı dinamik olaraq yüksələn xətlə artmışdır. Qriqoryan əhalinin sayında hər hansı bir sıçrayış müşahidə olunmadığı halda, pravoslav və yəhudilərin artımında belə hallar müşahidə olunmuşdur. Belə ki, 1902, 1906 və 1908-ci illərdə Dərbəndin pravoslav əhalisinin say dinamikasında kəskin sıçrayışlar baş vermiş və 1908-ci ildə pravoslav əhalinin sayı rekord həddə 8.645 nəfərə çatmışdı. Yəhudi əhalisinin sayında ciddi artımlar 1905 və 1908-ci illərdə qeydə alınmış və onların rekord say həddi 1908-ci ildə 6.518-ə çatmışdı.

1909-cu ildən etibarən Dərbənd əhalisinin sayında qeydə alınan azalma prosesi əhalinin dini tərkibində, xüsusilə də müsəlman əhalisinin sayında daha qabarıq müşahidə olunurdu. 1926-cı il Ümumrusiya siyahıyaalma sənədlərində əhalinin dini mənsubiyyəti haqqında məlumatlar olmadığı üçün Dərbənd əhalisinin dini tərkibində hansı proseslərin izlənməsi mümkün deyildir. Beləliklə, əldə olunan materialların təhlili göstərir ki, Dərbənd şəhəri əhalisinin etnik tərkibində baş verən proseslər əhalinin dini tərkibinə də təsir göstərmiş və çarizmin yeritdiyi ruslaşdırma, xristianlaşdırma siyasəti Dərbənd əhalisinin dini tərkibində müsəlmanların xüsusi çəkisinin kəskin şəkildə azalmasına gətirib çıxarmışdı.

Rus müəlliflərinin yazılarında Dərbənd əhalisinin **cinsi strukturu** haqqında ətraflı olmasa da, diqqəti cəlb edən bəzi faktlar öz əksini tapmışdır. P.Q.Butkov XVIII əsrin sonunda Dərbənd şəhəri və ətrafındakı 15 kənddə 9.300 nəfərin yaşadığını qeyd etsə də, bu rəqəmin əhalinin cinsi tərkibinə görə, necə bölünməsi haqqında məlumat verməmişdir. A.İ.Axverdovun 1804-cü ilə aid olan məlumatında Dərbənd şəhərində yaşayan 10 mindən çox əhalinin 3 mindən artığının kişi, 6 mindən çoxunun isə qadın olması göstərilir.

N.F.Rtişevin 1813-cü il tarixli hesabatına görə, 1810-cu ildə Dərbənddə qeydə alınmış 1.522 ailədə 4.175 kişi cinsindən olan əhali yaşayırdı. Dərbəndin Rusiya tərəfindən işğalından sonra çar məmurlarının apardığı siyahıyaalma materiallarında əhalinin cinsi tərkibi haqqında artıq statistik xarakterli dəqiq məlumatlar verilməyə başladı. Dərbəndin komendantı fon Aşeberqin 16 iyul 1824-cü il tarixdə keçirdiyi siyahıyaalmaya əsasən, şəhərdə qeydə alınmış 11.060 nəfər əhalinin 5.773 nəfərini kişilər, 5.287 nəfərini isə qadınlar təşkil edirdi. Dərbənd şəhərinin komendantı polkovnik Rozenfeldin 22 aprel 1830-cu il tarixli məlumatında da şəhər əhalisinin cinsi strukturu haqqında konkret rəqəmlər göstərilmişdir. Belə ki, 1830-cu ildə şəhərdə qeydə alınmış 1.911 ailədə 4.994 kişi, 4.624 qadın cinsindən olan əhali yaşayırdı. 1830-1873-cü illər arasında Qafqazda keçirilmiş kameral təsvir materiallarında Dərbənd əhalisinin cinsi tərkibi haqqında konkret rəqəmlərlə rastlaşmaq mümkündür. Lakin bu faktı 1832-ci il tarixli kameral sayım sənədlərinə tam şəkildə şamil etmək mümkün deyildir. Belə ki, həmin kameral təsvir sənədlərində Dərbənd, forştat və Sabnovada qeydə alınmış 1.795 ailədə kişi cinsindən olan 5.139 nəfərin yaşaması göstərilsə də, qadınların sayı haqqında məlumat öz əksini tapmamışdır. Dərbənddə keçirilmiş növbəti kameral təsvirlər, ailə siyahısı, qubernator hesabatı və icmallarında, həmçinin 1897-ci il Ümumrusiya və 1926-cı il Ümumittifaq siyahıyaalmalarında şəhər əhalisinin cinsi tərkibi haqqında dəqiq məlumatlar verilmişdir. Həmin il Dərbənd dairəsinə daxil olan 17 kənd sovetinin tərkibindəki 77 yaşayış məntəqəsində qeydə alınan 20.479 nəfərin 10.975-i kişi, 9.504-ü isə qadın cinsinə məxsus olmuşdur.

Qeyd etmək lazımdır ki, 1894-cü ilə aid statistik məlumatlara şəhərin yerli əhalisi, müvəqqəti əhalisi və şəhərdə yerləşən ordunun sayı ilə bağlı məlumatlar da daxil olunmuşdur. 1895-1898-ci illərə aid məlumatlara isə yalnız yerli və müvəqqəti əhali haqqındakı rəqəmlər daxil edilmişdir. 1899-1915-ci illəri əks etdirən rəqəmlər isə şəhərin yerli, müvəqqəti yaşayan əhalisi ilə yanaşı ordu hissələrinin sayını da əhatə edir. XIX əsrin 30-50-ci illərində Dərbənd şəhərində qadın cinsindən olan əhali say baxımından kişi cinsindən olan əhalidən artıq olmuşdur. Təbii ki, bu hal həmin dövrdə bölgədə baş vermiş hərbi-siyasi hadisələrlə birbaşa bağlı idi. XIX əsrin 80-cı illərindən 1915-ci ilə qədər Dərbənd əhalisinin cinsi struktur mənzərəsində kişi cinsindən olan əhalinin xeyrinə yaranmış dönüş XIX əsrin 90-cı illəri – XX əsrin əvvəllərində daha bariz şəkil almışdı. Bəhs olunan dövrdə Dərbəndin ümumrusiya bazarına fəal şəkildə qoşulması digər bölgələrdən iş dalınca Dərbəndə kişi cinsindən olan əhalinin daha çox axınına səbəb olmuş və nəticədə şəhər əhalisinin cinsi strukturunda kişi cinsindən olan əhalinin ümumi çəkisi kəskin şəkildə artmışdı. Bu proses 1917-ci il oktyabr çevrilişinə və Rusiyada vətəndaş müharibəsinin başlamasına qədər davam etmişdi. Bolşeviklərin yeritdiyi qırmızı terror və repressiya tədbirləri Dərbənd şəhəri əhalisinin cinsi strukturunda balansın yaranmasına ciddi təsir göstərmişdi. Təsadüfi deyildir ki, 1923-ci il şəhər və 1926-cı il Ümumittifaq siyahıyaal-

masının nəticələrinə görə, Dərbənd şəhəri əhalisinin cinsi tərkibində demək olar ki, tarazlıq yaranmışdı.

Dərbənd şəhəri əhalisinin **yaş tərkibinin** müəyyən edilməsi bir çox demoqrafik proseslərin araşdırılması, əhalinin gəncləşməsi və ya qocalması, nəsillərin dəyişməsi kimi problemlərin öyrənilməsi baxımından mühüm elmi əhəmiyyətə malikdir. Çox böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Dərbənd şəhəri əhalisinin yaş, yaş-cins strukturu haqqında mənbələrdə məlumatlar demək olar ki, yox dərəcəsindədir. 1886-cı ilə qədər Dərbənddə həyata keçirilmiş sayım materialları və kameral təsvirlərdə bu barədə heç bir məlumat yoxdur. Buna görə də XIX əsrin sonuna qədər Dərbənd əhalisinin yaş-cins strukturunda hansı demoqrafik proseslərin getdiyini izləmək qeyri-mümkündür. XX əsrin əvvəllərinə aid statistik materiallar da əhalinin yaş tərkibi haqqında heç bir məlumat verməmişdir. Bu mənada 1886-cı il tarixli ailə siyahıları və 1897-ci il tarixli Ümumrusiya siyahıyaalma materialları istisna təşkil edir. Belə ki, hər iki siyahıyaalma sənədlərində Dərbənd şəhəri əhalisinin müxtəlif yaş qrupları üzrə yaş-cins strukturu haqqında maraqlı statistik materiallar əsasında tərtib etdiyimiz cədvəllər XIX əsrin son rübündə Dərbənd əhalisinin yaş-cins strukturu haqqında müəyyən təsəvvür əldə etməyə imkan verir. Cədvəldə Dərbənd şəhərinin əhalisi müxtəlif yaş qrupunda sistemləşdirilmiş və hər yaş qrupu üzrə əhalinin cinsi tərkibi haqında məlumatlar da verilmişdir.

Cədvəl 4

1886-cı il ailə siyahısına görə kişi əhalisinin yaş tərkibi

| yaş | say |
|---|---|
| 0-1 yaşadək | 288 |
| 1-2 yaş | 197 |
| 2-3 yaş | 201 |
| 3-4 yaş | 143 |
| 4-5 yaş | 160 |
| 5-6 yaş | 144 |
| 6-7 yaş | 166 |
| 7-8 yaş | 152 |
| 8-9 yaş | 621 |
| 9-10 yaş | 154 |
| 10-11 yaş | 52 |
| 11-12 yaş | 111 |
| 12-13 yaş | 155 |
| 14-15 yaş | 209 |
| 15-16 yaş | 179 |
| 16-17 yaş | 188 |
| 17-18 yaş | 175 |
| 18-19 yaş | 144 |
| 19-20 yaş | 173 |

| | |
|---|---|
| 21-30 yaş | 1.136 |
| 31-40 yaş | 1.080 |
| 41-50 yaş | 578 |
| 51-60 yaş | 256 |
| 61-70 yaş | 149 |
| 71-80 yaş | 51 |
| 81-90 yaş | 8 |
| 91-100 və daha çox | - |
| Yaşı məlum olmayan | 8 |
| Yekun | |
| Kişi | 6.878 |
| Qadın | 5.046 |
| Hər iki cins | 11.924 |

1886-cı il ailə siyahısında Dərbənd əhalisinin qadınlar üzrə yaş tərkibi haqqında məlumat verilmədiyi üçün ətraflı təhlil aparmaq mümkün deyildir. Buna baxmayaraq müəyyən edilmişdir ki, 1886-cı ildə Dərbəndin kişi əhalisinin 2.753 nəfərini azyaşlılar və yeniyetmələr (15 yaşınadək olanlar), 1.995 nəfərini gənclər (15-30 yaşınadək), 1.914 nəfərini orta yaşlı əhali (30-60 yaşlılar), yalnız 216 nəfərini yaşlılar (61 yaşından yuxarı) təşkil etmişdir. Araşdırmalar Dərbənd əhalisinin inkişaf dinamikasının gəncləşməyə doğru getdiyini göstərir. 1897-ci il Ümumrusiya siyahıyaalma materialları analoji müqayisə ilə yanaşı, əhalinin yaş-cins meyarı üzrə təhlil üçün də şərait yaradır. 1897-ci il sayımına görə, Dərbənd əhalisinin böyük əksəriyyətini – 9.304 nəfərini azyaşlı, yeniyetmə və gənclər (30 yaşınadək olanlar), 4.394 nəfərini orta yaşlılar (30-60 yaşlılar), yalnız 1.011 nəfərini yaşlılar təşkil etmişdir. 30 yaşına qədər olan əhalinin (9.304 nəfər) 5.258-i kişi, 4.046-sı qadın, orta yaşlı əhalinin (4.394) 2.480-i kişi, 1.914-ü qadın, yaşlı əhalinin (1.011) 468-i kişi, 543-ü qadınlardan ibarət olmuşdur. Araşdırmalar göstərir ki, XIX-XX əsrin astanasında Dərbənd əhalisinin gəncləşməsi prosesi yüksələn xətt üzrə inkişaf edirdi. Maraqlıdır ki, Dərbənd əhalisi arasında uzunömürlülük baxımından kişilərə nisbətən qadın cinsindən olan əhalinin xüsusi çəkisi xeyli yüksək olmuşdur. 1897-ci il Ümumrusiya siyahıyaalma materiallarında Dərbənd şəhərinin hər iki cinsdən olan əhalisinin illər üzrə yaş tərkibi xüsusi cədvəl əsasında təqdim olunmuşdur.

Cədvəl 5

Dərbənd əhalisinin yaş və cins tərkibi
(1897-ci il Ümumrusiya siyahıyaalmasına görə)

| Yaş | Kişi | Qadın |
|---|---|---|
| 1 yaşdan az olanlar | 118 | 98 |
| 1-9 yaş | 1.740 | 1.721 |
| 10-19 | 1.374 | 1.123 |
| 20-29 | 2.026 | 1.104 |

| | | |
|---|---|---|
| 30-39 | 1.108 | 936 |
| 40-49 | 807 | 580 |
| 50-59 | 565 | 398 |
| 60-69 | 304 | 314 |
| 70-79 | 94 | 134 |
| 80-89 | 37 | 59 |
| 90-99 | 16 | 26 |
| 100-109 | 4 | 3 |
| 110 və daha çox | - | - |
| Yaşı məlum olmayan | 13 | 7 |
| Yekun | 8.206 | 6.503 |
| Hər iki cins | | 14.709 |

Dərbənd şəhəri əhalisinin öyrənilməsinin mühüm məsələlərindən biri də **əhalinin sosial tərkibinin** araşdırılmasıdır. Təəssüflə qeyd etmək olar ki, E.İ.Kozubski və A.N.Kajlayev istisna olmaqla, Dərbənd tarixi ilə məşğul olan tədqiqatçıların heç biri XIX-XX əsrin əvvəlində Dərbənd əhalisinin sosial tərkibi haqqında məlumat verməmişlər. Qeyd edilən müəlliflər isə şəhər əhalisinin sosial tərkibini dərindən təhlil etməyərək, sadəcə olaraq bir sıra statistik rəqəmləri xatırlatmaqla kifayətlənmişlər. Halbuki, mənbələrdə, xüsusilə də XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid olan sayım materiallarında və qubernator icmallarında Dərbənd əhalisinin sosial tərkibi haqqında maraqlı məlumatlar öz əksini tapmışdır. Dərbənd əhalisinin sosial tərkibi haqqında əldə etdiyimiz ilk məlumat 1830-cu ilə aiddir. Dərbənd komendantı polkovnik Rozenfeldin 1830-cu il 22 aprel tarixli hesabatında verilən məlumata əsasən, Dərbənd şəhərində qeydə alınmış 9.618 nəfərin 55-i bəy, 44-ü seyid, 29-u molla, 4-ü şeyx, 2-si axund, 2-si erməni ruhanisi, 2-si yəhudi ruhanisi, forştatda yaşayan 801 nəfərin 1-i molla, Sabnovada yaşayan 197 nəfərin 2-si molla, 1-i isə şeyx olmuşdur. Dərbənd şəhərində keçirilmiş ilk kameral təsvir materiallarında da əhalinin sosial tərkibi haqqında bəzi statistik rəqəmlər göstərilmişdir. Həmin sayım sənədlərinə görə, 1832-ci ildə Dərbənddə siyahıya düşmüş kişi cinsinə məxsus 5.139 nəfərin 66-sı bəy, 2-si erməni zadəganı, 4-ü axund, 39-u molla, 11-i azan verən, 43-ü seyid, 4-ü erməni ruhanisi, 3-ü yəhudi ruhanisindən ibarət olmuşdur.

1886-cı il ailə siyahısı və 1897-ci il Ümumrusiya siyahıyaalma materiallarında da əhalinin sosial tərkibi haqqında məlumatlar vardır. Həmin sayım materiallarında əhalinin sosial tərkibi fərqli parametrlər üzrə verildiyi üçün onları bir cədvəldə yerləşdirmək mümkün olmadığına görə, ayrı-ayrılıqda şərh etmək lazımdır. Beləliklə, 1886-cı il ailə siyahıyaalmalarına görə, Dərbənd şəhəri əhalisinin 150-si zadəgan (110-u kişi, 40-ı qadın), 291-i bəy (250-si kişi, 41-i qadın), 6-sı pravoslav ruhani (4-ü kişi, 2-si qadın), 300-ü fəxri vətəndaş (158-i kişi, 142-si qadın), 22-si tacir (12-si kişi, 10-u qadın), 8.844-ü şəhərli (8.214-ü kişi, 630-u qadın), 52-si ehtiyatda olan aşağı rütbəli

məmurlardan (30-u kişi, 22-si qadın) ibarət olmuşdur. Maraqlıdır ki, 1886-cı il ailə siyahıyaalmalarında Dərbənddə kəndli və müsəlman din xadimləri kateqoriyaları haqqında məlumat verilməmişdir. 1897-ci il Ümumrusiya siyahıyaalma materiallarında isə əhalinin sosial tərkibi daha bəsit parametrlər üzrə göstərilmişdir. Belə ki, həmin sayımın nəticələrinə əsasən, Dərbənd şəhəri əhalisinin 740-nı irsi və şəxsi zadəganlar, 30-nu ruhanilər, 148-ni tacirlər, 11.142-ni şəhərlilər, 2.306-nı kəndlilər, 214-nü xarici təbəələr, 69-nu isə digər sosial təbəqələr təşkil edirdi. Göründüyü kimi, 1886 və 1897-ci il statistik rəqəmləri arasında ətraflı müqayisələr aparmaq qeyri mümkündür.

Statistik məlumatların təhlili göstərir ki, Dərbənd əhalisinin sosial tərkibi əsasən imtiyazlı təbəqə olan zadəgan və ruhanilərdən, həmçinin vergi verən təbəqəyə aid olan şəhərli və kəndlilərdən ibarət olmuşdur. Çox maraqlıdır ki, 1898-ci ildən sonra Dərbənd əhalisinin sosial tərkibində kəndli kateqoriyası aradan çıxmışdır. Zadəgan silkinə məxsus olan əhalinin say dinamikasında artım üç dəfə, 1899-cu (245 nəfər), 1905-ci (147 nəfər) və 1908-ci (143 nəfər) illərdə qeydə alınmışdır. Zadəgan silkinə məxsus olan bəylərin say dinamikasında nəzərə çarpacaq dərəcədə artım isə iki dəfə, 1905-ci (147 nəfər) və 1908-ci (179 nəfər) illərdə baş vermişdir. İmtiyazlı silkə aid olan ruhanilərin sayında XIX əsrin sonunda müşahidə olunan artım prosesi XX əsrin əvvəllərində azalma və stabilləşmə dövrü ilə əvəz olunmuşdur. Şəhər əhalisinin tərkibində qeydə alınan irsi fəxri vətəndaşlar və tacirlərin sayı demək olar ki, dəyişməz olduğu halda, şəhərli kateqoriyasının sayı XIX əsrin sonundan başlayaraq 1908-ci ilə qədər yüksələn xətlə artmış, sonrakı dövrdə isə azalma prosesi baş vermişdi. Dərbənd əhalisinin sosial tərkibində 1903-cü ildən qeydə alınan silki məlum olmayan əhalinin sayında 1905-ci ildə 1904-cü ilə nisbətən 2 dəfə, 1906-cı ildə isə 1905-ci ilə nisbətən 2,5 dəfə artım baş vermişdi. Bu artım isə iş ardınca qonşu bölgələrdən Dərbəndə əhali axınının güclənməsi ilə əlaqədar olmuşdu. Beləliklə, aydın olur ki, əhalinin say dinamikasına təsir göstərmiş səbəblər Dərbənd əhalisinin sosial tərkibində də izsiz ötüşməmişdi.

**Əhalinin miqrasiyası.** Əsrlər boyu Azərbaycan dövlətlərinin, Azərbaycan ərazisinin də daxil olduğu imperiyaların şimal sərhəd məntəqəsi rolunu oynayan Dərbənd xüsusi qayğı və mühafizə tələb etdiyi üçün Dərbənd istiqamətində zaman-zaman əhalinin köçürülməsi halları müşahidə olunmuşdur. Tarixi qaynaqlarda Sasani imperatorları, Ərəb xəlifələri, Səfəvi hökmdarlarının Dərbənd keçidini qorumaq məqsədilə bura çoxlu sayda əhali köçürmələri haqqında faktlar mövcuddur. Bu proses I Pyotrun Xəzərsahili bölgələrə yürüşü, xanlıqlar dövrü və XIX-XX əsrin əvvəllərinə qədər davam etsə də, əvvəlki dövrlərdə olduğu kimi genişmiqyaslı olmamışdır. Bunun əsas səbəbi XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərinin özünəməxsus xüsusiyyəti, onun qapalı şəhər xarakteri daşıması ilə bağlı olmuşdur. XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərinə Rusiya imperiyasının digər quberniyalarından əhali, xüsusilə də xristian və yəhudi mənşəli əhalinin miqrasi-

yası baş vermişdir. Qeyd etmək lazımdır ki, XVIII əsrə qədər Dərbənd şəhərində xristian mənşəli əhali (erməni, rus və s.) qeydə alınmamışdır. Dərbənddə xristian mənşəli əhalinin məskunlaşması I Pyotrun Xəzərsahili bölgələrə yürüşü dövrünə təsadüf edir. I Pyotrun təlimatına əsasən ermənilər 1724-cü ilin noyabr ayında Dərbəndə köçmək üçün Rusiya xarici işlər kollegiyasına müraciət etdilər. Müraciətdə Şamaxı sakini Pop Anton özü ilə bərabər Dərbəndə 50 erməni ailəsinin yerləşdirilməsini xahiş edirdi. Bu müraciətlə əlaqədar olaraq 1724-ci il 10 noyabr tarixli fərmanla Dərbəndin komendantı Yunger və general Matyuşkinə həmin ermənilərin şəhərin baş evlərində və həmçinin rusların əleyhdarları hesab edilən, şübhəli adamların evlərində yerləşdirilməsinə göstəriş verilmişdir. Pyotrun ölümü ermənilərin Dərbəndə köçməsinin qarşısını almışdı. 1727-ci ildə Polşada yaşayan ermənilər Dərbəndə köçmək üçün Rusiya hökumətinə müraciət etmiş və onlara müvafiq razılıq verilmişdi. 1723-cü ildə Osmanlı ordusu Gürcüstanı və indiki Ermənistan ərazisini ələ keçirən zaman yaşadıqları ərazini tərk edən 700 nəfərdən ibarət gürcü və ermənilər Gilana gəlmiş və 1730-cu ildə oradan Dərbəndə köçürülmüşdülər. Qraf Zubovun yürüşü zamanı xəyanət edərək ruslara satqınçılıq yolu ilə xidmət edən ermənilər Dərbəndin müsəlman əhalisinin qəzəbinə tuş gəlməkdən qorxaraq rus qoşunları Qafqazdan geri çağırıldıqdan sonra Dərbəndi tərk etmək qərarına gəlmişdilər. E.İ.Kozubskinin yazdığına görə, Dərbənd şəhəri və onun ətrafındakı 9 kənddə yaşayan 4.000 nəfərdən çox əhalini əhatə edən 500 erməni ailəsi rus qoşunlarının mühafizəsi altında Rusiya ərazisinə köçmək üçün rəsmi müraciət etmişdilər. E.İ.Kozubskinin Dərbənddə yaşayan erməni əhalisinin sayı haqqında yazdığı məlumat real gerçəkliyə uyğun gəlmir. XVIII əsrin sonunda Dərbənd xanlığının əhalisi şəhər və ətraf kəndlər də daxil olmaqla 9-10 minə qədər olmuşdur. Həmin dövrdə Dərbənddə cəmi 60-100 erməni ailəsinin olması faktını digər rus müəllifləri də təsdiq edirdilər.

Ermənilərin Dərbənddən köçmək haqqında müraciətlərinə cavab olaraq qraf Qudoviçə ünvanlanmış 1 may 1797-ci il tarixli fərmanda ermənilərin Astarxan və Qızılyara köçürülməsi üçün lazımi tədbirlərin görülməsi tapşırılırdı. Çar hökumətinin 4 avqust 1798-ci il, 15 aprel və 28 oktyabr 1799-cu il tarixli fərmanları ilə Dərbəndi tərk edən ermənilər adambaşına 30 desyatin torpaqla təmin edilərək Qızılyar qəzasının 2, Mazdok və Georgiyevskin 1 kəndində məskunlaşdırıldılar. Həmin fərmanlarda Dərbənd ermənilərinin bir hissəsinin müqəddəs Krest (xaç) şəhərinə də köçürülməsi nəzərdə tutulsa da, həmin şəhərə Dərbənddən cəmi 5 erməni (3 kişi, 2 qadın) köçmüşdü. 1806-cı ildə Dərbənd Rusiya tərəfindən yenidən işğal edildikdən sonra Qızılyara köçürülmüş ermənilərin bir hissəsi yenidən Dərbəndə qayıtmağa başlamışdı. E.İ.Kozubskinin məlumatına əsasən, 1810-cu ildə Dərbənddə artıq 56 erməni var idi. Ermənilərin Dərbəndə köçürülməsi bütün XIX əsr boyu davam etmişdi. 1871-ci ildə İrandan sənətkarlıqla məşğul olan 16 erməni Dərbəndə köçürülmüşdü. XIX əsrin II yarısı – XX əsrin əvvəllərində ermənilərin kütləvi

şəkildə Dərbəndə köçürülməsi qeydə alınmasa da, müxtəlif illərdə ayrı-ayrı erməni ailələrinin Dərbənddə məskunlaşması danılmaz bir faktdır. Bunu 1896-cı ildən Dərbənd şəhər ictimai idarəsinə seçilən nümayəndələr haqqındakı arayışlar da təsdiq edir. Belə ki, birinci şəhər ictimai idarəsinin tərkibinə seçilmiş 6 erməni nümayəndəsinin 4-ü şəhərin yerli sakini kimi göstərildiyi halda, M.S.Saruxanovun 1865-ci, K.İ.Şahicanovun 1874-cü ildən Dərbənddə yaşadığı qeyd olunmuşdur. 1900-cü ildə Dərbənd şəhəri ictimai idarəsinə seçilmiş erməni nümayəndələrindən R.Q.Mailovun və K.A.Orbelovun 1864-cü, A.İ.Simonyansın isə 1887-ci ildən Dərbənddə yaşadığı göstərilmişdir. 1904-cü il seçkilərində şəhər ictimai idarəsinin tərkibinə daxil olan Məlik Şahnəzərovun 1872-ci, M.Q.Poqasovun 1875-ci, A.İ.Simonyansın 1895-ci, M.İ.Astvaqaturovun 1902-ci, S.A.Ter-Qazaryansın 1901-ci ildən Dərbəndə yaşaması göstərilmişdir. Göründüyü kimi, XX əsrin əvvəllərində də ermənilərin Dərbəndə köçürülməsi prosesi davam edirdi. 1903-cü ildə Yelizavetpol quberniyasından 21 erməninin (13 kişi, 8 qadın) Dərbənd şəhərində yerləşməsi haqqında məlumatlar vardır.

Qədim dövrlərdən Dərbənd və ətraf ərazilərdə məskunlaşmış dağ yəhudilərinin bu və ya digər səbəblərlə bağlı yerdəyişməsi prosesi baş verirdi. Mənbələrin məlumatına görə, Qazıqumux hakimi Surxay xan 1797-ci ildə öz düşməni Şeyxəli xanın mülklərinə hücum etmiş, Dərbənd şəhərini ələ keçirə bilməsə də şəhərdən 18 km. cənubda yerləşən dağ yəhudilərinin məskunlaşdığı Abasova kəndini dağıtmış, bəzi məlumata əsasən 157, digər məlumata görə isə 200-dən çox kənd sakinini qətlə yetirmişdi. Bundan sonra Şeyxəli xan sağ qalmış, 150-yə yaxın yəhudini Dərbəndə köçürmüşdür. Dərbəndə köçürülmüş yəhudilər şəhərin o zaman hələ məskunlaşdırılmamış Dubara hissəsində yerləşdirilmiş və sonralar həmin hissə Yəhudi məhəlləsi kimi tanınmışdı. Dağ yəhudilərinin Dərbənddə məskunlaşması tarixi qədim dövrlərə gedib çıxsa da, avropalı (rus) yəhudilərinin şəhərə gəlişi E.İ.Kozubskinin məlumatına görə, XIX əsrin sonuna – Dərbənddə balıqçılıq sənayesinin inkişafı dövrünə təsadüf edirdi. Yəhudilər ayrı-ayrı vilayət hakimlərinin təzyiq və sıxıntılarından xilas olmaq, sığınacaq əldə etmək məqsədilə də Dərbəndə gəlirdilər.

Digər ərazilərdən əhalinin Dərbəndə köçməsi ilə yanaşı, Dərbənd şəhərindən də əhalinin miqrasiyası haqqında məlumatlar vardır. Belə ki, 1877-ci ildə Osmanlı-Rusiya müharibəsinin başlanması İçkeriya və Auxda əhalinin narazılığına səbəb olmuşdu. 1877-ci ilin avqustunda bu narazılıq ruslara qarşı üsyana çevrilmiş və üsyançılar sentyabrın 8-də rusların Kumıx istehkamlarını dağıtdıqdan sonra Mehdinin başçılığı altında Dərbəndə hücuma başlamışdılar. Yaranmış təhlükə ilə əlaqədar olaraq rus hərbçilərinin şəhəri tərk etməmək əmrinə rəğmən yüzlərlə ailə, xüsusilə də ermənilər və yəhudilər paroxodlarla Dərbəndi tərk etmişdilər. General Komarovun əmri ilə Bakıdan göndərilmiş xüsusi gəmi 26 hərbçi ailəsini də Dərbənddən Həştərxana aparmışdır.

Dərbənddə rus əhalisinin məskunlaşması tarixi XVIII əsrdən başlasa da onların burada əsaslı şəkildə yerləşməsi 1806-cı ildə Dərbəndin Rusiya tərə-

findən qəti işğalından sonra başlanmışdır. İlk əvvəllər Dərbəndə rus hərbiçi və məmur ailələri, sonra dinc əhalinin miqrasiyası başlanmış və bu proses sovet hakimiyyəti dövründə də davam etmişdir. Dərbəndə köçürülmüş ruslar şəhərin rus məhəlləsində məskunlaşırdılar. Mənbələrdə ayrı-ayrı illərdə Dərbəndə nə qədər rus ailəsinin köçürülməsi haqqında dəqiq statistik məlumat əldə etmək mümkün deyildir. Onu da qeyd etmək lazımdır ki, Dərbəndə köçürülmüş müxtəlif etnosların nümayəndələrinin şəhər icmasına qəbul edilməsi prosesi uzun müddət çəkirdi. E.İ.Kozubskinin XIX əsrin sonu – XX əsrin əvvəllərində əhalinin Dərbənd şəhər icmasına qəbul edilməsi haqqındakı məlumatı miqrasiya prosesi haqqında müəyyən bilgi yaradılmasına xidmət edir. Müəllifin məlumatına görə, şəhər icmasına 1896-cı ildə 8 ailə başçısı qəbul edilmiş, 5-i çıxarılmış, 1897-ci ildə 7-si qəbul edilmiş, 18-i çıxarılmış, 1898-ci ildə 7-si qəbul edilmiş, 6-sı çıxarılmış, 1900-cu ildə 19-u qəbul edilmiş, 3-ü çıxarılmış, 1901-ci ildə 18-i qəbul edilmiş, 5-i çıxarılmış, 1902-ci ildə 17-si qəbul edilmiş, 6-sı çıxarılmışdı. 1903-cü ildə Dərbəndin şəhər əhalisi kateqoriyasına Dağıstan vilayətindən 26 yəhudi (14 kişi, 12 qadın) Yelizavetpol quberniyasından 21 erməni (13 kişi, 8 qadın), Kiyev quberniyasından 5 rus (3 kişi, 2 qadın), 1904-cü ildə Dağıstan vilayətindən 3 yəhudi (1 kişi, 2 qadın), Tersk vilayətindən 1 yəhudi kişi, Ryazan quberniyasından 5 rus (2 kişi, 3 qadın), Bakı quberniyasından 3 müsəlman kişi, 1905-ci ildə Voronej quberniyasından 5 rus (4 kişi, 1 qadın), Bakı quberniyasından 5 erməni (2 kişi, 3 qadın) qəbul edilmişdi. Dərbənd şəhər ictimai idarəsinin 1905-ci il 8 avqust tarixli iclasında artıq çoxdan Nitıq, Muqatır, Qmeydi, Marağa və Rukel kəndlərindən Dərbəndə köçmüş 126 dağ yəhudisinin yəhudi icmasına qəbul haqqında müraciətlərinə baxılması da Dərbəndə əhali axınının miqyası və etnik xarakteri haqqında təsəvvür yaradır. Dərbənd şəhəri əhalisinin say dinamikasında erməni, yəhudi və rus mənşəli əhalinin xüsusi çəkisini əks etdirən cədvəl 6-da əhalinin miqrasiyası ilə bağlı müəyyən fikirlər söyləməyə imkan verir.

Cədvəl 6

Dərbənd şəhər əhalisi içərisində qeyri müsəlmanların payı

| İllər | ermənilər | | yəhudilər | | ruslar | |
|---|---|---|---|---|---|---|
| | sayı | əhalinin ümumi sayına nis. % | sayı | əhalinin ümumi sayına nis. % | sayı | əhalinin ümumi sayına nis. % |
| 1824 | 239 | 2,1 | 444 | 4 | - | - |
| 1873 | 284 | 2,5 | 871 | 7,7 | 546 | 4,8 |
| 1897 | 621 | 4,2 | 2.181 | 14,9 | 1.092 | 7,5 |
| 1926 | 812 | 3,5 | 6.597 | 28,6 | 5.499 | 23 |

Hesablamalar göstərir ki, Dərbənd şəhərinə erməni mənşəli əhalinin ən güclü miqrasiyası 1873-1897-ci illər arasında, yəhudi və rusların axınları isə 1897-1926-cı illər arasında baş vermişdi. Aydın məsələdir ki, 1897-

1926-cı illər arasında Dərbənd şəhərində yəhudilərin təbii artım hesabına 3 dəfə, rusların isə 5 dəfə çoxalması qeyri-mümkündür.

Sosial-iqtisadi inkişafın sürətlənməsi iş dalınca Dərbənd istiqamətində əhalinin miqrasiyasına böyük təsir göstərdi. Məhz bunun nəticəsidir ki, XX əsrin əvvəllərində Dərbənddə müvəqqəti yaşayan əhalinin sayı xeyli artmışdı. Qubernator icmalları əsasında tərtib etdiyimiz cədvəl 7-də XX əsrin əvvəllərində Dərbənddə müvəqqəti məskunlaşmış əhalinin say dinamikası və təbii ki, əhalinin miqrasiyasının miqyasını əks etdirir.

Cədvəl 7

Dərbənd əhalisinin ümumi sayı içərisində yerli və müvəqqəti yaşayan əhalinin payı

| İllər | Əhalinin ümumi sayı | Yerli əhalinin sayı | Müvəqqəti yaşayan əhalinin sayı |
|---|---|---|---|
| 1900 | 18.555 | 16.930 | 1.625 |
| 1901 | 18.775 | 17.177 | 1.598 |
| 1903 | 20.983 | 18.117 | 2.866 |
| 1904 | 21.515 | 18.416 | 3.099 |
| 1906 | 29.777 | 18.779 | 10.998 |
| 1908 | 35.415 | 21.162 | 14.253 |
| 1910 | 32.871 | 19.042 | 13.829 |
| 1911 | 32.716 | 19.283 | 13.433 |
| 1912 | 33.152 | 19.585 | 13.567 |
| 1913 | 33.584 | 19.885 | 13.699 |
| 1915 | 33.540 | 20.516 | 13.024 |

Göründüyü kimi, XX əsrin əvvəllərində Dərbənddə müvəqqəti yaşayan əhalinin sayı 1908-ci il də daxil olmaqla dinamik şəkildə artmış, 1910-cu ildən etibarən isə onların sayında stabillik yaranmışdı. Dərbənddə müvəqqəti yaşayan əhalinin sayında sürətli sıçrayış 1906-cı ildə yaranmış və 1904-cü ilə nisbətən 1906-cı ildə onların sayı üç dəfə çoxalmışdı.

Beləliklə, araşdırmalar göstərir ki, 1867-ci ilə qədər hərbi strateji xarakterli qapalı şəhər olduğu üçün Dərbənddə iri miqyaslı miqrasiya prosesi qeydə alınmamışdır. Rusiya hərbi nazirinin 31 oktyabr 1867-ci il tarixli fərmanı ilə Dərbənd qalası ləğv edildikdən sonra, xüsusilə də XX əsrin əvvəllərində yuxarıda göstərilən iqtisadi faktorlarla bağlı Dərbənddə əhalinin miqrasiyası prosesi xeyli güclənmişdir.

**Nəticə.** Beş min illik zəngin tarixə malik olan Dərbənd əsrlər boyu Azərbaycanın möhtəşəm, yenilməyən sərhəd qala şəhəri, qaynaqların qan yaddaşına hopmuş dəmir qapı rolunu oynamışdır. Səfəvi imperatorluğunun zəifləməsi, XVIII əsrin başlanğıcında vahid Azərbaycan dövlətçiliyinin tənəzzülü zaman-zaman torpaqlarımıza işğal prizmasından baxan yadellilərin əlinə tarixi şans vermiş oldu. 1722-ci ildə I Pyotrun, 1796-cı ildə qraf V.Zubovun yürüşləri zamanı Azərbaycan torpaqlarının bir hissəsi, o cümlədən Dərbənd zəbt olunsa da yaranmış tarixi şərait həmin ərazilərin uzun müddət Rusiya

imperiyasının işğalı altında qalmasına mane oldu. XIX əsrin başlanğıcında Qafqazda açıq işğal siyasətinə başlayan Rusiya nəhayət ki, Cənubi Qafqaza giriş qapısı olan Dərbənd şəhərini fəth etməyə nail oldu. 1806-cı il iyun ayının 22-də general Qlazenapın rəhbərliyi altında rus qoşunlarının Dərbəndi işğal etməsi ilə inzibati baxımdan Quba xanlığının tərkibində olan Dərbəndin müstəqilliyinə həmişəlik son qoyulmuş oldu.

Beləliklə də, Dərbəndin inzibati idarəçilik, sosial-iqtisadi və siyasi tarixində yeni bir mərhələ başlandı. Rusiya işğalının ilk mərhələsində Sabnova kəndi istisna olmaqla Ulus mahalına daxil olan kəndlər Dərbənd xanı vəzifəsinə təyin edilmiş Tarku şamxalının idarəçiliyi altına verilmiş, Dərbənd şəhərində isə «hərbi-xalq» idarə üsulu yaradılaraq komendant vəzifəsi təsis edilmişdi. Xalq idarə üsulunun təmsilçisi kimi Rusiyaya sədaqətinə görə, şəhər rəisi təyin edilmiş Əlipənah bəy vergi toplamaq, xırda məhkəmə işlərini aparmaq və s. kimi səlahiyyətlərə malik olsa da tamamilə qalanın komendantı olan rus zabitindən asılı idi. 1812-ci ildə komendantların özbaşınalığının qarşısını almaq üçün Dərbənd əyalətə çevrilmiş və qalanın komendantı Dağıstan hərbi rəisinə tabe edilmişdi. 1840-cı il 10 aprel qanununa əsasən, Cənubi Qafqazda quberniya idarə üsulu təşkil edilmiş və Dərbənd qəza statusu ilə Xəzər vilayətinin tərkibinə qatılmışdı. 14 dekabr 1846-cı il tarixli «Əsasnamə»yə görə, Xəzər vilayəti ləğv edilmiş, tarixi Azərbaycan torpaqlarının bir hissəsi yeni yaradılmış Şamaxı, bir hissəsi Tiflis, bir hissəsi isə Dərbənd quberniyasının tərkibinə daxil edilmişdi. Dərbəndin quberniya mərkəzinə çevrilməsi şəhərin inkişafına müsbət təsir göstərmişdi. 1860-cı il 10 iyun tarixli «Əsasnamə» ilə Dərbənd quberniyası ləğv edilmiş və Dərbənd şəhəri yeni yaradılmış Dağıstan vilayətinin tərkibinə qatılmışdı. Beləliklə, çarizmin müstəmləkəçi inzibati-idarə siyasəti nəticəsində inzibati baxımdan heç zaman Dağıstanla bağlı olmayan Dərbənd şəhəri Azərbaycandan qoparılmışdı. Bununla da, Dərbəndin özgələşdirilməsi, yadlaşdırılması prosesinin əsası qoyulmuşdu. Dərbəndin inzibati idarə sistemində növbəti dəyişiklik 1895-ci ildə baş vermişdi. Şəhər «Əsasnamə»sinin tətbiqi ilə əlaqədar Dərbənddə yaradılmış sadələşdirilmiş şəhər ictimai idarəsi mütləqiyyətin devrilməsinə qədər fəaliyyət göstərmişdi.

Dərbənd əhalisinin sayı barədə XVIII əsrin sonu – XIX əsrin əvvəllərinə aid məlumatlar ilə Rusiya işğalından sonra şəhərdə keçirilmiş 1810-cu il əhali siyahıyaalma materiallarına əsasən əhalinin sayının nəzərə çarpacaq dərəcədə azalması Rusiya işğalının acı nəticələri və Rusiya-İran müharibəsi ilə əlaqədar olmuşdu. Müharibənin başa çatmasından sonra yaranmış sabitlik əhalinin say dinamikasının artmasına təsir göstərmişdi. Məhz bunun nəticəsidir ki, artıq 1824-cü il sayımı zamanı Dərbənddə 11.060 nəfər əhalinin yaşaması müəyyən edilmişdi. XIX əsrin 30-40-cı illərində Dərbənddə həyata keçirilmiş kameral təsvirlərə əsasən, əhalinin sayında ciddi artım baş verməmişdi.

XIX əsrin 40-70-ci illərində Dərbənddə marena istehsalının genişlənməsi, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına və təbii ki, sa-

yının artmasına da səbəb olmuşdu. Marena istehsalının tənəzzülü əhalinin sayına da mənfi təsir göstərmişdi. 1886-cı il ailə siyahıyaalmalarına görə, şəhər əhalisinin sayı azalmışdı. 1897-ci il Ümumrusiya siyahıyaalmasına görə, Dərbənd əhalisinin sayının nisbi artımı üzümçülük və bağçılıq təsərrüfatının inkişafı nəticəsində mümkün olmuşdu.

1908-ci ildə Dərbənd əhalisinin sayı rekord həddə – 35.415 nəfərə çatmışdı. 1917-1920-ci illərdə Rusiyada baş vermiş hadisələr – oktyabr çevrilişi, vətəndaş müharibəsi, bolşevik terroru və s. Dərbənd əhalisinin sayının kəskin azalmasına, əhalinin kütləvi şəkildə başqa ölkələrə köçməsinə səbəb olmuşdu. 1920-ci ildə şəhər əhalisinin sayının 18.859 nəfərə enməsi bütün bu proseslərin məntiqi nəticəsinin göstəricisi idi. 1920-1926-cı illərdə nisbi sakitliyin yaranması əhalinin sayına da müsbət təsir göstərmiş və 1926-cı il Ümumittifaq siyahıyaalınması zamanı Dərbənd əhalisinin 23.097 nəfərə qədər artması müəyyən edilmişdi.

Xanlıqlar dövründə Dərbənd xanlığının ərazisi Dərbənd şəhəri və Ulus mahalından ibarət olmuş və 1883-cü ilə qədər Ulus mahalı inzibati baxımdan Dərbənd şəhərinə tabe olmuşdu. Ulus mahalına məxsus kəndlərin sayı haqqında mənbələrdə müxtəlif məlumatlar vardır. Bəzi məlumatlara görə, Ulus mahalında 15, digər məlumatlara görə isə 17 və hətta 9 kənd olmuşdu.

Dərbənddə əhalinin məskunlaşmasında müəyyən mənada dini və etnik prinsiplər gözlənilirdi. Belə ki, şəhərin müsəlman əhalisi Dərbəndin 9 məhəlləsində, forştat hissəsində və Sabnova kəndində, ruslar «soldatskaya slobodka» adlanan rus məhəlləsində, yəhudilər Dubara adlı yerdə salınmış yəhudi məhəlləsində, ermənilər isə rus və yəhudi məhəllələrində məskunlaşmışdılar.

Dərbənd əhalisinin tərkibinin araşdırılması bir sıra əhəmiyyətli nəticələrin aşkara çıxarılmasına səbəb olmuşdur. Statistik məlumatların təhlili göstərmişdir ki, XIX əsrin 60-cı illərinə qədər Dərbənd əhalisinin cinsi strukturunda qadınlar üstünlük təşkil etmiş, sonrakı dövrlərdə isə bu nisbət kişi əhalisinin xeyrinə dəyişmişdi. XX əsrin əvvəllərində şəhər əhalisinin cinsi strukturunda kişilərin üstünlüyü daha qabarıq xarakter almış, hətta 1906-1915-ci illər arasında kişilərin sayı qadınlardan iki dəfə artıq olmuşdu. Araşdırmalar göstərir ki, bunun əsas səbəbi iş ardınca Dərbəndə gələrək müvəqqəti məskunlaşmış kişi əhalisinin axını ilə bağlı olmuşdur. Şəhər əhalisinin yaş-cins strukturunu müəyyən etmək üçün mənbələrdə məlumatların kasadlığı böyük çətinlik yaratsa da, 1886-cı il ailə siyahısı və 1897-ci il Ümumrusiya siyahıyaalma materiallarının təhlili göstərmişdir ki, şəhər əhalisinin böyük əksəriyyətini uşaqlar, yeniyetmə və gənclər təşkil etmişdir. Uzunömürlülük baxımından Dərbənd əhalisi arasında kişilərə nisbətən qadınların xüsusi çəkisi yüksək olmuşdu.

XVIII əsrin sonu – XIX əsrin əvvəllərinə aid qaynaqlarda Dərbəndin etno-siyasi xəritəsində yalnız Azərbaycan, erməni və yəhudi etnoslarının adı çəkilir ki, onların arasında yalnız Azərbaycan türkləri şəhərin aborigen əhalisi olmuşlar. Erməni və rus mənşəli əhalinin Dərbəndə gəlməsi I Pyotrun Xəzər

sahili yürüşündən sonrakı dövrlərə təsadüf edir. Ruslar özlərinə sosial-etnik dayaq yaratmaq məqsədi ilə erməni və rus əhalisinin şəhərə köçürülməsinə hər vəchlə yardım göstərirdilər. XIX əsrin sonlarına aid qaynaqlarda Dərbənd əhalisinin etnik tərkibində bir sıra yeni etnosların – alman, polyak, fin, gürcü, latış, ləzgi, fars və başqalarının adı çəkilsə də onların sayı o qədər də çox deyildi. Çarizmin ruslaşdırma, xristianlaşdırma istiqamətində bütün cəhdlərinə baxmayaraq XX əsrin əvvəlinə qədər Dərbənd əhalisinin etnik tərkibində ciddi dəyişiklik yaratmaq mümkün olmamışdı. Belə ki, 1897-ci ildə şəhər əhalisinin 4,2%-i erməni, 14,9%-i yəhudi və 7,5 %-i ruslardan ibarət olduğu halda, əhalinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil edirdi. XX əsrin ilk onilliklərində isə şəhər əhalisinin etnik tərkibində qeyri-türklərin xeyrinə dönüş yaranmışdı. 1926-cı il sayımına görə, şəhər əhalisinin 23 %-ni ruslar, 28,6 %-ni yəhudilər, 3,5 %-ni isə ermənilər təşkil edirdi.

Dərbənd əhalisinin dini mənsubiyyətinə görə, tərkibi müəyyən mənada etnik tərkibi ilə uzlaşırdı. Dini mənsubiyyətinə görə, əhali islam, xristianlıq və iudaizm dinlərinə sitayiş edirdilər. Dərbənd şəhəri əhalisinin əksəriyyətini, xüsusilə də XX əsrin əvvəllərinə qədər şiə, az bir qismini isə sünni əhali təşkil edirdi. Xristian əhali içərisində ruslar pravoslav, ermənilər qriqoryan, az miqdarda əhali isə protestant, katolik və lüteran təriqətinə etiqad edirdilər.

XIX əsrin 60-cı illərinə qədər Dərbənd əhalisinin sosial tərkibində yalnız sadə əhali, bəy, zadəgan, din xadimləri (müsəlman, erməni və yəhudi din xadimləri) kateqoriyalarının adlarına rast gəlinir.

1886-cı il ailə siyahılarında əhalinin sosial tərkibində zadəgan, bəy, pravoslav ruhani, fəxri vətəndaş, tacir, şəhərli, məmur kateqoriyalarının adları çəkildiyi halda kəndli və müsəlman ruhaniləri təbəqəsi haqqında məlumat yoxdur. 1897-ci il Ümumrusiya sayım materiallarında əhalinin sosial tərkibi daha bəsit sosial zümrələr çərçivəsində – irsi və şəxsi zadəganlar, ruhanilər, tacirlər, şəhərlilər, kəndlilər və xarici təbəələr şəklində verilmişdir. Qubernator icmallarına görə, XIX əsrin sonu – XX əsrin əvvəllərində şəhər əhalisinin tərkibində irsi və şəxsi zadəganlar, kəndlilər, hərbiçilər və xarici təbəələr kimi sosial təbəqələrin adı çəkilmiş, lakin sənətkarlar sosial zümrə kimi xatırlanmamışdır. Çox maraqlıdır ki, 1899-cu ildən etibarən Dərbənd əhalisinin sosial tərkibində kəndlilər ayrıca sosial təbəqə kimi yad edilmir. Görünür həmin vaxtdan etibarən kəndlilər şəhərli kateqoriyasına şamil edilmişdi.

Uzun müddət istehkam, müdafiə xarakterli qapalı şəhər statusuna malik olduğu üçün Dərbənddə ciddi miqrasiya prosesləri baş verməmişdir. 1796-cı ildə şəhəri tərk etmiş ermənilərin 1806-cı ildən sonra geri qayıtması istisna olmaqla genişmiqyaslı əhali yerdəyişməsi qeydə alınmamışdır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan tarixi. (Uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı: Azərbaycan, 1996, 872 s.
2. Bestujev-Marlinski A.A. Molla Nur. Povest. Bakı: Yazıçı, 1988, 168 s.

3. Əsədov F. Dərbənd xanlığı (tarixi oçerk). Bakı: Bakı Universiteti, 2004, 94 s.
4. Musa Kalankatlı. Alban tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı: Elm,1993, 302 s.
5. Piriyev V. Dərbəndin XIII-XIV əsrlərdəki tarixi-siyasi coğrafiyasından // Tarix İnstitutunun Elmi əsərləri. c. XIX, 2005
6. Şükürov K.K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı: Elm, 2004, 978 s.
7. Verdiyeva H.Y. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın əhalisi. Bakı, 1993, 134 s.
8. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı: Elm, 1987, 254 s.
9. Абдуллаев Г.Б. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку: Изд. АН Азерб. ССР, 1965, 621 с.
10. Акты, собранные Кавказской Археографической комиссией тт. I-XII. Тифлис, 1866-1904.
11. Артамонов М.Н. Древний Дербент // Советская археология, т.8, М., 1946.
12. Бакиханов А. Гюлистан-и Ирам. Баку: Элм, 1991, 304 с.
13. Бартольд В.В. К истории Дербента // ЗВО, т.XIX, СПб., 1909, с.V-VI.
14. Бартольд В.В. Новое известие о стенах Дербента // ЗВО, т.XXI, СПб., 1911-1912, с. IV-V.
15. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Ремесло и ремесленные центры. Баку: Элм, 1982, 282 с.
16. Гусейнов Г.-Б.Я. Краткая энциклопедия города Дербента. Махачкала: Юпитер, 2005, 768 с.
17. Заикин М. Населенные места Дагестана. Список населенных пунктов Дагестанской Области Темир-Хан-Шура, 1917.
18. Зубов П. Картина Кавказского края, принадлежащего России и сопредельных оному земель в историческом статистическом и этнографическом отношении. ч.I-III. СПб., 1834-1835.
19. Известие о взятии Дербента Российского Императорскими войсками. СПб., 1806, 21 с.
20. Историческая география Азербайджана. Баку: Элм, 1987, 148 с.
21. История, география и этнография Дагестана XVIII-XIX вв. Архивные мат. Под ред. М.О.Косвена и Х.М.Хашаева. М.: Изд. Вост. Лит., 1958, 372 с.
22. История Дагестана. В 4-х т., т.I-II. М.: Гл. ред. Вост. лит., 1967-1968
23. Каймаразов Г.Ш. Очерки истории культуры народов Дагестана (От времени присоединения к России да наших дней). М.: Наука, 1971, 476 с.
24. Кажлаев А.Н. Дербент-город музей. Махачкала: Даг. кн. изд., 1965.
25. Керимов А.К. Мой город Дербент. М.: Прозерпина, 1994, 256 с.
26. Козубский Е.И. История города Дербента. Темир-Хан-Шура: Изд. Русская типография, 1906, 648 с.
27. Комаров А.В. Народонаселение Дагестанский области // Зап. Кавказского Имп. Рус. геогр. об-ва. вып. VIII, 1873.
28. Коран. Перев. и коммент. И.Ю.Крачковского. Баку, 1990, 744 с.
29. Кудрявцев А.А. Древний Дербент. М.: Наука, 1982, 172 с.
30. Кудрявцев А.А. Мусульманский город Дагестана. Сложение Дербента в домонгольский период. Махачкала, 1994, 240 с.

31. Кудрявцев А.А. Феодальный Дербент. Пути закономерностей развития города в VI – середине XIII в. М.: Наука, 1995.
32. Магомедов Н.А. Взаимоотношения народов Южного Дагестана и Азербайджана в XVIII–первой половине-XIX в. (Экономический политический и культурный аспекты). Махачкала: Изд. дом «Эпоха», 2004, 199 с.
33. Магомедов Н.А. История Дагестана с древнейших времен до конца XIX в. Махачкала: Дагучпедгиз, 1968, 339 с.
34. Махмудова З. Дербент в XIX- начале XX вв.: Этносоциальные и этнокультурные процессы. АКД. М., 2003.
35. Нагиева М.К. Посемейные списки населения Дагестанской области 1886 года и переписи населения 1897 и 1926 годов. Стат. справочник. Махачкала: Наука, 2005.
36. Обзоры о состоянии Дагестанской области за 1892 год (Приложения к всеподданнейшим отчетам по гражданскому и военно-народному управлениям). Т.-Х.-Шура, 1893.
37. Очерки истории Дагестана. т.I. Махачкала: Дагкниж, 1957, 392 с.
38. Пахомов Е.А. О Дербентском княжестве XII-XIII вв. // Изв. АзГНИИ. Историко-географическое отд. т.1. Вып. 2. Баку, 1930.
39. Рамазанов Х.Х. Колониальная политика царизма в Дагестане в первой половине XIX в. Махачкала, 1956, 40 с.
40. Свод статических данных извлеченных из посемейных списков населения Закавказья. Дагестанская область. Тифлис, 1890.
41. Тагиров Б.Т. Народонаселение Дагестана. Махачкала, 1967.
42. Талыбов Д.А. Дербент: судьбы и люди. Исторические заметки. Махачкала: б/и, 2002, 182 с.
43. Феодальные отношения в Дагестане XIX – нач. XX в. Архивные материалы. Сост., предисловие и примечания Х. – М.Хашаева. М.: Гл.ред. Вос. лит., 1969, 396 с.
44. Френ Х. О надписях города Дербента // Труды и летопись об-ва истории и древностей российских. т. VIII. М., 1837, с.101-128.
45. Хан-Магомедов С.О. Дербент. М., 1958.
46. Хан-Магомедов С.О. Дербент. Горная стена. Аулы Табасарана. М.: Искусство, 1979, 286 с.
47. Хашаев Х.М. Общественный строй Дагестана в XIX веке. М.: Изд. АН СССР, 1961.
48. Центральный архив Дагестанской Республики (г.Махачкала).
49. Шихалиев А.М. Из истории города Шемахи второй половины XIX в. (1859-1902). АКД. Баку, 1968.
50. Шихсаидов А.Р. Дагестан в X-XIV вв. (Опыт социально-экономической характеристики). Махачкала: Даг. кн. изд., 1975, 175 с.
51. Эсадзе Л. Историческая записка об управлении Кавказом. Тифлис, 1907, т.I., 590 с.; т.II, 600 с.

# NAXÇIVAN XANLIĞININ ƏHALİSİ*

Azərbaycanın mühüm tarixi-coğrafi bölgələrindən biri olan Naxçıvan vətənimizin dövlətçilik tarixində böyük rol oynamışdır. Ümummilli Lider Heydər Əliyev "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumun iştirakçılarına təbrik məktubunda (10 iyul 1996-cı il) yazırdı: "Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus mühüm rol oynamış və oynamaqda olan Naxçıvanın qədim və zəngin tarixi vardır. Hər daşı, qayası tarixin canlı şahidi olmuş bu torpaq bir çox dünya şöhrətli alim və mütəfəkkirin, memar və ədibin, dövlət xadimi və sərkərdənin Vətəni olmuşdur. Onların fəaliyyəti və irsinin bəşər tarixində əvəzsiz rolu danılmazdır".

Azərbaycan torpaqlarını işğal etmək uğrunda mübarizə aparan xarici düşmənlər Naxçıvan bölgəsini, itirilmiş digər torpaqlar kimi Azərbaycandan qoparmağa çalışmışlar. Lakin bütün gərgin və amansız mübarizələrə baxmayaraq Naxçıvan bölgəsi Azərbaycanın tərkib hissəsi olaraq qalmışdır. Belə tarixi dövrlərdən biri də xanlıqlar dövrüdür. Nadir şahın öldürülməsindən sonra başlanan bu dövrdə Azərbaycan ərazisində 20-dək xanlıq yaranmışdı. Xanlıqlar dövrünün mahiyyəti uzun müddət təhrif edilmiş, bu dövrdə Azərbaycanın əldə etdiyi müstəqilliyinin əhəmiyyəti kifayət qədər qiymətləndirilmişdi. Halbuki, Rusiya ilə İran arasında bağlanmış Gülüstan müqaviləsinə (1813-cü il 12 oktyabr) görə İran Azərbaycan xanlıqlarının müstəqilliyini etiraf etmişdir. Rusiya isə həmin müqavilə əsasında, məhz müstəqil xanlıqları ilhaq etdiyini qəbul etmişdi. Rusiya Türkmənçay müqaviləsinə (1828-ci il 10 fevral) əsasən Naxçıvan və İrəvan xanlıqlarını ilhaq etməklə, Şimali Azərbaycanın işğalını başa çatdırmışdır. Azərbaycanın xanlıq dövrü tarixində mühüm əhəmiyyətə malik olan, həmin dövrün məzmununu hərtərəfli şəkildə əks etdirən xanlıqlardan biri də Naxçıvan xanlığı olmuşdu.

Naxçıvan bölgəsi tarixinin bütün dövrləri, o cümlədən onun Rusiya əsarəti və Azərbaycan Xalq Cümhuriyyəti dövrü (1918-1920) tarixi bu gün də aktuallığı ilə diqqəti cəlb edir. Azərbaycan Respublikasının prezidenti H.Ə.Əliyevin «Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında» 1999-cu il 4 fevral tarixli fərmanının preambulasında Naxçıvanın keçmişinə qısa ekskurs edilmiş, bu tarixi dövrə də müəyyən yer verilərək göstərilmişdir ki, «XVIII əsrin sonları – XX əsrin əvvəllərində Naxçıvan

---

* Material 2002-ci ilin hesabatı, bölmənin aspirantları olmuş t.e.n. N.Ə.Quliyevin «Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat)» və t.e.n.İ.F.Kazımovun "Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər)" monoqrafiyaları əsasında hazırlanmışdır.

ərazisi Rusiya ilə İran arasında toqquşmalar meydanına çevrilmişdi. Baş vermiş müharibələrdən sonra bağlanmış Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri nəticəsində Azərbaycanın tarixi torpaqları parçalanaraq Rusiya və İran arasında bölüşdürüldü… Rusiyada çarizm devrildikdən sonra imperiyanın bir çox əyalətlərində olduğu kimi, Naxçıvanda da ikihakimiyyətlilik meydana çıxmış, bəzi dövlətlər yaranmış vəziyyətdən istifadə edərək Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu bölgəyə yiyələnmək üçün cəhdlər etmişlər…». Naxçıvan bölgəsinin 1828-1920-ci illər tarixinin bütün aspektləri elmi baxımdan böyük əhəmiyyət kəsb edir. Lakin bununla yanaşı, Naxçıvan xanlığı tarixinin öyrənilməsinin əhəmiyyəti nəzərə alınaraq, onun yaranması, tarixi inkişafının bəzi məsələləri, həmin dövr tarixinin siyasi, iqtisadi, sosial və mədəni inkişaf məsələləri bu və ya digər dərəcədə xüsusi tədqiqat obyekti olmuşdur. Lakin tarixi demoqrafiya məsələləri xüsusi elmi tədqiqat obyekti olmamışdır.

Əhali bütün ölkə və bölgələr üçün həyati əhəmiyyətə malikdir. Naxçıvan bölgəsində isə onun rolu xüsusi ilə diqqətə layiqdir. Çünki burada əhali yalnız elmi problemləri ilə (say dinamikası və yerləşməsi, tərkibi və i.a.) deyil, həm də bölgə tarixinin əsas hadisələrini özündə əks etdirir. Naxçıvan bölgəsinin tarixi demoqrafik inkişafı çar Rusiyasının erməniləşdirmə, sonra isə erməni daşnak hakimiyyətinin bundan əlavə soyqırım siyasəti, ərazi iddiaları və b. mürtəce münasibəti açıq-aydın göstərir.

Naxçıvanın əhali tarixinin öyrənilməsi elmi-praktik baxımdan da maraq doğurur. Azərbaycanda əhali siyasətinin təkmilləşdirilməsində, qaçqınlıq probleminin həllində, ərazi iddialarının rədd edilməsi və dövlətin ərazi bütövlüyünün təmin olunmasında bu təcrübəyə istinad oluna bilər. Naxçıvan xanlığı əhalisinin öyrənilməsi zərurəti və onun əsas elmi problemləri aydınlaşdırılmış oldu.

Naxçıvan bölgəsinin tarixi demoqrafik tədqiqatının əsas məqsədi Naxçıvan əhalisinin say dinamikasını aşkar etmək; əhalinin yerləşməsindəki dəyişikliklərin başlıca tendensiyasını izləmək; əhalinin yaş-cins tərkibini göstərmək; əhalinin sosial-iqtisadi xarakteristikasını vermək; Naxçıvan xanlığının Rusiya imperiyası tərəfindən işğalının səbəbləri, gedişi və nəticələrini araşdırmaq; işğaldan sonra Naxçıvan bölgəsinin siyasi və inzibati quruluşundakı dəyişiklikləri müəyyənləşdirmək; ermənilərin köçürülməsi, onun səbəbləri və Naxçıvanda yerləşdirilməsinin spesifikasını, kəmiyyət göstəricilərini müəyyənləşdirmək, bölgənin etnik tərkibindəki çevrilişi araşdırmaq; ermənilərin Naxçıvan bölgəsinə ərazi iddiaları və burada törətdikləri soyqırımların mərhələlərini müəyyən etmək və öyrənmək; imkan daxilində Naxçıvan bölgəsinə dair tarixi demoqrafik göstəriciləri digər tarixi-coğrafi bölgələrlə müqayisə etmək və onların Azərbaycan üzrə yeri və rolunu araşdırmaq.

Qarşıya qoyulan məqsəd və vəzifələrə nail olmaq üçün geniş və hərtərəfli mənbə bazası yaradılmışdır. İstifadə olunan mənbələri arxiv materiallarına, nəşr olunmuş materiallara və dövrü mətbuata bölmək olar. İşdə istifa-

də olunan sənəd və materialların bir hissəsi Azərbaycan Respublikası Dövlət arxivindən (ARDA) əldə edilmişdir.

Bu fondlardakı sənəd və materialların bir hissəsi əhalinin etnik tərkibi və demoqrafik vəziyyətini, Naxçıvan bölgəsi əhalisinin sosial strukturu və say tərkibi, həmçinin əhalinin məşğuliyyətini, erməni daşnak birləşmələri tərəfindən Qərbi Azərbaycandan qovulan qaçqınların yerləşdikləri əraziləri, bölgə əhalisinin sosial-iqtisadi vəziyyətini və b. problemləri tədqiq etməyə imkan vermişdir. AXC hökumətinin sərhədlər məsələsi ilə bağlı məlumatları; Milli Komitələr və hökumətin diplomatik nümayəndələri tərəfindən göndərilən Naxçıvan bölgəsi ilə əlaqədar AXC XİN-inə məktublar və s. tədqiqat işinin yazılmasında xüsusi əhəmiyyətə malik olmuşdur.

İstifadə olunan arxiv materiallarının bəziləri elmi dövriyyəyə ilk dəfə gətirilmişdir. Nəşr olunmuş mənbələr içərisində əsas yeri əhalinin qeydiyyatı və siyahıyaalma materialları tutur. Naxçıvan və İrəvan xanlıqları Rusiyaya ilhaq edildikdən sonra İ.Şopen tərəfindən 1829-1832-ci illərdə burada kameral təsvir aparılmışdı. Onun nəticələri İ.Şopenin kitabında çap olunmuşdur. Kameral təsvirlərdən sonra 1886-cı ildə ailə siyahıları tərtib olunmuşdur. Ailə siyahılarından statistik məlumatlar külliyyatı 1893-cü ildə Tiflisdə nəşr olunmuşdur. 1897-ci ildə Rusiya imperiyasında əhalinin ilk siyahıya alması keçirilmişdir. Həmin siyahıya alma materialları əhalinin öyrənilməsində böyük əhəmiyyətə malikdir. 1897-ci il əhali siyahıya almasının İrəvan quberniyasına aid materialları bütün quberniyalar kimi xüsusi cilddə toplanmışdır.

Müasir dövrdə nəşr edilmiş statistik-rəqəm məlumatları, sənəd və material topluları da işin mənbələrindən olmuşdur. 1999-cu ildə Bakıda «Naxçıvan statistika güzgüsündə» tarixi-statistik məcmuə buraxılmışdır. Burada «Əhali» adlı xüsusi paraqraf verilmişdir. Orada 1897-ci il əhali siyahıya almasından etibarən əhalinin say dinamikası göstərilir. Naxçıvan sancağının müfəssəl dəftəri isə XVI əsrin sonu və XVIII əsrin ilk qərinəsindəki vəziyyəti müəyyən etmək üçün əhəmiyyətlidir.

1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı soyqırımının öyrənilməsində A.Paşayev tərəfindən tərtib edilən, ön söz yazılan və Ankarada nəşr olunan sənəd və materiallar toplusu böyük əhəmiyyətə malikdir.

Naxçıvan bölgəsinin tarixi demoqrafiyasına dair ara-sıra yazılmış məqalələr istisna olmaqla, ayrıca heç bir tədqiqat işi aparılmamış və bunun Azərbaycan tarixşünaslığının inkişafındakı mühüm rolu geniş araşdırılmamışdır. Son dövrdə Naxçıvan bölgəsi tarixinin bütün problemlərinə, o cümlədən tarixi demoqrafiya məsələlərinə diqqət artmışdır. Bu sahədə Əməkdar elm xadimi; professor Y.M.Mahmudovun tədqiqatlarını və elmi rəhbərliyi ilə yazılmış əsərləri xüsusi qeyd etmək lazımdır.

Naxçıvan bölgəsinin tarixi-demoqrafiyasının öyrənilməsində XIX-XX əsrin əvvəlləri Rus qafqazşünaslığı müəyyən işlər görmüşdür. V.Qriqoryevin, İ.Şopenin, A.S.Qriboyedovun, S.N.Qlinkanın, N.N.Şavrovun, V.İ.Veliçkonun,

K.N.Smirnovun və b. qafqazşünasların əsərlərində problemə dair müəyyən məsələlər əksini tapmışdır.

Sovet tarixşünaslığında dövrün daha çox sosial-iqtisadi problemlərinə üstünlük verilmişdir. Burada İ.P.Petruşevski, akademik Ə.S.Sumbatzadə, Q.Mədətov, M.Allahverdiyev, K.Məmmədov, E.Mehrəliyev və başqalarının əsərlərində Naxçıvan bölgəsinin əhalisinin tarixi demoqrafik problemlərinə müəyyən dərəcədə toxunmuşlar.

XIX-XX əsrin əvvəllərində Naxçıvan bölgəsinin sosial-iqtisadi, siyasi və mədəni inkişaf tarixinə dair tədqiqatlar da müstəqillik dövründə genişlənmişdir.

Naxçıvana aid digər bir toplu «Naxçıvan Muxtar Respublikası» məqalələr toplusudur. Naxçıvan bölgəsinin tarixi, o cümlədən bəzi tarixi-demoqrafik problemləri son dövrdə nəşr olunan ümumiləşdirici Azərbaycan tarixi kitablarında da yer tutur.

Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasının 75 illiyinə dair 1999-cu il 4 fevral tarixli fərmanı Naxçıvan tarixinin öyrənilməsində böyük dönüş yaratdı. Bakı Universiteti xəbərlərinin Naxçıvana dair xüsusi buraxılışı nəşr olundu. Burada Əməkdar elm xadimi; professor Y.M.Mahmudovun Naxçıvanın tarixi inkişaf problemləri və Azərbaycanın dövlətçilik tarixi haqqında fikirləri mühüm yer tutur.

**İnzibati idarəetmə sistemi.** Qaynaqların və müvafiq tarixi ədəbiyyatın verdiyi imkan daxilində XVI əsr – 1828-ci illər arasında Naxçıvan bölgəsinin inzibati-ərazi bölgüsündə azı altı dövr fərqləndirilmişdir: 1) Səfəvilər dövrü (XVI əsr); 2) Osmanlı dövrü (XVI əsrin sonu – XVII əsrin əvvəlləri); 3) yenidən Səfəvi dövrü (XVII əsrin əvvəlləri – 1724-cü il); 4) yenidən Osmanlı dövrü (1724-1735-ci illər); 5) Nadir şahın dövrü (1736-1747-ci illər); 6) xanlıq dövrü. Xanlıq dövrünün inzibati-ərazi bölgüsündə isə üç dövr ayrılmışdır: a) xanlığın müstəqil olduğu dövr (1747-1797-ci illər); b) Gülüstan müqaviləsinədək olan dövr (1797-1813-cü illər); c) xanlığın ləğv olunmasınadək olan dövr (1813-1828-ci illər).

Türkmənçay müqaviləsi (1828) ilə İrəvan xanlığı ilə birlikdə Naxçıvan xanlığı (4.500 kv.verst) da Rusiya imperiyasına ilhaq olunur. Bu xanlıqların torpaqları əsasında «Erməni vilayəti» yaradılır (1828-ci il 21 mart). Tarixi Azərbaycan torpaqlarının Erməni vilayəti adlandırılması tamamilə yanlış olub, çar hökumətinin ermənilərlə əlbir siyasətinin nəticəsi idi. Bu vilayət 1840-cı il islahatına kimi davam edir. Həmin islahata görə, Naxçıvan əyaləti qəzaya (3.539 kv.verst) çevrilərək Gürcüstan-İmeret quberniyasına, 1849-cu ildən isə yeni yaradılmış İrəvan quberniyasının tərkibinə qatıldı. İnzibati–ərazi bölgüsündə ən ciddi dəyişiklik 1867-ci il inzibati ərazi islahatları zamanı baş verdi. Bakı quberniyasından Şuşa və Nuxa qəzaları, Tiflis quberniyasından Qazaxla birlikdə Yelizavetpol qəzası, İrəvan quberniyasından ləğv edilmiş Ordubad qəzasının bir hissəsi yeni yaradılmış Yelizavetpol quberniyasına verildi. 1875-ci ildə İrəvan quberniyasının tərkibində əhalisi əsasən, azərbaycanlılardan ibarət olan Şərur–Dərələyəz qəzası təşkil edildi.

Naxçıvan bölgəsi çarizmin daxili siyasəti ilə birgə, xarici siyasətində də mühüm yer tuturdu, çünki Naxçıvanın geosiyasi durumu Şərqdə möhkəmlənmək üçün böyük əhəmiyyətə malik idi. Çar hökuməti burada möhkəmlənməkdən ötrü erməni amilindən hərtərəfli istifadəyə çalışırdı. Beləliklə, çar Rusiyası tərəfindən ilhaq edildikdən sonra Naxçıvan xanlığının ərazi-inzibati bölgüsü və idarə sisteminin metropoliyanın maraqlarına uyğunlaşdırıldığı əsaslandırılır.

Bu dövrdən başlayaraq Qafqazda erməni dövləti qurmaq üçün yaradılan şərait ermənilərin Naxçıvana ərazi iddialarını açıq həyata keçirməklərinə səbəb olmuşdur.Naxçıvan 1918-ci ilin mayında yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin ərazisinə aid olunmuşdur. AXC ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasətinin qarşısını almaqda çətinliklə qarşılaşır. Naxçıvan ərazisinin ermənilər tərəfindən işğalının qarşısını almaq üçün Araz-Türk Cümhuriyyəti (1918, noyabr – 1919, mart) yaradılır. AXC-nin 1919-cu il 28 fevral tarixli qərarı ilə Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu da yaradılır. 1920-ci ilin aprelində Azərbaycanda sovet rejimi qurulduqdan sonra iyulun 28-də Naxçıvanda da sovet hakimiyyəti qurulur. 1924-cü il fevralın 9-da isə Naxçıvana Azərbaycan SSR-in tərkibində Muxtar Respublika statusu verilir. Beləliklə, yeni siyasi idarəetmə və istehsal münasibətlərinə əsaslanan dövlət bərqərar edilir.

**Əhali.** Naxçıvan xanlığı əhalisinin say dinamikasının müəyyənləşdirilməsi üçün iki cür yanaşma tətbiq olunmuşdur. I. Naxçıvan xanlığının yaranması ərəfəsində mövcud olan hüdudlar daxilində əhalinin sayı müəyyənləşdirilmiş, xanlığın ləğvi dövründə də eyni hüdudlar üzrə əhalinin sayı aydınlaşdırılmış və müqayisə aparılmışdır. Bu zaman əldə olunan nəticə belə bir suala cavab tapmağa imkan vermişdir: xanlığın mövcud olduğu dövrdə onun ərazisi eyni cür qalsaydı, həmin şərtlər daxilində əhalinin say dinamikası necə dəyişərdi? Bu tədqiqatın vəzifəsi mahiyyəti etibarı ilə elmi-idraki xarakter daşıyır. Ona görə də real vəziyyətə uyğun rəqəmlərlə işləmək ehtiyacı ortaya çıxır. Bu məqsədlə II yanaşma və buradan irəli gələn nəticələrə üstünlük veriləcəkdir. Bu halda: 1) xanlığın varlığının son dövründə (1813-1827) əhalinin sayı müəyyənləşdirilir; 2) ermənilərin kütləvi şəkildə köçürülməsi ərəfəsindəki əhali sayı aydınlaşdırılır; 3) ermənilərin kütləvi şəkildə köçürülməsindən sonra əhalinin sayı göstərilir.

Naxçıvan xanlığı əhalisinin say dinamikasını müəyyən etmək üçün xanlığın yaranması ərəfəsində əhalinin sayı müəyyənləşdirilmişdir. Bu məsələ üzrə yeganə qaynaq "Naxçıvan sancağının müfəssəl dəftəri"dir. Bəzi hesablamalar əsasında burada 60.000-dən çox əhali yaşadığı müəyyənləşdirilmişdir. Naxçıvan xanlığı yarandıqdan sonra sancağın ərazisi müəyyən istisnalarla onun tərkibində qaldı. Faktların araşdırılması Qışlağat nahiyəsinin Naxçıvan xanlığının hüdudlarından kənarda qaldığını göstərir. Ona görə də Naxçıvan sancağına aid göstəricilərdən Qışlağata aid məlumat çıxılmışdır. Belə olduqda həmin rəqəm 45.140 nəfər olar. Təəssüf hissi ilə qeyd

etmək lazımdır ki, Naxçıvan xanlığının yaranmasından Rusiya tərəfindən işğalına qədərki dövrdə burada əhalinin statistik və ya fiskal məqsədlə qeydiyyatı aparılmamışdır. Ona görə də əhalinin say dinamikasını öyrənmək üçün 1829-1832-ci illərə aid rəqəmlərə müraciət etmək lazım gəlmişdir. Burada İ.Şopenin məlumatı diqqəti cəlb edir. Onun məlumatından aydın olur ki, Naxçıvan xanlığının yarandığı dövrlə müqayisədə ərazisində dəyişikliklər baş vermişdir. İnzibati-ərazi vahidləri içərisində Sisyan mahalına rast gəlmirik. Qeyd olunduğu kimi o, 1797-ci ildə Qarabağ xanlığı tərəfindən tutulmuşdu. 1829-cu il məlumatına görə Naxçıvan xanlığı ərazisində 41.482 nəfər qeydə alınmışdır. 1727 və 1829-cu illərə aid gətirilən rəqəmlər müxtəlif ərazilərə aid olduğundan onları müqayisə etmək elmi baxımdan düzgün olmaz. Müqayisəni etibar etmək üçün şərti olaraq Sisyan mahalına aid olan rəqəmləri də Naxçıvan xanlığına aid edib, xanlıq yaranması ərəfəsindəki ərazi üzrə hesablama aparılmışdır. Nəticədə xanlığın ləğvi ərəfəsində eyni ərazi üzrə 42.497 nəfər və ya əvvəlki dövrdə müqayisədə 2.643 nəfər az əhali yaşadığı müəyyənləşdirilmişdir. Bundan əlavə sonrakı şərhlər üçün mühüm əhəmiyyətə malik olan ikinci yanaşma üzərində dayanılmışdır. Aparılan hesablamalar nəticəsində Naxçıvan xanlığı ərazisində 1813-1827-ci illər arasında təxminən 33.650 nəfər, 1828-ci ildə 29.463 nəfər (-4.187), 1829-1832-ci illərdə (ermənilərin köçürülməsindən sonra) 41.482 nəfər (+12.019) yaşadığı müəyyənləşdirilmişdir.

Bölgə əhalisinin say dinamikasının müəyyənləşdirilməsi üçün işğaldan sonrakı dövrlərdə əhalinin kəmiyyətinin müəyyənləşdirilməsinə xüsusi diqqət yetirilmişdir. V.Qriqoriyevin məlumatına görə həmin dövrdə Naxçıvan əyalətində 8.469 ailə qeydə alınmışdı, onlardan 6.177 ailə (72,9%), Naxçıvan dairəsində, 2.292 ailə (27,1%) Ordubad dairəsində məskunlaşmışdı. Naxçıvan bölgəsi əhalisinin say dinamikasına dair müxtəlif fikirlər ümumiləşdirilərək onlardakı fərqlərin kökləri aşkar edilmişdir. Bu hər şeydən əvvəl Naxçıvan bölgəsi altında müxtəlif coğrafi ərazilərin nəzərdə tutulması ilə izah oluna bilər. Ona görə də müqayisələrin dolğunluğunu təmin etmək üçün əsas hesablamalar müasir sərhədlər üzrə uyğunlaşdırılmışdır. Belə hesablama üzrə 1832-ci il kameral təsvirinə görə Naxçıvan dairəsində 6.538 ailə (16.095 nəfər kişi və ya hər iki cinsdən olan 32.000 nəfər) olduğu göstərilə bilər. Ordubad dairəsində isə həmin dövrdə 1.320 ailə (3.160 kişi və ya hər iki cinsdən olan 6.320 nəfər) yaşamışdır. Şərurda yaşamış əhalinin sayı isə təxminən 1.000 ailə və ya hər iki cinsdən olan 5,5 min nəfər hesablanır. Beləliklə, ayrı-ayrı rəqəmlər üzrə hesablama aparılsa Naxçıvan bölgəsində (Mehri sahəsi daxil olmadan) müasir sərhədlər daxilində 42.000 nəfər əhali olduğu müəyyən olar. Bu cür hesablama əsasında XIX əsrin ortalarında Naxçıvan bölgəsində 56.000, 1886-cı ildə isə 115.780 nəfər olduğu göstərilir. Faktlardan aydın olur ki, 1832-ci ildən 1850-ci ilə kimi Naxçıvan bölgəsinin əhalisi 14 min nəfər, 1850-1886-cı illər arasında isə 59.780 nəfər artmışdır. Naxçıvan bölgəsi əhalisinin say dinamikasının müəyyən edilməsində 1897-ci il Birinci Ümumrusiya əhali siyahıya almasının İrəvan qu-

berniyasına dair materialları mühüm yer tutur. Həmin materiallara görə «qədim Azərbaycan torpaqlarından olan İrəvan quberniyasının indiki Naxçıvan Muxtar Respublikası ərazisinin əksəriyyətini təşkil etmiş Naxçıvan və Şərur-Dərələyəz qəzalarında birlikdə götürüldükdə 177,3 min nəfər o cümlədən Naxçıvan qəzasında 76,5 min nəfər əhali yaşamışdır». Əgər müasir sərhədlər üzrə hesablama aparılsa 1917-ci il oktyabr çevrilişi ərəfəsində Naxçıvan bölgəsində təxminən 165.000 nəfər əhali olmuş, yəni 1886-cı il ailə siyahıya alması ilə müqayisədə 49.220 nəfər artmışdı. Bu dövrə aid rəqəmlərin müəyyənləşdirilməsi olduqca vacibdir. Ona görə ki, faktiki olaraq bütün İrəvan və Yelizavetpol quberniyalarında yaşayan azərbaycanlılar, ermənilər tərəfindən 1905-1906 və 1918-1920-ci illərdə törədilən soyqırımlar nəticəsində demoqrafik fəlakət dövrü keçirmişdir. Naxçıvan bölgəsində bu fəlakətin miqyası və onun əhalinin say dinamikasına təsirini göstərmək üçün 1897-1924, həmçinin 1897-1926-cı illərə dair təkzibedilməz rəqəmlərə istinad edilir. Ş.Muradovun fikrincə Naxçıvan MR əhalisi 1897-ci ildəki 177,3 min nəfərdən azalaraq 1924-cü ildə 90,0 min, 1926-cı ildə 104,9 min nəfər olmuşdu. Hesablamaları müasir sərhədlər üzrə aparsaq 1917-ci ilin payızı ilə müqayisədə Naxçıvan ərazisində əhalinin təxminən 70-80.000 səviyyəsində olduğunu göstərə bilərik. Beləliklə, 1917-ci ilin payızına nisbətən 1920-ci ildə əhalinin 85-95.000 nəfər azaldığı aydın olar.

Naxçıvan xanlığı əhalisinin bir qismi Naxçıvan və Ordubad şəhərlərində, qalanları isə kəndlərdə yerləşirdi. Tarixi qaynaqlardakı faktların öyrənilməsi nəticəsində Naxçıvan bölgəsinin şəhər və kənd əhalisinin ümumi əhali içərisində payı müəyyənləşdirilmişdir. 1813-1827-ci illər arasında şəhər əhalisi 14.900 (44,28%), kənd əhalisi 18.750 nəfər (55,72%) təşkil etmişdi. 1828-ci ildə bu rəqəmlər müvafiq olaraq 7.622 (25,87%) və 21.841 (74,13%), 1829-1832-ci illər üzrə isə 8.914 (21,49%) və 32.568 (78,51%) olmuşdu. Rəqəmlərdən aydın olduğu kimi Naxçıvan bölgəsində tədricən şəhər əhalisinin sayı aşağı düşmüşdür. Bu o deməkdir ki, bölgə əhalisi içərisində kənd əhalisinin payı 55,72%-dən 74,13%-ə, sonra isə 78,51%-ə yüksəlmişdir.

Türkmənçay müqaviləsi bağlanan dövrdə Naxçıvan şəhərində 873 ev, 1330 ailə var idi. Əhalinin ümumi sayı 5.470-ə çatırdı. Ordubadda əhalinin sayı 3.444 nəfər idi. XIX əsrin 30-cu illərində şimali Azərbaycanda şəhər həyatı inkişaf etməyə başlayır. Naxçıvan və Ordubad şəhərlərində də əhalinin artması müşahidə edilsə də, sürət yüksək deyildi. 1850-ci il məlumatlarına görə Naxçıvan şəhərində 5.157, Ordubad şəhərində 4.302 nəfər qeydə alınmışdır. 1873-cü il kameral təsviri, 1886-cı il ailə siyahıları və 1897-ci il Birinci Ümumrusiya əhali siyahıyaalmasının yekunlarına görə Naxçıvan və Ordubad şəhərlərində əhalinin sayı müvafiq olaraq aşağıdakı kimi olmuşdur: 6.877, 3.489; 6.939, 4.199; 8.790 və 4.611. Bu rəqəmlərə əsasən Naxçıvan bölgəsində 1873-cü ildə 10.366, 1886-cı ildə 11.138, 1897-ci ildə isə 13.401 nəfər şəhər əhalisi olduğu aydın olur. 1915-ci ildə Naxçıvan şəhərinin əhalisi 9,0 minə yaxın, Ordubad şəhər əhalisi 6,5 min nəfər idi. Faktların təhlili əsasında Naxçıvan bölgəsi şəhər əhalisinin ümumi əhali kütləsi

içərisində xüsusi çəkisinin 10% ətrafında olduğu müəyyən edilir. 1918-1920-ci il hadisələri bütün əhalinin say dinamikasında olduğu kimi, şəhər əhalisinin say dinamikasına da mənfi təsir göstərmişdi.

Əhalinin kəndlər üzrə yerləşməsi vəziyyətini öyrənmək üçün İ.Şopenin Naxçıvan bölgəsi üzrə məskun kəndlərə dair siyahısı əsas götürülmüş, "Naxçıvan bölgəsi kəndlərinin ailələrin sayına görə təsnifatı" cədvəlləri tərtib edilmişdir. Naxçıvan bölgəsində 288 kənd qeydə alınmışdı, onlardan 231-də əhali yaşayırdı. Əhali yaşayan kəndlərdən 179-u Naxçıvan əyalətində, 52-si Ordubad dairəsində idi. Orta rəqəmi əsas götürsək hər bir kəndə 29,1 ailə düşürdü. Naxçıvan əyalətində kəndlərin sayına görə birinci yerdə Dərələyəz mahalı gəlirdi (78 kənd). Sonrakı yerdə Naxçıvan mahalı (59 kənd), Əlincə mahalı (24 kənd) dururdu. Məvazi-Xatun və Xok mahalının hər birində 9 kənd var idi. Ordubad dairəsində isə kəndlərin sayına görə ilk yerdə Biləv mahalı (19 kənd) dayanırdı. Sonrakı yerdə Dəstə mahalı (14 kənd) və Ordubad mahalı (9 kənd) idi. Əylis və Cənənəb mahallarının hər birində 5 kənd var idi.

**Əhalinin tərkibində** cins, ailə, etnik, dini və sosial tərkib məsələləri mühüm yer tutur. Ermənilərin tarixən, xüsusilə müasir dövrdə Azərbaycan torpaqlarına, o cümlədən Naxçıvana qarşı ərazi iddiaları, bu məqsədlə həmin ərazinin əhalisinin etnik tərkibinə dair elmi təhrifləri əsas götürülərək xanlıq dövrü əhalisinin etnik tərkibinə xüsusi diqqət yetirilmişdir. Naxçıvan qədim zamanlardan türk diyarı olmuşdur. Naxçıvan əhalisinin məhz türklərdən (azərbaycanlılardan) ibarət olması bütün tarixi dövrlərdə, həmçinin tədqiq olunan dövrdə özünü sübut edir. Bunu həm toponomik, həm də bölgənin Rusiya işğalı ərəfəsi və dövrünə aid statistik məlumatları da göstərir. Ermənilər Naxçıvana gəlmə əhali idi. Bu baxımdan onları iki yerə bölmək olar: 1) Rusiya işğalınadək Naxçıvana gəlmələr; 2) işğal prosesi, xüsusilə 1828-ci il Türkmənçay müqaviləsindən sonra Naxçıvana köçürülənlər. İşğal prosesi və sonrakı ilk dövrdə vilayətə İrandan köçürülən ermənilərin sayı 3.682 ailə, yaxud 21.666 nəfər təşkil etmişdi.

Ermənilərin Naxçıvan bölgəsinə köçürülməsi və bunun nəticəsində əhalinin **etnik tərkibdəki** dəyişikliklər, ermənilərin Şimali Azərbaycana, o cümlədən Naxçıvan bölgəsinə köçürülməsinin hüquqi siyasi əsasları onun mənbələri, təşkili, istiqamətləri əsas mərhələləri və nəticələri hərtərəfli tədqiq edilmişdir. Köçürməyə qədər Naxçıvan bölgəsi əhalisinin 92% azərbaycanlılardan ibarət idi. Ermənilərin köçürülməsi ilə etnik tərkib məqsədyönlü şəkildə dəyişdirilməyə başlayır.Bunu nəzərə alıb aşağıdakı cədvəldə bölgə əhalisinin dairələr üzrə etnik tərkibi göstərilmişdir.

Cədvəl 1

Naxçıvan bölgəsi əhalisinin etnik tərkibi

| 1897-ci il | Azərbaycanlılar | Ermənilər | Digər millətlər |
|---|---|---|---|
| Baş Noraşen (Şərur) | 29.941 | 2.107 | 635 |
| Qıvraq | 11.120 | 2.876 | 620 |
| Naxçıvan | 8.366 | 14.017 | 280 |
| Tumbul | 17.070 | 8.100 | - |
| Əbrəqunuş | 8.185 | 3.656 | - |
| Culfa | 3.498 | 3.656 | - |
| Parağa | 5.029 | 3.323 | - |
| Ordubad | 7.188 | 4.812 | - |

Cədvəldən göründüyü kimi çarizmin köçürmə siyasəti nəticəsində bəzi dairələrdə köçkün ermənilərin sayı artırılmışdı.

Türkmənçay müqaviləsinə görə 8.249 erməni ailəsi köçürülüb İrəvan, Naxçıvan, Qarabağ və Şirvan əyalətlərində yerləşdirildi. Köçürülən ermənilər İrəvan, Naxçıvan, ən çox Qarabağ bölgəsi ərazisində yerləşdirilirdi. Adı çəkilən üç bölgənin etno-demoqrafik durumu tezliklə böyük dəyişikliyə uğradı.

Cədvəl 2

Qarabağ, Naxçıvan və İrəvan bölgələrində əhalinin etnik tərkibindəki dəyişikliklər (%-lə)

| Bölgələr | Azərbaycanlılar | | Ermənilər | |
|---|---|---|---|---|
| | 1823-1827 | 1828-1830 | 1823-1827 | 1828-1830 |
| Qarabağ (əski Qarabağ xanlığı) | 91 | 65 | 8 | 35 |
| Naxçıvan (əski Naxçıvan xanlığı) | 86 | 51 | 13 | 49 |
| İrəvan (əski İrəvan xanlığı) | 76 | 46 | 24 | 54 |

Yuxarıda qeyd etdiyimiz kimi yerli əhali (Azərbaycan türkləri) öz ərazilərindən sıxışdırıldığından azərbaycanlıların sayı Naxçıvan əyalətində azalmışdı. 1828-ci ildə yalnız Naxçıvan əyalətinə 2.551 erməni ailəsi köçürülmüşdü. Köçürülən ailələrdən 1.869 ailə Naxçıvan dairəsində, 416 ailə Naxçıvan şəhərində, 266 ailə Ordubad dairəsində məskunlaşdırılmışdı.

Naxçıvan bölgəsinə ermənilərin köçürülməsinin mərhələləri, coğrafiyası və kəmiyyətin müəyyənləşdirilməsi işdə əsas yer tutur. Bu məqsədlə 1873-cü il kameral təsvirinin, 1886-cı il ailə siyahıya almalarının 1897-ci il Birinci Ümumrusiya əhali siyahıyaalmasının materiallarına geniş müraciət edilir. 1873-cü il kameral təsvirinin məlumatına görə Naxçıvan qəzasında 28.628 nəfər (5725 ailə) qeydə alınmışdı. Bu da qəza əhalisinin 43,6%-ni təşkil edirdi. Lakin azərbaycanlılar üstünlüyünü saxlamaqda davam edirdi. 1886-cı il ailə siyahılarının məlumatına görə Naxçıvan qəzasında azərbaycanlılar 54,5%, ermənilər 45,3%, Şərur-Dərələyəz qəzasında isə azərbaycan-

lılar 72,0%, ermənilər 27,7% idi. 1886-1897-ci illər arasındakı dövrdə həyata keçirilən siyasət ermənilərin sayının artmasında özünü göstərir. İşdə çarizmin bütün cəhdlərinə baxmayaraq bölgədə azərbaycanlıların əsas etnik qüvvə olması sübut edilir.

Əhalinin **dini tərkibinə** dair məlumatları və etnik tərkibə dair məlumatları müəyyən dərəcədə tamamlayır.

Naxçıvan bölgəsi əhalisinin **sosial tərkibi** işğaldan sonrakı dövrdə də hakim təbəqə – xan, bəy, ağa və b., aşağı təbəqə isə kəndlilərin müxtəlif kateqoriyaları – rəiyyət, rəncbər və b. ilə təmsil olunurdu. Tacir və sənətkarlar da əhalinin sosial tərkibində mühüm yer tuturdu. Tədqiq olunan dövrdə siyasi və iqtisadi vəziyyətin təsiri altında əhalinin sosial tərkibində baş verən dəyişikliklər ətraflı şəkildə öyrənilir. Naxçıvan iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edirdi. Ona görə də bölgə əhalisinin sosial strukturunda əsas yeri kəndlilər tuturdu. Kəndlilər kənd icmalarında birləşmişdilər. Lakin qismən də olsa yeni kapitalist iqtisadi münasibətlərinin kəndə nüfuz etməsi kəndlilərin təbəqələşməsinə təsir göstərirdi. XX əsrin əvvələrində Naxçıvanda mövcud olan 508.300 desyatin torpaq sahəsinin 273.090 desyatini (53,8%) mülkədarlara, 180.500 desyatini (35,5%) xəzinəyə, 14.200 desyatini (2,8%) məscid və kilsəyə, qalanı isə kəndlilərə məxsus idi. Naxçıvan bölgəsində sənətkarlıq əsasən Naxçıvan və Ordubad şəhərlərində inkişaf etmişdi. XVIII əsrdə olduğu kimi XIX əsrdə də Naxçıvanda sənətkarların əksəriyyəti «əsnaf» adlanan sex təşkilatlarında birləşmişdi. Sənətkarlar içərisində baş verən proseslər də işdə ətraflı öyrənilir. XX əsrin əvvələrində kənd təsərrüfatında və kapitalist tipli müəssisələrdə muzdlu əmək tətbiqi qeyd olunur.

Naxçıvan bölgəsi əhalisinin təhsil səviyyəsi və mədəni həyatın digər sahələri üzrə bəzi göstəricilər tədqiq edilmişdir. Naxçıvan tarixən Azərbaycanın qədim və zəngin mədəni ənənələrinə malik olan diyarı olmuşdur. Professor İsa Həbibbəyli yazır «Naxçıvan diyarının alim yetirmələri, demək olar ki, tarixin bütün mərhələlərində ilk növbədə Azərbaycan elminə, geniş mənada isə şərq dünyasının elm xəzinəsinə dəyərli töhfələr vermişlər». İşdə çarizmin bütövlükdə Şimali Azərbaycanda, o cümlədən Naxçıvan bölgəsində mədəniyyət sahəsindəki müstəmləkəçilik siyasətinin əhalinin mədəni inkişaf sahəsində böyük əngəl olduğu göstərilir. Cənubi Qafqaz məktəblərinin 1829-cu il nizamnaməsi ilə Azərbaycanda qəza məktəblərinin əsası qoyuldu. Bu məktəblərin Naxçıvan və Ordubad şəhərlərində açılması nəzərdə tutulurdu, lakin Ordubadda «sakin olanların kifayət qədər olmaması» əsas götürülərək məktəb açılması təxirə salınmışdı. Naxçıvanda qəza məktəbi 1837-ci il martın 15-də açılmışdı. Naxçıvan bölgəsində təhsil sahəsində görülən tədbirlər, əhalinin təhsil səviyyəsi ətraflı şəkildə nəzərdən keçirilir. Tədqiq olunan dövrdə maarifçi-ədəbi cəmiyyət və məclislərin yaranıb inkişaf etməsinin, teatrın fəaliyyətə başlamasının əhalinin mədəni səviyyəsinin yüksəlməsində, yeni ziyalılar nəslinin formalaşmasında rolu xüsusi qeyd edilmişdir.

Naxçıvan xanlığı əhalisinin sayının müəyyənləşdirilməsindən sonra onun Azərbaycan əhalisi içərisində (məlumat olan ərazilər üzrə) payı haqqında da bəhs olunmuşdur. Faktların müəyyən dərəcədə etibarlılığını təmin etmək üçün 1831-ci il məlumatına müraciət edilmişdir. Həmin dövrə aid məlumata görə Borçalıda 13.762 (burada və sonra inzibati vahidlər və k.c. nəzərdə tutulur), Qazaxda 17.652, Şəmşədildə 10.888, Gəncədə 12.836, Qarabağda 54.851, Şəkidə 55.723, Şirvanda 69.627, Dərbənddə 6.599, Qubada 46.054, Bakıda 15.428, Lənkəranda 22.720, Naxçıvanda 19.255, İrəvanda 66.298 nəfər qeydə alınmışdır. Adları çəkilən inzibati-ərazi vahidləri arasında Naxçıvan bölgəsi yeddinci yerdə dururdu. Onun əhalisi qeyd olunan inzibati-ərazi vahidlərin əhalisinin (411,763 k.c.) 4,67%-ni təşkil edirdi.

Əhalinin məskunlaşması araşdırılarkən müəyyən edilmişdir ki, ermənilərin köçürülməsinədək Naxçıvan bölgəsində əhalinin sıxlığı hər kv.verstə 6,3 nəfər, köçürüləndən sonra isə 9,2 nəfər təşkil edir.

Azərbaycanın xanlıqlar dövrü də **əhali miqrasiyasının** özünəməxsus xüsusiyyətləri ilə diqqəti cəlb edir. Naxçıvan xanlığında əhali miqrasiyası daxili miqrasiya, xanlıqlararası, xanlıqdan və ya xanlığa köçürülmələr şəklində mövcud olmuşdur. Miqrasiyanın bu növləri faktlar əsasında araşdırılmışdır. Naxçıvan xanlığında kəndlilər hüquqi cəhətdən təhkimli vəziyyətində olmadığına görə, formal da olsa onların hərəkət azadlığı var idi. Xanlıqlar dövründə əhalinin xanlıqlar arasında hərəkəti və ya daha çox, xanların imkan daxilində öz əhalisini digər xanlıqların hesabına artırmaq məqsədi ilə köçürmə siyasəti nəticəsində əhali yerdəyişməsi baş verir. Bunun nəticəsində yeni yaşayış məskənləri meydana gəlirdi. Qarabağ xanı Pənah Əli xanın Naxçıvandan Qarabağa köçürdüyü kəngərlilərin qarabağlar tirəsi Gəncə-Qazax düzənliyində, Gəncə çayının sahilində Qarabağlar kəndi yaratmışdı. Bu tirə öz adını Qarabağlar kəndinin (indiki Şərur rayonunda) adından götürmüşdür. XIX əsrdə qarabağlılar tayfası Gəncə qəzasında yaşayırdı.

Naxçıvan xanlığında hakimiyyət uğrunda gedən mübarizədə də əhalinin xanlıqdan miqrasiyasına rast gəlmək olur. Naxçıvan xanı Cəfərqulu xanın dövründə xanlıqdakı vəziyyətə etiraz edən əhalinin bir hissəsi oranı tərk etmişdi.

Naxçıvan torpaqlarından əhalinin digər yerlərə məqsədyönlü köçürülməsi siyasəti daha dərin köklərə malik olmuşdu. Onun əsas səhifələrindən biri uzun müddət davam edən Osmanlı-Səfəvi müharibələri ilə bağlı olmuşdu.

Şah Abbasın həyata keçirdiyi "Böyük sürgün" siyasəti nəticəsində ən çox əhalisi köçürülən bölgələrdən biri Naxçıvan olmuşdu. R.Məmmədov yazır ki, Naxçıvan əhalisinin şəhərdən köçürülməsi Naxçıvanın hakimi Kəngərli Məqsud Sultana həvalə olunmuşdu. İsgəndər bəy Münşi xəbər verir ki, Naxçıvan əhalisi başlıca olaraq Dizmar və Qarabağ vilayətlərinə köçürülürdü. Culfanın əhalisi İsfahana göndərilir. Əhalini köçürtmək və şəhəri dağıtmaq haqqında şahın fərmanı təcili həyata keçirilmişdi. Şəhər əhalisinin köçməsi üçün hazırlaşmağa cəmi bir neçə saat vaxt ayrılmışdı. İ.P.Petruşevskinin müəyyən

etdiyinə görə 1605-ci ildə Naxçıvan ölkəsindən (yəni Naxçıvan şəhəri və onun ətraf yerlərindən) 70.000-dən çox adam sürgün edilmişdi.

Naxçıvan əhalisinin köçürülməsi tarixi bununla başa çatmamışdı. Nadir şahın dövründə də Naxçıvan əhalisinin köçürülməsi siyasəti davam etdirilmişdi.

Rusiya işğalları və bərqərar olunan üsul-idarə şəraitində azərbaycanlıların emiqrasiyası artır, əvəzində buraya köçürülən ermənilər hesabına əhalinin sayı artırılırdı. Rusiya işğalı dövrü və onun hakimiyyətinin ilk dövründə Naxçıvan bölgəsi əhalisinin oranı tərk etməsini qaynaqlarda da qeydə alınmışdı. Bu qaynaqlara istinadən Naxçıvanı 1.400 azərbaycanlı ailə tərk etdiyi bildirilir. Bu tərk etmə sonrakı illərdə də davam etmişdi. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinə gəldikdə bu siyasət təsadüfü olmayıb, dərin tarixi köklərə malik idi. Bu siyasətdə Naxçıvanın yeri xüsusi nəzərdən keçirilir. Ermənilərin Naxçıvan bölgəsinə köçürülməsini qeydə alan qaynaqlar içərisində "Naxçıvan əyalətinin təsviri" əsas yer tutur. Həmin təsviri tərtib edən V.Qriqoryev İrandan Naxçıvan əyalətinə köçürülənlərə dair xüsusi cədvəl vermişdir. Cədvələ əsasən, Naxçıvan əyalətinə 2.551 erməni ailəsi köçürülmüşdü, onlardan 2.285 ailə Naxçıvan dairəsinə (416 ailə Naxçıvan şəhərinə, 1.869 ailə dairənin kəndlərinə), 266 ailə Ordubad dairəsinin kəndlərinə köçürülmüşdür. Köçkün ermənilər Naxçıvan dairəsinin Naxçıvan şəhərində və 43 kənddə, Ordubad dairəsinin 5 kəndində yerləşdirilmişdir. Köçkün ermənilərin Xoy, Təbriz, Marağa, Salmas və Dehqarqandan köçürüldüyü aydın olur.

Cədvəl köçkün ermənilərin sosial strukturunu və cins tərkibini də müəyyən etməyə imkan verir. Köçkün erməni ailələrindən 208-i tacir, 478-i sənətkar və 1.865-i əkinçi idi. Göründüyü kimi, sosial strukturuna görə ilk yerdə əkinçilər (73,1%), ikinci yerdə sənətkarlar (18,7%), üçüncü yerdə isə tacirlər (8.1%) dururdu.

Məlumdur ki, hər bir dövrün sosial-iqtisadi problemlərinin öyrənilməsi tarixi tədqiqatda mühüm yer tutur. Bu problemlərin demoqrafik aspektləri demoqrafiya elminin ona marağını yaratmışdır. Təsadüfi deyil ki, hazırda demoqrafiya elmləri sistemində xüsusi elmi istiqamət-iqtisadi demoqrafiya təşəkkül tapmışdır. İqtisadi demoqrafiya iqtisadiyyat və əhalinin qarşılıqlı inkişafının təhlilinin metodoloji prinsipinə əsaslanır. Bu mənada o, əhali iqtisadiyyatı ilə sıx bağlıdır. Eyni zamanda iqtisadi demoqrafiya özünün spesifik tədqiqat predmeti-iqtisadi və demoqrafik proseslərin qarşılıqlı əlaqəsinin təhlili olduğuna görə demoqrafik biliklər sisteminin elementidir.

Naxçıvan xanlığı əhalisi içərisində kənd əhalisi üstün olduğundan əhalinin başlıca **məşğuliyyəti** kənd təsərrüfatı idi. Kənddəki münasibətlərin əsasını torpaq üzərindəki mülkiyyət formaları müəyyən edirdi. Naxçıvan xanlığı əhalisinin sosial-iqtisadi xarakteristikasının ən başlıca məsələlərindən biri də əkilə bilən torpağın miqdarı ilə bağlı idi. Faktlardan aydın olur ki, Naxçıvan əyalətinin ilk dövrlərində Naxçıvan mahalında 11.737, Naxçı-

van şəhərində 600 xalvarlıq əkilə bilən torpaq sahəsi (cəmi 12.337) var idi. Xok mahalı üzrə bu rəqəm 1.065, Əlincə mahalı üzrə 3.395, Dərələyəz mahalının qərb hissəsi üzrə 415, şərq hissəsi üzrə 17.484 (cəmi 17.899) idi. Bütövlükdə Naxçıvan dairəsi üzrə əkilə bilən torpaqlar 34.096 xalvar təşkil edirdi. Ordubad dairəsində isə əkilə bilən torpaqlar mahallar üzrə aşağıdakı kimi bölünmüşdü; Ordubad mahalı üzrə 406.5, Cənənab mahalı üzrə 194, Biləv mahalı üzrə 560 xalvar. Qeyd olunan faktlar üzrə müqayisə aparsaq aydın olar ki, Naxçıvan dairəsində əkilə bilən torpaqlar Ordubad dairəsindən 22,4 dəfə çox idi. 1797-ci ildən sonra Mehri və Qafanın Qarabağ xanlığına keçməsi ilə əlaqədar olaraq Naxçıvan xanlığının ərazisinin azalmasını nəzərə alsaq, xanlığın 1747-1797-ci illəri əhatə edən dövründə əkilə bilən torpağın nisbətən çox olduğunu söyləmək olar. Naxçıvan xanlığındakı mövcud maliyyə-vergi sistemi və onun əhalinin demoqrafik vəziyyətinə təsiri də təhlil edilmişdir.

**Əhalinin inzibati-ərazi vahidləri üzrə yerləşməsini öyrənmək üçün** əsasən "Naxçıvan sancağının müfəssəl dəftəri", İ.Şopenin məlumatları və Naxçıvan əyalətinin kameral təsvirinə müraciət edilmişdir. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə 14 nahiyə qeydə alınmışdı. Naxçıvan sancağında nahiyələr üzrə vergi verən əhalinin sayı yaşayış məntəqələrinin böyük və ya kiçikliyi haqda təsəvvür yaradır. "Naxçıvan sancağının müfəssəl dəftəri"nin tərtib olunmasından keçən təxminən yüzillik bir dövr ərzində (onun böyük bir hissəsi xanlıq dövrünə düşür) baş verən ərazi və insan itkilərindən sonra Naxçıvan bölgəsində inzibati vahidlərin sayı 10-a, yaşayış məskənlərinin sayı 233-ə, əhalinin sayı isə 29.463 nəfərə enmişdi. Bu ümumi məlumatlardan sonra əhalinin konkret inzibati vahidlər üzrə xarakteristikasından bəhs edilir. Burada, Naxçıvan əyalətinin Naxçıvan şəhəri və beş mahalı (Əlincə, Naxçıvan, Məvazi-xatun, Xok, Dərələyəz) üzrə əhali haqqında məlumatlar hərtərəfli təhlil edilib. Ordubad şəhəri və dairənin beş mahalı (Ordubad, Əylis, Dəstə, Biləv, Cənənab) üzrə əhali haqqında göstəricilər araşdırılıb.

Cədvəl 3

Naxçıvan sancağının inzibati vahidlər üzrə yaşayış məntəqələrinin və vergi verən əhalinin sayı

| № | Nahiyələr | Yaşayış məntəqələrinin sayı | | Vergi verənlərin sayı | |
|---|---|---|---|---|---|
| | | mütləq | nisbi | mütləq | nisbi |
| 1. | Naxçıvan | 12 | 3,8 | 777 | 7,9 |
| 2. | Əlincə | 28 | 8,9 | 1.450 | 14,8 |
| 3. | Sair-Məvazi | 16 | 5,1 | 151 | 1,5 |
| 4. | Dərəşahbuz | 21 | 6,6 | 153 | 1,6 |
| 5. | Mülki- Arslan | 8 | 2,5 | 550 | 5,6 |
| 6. | Məvaziyi-xatun | 9 | 2,8 | 42 | 0,4 |
| 7. | Qarabağ | 15 | 4,7 | 247 | 2,5 |
| 8. | Qışlağat | 11 | 3,5 | 2.436 | 24,9 |
| 9. | Dərəşam | 4 | 1,2 | 264 | 2,7 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 10. | Azadciran | 37 | 11,7 | 2.918 | 29,9 |
| 11. | Şorlut | 5 | 1,6 | 133 | 1.4 |
| 12. | Dərənütgüt | 5 | 1,6 | 56 | 0.6 |
| 13. | Sisyan | 42 | 13,3 | 189 | 1.9 |
| 14. | Dərəyəz | 102 | 32,4 | 422 | 4.3 |
| | Cəmi | 315 | 100 | 9.788 | 100 |

**Qaynaq:** Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997.

Naxçıvan mahalının əhalisi haqqında məlumatlar isə cədvəl 4-də göstərilmişdir.

Cədvəl 4

Naxçıvan mahalının əhalisi

| Əhalinin etnik tərkibi | ailələrin sayı | | əhalinin sayı | | | |
|---|---|---|---|---|---|---|
| | mütləq | %-lə | kişi | qadın | Cəmi | |
| | | | | | mütləq | %-lə |
| Müsəlmanlar | 979 | 86,7* (47,73)** | 2.205 | 1.989 | 4.194 | 84,4 (44,2) |
| Ermənilər | | | | | | |
| O cümlədən | | | | | | |
| “yerlilər” | 150 | 133 (7,2) | 409 | 367 | 776 | 15,6 (8,2) |
| Cəmi | 1.129 | 100 (54,5) | 2.614 | 2.356 | 4.970 | 100 (52,4) |
| İrandan köçürülənlər | 941 | (45,6) | 2.377 | 2.130 | 4.507 | (47,6) |
| Yekun | 2.070 | 100 | 4.991 | 4.486 | 9.477 | 100 |

* köçkün ermənilərsiz

** ermənilər köçürüldükdən sonra

**Qaynaq**: Шопен И.Исторический памятник состояния Армянской области, ARDTA,f.24,siy.1.,iş.355

**Ermənilərin Naxçıvana ərazi iddiaları və buradakı soyqırımları.** Ermənilərin 1905-1906-cı illərdə azərbaycanlılara qarşı törətdikləri soyqırımın səbəbləri, gedişi, böyük dövlətlərin siyasəti ilə əlaqəsi, kəmiyyət göstəriciləri, nəticələri ətraflı şəkildə nəzərdən keçirilmişdir. V.Qurko-Kriyajin yazırdı ki, sırf iqtisadi zəmində kəskinləşən erməni məsələsi böyük dövlətlərin, Rusiyanın və İngiltərənin faciəli müdaxiləsi nəticəsində daha da mürəkkəbləşdi. XIX əsrin sonları – XX əsrin əvvələrində ermənilər Türkiyənin Zeytun, Samsun, Van və digər bölgələrində törətdikləri dəhşətli qətliamları Naxçıvanda da həyata keçirməyə cəhd etdilər. 1887-ci ildə Cenevrədə İngiltərənin himayəsi ilə yaradılan «Qnçaq» və 1890-cı ildə Tiflisdə Rusiyanın dəstəyi ilə yaradılmış «Daşnaksütyun» erməni terrorçu partiyaları soyqırımlarda başlıca rol oynamışdı. 1905-ci il mayından etibarən ermənilərin Naxçıvan qəzasında azərbaycanlara qarşı qırğını genişlənməyə başladı. Naxçıvan, Ordubad, Culfa, Cəhri, Şahbuz, Çeşməbasar, Kültəpə, Tumbul, Tivi və b. yerlərdə azərbaycanlılar qətlə yetirilməyə başlayır. Tədqiqatda çarizmin qır-

ğınlarının qarşısını almaq üçün gördükləri tədbirlərin əslində azərbaycanlılara qarşı çevrildiyi faktlarla təsdiq olunur. Ordubad qəzasının Tivi kəndində ermənilərin törətdikləri münaqişədən sonra 500-ə yaxın əsgər və zabit göndərilmişdir. Sənədlərdən aydın olur ki, hərbi hissə müsəlmanlara qarşı zor tətbiq etmiş, onları doğma yurdlarından qovmuş, bir sözlə ermənilərə yaxından köməklik etmişdi. Rus kazaklarının köməyindən istifadə edən ermənilər noyabrın 26-da Naxçıvan şəhərində müsəlman bazarını tamam qarət etdikdən sonra od vurmuşdular. Nəticədə bazarda 85 dükan, 75 anbar və b. tikililər yandırılmışdır. Ermənilər və onlara yardım edən rəsmi Rusiya orqanlarının cəhdlərinə baxmayaraq Naxçıvan bölgəsinin azərbaycanlı əhalisi soyqırımın qarşısını almağa nail ola bildi.

1918-ci ilin mayında Daşnak hökumətinin qurulması ilə ermənilərin ərazi iddiaları və soyqırım siyasəti daha da mütəşəkkil xarakter aldı. 1905-1906-cı illər qırğınlarından sonrakı dövrdə də ermənilər ərazi iddiaları və soyqırım siyasətini davam etdirirdilər. I Dünya müharibəsi, xüsusilə Rusiyada Fevral inqilabından sonra ermənilər daha da fəallaşdılar. 1917-ci ilin yanvarından 1918-ci ilin mart ayınadək daşnaklar tərəfindən Naxçıvan bölgəsinin də daxil olduğu İrəvan quberniyasında 197 kəndi talan etmiş, əhalisini qırmış və qovmuşdular. Erməni daşnak hökumətinin yaradılması ilə Azərbaycan torpaqlarında faktiki olaraq etnik təmizləmə başladı. Ermənilər bu siyasətlərində Rusiyaya arxalanırdı. S.Şaumyan və b. vasitəsi ilə Sovet Rusiyasının himayə və təminatını əldə edən ermənilər, xüsusilə də Andranikin silahlı quldur dəstələri Azərbaycanın Naxçıvan sonra isə Zəngəzur və Qarabağ bölgələrinə soxuldular. 1918-ci ilin iyun-avqust aylarından başlayaraq ermənilərin bölgəyə hücumu genişlənir. AXC-nin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının topladığı təkzib edilməz sənədlər və digər materiallar əsasında 1918-1920-ci illərdə ermənilərin Azərbaycanda, o cümlədən Naxçıvan bölgəsində həyata keçirdiyi soyqırım siyasəti təhlil olunur. Osmanlı dövləti ilə əməkdaşlığın bölgə əhalisinin ermənilərin törətdikləri soyqırıma qarşı mübarizə rolu aydınlaşdırılır. Türk qoşunları 1918-ci il 4 iyun müqaviləsinə əsasən ölkəyə daxil olmuşdu. Artıq 1918-ci il avqustun 1-dən etibarən Azərbaycanın Naxçıvan və Təbriz bölgələri K.Qarabəkir paşanın 1-ci Qafqaz ordusunun nəzarəti altında idi. K.Qarabəkir paşa avqustun 7-də qərargahını Təbrizdən Naxçıvana köçürmüşdü. Bundan istifadə edən ingilislər Təbrizi tutmağa çalışır, ermənilər isə Naxçıvana hücuma hazırlaşırdılar, lakin bu hücum dəf edildi. 1918-ci il 30 oktyabr Mudros müqaviləsinin şərtlərinə əsasən Türk qoşunları Naxçıvanı da tərk etməli oldu, vəziyyət yenidən mürəkkəbləşdi. Bölgənin idarəsini və əhalinin müdafiəsini təşkil etmək üçün Araz-Türk Respublikası yaradıldı. İşdə Araz-Türk Respublikasının ermənilərin hücumlarını dəf etmək məqsədi ilə gördüyü işlər hərtərəfli şərh edilir. Araz-Türk Respublikasının bir qrup parlament üzvü tərəfindən AXC parlamentinə göndərilən ərizədə göstərilirdi: «Birləşmiş erməni qoşunları Sürməli, İrəvan, Eçmiədzin və Şərur qəzalarının müsəl-

manlar yaşayan hissələrini tutaraq dağıtmış və Naxçıvan istiqamətinə hərəkət edirlər. Bununla da dinc əhalinin bir qismi qılıncdan keçirilir, canlarını qurtaranlar isə Arazı keçərkən boğulub ölürdülər». AXC parlamenti bu məsələyə 1919-cu il 18 yanvar iclasında baxmış və təklif etmişdi ki, mümkün tədbirlər görülsün. Lakin Araz-Türk Respublikası da uzun müddət davam edə bilmədi. Bundan sonra yaranmış ingilis işğalı dövründə bölgədə vəziyyət yenidən çətinləşdi. İngilislər açıq-aşkar ermənipərəst mövqe tuturdular. Bölgənin idarəsinin ermənilərə verilməsi bu siyasətin mahiyyətini göstərir. Bununla da Naxçıvan bölgəsinin itirilməsi təhlükəsi yarandı. İşdə bu təhlükənin aradan qaldırılması üçün AXC hökumətinin gərgin diplomatik fəaliyyəti, yerli əhalinin fədakar mübarizəsi faktlarla şərh edilir. ABŞ general qubernatorluğu da bölgədə vəziyyəti sabitləşdirə bilmədi. Yalnız Türkiyənin Naxçıvan bölgəsinə hərbi-siyasi yardımı müsbət təsirini göstərdi. Türkiyə ilə erməni daşnak hökuməti arasında bağlanan 1920-ci il 2 dekabr tarixli Gümrü müqaviləsində də bu təsbit edilmişdi. İşdə 1920-ci il iyul-dekabr aylarında Naxçıvan bölgəsinin sovetləşdirilməsi uğrunda mübarizə və onun nəticələrinə də toxunulur. Qeyd olunur ki, Ermənistan İnqilab Komitəsinin 1920-ci il 8 dekabr bəyanatında Naxçıvan müstəqil sovet respublikası kimi tanınır və daşnakların ona qarşı ərazi iddialarından imtina olunurdu. Azərbaycan və Ermənistan İK-nin bəyanatlarına münasibətlə bağlı keçirilən rəy sorğusunda bölgə əhalisinin 90%-i Naxçıvanın Muxtar Respublika kimi Azərbaycanın tərkibində qalmasına səs vermişdi. Bu 1921-ci il 16 mart RSFSR-Türkiyə və 13 oktyabr beş tərəfli Qars müqavilələri ilə də təsdiq olunmuşdur. Beləliklə, ermənilərin Naxçıvana ərazi iddiaları və bunu reallaşdırmaq üçün bölgə əhalisinə qarşı tətbiq etdikləri etnik təmizləmə siyasəti baş tutmadı.

**Tədqiqatın** elmi yenilikləri və praktik əhəmiyyəti kimi aşağıdakıları göstərə bilərik:

- ilk dəfə olaraq Naxçıvan əhalisi tarixi-demoqrafik baxımdan tədqiq olunmuşdur;
- Rusiya imperiyası tərkibində Naxçıvan bölgəsinin ərazi-inzibati və siyasi quruluşundakı dəyişikliklər müəyyənləşdirilmişdir;
- Naxçıvan bölgəsi əhalisinin say dinamikası, yerləşməsi və əhalinin tərkibi tədqiq olunmuşdur;
- ermənilərin Naxçıvana köçürülməsinin mərhələləri, kəmiyyət göstəriciləri və spesifikası araşdırılmışdır;
- əhalinin sosial-iqtisadi strukturunun əsas məsələləri öyrənilmişdir;
- ermənilərin Naxçıvan bölgəsində törətdikləri soyqırımlar, xüsusilə erməni daşnak hökumətinin qurulması ilə onun dövlət siyasətinə çevrilməsi əsaslandırılmışdır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan tarixində Naxçıvan (tarixi oçerklər). Bakı, 1996, s.82
2. Azərbaycan Respuvlikası Dövlət tarix arxivi: fond 24, fond 895.
3. Əliyev F., Əliyev M., Naxçıvan xanlığı (1747-1828). Bakı, 1996, 106 s.
4. Qurko-Krayajin V. Erməni məsələsi (Böyük Sovet Ensiklopediyasının 1926-cı il nəşrindən məqalə). Bakı, 1990, 32 s.
5. Mədətov Q. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı, 1958
6. Nadirov A., Nuriyev Ə., Muradov Ş. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, Elm, 2000.
7. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, Sabah, 1997. 336 s.
8. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 1991.
9. Mir Mövsüm Nəvvab 1905-1906-ci illərdə erməni-müsəlman davası. Bakı, 1993.
10. Kazımov İ. Naxçıvan: Əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). - Bakı: Elm, 2007, 175 s.
11. Quliyev N.Ə.. Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat). Bakı, 2006. 162 s.
12. Şükürov K.K. Azərbaycan əhalisi:öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək).Bakı: Elm, 2004, 974 s.
13. Azerbaycan belgelerinde ermeni sorumu. (1918-1920) Ankara, T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlügü, 2001.
14. Osmanlı devleti ile Azerbaycan türk hanlıkları arasında münasibetlere dair arşiv belgeleri. Karabağ, Şua, Nahçivan, Bakı, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy. II (1575-1918). Ankara: Osmanlı Arxivi DaireBaşkanlığı, Yayim: 9, 1993, 486.
15. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку, Элм, 1990, 224 s.
16. Глинка С.Н. Описание переселения армян азербайджанских в пределы России. Баку, Элм, 1990
17. Никитин К.Н. Город Нахичеван и Нахичеванский уезд. // Сборник материалов для описания местностей и племен Кавказа. Вып.II. Тифлис, 1882
18. Петрушевский И.П. Система русского колониального управления в Азербайджане в I пол. XIX в. // Колониальная политика Российского царизма в Азербайджане. М.-Л., 1936
19. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку, «Озан», 1999.
20. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб., 1911
21. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб.: Типография Императорской Академии Наук, 1852.

## QAZAX SULTANLIĞI*

Tədqiqat işində qarşıya qoyulan problemlərin həllinə tarixilik baxımından yanaşmaq tələbi son vaxtlar müasir demoqrafiya sahəsində çox təkidlə ön plana çəkilir. Zamanın tələbi elədir ki, demoqrafiya problemləri yeni şərait və üzə çıxan yeni aspektlər – öyrənilən problemin daxili mahiyyəti baxımından müqayisəyə gəlməz dərəcədə daha mürəkkəb və daha geniş, ümumi xarakter daşıyan aspektlər nəzərə alınmaqla həll edilməlidir. Bu gün demoqrafik problemlər araşdırılarkən, etnik – demoqrafik şərait təhlil edilərkən regional tipologiyanı ümumi xarakterli tipologiyadan fərqləndirmək, habelə qədim irsin vəhdəti, xalq mədəniyyətinin inkişafı və simbiozu dövrləri nəzərə alınmalıdır.

XIX əsrin birinci yarısında Azərbaycanın Qazax əyalətində əhalinin dinamikasının öyrənilməsindən bəhs edən bu tədqiqat işi regional problemləri tarixi-demoqrafik tədqiqinə dair bir təcrübədir. Qarşıya qoyulan vəzifələr bu gün dövlətimizin inkişafının mürəkkəb dövründə, Cənubi Qafqaz Rusiya imperiyasının birləşdirildiyi dövrdə yaranmış etnik-demoqrafik şəraiti başa düşmək üçün tarixi materialın elmi surətdə öyrənilməsini təkidlə tələb edir.

Zamanın axarı geriyə dönmür, aramsız olaraq irəliləyir. Sovet dövründə və məkanında ölkənin və ümumən regionların əhalisinin bir çox problemləri ictimaiyyətdən gizlədilirdi. Respublikamızda statistika məlumatı, soraq ədəbiyyatı müasir demoqrafların elmi araşdırmaları, tarixi keçmişə dair faktlar açıqlanmırdı, hər şeydən əvvəl ölkənin çoxmillətli olması amili nəzərə alınırdı. Tarixin hər hansı bir faktı geniş xalq kütlələrinin şüurunu, əhval-ruhiyyəsini sarsıda bilərdi. Cilalaşdırılıb müəyyən şəklə salınmış beynəlmiləlçilik hakim dairələrin əlində kəsərli silah idi.

XX əsrin 80-cı illərinin ikinci yarısında tarixin örtüyü qaldırılır və geniş ictimaiyyətin gözləri qarşısında tarixi keçmişin o cümlədən Rusiya çarizminin Qafqazda yeritdiyi qanlı müstəmləkəçilik siyasətinin o vaxtadək görünməmiş mənzərələri açılırdı.

Tarixi materiallara, Qafqaz Arxeoqrafiya Komissiyasının (komissiyanın sədri A.Berje) aktlarına müraciət edərək XIX əsrdə Respublikanın cənub-qərbində baş vermiş hadisələrin mənzərəsini bərpa etsin. Tarixə maraq o illərin əhalisi haqqında statistik materialların axtarışı ilə bağlıdır. İran, Türkiyə, Rusiyanın Qafqazda nüfuz dairəsi uğrunda mübarizəsi kəskinləşir.

---

* "Qərbi Azərbaycan sultanlıqları (tarixi-demoqrafik tədqiqat)" mövzusu bölmənin mərhum aspirantı İsmayılova Kəmalə Vaqif qızı tərəfinfən tədqiq edilirdi. Bu material bölmənin 2003-cü ilin Elmi hesabatı əsasında hazırlanmışdır.

Onlar zəngin torpaqları ələ keçirib diyarı müstəmləkəyə çevirmək və Cənubi Qafqazda yaşayan xalqları əsarət altına almaq istəyirdilər. Uzaq ölkələr – İngiltərə və Fransa da torpaqlarımızı zəbt etmək niyyətində idilər. Lakin Rusiyanın strateji maraqları açıq-aşkar üstünlük təşkil edirdi.

Bu tədqiqat işində biz Qazax əyalətinin Rusiya qoşunları tərəfindən müstəmləkəyə çevrildiyi dövrdə yaranmış etnik-demoqrafik şəraiti işıqlandırmağa çalışmışıq.

Niyə azərbaycanlıların sıx yaşadıqları Qazax vilayətinin bir hissəsi tarixən Gürcüstanın və Ermənistanın ərazisinə qatıldı? Həmin illərin tarixi sənədlərindən götürülən statistika məlumatı, eləcədə məktublar, vedomostlar, siyahılar, göstərişlər, sərəncamlar və başqa materiallar bu suala cavab verməyə imkan yaradır.

## Ərazi və idarəetmə sistemi

**Qazax sultanlığının yaranması tarixindən**. Səfəvilərin hakimiyyəti dövründə (1502-1736-cı illər) Qazax sultanlığı (Şəmşəddil sultanlığı da onun tərkibinə daxil idi) Qarabağ bəylərbəyliyinə tabe idi.

Qazax sultanlığının ərazisində «kosoqlar»ın (qazaxların) tayfaları yaşayırdılar. Qazax sultanlığı Qarabağ bəylərbəyinin ixtiyarında olan kiçik feodal ərazilərindən biri sayılırdı. Qazağı sultan rütbəli feodal idarə edirdi. Sultan rütbəsi vərəsəlik üzrə nəsildən-nəslə keçirdi.

XVI əsrin 80-cı illərində Səfəvi-Osmanlı müharibələri nəticəsində «Bayat», «Qaramanlı» və başqa tayfalar İran ərazisinə köçüb getdilər. Onlardan fərqli olaraq, «kosoqlar» doğma yerlərini tərk etmədilər. Qazax tayfalarının başçısı Nəzər xan Osmanlı idarə üsulunu qəbul etdi və beləliklə də öz torpaqlarını qoruyub saxladı. Tezliklə Səfəvilər diyarı yenidən ələ keçirdilər. Lakin Nəzər xanı bu dəfə də hakimiyyətdən uzaqlaşdırmadılar.

1736-cı ildə bəylərbəyi Uğurlu xan Ziyad oğlu həmin ildə İran taxttacına sahib olan Səfəvilər sülaləsinin hökmranlığına son qoymuş Nadir şaha qarşı çıxdı. Qəzəblənmiş Nadir şah Qazağı, Şəmşəddili və Borçalını Qarabağ bəylərbəyindən alıb, Kartli-Kaxetiya çarlığının hökmdarı Teymuraza verdi.

XVII əsrin axırında Qazax sultanlığı Kartli-Kaxetiya çarlığının hökmdarı II İraklinin (1720-1798) idarə etdiyi ərazilərin tərkibinə daxil idi.

**Azərbaycan torpaqlarının Rusiya İmperiyasına birləşdirilməsi.** İmperator I Aleksandrın 1801-ci il 12 sentyabr tarixli manifestinə əsasən 1801-ci ildə Gürcüstanın Kartli-Kaxetiya çarlığı Rusiya imperiyasının tərkibinə daxil edildikdə Qazax sultanlığı Rusiyaya birləşdirildi. İran və Türkiyə, habelə onları təhrik və müdafiə edən İngiltərə və Fransa Cənubi Qafqazın Rusiyaya birləşdirilməsinə mane olmağa cəhd göstərdilər.

1804-cü ildə Cənubi Qafqazda birinci Rus-İran müharibəsi başlandı. Rusiya müharibədə qalib gəldi və 1813-cü il oktyabrın 12-də Gülüstan kəndində (Qarabağdadır) Rusiya və İran arasında sülh müqaviləsi imzalandı.

İran Şimali Azərbaycan xanlıqlarının, Şərqi Gürcüstanın və Dağıstanın Rusiya tərkibinə daxil olması faktı ilə razılaşdı.

1826-cı ilin iyulunda Cənubi Qafqaz uğrunda ikinci Rus-İran müharibəsi başlandı. Müharibə edən tərəflər arasında 1828-ci il fevralın 10-da Türkmənçay kəndində (Təbrizin yaxınlığındadır) Sülh müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə görə İran Şimali Azərbaycan torpaqları, Şərqi Gürcüstan barədə iddialarından əl çəkdi və Naxçıvan xanlığının, Ordubad mahalının və Şərqi Ermənistanın Rusiyaya birləşdirilməsi faktı ilə razılaşmaq məcburiyyətində qaldı. Türkmənçay müqaviləsi bu gün də Rus-İran münasibətlərini tənzim edir.

Qazax Sultanlığı Rusiyanın tərkibinə daxil edildikdən sonra «Tatar distansiyası» adlandırıldı.

Cənubi Qafqazın ruslar tərəfindən işğal edilməsi iqtisadi əhəmiyyət deyil, hər şeydən əvvəl strateji əhəmiyyət daşıyırdı. Ruslar öz məqsədlərinə nail olmaq üçün göstərdikləri cəhdlərdə Qafqazda siyasi maraqları olan və burada diplomatik müharibə aparan Qərb dövlətlərini (İngiltərəni və Fransanı) qabaqladılar. Digər tərəfdən Qafqazı fəth etməklə Rusiya «yeni islamçılığın» təsir qüvvəsini məhdudlaşdırırdı. Həmin fikri xalq kütləsinə təkidlə təlqin edən Rusiya bu gün də öz niyyətindən əl çəkmir, rus əsgərlərinin və dağ xalqlarının qanını tökür. Həqiqətdə isə başlıca məsələ ümumən Qafqazın strateji əhəmiyyətindən ibarətdir.

**Qazax distansiyasında inzibati idarəetmə sistemi.** Çar hakimiyyəti yerli feodallardan müstəmləkəçilik siyasətinin mənafeyi naminə istifadə etməyə çalışırdı. Gürcüstanın Rusiyaya birləşdirilməsi gedişində çar hakimiyyətinin Ümumqafqaz orqanları xanlıqların və sultanlıqların tədricən ləğv edilməsi və onların Rusiya hərbi idarəetmə sistemi ilə əvəz olunması xəttini yeridirdilər. Xanlıqların Rusiya tərkibinə daxil olması haqqında xüsusi müahidənamədə yerli feodalların hakimiyyətinin xeyli məhdudlaşdırılması nəzərdə tutulurdu. Formal surətdə göstərilirdi ki, daxili idarəetmə işlərində, məhkəmədə işlərə baxılmasında, gəlirlərin toplanmasında və xərclənməsində (gəlirlərin Rusiyaya verilən hissəsi istisna olmaqla) xanların və sultanların müstəqilliyi saxlanılırdı. Daxili idarəetmə işlərində yerli feodalların müstəqilliyindən heç danışmağa dəyməz. Nəzərə almaq lazımdır ki, feodal, bir çox tədbirləri Qafqaz administrasiyasının özü üçün məcburi sayılan göstərişlərinə uyğun olaraq həyata keçirməli idi. Həm də feodallar guya onların ərazilərini qonşuların basqınlarından qorumaq üçün hər bir ərazidə yerləşdirilmiş Rus qarnizonları rəislərinin nəzarəti altında idilər. Bundan əlavə xanlara ciddi surətdə xəbərdarlıq edilmişdir ki, onlar müahidənaməyə riayət etməsələr, tabeliklərindəki əraziləri idarəetməkdən kənar olunacaqlar. Xanların və sultanların mühakimə hüququ o dərəcədə məhdudlaşdırılmışdı ki, onların hakimiyyəti nominal xarakter daşımağa başlamışdı. Yerli feodallar əslində Rusiyanın mərkəzləşdirilmiş dövlət aparatının məmurları vəziyyətində idilər.

Qazax distansiyasında keçmiş sultan Mustafa ağa müəyyən müddət ərzində idarəedici vəzifəsində saxlanmışdı (18 ilə qədər). Qeyd etmək lazımdır ki, Qazax distansiyası Rusiyanın tərkibinə daxil olduqdan və Rusiya siyasi sisteminin tərkib hissəsinə çevrildikdən sonra sultan hakimiyyəti öz ömrünü tədricən başa vurdu.

Qazax Rusiyanın tərkibinə daxil olduqdan sonra oraya bilavasitə Gürcüstanın baş idarəedicisinə tabe olan mourav təyin edildi. Mourav polis, fiskal və məhkəmə funksiyalarını icra edirdi, qismən də vergilərin toplanması və cinayət işlərinə baxılması ilə məşğul olurdu.

Çar hökuməti komendant idarə sistemini «hərbi-xalq idarə sistemi» adlandırırdı. Əslində isə bu, hərbi işğal zamanı həyata keçirilən idarə sistemi idi. Belə bir sistem şəraitində mülki hakimiyyət və məhkəmə iyerarxiyası hərbi qaydada təşkil edilir və bunun da ağırlığı tamamilə xalqın üzərinə düşür.

Qazax distansiyasının kəndlərini ağalar və məliklər idarə edirdilər. Gürcü çarlarının hökmranlığı dövründə onların kəndlilər üzərində hakimiyyəti qeyri-məhdud idi. Rusiyanın tərkibinə daxil olduqdan sonra ağalar və məliklər özlərinin əvvəlki hüquqlarını saxlamağa çalışırdılar. Hərbi şəraitdə ağalarla münasibətləri kəskinləşdirmək istəməyən çar hökuməti ilk çağlarda gürcü knyazlarından olan mouravların və rus zabitlərindən təyin edilən pristavların nəzarəti altında Qazax kəndlərinin əvvəlki idarə sistemini saxlamışdı. Lakin sonradan ağaların hakimiyyəti məhdudlaşdırıldı.

1818-ci ildə Qafqaz administrasiyası Ağaların hüquqları və vəzifələri haqqında əsasnamə təsdiq etdi. Həmin sənəddə ağaların gələcəkdə kəndlilərlə münasibətlərinin tənzimlənməsi müəyyən olunmuşdu. Əsasnaməyə uyğun olaraq, ağalar polis funksiyalarını və qismən də məhkəmə hakimiyyətini həyata keçirməli idilər. Onlara «qayda-qanuna riayət edilməsinə» nəzarət etmək, vergiləri toplamaq, oğruları tutmaq, az əhəmiyyətli mülki işlərə və cinayət işlərinə baxmaq, ağır cinayətlər barədə pristava məlumat vermək funksiyaları həvalə olunmuşdu. Kəndlilər dövlətə çatacaq pul vergilərinin və natural vergilərin ondabir hissəsini ağalara verməli, ildə bir gün özünün kənd təsərrüfatı alətləri ilə ağaların torpaqlarını, bir gün onun qohumlarının torpağını becərməli, ağalar üçün taxıl biçməli və döyməli, bir sıra tarla işlərini görməli, onun üçün yaşayış binaları tikməli, ona nökərçilik etməli və başqa vəzifələri yerinə yetirməli idilər.

Əsasnaməyə görə ağaların bir sıra hüquqları və imtiyazları saxlanılırdı. Lakin Əsasnamənin başlıca məqsədi ağaları kəndlərin idarə olunmasında müstəqillikdən tədricən məhrum etmək və onları çar dövlət maşınının məmurlarına çevirmək idi. Əsasnamədən narazı olan ağalar distansiyanın sakinlərini iğtişaşlar törətməyə təhrik etdilər. 1827-ci ildə Qazax distansiyasının ağaları çara ərizə göndərdilər. Ağalar ərizədə yazırdılar ki, «türklərin, iranlıların və gürcülərin hökmranlığı dövründə xalqı istədikləri kimi idarə edirdilər, onların gürcü knyazlarına edilən hörmət qədər hörmətləri var idi, onlar hörmətə sədaqətlə xidmət edirdilər, lakin Yermolov… onların

hüquqlarını əllərindən aldı». Ağalar xahiş edirdilər ki, əvvəlki hüquqları özlərinə qaytarılsın. Bu, ağaların əvvəlki hüquqlarının qaytarılması üçün göstərdikləri axırıncı cəhd idi, sonradan onlar Əsasnamədə nəzərdə tutulan hüquqlarını qoruyub saxlamağa çalışırdılar. Lakin çar hökuməti ağaların hüquqlarını genişləndirmək niyyətində deyildi.

## Əhali

**XIX əsrin birinci yarısında Qazax distansiyası əhalisinin sayının dinamikası.** Qazax əyaləti 3200 kv. verst ərazini tuturdu. 1804-cü ildə distansiyada 10 min nəfərdən çox əhali yaşayırdı. Əhalinin sıxlığı, yəni 1 kv. verstə düşən sakinlərin sayı 3,2 nəfərə bərabər idi.

XX əsrin 70-ci illərinin əvvəlində Qazax rayonunun Çaxmaqlı kəndində Həsənsu çaynının sağ sahilində, Köçəsgər kəndinin 6 kilometrliyində mustyerolevalluaz yaşayış məskəni aşkara çıxarılmışdı. 1971-ci ildə Qarğalar təpəsində bizim eradan əvvəlki IV-V minilliklərə aid eneolit dövrünün yaşayış məskənində arxeoloji qazıntılar aparılmışdı. Bu və başqa arxeoloji qazıntılar sübut edirdi ki, Qazağın ərazisi paleolit, mezolit və eneolit dövrlərində insan tərəfindən məskunlaşmışdı.

Qazaxlılar (qədim «kosoqlar») xəzərlərlə bir tayfadan olan xalqdır. Q.Qeybullayev «kas» kökünün mənasını qədim türk tayfasının adı kimi izah edir. «Ar» (ər) insan (kişi) deməkdir. «Kas» etnonimi «qazax» (qədim forması «kasak») və «qazan» (qədim forması «kəsən») etnonimlərinin kökündür. Hələ eradan əvvəl ikinci minillikdə həmin tayfa Ön Asiyaya və Midiyaya gəlmişdi. Assuriya mənbələrində isə «kas» etnonimi «kaş» şəklində qeyd edilmişdir.

Professor M.Seyidovun fikrincə, «qaz+aq» sözünün mənası «ucalan, zirvələrə yüksələn» deməkdir, çünki özlərini «qazaq» adlandıranlar qədim zamanlardan uca dağlar, zirvələr və səma ilə bağlı insanlar hesab edilirdilər. Müəllif həmin sözün yaranmasını əcdadlarımızın dünyanı əfsanəvi tərzdə qavramaları ilə əlaqələndirir. O, yazır «Gətirilən tarixi toponimik, etnoqrafik materiallardan aydınlaşır ki, «qazax /qasaq» və onların «qaz /qas» tərkibi və ya müəyyən şəkilçisi, söz qəbul etmiş halda (Qaz-an, Qazıq, Qaz-bek, Qaz-aq, Qas-aq, Qas-sulaq və s.) erkən orta əsrlərdə və sonralar işlənmişdir. Bu sadalanan sözlərin türk, o sıradan Azərbaycan dilində eradan qabaq və eranın lap erkən çağlarında işlənməsi göstərir ki, burada azərbaycanlılar - türkdillilər eradan qabaq yaşamış və öz dağlarına, çaylarına, yerlərinə öz dillərində öz misrik təfəkkürləri, görüşləri ilə bağlı adlar qoymuşlar”.

Sonralar bütövlükdə Azərbaycan xalqını təşkil edən türkdilli tayfaları kimmerlər, saklar, quqarlar, şiranlar, bolqarlar adlandıraraq göstərir ki, sadalanan tayfalar mahallarda yaşamış və erməni əhali ilə assimilyasiyaya məruz qalmamışlar.

Qədim kosoqlar XI yüzillikdə Kiçik Asiyada məskunlaşmışdılar. Onlar sonralar səlcuqlar və uzlar ilə eyni vaxtda Amu-Dərya çayını keçdilər.

Tarixçi İ.Şopen qazaxlıların əsas tayfalarının adlarını aşağıdakı cədvəldə göstərmişdir:

Cədvəl 1

Tayfalar üzrə əhalinin sayı

| Tayfalar | Ailələrin sayı | Kişilərin sayı | Qadınların sayı | Cəmi |
|---|---|---|---|---|
| 1.Qarapapaqlar | 840 | 2.662 | 1.957 | 4.619 |
| 2.Böyük Çoban Qara | 159 | 540 | 448 | 988 |
| 3.Saraclı | 90 | 289 | 252 | 541 |
| 4.Dəmirçilər | 31 | 122 | 106 | 228 |
| 5.Kərimbəyli | 55 | 199 | 158 | 357 |
| 6.Qafarlı | 98 | 333 | 319 | 652 |
| 7.Şeyxlər | 34 | 116 | 116 | 232 |
| 8.Qarabağlı | 12 | 36 | 32 | 68 |
| 9.Cəfərli | 16 | 43 | 39 | 82 |
| 10.Əli-Şərurlu | 12 | 43 | 32 | 75 |
| 11.Gödəkli | 24 | 81 | 77 | 158 |
| 12.Cəmilli | 10 | 37 | 28 | 65 |
| 13.Çaxırlı | 57 | 169 | 139 | 308 |
| 14.Görkübaşlı | 13 | 36 | 36 | 72 |
| Cəmi | 1.451 | 4.706 | 3.739 | 8.445 |

İ.Şopen dəqiqləşdirir: «Qazaxlıların bütün bu tayfalarından və ya cəmiyyətlərindən (ctans) çox güman ən qədimi Qarapapaqlar tayfasıdır. Heç bir şübhə yoxdur ki, həmin xalq onunla eyni dildə danışan və eyni cür həyat tərzi keçirən, indinin özündə də və Aral dənizinin ətrafında məskunlaşan Qaraqalpaqlarla bir tayfadandır (türkcə «qalpaq», farsca «papaq», slavyanca «klobuk» eyni mənalı sözlərdir). Yəqinliklə güman etmək olar ki, məhz onlar bizim əcdadlarımıza peçeneqlərin bir nəslini təşkil edən «Qara Klobuklar» adı ilə məlum idilər.

Beləliklə, Qarapapaqlar etnoqrafik qrupunun kökləri XI-XII əsrlərdə Gürcüstanda məskunlaşmış türkdilli tayfalara gedib çıxır.

Türkdilli xalqlar «qara» dedikdə təkcə rəng nəzərdə tutmurlar. Həmin sözün başqa bir leksik məzmunu məcazi məna daşıyır və «güc, qüvvə, əzəmət» deməkdir.

«Peçeneqlər» nəslindən olan «Qarapapaqlar» ən qədim tayfadır. Etnonimlər Qazağın toponimlərində, Dəmirçilər, Bəylər, Cəmilağa, Şeyxlər kəndlərinin adlarında öz əksini tapmışdır.

«Muğanlı» tayfası qədim moğolların qalıqlarıdır. Ulu Çingiz xan da Moğollardan idi. Vaxtı ilə Qazağın Muğanlı kəndində 30 ev olmuş, 120 nəfər əhali yaşamışdır. Qazağın Qaraqoyunlu kəndində «Qaraqoyunlular» tayfasından olan nəsillər yaşamışlar. XV yüzilliyin əvvəlində Qaraqoyunlular İranın və Kiçik Asiyanın ərazisində «Ağqoyunlular» tayfası ilə qanlı mü-

haribə aparmışdılar. Qaraqoyunlular nəsli əsasən əkinçiliklə məşğul olurdu və sonradan yerli əhali ilə qaynayıb qarışmışdı.

Qazağın Sadaxlı kəndinin adı «Sadak» etnonimi ilə bağlıdır. Albaniyada «Sode» tayfası yaşamışdı. Bu ad Azərbaycanın və Gürcüstanın sərhədində yerləşən «Sadak mahalı» toponiminin əsasını təşkil edir.

«Kol» sözü Qafqazda və Monqolustanda «aran» və «qol» mənasında işlədilir. «Kol» kökünə Qazağın Kolagir köçəri tayfasının adında təsadüf edilir. Həmin etnonim eyni zamanda göstərir ki, İrana, İraqa və Cənubi Qafqaza mühacirət etmiş türk-monqol tayfaları və xalqları («oyrat», «sulduz», «cəlair» tayfaları) tarix boyu necə pərən-pərən düşmüşlər.

1802-ci ildə Qazaxda 71 kənd var idi. Kolagir (20 həyət), Muğanlı (25 həyət), Köşəkli (50 həyət) köçəri məskənləri də burada yerləşirdi. XIX əsrin birinci yarısında məskənsalma şəbəkəsi say baxımından az dəyişmişdi (1853-cü ildə cəmi 73 kənd var idi). Şəmşəddildən fərqli olaraq, Qazaxda və Borçalıda əhali daha sıx məskunlaşmışdı, çünki Qazax və Borçalı sakinlərinin torpaq sahələri xeyli az idi.

1804-cü ildə Qazax sakinlərinin sayı 10.161 nəfərə çatmışdı, 1806-cı ildə sakinlərin sayı 6.418 nəfər artmışdı (əhalinin ümumi sayı 16.579 nəfər olmuşdu). Bir sıra səbəblərə baxmayaraq, say artımı yüksələn xətt üzrə gedirdi. Məlumdur ki, 1802-ci ildə Gürcüstanda azar yayılmışdı. Rusların hərbi əməliyyatları ilə əlaqədar olaraq, əhalinin bir hissəsi yaşayış yerlərini tərk etmişdi. Əhali dağlara və ya qonşu əyalətlərə qaçmağa məcbur olmuşdu. Lakin sənədlər yerli əhalinin artımını qeyd edir.

1804-cü ildə qazaxlılar rusların Qafqazda hökmranlığına qarşı çıxdılar və özünün siyasətində Gürcüstan taxt-tacının vəliəhdlərinə arxalanan İrandan kömək umdular. Qazax və Borçalı mahallarının daxil olduqları Yelizavetpol qəzasına İrandan 1805-ci ildə 230 erməni ailəsi köçürüldü. Bu ailələr əkinçiliklə məşğul olmalı idilər.

1806-cı ildən 1811-ci ilədək əhalinin sayı kəskin surətdə 11.261 nəfər azalır və 5.318 nəfərə enir. Həmin dövrdə yeni hakimiyyətlə barışmayan qazaxlılar arasında miqrasiyanın gücləndiyi müşahidə edilir. Hərbi dairələr və yerli ağalar onsuz da talanıb çapılan kəndlilər üçün yeni vergilər təyin edirdilər. Sakinlər Rusiya ordusunun nizami qoşunlarının yemək-içməyini verməli, onların canlı qüvvə ilə, ərzaqla, atlarla, yük daşımaq üçün öküzlərlə təmin etməli idilər. Əhali ağır həyat şəraitinə dözməyərək köçüb gedirdi.

1810-cu ildə hökumət dairələri dövlət kəndlilərinin köçüb getməsinə yol verməməyi qərara aldılar. «Mülkədarların öz kəndlilərini bir qəzadan başqa qəzaya, bir kənddən başqa kəndə köçürməyə ixtiyarı var idi. Ancaq bu iş Dövlət Ekspedisiyasının icazəsi ilə görülməlidir...» (general Tormasovun sərəncamından). Sərəncamın bir bəndində deyilir: «Borçalı, Qazax, Pəmbək, Şəmşəddil distansiyalarından və Şörəyel mahalında məxfi surətdə siyahıyaalma keçirilməlidir». Belə məxfi siyahıyaalma hökumət orqanlarına

yeni mükəlləfiyyətlər təyin etməkdən ötrü evlərin sayını dəqiqləşdirmək üçün lazım idi.

Hökumət orqanlarının özbaşınalığı Gürcüstanda, o cümlədən onun müsəlmanlar yaşayan əyalətlərində xalq arasında iğtişaşlara səbəb oldu.

Qazağın sakinləri başlıca olaraq, yaxınlıqdakı Qarabağ və Yelizavetpol (Gəncə) əyalətlərinə qaçırdılar. Həmin illərdə miqrasiyanın başlıca səbəbi ağır vergilər idi. Dövlət kəndlilərini mal-qara ilə birlikdə əvvəlki yaşayış yerlərinə qaytarmaq Rusiya qoşunlarına tapşırılırdı. Lakin kəndliləri məskənlərdə yerləşdirmək o qədər də asan məsələ deyildi. Köçəri həyat tərzinə alışmış ailələr tez bir zamanda bir ərazidən başqa əraziyə keçirdilər.

1811-ci ildən 1831-ci ilədək Qazax sakinlərinin sayı 28.586 nəfər artmışdı (ehtimala görə). 1831-ci ildə təkcə kişilərin sayı 17.632 nəfərə çatmışdı. 1831-ci ilin kameral məlumatına görə Qazax əyalətində 69 kənd, kəndlərdə isə 4.960 ev var idi. Rusiyanın hökumət orqanları məqsədyönlü demoqrafik siyasət yeritmək nəticəsində əhalinin artmasına nail oldular. Birinci, sakinlərdən tələb edilirdi ki, köçəri həyat tərzindən oturaq həyat tərzinə keçsinlər. İkinci, hərbi orqanların icazəsi olmadan bir əyalətdən başqa bir əyalətə köçmək (dövlət kəndlilərinə) qadağan edilmişdi. Üçüncü, hökumət orqanları xristian ailələrini fəal surətdə Qafqaza köçürürdü. Nəticədə Qazaxda yaşayan ermənilərin sayı 1830-cu ildə iki dəfə artmışdı. Müqayisə üçün qeyd edək ki, 1806-cı ildə erməni əhalinin sayı cəmi 4.719 nəfər (kişilər və qadınlar) idi. 1831-ci ildə erməni millətindən olan kişilərin sayı 4.796 nəfərə çatmışdı.

1828-ci ildə Qazax əyalətində taun xəstəliyindən 6 nəfər tələf olmuşdu. 1841-ci ildə regionda (Noraşendə, Şınıxda, Kulpda) taun xəstəliyi yenidən şiddətləndi və 34 nəfər öldü. Xəstəlik Türkiyədən köçüb gələnlər vasitəsilə yayılmışdı. Oturaq həyat tərzinə keçmək siyasəti ilə əlaqədar olaraq, azərbaycanlıların 700 ailəsini Qazaxdan Şirvana köçürmək qərara alınmışdı.

XIX əsrin 20-ci illərinin axırında Gürcüstanın əyalətlərində (xüsusən müsəlman əhalinin sıx yaşadığı əyalətdə) xalq arasında tez-tez həyəcanlar baş verməsi ilə əlaqədar olaraq, ağaların və rus pristavların azlığına qarşı mübarizə kampaniyası genişlənmişdi. Maliyyə məlumatında xüsusilə qeyd edilirdi ki, «... Rus dilini bilməyən və qanunlara bələd olmayan sakinlər özlərini tam şəkildə müdafiə etməyi bacarmırlar, pristavın əməlləri barəsində yazdıqları şikayət ərizələrini Tiflisə aparmalıdırlar. Pristavın icazəsi olmadan onlar Tiflisə gedə bilmirlər. Vergilər toplanarkən aşağıdakı səbəblər üzündən daha çox özbaşınalıq halları törədilir: Hökumət mahta, sursat və zemstvo mükəlləfiyyətlərini evlərin sayına görə deyil, bütövlükdə distansiya üzrə müəyyən edir. Bunların kəndlər üzrə bölgüsü barədə pristav vəkillə, ağalarla birlikdə sərəncam verir. Deməli, pristav ağalarla əlbir olub, sakinlərdən müəyyən edildiyindən üç dəfə çox vergi toplamaq imkanı qazanır....

Xalqın həyəcanı hökumət orqanları tərəfindən amansızcasına yatırılırdı. Həyəcan isə artıb qiyama çevrilir və nəticədə ailələr qonşu ölkələrə –

Türkiyəyə, İrana, habelə İrəvan xanlığına qaçırdı. Qazax sakinləri əsasən Qarabağa Yelizavetpola köçürdülər. Ağalar tərəfindən sıxışdırılan və bir çox başqa səbəblər üzündən sakinlər kəndləri tərk edir və sərbəst surətdə müsəlman əyalətlərinə gedir, yaşamaq üçün özlərinə yer seçir və orada qalırdılar…».

1818-ci və 1826-cı illərdə Qazax sakinlərinin bir hissəsi dağlara köçərkən Türkiyəyə və İrana qaçmışdı.

1853-cü ildə Qazax sakinlərinin sayı 38.980 nəfərədək artmışdı. Qazağın 73 kəndinin sakinləri heç də təkcə azərbaycanlılardan və ermənilərdən ibarət deyildi. Qolovino və Yeni Dilican kəndlərində 313 nəfər rus yaşayırdı. 1802-ci ildə 17, 1854-cü ildə isə 24 erməni kəndi var idi: ermənilərin sayı iki dəfə artmışdı (təqribən 8 min nəfər). Beləliklə, göstərilən dövrdə əhalinin sayının dinamikası xristian ailələrinin müsəlman əyalətlərinə köçməsi ilə müəyyən edilirdi.

**Qazax əyalətinin etnik tərkibi.** XIX əsrin əvvəllərində Qazax əyalətində əsasən üç etnosun nümayəndələri: azərbaycanlılar (11.711 nəfər), ermənilər və gürcülər (cəmi 4.719 nəfər) yaşayırdılar. Bütün əhalinin 71 %-ni azərbaycanlılar, 29 %-ni ermənilər və gürcülər təşkil edirdilər.

1802-ci ildə Qazaxda 17 erməni kəndi var idi, XIX əsrin ortalarına yaxın erməni kəndlərinin sayı 24-ə çatmışdı.

Azərbaycanlılar (rus kolonistləri gələnədək) ən yaxşı və məhsuldar torpaqlarda yaşayırdılar. Ermənilərin əksəriyyəti dağlarda məskunlaşmışdı. Onlar əkib-becərmək üçün ağalardan torpaq sahələrini icarəyə götürürdülər. Ermənilər oturaq həyat tərzi keçirirdilər. Onların arasında sənətkarlar: dərzilər, çəkməçilər və bərbərlər az deyildi.

Rusların Cənubi Qafqaza gəlişi ilə erməni əhali üçün müxtəlif yerlərdə məskunlaşmaqdan ötrü yeni imkanlar yarandı. Ruslar ermənilərin əvvəla xristian olduqlarını nəzərə alaraq, onların arasında özlərinə dayaq axtarırdılar. Ruslar köçüb gedən müsəlman ailələrin yaşadıqları yerlərdə Türkiyədən və İrandan ardı-arası kəsilmədən gələn erməni ailələrini fəal surətdə məskunlaşdırırdılar.

Rusiya və İran arasında bağlanmış Türkmənçay müqaviləsinin XV maddəsinə uyğun olaraq, Azərbaycanın bütün sakinlərinə öz ailələri ilə birlikdə İrandan Rusiyaya köçmək üçün bir il müddət nəzərdə tutulmuşdu. Rusiyanın hökumət dairələri xristian köçkünlərə torpaq sahəsi almaq üçün güzəştlər vermişdilər, onlar altı il müddətində vergi verməkdən, üç il müddətində zemstvo mükəlləfiyyətlərindən azad edilmişdilər. 20-ci illərin axırında 8.000-dən çox xristian ailəsi (40 min nəfər) 3 ay yarım ərzində Araz çayı vasitəsilə sərhədi adlayıb şimal sahilinə keçmişdi.

1822-ci ildə Qazaxda ermənilərin məskunlaşdığı 22 kənd var idi. Kəndlərdə 1.009 nəfər əhali yaşayırdı, 15 erməni kilsəsi açılmışdı, 69 ruhani dini ayinləri icra edirdi.

1832-ci ildə rusların və kazakların Qazağa köçürülməsi haqqında qanun verildi. Beş il ərzində raskolniklər, malakanlar, duxoborlar – cəmi 672 ailə Qafqaza köçürüldü. Qraf Vorontsovun canişin olduğu dövrdə köçürülmə siyasəti daha geniş miqyas almışdı. Həmin dövrdə 3.500-ə qədər raskolnik ailəsi Qafqaza köçürülmüşdü.

1853-cü ildə Qafqaz ərazisində 2 rus kəndində 313 nəfər rus yaşayırdı. Onlar əhalinin cəmi 2%-ni təşkil edirdilər. Qazağın 73 kəndindən 26-sı xristian ailələr tərəfindən məskunlaşmışdı. Rusiya hökumət dairələrinin sərt demoqrafik siyasətinə baxmayaraq, azərbaycanlılar əhalinin əksəriyyətini (69%-ni – cəmi 27.047 nəfər) təşkil edirdilər.

**Assimilyasiya prosesləri.** Rusiyanın hökumət dairələri özlərinin müstəmləkəçilik məqsədlərinə nail olmaq üçün ermənilərdən istifadə edirdilər, iki xalq arasına düşmənçilik toxumları səpir, imperiyanın başlıca prinsiplərinin - “Parçala və hökm sür!” prinsipini həyata keçirməyə imkan verən mikroiqlim yaradırdılar.

**Miqrasiya prosesləri**. XIX əsrin birinci yarısında Qazax sultanlığında məskunlaşmış etnik qruplar (elatlar) köçəri və yarımköçəri xalqlardan ibarət idilər. Elatlar qış fəslində dağlardan düzənliklərə enir, burda maldarlıq və əkinçiliklə məşğul olurdular. Yay fəslində köçərilər mal-qara bəsləmək üçün otlaqlarla zəngin olan yaylaqlara gedirdilər. Onların ancaq az bir faizi torpağa bağlanmışdı. Əhalinin az bir hissəsi daimi yaşayış yerlərində məskunlaşmışdı. Qazax sultanlığının Kolagir, Köşəkli və Muğanlı köç yerlərinin sürülərini otarmaq üçün elatlar qonşu Qarabağ, Şirvan, Gəncə əyalətlərinə gedirdilər.

Diyar Rusiya hökumət dairələri tərəfindən məskunlaşdırılarkən sakinlərin miqrasiyası xüsusi bir aktuallıq kəsb edirdi. Yerli sakinlərin köçəri məişət tərzi Rusiyanın regionda inzibati planlarının həyata keçirilməsinə əngəl törədirdi. Köçərilərin oturaq həyat tərzinə keçməsi məsələsi Şərqdə aqrar islahatları reallaşdırmaq işində xüsusi əhəmiyyət kəsb edirdi. Rəsmən Cənubi Qafqaz “az məskunlaşmış zona” olaraq qalırdı. Kənd əhalisinin üçdə bir hissəsi köçəri həyat sürürdü və siyahıyaalmadan kənarda qalmışdı.

XIX əsrin birinci iki onilliyində Rusiyanın hökumət dairələri fiskal məqsədlərlə köçəriləri təqib edir, onları torpağa bağlamağa çalışırdılar. Köçəri ailələr çox vaxt zorakılıqla, bəzən də, razılıq əsasında əvvəlki yaşayış yerlərinə qaytarılırdılar. Kəndlərdə və köç yerlərində hərbi qarovullar qoyulurdu. Başqa diyarlara köçmək ciddi surətdə qadağan edilmişdi. Köçərilər dağlara yay otlaqlarına getməyə hazırlaşanda hökumət dairələri adlı-sanlı yerlilərin ailə üzvlərindən girov verməyi tələb edirdilər. 30-cu illərə yaxın Qazax sakinlərinin sayı kəskin surətdə azalmışdır. Hökumət dairələri sakinlərin sayca azalmasının başlıca səbəbini əhalinin miqrasiyasında görürdü. Hökumətin yeni qanunları ilə razılaşmayan sakinlər Türkiyə və İrana qaçırdılar.

XIX əsrin 30-cu illərində çar hökuməti diyarın iqtisadi dirçəlişinə olmaq vəzifəsini qarşıya qoymuşdu: Qafqazı Rusiyanın ucuz malları üçün

satış bazarına və Rusiya sənayesinin (xüsusən də toxuculuq sənayesinin) inkişafı üçün başlıca xammal mənbəyinə çevirmək zərurəti yaranmışdı.

XIX əsrin 50-ci illərinə yaxın bir sıra islahatlar həyata keçirilmiş və Qafqaz xalqlarının köçəri həyat tərzinin dağıdılmasında və onların təsərrüfatçılığın yeni formalarına keçməsi prosesində əkinçiliyə başlıca yer ayrılmışdı. Əhalinin miqrasiyası yolunda keçilməz sipər çəkilmişdi.

## Qazax sultanlığının sosial həyatı

**Sosial qruplar.** Şərqi Gürcüstanda, sultanlığın yerləşdiyi ərazidə gürcü çarlarının yaxın adamları, sultanlar, bəylər, ağalar, məliklər, şeyxlər, axundlar, qazılar hakim sinfi təşkil edirdilər. Bir çox kəndlər və köç yerləri Gürcüstan çariçasının və şahzadələrin mülkiyyətində idi. Çar sarayının sərəncamında cəmi 122 həyət vardı. Sultan feodal iyerarxiyasının başçısı sayılırdı. O, tabeliyində olan ərazinin hüdudları daxilində bir feodal kimi toxunulmaz şəxs sayılırdı, məhkəmə hakimiyyəti və inzibati hakimiyyət səlahiyyətlərinə malik idi. Erməni feodalları məlik adlanırdılar. Bəylər feodal torpağında yüksək vəzifələr tutur və sultan xəzinəsindən maaş alırdılar. Sultan onlara kəndlər və ömürlük istifadə üçün torpaq bağışlayırdı. Bəylər özləri də torpaq ala bilərdilər, heç bir haqq ödəmədən ticarətlə, əkinçiliklə və başqa peşələrlə məşğul ola bilərdilər. Bəylərin mülki hüquqları nəslən keçmə hüquqlar idi. «Ağalar» adı kəndləri idarə edən şəxslərə verilirdi. Ağalar bəylərin şəxsi hüquqlarından istifadə edirdilər, vergilərdən və mükəlləfiyyətlərdən azad olunmuşdular. Kəndlərin gəlirlərinin bir hissəsi ağalara çatırdı və onlar kəndlilərin xidmətlərindən istifadə edirdilər.

Yüksək rütbəli müsəlman ruhaniləri də feodallar sinfinə mənsub idilər. Ruhanilər vergilərdən və mükəlləfiyyətlərdən azad edilmişdilər. Onların gəlir mənbələri vəqflər (məscidlərin mülkiyyəti), əhalidən yığılan xüms və zəkat, dini ayinlərin icrası zamanı verilən nəzirlər və uşaqların təhsili üçün ödənilən haqq idi.

Əhalinin xüsusi qrupunu təşkil edən «maaflar» hərbi xidmətdə sayılırdılar. Maaflar-nökərlər xanın qoşununu təşkil edirdilər, xəzinəyə heç bir vergi ödəmirdilər və mükəlləfiyyətlərdən azad idilər. Xan onlara at, silah və başqa qiymətli əşyalar bağışlayırdı. Eyni zamanda xan maaflara müxtəlif buyruqlar, tapşırıqlar verir, günahkarların cəzalandırılmasında onlardan istifadə edirdi.

Qazax sultanlığı əhalisinin əksəriyyətini kəndlilər təşkil edirdilər. Onlar özlərinin hüquqi və əmlak vəziyyətinə görə rəiyyətə, rəncbərlərə və elatlara bölünürdülər. Rəiyyətin öz təsərrüfatı, torpağı, kənd təsərrüfatı inventarı, işlək heyvanı var idi. Rəiyyət vergi ödəyir və feodalların xeyrinə müxtəlif mükəlləfiyyətləri həyata keçirirdi. Rəiyyət kənd icmasının üzvü idi. İcmanın torpaqları və həmin torpaqlarda yaşayan rəiyyət sultanın mülkiyyəti sayılırdı. Kəndlilər dövlət tabeliyində olan rəiyyətə və mülkədarların tabeliyində (xüsusi mülkiyyətdə) olan rəiyyətə bölünürdü. Mülkədar kənd-

ləri daha ağır vəziyyətdə yaşayırdılar. Onlardan soyğunçuluq xarakteri daşıyan ağır vergilər tutulurdu. Vergi toplanarkən zorakılığa, özbaşınalığa yol verilirdi. Rəiyyətdən fərqli olaraq, rəncbərlərin öz təsərrüfatı yox idi. Onlar feodalın təsərrüfatında işləyirdilər və yaşadıqları yerləri tərk edə bilməzdilər. Feodallar özləri rəncbərləri bir yerdən başqa yerə köçürə bilərdilər.

Qazax əhalisinin çox hissəsini mövsümi maldarlıqla məşğul olan elatlar (köçərilər) təşkil edirdilər. Köçəri tayfanın yüksək təbəqəsi rəiyyətdən-əkinçilərdən renta formasında gəlir əldə edirdi. Həm də köçərilər feodal yığma qoşununun başlıca qüvvəsini təşkil edirdilər və rəiyyətin boynuna düşən bir sıra mükəlləfiyyətlərdən azad idilər. Köçərilərin vəziyyəti iqtisadi cəhətdən əlverişli idi.

XIX əsrin əvvəlində Qazax sultanlığında əhalinin tərkibi aşağıdakılardan ibarət idi:

1) dövlət kəndliləri - 16.430 nəfər, onlardan 8.473 nəfəri kişilər, 7.957 nəfəri qadınlar.
2) mülkədar kəndliləri - 149 nəfər, onlardan 83 nəfəri kişilər, 66 nəfəri qadınlar.

Köçəri xalqlar - «Dəmirçilər», «Şeyxlər», «Qarapapaqlar» etnik qrupları və başqaları elatlara aid idilər, «Dəmirçilər» qrupunda (cəmi 220 nəfər) 29 ailə var idi (118 kişi, 102 qadın), «Şeyxlər» (cəmi 232 nəfər) 34 ailədən ibarət idi (116 kişi, 116 qadın), «Qarapapaqlar» qrupunun üç ailəsində cəmi 17 nəfər, 8 kişi və 9 qadın yaşayırdı. Köləliyin patriarxal xarakter daşıyan qalıqlarına hələ də təsadüf edilirdi. Əsirləri, oğurlanmış adamları Dərbəndin, habelə Türkiyənin və İranın qul bazarlarında satırdılar.

**Aqrar islahatlar və diyarın köçmə təsərrüfatı.** Çarizm XIX əsrin 40-cı illərinin bir sıra qanunvericilik aktları ilə, 1846-cı il 20 aprel və 1847-ci il 28 dekabr tarixli Əsasnamələrdə feodalların vərəsəlik hüquqlarının toxunulmazlığını təsdiq etdi. Tiyul torpaqlar və mülk torpaqları vahid hüquqi rejimə tabe olan torpaq mülkiyyəti kateqoriyasında birləşdirildi. Feodallardan asılı kəndlilərin də müxtəlif kateqoriyaları ləğv olundu və onlar «dövlət kəndliləri» dərəcəsinə aid edildilər. Köçərilər barədə çarizmin yeritdiyi siyasət iki amildən ibarət idi: 1) köçərilərə aid olan, inzibati və fiskal məqsədlər daşıyan tədbirlər. Bu da diyarın mənimsənildiyi ilk onilliklər üçün xüsusilə səciyyəvi bir hal idi: 2) XIX əsrin ortalarına yaxın Azərbaycanın kənd əhalisinin 1/3 hissəsini təşkil edən köçərilər hökumətin ümumi aqrar islahatlarının-həm yerli feodalları, həm də kəndliləri əhatə edən islahatların orbitində idilər. Hökumət həmin dövrdə köçəri məişətin dağılmasının əsas səbəbi kimi köçərilərin oturaq həyat tərzinə və təsərrüfatçılığın yeni formalarına keçməsi prosesində əkinçiliyin rolunu aydın dərk edirdi. Aqrar islahatları nəticəsində köçəri kəndlilərin bir çox mükəlləfiyyətləri iki əsas mükəlləfiyyətlə-pul mükəlləfiyyəti və çöpbaşı ilə əvəz edildi. Əkinçiliklə məşğul olmaqdan ötrü sahibkardan torpaq alan və həmin sahibkarın torpağında köçəri həyat sürən köçərilər üçün torpaq vergisi (malcahat) ilə yanaşı, təkcə, mal-qara

otarılması hüququ əldə etmək məqsədilə hər ailəyə gümüş pulla 2 rubl məbləğində mükəlləfiyyət müəyyən olunmuşdu. Bundan əlavə, sahibkarın torpağında otarılan mal-qaranın sayından asılı olaraq, çöpbaşı müəyyən edilmişdi. Bu, 35 başdan çox mal-qarası olan kəndlilərə aid idi.

1844-cü il islahatı oturaq kəndlilər və köçəri kəndlilər üçün vergilər müəyyən edilməsində onları bərabərləşdirən başqa islahatlar nəticəsində köçəri kəndlilərin iqtisadi vəziyyəti xeyli pisləşdi. İslahatlar köçərilərin oturaq həyat tərzinə keçməsinə və əkinçiliklə məşğul olmasına təkan verdi.

**Xalqın müstəmləkəçilik əleyhinə çıxışları.** 1844-1845-ci illərdə Qazaxda və Şəmşəddildə xalqın müstəmləkəçilik əleyhinə çıxışları güclənmişdi. Dağlarda çoxlu silahlı dəstələr çar məmurlarının və zabitlərinin, kiçik qoşun komandalarının üzərinə basqın edirdilər. Ağır vergilərdən əzab çəkən xalq Qafqazda rus hökmranlığına qarşı mübarizəyə qalxmışdı. Kəndlilər vergiləri ödəməkdən imtina edirdilər. 1844-cü il dekabrın 30-da Şıxlı və Salahlı kəndlərinin sakinləri Tiflis şəhərinə nümayəndə göndərmiş və vəziyyətlərinin yüngülləşdirilməsini xahiş etmişdilər. Lakin, Tiflis polisi nümayəndə heyətinin üzvlərini qovub dağıtdı. Qəzəblənmiş xalq Şıxlı kəndinə toplaşdı.

1845-ci ilin yanvarın 3-də Qafqazdakı qoşunların baş komandanı iğtişaşları yatırmaq üçün Qazağa 3 piyada batalyonu və kazak dəstəsi göndərdi. Kəndlilərin bir qismi dağılışıb getdi, digərləri isə qoşunlar tərəfindən mühasirəyə alındı. Kazaklar xalq iğtişaşlarını yatırdılar və bir çoxlarını əsir götürdülər. Lakin iğtişaşlar sakitləşmədi və Şəmşəddil distansiyasının Zəyəm kəndində davam etdi. Hərbi qüvvələrin əməliyyatı nəticəsində üsyan yatırıldı və kəndlilər xəzinəyə böyük məbləğdə vergi ödəməyə məcbur oldular.

**Nəticə.** XIX əsrin birinci yarısında Qazax distansiyasında tarixi-demoqrafik şəraitin tədqiqi sayəsində aşağıdakı nəticələrə gəlmək olar:

1. 1854-cü ildə ərazisi 3.200 kv.verstə bərabər olan Qazax distansiyasında 38.980 nəfər əhali yaşayırdı. Əhalinin sıxlığı 12.2 nəfər təşkil edirdi.
2. Əhalinin 54 faizi kişilərdən, 46 faizi qadınlardan ibarət idi. Kişilərin və qadınların nisbəti belə idi – 100:80. Bu da qadınlar arasında ölüm hallarının nisbətən çox olması ilə, patriarxal mühitdə onların ağır həyat şəraiti ilə, qadınlara həqarətlə baxılması ilə, erkən nigahlarla, hamiləlik hallarının, antigigiyena şəraitində doğum hallarının çoxluğu ilə izah edilirdi. Qadınların, xüsusən də cavan qadınların sayını dəqiq müəyyənləşdirmək mümkün deyildi.
3. 1802-ci ildə Qazaxda 71 kənd, 1833-cü ildə 73 kənd var idi. 1802-ci ildə məskunlaşma şəbəkəsinin əhali çoxluğu 147 nəfər, 1854-cü ildə isə 533 nəfər təşkil edirdi. Əhalinin sayının dinamikası müsəlman əhali arasında doğum hallarının səviyyəsi və mühacirlərin sayının illik artımının immiqrantların sayından çox olması ilə bağlı idi.
4. Qazax distansiyasında yaşayan etnik qruplar arasında azərbaycanlılar 71 faiz, ermənilər və gürcülər 29 faiz təşkil edirdilər.

5. Qazağın Rusiyaya birləşdirildiyi dövrdə sultanlığın ərazisində qəbilə-tayfa münasibətlərinin qalıqları hələ aradan qaldırılmamışdı, diyarda məskunlaşmış etnoqrafik qruplar arasında həmrəylik yox idi.
6. Əhali (elatlar) köçəri və yarımköçəri həyat tərzi keçirir, əsasən mövsümi maldarlıqla məşğul olurdu. Sakinlər «feodal kəndi» tipli kəndlərdə məskunlaşmışdılar və əyalətdə «Asiya tipli» natural təsərrüfatları var idi.
7. XIX əsrin ortalarına yaxın əkinçilik Qazax sakinlərinin başlıca məşğuliyyətinə və gəlir mənbəyinə çevrilir. Burada buğda, çəltik, pambıq, tütün, üzüm yetişdirilirdi.
8. "Parçala və hökmranlıq et!" prinsipini rəhbər tutan Rus çarizminin müstəmləkəçilik siyasəti nəticəsində Cənubi Qafqaz xalqları iki əsas sosial-hüquqi qrupa: böyük xalqa (ruslar) və heç hüququ olmayan və hökumətin qəyyumluğuna ehtiyac duyan "yabançılara" bölünmüşdülər. Bu da "yabançıların" hakim dairələr tərəfindən amansızcasına istismar edilməsinə səbəb olurdu. "Türkdilli müsəlmanları – azərbaycanlıları "yabançı"" hesab edir və onları "tatar" adlandırırdılar.
9. Dini mənsubiyyət diyarın ictimai-siyasi həyatında böyük əhəmiyyət kəsb edirdi. XIX əsrin ortalarında Qazaxda xristian dininə etiqad edən 6.264 nəfər kişi, 5.426 nəfər qadın, islam dininə etiqad edən 14.351 nəfər kişi və 12.316 nəfər qadın yaşayırdı. Sünnilər sayca şiələrdən çox idi. Xristian dininə etiqad edən gürcülər və ermənilər «yabançılarla» müqayisədə yüksək hüquqi statusa malik idilər.
10. Diyarın müsəlman əhalisi arasında doğum və ölüm hallarının qeydiyyatı aparılmırdı.
11. Qazax sakinləri, əsasən Qarabağa və Gəncəyə köçüb gedirdilər. XIX əsrin 20-ci illərində Qazax sakinləri müstəmləkəçilərdən yaxa qurtarmaq üçün Türkiyəyə və İrana qaçırdılar. Onların yaşayış yerlərində erməniləri və rus kolonistlərini yerləşdirirdilər.
12. «Qazax» Cənubi Qafqazın yerli əhalisinin tərkibinə daxil olan türkdilli tayfanın adıdır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Ələkbərli Ə. Qədim türk-oğuz yurdu - Ermənistan. Bakı, 1994
2. Bünyadov Z. Qarapapağlar. "Borçalı" jurnaı. 1993.
3. Qeybullayev Q. Qədim türklər və Ermənistan. Bakı, 1992
4. Nəsir Nəcmi. Abbas Mirzə. XIX əsr. Rusiya-İran-Azərbaycan münasibətləri. Bakı. "Yazıçı". 1993.
5. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı,1989.
6. Акты, собранные Кавказскою археографическою комиссиею под пред. Берже, Тифлис, т.1, док.№9, 129, 151, 157, 186, 266, 637, 786, 824.т.П, док.№113, 383, 384,1191; т.Ш, док.№1, 21, 29, 79, 575, 1194; т.IV, док.№ 37, 47, 48, 117, 385, 687, 692; т.VII, док. № 47,93, 142, 367
7. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку, 1990.

8. Г.Гейбуллаев. "Древние турки и Армения", с.123-124.
9. ГАКА, I cild, sənəd № 637.
10. ГАКА, IV cild, sənəd № 37.
11. ГАКА, VII cild, sənəd № 47, № 367.
12. Гасанов И.М. Крестьянские волнения в Казахе и Шамшадиле в 1844-45 годах. ДАН Азерб.ССР.1967, №4.
13. Гордин Я. Что увлекло Россию на Кавказ? Жур.«Звезда»1997, №10
14. Грибоедов А.С. «Записки о переселении армян из Персии в наши области». – Соч. в 2-х томах, т.2, М.,1971
15. Дубровин Н. Закавказье от 1803-1806 года, СПб,1866 г.
16. Дубровин Н. История войны и владычества русских на Кавказе, тт.1-6 СПб, 1871-1886 г.
17. Зелинский С. Объяснительный словарь татарских, грузинских и армянских слов, вошедших в Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Тифлис, 1889 г.
18. Исмаил-заде Д. «Кочевое хозяйство в системе колониального управления и аграрной политики царизма в Азербайджане в Х1Х в», Труды Музея Истории Азербайджана, т.V, Азернешр, Баку, 1962 г.
19. Кавказский календарь: 1848-1852 гг. Тифлис. -Баку, Библиотека АН Азербайджана, ФП 101.
20. Козлов В.И. Этническая демография, М.,Статистика, 1977 г.
21. Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х годах Х1Х века. Под.ред. И.П.Петрушевского, ч.1-П, М.-Л., 1936-37 гг.
22. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях, Санкт-Петербург, СПб, 1836 г.
23. Обозрения Российских владений , ч.1, с.224.
24. Петрушевский И.П.Очерки по истории феодальных отношений в Азербайджане и Армении в ХV1-начале XIX вв., Л., 1949 г.
25. Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры.Баку.1955 г.
26. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, Санк-Петербург, 1852 г. , стр.536.
27. Эфендиев М.М. «О крестьянских волнениях в Казахе в 1844 году». Изв.АН Азерб.ССР, 1952 г. № 4

# Şimal-Qərbi Azərbaycanın əhalisi (tarixi-demoqrafik tədqiqat)

Şimal-Qərbi Azərbaycan və ya Azərbaycanın şimal-qərbi dedikdə Şəki-Zaqatala iqtisadi-coğrafi rayonuna daxil olan Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonları nəzərdə tutulur. Şəki-Zaqatala iqtisadi-coğrafi rayonu şimalda Rusiya Federasiyasının Dağıstan Respublikası, qərbdə isə Gürcüstan Respublikası ilə sərhəddir. Şimalda sərhəd Böyük Qafqaz dağlarının Baş Suayrıcı silsiləsinədək uzanır. Gürcüstanla sərhəd isə Mazımçay və Qanıx çayı vasitəsilə ayrılır.

Lakin tarixən Şimal-Qərbi Azərbaycan adı altında daha geniş ərazilər nəzərdə tutulmuşdur. Buraya müasir Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ rayonlarının ərazisi və Gürcüstan Respublikasının və Rusiya Federasiyasının tərkibində olan tarixi Azərbaycan torpaqları daxil olmuşdur.

Şimal-Qərbi Azərbaycan dövlətçilik tariximizdə ən mühüm rol oynamış mərkəzlərdən biri olmuşdur. Təsadüfi deyil ki, bu bölgə hələ e.ə.IV əsrdə meydana gəlmiş qədim Azərbaycan dövləti Albaniyanın mərkəzi vilayətlərindən biri idi. Albaniyanın hərbi-siyasi həyatı məhz buradan başlayırdı. Ölkənin ilk paytaxtı Qəbələ də burada idi.

Şəki hakimliyi (sonralar Şəki xanlığı), İlisu sultanlığı, Car-Balakən camaatlığı kimi feodal dövlətləri də bir-birinin ardınca məhz bu torpaqlarımızda meydana gəlmişdir. Yarandıqları gündən «sərhəd qoruyucusu» missiyasını üzərinə götürən bu feodal dövlətlərimiz mövcud olduqları dövr boyu Azərbaycan dövlətçiliyinin keşiyində dayanmışlar.

## CAR-BALAKƏN CAMAATLIĞI*

Car-Balakən camaatlığı XVII əsrin sonlarında Azərbaycanın şimal-qərbində meydana gəlmiş və təxminən 135 il, yəni 1830-cu ilədək mövcud olmuşdur. Azərbaycanın şimal-qərb sərhədlərində, vaxtilə Albaniyanın hüdudlarına daxil olmuş ərazilərdə belə bir hərbi siyasi qurumun yaranması təsadüfi olmayıb, XVI əsrdə meydana gəlmiş Azərbaycan Səfəvilər dövlətinin bölgədə apardığı siyasətlə birbaşa bağlı olmuşdur. Belə ki, 1501-ci ildə Səfəvi dövlətinin əsası qoyulduqdan sonra Səfəvi sülaləsinin ilk nüma-

* Material 1996, 1998, 2000, 2001-ci illərin hesabatları, bölmənin aspirantı olmuş A.Ə.Məmmədovanın tədqiqatları və “Car-Balakən camaatlığı (XVII əsrin sonu – XIX əsrin 30-cu illəri)” monoqrafiyası əsasında hazırlanmışdır.

yəndələri Şah İsmayıl (1501-1524) və Şah Təhmasib (1524-1576) Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək siyasətini başa çatdırmaq məqsədilə ardıcıl addımlar atmağa başlayırlar. Bu siyasət Cənubi Qafqazda, xüsusilə də Azərbaycanın zəngin ipəkçilik bölgələri olan Şəki və Şirvan, o cümlədən Xəzərsahili vilayətlər üzərində nəzarəti ələ keçirməyə çalışan Osmanlı dövləti ilə mübarizə şəraitində həyata keçirilirdi. Həmin vaxt Osmanlı dövləti feodal pərakəndəliyi yaşayan Gürcüstanın qərbində möhkəmlənmişdi. Səfəvi şahları Osmanlı imperiyasının Şərqə doğru genişlənməsinin qarşısını almaq üçün Kartli, Kaxet və Samtsxe-Saatabaqoda möhkəmlənməyə çalışırdılar. Bu məqsədlə Şah İsmayıl və Şah Təhmasibin təşkil etdikləri yürüşlərin nəticəsi olaraq müxtəlif vaxtlarda gürcü çarları Səfəvilərdən vassal asılılığını qəbul etsələr də, imkan yaranan kimi itaətdən imtina edirdilər. Səfəvi şahlarının hərbi yürüşlərinin nəticəsi olaraq gürcü çarları ilə bağlanan sazişlərin, əldə olunan razılıqların gürcü çarları tərəfindən birtərəfli qaydada pozulduğuna diqqət yetirən Şah Təhmasib dövlətin şimal-qərb sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədilə öz siyasi kursunu dəyişdirdi. Üsyançı çarlara qarşı yeni hərbi yürüşlərə ara verildi və dövlətin bu uc torpaqlarındakı müsəlman hakimliklərinin mövqelərini gücləndirmək məqsədilə addımlar atıldı. Şah Təhmasib onların köməyilə gürcü çarlarını nəzarətdə saxlamaq niyyətində idi. Nəticədə, Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynamış Şəki hakimliyinin yenidən bölgədə rolu gücləndi. 1562-ci ildə isə Səfəvi hökmdarı Şah Təhmasib Şəkidən qərbdəki torpaqların Saxur hakimi Adıqurqulu bəyin ixtiyarına verilməsi haqqında fərman verdi. Bu siyasət ən sonda sonralar İlisu sultanlığına çevrilmiş Saxur hakimliyindən qərbdə Car-Balakən camaatlığının yaranması ilə başa çatdı. Şah Abbasın 1616-cı il yürüşündən sonra camaatlığın özəyi quruldu. Lakin gürcü çarları iddia etdikləri bu torpaqlarda yeni bir hərbi-siyasi qurumun yaranması faktı ilə barışa bilmədiklərindən, bölgədə bir müddət iki tərəf arasında mübarizə gedir. Yalnız 1695-ci ildə Qoloda kəndində gürcü hərbi dəstələri ilə bölgənin müsəlman əhalisi arasında baş verən həlledici döyüşdə müsəlmanların qələbəsi Car-Balakən camaatlığının yaranması prosesinin başa çatmasında həlledici addım oldu.

Gürcü çarlarının bu faktı tanımaqdan imtina etmələri XVIII əsrin əvvəllərində gürcü hərbi qüvvələrilə car-balakənlilər arasında sonuncuların qələbəsi ilə başa çatan daha bir neçə döyüşün baş verməsi ilə nəticələndi. Yalnız 1715-ci ildə Car-Balakəni təmsil edən icmalar Car, Tala, Muxax və Haco (Qusur) Kaxet valisi İmamqulu xanla[1] onun hər il əlli tümən, sonralar yüz tümən təzminat verməsi şərtilə sülh bağladılar. Bununla, gürcü çar nəslindən olan Kaxet valisi nəinki Car-Balakən camaatlığını hüquqi cəhətdən

[1] XVIII əsrin əvvəllərində gürcü çar sülaləsinin nümayəndələri ölkəni yalnız vali statusunda idarə edirdilər. Səfəvi sarayındakı gürcü şahzadəsi III Baqrata İslam dinini qəbul etdikdən sonra İmamqulu xan adı verilir və Kaxet valisi təyin edilir.

tanıdı, həm də nəzarətindəki ərazilərdə sabitliyi təmin etmək üçün ona təzminat ödəməyə başladı. 1723-cü il mayın 5-də isə car-balakənlilərin və saxurların birləşmiş hərbi qüvvələri Tiflisi tutaraq Kartli valisinin səlahiyyətlərini yerinə yetirməyə başlamış Kaxet valisi Məhəmmədqulu xandan 60000 tümən bac aldılar.

Qeyd edək ki, car-balakənlilər 1830-cu ilədək «sərhəd qoruyucusu missiyasını yerinə yetirir və Kartli çarı Teymuraz və onun oğlu, Kaxet çarı İraklinin nəzarətləri altındakı ərazilərin hüdudlarını Azərbaycan torpaqları hesabına genişləndirmək cəhdlərinin qarşısını alırlar. 1751-ci ildə car-balakənlilər, ilisulular və şəkililərin Hacı Çələbinin başçılıq etdiyi hərbi qüvvələri Teymuraz və İraklinin 30.000 nəfərlik qoşununu darmadağın edirlər.

Car salnaməsində verilən məlumata görə, gürcü çarları burada öz hərbi qüvvələrinin yarıdan çoxunu, təxminən 17 min nəfər döyüşçülərini itirirlər.

1758-ci ildə Kartli-Kaxet çarı İrakli car-balakənlilərlə bağladığı sülh müqaviləsinə əsasən onlara bac verir. Ümumiyyətlə isə, İrakli ölkəsini hücumlardan qorumaq üçün car-balakənlilərə və dağlılara hər il 60 mindən 100 min tümənədək bac ödəyirdi. Lakin buna baxmayaraq, Gürcüstana edilən hərbi yürüşlərin ardı kəsilmirdi. İdarə etdiyi ərazilərin təhlükəsizliyini təmin etməkdə aciz qalan çar İrakli Rusiya imperatriçəsi II Yekaterinaya məktub yazaraq, Gürcüstanın Rusiya dövlətinin himayəsinə qəbul edilməsini və «ona kafirlərdən müdafiə olunmaq, Axalsıxı dərhal işğal etmək və Alazanın (Qanığın) sol sahilindəki ləzgilərdən tutduqları Kaxet torpaqlarını geri almaq üçün dörd minlik qoşun verilməsini xahiş edir»di.

1784-cü il oktyabrın 14-də gürcü çarı II İrakli, general-mayor Samoylov və alman şahzadəsi Hessen-Reynsfeldskinin komandanlıq etdikləri gürcü qoşunları və rus hərbi batalyonları Car-Balakən camaatlığına hərbi yürüş edirlər. Car-balakənlilər onları Qanığın sağ sahilində qarşılayırlar. 5 saat davam edən döyüşdə gürcü-rus birləşmiş hərbi qüvvələri məğlubiyyətə düçar olurlar. Şahzadə Hessen–Reynsfeldski öldürülür.

1801-ci ildə Şərqi Gürcüstan (Kaxet) Rusiya imperiyasına birləşdirildikdən sonra, işğal prosesini daha sürətləndirmək və Azərbaycan torpaqları hesabına şərqə doğru genişlənmək çarizmin əsas hədəfinə çevrildi. 1803-cü ildə Azərbaycanın şimal-qərb torpaqlarının – Car-Balakən camaatlığı və İlisu sultanlığı işğalına başlanıldı.

Bölgə Rusiya üçün hərbi-strateji və iqtisadi əhəmiyyət daşıyırdı. 1802-ci ildən Qafqaz xəttinin baş komandanı və imperator canişini səlahiyyətlərilə Gürcüstanın ali hakimi təyin edilmiş P.D.Sisianov özü çar I Aleksandra raportunda Car-Balakənin tutulmasının Rusiya üçün əhəmiyyətinə toxunaraq yazırdı: «Bu mövqelərin tutulması və Car vilayətində ordunun yerləşdirilməsi Bakı ilə Gürcüstan arasında Gəncədən gedən məlum yolda Kürün sol sahilindən sağa, sağ sahilindən sola keçərkən rast gəlinən çətinlikləri törətməyən kiçik çay keçidləri vasitəsilə Nuxa və Şamaxıdan keçən mühüm əlaqənin yaranmasına imkan verir».

Lakin, Car-Balakənin işğalının Rusiya üçün başqa əhəmiyyətli tərəfləri də var idi. Məlumdur ki, Car-Balakən camaatları bütün Qafqazda özlərinin itaətsizlikləri ilə məşhur idilər. Onların ram edilməsi Qafqazda rus xofunun yaranması və gələcək müvəffəqiyyətin təminatı demək idi. Təsadüfi deyil ki, Balakənin işğalından sonra Sisianov alınmaz hesab olunan Balakənin tutulması haqqında xəbərlərin İran və bütün Dağıstana qorxu ilə yayıldığını qeyd edirdi. Buna görə də o, Azərbaycan xanlarına və Dağıstan hakimlərinə yazdığı təhdid dolu məktublarda hər dəfə «Car vilayətini dağıtmağa söz vermişdim və etdim» ifadəsini işlətməklə rus ordusunun əzəmətinin nümayiş etdirməyə çalışırdı.

Car-Balakən camaatlığının işğalı Gürcüstan üçün daha mühüm əhəmiyyət daşıyırdı. Sisianov bu məsələyə toxunaraq yazırdı:«Bu nailiyyətin Rusiyanın qüdrəti və böyüklüyü üçün əhəmiyyətinin az olduğunu bilsəm də, Gürcüstanın marağı baxımından daha böyük əhəmiyyət kəsb etdiyini gizlədə bilmərəm». Beləliklə, bölgədə Rusiyanın maraqlarının Gürcüstanın maraqları ilə üst-üstə düşməsindən məharətlə istifadə edən «rus ürəkli, amma gürcü əsilli» çar generalı Sisianov Rusiyanın hərbi strateji və iqtisadi maraqlarını təmin etməklə yanaşı, gürcü keşiş və knyazlarının Şimal-Qərbi Azərbaycanı Gürcüstanın tərkibində Rusiya imperiyasına birləşdirmək niyyətlərini də reallaşdırmağı düşünürdü.

1803-cü ilin martında Qulyakovun komandanlıq etdiyi rus hərbi qüvvələri Car-Balakən camaatlığını işğal edirlər. Aprelin 12-də Tiflisdə Car-Balakən camaatlığının və İlisu sultanlığının Rusiyanın itaətinə keçməsi haqqında andlı öhdəlik imzalanır. Seçmək imkanı olmayan car-balakənlilər aşağıdakı şərtləri qəbul edirlər:

1) Car azad icmaları Rusiya çarı əlahəzrət Aleksandr Pavloviçə və onun vərəsələrinə itaət edəcək;
2) Tiflis çəkisi ilə 1100 litr olan və ipəklə ödəniləcək illik vergi ildə iki dəfəyə, 1 avqust və 1 noyabrda, gecikdirilmədən ödəniləcək;
3) Car-Balakəndə qoşun yerləşdiriləcək;
4) Balakən, Katex, Car, Tala, Muxax və Cınıx camaatlarının hər birindən bir nəfər əmanət veriləcək;
5) Rusiyaya dost olmayan adamlar, o cümlədən çar Aleksandr (gürcü şahzadəsi) Car-Balakən ərazisinə buraxılmayacaq;

Müqavilədə Car-Balakən camaatlığının ərazisində yaşayan ingiloylarla bağlı da xüsusi bənd var idi. Müqavilənin 9-cu bəndində carlılardan ingiloyların xristian dininə sərbəst şəkildə etiqad etmələrinə maneələr törədilməməsi tələb olunurdu. Bu tələb gələcəkdə Rusiya imperiyasının Car-Balakən camaatlığında həyata keçirəcəyi müstəmləkə siyasətinin istiqamətlərini müəyyənləşdirirdi.

Car-balakənlilər Tiflisdə andlı öhdəliyi imzaladıqdan sonra, bütün Gürcüstan Car-Balakənin işğalını bayram edir. Mayın 9-da gün ərzində Gürcüstandakı bütün kilsələrdə «Balakəndə əldə olunan qələbə və Car-

Balakənin işğalı münasibətilə» kilsə zəngləri çalınır, Tiflis şəhərinin baş kilsəsində duadan qabaq Car-Balakənin işğalı xəbəri bütün Gürcüstana çatdırılır, şükran duaları oxunur. Beləliklə, Rusiya imperiyası Car-Balakəni tutur və Azərbaycan xanlıqlarına gedən yolu açır. Lakin 1803-cü il yürüşü və onun nəticəsi olan andlı öhdəlik Rusiyanın buradakı mövqelərinin möhkəmləndirilməsi və yerli əhalinin itaətə gətirilməsi üçün yetərli olmadı. Yerli əhalinin işğalçılara qarşı mübarizəsi daha inadlı şəkil aldı.

Qeyd etmək lazımdır ki, Gürcüstandakı rus qoşunlarının baş komandanı vəzifəsini icra edənlər Car məsələsini bir-birilərinə irs kimi ötürməkdə idilər. Hər yeni təyin olunan baş komandan Rusiyanın planlarının gerçəkləşməsinə əngəl olan bu problemi həll etməyə çalışırdı. Lakin carlıların vergiləri ödəməkdən imtina etmələri və əvvəlki kimi Gürcüstana yürüş edən dağlılara sığınacaq vermələri, yalnız hərbi yürüşlər və onların nəticəsi olan sülh müqavilələri ilə məsələnin həll olmadığını göstərirdi.

1806-cı ildə P.D.Sisianov öldürüldükdən sonra yeni təyin olunmuş baş komandan İ.V.Qudoviç də dağlı xalqları itaətə gətirmək üçün carlılardan başlamaq niyyətində idi. Lakin o, bu məsələni Sankt-Peterburqdan aldığı tapşırığa əsasən carlılara yeni bir öhdəlik imzalatdırmaqla yox, onları öz məskənlərindən həmişəlik köçürməklə həll etməli idi. Çarizm car-balakənliləri xoşluqla alınmasa, silah gücünə olsa belə Rusiyanın içərilərinə köçürtməyi planlaşdırırdı. Carda isə rusları məskunlaşdıraraq, nəhayət Kaxet və Dağıstanın qapısına yiyəlik etmək istəyirdi. Lakin Rusiyanın İran və Osmanlı dövlətilə eyni vaxtda müharibə aparması faktı Qudoviçin bu planı həyata keçirməsinə mane olur. O, bu addımın Rusiya üçün arzuolunmaz nəticə verəcəyindən qorxaraq, ənənəvi cəza tədbirinə üstünlük verir. 1806-cı ilin noyabr ayında Car-Balakənə 3-cü yürüş təşkil edilir. Sonrakı illərdə daha üç yürüş təşkil edilir və yalnız 1830-cu ildə Car-Balakən camaatlığı tamamilə itaətə gətirilir.

İşğaldan dərhal sonra, camaatlıq idarəetmə sistemi ləğv edilir və Car-Balakən vilayəti yaradılır. General-mayor F.A.Bekoviç-Çerkasski Car-Balakən vilayətinin baş rəisi təyin edilir. Vilayətin mülki işləri ilə məşğul olmaq üçün onun sədrliyilə Müvəqqəti Vilayət İdarəsi yaradılır. Qurumun tərkibi baş komandanın təyin etdiyi iki rus məmurundan və altı nəfər nüfuzlu yerli ağsaqqallardan ibarət olmalı idi.

Qeyd edək ki, rus məmurlarından fərqli olaraq, yerli ağsaqqallar ancaq məşvərətçi səsə malik idilər.

Müvəqqəti Vilayət İdarəsi Paskeviçin Car-Balakən vilayətinin idarəsi üçün qoyduğu qaydalar əsasında fəaliyyət göstərməli idi:

1) Əhalinin öz yaşayış yerlərinə qaytarılması və onlar arasında əmin-amanlığın bərpa edilməsi üçün lazımi tədbirlər görülsün. İndiki yaşayış yerində, Rusiya rəisinin idarəsi altında qətiyyətlə qalmaq istəməyən ailələrin istədikləri yerə maneəsiz köçmələrinə icazə verilsin….;

2) Vilayətin, xüsusilə də Gürcüstanla rabitə yollarının dağlı xalqların yürüşlərindən və daxili iğtişaşlardan qorunması;
3) Car və digər icmaların torpaqları mahallara bölünsün, bu mahalların idarə edəcək nəcib və bizim hökumətə sadiq adamlardan mahal rəislərinin seçilməsi üçün əsasnamə hazırlansın;
4) Car və digər icmalara Rusiya imperiyasının ümumi qanun və nizamnamələrilə uyğun olduqca əvvəlki hüquq və imtiyazlarını saxlamaq hüququ verilsin, onlara şəriət adlanan barışdırıcı məhkəməni əvvəlki vəziyyətində saxlamağa icazə verilsin;
5) … Xəzinə pullarının yığılması üçün Müvəqqəti İdarə yanında vilayət xəzinəsi yaradılsın…;
6) …onların arasında azad dini etiqad və xristian dininə ibadət təşkil edilsin və Gürcüstan ekzarxı ilə əlaqə saxladıqdan sonra ibadətlərin icra edilməsi üçün, həmçinin arzu edənləri xristian dininə döndərmək üçün indi kifayət qədər keşiş çağırılsın və dövlət tərəfindən də hər cür vasitə ilə himayə edilsin;
7) Car vilayətinin indiki vəziyyətində insanlar iki qrupa bölünürlər: əsl hakim sahibkarlar – bizlə ədavətdə olan əsilli ləzgilər və onların əsarətində olan, sıxışdırmalar nəticəsində müsəlman inamını qəbul etmiş gürcülər…. Buna görə də hökumətin məqsədi axırıncı qrup insanların sədaqətini təmin etmək üçün onların mənfəətlərini genişləndirmək və kinli ləzgilərin hakimiyyətini zəiflətməklə qorumaq, bununla da iki sinif arasında qüvvələr nisbətini və əks-təsiri bərabərləşdirməkdir. Bu kəndlərin sakinlərinə (ingiloylara) aşağıdakı hüquqlar verilsin: 1) şəxsi azadlıq, əmlakı ilə harasa köçmək istəyən şəxsin evi, bağı və torpaq sahəsi ya sahibkarın ixtiyarında qalır, ya da onun vergilərini öz üzərinə götürən kənd icmasına verilir; 2) bu qəbildən olan insanlara sahibkara evdən, bağ və torpaqdan və s. 10 il müddətində gələn gəliri birdəfəlik ödəməklə öz mülkiyyətinə keçirmək hüququ verilir; 3) Bununla da onlar keçmiş sahibkarların hər cür asılılığından azad olurlar.
8) Qoşunlarımızın imkan daxilində yerli vasitələrlə ərzaqla təmin edilməsi…., o cümlədən hansının əlverişli olmasından asılı olaraq məhsulla və ya pulla yığılacaq zemstvo mükəlləfiyyətləri haqqında əsasnamənin layihəsi ilə məşğul olunsun……..
14) …. Hər hansı bir qarətə görə yaxın kəndlərin sakinləri cavabdehlik daşıyırlar.
17) Müvəqqəti İdarənin bütün sərəncamlarının icrası mahal rəislərinə tapşırılsın. Hökumətin tapşırıqlarının dəqiq yerinə yetirilməsini yoxlamaq üçün pristavlar hərbi zabit və ya gürcü knyazlarından təyin olunsun….
18) Sədaqətlərinə etibar edilməyən kəndlərdən, ən yaxşı ailələrdən ən azı 3 nəfər əmanət götürülsün və Tiflisə göndərilsin.

Paskeviç bu qaydaları, çarizmin həmişə etibarlı silahı olan «parçala hökm sür» siyasətinin əsasında qurmuşdu. Əlbəttə ki, Car-Balakən camaatlığında yeni idarəetmə formasının asanlıqla yaradılacağını düşünmək ağlasığ-

mazlıq olardı. Təsadüfi deyil ki, tezliklə car-balakənlilərin işğalçılara qarşı açıq çıxışı başlayır. 1830-cu ilin iyun–dekabr aylarında davam edən üsyanı çox böyük itkilər hesabına yatıran ruslar yenidən bölgəni nəzarət altına alırlar. Lakin hadisələrin inkişafı göstərirdi ki, 1830-cu ildən sonra hələ uzun müddət car-balakənlilər Rusiyanın buradakı maraqları üçün ciddi əngəl olmuşdur.

Beləliklə, nəzərdən keçirdiyimiz faktlar bir daha təsdiq edir ki, Azərbaycanın şimal-qərbində meydana gələn Car-Balakən camaatlığı bölgənin tarixində mühüm rol oynamış nüfuzlu və güclü hərbi-siyasi qurum olmuşdur.

**Ərazi.** XVIII əsrin əvvəllərində artıq güclü hərbi-siyasi qurum olan Car-Balakən camaatlığının ərazisi şimalda Böyük Qafqaz dağlarından cənubda Qabırrı (İori) çayadək, şərqdə Qapıçaydan qərbdə Kartubançay adlandırılan Qara Tubal çayadək (müasir Gürcüstan Respublikasının Laqodexi rayonunun ərazisindən axır) uzanırdı. Bunu 1728-ci ildə Osmanlı sultanı III Əhmədin (1703-1730) car-balakənlilərə göndərdiyi fərman da təsdiq edir. Fərmanın məzmunundan aydın olur ki, Osmanlı sultanı car-balakənlilərə yeni ərazilər bağışlamır, sadəcə Osmanlı sultanına tabe olmaq, şərqdə dağlardan bulqadarların yollarını kəsib ziyankarlığının qarşısını almaq və Gürcüstan və Şirvana hazırlıq görülən səfərlərdə tam şəkildə iştirakı boyunlarına götürmək şərtilə əvvəllər və fərman verildiyi vaxt nəzarətləri altında olan ərazilərin, yəni yuxarıda göstərilən sərhədlər daxilində, onlara məxsusluğunu hüquqi cəhətdən təsdiq edir.

1830-cu ildə Car-Balakən camaatlığı ləğv edildikdən dərhal sonra işğaldan əvvəlki vəziyyəti öyrənmək məqsədilə tərtib edilmiş statistik məlumata görə, camaatlığın hüdudları daxilində 64 kənd var idi. Bu kəndlərdən yeddisi - Kələli, Meşleş, Qusur, Baş Muxax, Baş Cınıx, Korş, Suvagil kəndləri Böyük Qafqaz dağlarının şimal yamaclarında, Samur çayı hövzəsində yerləşirdi. Bu fakt Böyük Qafqaz dağlarının şimal yamaclarının Samur çayı hövzəsi daxil olmaqla Car-Balakən camaatlığının hüdudları daxilində olduğunu təsdiq edir.

Car-Balakən camaatlığının Samur çayı hövzəsində yerləşən bu yeddi kəndi işğaldan sonra ləğv olunmuş camaatlığın yerinə yaradılmış Car-Balakən vilayətinin də tərkibində olmuşdur. Belə ki, 1839-cu ildə vilayətin rəisi general-mayor S.D.Bezobrazovun tərtib etdiyi Car-Balakən vilayətinə daxil olan kəndlərin siyahısında bu yeddi dağ kəndinin də adı çəkilir.

1839-cu ilin aprelində baş hərbi rəis general-leytenant Qolovin polkovnik Bezobrazovun vilayətin inzibati cəhətdən yenidən təşkili barədə təklifinə əsasən Car-Balakən vilayətinin beş mahala bölünməsi haqqında sərəncam verdi. Sərəncama görə, vilayətin inzibati quruluşu yerli şəraitlə uyğunlaşmadığından, Car, Tala mahalları ləğv edilərək, əvəzində mahal rəisləri tərəfindən idarə olunan Car, Tala, Yenisel, Balakən, Dağ mahalları yaradıldı.

Cədvəl 1

Car-Balakən vilayətinin inzibati ərazi vahidləri üzrə yaşayış məntəqələri və əhalisi (1839-cu il inzibati-ərazi islahatından sonra)

| № | Kəndlərin adı | Həyətlərin sayı | Daxil olduğu mahal |
|---|---|---|---|
| 1. | Makovtala və Danaçı | 622 | Car |
| 2. | Katex | 363 | |
| 3. | Masex | 152 | |
| 4. | Göyəm | 146 | |
| 5. | Qarahacılı | 105 | |
| 6. | Dardoqqaz | 50 | |
| 7. | Sumaylı | 50 | |
| 8. | Tuqor | 21 | |
| 9. | Tala və Qırğıllı | 888 | Tala |
| 10. | Muxax | 672 | |
| 11. | Çardaxlar | 392 | |
| 12. | Qulax | 354 | |
| 13. | Mamrux | 137 | |
| 14. | Çobankol | 126 | |
| 15. | Gözbarax | 115 | |
| 16. | Sabunçu | 94 | |
| 17. | Bazar | 88 | |
| 18. | Cimcimax | 31 | |
| 19. | Əliəsgər | 23 | |
| 20. | Əliabad | 418 | Yenisel |
| 21. | Almalı | 240 | |
| 22. | Muğanlı | 153 | |
| 23. | Mosul | 149 | |
| 24. | Qımır | 138 | |
| 25. | Varxian | 131 | |
| 26. | Faldarlı | 110 | |
| 27. | Lələli və Göylər | 110 | |
| 28. | Kiçik Lahıc | 104 | |
| 29. | Qandax | 96 | |
| 30. | Zəyəm | 80 | |
| 31. | Tasmalı | 70 | |
| 32. | Çüdülü | 65 | |
| 33. | Qorağan | 62 | |
| 34. | Qarabaldır | 54 | |
| 35. | Yengian | 51 | |
| 36. | Qındırğalı və Kətəlparax | 38 | |
| 37. | Kürdəmir | 34 | |
| 38. | Ləläpaşa | 34 | |
| 39. | Kəpənəkçi | 33 | |
| 40. | Marsan | 28 | |

| | | | |
|---|---|---|---|
| 41. | Padar | 23 | |
| 42. | Şotavar | 21 | |
| 43. | Babalı | 17 | |
| 44. | Böyük Lahıc | 16 | |
| 45. | Bəy Əhmədli | 12 | |
| 46. | Balakən | 556 | Balakən |
| 47. | Qabaxçöl | 172 | |
| 48. | Şambul | 28 | |
| 49. | Kilsə Tala | 14 | |
| 50. | Baş Muxax | 200 | Dağ |
| 51. | Baş Cınıx | 200 | |
| 52. | Qusur | 157 | |
| 53. | Kələli | 80 | |
| 54. | Meşleş | 60 | |
| 55. | Korş | 40 | |
| 56. | Suvagil | 12 | |
| | Cəmi: | 8.235 | |

Qaynaq: GRMDTA, f.2, t.1, iş 5856, v.3-5

Bölgüyə əsasən Car mahalına 8 kənd (1.509 həyət), Tala mahalına 11 kənd (2.920 həyət), Yenisel mahalına 26 kənd (2.278 həyət), Balakən mahalına 4 kənd (770 həyət), Dağ mahalına 7 kənd (749 həyət) daxil edildi.

Dağ mahalının tərkibinə verilən yeddi kənd – Kələli,Qusur, Baş Muxax, Baş Cınıx, Korş, Meşleş, Suvagil Böyük Qafqaz dağlarının şimal ətəklərində, Samur çayı hövzəsində yerləşən kəndlər idi. Yeri gəlmişkən, tezliklə İlisu sultanlığının da Böyük Qafqaz dağlarının şimal ətəklərində yerləşən kəndləri – Saxur, Gelmes, Söyüd, Qurdul, Xiyağ, Muslax, Mikik həmin dağ mahalının tərkibinə qatıldı.

Cədvəl 2

Car-Balakən camaatlığının Dağıstan Vilayətinin Samur dairəsinə birləşdirilmiş kəndlərinin ərazisi

| № | Kəndlər | İcma torpaqları (desyatinlə) |
|---|---|---|
| 1 | Baş Muxax | 10. 500 |
| 2 | Meşleş | 10. 040 |
| 3 | Qusur | 10. 000 |
| 4 | Baş Cınıx | 7. 015 |
| 5 | Kələli | 4.500 |
| 6 | Korş | 30 |
| 7 | Suvagil | ? |
| | Cəmi: | 42. 085 |

Qaynaq: DRDA,f.1,t.1,iş 8564

Yeni yaradılmış inzibati idarəetmə sistemi təbii-coğrafi şəraitinə görə payız-qış aylarında onsuz da ətraf aləmdən təcrid olan bu dağ kəndlərinin mərkəzlə siyasi-iqtisadi bağlılığını tamamilə zəiflətdi. Əslində inzibati islahat gələcəkdə bu kəndlərin başqa bir inzibati qurumun tərkibinə daxil edilməsi üçün zəmin yaratdı. Bu, bölgənin işğala qarşı şiddətli müqavimət göstərən əhalisinin ram edilməsi üçün çarizmin seçdiyi çıxış yollarından biri idi.

1840-ci il aprelin 10-da keçirilən inzibati islahata əsasən Car-Balakən vilayəti ləğv edilərək yerində Balakən qəzası (Balakən qəzası tezliklə Balakən dairəsinə, daha sonra isə Car-Balakən hərbi dairəsinə çevrilir) yaradıldı. Yeni inzibati qurum isə İlisu sultanlığı ilə birlikdə Gürcü-İmeret quberniyasına birləşdirildi.

Qeyd edək ki, bu islahat çarizmin işğalçı siyasətinə qarşı əsas mübarizə mərkəzi olan Car-Balakən camaatlığının və İlisu sultanlığının ərazilərinin parçalanaraq başqa inzibati qurumların tərkibinə verilməsi yolunda növbəti addımlarından biri oldu. Belə ki, inzibati dəyişiklik nəticəsində Car-Balakən camaatlığının və İlisu sultanlığının Böyük Qafqaz dağlarının şimal ətəklərindəki kəndlərini, yəni Dağ mahalını (yeni tərkibdə) ayıraraq Dərbənd hərbi dairəsinə birləşdirdilər. Çar generalları bunu belə izah edirdilər: «…öz coğrafi vəziyyətinə görə bu mahal (Dağ mahalı) Zaqataladan uzaq məsafədə əlaqəni çətinləşdirən Böyük Qafqaz dağ silsiləsi ilə ayrılır, halbuki, o Samur dairə rəisinin iqamətgahı Axtadan yalnız bir neçə saatlıq piyada yolu uzaqlığındadır və əlaqələndirmədə heç bir çətinlik yoxdur».

Cədvəl 3

Dağıstan vilayətinin Samur dairəsinə birləşdirilmiş kəndlər

| № | Kəndin adı | Həyətlərin sayı |
|---|---|---|
| 1. | Baş Kirgil | 6 |
| 2. | Söyüd | 19 |
| 3. | Xiyax | 21 |
| 4. | Baş Attal | 23 |
| 5. | Cimcimax | 25 |
| 6. | Korş | 36 |
| 7. | Muxax | 41 |
| 8. | Qurdul | 42 |
| 9. | Mikik | 46 |
| 10. | Kələl | 61 |
| 11. | Gelmes | 87 |
| 12. | Saxur | 100 |
| 13. | Muslax | 112 |
| 14. | Meşleş | 113 |
| 15. | Qusur | 118 |
| 16. | Cınıx | 169 |
| | Cəmi: | 1.019 |

Qaynaq: ARDTA, f. 10,t.1, iş 78, v.76-77

Beləliklə, irəli sürülən bəhanə əsas götürülərək tezliklə Dağ mahalı (yeni tərkibdə) Dərbənd hərbi dairəsinə, 1860-cı ildən isə yeni yaradılmış Dağıstan vilayətinin Samur dairəsi Luçek naibliyinin tərkibinə qatıldı.

İşğaldan sonra aparılan inzibati islahatlar nəticəsində camaatlığın şimal sərhədlərində yerləşən yaşayış məskənləri ilə yanaşı, yaylaq sahələrinin də böyük hissəsi başqa inzibati qurumların tərkibinə verildi.

Çar məmurları yeni inzibati sərhədləri müəyyən edərkən, yerli əhalinin torpaq üzərindəki hüquqlarını nəzərə almadılar. Yeni yaradılmış Car-Balakən vilayətinin hüdudlarında «yerli əhalinin əkinçilik və maldarlıqla məşğul olmaq üçün torpaq tələbatını ödəyəcək qədər» əkin və torpaq sahələri saxlanıldı. Qalan boş torpaqlar isə başqa inzibati qurumların tərkibinə qatıldı.

Tezliklə keçmiş camaatlığın ərazisi qərb və cənub sərhədləri istiqamətində də xeyli kiçildi. 1830-cu ildə Car-Balakən camaatlığı ləğv edildikdən sonra, Qafqazdakı rus ordusunun baş komandanı qraf İ.F.Paskeviç camaatlığın qərb sərhədlərindəki boş torpaqların məskunlaşdırılması qərarını verdi. O, tabeliyindəki Qafqaz Əlahiddə Korpusunun nəzdindəki topoqrafiya dəstəsinə vilayətin xəritəsini tərtib edərkən Cardan qərbdə Gürcüstanın Kvareli, Qavaz kəndlərinə gedən yolda yerləşən ərazilərin məhsuldar torpağının və sağlam iqlim şəraitinin məskunlaşdırma üçün əlverişli olduğunu nəzərə alaraq xüsusi diqqət yetirilməsini əmr etdi. Paskeviç Car-Balakən camaatlığının Gürcüstanla sərhədində yerləşən və 70.000 desyatin (təxminən 7. 644 kv. km) sahəni əhatə edən ərazidə İranla sərhədə köçürüləcək 80.000 nəfər malorus kazakının bir hissəsini, daha sonra isə Osmanlı dövlətindən köçürülən erməniləri yerləşdirmək niyyətində idi.

Baş komandan Paskeviçin bu düşünülmüş addımı məskunlaşmamış torpaqların Gürcüstana birləşdirilməsində başlanğıc oldu. Sonralar bu siyasət daha planlı şəkildə həyata keçirildi. İnzibati-ərazi dəyişiklikləri bəhanəsilə keçmiş Car-Balakən camaatlığının hüdudları xeyli kiçildildi. Təkcə 1867-ci ildə Zaqatala dairəsinin (1860-cı ildə keçmiş Car-Balakən camaatlığının və İlisu sultanlığının ərazisində yaradılmışdı) yeni inzibati sərhədlərinin müəyyən edilməsi nəticəsində, vaxtilə Balakən icmasına məxsus 27.000 desyatin torpaq sahəsi Sığnaq (Siqnax) qəzasına birləşdirildi. Eyni siyasət camaatlığın cənub sərhədlərində də həyata keçirildi. Yuxarıda qeyd etdiyimiz kimi, Car-Balakən camaatlığının cənub sərhədləri Kür çayınadək uzanırdı. XIX əsr rus tarixşünaslığında camaatlığın cənub sərhədləri kimi göstərilmiş Qanıx çayından Kür çayınadək uzanan ərazilər - Qabırrı çayının sağ və sol sahilləri, Koltan dağı, Sarılar, Palantökən dağ, Qaladərəsi, Nəzərli yarğanı, Qaradağ, Şirək dağ, Şirək çölü, Ceyran çölü, Zilçə dağı, Komroy dağ, Zoğallı təpə, Buğa meydan, Yumru təpə, Arpa təpə və s. 1830-cu il işğalınadək camaatlığın sərhədləri daxilində olmuşdur. Həmin ərazilər Car-Balakən camaatlığının maldarlıqla məşğul olan əhalisinin qışlaq sahələri idi. Və yalnız işğaldan

sonra çar məmurları bu əraziləri ayıraraq xəzinə torpaqları elan etdilər və Gürcüstanın Siqnax (Sığnaq) qəzasına birləşdirdilər.

1831-ci ildə car-balakənlilərə və İlisu sultanlığının dağ mahalının əhalisinə mal-qaranı otarmaq üçün Qanığın sağ sahilinə keçmək rəsmi şəkildə qadağan olundu. Lakin yerli əhalinin Qanığın sağ sahilinə keçməsinin qarşısını almaq mümkün olmadı. 1842-ci ilədək bu torpaqlar car-balakənlilərin nəzarətində qaldı. Car-balakənlilərin Şirək düzü və ona bitişik ərazilərə nəzarətini aradan qaldırmaq və güclü polis nəzarəti yaratmaq üçün burada Siğnaq qəzasına tabe olmaq şərtilə yaşayış məskənlərinin salınmasına qərar verildi.

Tezliklə Yelizavetpol qəzasının az torpaqlı ağa kəndlilərinə ağaları üçün yerinə yetirməli olduqları mükəlləfiyyətlərin saxlanılması şərtilə Eldar çölündə məskunlaşmağa icazə verildi. Burada 300 evdən ibarət Eldar kəndi salındı.

Çarizmin Qafqazdakı səlahiyyətli nümayəndələrinin məsələni bu şəkildə həll etmələri, bölgədə süni ərazi ixtilafının yaranmasına səbəb oldu. 1860-cı ildə car-balakənlilərlə Eldar çölündə yeni məskunlaşan ağa kəndliləri arasında toqquşma oldu. Car-balakənlilərin buradakı yataqları, qışlaqları dağıdıldı. Bu, ixtilafı daha da dərinləşdirdi.

Eyni siyasət camaatlığın İlisu sultanlığı ilə sərhəd ərazilərində də həyata keçirildi.

Məlum olduğu kimi, Car-Balakən camaatlığı ilə İlisu sultanlığı arasında sərhəd Qanıx çayına qədər Qapıçay olmuşdur. Lakin Rusiya imperiyasının Şimal-Qərbi Azərbaycan torpaqlarını işğalı dövründə yalnız İlisu sultanlığı ilə Tala icması arasında sərhəd hər iki tərəfin razılığı ilə Qapıçay idi. 1824-cü ildə isə general-leytenant Q.E.Eristovun İlisu sultanına məxsus Zərnə kəndi ilə camaatlığın Cınıx icması arasındakı torpaq mübahisəsini həll etmək məqsədilə tərtib etdiyi akta əsasən, Qapıçay mübahisəli torpaqlar arasında sərhəd müəyyən edildi. Qapıçaydan şərqdəki torpaqlar İlisu sultanının, qərbdəki torpaqlar isə Cınıx icmasının ixtiyarına verildi.

İşğal ərəfəsində Car-Balakən camaatlığının İlisu sultanlığı ilə Babalı, Qorağan, Şotavar və Almalı kəndlərinin yerləşdiyi ərazilərdəki sərhədləri isə mübahisəli idi.

Qeyd etmək lazımdır ki, bu dörd kənd uzun müddət carlılarla İlisu sultanı Əhməd xan, sonralar isə Daniyal sultan arasında mübahisə obyekti olmuşdu.

İşğaldan sonra çar generalları bu mübahisədən bölgədə mövqelərini möhkəmləndirmək və gələcəkdə işğalçılara qarşı baş verə biləcək birgə mübarizə ideyasının qarşısını əvvəlcədən almaq üçün istifadə edirlər. Buna görə də uzun müddət Car-Balakən camaatlığı ilə İlisu sultanlığı arasında sərhədlər qəti şəkildə müəyyənləşdirilmir. Əksinə, çar məmurlarının tamamilə məxfi xarakterli məktub və məruzələrindən göründüyü kimi, onlar bu işin qəti həllinin mümkün qədər uzadılmasına çalışırdılar.

Bu siyasət Car-Balakən camaatlığı ilə İlisu sultanlığı arasındakı torpaq mübahisələrindən istifadə etmək və lazım gəldikdə bir tərəfi cəzalandırmaq, çarizmin maraqlarına toxunanda isə hər iki tərəfi ədavət və düşmənçilikdən uzaqlaşdırmaq məqsədi daşıyırdı.

1838-ci ildə Car-Balakən vilayətinin rəisi general-mayor Bezobrazov guya gələcəkdə baş verə biləcək torpaq mübahisələrinin qarşısını almaq və sultanın çara sədaqətinə diqqət çəkmək məqsədilə İlisu sultanlığının Qapıçaydan keçən köhnə sərhədlərini bərpa etməyi təklif etdi. Bu təklifə əsasən Qapıçaydan şərqdə yerləşən və əvvəllər car-balakənlilərin nəzarətində olan, 1830-cu il üsyanından sonra isə xəzinəyə verilmiş beş kəndin – Qorağan, Babalı, Lələli, Almalı və Şotavarın (cəmi 369 tüstü) İlisu sultanının ixtiyarına verilməsi nəzərdə tutulurdu.

1838-ci il noyabrın 30-da Gürcüstanın baş rəisi general E.A.Qolovinin sərəncamı ilə İlisu sultanlığı ilə Car-Balakən camaatlığı arasında sərhəd Qanıx çayınadək Qapıçay müəyyən olundu. 1830-cu il üsyanına qədər car-balakənlilərin nəzarətində olan, üsyandan sonra isə xəzinəyə verilmiş Qorağan, Babalı, Almalı və Şotavar kəndləri İlisu sultanının ixtiyarına verildi. Bu kəndlər 1844-cü ildə İlisu sultanlığı ləğv olunanadək sultanın ixtiyarında qaldı.

Beləliklə, istinad etdiyimiz faktlar təsdiq edir ki, Car-Balakən camaatlığı müasir Azərbaycan Respublikasının Zaqatala, Balakən rayonlarının və qismən Qax rayonunun, Dağıstan Respublikasının sərhəd rayonlarının və Gürcüstanın Laqodexi və Sığnaq rayonlarının ərazisini əhatə etmiş və ərazisi şimalda Böyük Qafqaz dağlarının şimal yamaclarından cənubda Kür çayınadək uzanmışdır.

**Əhali.** Car-Balakən camaatlığının tarixi-demoqrafik tədqiqatı olduqca aktual məsələlərdən biridir. Lakin Car-Balakən camaatlığının yaranması səbəbləri, həmçinin burada mövcud olan və spesifikliyi ilə seçilən siyasi-sosial-iqtisadi münasibətlər camaatlığın əhali problemlərinin öyrənilməsini xeyli çətinləşdirir.

Yuxarıda qeyd etdiyimiz kimi, Səfəvilər dövlətinin (1501-1736) bölgədə apardığı siyasətin nəticəsində meydana gələn camaatlıq yarandığı gündən «uc torpaqlarının qoruyucusu» statusu daşımışdır. Bu status yerli əhaliyə bir sıra üstünlüklər verirdi. Səfəvilər dövlətinin paytaxt Təbrizdən xeyli uzaqda yerləşən şimal-qərb sərhədlərinin mühafizəsindən cavabdeh olan car-balakənlilər bunun müqabilində aylıq məvacib alır, üstəlik şah xəzinəsinə də vergi ödəmirdilər. Buna görə də Şah Sultanhüseynin (1694-1722) hakimiyyəti illərində, konkret olaraq 1699-1702-ci illərdə Səfəvilər dövlətində vergi verən əhalinin sayını müəyyənləşdirmək məqsədilə keçirilmiş siyahıyaalma Car-Balakən camaatlığına şamil edilməmişdi. Camaatlığın mövcud olduğu sonrakı təxminən 130 il ərzində də onun ərazisində siyahıyaalma keçirilməmişdir. Bu səbəbdən də camaatlığın əhalisinin öyrənilməsi üçün tələb olunan faktik material son dərəcə kasaddır.

XVIII əsrdə Car-Balakən camaatlığının əhalisinin öyrənilməsində bizə yardımçı olan yalnız hərbi və sosial-iqtisadi məsələlərlə bağlı sənədlər, tarixi

qeyd və əsərlərdir. Lakin bölgədəki siyasi-sosial-iqtisadi münasibətləri tam analiz etmədən bu sənədlərdəki məlumatları əhali problemlərinin öyrənilməsinə yönəltmək və gerçəkliyə daha yaxın nəticələr əldə etmək mümkün deyil.

Qeyd edək ki, Car-Balakən camaatlığında avar, saxur, muğal və ingiloylar birgə yaşayırdılar. Camaatlığın dağ və qismən də dağətəyi kəndlərində yaşayan avarlar və saxurlar hərbi işlərlə məşğul olur, sərhədlərin təhlükəsizliyinə görə cavabdehlik daşıyırdılar. Mənbələrdə onların muzdlu döyüşçü kimi xidmət göstərdikləri haqqında da məlumatlar var. Azərbaycanın XVIII əsr tarixinə dair mühüm mənbə olan «Qarabağnamələr»də car-balakənlilərin Şəki xanı Hacı Çələbinin hərbi yürüşlərində iştirak etdikləri göstərilir. Və ya camaatlığın tarixinin öyrənilməsi üçün əvəzsiz mənbə olan «Car salnaməsi»ndə 1754-cü ildə Tabasaranlı Hacı Məhəmməd Əlinin və Şəki xanı Hacı Çələbinin Şirvana yürüşü ərəfəsində Car-Balakəndən hər ləzgiyə (avar, saxurlar nəzərdə tutulur - A.M.) 3 tümən, hər muğala-türkə 1 tümən məvacib vermək şərtilə ordu çağırdıqları barədə məlumat verilir. Bu hərbi yürüşün nəticəsində «...bütün Şirvanın rəisləri nəinki Hacı Məhəmməd Əli və Hacı Çələbi ilə müqavilə bağlayır, hətta hər ləzgiyə verilən məbləği 4 tümənə, hər bulqadara və muğala verilən məbləği 2 tümənə qaldırırlar».

Ordunun sayına görə əhalinin sayının müəyyən edilməsi qismən də olsa, özünü doğruldan üsullardan biridir. Biz də bu üsulla Car-Balakənin hərbi qüvvələrini təşkil edən avar-saxur icmalarında (mənbələrdəki məlumatlar həmin icmalara muğalların da daxil olduğunu təsdiq edir – A.M.) kəndlərində əhalinin sayını müəyyənləşdirməyə cəhd edəcəyik. XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin daxilində baş verən prosesləri yaxından izləmiş Osmanlı məmuru Əli bəy Bədrəddinzadənin «Qaiməsi»ndə 1716-cı ildə Car-Balakənin dörd kəndindən təxminən 2.000 avar və saxurun Qanlı Şaban və Molla Abdullanın komandanlığı altında birləşərək Tiflis və Gəncə nahiyələrinə hücumlar etdiyi barədə məlumat verilir. Əgər biz bu hücumlarda iştirak edən döyüşçülərin hər ailədən bir nəfər olduğunu təxmin etsək, bu 2.000 ailə deməkdir. Hər ailəni orta hesabla 6 nəfər götürsək 12.000 nəfər olduğunu (hesablamamız nisbi xarakter daşıyır) güman etmək olar. Deməli, Car-Balakən camaatlığının avar-saxur kəndlərində yaşayan əhalinin sayı təxminən 12.000 nəfər olmuşdur.

1826-cı ildə Car-Balakən camaatlığında olmuş və statistik məlumatlar toplamış rus zabiti polkovnik M.A.Kosebu burada hər evə üç döyüşçünün düşdüyünü qeyd edir. Əlbəttə, icma münasibətlərinin güclü olduğu Car-Balakən camaatlığında patriarxal ailələrin mövcudluğunu nəzərə alsaq, onda səfərbərlik zamanı hər ailədən üç döyüşçünün hərbi qüvvələrin sıralarına qatılması təəccüblü deyil. Lakin fikrimizcə, car-balakənlilərin qonşu vilayətlərə, xüsusilə də Kartli-Kaxet çarlığına ardıcıl təşkil olunan yürüşlərində tam səfərbərlik aparılmırdı. Çünki, camaatlığın sərhədlərinin qorunması, təhlükəsizliyin təmin edilməsi üçün daxildə də qüvvəyə ehtiyac var idi.

Yuxarıda müəyyən olunan rəqəm camaatlığın yalnız avar-saxur əhalisinin təxmini sayıdır. Camaatlığın əhalisinin ümumi say dinamikasını müəyyən etmək üçün isə muğal və ingiloy əhalinin də sayını bilmək lazımdır.

İngiloy və muğallar təsərrüfatla, əsasən əkinçiliklə məşğul olurdular. Keşkəl vergisi ödəyən ingiloy və muğal kəndlərində bütün kənd icmasının üzərinə qoyulan verginin ödənilməsi üçün, icmanın əkin torpaqları ölçülərək kənddəki evlərin – tüstülərin sayına müvafiq bərabər hissələrə və ya paylara bölünmüşdü və sonralar əhalinin sayının artmasına baxmayaraq, həmin keşkəl payları dəyişməz qalırdı. Deməli, bu kəndlərdəki evlərin sayına uyğun olan keşkəl paylarını müəyyən etməklə, XVIII əsrin əvvəllərində buradakı əhalinin sayını da təxminən müəyyən etmək mümkündür. Bölgənin Rusiya tərəfindən işğalından sonra, burada sosial-iqtisadi münasibətləri öyrənmək məqsədilə fəaliyyət göstərən Silki-Torpaq komissiyasının (1864-1872) sənədlərinə əsasən, camaatlığın ərazisindəki keşkəllərin sayı təxminən 2.252 olmuşdur. Bu isə bir daha qeyd edək ki, 2.252 ailə deməkdir. Hər ailəni orta hesabla 6 nəfərdən götürsək, onda keşkəl kəndlərində təxminən 13.512 nəfərin yaşadığını göstərmək olar. Hesablamalarımızın I mərhələsində – döyüşçülərin sayına əsasən müəyyənləşdirdiyimiz avar-saxur kəndlərinin əhalisinin sayının, yəni 12.000-nin üzərinə ingiloy-muğal kəndlərinin əhalisinin sayını, yəni 13.512-i əlavə etsək, onda 25.512 nəfər alınar. Beləliklə, XVIII əsrin əvvəllərində Car-Balakən camaatlığının əhalisinin sayı təxminən 25.512 nəfər olmuşdur.

İndi isə XVIII əsrin II yarısında Car-Balakən camaatlığında yaşayan əhalinin sayını müəyyən etməyə çalışaq. 1770-ci il aprelin 5-də Kaxet çarı II İraklinin sarayından buradakı Rusiya rezidenti Anton Mouravova təqdim olunmuş demoqrafik cədvəldə Padar, Ləldi, Yenisel nahiyəsində yaşayan ingiloyların (mənbədə xristian pravoslavlar kimi təqdim edilib – A.M.) və muğalların (tatarlar qeyd edilib – A.M.) sayının 10.000 tüstü olduğu qeyd edilib. Hər tüstünün bir ev olduğunu nəzərə alaraq, ailə başına 6 nəfərdən hesablasaq, keşkəl kəndlərində 60.000 nəfər yaşadığını göstərmək olar. Bu nəticə XVIII əsrin əvvəllərində Car-Balakən camaatlığında yaşayan əhalinin təxmini müəyyən etdiyimiz ümumi sayından 2,4 dəfə çoxdur. Halbuki istinad etdiyimiz mənbədə camaatlığın əhalisinin ümumi sayı deyil, konkret olaraq, ingiloy və muğal kəndlərində yaşayan ailələrin sayı göstərilib. Avar, saxur kəndlərində yaşayan əhalinin sayı barədə qeydlər yoxdur.

Silki-Torpaq komissiyasının məlumatlarına əsasən apardığımız araşdırmalar göstərir ki, XVIII əsrin ortalarından fərqli olaraq XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində Car-Balakən camaatlığında əhalinin təbii artımı yüksək olmuşdur. Bu birinci növbədə XVIII əsrin II yarısında camaatlığın ərazisində iri miqyaslı hərbi əməliyyatların baş verməməsi ilə bağlı idi. Car salnaməsinə əsaslansaq, bu dövrdə Car-Balakən camaatlığında əhali arasında döyüşlərdə, aclıqdan, soyuqdan kütləvi şəkildə ölüm halları baş vermə-

mişdir. Əksinə, əhalinin artımı qeydə alınmışdır. Bunu icma üzvləri arasında şəxsi torpaq - axu sahiblərinin sayının artması da göstərir.

Qeyd edək ki, kənddə əhalinin sayı artdıqca keşkəl pay torpaqlarının daha kiçik paylara bölünməsi icma üzvlərini bu pay torpağından əldə olunan gəlirlə həm vergini ödəmək, həm də öz ailəsi üçün bir illik taxıl ehtiyatı toplamaq imkanlarından məhrum edirdi. Buna görə də XVIII əsrin sonları-XIX əsrin əvvəllərində kəndlilər icmanın ümumi mülkiyyətində olan meşələri təmizləyərək əkin sahələrinə çevirirlər. Axu adlandırılan bu əkin sahələri onu təmizləyənin irsən keçən şəxsi mülkiyyəti idi. O, axunu icmanın razılığı olmadan istədiyi yerdə (kəndin yaxınlığında, dağda və s.) aça bilərdi. Axu sahibi bu torpağa görə heç kimə vergi ödəmirdi və onu satmaq, kiməsə bağışlamaq və s. hüquqlara malik idi. Qeyd edək ki, həm avar, saxur həm də muğal, ingiloy icma üzvləri axular açırdılar. XIX əsrin əvvəllərində axuların açılması kütləvi şəkil almışdı.

XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərində Car-Balakən camaatlığında əhalinin say dinamikasına onun təbii hərəkəti ilə yanaşı, uğurlu hərbi yürüşlər də təsir göstərirdi. O.İ.Konstantinovun məlumatına görə, car-balakənlilərin yürüşləri nəticəsində təkcə Gürcüstan hər il 300-ə yaxın ailə itirirdi. Bu əsir aparılanların sayı idi.

Lakin, XVIII əsrin ortalarında Car-Balakən camaatlığına dalbadal edilən hərbi yürüşlər (1735-ci ildə Səfəvi, 1738, 1741-ci illərdə Əfşar, 1751-ci ildə gürcü qoşunlarının yürüşləri) nəticəsində əhali arasında ölüm hallarının yüksək olması, təkcə muğal və ingiloy kəndlərində əhalinin sayının təxminən 19 il ərzində bu qədər yüksəlməsini şübhə altında qoyur. Maraqlıdır ki, Car-Balakən camaatlığında yaşayan əhalinin ümumi sayı haqqında 1803-cü ilə aid ilk məlumatda rusların Car-Balakən camaatlığını itaətə gətirmək məqsədilə həmin ildə həyata keçirdikləri hərbi əməliyyatlar vaxtı, burada 16.000 tüstünün və 90.000 sakinin olduğu qeyd edilir. Bu rəqəmlər XIX əsrin 20-30-cu illərini əks etdirən rəqəmlərdən təxminən 2 dəfə çoxdur. İ.P.Petruşevski bu fərqi, rus hökumətinin, hərbi yürüşün nəticəsi olaraq təyin etdiyi verginin ağır olmadığını göstərmək məqsədilə əhalinin sayını bilərəkdən artırması ilə əlaqələndirir. Faktlar bu fikri təsdiq edir. Belə ki, Qafqazdakı rus ordusunun baş komandanı knyaz P.D.Sisianovun Rusiya çarına ünvanlanmış 1803-cü il 17 aprel tarixli raportunda 1803-cu ildə Car-Balakən camaatlığında 29 kənd və 8.000 tüstünün olduğu göstərilir. 1829-cu ildə «Русский инвалид или Военные ведомости»nin səhifələrində nəşr olunmuş məqalədə də 1803-cü ildə Car-Balakən camaatlığında 29 kənd və 8.000 tüstünün olduğu göstərilir. Hər iki mənbədə eyni rəqəmlər verildiyindən, biz də həmin il üçün məhz bu rəqəmi əsas götürürük. Lakin onu da qeyd etməliyik ki, bu rəqəm də gerçəkliyi tam əks etdirmir. Çünki, həmin ildə ruslar Car-Balakən camaatına Rusiyadan asılılığı qəbul edən andlı öhdəliyə imza atdırsalar da, uzun müddət bölgəyə nəzarət edə bilmirlər. Camaatlığın ərazisinə yalnız böyük hərbi qüvvə ilə daxil ola bilən rus zabit və

məmurlarının camaatlığın dəqiq statistik təsvirini aparması real deyil. Elə bu səbəbdən 1823-cü ilə aid statistik məlumatda da Car-Balakən camaatlığında 8.000 həyət və ya ailənin olduğunu göstərilir. Ailə başına 6 nəfərdən götürsək, 1823-cü ildə Car-Balakən camaatlığında təxminən 48.000 (bir daha qeyd edirik ki, hesablamalarımız nisbi xarakterlidir) nəfərin yaşadığını güman etmək olar. Onda belə çıxır ki, ötən 20 il ərzində əhalinin say dinamikasında heç bir dəyişiklik baş verməmişdir.

Camaatlığın əhalisinin say dinamikasını öyrənmək məqsədilə müraciət etdiyimiz növbəti statistik məlumatlar camaatlığın ləğvi ərəfəsindəki vəziyyəti əks etdirir. 1826-1829-cu illərdə polkovnik M.A.Kosebunun və T.N.Yaişnikovun (Blaramberq) bölgədə topladıqları statistik məlumatlar bir çox ziddiyyətli məqamlarına baxmayaraq (məsələn, M.A.Kosebunun statistik təsvirində Car-Balakən camaatlığının Böyük Qafqaz dağlarının şimal ətəklərində yerləşən kəndləri haqqında heç bir məlumat yoxdur – A.M.) işğal ərəfəsində camaatlığın əhalisinin say dinamikasının öyrənilməsində mühüm rol oynayır. Əslində, T.N.Yaişnikov M.A.Kosebunun camaatlığın əhalisi barədə statistik məlumatlarındakı boşluğu aradan qaldırır. Bu statistik rəqəmlər camaatlığın ərazisində 54 kənd və 8.906 tüstünün olduğunu göstərir. 8.906 tüstü isə təxminən 8.906 ailə deməkdir Ailə başına yenə də 6 nəfərdən hesablasaq, camaatlığın əhalisinin sayının təxminən 53.436 nəfər olduğunu qeyd etmək olar.

Car-Balakən camaatlığı ləğv olunduqdan sonra camaatlığın əhalisini öyrənmək məqsədilə toplanılmış statistik məlumata əsasən, keçmiş Car-Balakən camaatlığının ərazisində 62 məskun kənd və 8.546 ailə qeydə alınmışdı. Bu isə təxminən camaatlıqda 51.276 nəfər yaşadığını göstərir ki, bu da 1826-1829-cu illərlə müqayisədə 2.160 nəfər azdır.

Qeyd edək ki, azalma Car-Balakən camaatlığının işğalı və işğaldan sonrakı dövrdə baş verən hadisələrlə bağlıdır. Car-Balakən camaatlığı və İlisu sultanlığı haqqında statistik məlumatda bu məsələlər ətraflı şəkildə şərh edilmişdir. Burada qeyd edildiyi kimi, 1830-cu il Car-Balakən üsyanından sonra, üsyanda aparıcı rol oynayan Car, Qəbizdərə, Göyəm kəndləri dağıdılır, adlarını isə unutmaq əmri verilir. Öz evlərini itirən əhalinin bir qismi vaxtilə binə kimi mövcud olan Danaçıya və qohumlarının yaşadıqları qonşu kəndlərə, qalanları isə rus hərbçilərinin təqiblərindən yaxa qurtarmaq və gələcəkdə mübarizəni davam etdirmək üçün Dağıstana köçürlər. Mənbədə Balakəndən də çoxlarının Dağıstana köçdüyü göstərilir. Öz yerlərini tərk etməyən balakənlilər isə Gürcüstanda məskunlaşdırılmaq məqsədilə sürgün edilirlər.

İşğaldan sonrakı vəziyyəti öyrənmək və müqayisələr aparmaq məqsədilə müraciət etdiyimiz 1839-cu il məlumatını da yerli əhali barədə ətraflı məlumat verən bir statistik təsvir hesab etmək olmaz. Çünki, həyata keçiriləcək yeni inzibati-ərazi dəyişikliyi ərəfəsində vəziyyəti öyrənmək məqsədilə toplanılan məlumatlar yalnız kəndlərin adı və oradakı tüstülərin sayından ibarətdir. Beləliklə, 1839-cu il statistik məlumatına əsasən Car-Ba-

lakən vilayətinin ərazisindəki 60 yaşayış məskənində 8.235 ailə və ya bizim hesablamamızla 49.410 nəfər yaşayırdı. Bu isə 1826-1830-cu illə müqayisədə 4.026, 1830-ci illə müqayisədə isə 1.866 nəfər az idi. Deməli, 1830-cu il üsyanından sonra çarizmin bölgədə apardığı müstəmləkəçilik siyasəti əhalinin say dinamikasına, yerləşməsinə öz təsirini göstərmişdi.

Cədvəl 4

Car-Balakən camaatlığının əhalisinin say dinamikası
(XVIII əsrin əvvəlləri – 1839-cu il)

| | XVIII əsrin əvvəlləri | 1803 | 1823 | 1826-1830 | 1831 | 1839 |
|---|---|---|---|---|---|---|
| Ailələrlə | 4.252 | 16.000 | 8.000 | 8.906 | 8.546 | 8.235 |
| Nəfərlə | 25.512 | 90.000 | 48.000 | 53.436 | 51.276 | 49.410 |

**Etnik tərkib.** Car-Balakən camaatlığının əhali problemlərinin arasında ən çox müzakirə obyekti olan məsələdir. Vaxtilə camaatlığın meydana gəldiyi Azərbaycan torpaqlarına qarşı vaxtaşırı irəli sürdükləri ərazi iddialarını əsaslandırmağa çalışanlar, artıq çoxdan burada yaşayan əhalini «yerli-gəlmələrə» bölmüşlər. Tarixi faktları az qala Azərbaycan tarixçilərinin «cızma-qarası» kimi təqdim edərək, onları istədikləri kimi təhrif etmişlər və bu gün də edirlər.

Car-Balakən camaatlığının əhalisi avarlar, saxurlar, muğal türkləri və ingiloylardan ibarət idi. İşğaldan sonra qeydə alınmış statistik rəqəmlərə əsasən camaatlığın ərazisində təxminən 26.750 nəfər (5.350 həyət) avar-saxur[1], 11.015 nəfər (2.203 həyət) muğal və 4.415 nəfər (883 həyət) ingiloy yaşayırdı.

Rus qafqazşünaslığında Car-Balakən camaatlığının əhalisinin etnik tərkibi ilə bağlı formalaşmış xüsusi konsepsiya mövcuddur. XIX əsrdə gürcü kilsəsinin və gürcü knyazlarının xüsusi səyləri ilə yaranmış və sonralar gürcü tədqiqatçıları tərəfindən daha da inkişaf etdirilmiş bu konsepsiyaya əsasən, camaatlığın ərazisində yaşayan əhali «yerli» və «gəlmələr»dən ibarət idi. «Müsəlmanlaşdırılmış gürcülər» kimi təqdim olunan ingiloylar yerli, avar, saxur və muğallar isə gəlmə hesab olunurdular.

Avarlar[2] Car-Balakən camaatlığının dağ və dağətəyi ərazilərində məskunlaşmışdılar və bu gün də həmin ərazilərdə yaşayırlar.

XIX əsr rus tarixşünaslığında avarların Car-Balakən camaatlığının ərazisində, yəni Böyük Qafqaz dağlarından cənubdakı ərazilərdə məskunlaşmaları Şah Abbasın 1616-cı il yürüşü ilə bağlanılır. Əlbəttə bu yürüşdən sonra, vaxtilə

---

[1] Car-Balakən camaatlığının Rusiya tərəfindən işğalından sonra, bölgəni öyrənmək məqsədilə statistik məlumat toplayan çar məmurları bu iki etnos arasında fərq qoymurdular, onları ümumi adla, yəni ya avar, ya da ləzgi kimi qeydə alırdılar.

İstinad etdiyimiz mənbədə, yəni 1831-ci il statistik məlumatında da camaatlığın ərazisində yaşayan avar və saxurların sayı ayrı-ayrı verilmədiyindən, biz də bu şəkildə vermək məcburiyyətində qaldıq.

[2] Avarlar özlərini maaruləl (dağ adamları) adlandırırlar.

gürcü çarlığı tərəfindən işğal olunmuş keçmiş alban torpaqlarına şübhəsiz, avarların miqrasiyası olmuşdur. Lakin bu miqrasiya gürcü və XIX əsr rus tarixşünaslığında göstərildiyi kimi, yad bir etnosun «tarixi gürcü torpaqlarına» köçü deyildi. Belə ki, Car-Balakən camaatlığı tarixi alban torpaqlarında meydana gəlmişdi. Avarlar isə Böyük Qafqaz dağlarının şimal və cənub ətəklərini də əhatə edən Albaniya dövlətinin ərazisində yaşayan etnoslardan biri olmuşdur. Həm də avarların Şah Abbasın yürüşlərinə qədər Böyük Qafqaz dağlarının cənub ətəklərində, Pipineti adlanan yerdə məskənləri var idi.

İndi isə avarlar haqqında mənbələrdə verilmiş məlumatları nəzərdən keçirək.

Antik dövr müəllifləri Qafqaz Albaniyası və onun əhalisi haqqında məlumatlarında leq tayfalarının adını çəkirlər. Strabon və Plutarx albanlarla amazonkalar arasında leqlərin və gellərin yaşadıqlarını qeyd edir.

Qədim gürcü mənbələrində «leq» etnonimi dağlı xalqlar üçün ümumiləşdirilmiş addır. Gürcü müəllifi Mroveli Leontinin əsərində isə «leq» etnonimi albanlar mənasında işlənir. Bu isə leqlərin alban tayfa ittifaqına daxil olan 26 tayfadan biri olduğunu göstərir.

Qeyd edək ki, «vahid gürcü dövləti» ideyasının təşəbbüsçüsü Vaxuşti Baqration avarları da leq adlandırır. Buna görə də belə nəticəyə gəlmək olar ki, Strabon və Plutarxın məlumatlarında gellərlə yanaşı yaşadıqları qeyd olunan leqlər həm də avarların əcdadlarıdır. Çünki avarlar tarixən olduğu kimi, bu gün də əcdadları gel tayfaları olan ingiloylarla yanaşı yaşayırlar.

Q.Qeybullayev mənbələrdə avarların əcdadları haqqında daha konkret məlumatların olduğunu qeyd edir. Onun fikrincə Plininin adını çəkdiyi alban tayfaları lpin və silvlər (çilblərin) avarların ulu əcdadlarıdır. Cənubi Dağıstan avarlarının bir hissəsi və keçmiş Albaniya dövlətinin ərazisində yaşayan avarların əcdadları lpin, Cənubi Dağıstanın şimalında yaşayan avarların əcdadları isə silvlərdir. Amma maraqlıdır ki, bu xalqın adında lpin və silv etnonimlərini xatırladan heç bir iz yoxdur və bu gün onlar avarlar kimi tanınırlar. Bəs onda lpin və silvlərin «müasir nəsillərinin» daşıdığı bu adın əsil sahibləri kimlərdir?

Lev Qumilyovun «Qədim Turanın varisləri» adlandırdığı və vaxtilə savirləri Asiyadan qovmuş əsil avarlar (abarlar) öz döyüşkənlikləri və bacarıqları ilə ad çıxarmış tayfa olmuşdur. Maraqlıdır ki, bu döyüşkənlik, cəsarət «avar», yaxud «auar» sözünün mənasında da öz əksini tapıb. Belə ki, N. Baharlı bu qədim türk sözünün «narahat», «qızğın», «davakar» mənası verdiyini qeyd edir.

Qeyd edək ki, türkeşlərin əcdadları olan avarlar və ya abarlar VI-VII əsrlərdə Tyan-Şanın şimal ətəklərində yaşayırdılar. 552-ci ildə onlar türk xaqanı Bumının dəfnində müstəqil dövlət kimi təmsil olunurlar. Lakin 555-556-cı illərdə abarlar türkütlər tərəfindən darmadağın edildikdən sonra, İl çayının sahillərinə qaçırlar. 585-ci ildə onlar qüvvələrini bərpa edərək türkütlərə hücum edirlər və Dalobian xanın qərargahını dağıdırlar. Lakin türkütlər tezliklə onları ram edirlər.

Abarlarla bağlı sonuncu məlumat isə 603-cü ilə aiddir. Onlar teles tayfalarının Dəngi Buğa xana qarşı üsyanında iştirak edirlər. Sonra isə onların izləri itir. Köç yerlərində isə Türkeş xaqanlığı (VII əsr) meydana gəlir.

M.İ.Artamonov Türkeş xaqanlığında daxili münasibətləri analiz edərək, belə nəticəyə gəlir ki, abarlar (avarlar) türkeşlərin komponentinə çevrilmişlər.

Bəs onda VI əsrdə Avropada peyda olan avarlar kimlərdir?

Akademik V.V.Bartoldun qeyd etdiyinə görə, Çin mənbələrində «avar» adına rast gəlinmir. O, Orxon-Yenisey abidələrində də bu adın işlədilməsini mübahisəli hesab etsə də burada adı çəkilən «par-parum», «apar-aparum» naməlum xalq adının onlara aid ola biləcəyi barədə fikirlərin olduğunu yazır. Qədim türk yazılı abidələrini tədqiq edən V.Tomsen «apar», «aparum» sözlərinin iki ayrı xalqın adı ola biləcəyi ehtimalını verir.

Qeyd edək ki, «avar» sözü Bizans, Qərbi Avropa və rus mənbələrində müxtəlif şəkillərdə işlədilir. Bizanslılar həqiqi avarları (onların fikrincə şərqdə məhv olmuş) bu ad altında Avropada peyda olmuş xalqdan ayırırdılar.

Tədqiqatçıların fikrincə, hun dövründə Ceyhun (Sırdərya) çayının aşağı axarlarında çinlilərin «xuni»lər adlandırdıqları xionitlər yaşayırdılar. L.Qumilyov oturaq həyat tərzi keçirən bu xalqı sarmat dünyasına aid edir. F.Altbeim isə xionitlərin konkret olaraq, sak tayfaları olan xiaonların varisi olduqlarını qeyd edir.

VI əsrdə xionitlər Bumın xaqanın qardaşı İstəmi xaqana itaət etməkdən boyun qaçırırlar. İstəmi xaqan onların müqavimətini qıraraq, darmadağın edir. Sağ qalanları isə təqib edir. 557-ci ildə 20.000 nəfər xionit qərbə qaçır. Onlar Volqa çayını keçdikdən sonra, burada qarşılaşdıqları Şimali Qafqaz tayfaları - barselt, unnuqur (onoqur) və savirlər bu xalqı əsil avarlar (abarlar) kimi qəbul edirlər. Xionitlər Şimali Qafqaz çöllərinin sahillərində onlar haqqında yanlış, lakin sərfəli fikirlərin yayılmasına mane olmur və özlərini bu adla çağırırlar.

Lakin avarlar tezliklə Şimali Qafqaz çöllərini tərk edərək, qərbə – Qara dəniz sahillərinə doğru hərəkət edirlər. Burada kutriqurlarla ittifaq bağlayan avarlar Bizans imperiyasına aramsız hücumlar edirlər. 565-ci ildə Türingiyanı tuturlar, 567-ci ildə isə lanqobardlarla ittifaq bağlayaraq gepidləri darmadağın edirlər. Lanqobardlar İtaliyaya getdikdən sonra, Panoniyanı da öz ərazilərinə birləşdirən avarlar, tezliklə Avropada Böyük Avar Xaqanlığının əsasını qoyurlar.

Qeyd edək ki, İ.Şopen də avarların türklərin təqibindən yaxa qurtarmaq məqsədilə Qafqaza köçdüklərini ehtimal edir.

V.Bartoldun fikrincə isə Bizans mənbələrində adı çəkilən bu tayfalar, yəni həqiqi avarlar və psevdoavarlar əslində bir xalqdır və ya hər halda bir-birilə yaxın qohum xalqlardır.

Beləliklə, avarların (əsil avarlar və psevdoavarlar) tarixinə nəzər saldıqdan sonra, fikirlərimizi yekunlaşdırmaq istərdik. L.Qumilyov qeyd edir

ki, bütün böyük etnosların çoxlu əcdadları, etnik substratları olur ki, onlar da tarixin gedişində vahid etnik sistemdə birləşirlər. Reliktlər yenilənmiş etnosun elementinə çevrilirlər.

Fikrimizcə avarlar (psevdoavarlar) və lpin, silv tayfaları da müasir avar etnosunun əcdadlarıdır. Çox güman ki, avarlar (psevdoavarlar) Avropaya köç edərkən bir hissəsi burada qalmış və lpin, silv tayfaları ilə vahid etnik sistemdə birləşmişlər. Yeni etnos isə avar (psevdoavarlar), lpin, silv etnik sistemində daha güclü olan tayfanın adını götürmüşdür. Fikrimizi müasir avarların zahiri görünüşündəki fərqliliklər də təsdiq edir.

Car-Balakən camaatlığının mövcud olduğu ərazilərdə yaşayan və tarixi daha çox təhrif olunan muğal türkləridir.

Muğal türklərinin Car-Balakən camaatlığının ərazisində məskunlaşması ilə bağlı gürcü və XIX əsr rus tarixşünaslığında bir fikir mövcuddur: Qanığın sol sahilində avarların hakimiyyəti yarandıqdan sonra, kaxetinlər bu əraziləri tərk edirlər. Avarlar isə boş qalmış ərazilərə qonşu müsəlman vilayətlərində yaşayan müsəlmanları dəvət edir və onları ingiloylardan ayırmaq üçün muğal adlandırırlar. Bu məlumatlardan belə çıxır ki, guya «Car-Balakən camaatlığının ərazisində ən gec məskunlaşan» (XVII əsr) muğallardır. Mənbələr və toponimika bu fikirlərin kökündən yanlış olduğunu göstərir.

Qeyd edək ki, Car-Balakən camaatlığının mövcud olduğu Şimal-Qərbi Azərbaycan qədim türk diyarıdır. Qədim və erkən orta əsrlər dövründə türk mənşəli kimmeri, skit, sak tayfaları, sonra hunlar, xəzərlər Azərbaycan ərazisinə axın etmiş və burada məskunlaşmışlar.

Şəkidən Balakənə qədər uzanan Qanıx sahili ərazilərdə tapılan kurqanlar vaxtilə bu ərazilərdə məskunlaşmış iskit (skit, skif) - sak tayfalarına məxsus olmuşdur. Zaqatala – Sak (a) tala, Sakan dərə, Sakan, Sakasena toponimləri bu tayfanın adını yaşatmaqdadır. Qeyd edək ki, Sakasena Albaniya dövrünə məxsus yerli ad olmaqla yanaşı, həm də Strabona qədər artıq formalaşmış toponim idi. Buna əsaslanan K.V.Trever qeyd edir ki, «Alban ittifaqını yaradan tayfalar arasında vaxtilə Albaniyadan Ermənistana can atan skif və ya sak tayfalarının» nəsilləri də var idi.

Cənubi Qafqaza axın edən kimmerilər, iskitlər (skitlər, skiflər), saklar, hunlar və b. Dərbənd və Dəryal keçidlərindən, o cümlədən Böyük Qafqaz dağlarının şimalı ilə cənubu arasında əlaqə yaradan aşırımlardan keçərək, Şimal-Qərbi Azərbaycan ərazisinə də yayılmışlar. Keçmiş Car-Balakən camaatlığının qonşuluğunda mövcud olmuş İlisu sultanlığının ərazisini Qafqazın şimalı ilə birləşdirən aşırımlardan birinin «hun aşırımı» və ya «hun beli» adlanması məhz bu axınlarla bağlı olmuşdur. Yeri gəlmişkən yerli camaat bu gün də həmin aşırımı «hun beli» adlandırır.

Fikrimizcə keçmiş Car-Balakən camaatlığının ərazisindəki Varxian toponimi də saklarla bağlıdır. Bu fikri əsaslandırmaq üçün, bəzi faktlara diqqəti cəlb etmək istərdik. VII əsr müəllifi Feofilakt Simokat özünün «Tarix» əsərində Til çayı sahilində yaşayan iki tayfanın – uar və xunnilərin birləşməsindən bəhs

edir. Türklər onları «Qara» adlandırırdılar. Onlar 555-ci ildə türklərin təzyiqindən yaxa qurtarmaq üçün, özlərini avar adlandıraraq qərbə qaçdılar. Biz artıq yuxarıda bu məsələyə toxunmuşuq. Burada isə diqqətimizi çəkən başqa məsələdir. L.Qumilyev sak tayfası xiaonun varisləri olan xionitlərin (yunanlar bu tayfanı xionit, cinlilər isə xuni adlandırırdılar) mənbələrdə «varxionit» də adlandırıldığını qeyd edir və qərbə avar adı altında qaçanların «uar» və «xunni tayfaları» və ya yalnız xionitlər olması barədə maraqlı mülahizə irəli sürür. Onun ehtimalına görə, «Varxionit sözündəki «var» (bar) yaxud «uar» (Bu söz bu gün də Altayda şəxsi ad kimi qalmaqdadır. Ursula çayının qollarından biri Uar adlanır) hissəciyi Ceyhun (Sırdərya) çayının aşağı axarlarında yaşayan və oturaq həyat tərzi keçirən xionit etnoniminə epitet olub və görünür ki, «varxionit» - «çay xionitləri», yəni çay sahilində yaşayan xionitlər deməkdir. Qeyd edək ki, xionitlər həqiqətən də Sırdərya çayının sahillərində yaşamışlar. Yunan, frank və slavyanlar üçün bu sözün etimologiyası aydın olmadığından onlar epiteti etnonim kimi qəbul etmişlər.

Beləliklə, skif tayfalarının bu ərazilərə axınları və Varxian toponiminin – Varxionit etnonimi ilə səsləşməsi onların bir-birilə bağlılığını göstərir.

Keçmiş Car-Balakən camaatlığının ərazisində türklərin daha erkən dövrlərdə məskunlaşmasını sübut edən başqa bir fakta diqqət yetirək. Mahmud Qaşğarlının «Divanü lüğət-it-türk» əsərində adları çəkilən 22 türk boyundan birincisinin və əsasının kınıklar olduğu qeyd edilir. Fəzlüllah Rəşidəddinin «Oğuznamə»sində isə Oğuz bəylərindən biri olan Qınıq Qazıqurdun adı çəkilir .

Keçmiş Car-Balakən camaatlığının mövcud olduğu Şimal-Qərbi Azərbaycan ərazisində bu tayfanın adı ilə bağlı çoxlu toponimlər, dağ, çay, nəsil adları bu gün də qalmaqdadır. Məsələn, Qanıx, Qandax, Qonux dağı, Baş Göynük, Aşağı Göynük[1] və s.

Bölgədə apardığımız tədqiqatlar zamanı, başqa bir maraqlı fakt da diqqətimizi cəlb etdi. Kəpənəkçi[2] kənd sakinlərinin[3] məlumatlarına görə, kəndin adı ilə bağlı iki rəvayət var. Rəvayətlərdən biri türk tayfa adı ilə bağlıdır, 2) əhalinin məşğuliyyətini (burada əhali baramaçılıqla məşğul olurmuş) əks etdirir. Yenə də onların məlumatına görə, gürcülər Kəpənəkçi camaatını həmişə qarasoylular adlandırmışlar. Maraqlıdır ki, Şəki rayonunun Küngüt (Baş Küngüt və Aşağı Küngüt), Zəyzid (Baş Zəyzid, Orta Zəyzid, Köbər Zəyzid), Vərəzət, Aşağı Göynük və Daşüz kəndlərindən aşağıdakı böyük torpaq sahəsi də «Qarasoy» və ya «Qarasov» adlandırılır. Biz artıq yuxarıda qeyd etdik ki, VII əsr müəllifi Feofilakt Simokat özünün «Tarix»

[1] Kınık tayfalarının bir qolu Qərbi Azərbaycanla cənuba doğru irəliləyərək Naxçıvan ərazisində də bir kənd yadigar qoymuş, oradan isə Anadoluya keçərək, Göynük və Biləcik adlı yaşayış məskənləri salmışlar.
[2] Müasir Gürcüstan Respublikasının ərazisində də eyni adlı kənd var.
[3] Şabanov Qurban Murtuzəli oğlu (1924), Qurbanov Sabir Əhməd oğlu (1939)

əsərində türklərin varxionitləri «Qara» adlandırdıqlarını göstərir. Eyni zamanda Mahmud Qaşğarlı da 22 türk boyundan XII-nin qarabölüklər olduğunu qeyd edir. Sadaladığımız bu faktlar türk əhalinin bölgədə yalnız XVII əsrdə məskunlaşması barədə fikirlərin əsası olmadığını təsdiq edir.

Azərbaycan türklərinin qədim və erkən orta əsrlər tarixinin araşdırılmasında əvəzsiz mənbələrdən biri də «Kitabi-Dədə Qorqud» qəhrəmanlıq dastanıdır. Bu dastan türkoloqlar, o cümlədən Azərbaycan alimləri tərəfindən əsasən xalq ədəbiyyatı nümunəsi kimi araşdırılmışdır. İlk dəfə prof.Y.Mahmudov bu qəhrəmanlıq dastanının biristiqamətli araşdırılmasından imtina etmiş və onun Azərbaycanın, həm də türkün tarixinin öyrənilməsi işində əvəzsiz qaynaq olduğuna diqqəti yönəltmişdir. Böyük alimin bu istiqamətdəki araşdırmaları olduqca qiymətli və əvəzsizdir. O, Şəki rayonundakı Daşüzün Kitabi-Dədə Qorqudun «Bəkil oğlu İmran» boyundakı 9 tümənlik Gürcüstan sərhəddindən Şəkiyə qədər uzanan «Dış oğuzla», yerli camaatın indi də «Bələkən», «Belekan» adlandırdığı Balakənin Oğuzun nəsil şəcərəsindəki türk sərkərdəsi Biləkanın adı ilə bağlı olduğunu qeyd edir.

Kitabi-Diyarbəkriyyədə verilən məlumata görə, Biləkan Ağqoyunlu hökmdarı Uzun Həsənin (1453-1478) nəsli şəcərəsindəki otuzuncu babası idi. İ.Şopen də öz əsərində «Car-Balakən»nin türk sözləri olduğunu qeyd edir. Car-Balakəndən Alan qapılarına qədər uzanan pilləkanvari yolun mövcudluğuna əsaslanan müəllifin fikrincə (Car - yol, Balakən isə pilləkan deməkdir) «pilləkan yol» mənasını verir.

Qeyd edək ki, Balakən adlı yaşayış məskəni haqqında məlumata XIV əsr hadisələri ilə bağlı rast gəlirik. Əmir Teymurun Azərbaycana yürüşü zamanı ələ keçirilən qalalardan birinin Balakən olması haqqında məlumat verilir.

Camaatlığın Qandax kəndinin əkin sahələrindən biri isə «xanlar xanı» Bayandur xanın[1] adını daşıyırdı.

Türk tayfalarının Azərbaycana böyük axınlarından biri də (I axın – kimmeri, skit, sak tayfaları, II axın - hun tayfaları, III axın – oğuz-türk tayfaları) XIII-XIV əsrlərə təsadüf edir və monqol yürüşləri[2] ilə bağlıdır. Hülakü xanın (1258-1265) yürüşləri dövründə Azərbaycan və digər işğal olunmuş ərazilərdə bəzi türk-monqol tayfaları məskunlaşmışdılar. Bu dövr haq-

---

[1] Bayandur xan Ağqoyunlu hökmdarı Uzun Həsənin 52-ci babası idi. Əbubəkr Tehrani onun haqqında yazırdı: «O, öz padşahlığı dövründə bütün İran, Turan, Rum, Şam, Misir, Əfrənc, Xətay, Dəşti-Qıpçağı fəth etmişdi. Becənaq onun kiçik qardaşı idi və onu Sayramda öz canişini təyin etdi, özü isə Qarabağ qışlağına və Göycə dənizi yaylağına yollandı. Böyük qurultay çağırdı, çoxlu camaat yığdı və əzəmətli məclis qurdu. … Həddən ziyadə qızıl və gümüş, beş yüz naxışlı kəmər və kəmərlərin üstündə qızıl və gümüş qılınclar bəxşiş etdi. Məmləkətini öz övladları arasında onların qabiliyyətlərinə görə böldü».

[2] Monqol yürüşlərinə qədər vahid Azərbaycan türk xalqının təşəkkülü prosesi artıq başa çatmışdı.

qında qiymətli məlumatlar verən Fəzlullah Rəşidəddin öz əsərində 55 türk-monqol tayfasının (cəlayir, tatar, tamğalıq, tarqut, oyrat, kurkan, sukait və s.) adını çəkir. Bu tayfalardan dördünün adı Azərbaycanın şimal-qərbində, keçmiş İlisu sultanlığının ərazisində mövcud olmuş kənd və yer adlarında öz əksini tapmışdır: Cəlayir – Cəlayir kəndi və dağı, Tamğalıq - Damğalı kəndi, Qurqan – Qorağan kəndi, Tanqıt – Tanqıt kəndi.

Monqol işğalları dövrünə aid olan və «monqol» adı ilə bağlı olan digər etnonim isə bölgənin türk əhalisinə verilən muğal adıdır. Fəzlullah Rəşidəddin bu iki etnonim arasındakı əlaqəni çox gözəl açıqlayır: «400 il ərzində onlardan (monqollardan – A.M.) müxtəlif qollar ayrıldı və onlar saylarına görə, başqalarını üstələdilər; onların qüvvətlənməsi nəticəsində bu vilayətlərdəki başqa xalqlar da onların adı ilə tanındı. İndi türklərin böyük hissəsini monqol adlandırırlar». Bu faktdan çıxış edərək qeyd etmək lazımdır ki, «monqol» sözünün təhrif edilmiş forması olan «muğal» monqollara tabe olan türk tayfaları üçün ümumi ad olmuşdur.

Silki-Torpaq Komissiyasının məlumatlarında düzən ərazilərdə – ingiloylarla qonşuluqda məskunlaşan türk əhali ilə dağətəyi ərazilərdə məskunlaşan türk əhalinin eyni imtiyazlı olmadıqları göstərilir. Düzən ərazilərdə yaşayanlar ingiloylarla eyni hüquqlara sahib idilər və keşkəl vergisi ödəyirdilər. Dağətəyi ərazilərdə yaşayanlar isə avarlarla bərabərhüquqlu idilər. Məlumatda muğal adlandırılan türk əhali ilə bağlı başqa bir məsələni də qeyd etmək lazımdır ki, camaatlığın ərazisində daha gec məskunlaşan «muğallar»a «bəzən daşınmaz əmlak almaq hüququ verilsə də, əksər hallarda onlar avarlardan asılı vəziyyətə düşürdülər». Fikrimizcə sosial-iqtisadi münasibətlərdə muğal adlandırılan türk əhali arasında bu cür fərqlərin qoyulması, türk axınlarının mərhələləri ilə bağlı idi. Bölgənin ən qədim türk sakinləri nəinki avarlarla bərabərhüquqlu idilər, eyni zamanda avar toxumlarına üzv də qəbul edilirdilər. Məsələn, Balakən və Cınıx icmasında muğal türk ailələri avarlarla eyni hüquqlara sahib idilər.

Beləliklə, göstərdiyimiz faktlardan çıxış edərək bir daha qeyd etmək istəyirik ki, türklər keçmiş Car-Balakən camaatlığının ən qədim sakinləridirlər və onların XVII əsrdə bu əraziyə gəlmiş xalq kimi təqdim edilməsi, tarixin təhrifindən başqa bir şey deyildir.

Car-Balakən camaatlığının işğalından sonra rus hərbiçilərinin qeydə aldıqları statistik məlumatlarda camaatlığın ərazisində yaşayan xalqlardan biri ingiloy adlandırılır. Diqqəti çəkmək üçün bir də qeyd edirik ki, «gürcü» və ya «müsəlmanlaşdırılmış gürcü» yox, məhz ingiloy adlandırılır. Bu statistik məlumatın Rusiyanın tabeliyinə keçmiş ərazini öyrənmək məqsədilə tərtib edildiyini nəzərə alsaq, onun bölgədəki vəziyyəti daha real əks etdirdiyini şübhə altına almağa əsas yoxdur.

XIX əsrin ortalarından etibarən, artıq ingiloyların xristianlaşdırılması işində müəyyən uğurlar əldə edən çar hökuməti ingiloyları rəsmi şəkildə əvvəlcə müsəlman ingiloy və xristian gürcülərə, sonra isə müsəlman və xris-

tian gürcülərə böldü. Belə ki, 1859-cu il kameral siyahıyaalmasında bütün təzyiqlərə baxmayaraq xristianlığı qəbul etməkdən imtina edənlər müsəlman ingiloy, xristianlaşdırılanlar isə xristian gürcülər kimi göstərildi. Növbəti siyahıyaalmada isə, hansı dinə etiqad etməsindən asılı olmayaraq, ingiloyların hamısı gürcü kimi qeydə alındı. Zaqatala dairə əhalisinin 1871-ci il siyahıyaalmasında «xalqlar və sakinlərin dini» sütununda keçmiş Car-Balakən camaatlığının ərazisində yaşayan xalqlar müsəlman ləzgilər, müsəlman tatarlar, müsəlman gürcülər və xristian gürcülərə bölünmüşdü. Bölgənin tarixini əks etdirən hesabat, məqalə və kitablarda isə ingiloylar bölgənin yeganə yerli sakini və «yeni döndərilmiş», yəni müsəlmanlaşmış gürcülər kimi təqdim edilir və ingiloy etnoniminin XVII əsrin sonu - XVIII əsrin əvvəllərində Alazan (Qanıx) çayının sol sahilində yaşayan «gürcülərin» «müsəlmanlaşdırılması» nəticəsində meydana gəldiyini və türk mənşəli olub, «yeni döndərilmişlər» mənasında işləndiyini qeyd edirdilər. Əlbəttə gürcü dilinin şərq dialektində danışan və əvvəllər xristian dininə etiqad etmiş ingiloyları gürcü kimi təqdim etməklə, onların yaşadıqları torpaqların guya tarixən Gürcüstana məxsus olması barədə irəli sürdükləri iddiaları əsaslandırmaq daha asan idi. Lakin, tədqiqatlar bu iddiaların heç bir elmi əsası olmadığını və ingiloyların tarixinin məqsədli şəkildə təhrif olunduğunu sübut edir.

Q.Qeybullayevin və Ş.Əliyevin də qeyd etdiyi kimi ingiloy etnonimi «gel» etnonimi ilə bağlıdır. Bu etnonim azərbaycanca «yeni» sözünün və «gel» etnoniminin birləşməsindən əmələ gəlmiş və «yeni gellər», yəni müsəlman gellər mənasında işlənmişdir. Belə ki, bütün gellər 1616-1617-ci illərə qədər xristian olmuşlar. I Şah Abbas Kaxeti tutduqdan sonra, onun şərq hissəsi müsəlmanların nəzarətinə keçir. Həmin vaxt yerli sakinlər olan xristian gellərin kütləvi şəkildə İslam dinini qəbul etdikləri müşahidə olunur. Bundan sonra müsəlmanlaşmış gellər «yengeloy» və ya «ingiloy», yəni «yeni dönmüş gellər», yaşadıqları ərazi isə Yenisel nahiyəsi adlandırılır.

İngiloyların yaşadıqları Şimal-Qərbi Azərbaycanda gel etnonimi ilə bağlı çoxlu toponimlər mövcud olmuşdur – Qoloda, Gelmes, Sarvagel, Suvagil və s. Onlardan bəziləri bu gün də qalmaqdadır.

Bəs gellər kimdir?

Gellər Qafqaz Albaniyasında yaşayan 26 tayfadan biri olmuşdur. Qədim yunan müəllifləri Strabon və Plutarxın məlumatlarına görə, gellər albanlarla amazonkalar arasında yaşayırdılar. Gellərin yaşayış məskəni isə Klavdi Ptolemeyin «Coğrafiya dərsliyi»ndə adı çəkilən Gelda idi. Gelda Albaniyanın şimal-qərbində yerləşirdi və bu toponim bu gün də avarlar və saxurlar arasında Qoloda və ya Qoluda şəklində qalmaqdadır.

«VII əsr erməni coğrafiyası»nda gellərin (burada «gel» «xel» şəklində yazılmışdır) şilb (müasir avarların əcdadları hesab olunur) və tçiqblərin (müasir saxurların əcdadları) qonşuluğunda məskunlaşdığı qeyd edilir.

Gürcü mənbələrində isə her tayfaları və onların yaşadıqları Hereti vilayətinin adı çəkilir. XI əsr gürcü müəllifi Leonti Mroveli Qafqaz xalqları-

nın söykökü probleminə toxunarkən, onların əcdadı olan Tarqomasın altıncı oğlu Herosun herlərin əcdadı olduğunu göstərir: Atası Tarqomas mülklərini bölüşdürərkən, Herosa Kürdən şimalda Alazanın (Qanığın) mənsəbindən Tketbayadək (Qulqula) olan ərazini verdi. Heros hər iki Alazanın qovuşduğu yerdə şəhər tikdi və onu öz adı ilə Hereti adlandırdı. Tarqomas digər oğlu, gürcülərin əcdadı Kartlosa isə «Hereti və Berdudcidən qərbdəki əraziləri verdi». Bu məlumatdan göründüyü kimi, XI əsr gürcü müəllifi herləri gürcülərdən ayırır.

Qədim və orta əsr mənbələrinə əsaslanan müasir tədqiqatçılar isə herlərin gellər olduğunu qeyd edirlər.Onların yaşadıqları ərazidə isə Hereti-Şəki dövləti mövcud olmuşdur. XII əsrdə gürcü çarı Qurucu David gellərin yaşadıqları əraziləri işğal etdikdən sonra, burada mövcud olan Hereti - Şəki dövləti ləğv edilmişdir. Məhz bu dövrdən də gellərin gürcülər tərəfindən assimilyasiyası prosesi başlamışdır. Assimilyasiya nəticəsində gellər öz ana dillərini unutsalar da, etnik özünüdərk anlayışını qoruyub saxlamışlar. Elə buna görədir ki, ruslar Car-Balakən camaatlığını işğal etdikdən sonra, burada yerli əhali barədə məlumat toplayarkən, ingiloylar özlərini gürcü yox, məhz ingiloy kimi təqdim edirdilər.

Car-Balakən camaatlığının ərazisində yaşayan etnoslardan biri də saxurlardır. Onlar əsasən Cınıx icmasına daxil olan kəndlərdə (Mamrux, Gözbarax və s.) məskunlaşmışdılar. Q.Qeybullayev və E.Lətifovanın qeyd etdikləri kimi, saxurlar özlərini «yixbi» adlandırırlar. Q.Qeybullayev alban tayfalarından biri olan «ciqbi»ləri saxurların əcdadları hesab edir. E.Lətifova isə «Saxur» toponiminin etimologiyasını araşdıraraq, belə bir nəticəyə gəlir ki, bu ad iki komponentdən əmələ gəlmişdir: Sa – od (saxur və digər qonşu etnosların dilində) və xur – kənd (ləzgi dilində). Müəllif fikrini IV əsrdə xristianlıq qəbul edilənə qədər, Qafqaz Albaniyasının vilayətlərində atəşpərəstliyin mövcud olması ilə əsaslandırır. Daha sonra isə müəllif «Saxur» toponiminin etimologiyasının variantlarından birinin də türk tayfası saklarla (Sak-xur) bağlı ola biləcəyini göstərir.

Yuxarıda da qeyd etdiyimiz kimi, «Alban ittifaqını yaradan tayfalar»dan biri olan saklar Böyük Qafqaz dağlarının şimalı ilə cənubu arasında əlaqə yaradan aşırımlardan keçərək Azərbaycanın şimal-qərb ərazisinə də yayılmışlar. Bölgədəki sak məskənlərindən biri olan Sakasena (Şəki) Saxurun qonşuluğunda yerləşirdi. Eyni zamanda bölgənin «sak» etnonimi ilə bağlı olan digər toponimləri də - Zaqatala, - Sak (a) tala, Sakan dərə, Sakan sakların müasir Şəkidən Balakənə qədər uzanan ərazilərdə (saxurların yaşadıqları ərazilər də daxil olmaqla) məskunlaşdıqlarını göstərir. Çox güman ki, burada məskunlaşan sak tayfaları yerli tayfalarla qaynayıb-qarışmışlar. Eyni zamanda müasir saxurların etnogenezisində də yixbı tayfaları ilə yanaşı, mühüm rol oynamışlar.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Azərbaycan tarixi: 7 cilddə, III c., Bakı: Elm, 1999

2. Cavadova Z.Ə. Şimal-Qərbi Azərbaycan (tarixi-demoqrafik araşdırma). Bakı: Altay,1999
3. Cavadova Z.Ə. Şimal-Qərbi Azərbaycanın əhali tarixi və tarixi demoqrafiyası (XIX əsri əvvəlləri – 70-ci illəri). Bakı: Altay, 2002.
4. Əbubəkr Tehrani. Kitabi–Diyarbəkriyyə / Fars dilindən tərcümə edən R.Şükürova. Bakı: Elm,1998
5. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı:Azərbaycan Dövlət nəşriyyatı, 1993
6. Hacıəli Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar. Bakı: Təhsil, 2007
7. Kalankatuklu M. Albaniya tarixi. Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Z.Bünyadovundur. Bakı: Elm, 1993
8. Qarabağnamələr. I kitab. Bakı: Yazıçı, 1989.
9. Məmmədova A.Ə. Car-Balakən camaatlığı: yaranması, ərazisi, sərhədləri // AMEA Tarix İnstitutu Elmi əsərləri, 2007, XX c., s.161-178
10. Molla Məhəmməd əl-Cari. Car salnaməsi / Ərəbcədən tərcümə, giriş, şərhlər və qeydlər S.Süleymanovanındır. Bakı: Səda, 1997
11. Piriyev.V. Azərbaycanın etnik tarixində monqol dövrü // Altay dünyası. Bakı,1997, №1-2, s.69-77
12. Süleymanova S.A. Zaqatala Tarix-Diyarşünaslıq muzeyinin XVIII-XIX əsrlərə dair arxeoqrafik sənədləri // Azərbaycan EA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. Bakı: 1990, №4, s.50-55.
13. Şükürov K.K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı: Elm, 2004
14. Kaşğarlı Mahmut. Divanü lüğat-it-türk / Çeviren B.Atalay. 4 cildde, I-IV c. Ankara: Ankara Üniversitesi Basım Evi,1998-1999.
15. Айтберов Т.М.Закавказские аварцы: этнос, государственность, законы (VIII – начало XVIII вв.). ч.I. Махачкала, 2000
16. Акты, собранные Кавказской Археографической Комиссией (АКАК): В 12-ти т., т.1-12, Тифлис, 1866-1886
17. Армянская география VII века по Р.Х. (Приписывающая Моисею Хоренскому) / Перевод и примечания К.П.Патканова. СПб., 1877
18. Артомонов М.И. История Хазар. Л., Изд.Гос. Эрмитажа,1962
19. Багратиони Вахушти. История царства Грузинского. / Пер., пред. Н.Т.Накашидзе. Тбилиси, 1976
20. Бакиханов А. Гюлистан-и Ирам / Редакция, комментарии, прим. и указатели З.М.Буниятова. Баку: Элм, 1991
21. Бакрадзе Дм. Заметки о Закатальском Округе // Записки КОИРГО. вып.I, кн. XIV. Тифлис: 1890, с.248-281
22. Бартольд В.В. Сочинения, т.V, Москва: Наука, 1968
23. Берадзе Г.Г., Смирнова Л.П. Материалы по истории Ирано-грузинских взаимоотношений в начале XVII века. Тбилиси: 1988.
24. Брокгауз Ф.А., Ефрон И.А. Закатальский округ. // Энциклопедический словарь.т. XII, СПб., 1894
25. Броневский С. Новейшие географические и исторические известия о Кавказе. В 2-х ч.,ч.1, М., Типография С.Селивановского, 1823
26. Броневский С. Новейшая географическая и историческая известия о Кавказе. В 2-х ч., ч.2, М., Типография С.Селивановского, 1823

27. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. В 3-х т. ч. I-II, СПб.,1869
28. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку: Элм, 1991
29. ГИА Азербайджанской Республики: ф.10, оп.1, д.78; ф.15,оп.1, д.15, 47, ф.866, оп.2,д.1,2(а), 3, 11, 29, 30
30. Гумилев Л.Древние тюрки. М.: Айрис пресс, 2002
31. Гумилев Л.Тысячелетие вокруг Каспия. М.: Айрис пресс, 2002
32. Джафаров Ю. Гунны и Азербайджан. Баку: Азернешр, 1993
33. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. В. 6-ти т-х, т., 1 кн.1,т.2-4,СПб.,1871-1887
34. Закатальский Округ.// Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков населения Кавказа. Тифлис: Типография И.Мартиросианца, 1887
35. Зубарев Д.Е. Поездка в Кахетию, Тушетию, Пшавию, Хевсурию и Джаро-Белоканскую область. // Русский вестник, СПб,1841, №6, с.539-558
36. История народов Северного Кавказа (конец XVIII в.-1917г). / Под ред. А.Л.Нарочницкого. М., Наука, 1988
37. Кавказский календарь на 1850 год. Тифлис, Типог.Канцелярии Наместника Кавказского, 1851 год.
38. Кавказский календарь на 1878 год, изданный Главным Управлением Наместника Кавказского.
    Кавказский сборник. т. XII, XIV, XXIII, XXX, XXXII. Тифлис, 1888-1912
39. Константинов О.И. Джары-Белоканы до XIX столетия. // Сборник газ. «Кавказ» на 1846 г. Тифлис 2-3 1846.Сборник газеты «Кавказ» на 1846 г. Тифлис: Типография Канцел. Наместника Кавказа, 1847, №2-3, с.376-401.
40. Коцебу М.А. Сведения о Джарских владениях. 1826 г. /ИГЭД XVIII-XIX вв. Под редакцией М.О.Косвена и Х.М.Хашаева, М.: Изд.Вост.Лит., 1958, с.252-264
41. Краткие статистические сведение о Закатальском округе. Составлено Е.Кондратенко по данным отчета за 1894 г. И по др. Источникам / Записки КОИРГО. Кн.XIX, Тифлис, Грузинск. Изд.Товарищества Мартиросьян-ца и Шарадзе, 1897, с.39-50
42. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку: Изд. АН Азербайджанской ССР, 1948.
43. Летифова Э.М. Северо-западный Азербайджан: Илисуйское султанство. Баку: Алтай, 1999
44. Летопись Картли / Перевод, введение, примечания Г.В.Цулая. Тбилиси, Мецниереба, 1982
45. Линден В. Краткий исторический очерк былого общественно-политического и поземельного строя народностей, населяющих мусульманские районы Кавказского края // Кавказский календарь на 1917 г. Тифлис, 1916, с.296-310.
46. Мамедов Г.М. «Каиме» Бедреддинзаде Али-бея // Известия АН Азерб. Серия истории, философии, права, 1988, №3, с.71-73
47. Мамедова А. Из истории возникновения Джаро-Белоканских обществ // Азербайджан и азербайджанцы. Баку: Нурлан, 2006, № 5-12, с.197-208

48. Мамедова А. Авары в Азии, на Кавказе и в Европе / «От античности к возрождению» Материалы Международной Научно-Методической Конференции, Махачкала: Формат, 2007, с.69-71
49. Межкавказские политические и торговые связи Восточной Грузии (конец 60-х – начало 90-х годов XVIII в.). Документы и материалы. I вып./ Материал подобрал и подготовил к печати В.Н.Гамрекели. Тбилиси, Мецниереба, 1980.
50. Мильман А. Политический строй Азербайджана в XIX-начале XX веков, Баку: Азернешр, 1966
51. Мровели Леонти. Жизнь Картлийских царей / Пер. с древнегрузинского, предисловие и комментарии Г.В.Цулая. М., Наука, 1979
52. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку: Элм, 1993
53. О джарцах и о лезгинских племенах на Кавказе. Северная пчела, 1858, 6 июня, № 122
54. Петрушевский.И.П. Джаро-Белоканские вольные общества в первой трети XIX столетия. Махачкала, 1993.
55. Посербский А. Очерк Закатальского округа //Кавказский календарь на 1866 г. Тифлис, 1865, с.3-60
56. Рахмани А.Тарих-и Алам Арай-и Аббаси-как источник по истории Азербайджана. Баку: Изд. АН Азерб. ССР, 1960, 191 с.
57. Рукописный фонд ИИЯЛ им. Г.Цадасы АН Дагестанской Республики: Ф.1, оп.1, д.316, 329,1221,1353, 2659
58. Симокатта И. История / Пер. С.И.Кондратьева, М., Изд.Академии Наук СССР. 1957
59. Сборник сведений о Кавказских горцах, вып. 2, 5, 7, Тифлис, 1869-1871
60. Фон-Плотто А. Природа и люди Закатальскаго Округа // ССКГ. вып. IV, Тифлис,1870, с.1-62
61. Рашид ад-Дин. Сборник летописей. Пер. с персидского Л.А.Хетагурова, О.Н.Смирновой. Т.1, кн.I, II. М.-Л. Изд.АН СССР, 1952
62. Хасан-Джалалян Есаи. Краткая история страны Албанской (1702-1722 гг.). Баку: Элм, 1989
63. Хроника войн Джара в XVIII столетии / Под редакцией В.Хулуфлу. Баку: 1931
64. ЦГИА Грузинской Республики: Ф.236, оп.2,д. 6,8,13,22, 27, 37, 38, 40, 87, 88.
65. Яишников Т.Н. Выдержки из описания Лезгино-Джарских вольных обществ. 1830 г. / ИГЭД XVIII-XIX вв. Под редакцией М.О.Косвена и Х.М.Хашаева, М.: Изд.Вост.Лит., 1958, с.300-303
66. Шопен И. Новые заметки на древния истории Кавказа и его обитателей. С-Петербург, Типография Н.Тиблена и комп. Н.Неклюдова, 1866, с.359-417.
67. Altbeim F. Geshichte der Hunnen. Bd.1. Berlin, 1960.

# ŞƏKİ XANLIĞININ ƏHALİSİ*

Şəki Azərbaycanın qədim siyasi, iqtisadi və mədəni mərkəzlərindən biri olmuşdur. Orta əsrlərə dair mənbələrdə onun adı Şəkə, Şaki, Şaka, Şakki, Şakke, Şekən, Şakkan, Şəkkin kimi müxtəlif şəkillərdə işlənmişdir. Müxtəlif vaxtlarda Şəki Nuxa da adlandırılmışdır.

Şəki adının mənşəyi barədə fikirlərə gəldikdə, göstərmək lazımdır ki, Şəki toponimi skif-saklarla bağlanılır. Herodota görə, Şimali Qafqazda yaşayan skiflər-saklar e.ə.VII əsrdə Dərbənd keçidi vasitəsilə Cənubi Qafqaza gəlmiş, oradan isə Kiçik Asiyaya hücum etmişlər. Həmin ərazidə Skif çarlığı yaranmışdır. K.V.Trever I minilliyin sonunda alban ittifaqını yaratmış tayfalardan birinin də saklar olduğunu qeyd edir. Saklar Şəki ərazisində məskun idilər.

Şəki paytaxt Qəbələnin yaxınlığında yerləşməsi strateji əhəmiyyətini daha da artırırdı. Təsadüfi deyil ki, 705-ci ildə tarix səhnəsindən silinmiş Albaniya dövlətinin yenidən bərpası cəhdləri də məhz burada edilmişdi. IX əsrdə Azərbaycan ərazisində meydana gəlmiş feodal dövlətlərindən yalnız Şəki «bərpa olunmuş Alban padşahlığı» adlandırılırdı. M.Kalankatuklunun Albaniya padşahlığı, gürcü mənbələrində Hereti, ərəb mənbələrində isə Şəki adlandırılan bu dövlətin əsası 866-cı ildə qoyulmuşdur.

XII əsrin əvvəllərində özünü Abxaz-Kartli hökmdarı elan etmiş Qurucu David (1089-1125) Şəkini tabe etmək məqsədilə yürüşlər edir. Nəticədə 1117-ci ildə Şəki dövləti süqut edir. Lakin Şəkinin Abxaz-Kartli çarından asılılığı Qurucu Davidin ölməsilə başa çatır. Bundan sonra Şəki hakimlik statusu ilə tarix səhnəsində yolunu davam etdirir. 1551-ci ildə Şəki hakimliyi vahid Azərbaycan Səfəvilər dövlətinin tərkibinə daxil edilir.

XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin tənəzzülü prosesinin güclənməsi dövlətin bütün vilayətlərində olduğu kimi, Şəkidə də müstəqillik meyllərinin güclənməsinə səbəb olur. 1743-cü ildə Hacı Çələbi xan Şəki xanlığının əsasını qoyur. Qeyd edək ki, Şəki xanlığı 1747-ci ildə Nadir şahın ölümündən sonra kütləvi şəkildə meydana gələn xanlıqlardan 4 il əvvəl öz müstəqilliyini qazanmışdı.

1743–1819-cu illərdə mövcud olmuş Şəki xanlığı Azərbaycanda yaranmış xanlıq və sultanlıqlar arasında ən qüdrətlisi idi.

---

* Material bölmənin 2000-ci il üçün hesabat, bölmənin dissertantı olmuş t.e.n. Z.Ə.Cavadovanın "Şimal-Qərbi Azərbaycanın əhali tarxi və tarixi demoqrafiyası (XIX əsrin əvvəlləri – 70-ci illəri)" və "Şimal-Qərbi Azərbaycan (tarixi-demoqrafik araşdırma)" monoqrafiyaları əsasında hazırlanmışdır.

1805-ci il mayın 21-də Şəki xanı Səlim xanlığın Rusiya imperiyasının himayəsi altına keçməsi barədə Kürəkçay müqaviləsinə imza atır. Bununla da Şəki xanlığı idarəçilik məsələlərində Rusiyadan asılı vəziyyətə düşür. Müqavilənin şərtlərinə görə, xan öz tədbirlərini xanlıqda olan çar məmuru ilə razılaşdırmalı, qonşu xanlıqlarla əlaqəsi barədə Qafqaz qoşunlarının baş komandanına məlumat verməli idi. Ümumiyyətlə, xan buradakı çar qarnizonu rəisindən siyasi baxımdan tam asılı idi. 1806-cı ildə Rusiya hökuməti ona itaət etməkdən imtina edən Səlim xanı öz hüquqlarından məhrum edərək, yerinə yenicə Rusiyanın himayəsini qəbul etmiş Cəfərqulu xan Dünbülüni təyin edir. Beləliklə, 1806-cı ildən Hacı Çələbinin nəslindən olan nümayəndələr xan olmaq hüququnu itirirlər. 1819-cu ildə isə Şəki xanlığı tamamilə ləğv edilir və yerində eyni adlı əyalət yaradılır.

**Ərazi.** Şəki xanlığının ərazisi şimal-qərbdə Dağıstan və İlisu sultanlığı, qərbdə Gəncə xanlığı, şimal-şərqdə Quba xanlığı, şərqdə Şamaxı xanlığı, cənubda Qarabağ xanlığı ilə həmsərhəd idi. Qutqaşın, Ərəş və Qəbələ sultanlıqları Şəki xanlığından asılı idi.

Xanlığın mərkəzi Şəki şəhəri idi. 1772-ci ildə Kiş çayının daşması nəticəsində qədim Şəki şəhəri demək olar ki, tamamilə məhv olmuş, şəhər əhalisinin bir hissəsi məhv olmuş, bir hissəsi köçüb getmiş, bir hissəsi isə indiki şəhərin yerləşdiyi ərazidə məskən salmışdı.

Xanlığın ərazisi 8 mahala – Şəki, Xaçmaz, Qutqaşın, Ərəş, Padar, Ağdaş, Alpout və Göynük[1] – bölünmüşdü. Onlar xan tərəfindən təyin edilmiş mahal naibləri tərəfindən idarə edilirdi. Hər mahal kəndlərdən ibarət idi. Bu kəndləri yüzbaşılar və ya kəndxudalar idarə edirdilər.

**Əhali**. Şəki xanlığının əhalisi haqqında ilk məlumat 1804-cü ilə aiddir. Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında (AKAK) verilən məlumata görə, həmin ildə Şəki xanlığında 15.000 həyət, 75.000 əhali var idi. 1805-ci ildə isə burada 20.000 həyətin olduğu göstərilir. 1819-cu ildə Şəki xanlığı ləğv edildikdən sonra əraziyə gələn general-leytenant Axverdov və mülki müşavir Mogilevski tərəfindən tərtib edilmiş kameral təsvirə görə Şəki xanlığında 229 kənd olmuşdur. Şimal-Qərbi Azərbaycanın əhalisini öyrənmiş Z.Cavadovanın fikrincə Şəki əyalətinin əhalisinin sayını göstərən rəqəmlər Car-Balakən camaatlığı və İlisu sultanlığı ilə müqayisədə daha dəqiqdir.

Xanlığın əhalisini öyrənmək üçün istifadə edə biləcəyimiz qaynaq xanlıq idarə üsulunun ləğvindən beş il sonra, yəni 1824-cü ildə keçirilmiş kameral təsvirdir. Z.Cavadovanın 1824-cü il kameral siyahıyaalmasına əsasən apardığı hesablamaya görə, həmin ildə Şəki xanlığının yerində yaradılmış eyni adlı əyalətdə 270 kənd, 21.791 həyət olmuşdur. Xanlığın ərazisində hər iki cinsdən 98.231 nəfər yaşayırdı. Orta hesabla hər həyətə düşən adamların sayı Şəki mahalında 4,6, Ağdaşda 4,4, Qutqaşında 4,6, Bumda 4,7,

---

[1] 1824-cü il kameral təsvirində 8-ci mahal Göynük yox, Bum göstərilmişdir. Həmin mahala 20 kənd daxil idi.

Ərəşdə 4,2, Padarda 4,5, Alpoutda 4,4, Xaçmazda 4,6 nəfər olmuşdur. Əyalətdə kəndlər üzrə həyətlərin sayı 3 (Köçəri Uruk Sərkər) – 842 (Xaçmaz) arasında dəyişir. 208 kənddə həyətlərin sayı orta göstəricidən aşağı, 62 kənddə isə yuxarıdır. 31 kənddə həyətlərin sayı 100-dən, 8 kənddə 200-dən, 2 kənddə 300-dən, 3 kənddə 400-dən, 2 kənddə 600-dən, 1 kənddə 700-dən, 1 kənddə 800-dən çoxdur. Əyalətdə orta hesabla hər həyətə düşən adamların sayı 2,3-5,9 arasında dəyişir. Kəndlər üzrə əhalinin sayı 12-3.866 arasında dəyişir.

Cədvəl 1

Şəki əyalətinin əhalisinin həyətlər və cinslər üzrə təsnifatı
(1824-cü il kameral təsvirinin məlumatına əsasən)

| № | mahallar | kəndlər | həyət | əhali | | hər iki cins |
|---|---|---|---|---|---|---|
| | | | | kişi | qadın | |
| | Şəki şəhəri | | 3.073 | 7.388 | 6.553 | 13.941 |
| 1. | Şəki mahalı | 89 | 7.463 | 17.979 | 15.813 | 33.792 |
| 2. | Ağdaş mahalı | 34 | 1.299 | 2.934 | 2.775 | 5.709 |
| 3. | Qutqaşın mahalı | 36 | 2.809 | 6.972 | 5.984 | 12.956 |
| 4. | Bum mahalı | 20 | 1.630 | 3.995 | 3.515 | 7.510 |
| 5. | Ərəş mahalı | 27 | 1.124 | 2.441 | 2.263 | 4.704 |
| 6. | Padar mahalı | 14 | 703 | 1.646 | 1.461 | 3.107 |
| 7. | Alpout mahalı | 24 | 1.076 | 2.519 | 2.196 | 4.715 |
| 8. | Xaçmaz mahalı | 26 | 2.614 | 6.248 | 5.549 | 11.797 |
| | Cəmi | 270 | 21.791 | 52.122 | 46.109 | 98.231 |

Əyalətdəki 8 mahaldan (Şəki, Ərəş, Ağdaş, Padar, Alpout, Qutqaşın, Xaçmaz və Bum) ən böyüyü olan Şəki idi. Şəki mahalında 89 kənd, 7.463 ev var idi və hər iki cinsdən 33.792 nəfər yaşayırdı. Mahalın ən böyük kəndləri Göynük, Kiş, Oxut, Biləcik, Vartaşın, İnçə, Dəhnə, Layısqı, Daşağıl, Zəyzid, Güngüt və b. idi.

Cədvəl 2

Şəki əyalətinin Şəki mahalı üzrə həyətlərin sayı və əhalinin cinslər üzrə bölgüsü (1824-cü il kameral təsvirinin məlumatına əsasən)

| № | kəndlər | həyət | əhali | | hər iki cins | orta hesabla hər həyətə düşən adamların sayı |
|---|---|---|---|---|---|---|
| | | | kişi | qadın | | |
| 1 | Çanaqbulaq | 42 | 107 | 107 | 214 | 5,1 |
| 2 | Çarxana | 19 | 44 | 31 | 75 | 3,9 |
| 3 | Qaradeyin | 14 | 30 | 24 | 54 | 3,8 |
| 4 | Savalan | 14 | 24 | 21 | 45 | 3,2 |
| 5 | Kürd (köcəri) | 56 | 163 | 126 | 289 | 5,2 |
| 6. | Calut | 232 | 542 | 506 | 1.048 | 4,6 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 7. | Qarabaldır | 55 | 120 | 106 | 226 | 4,2 |
| 8. | Yaqublu | 13 | 42 | 29 | 71 | 5,5 |
| 9. | Səlibəy | 23 | 60 | 44 | 104 | 4,6 |
| 10. | Köçəri oba | 59 | 127 | 137 | 264 | 4,5 |
| 11. | Zərrab | 61 | 143 | 111 | 254 | 4,2 |
| 12. | Covlan | 25 | 58 | 34 | 92 | 3,7 |
| 13. | Vartaşın | 657 | 1.646 | 1.507 | 3.153 | 4,8 |
| 14. | Kiçik Haputlu | 24 | 65 | 52 | 117 | 4,9 |
| 15. | Muxas | 132 | 297 | 264 | 561 | 4,4 |
| 16. | Yenikənd | 35 | 76 | 75 | 151 | 4,4 |
| 17. | Osmanlı | 28 | 58 | 47 | 105 | 3,1 |
| 18. | Daşağıl | 227 | 521 | 481 | 1.002 | 4,5 |
| 19. | Şahabbas | 37 | 87 | 69 | 156 | 4,3 |
| 20. | Böyük Haputlu | 80 | 196 | 164 | 360 | 4,5 |
| 21. | Malux | 37 | 69 | 58 | 127 | 3,5 |
| 22. | Məlikyar | 15 | 32 | 34 | 66 | 4,4 |
| 23. | İbrahimkənd | 31 | 68 | 68 | 136 | 4,4 |
| 24. | Kəldək | 114 | 249 | 212 | 461 | 4,1 |
| 25. | Qurdlarbayan | 32 | 72 | 66 | 138 | 4,4 |
| 26. | Oravan | 10 | 36 | 22 | 58 | 5,8 |
| 27. | Əlyar | 62 | 144 | 119 | 263 | 4,3 |
| 28. | Şaykəndi | 27 | 50 | 52 | 102 | 3,8 |
| 29. | Hacalı | 26 | 63 | 48 | 111 | 4,3 |
| 30. | Ağpiləkənd | 119 | 278 | 229 | 597 | 4,3 |
| 31. | Cücəmiş | 124 | 320 | 287 | 607 | 4,9 |
| 32. | Məclis | 52 | 134 | 115 | 249 | 4,8 |
| 33. | Evoğlu | 30 | 64 | 75 | 139 | 4,7 |
| 34. | Aydınbulaq | 31 | 68 | 43 | 111 | 3,6 |
| 35. | Fazıl | 30 | 69 | 54 | 123 | 4,1 |
| 36. | Fəxrəli | 62 | 152 | 139 | 291 | 4,7 |
| 37. | Qaraqoyunlu | 102 | 284 | 264 | 548 | 5,4 |
| 38. | Köçəri Mürsəluşağı | 10 | 31 | 23 | 54 | 5,4 |
| 39. | Seyrəngah | 5 | 10 | 12 | 22 | 4,4 |
| 40. | Binələr | 78 | 209 | 163 | 372 | 4,8 |
| 41. | Salbanlar | 28 | 60 | 63 | 123 | 4,4 |
| 42. | Köçəri Məm-mədzamanlı | 21 | 56 | 44 | 100 | 4,8 |
| 43. | Küngüt | 410 | 971 | 843 | 1.814 | 4,5 |
| 44. | Qaraməryəmli | 14 | 27 | 18 | 45 | 3,3 |
| 45. | Yaramal | 10 | 24 | 24 | 48 | 4,8 |
| 46. | Çayqırağı | 28 | 56 | 56 | 112 | 4 |
| 47. | Zəyzid | 304 | 715 | 667 | 1.382 | 4,6 |
| 48. | Hüseynəli | 32 | 77 | 62 | 139 | 4,4 |
| 49. | Xanqaraqobu | 22 | 42 | 31 | 73 | 3,4 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 50. | İpəkli | 4 | 11 | 5 | 16 | 4 |
| 51. | Qaraqobu | 18 | 33 | 22 | 55 | 3,1 |
| 52. | Göybulaq | 134 | 358 | 284 | 642 | 4,8 |
| 53. | Güllüdağ | 18 | 35 | 38 | 73 | 4,1 |
| 54. | Cəfərabad | 117 | 267 | 202 | 469 | 4,1 |
| 55. | Çolaxlı | 35 | 77 | 80 | 157 | 4,5 |
| 56. | Göybəyli | 34 | 68 | 66 | 134 | 4 |
| 57. | Köçəri Axullu | 7 | 18 | 15 | 33 | 4,8 |
| 58. | Köçəri Şirinbəyli | 14 | 35 | 27 | 62 | 4,5 |
| 59. | Böyük Dəhnə | 201 | 485 | 442 | 927 | 4,7 |
| 60. | Suçma | 51 | 125 | 121 | 246 | 4,9 |
| 61. | Kiçik Dəhnə | 186 | 428 | 366 | 794 | 4,3 |
| 62. | Daşbulaq | 158 | 332 | 298 | 630 | 3,9 |
| 63. | Tərəkəmə | 12 | 24 | 26 | 50 | 4,2 |
| 64. | Küdürlü | 15 | 28 | 30 | 58 | 3,9 |
| 65. | Tonbal | 12 | 23 | 19 | 42 | 3,5 |
| 66. | Əhmədbəyli | 15 | 32 | 23 | 55 | 3,7 |
| 67. | Cəyirli | 11 | 28 | 26 | 54 | 5 |
| 68. | Oyrat | 10 | 25 | 23 | 48 | 4,8 |
| 69. | Köçəri Ərəbşəkili | 80 | 237 | 206 | 443 | 5,6 |
| 70. | Qudula | 90 | 209 | 182 | 391 | 4,4 |
| 71. | Qaradağlı | 36 | 64 | 65 | 129 | 3,6 |
| 72. | Babaratma | 57 | 131 | 116 | 247 | 4,4 |
| 73. | Qaratala | 13 | 27 | 24 | 51 | 3,9 |
| 74. | Göynük | 739 | 1.825 | 1.608 | 3.433 | 4,7 |
| 75. | Layısqı | 195 | 533 | 454 | 987 | 5,1 |
| 76. | Baş Şabalıd | 39 | 101 | 93 | 194 | 5 |
| 77. | Aşağı Şabalıd | 178 | 423 | 385 | 808 | 4,6 |
| 78. | Aşağı İnçə | 123 | 292 | 282 | 574 | 4,7 |
| 79. | Yuxarı İnçə | 133 | 295 | 266 | 561 | 4,3 |
| 80. | Qaraçı | 28 | 58 | 48 | 106 | 3,8 |
| 81. | Biləçik | 350 | 840 | 736 | 1.576 | 4,6 |
| 82. | Oxud | 230 | 577 | 457 | 1.034 | 4,5 |
| 83. | Dodu | 63 | 195 | 173 | 368 | 5,9 |
| 84. | Kiş | 273 | 681 | 588 | 1.269 | 4,7 |
| 85. | Şin | 61 | 157 | 146 | 303 | 5 |
| 86. | Mirzəcəmilli | 8 | 21 | 17 | 38 | 4,8 |
| 87. | Köçəri Mahmudağa | 7 | 14 | 12 | 26 | 3,8 |
| 88. | Köçəri Aslan bəy | 6 | 24 | 11 | 35 | 5,9 |
| 89. | Köçəri Uruk Sərkər | 3 | 7 | 5 | 12 | 4 |
| **Yekun: mütləq** | | **7.463** | **17.979** | **15.813** | **33.792** | **4,6** |
| %-lə` | | | 53,2% | 46,8% | 100% | |

**Etnik tərkib.** 1824-cü ildə Şəki əyalətində yaşayan əhalinin 82,7%-ni türklər, 15,6%-ni ermənilər, 0,7%-ni gürcülər, 1%-ni yəhudilər təşkil edirdi.

Cədvəl 3

1824-cü ildə Şəki əyalətində yaşayan əhalinin etnik tərkibi

| № | mahallar | Türklər | | Ermənilər | | Gürcülər | | Yəhudilər | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın |
| | Şəki şəhəri | 6.608 | 5.825 | 770 | 738 | - | - | - | - |
| 1. | Şəki mahalı | 13.349 | 11.780 | 3.710 | 3.199 | 368 | 338 | 539 | 509 |
| 2. | Ağdaş mahalı | 2.934 | 2.775 | - | - | - | - | - | - |
| 3. | Qutqaşın mahalı | 5.840 | 5.018 | 1.132 | 966 | - | - | - | - |
| 4. | Bum mahalı | 2.694 | 2.399 | 1.301 | 1.116 | - | - | - | - |
| 5. | Ərəş mahalı | 2.058 | 1.761 | 445 | 440 | - | - | - | - |
| 6. | Padar mahalı | | 1.646 | 1.461 | - | - | - | - | - |
| 7. | Alpout mahalı | 2.430 | 2.118 | 89 | 78 | - | - | - | - |
| 8. | Xaçmaz mahalı | 5.630 | 4.903 | 628 | 636 | - | - | - | - |
| | Cəmi | 43.189 | 38.040 | 8.075 | 7.173 | 368 | 338 | 539 | 509 |

Ermənilərin Şəkiyə köçüb gəlməsi XIX əsrin əvvəllərinə təsadüf edir. 1806-cı il dekabrın 10-da Şəki xanı təyin edilmiş Xoylu Cəfərqulu xan (1806-1814) özü ilə buraya 1.000 erməni ailəsi gətirmişdir. Yerli sakinlərin evlərində məskunlaşdırılmış bu erməni ailələrinin özbaşınalıqları, məskunlaşdıqları evlərin həqiqi sakinlərini malını-mülkünü mənimsəmə halları şəkililərin Cəfərqulu xana qarşı qalxmasına səbəb olmuşdur. Ona görə də general N.F.Rtişev Cəfərqulu xanın oğlu İsmayıl xana məktubunda erməniləri burada saxlamaq üçün mütləq onların yerli sakinlərin evlərindən çıxarılmasının və boş torpaqlarda evlər tikilməsini vacib sayırdı.

Udinlər əsasən əyalətin Vartaşın və Nic kəndlərində yaşayırdı. Qeyd edək ki, udinlər qədim Azərbaycan dövləti Albaniyanın ərazisində yaşayan 26 tayfadan biri olmuşdur. XIX əsrdə udinlər Nic, Vartaşın, Vardanlı, Mirzəbəyli, Sultan-Nuxa, Girzan, Corlu, Malıx, Yenikənd kəndlərində yaşamışlar. Rusiya udinlər arasında xristianlığın geniş yayılmasına xüsusi diqqət yetirirdi. 1743-1860-cı illərdə fəaliyyət göstərmiş Osetin Ruhani Komissiyası adlı missioner cəmiyyət xristianlığı yaymaq məqsədilə buraya keşişlər göndərir, kilsələr tikdirir, dini kitablar yayır və b. tədbirlər görürdü.

Qeyd etmək lazımdır ki, Şəki xanlığının əhalisinin say dinamikasına və tərkibinə **miqrasiyalar** təsir göstərmişdir. Məlumatlara görə, Şəki mahalının iki kəndində – Daşağılda 45, Şin kəndində 61 ləzgi[1] adlandırılan saxur ailəsi yaşayırdı.

Daşağıl kəndində yaşayan saxurlar Şəki xanı Məhəmmədhəsən xanın hakimiyyəti dövründə çox güman ki, xana hərbi xidmət göstərmək şərtilə burada məskunlaşmışlar. Çünki, Məhəmmədhəsən xan hərbi yürüşlərdə onların atlı dəstələrindən istifadə edirdi. Həmin ailələr isə bunun müqabilində dövlət xəzinəsinə vergilərdən azad edilmişdilər.

Şin əsası daha gec qoyulmuş kəndlərdəndir. 1819-cu il siyahıyaalmasında bu kəndin adı çəkilmir. Lakin buna baxmayaraq, Z.Cavadova belə hesab edir ki, Dağıstandan gəlmiş ləzgilər Cəfərqulu xanın hakimiyyəti dövründə kəndin əsasını qoymuşlar.

Arxiv sənədlərindən məlum olur ki, Şin kəndinin əsasının qoyulduğu torpaqlar Gəray bəyə məxsus olmuşdur. Bəyin torpağında məskunlaşan ləzgilər (saxurlar) əkmək üçün istifadələrinə verilən torpaqdan əldə olunan məhsulun onda bir hissəsini ona vergi verirdilər.

XIX əsrin əvvəllərində Şəki mahalında yaşayan əhalinin içərisində Qarabağ və Şirvandan olan ailələr də var idi. Bu ailələr mahalda köç yerləri – Köçəri oba, Kiçik Haputlu, Böyük Haputlu, Salbanlar, Köçəri Mahmud ağa, Köçəri Aslan bəy, Köçəri Uruk Sərkər, Köçəri Axullu, Şirinbəyli və s. salmışdılar.

Şəki xanlığının ərazisinə qarabağlı ailələrin kütləvi axını XVIII əsrin sonu – XIX əsrin əvvəllərində başlamışdı. Belə ki, XVIII əsrin sonunda Ağa Məhəmməd şah Qacarın Qarabağa yürüşü zamanı bir çox ailələr xanlığın ərazisini tərk edərək müxtəlif yerlərə köçmüşlər. Həmin ailələrin bir hissəsi Şəki xanlığının ərazisində məskunlaşmışdır. Eyni zamanda I Rusiya-İran müharibəsi dövründə də öz yaşayış yerlərini tərk edərək daha təhlükəsiz yerlərə qaçan qarabağlı ailələrin Şəki xanlığının ərazisində məskunlaşması qeydə alınmışdır. General-mayor Kotlyarevskinin Qafqazdakı rus ordusunun baş komandanı general Rtişevə 1812-ci il 30 sentyabr tarixli raportunda təkcə həmin ildə Qarabağdan Şəki xanlığına 1.000 ailənin gəldiyi barədə məlumat verilir.

Bu ailələrin bir hissəsi I Rusiya-İran müharibəsi başa çatdıqdan sonra Qarabağa geri qaytarılırlar. Qarabağ xanı Mehdiqulu xan həmin ailələri geri qaytarmaq üçün öz yaxın adamları Gülməmməd bəyi və Ağa Sadıq bəyi Şəkiyə Cəfərqulu xanın yanına göndərmişdi. Bu səbəblərlə yanaşı ağır vergi

---

[1] Şəki xanlığının, İlisu sultanlığının və Car-Balakən camaatlığının əhalisi barədə XIX əsrin I yarısına aid statistik məlumatların əksəriyyətində bu cür yanlışlıqlar mövcuddur. Statistik məlumatlar toplayan rus məmurları dağlı xalqlarının əksəriyyətini ləzgi adı altında qeydə alırdılar. Daşağıl və Şin kəndlərində yaşayan və statistik məlumatlarda ləzgi adlandırılan əhali əslində rutullular idi.

də əhalinin öz yaşayış yerlərini tərk etməsinə səbəb olurdu. Şəkidə qarabağlı ailələrin məskunlaşması səbəbləri arasında bu da var idi.

Şəki xanlığında **əhali sosial tərkibinə** görə 3 yerə bölünürdü: 1) ali zümrə – xan, ağa,sultan, bəy; 2) kəndlilər – rəiyyət, rəncbər; 3) tacir və sənətkarlar.

Bütün xanlıqlarda olduğu kimi Şəki xanlığında da xan qeyri-məhdud hakimiyyətə malik idi. O ölüm hökmü verə bilər və ya ölüm hökmü verilmiş adamı bağışlaya bilərdi. Yuxarıda qeyd olunduğu kimi, Şəkinin ilk xanı Hacı Çələbi (1743-1755) olmuşdur. Hacı Çələbinin ölümündən sonra hakimiyyət onun oğlu Ağakişi bəyə, onun ölümündən sonra isə Hüseyn xana keçmişdi. 1779-cu ildə Hüseyn xanın ölümündən sonra hakimiyyət Əbdülqadirə, 1781-ci ildə Məhəmmədhəsən xana, 1795-ci ilin dekabrında isə Səlim xana keçdi.1806-cı ildə Səlim xan Rusiya hökumətinə qarşı çıxdığına görə hakimiyyətdən məhrum oldu. Nəticədə Rusiya Şəki xanlığının idarəsini Xoylu Cəfərqulu xan Dünbülüyə tapşırdı. Çarizmin maraqlarını qorumağa hazır olan Cəfərqulu xana general-leytenant rütbəsi verildi. 1814-cü ildə onun ölümündən sonra hakimiyyətə oğlu İsmayıl xan gəlir. 1819-cu ildə İsmayıl xanın ölümündən sonra Şəkidə xanlıq idarə üsulu ləğv edilmişdir.

Xanlardan sonrakı yerləri xana tabe olan, müəyyən əraziyə başçılıq edən sultanlar və məliklər tuturdular. Xanlıqda cəmi iki sultan – Qəbələ və Ərəş sultanları var idi. Xalq arasında nüfuz sahibi olan sultanlar cəza vermək, cərimə etmək ixtiyarında idilər və bir qayda olaraq mahallardan gələn gəlir hesabına yaşayırdılar. Onlar öz hərəkətləri barədə nadir hallarda xana hesabat verirdilər. Sultanların hüquq və vəzifələri digər bəylərlə eyni idi. Lakin onlar yığıncaqlar zamanı başqa bəylərdən fərqli olaraq ön sırada otururdular. Xan isə ən mühüm tapşırıqları məhz onlara həvalə edirdi. Sultan titulu yalnız xanın icazəsi və razılığı ilə atadan oğula irsən keçə bilərdi. Məliklərin başlıca vəzifəsi isə xan tərəfindən müəyyən edilmiş vergilərin vaxtlı-vaxtında yığılması və mükəlləfiyyətlərin yerinə yetirilməsinə nəzarət etmək idi. Şəki xanlığında feodal iyerarxiyasının sonrakı pilləsində mülkədar bəylər, tiyuldar bəylər və ağalar dururdular. Tarixçilər maafları da bu qrupa daxil edirlər. Lakin «Şəki xanlığı» monoqrafiyasının müəllifləri M.İsmayılov və M.Bağırova bu fikirlə razılaşmırlar. Onların fikrincə, maaflardan bəzilərinin xüsusi xidmətinə görə hətta bəylik rütbəsi almaqlarına, feodallara xidmət müqabilində (əsasən qoşun dəstələrində) müəyyən güzəştlər əldə etmələrinə baxmayaraq, vergi və mükəlləfiyyətlərdən azad olunmuş kəndlilər olduqlarından bu qrupa aid edilməkləri doğru deyil.

Azərbaycanın XVIII əsr tarixini tədqiq etmiş V.N.Leviatovun 1824-cü il siyahıyaalmasının materiallarına əsasən apardığı hesablamalara görə, maafların sayı 6.250 nəfər olub, vergi verən əhalinin, yəni kəndlilərin 7 %-ni təşkil etmişdir. Şəki xanlığında maaflar Qarabağ və Quba xanlıqlarına nisbətən az idi.

Şəkidə xanlıq idarə üsulu ləğv edildikdən sonra maafların vəzifələri dayandırıldı. Bu zümrə bir müddət əvvəlki kimi vergi və mükəlləfiyyətlərdən

azad edilməsinə baxmayaraq, uzun müddət heç bir xidmətə cəlb olunmurlar. Yalnız 1834-cü ildə Varşavaya göndərilmək üçün müsəlman atlı polku təşkil edilərkən maafların bir hissəsi bu polkun tərkibinə daxil edilir.

Tədqiq edilən dövrdə Azərbaycanın digər ərazilərində olduğu kimi Şəki xanlığında da əhalinin sosial tərkibində kəndlilər mühüm yer tuturdu. Özünün pay torpağı olub, bu və ya digər mülkədara və ya tiyaldara torpaqdan istifadə müqabilində vergi ödəyən və mükəlləfiyyətlər daşıyan kəndlilər rəiyyət adlanırdılar. Rəiyyətlər öz sahiblərinə – xanlara, bəylərə müxtəlif vergilər ödəməli idilər. Bu vergilərdən ən geniş yayılmışı malcəhət vergisi idi. Kəndlilər topladıqları taxılın 1/5-dən 1/3-nə qədərini öz sahibkarına verməli idilər. Malcəhət bəzi xanlıqlarda bəhrə, Şəki xanlığında isə malcəhətin pulla ödənilən hissəsi töycü adlanırdı.

Rəncbərlər isə torpaq payı olmayıb, bu və ya digər bəyin, yaxud xanın təsərrüfatında işləməyə məcbur olan və bunun müqabilində müəyyən pay alan kəndlilər idi. XVIII əsrin sonlarında xanın, Şəki xanlığının 26 kəndində yerləşən tut bağlarında 3.280 rəncbər işləyirdi. Onlar xanlığın Xanabad və Cəfərabad kəndlərinin sakinlərinin böyük əksəriyyətini təşkil edirdilər. Cəfərabad rəncbərinin hər biri ildə bir kürk, üç tağar buğda, iki tağar çəltik və 40 manat pul alırdı. Mülkədar və tiyuldarın icazəsi ilə onlar bir təsərrüfatdan digərinə keçir, xan isə xüsusi fərmanı ilə onları yeni sahiblərinə təhkim edirdi. Şəkidə kasıblaşmış rəiyyətlərdən bəzilərinin öz xüsusi əmlakını güclü bəylərdən kiməsə sataraq, həmin bəyin rəncbərinə çevrilməsi hallarına da rast gəlinirdi.

Burada ayrı-ayrı bəylərə məxsus köçəri kəndlilər də mövcud olmuşdur.

Əhalinin sosial tərkibində «üçüncü zümrə» nümayəndələri hesab olunan tacirlər və sənətkarlar da xüsusi yer tuturdu. Şəki əyalətində tacirlər öz kapitalına görə üç qrupa bölünürdü: I qrupa iri tacirlər daxil idi. Onlar Rusiya və İranla ticarət edir, xəzinəyə pul və mustamira adlanan taxıl vergisi ödəyirdilər. Bu tacirlər əsasən taxıl və ipək ticarəti ilə məşğul olurdular; II qrup tacirlər sayca çox deyildilər. Onlar da xəzinəyə pul və mustamira adlanan taxıl vergisi ödəyirdilər; III qrup tacirlər əyalətin özündə ticarətlə məşğul olurdular. Onlar Şəki tacirlərindən müxtəlif mallar alıb-satırdılar.

Nəhayət xırda ticarətlə məşğul olan alverçilər və sənətkarlar da var idi. 1824-cü il məlumatına əsasən şəhərdə 503 nəfər I, 389 nəfər II, 138 nəfər III qrupa daxil olan tacir, həmçinin 4.141 nəfər xırda alverçi və sənətkar var idi. Qeyd edək ki, Şəkidə sənətkarların çoxu öz malların bilavasitə özü satır, xırda alverlə məşğul olurdular. 1824-cü ilin statistik məlumatına əsasən Şəkidə 400-dən çox dükan və həftə bazarı var idi. Təkcə şəkili Məhəmmədhəsən xanın şəxsən özünə məxsus dükanların sayı 264 idi.

Cədvəl 4

1824-cü ildə Şəki əyalətinin əhalisinin sosial tərkibi

| mahallar | Ali müsəlman silki | | | | Kəndlilər | | | | | | maaflar | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Bəylər | | Ruhanilər | | Dövlət | | Sahibkar | | Rəncbər | | | |
| | Mütləq | Yekun Nis. | Mütləq | Yekun Nis. | Mütləq | Yekun Nis. | Mütləq | Yekun Nis. | Mütləq | Yekun Nis. | Mütləq | Yekun Nis. |
| Şəki şəh. | 153 | 1,09% | 417 | 35 | 12.271 | | | | 45 | 0,32% | 109 | 0,78% |
| Şəki | 82 | 0,24% | 649 | 1,92% | 28.675 | 84,8% | 3.469 | 10,2% | 501 | 1,48% | 416 | 1,23% |
| Ərəş | 109 | 2,31% | 182 | 3,86% | 3.136 | 66,6% | 540 | 11,47% | 627 | 13,32 % | 110 | 2,33% |
| Bum | 445 | 5,92% | 366 | 4,87% | 4.519 | 60,17% | 612 | 8,14% | 361 | 4,80% | 1.207 | 16,7% |
| Qutqaşen | 259 | 2% | 370 | 2,85% | 8.470 | 65,3% | 2.581 | 19,9% | 972 | 7,5% | 304 | 2,3% |
| Ağdaş | 53 | 1% | 179 | 3,1% | 3.064 | 53,6% | 1.980 | 34,6% | 397 | 7% | 36 | 0,63% |
| Xaçmaz | 187 | 1,58% | 528 | 4,47% | 8.401 | 71,2% | 1.865 | 15,8% | 463 | 4% | 353 | 3% |
| Padar | 42 | 1,35% | 159 | 5,11% | 2.077 | 66,8% | 515 | 16,5% | 312 | 10% | 2 | 0,06% |
| Alpout | 76 | 1,61% | 140 | 2,96% | 2.954 | 62,6% | 1.193 | 25,3% | 327 | 7% | 25 | 0,53% |
| Cəmi | **1.416** | **1,43%** | **2.990** | **3,04%** | **74.513** | **75,8%** | **12.755** | **13%** | **4.005** | **4,07%** | **2.562** | **2,6%** |

Şəki xanlığının əhalisinin tarixi demoqrafik tədqiqi nəticəsində belə qənaətə gəlmək olur ki, bu ərazidə yaşayan əhalinin əsas hissəsini türklər və digər yerli xalqlar təşkil etmişdir. Siyasi-iqtisadi proseslər, o cümlədən Rusiyanın Qafqazı işğal etməsi və miqrasiya prosesləri nəticəsində əhalinin tərkibində baş verən dəyişikliklər, yeni yaşayış məskənlərinin salınması və digər məsələlər üzrə Azərbaycan tarixi üçün əhəmiyyətli olan məsələlərə aydınlıq gətirilmişdir.

**İstifadə edilmiş ədəbiyyat**:


1. Azərbaycan tarixi: 7 cilddə, III c., Bakı: Elm, 1999
2. Cavadova Z.Ə. Şimal-Qərbi Azərbaycan (tarixi-demoqrafik araşdırma). Bakı: Altay,1999
3. Cavadova Z.Ə. Şimal-Qərbi Azərbaycanın əhali tarixi və tarixi demoqrafiyası (XIX əsri əvvəlləri – 70-ci illəri). Bakı: Altay, 2002
4. Hacıəli Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar. Bakı: Təhsil, 2007
5. İsmayıl M., Bağırova M. Şəki xanlığı. Bakı: Azərb.Döv.Nəşriyyatı, 1997
6. Şəki xanlığının tarixindən. Bakı: «Azərbaycan Ensiklopediyası», NPB. 1993, 30 s.
7. Акты, собранные Кавказской Археографической Комиссией (АКАК): В 12-ти т., V; VI, ч.I
8. Бакиханов А. Гюлистан-и Ирам / Редакция, комментарии, прим. и указатели З.М.Буниятова. Баку: Элм, 1991
9. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку: Изд. АН Азербайджанской ССР, 1948

# Qərbi Azərbaycanın əhalisi XIX-XX əsrlərdə*

Tədqiqat işi Azərbaycan tarixinin ən aktual problemlərindən birinə – XIX-XX əsrlərdə Qərbi Azərbaycanda (müasir Ermənistan Respublikasının ərazisi) yaşayan əhalinin öyrənilməsinə həsr olunmuşdur. Əhalinin sayı, etnik tərkibi və miqrasiya proseslərinə dair məlumatlar toplanmış, ayrı-ayrı müəlliflər tərəfindən tərtib edilmiş etnoqrafik, hərbi, coğrafi, topoqrafik, karantin-gömrük sənədləri hesabatın hazırlanması üçün istifadə edilmişdir. Aparılan arxiv araşdırmaları nəticəsində ilk dəfə olaraq ermənilərin Qafqaza köçürülməsi barədə yeni sənədlər korpusu – çar Rusiyasının karantin-gömrük sənədləri aşkar edilmişdir. Bu materiallar ermənilərin köçürülməsi prosesini sənədlərlə izləməyə, digər qaynaqlarla vəhdətdə onu daha ətraflı öyrənməyə imkan verir. Problem üzrə aparılan elmi araşdırmalar, qanunvericilik sənədləri ilə tanışlıq nəticəsində ermənilərin Cənubi Qafqaza gəlmə olduqları bir daha təsdiq olunur.

Qeyd edək ki, tədqiqata cəlb olunmuş əksər mənbə və ədəbiyyatlarda əhalinin milli tərkibi əsasən müsəlman və xristian göstərilir. Buna görə də Qərbi Azərbaycan ərazisində yaşayan türk (azərbaycanlı) əhalinin sayını dəqiq, həmçinin Rusiya işğalından sonra, buranın əhalisinin etnik tərkibində baş verən dəyişiklikləri ardıcıl şəkildə izləmək mümkün deyil.

Tarix boyu ərazinin aid olduğu dövlətlər, əhalinin etnik tərkibinin dəyişməsi, XIX əsrdən başlayaraq ermənilərin regiona köçürülməsi ilə baş verən demoqrafik dəyişikliklər və soyqırım siyasəti ardıcıllıqla və mərhələlərlə izlənmişdir.

XIX-XX əsrlərdə qaçqın və məcburi köçkünlərin Azərbaycan ərazisində yerləşdirilməsi, onların statusunun müəyyən olunması, yaşayış şəraiti və digər problemlər qanunvericilik sənədləri əsasında tədqiq edilmişdir.

## Ərazi

Qərbi Azərbaycanın ərazisi e.ə.IV əsr-e.705-ci ilədək qədim Azərbaycan dövləti Albaniyanın, VIII-IX əsrlərdə Ərəb xilafətinin, XI-XIII əsrlərdə Səlcuq dövlətinin, XIII-XIV əsrlərdə Böyük Monqol İmperiyasının, 1410-1468-ci illərdə Qaraqoyunlu, 1468-1501-ci illərdə Ağqoyunlu, 1501-1736-cı illərdə Səfəvilər dövlətinin, 1736-1747-ci illərdə isə Əfşarlar dövlətinin tərkib hissəsi olmuşdur. Osmanlı-Səfəvi müharibələri zamanı İrəvan bölgəsi iki dəfə (XVI əsrin sonları və XVIII əsrin 20-ci illərində) Osmanlı impe-

* Material bölmənin 2006-2008-ci illər üçün hesabatları əsasında hazırlanmışdır.

riyasının tərkibinə qatılmışdı. Osmanlılar onların hakimiyyəti altına keçən İrəvan əyaləti barədə iki dəfə məlumat xarakterli dəftərlər tərtib etmişdilər. 1728-ci ildə tərtib edilmiş Müfəssəl dəftərə görə, İrəvan əyalətində aşağıdakı inzibati ərazi vahidləri vardı: İrəvan şəhəri, Qırxbulaq, Karpi, Maku, Xınzirək, Karni, Vedibasar, Dərəçiçək, Abaran, Göycə, Məzrə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zərzəmin nahiyələri, Şuragöl və Naxçıvan sancaqları.

**İrəvan xanlığı.** 1747-ci ildə Nadir şah Əfşar öldürüldükdən sonra Azərbaycan torpaqlarında müstəqil xanlıqlar meydana gəldi. Keçmiş Səfəvi dövlətinin inzibati ərazi vahidlərindən biri olmuş Çuxur-Səəd bəylərbəyliyinin ərazisində Naxçıvan (1747-1828) və İrəvan (1747-1828) xanlıqları yarandı.

Qeyd edək ki, mərkəzi İrəvan şəhəri olan eyni adlı xanlıq Azərbaycan türkləri tərəfindən idarə edilirdi. Kahin H.Şahxatunyanın hazırladığı 1441-ci ildən 1828-ci ilədək İrəvan xanlığını idarə edənlərin siyahısında xronoloji ardıcıllıqla 49 azərbaycanlı hakimin adı çəkilmişdir.

İrəvan xanlığı 15 mahala bölünmüşdü: Qırxbulaq, Gernibazar, Vedibasar, Zəngibasar, Şərur, Sürməli, Dərəkənd-Paçenis, Saatlı, Talin, Seyidli-Axsalı, Sərdarabad, Karpibasar, Abran, Dərəçiçək və Göyçə.

Xanlıq 1827-ci il oktyabrın 1-də Rusiya tərəfindən işğal edilmişdir. Türkmənçay müqaviləsi (1828) bağlandıqdan sonra Naxçıvan və İrəvan xanlıqlarının idarəçiliyi dəyişdirildi və Cənubi Qafqazda Rusiyanın dayaq nöqtəsi olacaq xristian dövlətinin yaradılmasına xidmət edən yeni inzibati vahid Ermənini vilayəti yaradıldı.

Qeyd edək ki Azərbaycan torpaqlarında Erməni vilayəti yaradılanadək azərbaycanlılar 285 min hektar, ermənilər isə 7.500 hektar torpaq sahəsinə sahib idilər.

**Erməni vilayəti.** 1828-ci il martın 21-də Rusiya çarı I Nikolay Naxçıvan və İrəvan xanlıqlarının əraziləri əsasında "Erməni vilayəti"nin yaradılması haqqında fərman verdi. Bununla da, Rusiya Qərbi Azərbaycan ərazisində gələcək erməni dövlətinin əsasını qoydu. Türkiyədən və İrandan ermənilər kütləvi surətdə yenicə yaradılmış Erməni vilayətinə köçürüldülər. Qeyd edək ki, baş verən hadisələr bölgənin yerli müsəlman-türk əhalisinin sayına ciddi təsir göstərdi. Belə ki, 1831-ci ildə Rusiya imperiyasında keçirilmiş inventarizasiyanın nəticəsinə görə, Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Dərəkənd, Saatlı, Talin, Sərdarabad, Aparan, Dərəçiçək, Göycə və Dərələyəz mahallarında cəmi 317 müsəlman kəndi qalmışdı. 420 kənd isə dağıdılmışdı. Sonralar, yəni 1873-cü ilədək 1831-ci il inventarlaşdırma siyahısında dağıdıldığı göstərilən kəndlər buraya köçürülən ermənilərin hesabına yenidən məskunlaşdırılmışdır. Məlumatlara əsasən, həmin dövrdə təbii artım və kənardan gətirilənlər hesabına 148 yeni erməni kəndi salınmışdı.

Erməni vilayəti 1840-cı il 10 aprel tarixli inzibati islahata əsasən ləğv edildi. Naxçıvan və İrəvan vilayətləri qəzalara çevrildi və yeni yaradılmış Gürcü-İmereti quberniyasının tərkibinə qatıldı.

**İrəvan quberniyası.** 1849-cu il iyunun 9-da keçmiş "Erməni vilayəti" və

Aleksandropol (Gümrü) qəzasının əraziləri əsasında İrəvan quberniyası yaradıldı. Həmin quberniyanın təşkili ilə əlaqədar olaraq, sahəsinə görə əvvəlki İrəvan xanlığı ərazisinə uyğun gələn İrəvan qəzasının (1840-1849) ərazisində dəyişiklik edildi və o yeni yaradılmış İrəvan quberniyasının qəzalarından birinə çevrildi. 1872-ci ilə qədər davam edən inzibati-ərazi dəyişikliklərindən sonra, quberniya (ərazisi 23194,79 kv.v.[1]) 7 qəzaya bölündü: İrəvan (2724,30 kv.v.), Aleksandropol (3386,70 kv.v.), Üçkilsə (Eçmiədzin) (3237,40 kv.v.), Naxçıvan (3939,04 kv.v.), Yeni Bayazid (4122, 76 kv.v.), Şərur-Dərələyəz (2637,50 kv.v.) və Sürməli (3147,09 kv.v.). 1897-ci il I Ümumrusiya siyahıyaalma materiallarında və 1917-ci il Qafqaz təqvimində də quberniyanın inzibati bölgüsünün eyni olduğunu görürük.

**Ararat respublikası.** İrəvan quberniyasının bir hissəsi 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) sərhədləri daxilində idi. 1918-ci il mayın 27-də ermənilər Tiflisdə Cənubi Qafqazda, ilk dəfə olaraq, erməni dövlətinin – Ararat Respublikasının (Ermənistan Respublikası) yaradıldığını elan edərkən, siyasi mərkəz kimi İrəvan şəhərini ələ keçirmək istəyirdilər. Həmin dövrdə güclü xarici təzyiqə məruz qalan Azərbaycan Milli Şurası İrəvanın ermənilərə güzəşt edilməsi haqqında qərar qəbul etməyə məcbur oldu.

Beləliklə, qədim Azərbaycan şəhəri İrəvan Ararat Respublikasının paytaxtına çevrildi. Azərbaycan Milli Şurasının üzvləri bu qərarı «tarixi zərurət və labüd bədbəxtlik» adlandırırdılar. Milli Şura iyunun 1-də keçirilən iclasında bu qərarı yenidən müzakirə edərək protest elan etdi.

Qeyd edək ki, qərarın əsaslandırılması üçün gətirilən bütün dəlillərə baxmayaraq, bu tamamilə səhv addım idi.

Batum müqaviləsində (1918, 4 iyun) Azərbaycanın Osmanlı imperiyası, Gürcüstan və Ermənistanla olan sərhədləri ətraflı şəkildə təsvir olunmuşdur. Ermənistan Respublikası ilə Osmanlı dövləti arasında bağlanmış müqaviləyə əsasən, Sürməli qəzası, Aleksandropol, Şərur, Üçkilsə və İrəvan qəzalarının böyük bir hissəsi Osmanlı dövlətinə keçdi. İrəvan quberniyasının üçdə bir hissəsi Ermənistanın əlində qaldı. Lakin Birinci dünya müharibəsində Osmanlı dövlətinin məğlubiyyəti onun bu torpaqlarda möhkəmlənməsinə imkan vermədi. AXC də İrəvan quberniyasının tərkibinə daxil olan ərazilərində hakimiyyətinin bərqərar edilməsində çətinliklərlə üzləşdi. Bundan istifadə edən daşnak hökuməti İrəvan quberniyasında geniş miqyaslı soyqırımı həyata keçirdi.

May ayında yaradılan Ararat Respublikasının 9 min kv.km olan ərazisi bu mərhələdə işğal etdikləri, həmçinin əhalisinə qarşı soyqırım və deportasiya siyasəti həyata keçirdikləri Azərbaycan torpaqları Zəngəzur, Göyçə, Dərələyəz, Dilican, Vedibasar, Qaraqoyunlu mahalları hesabına 29,8 min kv.km.ə çatdırıldı.

---

[1] 1 verst = 1.0668 km

Beləliklə, 1920-ci ilə qədər törədilmiş qırğın və terror hesabına 9.800 kv.km. Azərbaycan torpağı Ermənistana güzəşt edilir. Yeni Bəyazid qəzasının Basarkeçər mahalı, İrəvan qəzasının Vedibasar mahalı, Gəncə quberniyasının Zəngəzur qəzası Ermənistan tərəfindən ələ keçirilmiş Azərbaycan torpaqları idi. Sonralar bu qəzanın əsasında Mehri və Zəngəzur qəzaları yaradılmışdır.

**Ermənistan respublikası.** 1920-ci il noyabrın 29-da Ermənistanda Sovet hakimiyyəti quruldu. Azərbaycan Sovet hökumətinin laqeyid münasibəti nəticəsində vəziyyət daha da gərginləşmişdi. Sovet hakimiyyəti qurulduqdan sonra daşnakların ələ keçirdikləri torpaqların xeyli hissəsi Ermənistan SSR-in hüdudlarında qalmışdı. Ermənilər işğal etdikləri Zəngəzur torpaqlarından hərbi birləşmələri çıxarmır və bu ərazinin, həmçinin Dağlıq Qarabağın ermənilərə aid olduğunu iddia edirdilər. Azərbaycan üçün belə ağır bir şəraitdə, 1920-ci il dekabrın 1-də Zəngəzur ərazisi də Ermənistana verilir. Artıq Ermənistana verilən Zəngəzurun İnqilab Komitəsi ilə Azərbaycanın Qubadlı qəza İcraiyyə Komitəsinin 1921-ci il 27 sentyabr tarixli birgə iclasında başlıca məsələ qəzalararası inzibati sərhədlərin müəyyənləşdirilməsi idi.

Qeyd edək ki, 1920-ci ildə Zəngəzur Ermənistana güzəşt edildikdən sonra, Azərbaycan torpaqlarının heç bir əsas gətirilmədən hissə-hissə Ermənistana birləşdirilməsi adi hala çevrilmişdi. Belə ki, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 1927-ci il 1 yanvar tarixli iclaslında Mehri-Cəbrayıl qəzasından 24 kənd, 20 iyun tarixli iclasda Zəngəzur-Kürdüstan qəzasının 1,065 desyatin ərazisi Ermənistana verilir. 1929-cu il fevralın 18-də keçirilən iclasda isə Nüvədi, Ernəzir və Tuğut kəndlərinin Ermənistana verilməsi haqqında qərar qəbul edilir (Bu 3 kəndin Ermənistana verilməsi haqqında rəsmi qərar Azərbaycan SSR Ali Sovetinin 1969-ci il 7 may tarixli qərarı ilə təsdiq olunmuşdur.). 1929-cu il tarixli qərarla daha 9 kənd əlavə olaraq Ermənistana birləşdirilir.

Sovet Sosialist Respublikaları İttifaqında (SSRİ) tətbiq edilən rayonlaşdırma prosesində İrəvan qəzasının inzibati-ərazi bölgüsündə dəyişikliklər həyata keçirildi. 33 sahədən ibarət 8 qəza, sonradan isə Zəngəzur qəzası təşkil edildi. 1930-cu illərdə isə İrəvan qəzası ləğv olundu.

Qeyd edək ki, 1948-1953-cü illərdə Ermənistandan azərbaycanlıların deportasiyası ilə yanaşı, azərbaycanlılar yaşayan bəzi rayonların birləşdirilməsi əməliyyatı da aparılırdı. 1951-ci il 19 mart fərmanı ilə Dilican rayonu İcevanla, Əzizbəyov rayonu Mikayanla, Ələyəz rayonu Abaranla, Qarabağlar rayonu Vedi ilə, Qukasyan rayonu Amasiya ilə birləşdirildi. Kadr məsələləri həll edildikdən sonra, bəzi rayonları yenidən ayırdılar.

Beləliklə də, XX əsrdə İrəvan quberniyası, İrəvan qəzası anlayışları ləğv olundu və ermənilər azərbaycanlıları öz dədə-baba torpaqlarından qovub, tarixi Azərbaycan torpaqları olan İrəvan (Sürməli və Sədərəksiz), Pəmbək-Şuragel, Dərələyəz, Ağbaba, Zəngəzur, Qazax (dağlıq hissəsi) və Lori vilayətlərinin ərazisində müasir Ermənistan Respublikası yaratdılar.

Hazırda Qərbi Azərbaycan Ermənistan Respublikası adı altında tanınır və 29.800 kv.km ərazini əhatə edir.

## Əhali

Bütün tarixi dövrlərdə türk-müsəlmanlar – azərbaycanlılar İrəvan əhalisinin **etnik tərkibində** əsas yer tutmuşlar. Lakin XIX-XX əsrin əvvəllərində Rusiyanın mərkəzi əyalətlərindən rusların, İran və Türkiyədən isə ermənilərin bu ərazilərə köçürülməsi ilə əhalinin etnik tərkibi dəyişdi. Rusiya-İran (1804–1813 və 1826–1828), Rusiya-Türkiyə (1828–1829 və 1877–1878) müharibələrindən və 1861-ci il kəndli islahatından sonra, Cənubi Qafqazda bu siyasət daha da sürətləndirildi. Belə ki, Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələri imzalandıqdan sonra, ermənilərin Qafqaza, xüsusilə də Azərbaycan torpaqlarına köçürülməsi bir daha rəsmiləşdirildi, qondarma «Erməni vilayəti» (1828-1848) yaradıldı, erməni köçkünlərin sayı mexaniki şəkildə artırıldı.

Bu köçürmələr yerli türk-müsəlman və xristian olmayan digər xalqları sıxışdırmaq, zorla ruslaşdırmaq və xristianlaşdırmaq, onların əzəli torpaqlarına yiyələnmək kimi müstəmləkəçilik məqsədləri güdən siyasət idi. Rusiya imperiyası dövründə əhalinin məskunlaşmasına aid tərtib edilən sənədlərə əsasən demək olar ki, erməni əhalisi buraya yalnız 1828-1830-cu illərdə köçürülməyə başlamışdır. Qeyd edək ki, bu köçürmələr nəticəsində bölgənin demoqrafik vəziyyətində kəskin dəyişikliklər baş verdi.

Mənbələrdə Rusiya işğalından əvvəl İrəvan xanlığında 169.155 nəfərin yaşadığı, müsəlmanların isə əhalinin 83,5%-ni təşkil etdiyi bildirilir.

İrəvan (1827) və Naxçıvan (1828) xanlıqları Rusiya tərəfindən işğal edilərkən, burada üç şəhər – İrəvan, Naxçıvan, Ordubad və 1.111 kənd vardı. Həmin kəndlərdən 752-si məskun, 359-u isə müharibələr nəticəsində xaraba qalmışdı. Ümumiyyətlə, Rusiya-İran müharibəsi nəticəsində döyüşlərin getdiyi ərazidə yerləşən 420 azərbaycanlı kəndi xarabalığa çevrilir, əhali isə İrana köçməyə məcbur edilir. İrəvan vilayətinin 521 kəndindən 310-u dağıdılmışdır.

İrəvan və Naxçıvan xanlıqları Rusiya tərəfindən işğal edildiyi vaxt, burada 20.502 ailə (107.900 nəfər) yaşayırdı. Onların da 16.078-i (81.749 nəfər) azərbaycanlı, 4.424-ü (25.151 nəfər) isə erməni ailəsi idi. İ.Şopenin məlumatlarına görə, işğaldan əvvəl İrəvan şəhərində 2.400 ailə (12 min nəfər) yaşamışdır.

Əhalinin tərkibi barədə işğaldan əvvələ və sonraya aid məlumatları təhlil edərkən aydın görmək olur ki, əhalinin 76,24%-i azərbaycanlılar, 23,45%-i isə ermənilər təşkil edirdi. Bu dövrdə mahallarda azərbaycanlıların çoxluq təşkil etməsi tarixi sənədlərlə də təsdiq olunur. İrəvan xanlığının 737 yaşayış məntəqəsindən yalnız 38-də ermənilər yaşamış, 25-i qarışıq kənd, qalanları isə sırf azərbaycanlı kəndi olmuşdur. Şərur mahalının 50 kəndində və Saatlı mahalının 9 kəndində bir nəfər də olsun ermən yaşamamışdır.

Parçanis-Dərəkənd mahalının 54 kəndindən yalnız Əkərək kəndində bir erməni ailəsi, Seyidli və Axsaxlı mahalının 20 kəndindən yalnız Göytüldə 6 erməni ailəsi, Dərəçiçək mahalının 37 kəndindən 4-də 92 erməni ailəsi, Göyçə mahalının 59 kəndindən 2-də 15 erməni ailəsi yaşamışdır. Ermənilərin nisbətən çoxluq təşkil etdikləri 4 mahalda – Qırxbulaq, Karpi-bazar, Sərdarabad və Sürməlidə əhalinin yarıdan çoxunu azərbaycanlılar təşkil edirdi.

Rusiyanın köçürmə siyasətində Cənubi Qafqaz, xüsusən də Azərbaycan ərazisi mühüm yer tuturdu. Təbriz komendantı, mənşəcə erməni olan Q.Lazaryev 1829-cu il dekabrın 24-də Qafqazdakı rus ordusunun baş komandanı general İ.Paskeviçə hesabatında bildirirdi ki, üç ay yarım ərzində İrandan köçmüş 8 mindən yuxarı erməni ailəsi (40 min nəfər) Rusiyanın yeni tutduğu torpaqlarda – İrəvan, Naxçıvan və Qarabağda məskunlaşdırılmışdır. Elə həmin vaxt 14 min erməni ailəsi (84.600 nəfər) Osmanlı dövlətini tərk edərək, Rusiya ərazisinə (əsasən, Cənubi Qafqaza) köçmüşdü.

Yeni yaradılmış Erməni vilayətinə kütləvi surətdə İran və Osmanlı dövlətinin ərazisində yaşayan erməniər köçürüldü. Bu hadisələrdən sonra İrəvan şəhərində əhalinin tərkibi aşağıdakı kimi idi:

Cədvəl 1

İrəvan şəhər əhalisinin tərkibi

| | ailə | faizlə | nəfər | O cümlədən | |
|---|---|---|---|---|---|
| | | | | kişi | qadın |
| Azərbaycanlılar | 1.807 | 75,6 | 7.331 | 3.749 | 3.582 |
| Ermənilər | 567 | 24,4 | 2.369 | 1.220 | 1.149 |
| Cəmi | 2.374 | 100 | 9.700 | 4.969 | 4.731 |




1826–1828-ci illər Rusiya–İran müharibəsi və İrəvanın ruslar tərəfindən işğalından kameral siyahıyaalmanın keçirilməsinədək olan dövrdə, azərbaycanlılara qarşı həyata keçirilən soyqırımları və onların bu torpaqlardan kütləvi surətdə deportasiyası nəzərə alınarsa, işğalaqədərki dövrdə azərbaycanlıların sayının daha çox olduğunu qeyd etmək olar.

1829–1832-ci illərdə həyata keçirilən kameral təsvirə görə, təkcə İrəvan şəhərində İrandan və Osmanlı dövlətindən köçürülən ermənilərin he-

sabına əhalinin sayı artaraq, 11.463 nəfərə çatmışdı. Nəticədə isə əhalinin etnik tərkibində dəyişiklik baş vermiş, azərbaycanlıların sayı 64%-ə enmiş, ermənilərin sayı isə 36%-ə yüksəlmişdi.

Cədvəl 2

İrəvan şəhərinə köçürülən ermənilərin sayı (1829-1832)

| Köçürüldüyü yer | erməni ailələrinin sayı | nəfər | o cümlədən | |
|---|---|---|---|---|
| | | | kişi | qadın |
| İran | 366 | 1.715 | 812 | 903 |
| Osmanlı imperiyası | 11 | 48 | 25 | 23 |
| Cəmi | 377 | 1.763 | 837 | 926 |

1828-1831-ci illərdə Qafqaza köçürülmüş bütün ermənilərin 2/3-i (cəmi 200 min) İrəvan vilayətinə köçürülmüşdür.

İ.Şopenin 1829–1832-ci illərdə apardığı kameral təsvirə əsasən vilayət üzrə azərbaycanlı və erməni əhalinin ümumi sayı aşağıdakı kimi olmuşdur:

Cədvəl 3

Erməni vilayətinin əhalisinin sayı (1829–1832)

| | Ailələrin sayı | Nəfər |
|---|---|---|
| Bütün əhali | 31.201 | 164.450 |
| Onlardan, | | |
| Azərbaycanlılar | 16.078 | 81.749 |
| ermənilər | 15.059 | 82.377 |
| O cümlədən,<br>köçürməyə qədər vilayətdə yaşayanlar | 4.428 | 25.151 |
| İrandan köçürülənlər | 6.949 | 35.560 |
| Osmanlı imperiyasından köçürülənlər | 3.682 | 21.666 |

Əldə olan məlumatları müqayisə etdikdə məlum olur ki, 1823-1827-ci illərdə türk-müsəlmanlar əhalinin 76%-ni təşkil etdiyi halda, 1828-1830-cu illərdə 46% olmuşdur.



Çarizmin burada apardığı müstəmləkə siyasəti nəticəsində, yeni yaradılmış Erməni vilayətində azərbaycanlı əhali ilə erməni əhalisinin sayı, demək olar ki, bərabərləşdirildi. Rusiya-İran müharibəsi nəticəsində xaraba qalmış kəndlərdə ermənilər məskunlaşdırıldı. Ümumilikdə, 1828-1872-ci illərdə 161 azərbaycanlı kəndi ermənilər tərəfindən zəbt edilmişdir.

1840-cı il islahatı nəticəsində yaradılmış İrəvan qəzasında isə 154.331 nəfər əhali yaşayırdı. Onların 82.680 nəfəri (53,57%) kişi, 71.651 nəfəri (46,43%) qadın, 148.791 nəfəri yerli sakin, 18.992 nəfəri müvəqqəti yaşayanlar idi. Çarizmin qəzada ermənilərin sayını süni şəkildə artırmasına baxmayaraq, Azərbaycan türkləri yenə də bölgədə sayca üstünlük təşkil edirdi. 1917-ci il Qafqaz təqviminin məlumatına görə, İrəvan qəzasında azərbaycanlılar təxminən 74.175 nəfər (48,1%), ermənilər 69.710 nəfər (45,21%) təşkil edirdi. İrəvan şəhərində isə cəmi 51.286 nəfər əhali qeydə alınmışdı, onların 25.548 nəfəri (49,8%) kişi, 25.738 nəfəri (50,2%) qadın idi. Şəhər əhalisinin 22.001 nəfəri daimi, 29.285 nəfəri müvəqqəti yaşayanlar idi. Əhalinin 24,5%-ni azərbaycanlılar, 72,5%-i isə ermənlər təşkil edirdi.

1849-cu ildə yaradılan İrəvan quberniyasının əhalisinə dair məlumatlarda da azərbaycanlı əhalinin sayının ermənilərdən çox olduğunun şahidi oluruq.

İrəvan şəhərində 1873-cü ildə 5.805 nəfər azərbaycanlı, 5.959 nəfər erməni, 1886-cı ildə 7.228 nəfər azərbaycanlı, 7.142 nəfər erməni, 1897-ci ildə 12.516 nəfər azərbaycanlı, 12.529 nəfər erməni, 1917-ci ildə 12.557 nəfər azərbaycanlı, 37.204 nəfər erməni yaşayırdı.




1886-cı ilə aid materiallarda Yelizavetpol quberniyasının Zəngəzur qəzasındakı 326 kənddən 149-u azərbaycanlı (45,7%), 91-i kürd (27,9%), 81 erməni (24,8%) kəndi kimi göstərilmişdir.

1897-ci ildə Rusiya imperiyasında keçirilmiş I Ümumrusiya əhali siyahıyaalma materiallarına görə isə İrəvan quberniyası üzrə əhalinin yer-

ləşməsi və etnik tərkibi (azərbaycanlılar və ermənilər) aşağıdakı cədvəllərdə göstərilmişdir.

Cədvəl 4

İrəvan quberniyası üzrə əhalinin sayı (1897)

| Quberniyanın, qəzanın, şəhərin adı | Ərazi, verst | Cins | | |
|---|---|---|---|---|
| | | Kişi | Qadın | cəmi |
| İrəvan quberniyası – ümumi | 23226,4 | 441.889 | 387.667 | 829.556 |
| İrəvan quberniyası – şəhərlər | | 54.141 | 38.182 | 92.323 |
| İrəvan quberniyası – qəzalar, şəhərlərsiz | | 387.748 | 349.485 | 737.233 |
| İrəvan qəzası – ümumi | 2664,2 | 82.899 | 67.980 | 150.879 |
| İrəvan qəzası – İrəvan şəhəri | | 17.328 | 11.678 | 29.006 |
| İrəvan qəzası şəhərlərsiz | | 65.571 | 56.302 | 121.873 |
| Aleksandropol qəzası – ümumi | 3303,7 | 89.482 | 76.021 | 165.503 |
| Aleksandropol qəzası – Aleksandropol şəhəri | | 19.049 | 11.567 | 30.616 |
| Aleksandropol qəzası - şəhərsiz | | 70.433 | 64.454 | 134.887 |
| Naxçıvan qəzası – ümumi | 3858,8 | 52.984 | 47.787 | 100.771 |
| Naxçıvan qəzası – Naxçıvan şəhəri | | 4.666 | 4.124 | 8.790 |
| Naxçıvan qəzası - Ordubad şəhəri | | 2.458 | 2.153 | 4.611 |
| Naxçıvan qəzası şəhərsiz | | 45.860 | 41.510 | 87.370 |
| Yeni Bəyazid qəzası – ümumi | 4156,8 | 63.128 | 59.445 | 122.573 |
| Yeni Bəyazid qəzası – Yeni Bəyazid şəhəri | | 4.370 | 4.116 | 8.486 |
| Yeni Bəyazid qəzası şəhərsiz | | 58.758 | 55.329 | 114.087 |
| Sürməli qəzası – ümumi | 3241,0 | 47.269 | 41.786 | 89.055 |
| Sürməli qəzası – İqdır kəndi | | 2.689 | 1.991 | 4.680 |
| Sürməli qəzası - şəhərsiz | | 44.580 | 39.795 | 84.375 |
| Şərur-Dərələyəz qəzası – ümumi | 2611,8 | 41.055 | 35.483 | 76.538 |
| Şərur-Dərələyəz qəzası – Baş Noraşen kəndi | | 504 | 363 | 867 |
| Şərur- Dərələyəz qəzası - şəhərsiz | | 40.551 | 35.120 | 75.671 |
| Eçmiədzin qəzası – ümumi | 3390,1 | 65.072 | 59.165 | 124.237 |
| Eçmiədzin qəzası – Vaqorşapat kəndi | | 3.077 | 2.190 | 5.267 |
| Eçmiədzin qəzası -şəhərsiz | | 61.995 | 56.975 | 118.970 |

**Mənbə:** Первая Всеобщая перепись населения населения Российской империи 1897 года. (Губернские итоги). Т.Т.1-89. СПб.: 1903-1905

Cədvəl 5

İrəvan quberniyası üzrə əhalinin etnik tərkibi
(seçmə) (1897)

| Qəzalar | Ümumi əhalinin sayı | onlardan | | | |
|---|---|---|---|---|---|
| | | azərbaycanlı | | erməni | |
| | | nəfər | % | nəfər | % |
| İrəvan qəzası - İrəvan şəhəri | 150.879 | 77.516 | 51,37 | 58.148 | 38,54 |
| Aleksandropol qəzası-Aleksandropol şəhəri | 165.503 | 8.104 | 4,73 | 141.522 | 85,51 |
| Naxcıvan qəzası –Naxcıvan və Ordubad şəhəri | 100.771 | 64.515 | 63,66 | 34.672 | 34,41 |
| Yeni Bəyazid qəzası-Yeni Bəyazid şəhəri | 122.573 | 34.726 | 28,33 | 81.285 | 66,31 |
| Sürməli qəzası- Sürməli şəhəri | 98.055 | 41.424 | 46,51 | 27.075 | 30,40 |
| Şərur-Dərələyəz qəzası - Başnoraşen kəndi | 76.538 | 51.564 | 67,36 | 20.726 | 27,08 |
| Eçmiədzin qəzası-Vaqarşabat kəndi | 124.237 | 36.008 | 28,98 | 77.562 | 62,44 |
| Quberniya üzrə, cəmi | 829 | 313.493 | 37,75 | 441.000 | 53,16 |

Bu materiallarda, həmçinin Zəngəzur qəzasında yaşayan 142 min nəfər əhalisinin 71,2 min nəfərinin azərbaycanlılar, 63,6 min nəfərinin isə ermənilər olduğu göstərilmişdir.

Dini tərkib barədə materillarda isə quberniyada 350.099 nəfər müsəlman, 439.926 nəfər erməni-qriqorian və erməni-katolik, 1.032 nəfər iudey, 16.398 nəfər pravoslav və digər konfessiyaların (lüteran, baptist v.s.) nümayəndələrinin yaşadığı göstərilir.

XIX əsrin 90-cı illərinin II yarısında Cənubi Qafqazda erməni köçkünlərinin sayı daha da artmağa başlayır. N.Şavrov «Zaqafqaziyada rus işinə təhlükə» kitabında 1828-1830-cu illərdə Cənubi Qafqaza İrandan 40 mindən, Türkiyədən 84 mindən çox erməni köçürüldüyünü, onların ermənilərin az olduğu Yelizavetpol və İrəvan quberniyalarında yerləşdirildiyini, Qafqazda yaşayan 1.300.000 ermənidən bir milyonun gəlmə olduğunu göstərir. Cənubi Qafqazda 1896-cı ildə 900.000, 1908-ci ildə 1.300.000 nəfər erməni yaşadığını, köçürmə nəticəsində onların sayının 400.000 nəfər çoxaldığını bildirərək etiraf edir ki, “...Buradan da aydın olur ki, biz 13 ildə 300.000 mindən çox erməni köçürmüşük».

Lakin I Ümumrusiya siyahıyaalma materiallarından Qafqazda ümumilikdə 1.161.909 nəfər erməninin yaşadığını görürük. Bu faktlar Rusiya imperiyasının Qafqazı xristianlaşdırma siyasətini, ermənilərin Qafqaza gəlmə olduqlarını təsdiq edir.

H.Y.Verdiyeva 1831-1833-cü illər kameral siyahıyaalmasına əsaslanaraq quberniyadakı ermənilərin sayının 81.610 nəfər, 1873-cü ildə isə 221.191 nəfər olduğunu göstərir. Tədqiqatçı, erməni əhalisinin sayının 3 dəfə artmasını mexaniki hərəkətlə, daha dəqiq isə Krım (1853-1856) və Rusiya-Osmanlı müharibələri (1877-1878) ilə, XX əsrin əvvəlinə aid artımı isə I dünya müharibəsi ilə əlaqələndirir.

Qeyd edək ki, I dünya müharibəsi nəticəsində Osmanlı dövlətinin Yaxın Şərqdəki ərazilərindən köçmüş ermənilər də İrəvan quberniyasına üz tuturdu. 1915-ci ilin payızına aid məlumatda İrəvan ətrafında 23 mindən çox, 1916-cı ilin yayında isə 17 minə yaxın köçkün yerləşmişdi.

1917-ci il Qafqaz təqviminin məlumatına görə, İrəvan quberniyasının AXC-yə aid ərazilərində əhalinin sayı 212.458 nəfər göstərilir. Onlardan 129,586 nəfəri müsəlman (61%), 80,530 nəfəri erməni (38 %), 96 nəfəri gürcü (0,04 %), 593 nəfəri rus (0,24%), 1.653 nəfəri digər millətlərin (0,72%) nümayəndələri idi.

100 ildən çox davam edən köçürmələr və soyqırımlar nəticəsində azərbaycanlıların sayı 373.582 nəfər (33,35%), ermənilərin sayı isə 669.871 nəfər (59,8%) olmuşdur. İrəvan quberniyasındakı 5 şəhərin (Aleksandropol, Naxçıvan, Yeni Bəyazid, Ordubad, İrəvan) birlikdə əhalisi 132.559 nəfər (11,83 %) idi. Əhalinin qalan hissəsi, yəni 88,17 %-i isə qəzalarda yaşayırdı. Azərbaycanlılar bütün şəhər əhalisinin 18,9 %-ni (25.044 nəfər), qəzaların əhalisinin isə 35,3 %-ni (348.538 nəfər) təşkil edirdi.

Cədvəl 6

İrəvan quberniyası əhalisinin qəzalar üzrə yerləşməsi (1917)

| | |
|---|---|
| Qəzalar üzrə cəmi əhalinin sayı | 967.683 |
| İrəvan | 154.331 |
| Naxçıvan | 122.208 |
| Sürməli | 104.791 |
| Şərur-Dərələyəz | 90.250 |

XIX əsrin 30-cu illərinə aid statistik materiallarda bölgə əhalisinin milli tərkibinə kürdlər də daxil idi. Quberniya ərazisində 2.123 kürd ailəsi (10.373 nəfər) yaşayırdı. 1873-cü ilə aid materiallarda İrəvan quberniyasında 31.643 nəfər, 1897-ci ildə isə 49.389 nəfər kürdün yaşadığı göstərilir. Qərbi Azərbaycan ərazisində kürdlərin sayının artması İrandan köçmələr, yəni miqrasiyalar hesabına baş verirdi. Tədqiqatçılar bunun səbəbini İrandakı sosial-iqtisadi vəziyyətlə əlaqələndirirlər. XX əsrin əvvəllərində artıq kürdlərin sayı 51.003 nəfərə çatmışdır.

Qərbi Azərbaycan ərazisinin etnik tərkibinə nəzər salsaq, burada rusların da yaşadığını görərik. Bunlar İrəvan quberniyasının ərazisinə köçürülmüş rus təriqətçiləri idi. Onların arasında malokanlar, prıqunlar və s. var idi. XIX əsrin ortalarında, təriqətçilər İrəvan quberniyasının Yeni Bəyazid

qəzasında Yelenovka, Konstantinovka kəndlərinin əsasını qoyurlar. 1852-ci ildə malokanlardan ayrılmış prıqunlar İrəvan quberniyasında məskunlaşdırılır, Aleksandropol qəzasında Nikitinsk və Voskresensk, Yelenovka, Semyonovka və Konstantinovka kəndlərinin əsasını qoyurlar. Qeyd etmək lazımdır ki, rusların burada məskunlaşması erməni və kürdlər kimi sürətlə getmirdi. 1886-cı ilə aid materiallarda quberniyada 7.048 nəfər (11%), 1897-ci ildə isə 21.298 nəfər (2,6%) rusun yaşadığı göstərilirdi.

XIX əsrdə Cənubi Qafqazda salınmış 34 rus kəndindən 30-u Azərbaycan ərazisində idi. 90-cı illərdə Bakı quberniyasında 21, Yelizavetpol quberniyasında isə 14 rus kəndi salınmışdı. 1899–1905-ci illərdə bu quberniyalarda 28 yeni rus kəndi meydana gəlmişdi. 1907-ci ilin əvvəlində köçürmə siyasətini həyata keçirmək üçün Qafqazda, hətta Xüsusi Köçürmə idarəsi də təsis edilmişdi. Məhz onun nəzarəti altında 1908-1912-ci illərdə Qafqaza köçürülən 8.326 rus ailəsinin 4 minindən çoxu Azərbaycan ərazisində yerləşdirilmişdi.

XX əsrin əvvəllərində tədqiq etdiyimiz ərazidəki əhali barədə konkret materialların olmaması, burada baş verən demoqrafik dəyişiklikləri dəqiq və ardıcıllıqla müəyyən etməyə imkan vermir. Məsələn, 1905-1907-ci illərdə soyqırım barədə məlumatların olmaması soyqırıma və deportasiyaya məruz qalan əhalinin sayı haqqında konkret faktlar söyləməyə imkan vermir. Çünki verilən məlumatlarda sadəcə olaraq, minlərlə insanın qətl olunduğu və ya qaçqın düşdüyü bildirilir.

XIX əsrin sonlarında ermənilərin Cənubi Qafqaza köçürülərək kompakt yerləşdirilməsi və onların məskunlaşdırıldıqları ərazidə yerli əhaliyə qarşı aparılan soyqırımları 1918-1920-ci illərdə ermənilərin ilk dövlətinin yaranması və ərazilərini genişləndirmələri ilə nəticələndi.

1916-cı il yanvarın 1-nə olan məlumata görə, sonralar erməni dövlətinin yaradıldığı ərazilərdə əhalinin etnik tərkibi yenə azərbaycanlıların xeyrinə çoxluq təşkil edirdi. İrəvan qəzasında 74,2 min nəfər, Zəngəzur qəzasında 119,5 min nəfər, Yeni Bəyazid qəzasında 50,7 min nəfər, Sürməli qəzasında 45,9 min nəfər, Üçkilsə qəzasında 41,3 min nəfər, Dərələyəzdə isə 47 min nəfər azərbaycanlı yaşayırdı. Bu rəqəmlər əyani surətdə sübut edir ki, XIX-XX əsrlərin əvvəllərində indiki Ermənistanın ərazisində yerli əhali olan azərbaycanlılar əksəriyyət təşkil edirdi. Lakin bu fakt erməni millətçilərini ciddi narahat etdiyindən, azərbaycanlılara qarşı məqsədyönlü şəkildə soyqırım siyasəti aparılır. 1905–1906-cı illərdə azərbaycanlılara qarşı baş vermiş soyqırımı sonrakı illərdə davam etdirilərək, 1917–1920-ci illərdə erməni-daşnakların hakimiyyətə gəlməsindən sonra daha geniş və məqsədyönlü şəkil aldı.

1918-ci ilin martına qədər İrəvan quberniyasında müsəlmanlar yaşayan 200 kənd dağıdılmış və ya boşaldılmış, 135 min nəfərdən çox əhali doğma torpaqlarından qovulmuş və öldürülmüşdü.

Qeyd edək ki, Mudros sazişinə (1918-ci il 30 oktyabr) əsasən, Osmanlı hərbi qüvvələri Bakını tərk edən kimi, erməni millətçilərindən təşkil olun-

muş Ararat Respublikası hökuməti Azərbaycanın Zəngəzur, Naxçıvan və başqa bölgələrinə basqınlar təşkil edirlər. 50 min azərbaycanlı öz dədə-baba torpaqlarından qaçqın düşərək, Naxçıvana və Şərura pənah aparırlar. Zəngəzurda ermənilərin azərbaycanlılara qarşı apardığı "etnik təmizləmə" siyasəti bölgənin demoqrafik durumunda ciddi dəyişikliklərə səbəb oldu. Belə ki, 1897-ci il siyahıyaalmasına görə Zəngəzurun əhalisinin 50%-dən çoxunu azərbaycanlılar təşkil etdikləri halda, 1926-cı il siyahıyaalmasına görə azərbaycanlılar Zəngəzur əhalisinin 4,6%-i təşkil edirdilər.

Daşnakların hakimiyyətdə olduğu dövrdə Qərbi Azərbaycanda 575.000 müsəlman-türkündən 565.000 nəfəri öldürülür, qalanı isə öz yaşayış yerindən zorla köçürülür. Bəzi erməni müəllifləri, konkret olaraq Z.Korqodyan da bu faktı təsdiq edir: "1920-ci ildə Sovet hökuməti zamanı daşnakların apardığı siyasət nəticəsində burada 10.000 nəfərdən bir az çox türk qalmışdı. 1922-ci ildə 60.000 köçkün geri döndükdən sonra azərbaycanlı türklərinin sayı 72.596 nəfər olmuşdu".

1918-ci ildə Zaqafqaziya Federasiyasının dağıldığı dövrdə müasir Ermənistanın əhalisi, erməni qaçqınları ilə birlikdə, təqribən 1.271.200 nəfər (931.000 erməni, 290.000 müsəlman) idi. Daşnakların 3 illik hakimiyyətindən sonra, yəni 1920-ci ildə burada əhalinin sayı 722.000 nəfər (691.000 erməni, 10.000 azərbaycanlı) idi. Bunun əsas səbəbi ermənilərin müsəlmanlara qarşı məqsədyönlü qırğınları və soyqırım siyasəti olmuşdur. Təkcə Zəngəzur qəzasında 65 min müsəlman öldürülmüşdür.

1920-ci ildə bütün Ermənistanda cəmi 10.000 azərbaycanlı qaldığı halda, 1922-ci ildə qaçqınların geri qayıtması ilə azərbaycanlıların sayı 77.767 nəfərə, 1939-cu ildə isə 130.896 nəfərə çatdı. Ermənistanda sovet hakimiyyətinin qurulmasından sonra, qaçqınların geri qayıtması ilə Azərbaycan türkləri burada əhalinin 10%-ni təşkil edirlər. 1922-ci ildə İrəvan şəhərində cəmi 5.124 nəfər azərbaycanlı qalmışdı. Ermənilərin sayı isə 40.369 nəfərə çatmışdı.

Sovet hakimiyyəti dövründə Ermənistan SSR-də keçirilən siyahıyaalma materiallarına əsasən əhalinin etnik tərkibi haqqında materiallara nəzər salaq.

Cədvəl 7

Ermənistan SSR-i əhalisinin etnik tərkibi (seçmə)
(1926-cı il Ümumittifaq siyahıyaalma materialları əsasında)

| Milli tərkib | Kişi | Qadın | Cəmi |
|---|---|---|---|
| Ermənilər | 375.088 | 368.483 | 743.571 |
| **Türklər*** | 40.906 | 35.964 | 76.870 |
| Ruslar | 10.221 | 9.327 | 19.548 |
| Yezidlər | 6.056 | 6.181 | 12.237 |
| **Qarapapaqlar **** | 3.252 | 3.059 | 6.311 |
| Farslar | 2.722 | 2.321 | 5.043 |
| Kürdlər | 1.590 | 1.435 | 3.025 |

| | | | |
|---|---|---|---|
| Yunanlar | 1.512 | 1.468 | 2.980 |
| Ukraynalılar | 2.337 | 489 | 2.826 |
| Gürcülər | 142 | 132 | 274 |
| Digər | 3.584 | 2.660 | 6.244 |
| Bütün əhali | 447.410 | 431.519 | 878.929 |

* Azərbaycanlılar "türklər" kimi qeyd olunub. Cəmi: 83.181 nəfər.
** Qeyd etmək lazımdır ki, 1926-cı il əhali siyahıyaalması zamanı azərbaycanlılara aid edilmiş «qarapapaqlar» da siyahıya daxil edilmişdir. Azərbaycanlıların sayı 83.181 nəfər olmuşdur.
**Mənbə**: Всесоюзная перепись населения 1926. т.XVII. СССР М: 1929




1926-cı il siyahıyaalma materiallarında Ermənistan SSR-in 878.929 nəfər əhalisinin 85%-ni ermənilər, 10%-ni azərbaycanlılar, 2,2%-ni ruslar, 3%-i digər millətlərin nümayəndələrinin təşkil etdiyini görürük.

1930-1937-ci illər respressiyaları zamanı 100 minlərlə azərbaycanlı repressiyaya məruz qalmışdır. Erməni rəhbərlərinin keçirdiyi «təmizləmə» prosesi nəticəsində Araz və Yuxarı Arpaçay boylarında yaşayan azərbaycanlıların «guya elliklə Türkiyəyə köçmək fikrində» olduqlarını bəhanə edərək, 1937-ci ilin payızında Vedibasar, Zəngibasar, Üçkilsə, Noyemberyan və Ağbaba rayonlarının Türkiyə ilə həmsərhəd kəndlərində yaşayan azərbaycanlılar kütləvi surətdə repressiyaya məruz qaldılar və minlərlə ailə sürgün edildi. Amasiya rayonunun Qızıldaş, Çaykənd, Xəncərli, Qızılkilsə və Bozqala kəndləri, Sisyan rayonunun Bazarçay, Ağkənd, Təzəkənd və Şam kəndləri, Zəngibasar rayonunun Arazqırağı kəndləri, Yeranadzor rayonunun Sallı, Gədik Vəngi və Nəbilər kəndi, Əzizbəyov rayonunun Taxtalar və Qabaxlı kəndləri azərbaycanlılardan «təmizləndi» – onların bir hissəsi həbs edilib Orta Asiyaya sürgün olundu, qalanları isə sıxışdırılıb didərgin salındı, onlarla kənd boşaldılmışdı. Ermənistandakı Azərbaycan ziyalılarının çoxu «xalq düşməni» adı ilə sürgünə göndərilmişdir. Vaxtı ilə Azərbaycan kəndlərinə hücum edən daşnak silahlı dəstələrinə qarşı müqavimət göstərən azər-

baycanlılar isə «sovet hökumətinin əleyhdarları» adı ilə həbs edilmiş və ya təqib olunmuşlar. Həmçinin, Türkiyə ilə sərhəddə yaşayan 50 mindən çox müsəlman kürdlər də Orta Asiyaya sürgün olunmuşdur.

Cədvəl 8

Ermənistan Respublikası əhalisinin milli tərkibi (1939, seçmə)

| Milli tərkib | cəmi |
|---|---|
| Bütün əhali | 1.282.338 |
| Onlardan: | |
| Ermənilər | 1.061.997 |
| Azərbaycanlılar | 130.896 |
| Ruslar | 51.464 |
| Kürdlər | 20.481 |
| Ukraynalılar | 5.496 |
| Assuriyalılar | 3.280 |
| Yunanlar | 4.181 |
| Gürcülər | 652 |
| Yəhudilər | 512 |
| Farslar | 24 |

1926-1939-cu illər arasında azərbaycanlı əhalinin sayı 47.715 nəfər azalaraq, 1939-ci ildə 130.896 nəfər olmuşdur. 1939-cu il və 1959-cu illər arasındakı 20 il ərzində isə artım baş verməmiş, əksinə azərbaycanlılar 23.148 nəfər azalmışdır. Bunun əsas səbəbi kimi 1948-ci ildən başlayan deportasiyaları göstərə bilərik.

1946-cı ildə Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50.900 nəfər, 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İraq və Livandan 35.400 nəfər erməni qəbul edilib Ermənistanda yerləşdirildi. Xaricdə yaşayan ermənilərin Ermənistana qayıtması üçün torpaq çatışmadığını bəhanə edən erməni rəhbərliyi problemin həlli kimi Ermənistanda yaşayan yüz min azərbaycanlının Azərbaycana köçürülməsini tələb etməyə başladı.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı "Ermənistan SSR-də yaşayan kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli 754 saylı qərarları Ermənistanda yaşayan 150 min azərbaycanlının köçürülməsini nəzərdə tutur. Guya azərbaycanlıların yaşadığı evlərə xaricdən gələn ermənilər yerləşdirilməli idi. Lakin boşalmış 200-dən çox kənddə bir nəfər də olsun xaricdən gələn erməni yerləşdirilmədi. Ləğv olunmuş Qarabağlar rayonunun bütün kəndlərinin ərazisi Vedi rayonundakı ermənilərin mal-qarasının otlaq yerinə çevrildi. Martuni rayonunun dağ kəndlərinin erməni əhalisi Vedi və Artaşat rayonlarında, Ağin rayonunun dağ kəndlərinin erməni əhalisi Zəngibasar rayonunun Mehmandar və digər

kəndlərində yerləşdirilmişdir. Yalnız İrandan gələn ermənilər Üçkilsə, Noyemberyan, Artaşat rayonlarında bir neçə sovxoz təşkil etdilər.

1948-ci ildə Suriya, Livan, Fransa, ABŞ, Misir, Bolqarıstan və Rumıniyadan cəmi 10.000 nəfərə yaxın erməni köçürülür. Xaricdən gələn erməniləri Naxçıvanla sərhəddə və İrəvan ətrafından köçürülən azərbaycanlıların yerinə məskunlaşdırırdılar. Köçürülmə nəticəsində İrəvan ətrafındakı Əştərək, Qarabağlar, Qəmərli, Vedi, Gəngibasar, Oktemberyan, Üçkilsə rayonlarının və Arpa-Sevan xətti ətrafında yerləşən rayonların azərbaycanlılar yaşayan münbit torpaqları ermənilərin əlinə keçdi. Türkiyə ilə sərhədboyunda yerləşən Zəngibasar, Oktemberyan rayonlarının azərbaycanlı əhalisini köçürməklə özləri üçün etibarlı sərhəd zolağını təmin etdilər.

Beləliklə, 1946-1948-ci illərdə xaricdən Ermənistana cəmi 100.000 erməni köçürülür və 1948-ci ildə xaricdən ermənilərin köçürülməsi dayandırılır. Lakin azərbaycanlıların öz torpaqlarından köçürülməsi prosesi dayandırılmır. Əksinə, bu məsələnin həllinin sürətlənməsi üçün tədbirlər görülür.

Azərbaycanlıların Ermənistandan zorla köçürülməsi 1953-cü ilə qədər davam etdirilmişdir. Stalinin vəfatından sonra köç prosesi dayandı. Yaşayış şəraitindən narazı qalan əhali geri qayıtmağa başladı. Lakin öz doğma yurdlarına geri dönən azərbaycanlılar təqibə və haqsızlığa məruz qalırdılar. Ermənistan ərazisində yaşayan azərbaycanlıların köçürülməsi və onlara məxsus yaşayış məskənlərində ermənilərin yerləşdirilməsi prosesi ilə yanaşı, tarixini saxtalaşdırılması üçün toponimlər də dəyişdirilir.

Qeyd edək ki, 1948-1953-cü illərdə ermənilər azərbaycanlıları birinci növbədə əhalisi əsasən qarışıq olan, münbit torpaqlı və yaxşı təbii iqlim şəraiti olan kəndlərdən köçürürdülər. İqlim şəraiti çətin olan dağlıq zonada yerləşən kəndlərə isə hələlik toxunmurdular.

1948-1953-cü illər deportasiyası başlanan kimi, azərbaycanlılara məxsus təhsil və mədəniyyət ocaqları bağlanıldı. Bu proses 60-80-ci illərdə davam etdirildi. Amasiya, Basarkeçər, Krasnoselo və digər rayonlarda Azərbaycan dilində çıxan qəzetlər, İrəvan teatrı, X.Abovyan adına İrəvan Pedaqoji İnstitutunda Azərbaycan dilində təhsil verən 4 fakültə (Dil-ədəbiyyat, Tarix, Coğrafiya, Fizika-riyaziyyat), Ermənistan Dövlət Qiyabi Pedaqoji İnstitunun eyni adlı fakültələri, İrəvan Pedaqoji Texnikumu, yüzlərlə orta məktəb bağlandı. Müharibə illərində isə Leninakanda (Gümrüdə) fəaliyyət göstərən və Cənubi Qafqazda yeganə olan Süd Sənaye Texnikumunun azərbaycan şöbəsi bağlanıldı. «Kür-Araz ovalığı rayonlarını işçi qüvvəsi ilə təmin etmək» bəhanəsi ilə İrəvanda yaşayan azərbaycanlılarla bərabər Azərbaycan dilində olan Pedaqoji məktəb və onun 200 tələbəsi Xanlar rayonuna, Yerevan Pedaqoji İnstitutunun Azərbaycan bölməsi isə Bakı şəhərinə köçürülüb Azərbaycan Dövlət Pedaqoji İnstitutuna birləşdirildi. Müəllimlər isə Xanlara və Bakıya köçürüldülər. Ermənistan SSR-dəki Azərbaycan dilli tədris müəssisələri ya bağlanıldı, ya da Azərbaycana köçürülürdü.

1962-ci ildə yenidən ermənilərin Ermənistana köçürülməsi başlayır.

Kipr, Misir, Suriya, İran, ABŞ, Türkiyə, Uruqvay, Argentinadan gələn ermənilər əsasən sənaye şəhərlərində, Oktemberyan, Üçkilsə, Artaşat və Vedi rayonlarında yerləşdirilirlər. Ümumiyyətlə, 1962-1973-cü illərdə xaricdən Ermənistana 26.100 erməni gəlir.

Qeyd edək ki, 1960-cı illərdən başlayaraq yüksək vəzifədə olan azərbaycanlılar qanunsuz olaraq işdən çıxarılırlar. 1965-ci ildə isə qondarma «erməni soyqırımı»nın 50 illiyi qeyd edilir və mitinqdə Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları səsləndirilir. Bu faktlar əslində azərbaycanlılara qarşı hazırlanan yeni soyqırım və deportasiyalardan xəbər verirdi.

70-ci illərdə xaricdən gələn ermənilər üçün İrəvan ətrafında yeni yaşayış məskənləri salındı. Azərbaycanlılar yaşayan Təpəbaşı, Dəmirbulaq, Şəhər məhəllələrindən azərbaycanlılar köçürülən sahələrdə yeni çoxmərtəbəli binalar tikildi. Lakin azərbaycanlıların köçürüldüyü digər yaşayış məskənləri sonralar da məskunlaşdırılmır. 1975-ci ildə Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin iclasında azərbaycanlıların çıxarıldığı kəndlərdə ermənilərin məskunlaşdırılmadığı və həmin kəndlərin boş qaldığı bildirilmişdir.

1959-1989-cu illərdə aparılan Ümumittifaq siyahıyaalma materiallarına görə Ermənistan SSR-in əhalisinin milli tərkibi (seçmə) aşağıdakı kimi olmuşdur:

Cədvəl 9

Ermənistan SSR-i əhalisinin milli tərkibi
(Ümumittifaq siyahıyaalma materialları əsasında)

| Milli tərkib | 1959 | 1970 | 1979 | 1989 |
|---|---|---|---|---|
| Bütün əhali | 1.763.048 | 2.491.873 | 3.037.259 | 3.304.776 |
| Erməni | 1.551.610* | 2.208.327 | 2.724.975 | 3.083.616 |
| Azərbaycanlı | 107.748 | 148.189 | 160.841 | 84.860 |
| Rus | 56.477 | 66.108 | 70.336 | 51.555 |
| Fars | 13 | … | … | … |
| Yunan | 4.976 | 4.181 | 5.653 | 4.650 |
| Kürd | 25.627 | 37.486 | 50.822 | 56.127 |
| Ukraynalı | 5.593 | 8.390 | 8.900 | 8.341 |
| Gürcü | 816 | 1.439 | 1.314 | 1.364 |
| Yəhudi | 1.024 | 1.003 | 953 | 676 |
| Assuriyalı | 4.326** | 5.544 | 6.183 | 5.963 |

*1959-cu il əhali siyahıyaalma materialları əsasında tərtib olunmuş «Dil və milliyyət lüğəti»nə əsasən, ermənilər özlərini «hay», «somex», «erməni», «frank», «zok» kimi göstərmişdilər.

** 1959-cu il əhali siyahıyaalma materialları əsasında tərtib olunmuş «Dil və milliyyət lüğəti»ndə aysorlar özlərini suriya, suriyalılar, assurlar, arameylər, xaldeylər, osuraylar kimi göstərmişlər. Sonrakı siyahıyaalmalarda onlar assurlar kimi göstərilib.

1939-cu il siyahıyaalma materialları ilə 1959-cu ilə aid materialları müqayisə etdikdə görürük ki, 20 il ərzində azərbaycanlıların sayının 2 dəfə

artmaq ehtimalı olduğu halda 1959-cu ildə Ermənistanda azərbaycanlıların sayı 107.748 nəfər, yaxud 1939-cu ilə nisbətən 23.148 nəfər az idi. İrəvan şəhərində cəmi 2.721 nəfər azərbaycanlı qalmışdı. Ermənilərin sayı isə 738.045 nəfərə çatmışdı.

1979-cu ildə keçirilən Ümumittifaq siyahıyaalmanın nəticələrinə görə, Ermənistanda azərbaycanlılar 160.841 nəfər, yaxud Ermənistan əhalisinin 5,3 %-ni təşkil edirdi.

Xaricdən ermənilərin gəlməsindən sonra, azərbaycanlıların sıxışdırması faktları artırdı. Əhalinin əksəriyyətini azərbaycanlılar təşkil edən rayonlarda (Krasnosela, Vardenis-Basarkeçər, Masis-Zəngibasar, Amasiya) əsas nomenklatur vəzifələrdə ermənilər işləyirdilər. Amasiya rayonu əhalisinin 86%-ni azərbaycanlılar təşkil etdiyi halda nomenklatur vəzifələrin 90%-ni ermənilər tutmuşdular.

1988-ci ilin noyabrından Dağlıq Qarabağa ərazi iddiaları ilə başlayan hadisələr Qərbi Azərbaycanın son yerli sakinlərinin də öz torpaqlarından qovulması ilə nəticələndi. Bütün Ermənistanda silahlı erməni dəstələri azərbaycanlılar yaşayan kəndlərə hücum edir, onları kəndi boşaltmağa məcbur edirdilər. SSRİ rəhbərliyinə və Azərbaycan hökumətinə ünvanlanmış müraciətlərə cavab olaraq Ermənistana Azərbaycan Nazirlər Sovetinin sədr müavini Musa Məmmədovun başçılığı ilə komissiya göndərilir. Komissiyanın işinin nəticəsində 1988-ci ildə Ermənistanda 208 min azərbaycanlının yaşadığı məlum olur. Azərbaycanlılara ərzaq və istehlak malları satılmır, tibbi xidmət göstərilmirdi. Azərbaycan hökuməti tərəfindən onlara heç bir kömək göstərilmədiyindən, əhali təzyiqlərə davam gətirməyərək Azərbaycana qaçmağa məcbur oldu. Azərbaycanlılarla yanaşı müsəlman kürdlər də xüsusi amansızlıqla qovuldular.

1991-ci ilin avqustunda azərbaycan kəndi Nüvədinin boşaldılması ilə son azərbaycanlı ailələri tarixi ata-baba yurdlarından – Qərbi Azərbaycandan çıxarıldılar. Zəngibasar, Vedi, Basarkeçər, Amasya və İrəvanda yaşayan əhali daha çətin şəraitdə qaçmağa məcbur oldular. 1988-1991-ci illərdə Ermənistandakı 185 azərbaycanlılar yaşayan və qarışıq etnik tərkibə malik yaşayış məntəqələrindən 230 min nəfərə qədər azərbaycanlı qovuldu. Onlara məxsus 31 min ev, 165 kolxoz və sovxoz əmlakı, çoxlu mal-qara talan edildi. 226 nəfər öldürüldü, 1.154 nəfər yaralandı, yüzlərlə adam işgəncəyə məruz qaldı.

**Miqrasiya prosesləri**. Rusiyanın Qafqaza yürüşləri və İrəvan xanlığını işğal etməsi ilə əhalinin məcburi və xarici miqrasiya axını güclənir. Bu miqrasiya prosesləri bölgənin etnik tərkibində dəyişikliklərə səbəb olmuşdur. Çar Rusiyasının türk-müsəlman əhaliyə qarşı soyqırım siyasəti əhalinin məcburi miqrasiyası ilə nəticələnmişdi.

Qərbi Azərbaycan əhalisinə qarşı **soyqırım** və öz tarixi dədə-baba yurdlarından **deportasiyası** elmi ədəbiyyatda 4 mərhələyə bölünür. Bu mərhələlər XX əsri əhatə edir. Daşnakların etnik təmizləmə siyasəti nəticəsində

1905-1907 və 1917-1920-ci illərdə Ermənistanda yaşayan azərbaycanlıların 98%-i qətlə yetirilmiş və ya qovulmuşdur.

**I mərhələ (1905-1907).** 1905-1907-ci illəri əhatə edən ilk mərhələyə aid mənbələr azdır. M.S.Ordubadinin tarixi sənədlər əsasında yazdığı «Qanlı illər» əsərivə əldə olan az saylı məlumatlar əsasında demək olar ki, 1905-ci ilin may-iyun aylarında İrəvan quberniyasındakı ermənilər burada yaşayan türk-müsəlman əhaliyə qarşı qırğınlara başlamışdılar. Əsas məqsədləri quberniyada müsəlmanların sayını azaltmaq və müstəqil erməni dövləti yaratmaq olan erməni daşnakları azərbaycanlıların yaşadıqları məhəllələrdə evləri qarət edərək dağıdır, əhalini qaçmağa məcbur edir, qalanları isə öldürürdülər. 1905-ci ilin iyun ayının 10-da təkcə Üçkilsə qəzasında 9 kənd yandırılır. Ermənilər İrəvan quberniyası ilə yanaşı Azərbaycanın digər bölgələrində də qırğınlar törətmişlər.

**II mərhələ (1917-1920).** 1917-ci ilin fevralından 1918-ci ilin martına qədərki dövrdə İrəvan quberniyasında azərbaycanlı kəndləri qarət edilmiş, dağıdılmış və yandırılmış, 100 min nəfərədək azərbaycanlı Sürməli, İrəvan, Üçkilsə, Şərur qəzalarını tərk etməli olmuşdur.

Ararat respublikası qurulduqdan sonra azərbaycanlılara qarşı soyqırımı dövlət siyasətinə çevrildi. Amerika alimləri Jastin və Karolin Makkartilərin məlumatına görə, 1920-ci ildə İrəvan quberniyasında 180 min müsəlman, yaxud quberniyanın müsəlman əhalisinin üçdə ikisindən çoxu ya öldürülmüş, ya da qaçqın düşmüşdü. AXC hökuməti İrəvan quberniyasında hakimiyyətinin bərqərar edilməsində çətinliklərlə üzləşirdi və azərbaycanlılara qarşı soyqırım və deportasiya siyasətinin qarşısını almaq üçün tədbirlər görməyə çalışırdı. Lakin daşnak hökuməti İrəvan quberniyasında geniş miqyaslı soyqırımı həyata keçirdi.

Ermənistan Respublikasının elan edilməsi və İrəvanın ermənilərə güzəştə gedilməsi İrəvan qəzasında ermənilərin mövqeyini gücləndirdi. Erməni-daşnak hökumətinin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırım siyasətinə ən çox məruz qalan bölgələrdən biri İrəvan qəzası idi.

Qərbi Azərbaycanın tarixi coğrafiyasına dair tədqiqatlarda keçmiş İrəvan qəzasına daxil olan yaşayış məskənlərinin tarixi, o cümlədən 1918-1920-ci illərdə erməni-daşnak hökumətinin azərbaycanlılara qarşı soyqırım siyasəti hərtərəfli araşdırılmışdır. Həmin araşdırmaların nəticələrinə görə, 1918-1920 illərdə Qəmərli (indiki Artaşat) rayonunda 20 minə yaxın azərbaycanlı qırılmış və doğma yurd-yuvalarından qovulmuş, 1915-1918 illərdə İran və Türkiyədən gətirilmiş ermənilər əvvəllər azərbaycanlılar yaşayan həmin kəndlərdə yerləşdirilmişdir. İrəvan quberniyasında 1918-ci ilin martına qədər dağıdılmış və tərk edilmiş müsəlman kəndlərinin siyahısında quberniyada 15.155 təsərrüfatı təmsil edən 199 kənd (100.626 nəfər) göstərilmişdir. 1917-1918-ci illərdə Yeni Bəyazid, Üçkilsə və İrəvan qəzalarından 200 min nəfərə yaxın qaçqın qeydə alınmışdır. 1917-1920-ci illərdə isə Qərbi Azərbaycandan, Naxçıvan və Qarabağdan yüzlərlə azərbaycanlı qaçqın düşmüşdür.

Bu illərdə AXC-nin Daxili İşlər Nazirliyinə daxil olan sənədlərdə viranə qoyulmuş, talan edilmiş və yandırılmış kəndlərin siyahıları göstərilir. Göyçə mahalından Gəncə qubernatoruna göndərilən teleqramlarda isə sağ qalan əhalinin Şərqi Azərbaycan ərazilərinə köçdüyü göstərilir. Arxiv sənədlərindən Göyçə mahalının əhalisinin Azərbaycan hökumətinə müraciət etməsinə baxmayaraq, ermənilərə qarşı yerli əhalinin parakəndə müqavimət göstərdiyi məlum olur.

1918-ci ilin payızında Andronikin komandanlıq etdiyi erməni quldur dəstələri Zəngəzura hücuma keçdi. Rut, Darabə, Ağadu, Baqudi kəndləri tamamilə dağıdıldı, Arxalı, Şyagur, Məlikli, Pulkənd, Şəki, Qızılcıq kəndlərində evlər yandırıldı. Sağ qalan əhali Qarabağa, İrana və İrəvana qaçmışdır. Zəngəzur qəzasında azərbaycanlılar yaşayan 52 kənd məhv edilmiş, 32 kənddə 495 ev dağıdılmış, 2.245 nəfər öldürülmüş, 304 nəfər diri-diri yandırılmışdır. Arxiv sənədləri əsasında məlum olur ki, ümumilikdə 1918-ci ildə Zəngəzur qəzasında 115 kənd, yəni bütün azərbaycanlı kəndləri məhv edilmiş, 7.729 nəfər, o cümlədən 3.257 nəfər kişi, 2.276 nəfər qadın və 2.196 uşaq öldürülmüşdür. Bu kəndlərdən 70-ə qədərinin əhalisi tamamilə qırılmışdı. Təkcə Dronun komandanlığı ilə Üçkilsədə və İqdırda 60 kənd ələ keçirilmişdir.

Soyqırım və sıxışdırılma nəticəsində 150 mindən çox Qərbi Azərbaycan sakini Şərqi Azərbaycana pənah gətirmişdir. 1919-cu il oktyabr ayının 1-nə kimi təkcə İrəvan quberniyasından 5.848 ailə (30.741 nəfər), Zəngəzur qəzasından isə 60 min nəfərə qədər qaçqın var idi. Ümumilikdə, 1918-1920-ci illərdə ermənilərin yerli azərbaycanlılara qarşı apardıqları soyqırım və deportasiya siyasəti nəticəsində 10 minlərlə insan məhv edilmiş və azərbaycanlıların sayı kəskin azalmışdır. Z.Korkotyan «Sovet Ermənistanının əhalisi 1831-1931» kitabında bu illərdə Ararat respublikası ərazisində yaşayan 575.000 nəfər azərbaycanlından 565.000 nəfərinin öldüyünü və qovulduğunu göstərir.

AXC Parlamentinin deputatı T.Makinskinin 1920-ci il 11 fevral tarixli məlumatında 1918-1920-ci illər erməni-daşnaklar tərəfindən öldürülənlərin sayının 100-120 min nəfərə çatdığı, 50 min insanın isə Azərbaycana pənah gətirdiyi, hətta onlardan bəzilərinin Türkiyəyə və Maku xanlığına qaçdığı bildirilirdi.

Sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlılar öz yurdlarına qayıtmağa başladılar. 1921-ci il sentyabrın 2-dək 626 nəfər azərbaycanlı qaçqın İrandan Ermənistana göndərilir. Bu illərdə 70 min azərbaycanlı və 3 min kürd Azərbaycan, İran və Türkiyədən geri qayıdırlar. Ermənistan SSR-in Xalq Komissarları Sovetinin Amerika yardım komitəsinə 1921-ci il 21 fevral tarixli məktubunda deyilirdi ki, indiyədək Zəngibasara 9.450 nəfər azərbaycanlı qaçqın qayıtmışdır.

1922-ci ildə azərbaycanlıların sayı 77.767 nəfərə, 1931-ci ildə isə 105.838 nəfərə çatdı.

1920-ci il dekabrın 2-də RSFSR-lə Sovet Ermənistanı arasında imza-

lanan hərbi-siyasi sazişin 4-cü maddəsində isə erməni ordusunun komandir heyətinin Ermənistanda Sovet hakimiyyətinin elan olunmasınadək törədikləri cinayətlərə görə cavabdehlikdən azad edilməsi, yəni onların son illərdə Azərbaycanın müxtəlif bölgələrində azərbaycanlılara qarşı zorakılıqlara görə məsuliyyət daşımadıqları ayrıca öz əksini tapmışdı.

Qeyd edək ki, Ermənistan Sovet Sosialist Respublikası elan edildikdən sonra da Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar sıxışdırılmış, aramsız qırğınlar, soyqırım və köçürmə siyasəti davam etdirilmişdir. Ermənilər çar Rusiyası dövründə olduğu kimi, sovet-bolşevik Rusiyasının himayəsi ilə də Cənubi Qafqazda öz ərazi iddialarını həyata keçirmişlər. Azərbaycan ərazisi hissə-hissə Ermənistan SSR-yə verilmiş, bu ərazilərin aborigen əhalisi – azərbaycanlılar öz tarixi torpaqlarından qovulmuşdur.

**III mərhələ (1948-1953).** II dünya müharibəsindən sonra Ermənistan hökuməti SSRİ rəhbərliyi və şəxsən İ.Stalin qarşısında bu respublikanın ərazisində, əslində isə öz dədə-baba torpaqlarında yaşayan azərbaycanlıların buradan köçürülməsi haqqında məsələ qaldırdı. Ermənistan rəhbərliyi bunu belə əsaslandırırdı: 1) guya "xaricdən gələn erməniləri yerləşdirmək üçün onların torpaqları çatışmır; 2) Azərbaycan SSR-in Kür-Araz ovalığında isə pambıqçılığı inkişaf etdirmək üçün işçi qüvvəsi çatışmır; 3) Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin Kür-Araz ovalığına köçürülməsi bu məsələlərin hər ikisinin həllinə imkan verər. Qeyd edək ki, ermənilər bu dəfə də istədiklərinə nail oldular. SSRİ Nazirlər Soveti 1947-ci il dekabrın 23-də "Ermənistan SSR-də yaşayan kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı və 1948-ci il martın 10-da "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı qərarlar qəbul etdi. Birinci qərarın birinci bəndində deyilirdi: "1948–1950-ci illərdə könüllülük prinsipi əsasında Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. 1948-ci ildə 10 min nəfər, 1949-cu ildə 40 min nəfər, 1950-ci ildə isə 50 min nəfər köçürülsün". Qərarın axırıncı – 11-ci bəndində isə Ermənistan SSR Nazirlər Sovetinə tapşırılırdı ki, Kür-Araz ovalığına köçürülən azərbaycanlıların evlərinə xaricdən gələn ermənilər yerləşdirilsin. Qərar gözlənilməz olması ilə yanaşı, həm də məcburi idi. Təsadüfi deyil ki, köçkünlərin Kür-Araz ovalığından kənarda məskunlaşdırılmasına yol verilirdi. Ən mühüm məsələlərdən biri də köçürülənlərin yeni köçürüldükləri torpaqlardan öz dədə-baba torpaqlarına geri qayıtmaları qadağan olunurdu. Onların boşaltdıqları tikililərdən və yaşayış evlərində xaricdən gələn ermənilərin yerləşdiriləcəyi nəzərdə tutulurdu. SSRİ rəhbərliyi hər iki ölkə üçün tədbirlər planı hazırlamış, Azərbaycana köçürüləcək insanlar üçün yaşayış yerlərinin təşkil edilməsi və digər göstərişlər verilmişdir. Lakin müharibədən sonrakı sosial-iqtisadi vəziyyət hazırlıq işlərini qısa müddətdə tamamlamağa imkan vermirdi.

Bununla yanaşı, «Kənd təsərrüfatı köçürülüşü üzrə güzəştlər haqqında» SSRİ Mərkəzi İcraiyyə Komitəsi və SSRİ Xalq Komissarları Sovetinin 1937-ci il 17 noyabr tarixli qərarı 1947-ci ildə Ermənistan SSR-dən köçürülən azərbaycanlılara şamil edildi. Bu qərar Sibir, Qazaxıstan və Uzaq Şərqə sürgün olunanlara aid idi. Qərarın tarixi torpaqlarından çıxarılan azərbaycanlılara aid edilməsi 1948-1953-cü il köçürülməsinin deportasiya olduğunu təsdiq edirdi.

1948-ci ildə Ermənistan SSR-dən Azərbaycan SSR-ə 1.799 təsərrüfat, 7.747 nəfər köçürülmüşdür. Azərbaycan SSR Sovxozlar Nazirliyinin iyunun 19-da verdiyi məlumata əsasən, iyunun əvvəllərində ilk eşalonlarla gələn 44 azərbaycanlı ailəsi Jdanov (indiki Beyləqan) rayonundakı sovxozlarda yerləşdirilmişlər. Sonrakı 50 vaqondan ibarət eşalonda gələn 101 təsərrüfat (382 nəfər, 98 ailə) isə Goranboyda yerləşdirildi. İlk köçürülən 8-10 min əhali Gəncə-Qazax zonasında yerləşdirilmişdi. Həmin müddət ərzində 2.834 nəfəri birləşdirən 429 ailə müxtəlif təzyiqlərə məruz qaldıqlarına görə özbaşına Azərbaycana gəlməyə məcbur olmuşlar.

1949-cu ildə Ermənistandan köçürülən əhali əsasən, Basarkeçər, Zəngibasar, Noyenberyan rayonlarından idi. Bu ilə aid rəsmi sənədlərdə 11.346 nəfərin köçdüyü göstərilir. 1949-cu ildə 40 min nəfər əvəzinə 10.595 nəfər köçürülür. Bu əhali Kür-Araz ovalığındakı Kürdəmir, Göyçay, Mirbəşir (indiki Tərtər), Salyan, Zərdab, Əli-Bayramlı, Sabirabad, Yevlax rayonlarında yerləşdirilir.

1948-1949-cu illərdə Ermənistan SSR-dən köçürülənlər əsasən yerli kolxozçuları sıxışdıraraq onların evlərinə yerləşdirilirdilər. Respublika rəhbərliyi köçürülmə planında dəyişiklik edilməsini xahiş edirdi.

Sənədlər təsdiq edir ki, 1950-ci il köçürülmənin ən ağır ili olmuşdur. Əhalini yerləşdirmək üçün yaşayış evləri yox idi. 1950-ci ildə köçürülənlər üçün 3.500 ev tikmək planlaşdırılsa da, 470 ev tikilmişdir. 1.488 köçkün ailəsi həyətyanı təsərrüfat sahəsi ilə təmin edilməmişdir.

Müxtəlif elmi ədəbiyyatlarda 1950-ci ildə təxminən 12 min nəfərdən çox, 1951-ci ildə isə 5-6 min nəfər əhalinin köçürüldüyü göstərilir. L.Həsənova isə 39 şəhər və rayonda yerləşdirilən və deportasiyaya məruz qalmış azərbaycanlıların illər üzrə saylarını aşağıdakı kimi göstərir.

Cədvəl 10

Ermənistan SSR-də
deportasiyaya məruz qalmış azərbaycanlıların sayı

| 1948 | 1949 | 1950 | 1951 | 1952 | 1953 | Cəmi köçürülənlər |
|---|---|---|---|---|---|---|
| 8.144 | 12.697 | 12.912 | 3.714 | 5.522 | 101.02 | 53.091 |

Köçkünlər Əli-Bayramlı, Salyan, Puşkin (Biləsuvar), Jdanov (Beyləqan), Saatlı, Sabirabad, Mirbəşir (Tərtər), Yevlax, Bərdə, Ağcabədi rayonlarında yerləşdirilmişdilər. Deportasiya olunan əhalinin heç birinin Dağlıq Qarabağ ərazisində yerləşməsinə icazə verilməmişdir. 1948-ci ilin avqustunda

Ermənistan SSR-dən Qarabağın Martuni rayonuna köçürülmüş 131 azərbaycanlı ailəsi (570 nəfər) üçün son dərəcədə dözülməz şərait yaradılmış və köçkünlər bu barədə respublika hökumətinə müraciət etsələr də heç bir nəticə olmamışdır. Əhali oradan qaçmaq məcburiyyətində qalmışdır.

Göründüyü kimi, azərbaycanlıların Ermənistandan zorla köçürülməsi 1950-ci ilə qədər deyil, 1953-cü ilə qədər davam etdirilmişdir.

Azərbaycandan əlavə azərbaycanlıların Gürcüstana köçürülməsi faktları da qeydə alınmışdır.

Zorla köçürülən azərbaycanlıların bir hissəsi 1948-1953-cü illərdə geri qayıtmağa başladı. 1954-cü ilin aprelinə qədər 1.155 təsərrüfatın geri qayıtdığı bildirilir. A.Paşayev 1948-1954-cü illərdə 13.628 ailənin Azərbaycandan Ermənistana geri qayıtdığını göstərir.

Kür-Araz ovalığına köçürülən əhali üçün lazımi şərait yaradılmadığından 1951-ci ildə geri qayıtma halları artır. Erməni tərəfi buna qarşı tədbir görülməsi üçün SSRİ və Azərbaycan rəhbərliyinə teleqramlar göndərirlər. Nəticədə SSRİ rəhbərliyi komissiya təşkil edir və Ermənistana göndərilir. Erməniləri qorxudan başlıca məsələ qayıdan azərbaycanlı ailələrinin apardığı təbliğat idi və bu da ermənilərin köçürmə siyasətinə mane olurdu.

Azərbaycan SSR kənd təsərrüfatı nazirinin Azərbaycan KP MK-ya və respublika Nazirlər Sovetinə ünvanlanmış 1954-cü il 14 oktyabr tarixli məktubunda 1948-1953-cü illərdə Ermənistan SSR-dən respublikanın Kür-Araz ovalığına 11.914 təsərrüfatın (53.000 nəfər) köçürüldüyü göstərilirdi. Köçürmə idarəsinin məlumatında ancaq 1949-cu ildə Ermənistan SSR-dən Azərbaycana özbaşına 856 ailə (4.396 nəfər) köçmüşdür.

1948-1950-ci illərdə qərarla cəmi 8.018 təsərrüfatda birləşən 34.382 nəfər köçürülmüşdür. Bununla yanaşı, ermənilərin əhalini sıxışdırması nəticəsində 1.000 təsərrüfatdan çox azərbaycanlı ailəsi ictimai əmlaklarını Ermənistanda qoyub özbaşına Azərbaycanın müxtəlif rayonlarına qaçmaq məcburiyyətində qalmışdılar.

İ.Stalinin vəfatından (1954) sonra azərbaycanlıların Ermənistan SSR-dən plan üzrə köçürülməsi dayandırıldı.

Bəzi ədəbiyyatda Ermənistandan Azərbaycana 144.654-200.000 nəfərin deportasiyaya məruz qaldığı bildirilir. L.Həsənova isə 1948-1956-cı illərdə deportasiyaya məruz qalmış əhalinin sayının 58.847 nəfər olduğunu göstərir.

Azərbaycanlılar əsrlər boyu yaşadıqları doğma vətənlərindən – Göyçə, Zəngəzur, Zəngibasar, Vedibasar mahallarından zorla Azərbaycanın Kür-Araz ovalığına köçürüldülər. Ermənistanın dağlıq-yaylaq rayonlarından köçürülən əhalinin əksəriyyəti Kür-Araz ovalığının aran iqlim şəraitinə alışa bilmir, kütləvi surətdə qırılır, digər hissəsi isə Azərbaycanın dağ rayonlarına qaçır və ya geri qayıdırdılar. Dağ rayonlarından gələn əhalinin Azərbaycan SSR-in Zərdab, Əli-Bayramlı, Kürdəmir, Göyçay, Mirbəşir, Salyan, Sabirabad, Yevlax rayonlarında yerləşdirilməsi iqlim şəraitinə uyğunlaşa bilməyən əhali arasında müxtəlif xəstəliklərin yayılmasına, ölüm hallarının

artmasına səbəb olurdu. Digər bir məsələ isə bir kənddən köçürülənlərin müxtəlif rayonlarda, kəndlərdə yerləşdirilməsi idi. Bu da köçürülən əhali arasında ciddi narazılıqlara səbəb olmuşdu.

Prezident Heydər Əliyevin 1997-cu il 18 dekabr tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanına əsasən həmin məsələlərin hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması üçün Prezidentin özünün sədrliyi ilə geniş tərkibdə dövlət komissiyası yaradılmışdı. Bu fərmanın Azərbaycan xalqına qarşı törədilən tarixi ədalətsizliklər – zorakı köçürmələr, soyqırım siyasətinin yenidən öyrənilməsi və beynəlxalq ictimaiyyətə çatdırılmasına mühüm təsiri olmuşdur.

**IV mərhələ (1988-1991).** Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların öz vətənlərindən zorla köçürülməsinin növbəti kütləvi və son mərhələsi 1988-ci ildə başlamışdır. Erməni millətçiləri üçün Ermənistanda ən münbit rayonlarda yaşayan azərbaycanlıları respublikadan zorla çıxarmaq Qarabağ məsələsini həll etmək qədər vacib idi. Azərbaycanlılar yaşayan evlərə ilk hücumlar 1988-ci il fevralın 22-dən başlayır. Əhalini qorxutmaqla, sıxışdırmaqla, işdən azad etməklə, ərzaq və geyim məhsulları satmamaqla və digər vasitələrlə köçməyə məcbur edirlər. 1988-ci il noyabrın ortalarında Azərbaycana 80.000 artıq qaçqın gəlir.

BMT Qaçqınlar komissarlığının məlumatlarında 1988-ci il dekabrın əvvəllərində Ermənistanda əsrlər boyu yaşadıqları 8 min kv.km ərazini əhatə edən 172 yaşayış məntəqəsindən 182 min azərbaycanlının qovulduğu göstərilir. Azərbaycanlılarla yanaşı 18 min kürd və min nəfərədək rusun da deportasiyaya məruz qaldığı bildirilir.

Digər mənbələrdə isə 1988-1991-ci illərdə Ermənistandan 230 min nəfər azərbaycanlının qaçqın düşdüyü, 216 nəfər azərbaycanlının (o cümlədən, 57 qadın və 23 uşaq) qətlə yetirildiyi göstərilir.

İşgəncələrə məruz qalaraq öldürülmüş 203 nəfərin işi ilə bağlı SSRİ prokurorluğuna və Azərbaycan istintaq orqanlarına göndərilmiş materiallardan məlum olur ki, onlardan 14 nəfəri odlu silahla, 45 nəfəri döyülərək, 13 nəfəri yandırılaraq, 131 nəfəri isə müxtəlif işgəncələrlə məruz qalaraq öldürülmüşdür. Qeyd edək ki, azərbaycanlılarla yanaşı, kürdlər, yezidlər, ruslar, malakanlar da didərgin salınmışdılar.

Zəngibasar, Vedi, Basarkeçər, Amasya və İrəvanda yaşayan əhali daha çətin şəraitdə qaçmağa məcbur olur. Zəngibasar rayonunda 12 azərbaycanlı kəndinin 26 min nəfər sakini evindən didərgin salınıb, 3.250 ev talan edilib, 22 nəfər faciəli sürətdə öldürülüb, 340 nəfər müxtəlif xəsarət alıb.

1991-ci il avqustun 8-də son azərbaycanlı kəndi Nüvədinin boşalması ilə monoetnik erməni dövlətinin yaranması prosesi başa çatdı.

Beləliklə, əldə olan arxiv sənədləri və statistik materiallara əsasən

müəyyən etmək olar ki, XX əsr ərzində təqribən 1 milyon 500 min azərbaycanlı öz yurdlarından qovulmuşdur. Lakin nə SSRİ, nə də Azərbaycan SSR mətbuatında yaranan vəziyyət, əhaliyə qarşı soyqırımı siyasəti, qaçqınlar, onların yerləşdirilməsi barədə heç bir məlumat verilmirdi. Yalnız 1988-ci ilin iyun ayının 10-da Azərinform etiraf etməyə məcbur olmuşdur ki, Ermənistandan Azərbaycana 3000 qaçqın gəlmişdir. Onları o zaman «qaçqın» yox, «daimi yaşayış yerlərini müvəqqəti tərk edənlər» adlandırırdılar.

**Qərbi Azərbaycandan olan qaçqınların yerləşdirilməsi.** Azərbaycanda qaçqınlıq probleminin tarixi XIX əsrdən - Rusiya imperiyası ilə İran arasında bağlanmış Türkmənçay (1828) müqaviləsindən sonra başlasa da, dövlət tərəfindən qaçqınların problemləri ilə məşğul olan rəsmi qurum XX əsrdə AXC hökuməti tərəfindən yaradılmışdır. 1914-1918-ci illərdə Birinci Dünya müharibəsi və erməni-müsəlman münaqişəsi nəticəsində yaranmış qaçqınlara kömək və himayədarlıq tədbirlərini həyata keçirilməsi məqsədilə AXC höküməti tərəfindən 1918-ci il iyunun 17-də Himayədarlıq Nazirliyi, 1919-cu il iyunun 23-də isə Qaçqın və məcburi köçkünlərlə bağlı komissiya yaradılmışdır.

AXC dövrünün ilk qaçqınları 1918-ci ilin oktyabrında İrəvan quberniyasının Eçmiədzin qəzasından olmuşdur. Bu əhali Qazax qəzasına axın etmişdir. 1919-cu ildə Zərgəzurun dağlıq hissəsindən və digər qonşu ərazilərdən olan 40 min nəfərədək qaçqın Cəbrayıl, Şuşa, Cavanşir qəzalarına və respublikanın digər rayonlarında yerləşdirilmiş və onlara dövlət tərəfindən kömək göstərilmişdir.

Qaçqınların əsas kütləvi axınlarından biri Yeni Bəyazid, Üçkilsə və İrəvan qəzalarından olmuşdur. Bu əhali Qazax, Gədəbəy, Gəncə və Şamaxı bölgələrində yerləşdirilmişdir. 1919-cu il yayın axırlarından Vedibasarda, Cənub-Qərbi Azərbaycanda və Ermənistanda müsəlmanların vəziyyəti olduqca çətinləşdi. Ermənistanın müsəlman əhalisinin böyük əksəriyyəti bu hadisələr nəticəsində qaçqına çevrilmişdi. Yenidən öz yerlərinə qayıtmaq istəyən kəndlilər dəfələrlə qovulmuş, evləri və torpaqları isə gəlmə ermənilər tərəfindən tutulmuşdur. İlin sonlarında ictimai-siyasi vəziyyətin gərginləşməsi ilə bu ərazilərdə yaşayan əhalinin vəziyyəti də daha ağırlaşdı. Onlar bütün əmlaklarından məhrum olaraq qaçqına çevrildilər.

Azərbaycan parlamenti əhalinin vəziyyəti barədə müraciətlərə əsasən 1919-cu il ərzində İrəvan quberniyasından olan qaçqınlara smetadan əlavə 13 milyon, Zəngəzur qəzasından olan qaçqınlara isə 3 aylıq yardım və qidalanma daxil olmaqla 18 milyon 750 min manat maddi kömək göstərilməsi barədə qərar qəbul etdi. Vəsait Zəngəzur qəzasını əhatə edən Xüsusi İdarələrarası Komissiyanın sərəncamına verildi.

Qaçqınların əsas kütləsinin kənd təsərrüfatı, xüsusilə əkinçi olduğu nəzərə alınaraq, onları Ərəş və Nuxa qəzalarında yerləşdirmək məqsədəuyğun hesab edildi. 1919-cu ilin yayında onlar Nuxa, Ərəş, Göyçay və Şamaxı qəzalarının boş torpaqlarında yerləşdirildilər. Qaçqınların bu hissəsinin kənd təsərrüfatına cəlb olunması və təsərrüfat yaratmaları üçün 21 milyon manata

qədər yardım edildi.

Qaçqınların problemlərinin həlli məqsədilə AXC hökuməti Ermənistan Respublikası ilə əlaqə yaratmalı idi. Lakin Azərbaycan tərəfinin müraciətləri çox vaxt cavabsız qalırdı.

1919-cu ilin may-iyun aylarında Azərbaycan parlamentində Ermənistanın müsəlman əhalisinə yardım göstərmək haqqında məsələ müzakirə olunduqdan sonra, İrəvana 15 vaqon un, taxıl, darı, arpa göndərilərək əhaliyə paylanıldı. Bununla yanaşı, İrəvanda müsəlmanlar üçün ambulatoriya və kimsəsiz uşaqlar üçün 85 yerlik uşaq evi açıldı (sonralar bura Amerika Komitəsinin himayəsinə verilmişdir).

AXC hökuməti ilə İrəvan quberniyasının soyqırıma məruz qalan azərbaycanlı əhalisi arasında əlaqələr yaratmaq, həmin quberniyadan olan azərbaycanlı qaçqınlara maddi yardım göstərmək və quberniyanın problemlərinin həll edilməsi məqsədilə 1919-cu ilin yanvarında Bakıda İrəvan Quberniyası Müsəlmanlarının Həmyerlilər Cəmiyyəti yaradılmışdır. Cəmiyyət parlamentə konkret məlumatlar verir, parlamentlə birlikdə qaçqınlara verilən yardımların çatdırılması və paylanmasını təşkil və nəzarət edirdi.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra verilən məlumatlarda Zəngəzur və digər qəzalardan gələn qaçqınların yerləşdirilməsi üçün Şuşada, Minkənddə və Qubada yetimxanalar açıldığı, qaçqınların bir hissəsinin yerləşdirilməsi, onların təminatının kəndlilərə həvalə edildiyi bildirilir.

28-ci diviziyanın rəisi Nesterovski XI Qızıl Ordunun rəisinə göndərdiyi 1920-ci il 22 sentyabr tarixli teleqramında bildirirdi ki, "daşnakların törətdikləri qırğından qaçıb xilas ola bilən qaçqınlar Naxçıvan rayonunda məskən salmışlar. Onların sayı təqribən milyona çatır. Qaçqınlar çox ağır şəraitdədirlər, açıq havada Araz sahilində lüt, ac, taqətdən düşürlər. Qocaların və uşaqların vəziyyəti daha ağırdır".

Ermənistanda sovet hakimiyyətinin qurulması ilə dağıdılmış təsərrüfatın bərpasına, həmçinin "milli ədavəti aradan qaldırmaq üçün Zaqafqaziya xalqları arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə", buna görə də azərbaycanlıların öz torpaqlarına geri qayıtmasına xüsusi diqqət yetirilməyə başlanıldı.

Qeyd edək ki, daşnak hökuməti müsəlmanlara məxsus əmlakı müsadirə etmiş, əksəriyyətinin evləri dağıdılmışdı. Bir çox insan geri qayıtmaq istəmirdi. Sovet hökuməti bu insanların həyatına zəmanət verdikdən sonra qaçqınlar evlərinə qayıtmağa başladılar. Lakin Ermənistan hökuməti qaçqınların geri qayıtmasının qarşısını almaq üçün müxtəlif bəhanələr gətirir, onları Ermənistan ərazisinə buraxmaq istəmirdilər. Geri qayıdan azərbaycan türklərini yerləşdirmək və qaçqınların məsələsi ilə məşğul olmaq üçün İnqilab Komitəsinin nümayəndəsi Kəngərlinski Culfaya ezam edilir.

Zəngəzur İnqilab Komitəsi ilə Azərbaycana aid Qubadlı qəza İcraiyyə Komitəsinin 1921-ci il 27 sentyabr tarixli iclasında qaçqınların maneəsiz öz

əvvəlki yaşayış yerlərinə qayıtmaları barədə qərar verilmişdir. Lakin Ermənistan tərəfi bəhanələrlə onların öz yerlərinə qayıtmalarına imkan verməmiş, əksinə hələ də orada qalan azərbaycanlıları sıxışdırmaqda davam etmişdi.

İ.Musayev bu mövzu barədə tədqiqatında Ermənistan İnqilab Komitəsinin «Qaçqınlar haqqında» qərarını şərh edir və qərar haqqında geniş məlumat verir. Qərarda göstərilirdi ki, «hazırda müxtəlif yerlərdən Ermənistana üz tutan böyük qaçqın axını (söhbət öz torpaqlarından qovulmuş azərbaycanlılardan gedir), Ermənistanın ərazisinin azalması ilə bağlı bəzi vilayətlərdən (Türkiyə nəzərdə tutulur) köçürülən qaçqınların yüklənməsi və nəhayət, ölkənin ərzaq, mənzil və nəqliyyat cəhətdən düşdüyü böhranlı vəziyyət aşağıdakıları tələb edir: 1) Ərzaq, nəqliyyat və yer məsələləri nizama salınanadək Ermənistana yollanan qaçqınları dayandırmaq xahişi ilə Şimali Qafqazın, Azərbaycanın Sovet hökumətlərinə və Naxçıvan İnqilab Komitəsinə müraciət olunsun; 2) bütün sərhəd dəstələrinə qaçqınları Ermənistana buraxmamaq tapşırılsın».

Bu qərara əsasən azərbaycanlılar öz torpaqlarına buraxılmadılar, əvəzində isə xaricdə yaşayan ermənilərin ələ keçirilən yeni ərazilərdə yerləşdirilməsinə çalışırdı. Türkiyə, Bolqarıstan, Rumıniya, İraq, İrandan ermənilərin bura qaçqın adı altında gəlmələri barədə faktlar mövcuddur.

Qərbi Azərbaycan (müasir Ermənistan) ərazisində yaşayan azərbaycanlıların növbəti kütləvi axınları XX əsrin sonunda başlayır. Böyük Ermənistan yaratmaq arzularını mərhələlərlə gerçəkləşdirən ermənilər 1988-ci ildən başlayaraq azərbaycanlıları öz dədə-baba torpaqlarından qovurlar. Ermənistan hökumətinin və yerlərdəki inzibati orqanların bilavasitə iştirakı ilə silah gücünə, qanlı qırğınlarla Ermənstandan qovulan azərbaycanlılar Azərbaycanın bütün rayonlarına səpələnirlər. İlkin məlumatlarda qaçqınların respublikanın 60 rayonunda məskunlaşdığı qeyd olunur. XX əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın silahlı qüvvələrinin Azərbaycan ərazisinə – Dağlıq Qarabağa təcavüzü isə Azərbaycanda yeni qaçqın ordusunun – məcburi köçkünlərin yaranmasına səbəb oldu.

Ən adi mənzil şəraitinin olmaması, güzəştlərin ləğv edilməsi qaçqınların çoxunun vəziyyətini yoxsulluq və müflisləşmə həddinə endirmişdir. Məcburi miqrasiya prosesi nəticəsində öz evlərini tərk etmiş qaçqınlar peşə-ixtisas strukturu, həyat tərzi, əmək bazarının miqyası və xarakteri baxımından yeni şəraitə asanlıqla uyğunlaşa bilmirlər. Uyğunlaşma prosesi isə bir çox sosial-iqtisadi münaqişələrlə şərtlənir. Qaçqınlıq statusuna görə verilən müavinətlər və humanitar yardımlar onların iş yerlərindən əldə edə biləcəkləri gəlirləri əvəz edə bilməz. Ona görə də əksər qaçqınlar kiçik küçə ticarəti ilə məşğul olur və təsadüfü qazanc əldə etməklə yaşayırlar. Tədqiqatlar göstərir ki, qaçqın işsizlər digər işsizlər kimi təhsil, peşə, maddi təminat və s. görə sosial qruplara ayrılmaqla yanaşı əlavə olaraq bazar məkanı, əmək bazarındakı davranışlarına görə də fərqlənirlər. Qaçqınlıq statusu biznes fəaliyyəti ilə məşğul olmalarına maddi təminat versə də, əksəriyyəti

yaşayış, qida məhsulları üçün pul vəsaiti əldə edə bilmirlər.

Xüsusi qayğıya ehtiyacı olan qaçqınların və məcburi köçkünlərin yaşayışı daima dövlətin diqqət mərkəzindədir.

1996-cı ildən başlayaraq Azərbaycanda davam edən iqtisadi inkişaf və maliyyə sabitliyi əhalinin həyat səviyyəsinin yüksəlməsinə şərait yaratmış, dövlətin sosial yönümlü siyasət aparmaq imkanlarını artırmışdır və qaçqınların sosial müdafiəsinə də geniş şərait yaratmışdır. Onların problemlərini sistemli şəkildə həll etmək və sosial müdafiəsini gücləndirmək məqsədilə Xüsusi Dövlət Proqramıları qəbul olunmuşdur. Bu Proqramlara uyğun olaraq 1998-2001-ci illərdə bir sıra rayonlarda (Füzuli, Bərdə, Ağdam, Tər-Tər və s.) yaşayış məntəqələrinin salınması, infrastrukturun yenidən qurulması, kommunikasiya xətlərinin, məktəblərin, tibb məntəqələrinin bərpası, təsərrüfatla məşğul olmaq üçün əkin sahələrinin ayrılması, yeni iş yerlərinin yaradılması istiqamətində çoxlu işlər görülmüşdür.

Qaçqın və məcburi köçkünlərin mənzil-kommunal şəraitini yaxşılaşdırmaq və məşğulluğunu artırmaq məqsədilə Azərbaycan Respublikasında Dünya Bankının, digər beynəlxalq və qeyri-hökumət və kredit təşkilatlarının maliyyə dəstəyi əsasında Sosial İnkişaf Fondu (1999, 6 dekabr) yaradılmışdır. Bu fondun vəsaiti hesabına artıq məcburi köçkünlər məskunlaşmış kəndlərin sosial infrastrukturunun bərpasına yönəldilmiş bir sıra mikrolayihələr həyata keçirilmişdir. Eyni zamanda daxili məcburi miqrasiyanın tənzimlənməsi ilə əlaqədar olaraq normativ-hüquqi baza yaradılmış və təkmilləşdirilmişdir. Bütün bunlar regionlarda qaçqınların səmərəli məskunlaşması, onların sosial-iqtisadi, mənzil-məişət, məşğulluq problemlərini həll etmək üçün geniş imkanlar yaratmışdır.

Normativ hüquqi aktların arasında Azərbaycan Respublikasının məşğulluq haqqındakı qanunu xüsusi yer tutur. Bu qanunda qaçqın və məcburi köçkünlərin işlə təmin olunması probleminin həlli istiqamətləri müəyyənləşdirilmiş, onların sosial müdafiəsi üçün əlavə təminatlar nəzərdə tutulmuşdur. Onlar üçün müəssisə, idarə və təşkilatlara kvota müəyyən edilmişdir. Kvota tətbiq edilən müəssisələrin siyahısı əvvəlcədən təsdiq edilir və kvotanın miqdarı müəssisədə çalışan işçilərin orta siyahı sayının 5 %-dən çox olmayaraq müəyyən edilir.

1997-ci il iyunun 25-də Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzünə məruz qalmış ərazilərdə fiziki və hüquqi şəxslərin 1996-1997-ci illərdə torpaq vergisini ödəməkdən azad edilməsi barədə qəbul edilmiş Azərbaycan Respublikasının Qanunu ilə erməni silahlı qüvvələrinin hərbi təcavüzünə məruz qalmış ərazilərdə iqtisadiyyatı dirçəltmək, sahibkarlıq fəaliyyətinə həvəsləndirmək və əhalinin bu ərazilərdə yenidən məskunlaşmasını möhkəmləndirmək məqsədilə fiziki və hüquqi şəxslər müəyyən müddətə torpaq vergisindən azad edilirlər.

Qeyd etmək istərdik ki, ərazilərimizin 20%-nin erməni qəsbkarları tərəfindən işğal olunması Azərbaycanı ağır vəziyyətə salmışdır. 1 milyondan

çox vətəndaş qaçqın və məcburi köçkünə çevrilərək ağır şəraitdə yaşamağa məcbur olmuşdur. Bu isə vətəndaşların böyük bir qisminin ağır sosial-iqtisadi şəraitdə yaşamağa məcbur edir.

**Qaçqın və məcburi köçkünlərə dair qanunvericilik.** Azərbaycan dövlətində qaçqınların, məcburi köçkünlərin, «qaçqın» statusu almaq niyyətində olan (sığınacaq axtaran) şəxslərin problemlərinin həlli ilə bağlı beynəlxalq normalara uyğun tam hüquqi baza yaradılmış, 46 Fərman və Sərəncam imzalanmış, Nazirlər Kabineti 215 qərar və sərəncam, Milli Məclis isə 23 Qanun qəbul etmişdir. 1992-ci il sentyabrın 29-da "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında", 1999-cu il mayın 21-də isə «Qaçqın və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanunlarda qaçqın və məcburi köçkün anlayışlarına, qaçqın statusunun verilməsi (həmçinin, verilməməsi), qaçqın statusu almaq istəyənlərə sığınacaq verilməsi, onların hüquq və vəzifələri və digər məsələlərə aydınlıq gətirilmişdir. Ermənistandan qovulmuş bütün qaçqınlara Azərbaycan vətəndaşlığı statusu verilmişdir.

«Qaçqın və məcburi köçkünlərin məskunlaşdığı düşərgələrdə idarəetmə sisteminin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1994-cü il tarixli 257 saylı fərmanı qaçqın və məcburi köçkünlərin məskunlaşdığı düşərgələrdə müşahidə olunan təşkilati qüsurların aradan qaldırılmasını və bu sahədə icra hakimiyyəti orqanlarının məsuliyyətinin artırılmasını nəzərdə tuturdu. Fərmana əsasən qaçqın və məcburi köçkünlərin məskunlaşdığı düşərgələrdə onların yerləşdiyi ərazinin şəhər və rayon icra hakimiyyətinin nümayəndəlikləri (3 nəfər icra hakimiyyətinin nümayəndəsi, nümayəndənin müavini, nümayəndəliyin katibi) yaradılır.

1999-ci il 21 may tarixli «Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının qanunu məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin məskunlaşdırılması, onların sosial müdafiəsi istiqamətlərini müəyyən etmişdir. Məcburi miqrasiyanın tənzimlənməsi istiqamətində aparılan işlər içərisində qaçqın və məcburi köçkünlərə müxtəlif güzəştlərin və imtiyazların verilməsi xüsusi qeyd edilməlidir. Göstərdiyimiz Qanunda qaçqın və məcburi köçkünlərin ölkə ərazisi üzrə səmərəli yerləşdirilməsi, hər ilə görə qaçqınlar üçün kvotların müəyyən edilməsi, onların birbaşa maliyyə baxımından müdafiə olunması, onlara hər cür köməkliyin o cümlədən qidalanma, torpaq, mənzil fondunun ayrılması, maddi yardım, sanitar-epidemoloji, sosial-məişət və s. təminatının həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Bundan başqa, demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində bir sıra Dövlət Proqramları hazırlanmışdır ki, bu da ölkədə qaçqınların və məcburi köçkünlərin problemlərini sistemli şəkildə həll etməkdə böyük rol oynayır. Həmin dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək, məcburi köçkünlərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq müvafiq sosial infrastruktur yaratmaq, iş yerləri açmaq

məqsədi ilə 1999-cu ilin dekabr ayında məcburi köçkünlərin sosial inkişaf fondu yaradılmışdır.

Münaqişənin həllinin uzandığı bir vəziyyətdə qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması mühüm əhəmiyyət kəsb edir. Məcburi köçkünlər uzun müddət çadır düşərgələrində, fin tipli yığma evlərdə, ferma, yeraltı qazma və yol kənarlarında, dəmir yolu üzərindəki yük vaqonlarında, ictimai binalarda, yataqxanalarda, təhsil müəssisələri binaları və uşaq bağçalarında, sanatoriya, pansionat, istirahət evlərində, turist bazalarında, tikintisi yarımçıq qalmış binalarda, qohum evlərində və s. yerlərdə ağır şəraitdə yaşamışlar. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə» Dövlət Proqramı müvafiq sahədə həyata keçirilən işlərin yeni mərhələsini təşkil edir. Proqram uğurla həyata keçirilmiş, qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün yeni qəsəbələr salınmış, Azərbaycanda mövcud olan bütün çadır düşərgələri ləğv edilmişdir.

Aparılan səmərəli işlərin nəticəsi olaraq 1992-2006-cı illərdə donor ölkə, beynəlxalq və yerli humanitar təşkilatlar tərəfindən Azərbaycandakı qaçqın, məcburi köçkün və aztəminatlı əhalinin sosial müdafiəsi ilə bağlı həyata keçirilən layihələrə təxminən 700 milyon ABŞ dolları həcmində vəsait sərf edilmişdir.

Lakin, Azərbaycan dövləti, donor ölkə, beynəlxalq maliyyə qurumları və humanitar təşkilatlar tərəfindən bütün mümkün olan tədbirlərin görülməsinə baxmayaraq, bu problemin fundamental həlli Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, qaçqınların və məcburi köçkünlərin öz doğma yurdlarına ləyaqətlə qayıtmalarıdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il noyabrın 14-də Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxış edərkən problemin yaranma səbəblərini belə göstərmişdir: "...bizim respublikada bu qədər qaçqının olmasının səbəbi Ermənistanın Azərbaycanın ərazisinə qəsd etmək məqsədi ilə başladıqları əvvəl siyasi, sonra isə hərbi əməliyyatların nəticəsidir. Bunların hamısı öz başlanğıcını 1988-ci ildən götürür. Ermənistanda yaşayan bütün azərbaycanlılar həmin il zorakılıq nəticəsində, onlara qarşı göstərilən təzyiq, təqiblər, ciddi təxribatlar və başqa fiziki əməliyyatlar nəticəsində, oradan məcburi çıxarılıb. Onlar Azərbaycana köçməyə məcbur olublar. Bundan sonra Axıska türklərinin bir qismi başqa regionlardan Azərbaycana köçüb. Azərbaycan ağır vəziyyətdə olduğu, özü Ermənistandan zorakılıqla çıxarılan qaçqınları qəbul etdiyi halda, başqa ölkələrdən, başqa regionlardan Axıska türklərini - bu qaçqınları da qəbul edib.

Bundan sonra isə Azərbaycanın öz ərazisində öz vətəndaşları müharibə nəticəsində, Azərbaycana qarşı olan hərbi təcavüz nəticəsində yurd-yuvalarını tərk edib, qaçqın vəziyyətinə düşməyə məcbur olublar." Tədbirdə dünyanın müxtəlif ölkələrinin, beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etməsindən istifadə edərək, problem hərtərəfli olaraq daha geniş ictimaiyyətə çatdırılmışdır.

1992-ci ildə Azərbaycan və Ermənistanın BMT-yə üzv olması ilə Dağlıq Qarabağ problemi regional müstəvidən çıxaraq ən gərgin beynəlxalq münaqişə ocaqlarından birinə çevrilmiş və beynəlxalq təşkilatların iclaslarının gündəliyinə daxil edilmişdi.

1992-ci il martın 24-də ATƏM-in Xarici İşlər Nazirləri Şurası Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi məqsədilə Minsk konfransını çağırır. Lakin Ermənistanın hərbi təcavüzünün davam etməsi, Azərbaycan rayonlarının işğalı bu qrupun işini təşkil etməyə mane oldu. Hərbi əməliyyatların miqyasının genişləndiyi və əhalinin təcavüzə məruz qaldığı əsaslandırılaraq, Pakistan İslam Respublikasının BMT TŞ-na sədrlik etdiyi 1993-cü il 30 aprel tarixli 3205-ci iclasında Dağlıq Qarabağa aid ilk qətnamə – 822-ci qətnamə qəbul edildi. Bunun ardınca, BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ məsələsi ilə bağlı 1993-cü il 29 iyul tarixli 3259-cu iclasında 853, 14 oktyabr tarixli 3292-ci iclasında 874, 11 noyabr tarixli 3313-cü iclasında 884 saylı qətnamələr və müxtəlif vaxtlarda BMT TŞ-ı sədrinin bir neçə bəyanatını qəbul etmişdir. Həmin sənədlərdə Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilərək, sərhədlərin dəyişdirilməsi üçün zor işlədilməsinin yolverilməzliyi təsdiq edilir, eyni zamanda, Azərbaycan torpaqlarının işğal edilməsi pislənilir, silahlı əməliyyatlara və düşmənçilik hərəkətlərinə son qoyulması, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması, qaçqınların və məcburi köçkünlərin öz yurdlarına qayıtmasının, qaçqınlara humanitar yardım göstərilməsinin zəruriliyi göstərilirdi. Lakin təəssüflə qeyd etmək lazımdır ki, qətnamələrdə Ermənistan işğalçı dövlət kimi tanınmırdı və bütün sənədlərdə münaqişə Ermənistan-Azərbaycan münaqişəsi kimi deyil, Dağlıq Qarabağ və onun ətrafında münaqişə kimi qiymətləndirilirdi. Buna görə də görkəmli dövlət və siyasət xadimi Heydər Əliyev münaqişənin adını konkretləşdirmiş, həm bütün rəsmi sənədlərdə, həm də nitqlərində münaqişəni Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi şəklində ifadə etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan haqqında həqiqətlər beynəlxalq ictimaiyyətə çatdırıldı və Azərbaycan informasiya blokadasından çıxarıldı. Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyev bütün xarici səfərləri, beynəlxalq tədbirlərdə iştirakı zamanı, dövlət və hökumət rəhbərləri ilə görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat

vermiş, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsini xəritə əsasında əyani olaraq göstərmiş, müharibənin yaratdığı problemlər, qaçqınların və məcburi köçkünlərin vəziyyəti, onların hüquqlarının pozulmasını ilk dəfə olaraq dövlət rəhbərliyi adından dünyaya bəyan etmişdir. Onun siyasi fəaliyyəti və apardığı məqsədyönlü iş nəticəsində 1994-cü il may ayının 8-də Bişkekdə atəşkəs haqqında protokol imzalandı və mayın 12-də cəbhədə hərbi əməliyyatlar dayandırıldı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının 49-cu sessiyasında Azərbaycanın bir çox qlobal məsələlərlə bağlı mövqeyini beynəlxalq ictimaiyyətə çatdırmışdır və konkret tədbirlərin görülməsini tələb etmişdir. Bunun ardınca, 1995-ci ilin oktyabr ayında BMT-nin 50 illik yubileyində çıxış edərək regional münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair Azərbaycanın mövqeyini bir daha bildirmişdir. Bunun nəticəsində, 1996-cı ildən başlayaraq BMT Baş Assambleyasının "BMT və ATƏT arasında əməkdaşlıq haqqında" Qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyü təsdiqlənir. Heydər Əliyev 2000-ci ilin sentyabrında BMT-nin Minillik Zirvə Toplantısında da çıxış edərək bir daha dünya dövlətlərinin diqqətini həll olunmamış münaqişəyə cəlb etmişdir.

BMT Baş Assambleyasının 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında Azərbaycan beynəlxalq aləmdə BMT-nin rolunun artırılması və mövcüd problemlərin həllində daha təsirli tədbirlərin görülməsinə nail olmaq üçün əlavə addımların atılması zərurətini yenidən gündəliyə gətirdi. Sessiyada çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT TŞ-nın qəbul etdiyi 4 qətnamənin hələ də həyata keçirilmədiyini bəyan etdi

2008-ci il mart 14-də BMT TŞ-nin Baş Assambleyasının 62-ci sessiyasında "Azərbaycanın zəbt olunmuş sahələrinin vəziyyəti barədə" qətnamə qəbul edildi. Qətnamədə deyilir ki, Azərbaycanın ərazi bütövlüyü əsas göstərilməklə münaqişənin dinc yolla həll edilməsinə nail olmaq lazımdır. Səsvermədə iştirak edən 37 dövlət qətnaməni müdafiə etdi. 100 dövlət bitərəf qaldı, 45 dövlət isə səsvermədə iştirak etmədi. Ermənistan, Rusiya, ABŞ, Fransa, Hindistan, Anqola və Vanuatu isə qətnamənin əleyhinə səs verdilər. ATƏT-in Minsk qrupu həmsədr ölkələrinin bu qətnamənin əleyhinə səsverməsi isə guya onunla izah edilir ki, münaqişənin həlli ATƏT çərçivəsindən çıxarılaraq BMT müstəvisinə keçirilmişdir. Bundan sonra münaqişənin həllində ATƏT-in Minsk qrupunun fəaliyyətinin nə dərəcədə effektiv olub-olmaması şübhə doğurur.

Ermənistan Respublikası hələ də BMT TŞ-nin tələblərinə məhəl qoymayaraq Azərbaycanın ərazisini işğal altında saxlamaqda və orada öz hərbi qüvvələrini artırmaqda davam edir.

Beləliklə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanması üçün xeyli səylər göstərilmiş, lakin artıq 21 ildir

(1988-2009) ki, qaçqın və məcburi köçkün problemi, torpaqlarımızın işğaldan azad edilməsi öz həllini tapmayıb.

**Nəticə.** «Qərbi Azərbaycan: tarixi-demoqrafik tədqiqat» mövzusu qarşıya qoyulmuş məqsədə uyğun olaraq tədqiq olunmuşdur. Əhalinin demoqrafik dəyişikliyinin izlənilməsi ilə yanaşı ərazi-sərhəd məsələləri də tədqiqata cəlb olunmuşdur. Bölmə əməkdaşlarının tədqiqatları nəticəsində məlum olur ki, Qərbi Azərbaycanda (indiki Ermənistanda) tarix boyu azərbaycanlılar yerli əhali olmuş və üstünlük təşkil etmişlər. Lakin İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra (1827, 1 oktyabr) əhalinin etnik tərkibində ciddi dəyişikliklər baş vermişdir. Belə ki, çarizmin erməniləri məqsədyönlü şəkildə Azərbaycan torpaqlarına köçürməsi nəticəsində burada onların sayı süni surətdə artmağa başlamışdı. Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinin imzalanmasından sonra ermənilərin Qafqaza, əsasən Azərbaycan torpaqlarına köçürülməsi rəsmiləşdirilmiş, qondarma «Erməni vilayəti» (1828-1848) yaradılmış, erməni köçkünləri əhalinin sayını mexaniki şəkildə artırılmışdı. Cənubi Qafqaza köçürülən ermənilərin əsasən İrəvan və Naxçıvan qəzalarında, Mehri, Dərələyəz, Qafan, Ordubad, Vedi, Kəmərli, Kərnibar, Sürməli, Sərdərabad, Cəngəzun, Varaqşaped, Zəngibasar, Kərkibasar, Dərəçiçək və Aparana, o cümlədən Dağlıq Qarabağda məskunlaşdırılması həmin ərazilərdə yerli əhalinin – Azərbaycan türklərinin sayının azalması ilə nəticələnmişdi.

1918-1920-ci illərdə indiki Ermənistan ərazisində yaşayan bütün azərbaycanlılar soyqırım siyasətinə məruz qalmış, günahsız adamlar, qadın və uşaqlar ağlasızmaz işgəncələrlə qətlə yetirilmişdir. Erməni, gürcü, azərbaycanlı və türk mətbuatının məlumatına görə, İqdır və Üçkilsə qəzalarında 60 kənd və onların bütün kişiləri, Yeni Bəyazitdə 84 kənd və 15.000 ev, İrəvan qəzasında bütün kəndlər, Üçkilsə və Sürməli qəzalarında 156 kənd və qəsəbə, Zəngibasarda 48, Vedibasarda 118, Dərələyəzdə 74, Zəngəzurda 115 kənd dağıdılmış və əhalisi öldürülmüşdür.

İndiki Ermənistanın 36 rayonundan 33-də 1918-ci ilədək azərbaycanlılar yaşamışdır. 1976-cı ildə isə 319 azərbaycanlılara məxsus kənd qalmışdı.

Aparılan tədqiqat nəticəsində məlum olur ki, XIX əsrdən başlayaraq bu əraziyə ermənilərin köçürülməsi ilə azərbaycanlıların sayı azalmağa başlamış, XIX və XX əsrlər ərzində azərbaycanlılar tarixi yurdlarını tərk etmək məcburiyyətində qalmışdılar.

Qərbi Azərbaycan barədə aparılan tədqiqatın nəticəsi olaraq qeyd etmək olar ki, ancaq 1905-1907 və 1918-1920-ci illərdə bu ərazinin aborigen əhalisi olan yarım milyon azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdir.

SSRİ Nazirlər Sovetinin «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» qərarı ilə azərbaycanlıların deportasiyasının III mərhələsi başlanmışdı. Nəticədə isə Ermənistandan köçürülən azərbaycanlıların «pambıq-

çılığın inkişafı naminə» Azərbaycan ərazisində yerləşdirilməsinə razı olan Azərbaycan rəhbərliyi bu sahədə gərgin iş aparıb, onları Sibirə sürgündən xilas etmişdilər. Bu deportasiya mərhələsindən sonra Qərbi Azərbaycanda əhalinin etnik tərkibinin, o cümlədən azərbaycanlıların sayının dəyişməsi tədqiq olunmuşdur. SSRİ-də keçirilmiş əhali siyahıyaalma materialları azərbaycanlıların sayına görə ermənilərdən sonra 2-ci yeri tutduğunu göstərir.

1948-1953 və 1988-1991-cu illərdə isə didərgin düşən azərbaycanlıların sayı 1,5 milyon nəfərdən çox olmuşdur. 1988-1991-ci il hadisələrindən sonra Qərbi Azərbaycanda – müasir Ermənistan respublikasında faktiki olaraq azərbaycanlı qalmamışdır.

1926-1989-cu illərdə Ermənistan SSR-i də yaşayan azərbaycanlıların sayının dəyişməsini aşağıdakı cədvəldə daha aydın izləmək olur.

Cədvəl 11

Ermənistan SSR-idə yaşayan azərbaycanlıların sayı
(1926-1989-cu illər)

| Illər | Bütün əhali | onlardan | | |
|---|---|---|---|---|
| | | erməni | azərbaycanlı | azərbaycanlıların bütün əhaliyə nisbətən, % |
| 1926 | 878.929 | 743.571 | 83.181 | 9,4 % |
| 1939 | 1.282.338 | 1.061.997 | 130.896 | 10,2 % |
| 1959 | 1.763.048 | 1.551.610 | 107.748 | 6,1 % |
| 1970 | 2.491.873 | 2.208.327 | 148.189 | 5,9 % |
| 1979 | 3.037.259 | 2.724.975 | 160.841 | 5,2 % |
| 1989 | 3.304.776 | 3.083.616 | 84.860 | 2,5 % |

Azərbaycanlıların tarixi ərazilərinin qədim adlarının dəyişdirilərək erməniləşdirilməsi, dini və mədəni abidələrimizin məhv edilməsi soyqırım siyasətinin tərkib hissəsidir. Soyqırımlar və deportasiyalar dövründə minlərlə tarixi abidələri, nadir maddi və mədəniyyət abidələri, məscidlər, minarələr, qəbirstanlıqlar yerlə yeksan edilmişdir. XIX-XX əsrlərdə azərbaycanlılar yaşayan 2 mindən artıq məskən müxtəlif yollarla – rəsmi köçürmələr, silah gücünə qovmaqla, soyqırım törətməklə, kəndləri yandırıb xaraba qoymaqla siyahıdan silinmişdir.

Tarixi saxtalaşdırmaq, təhrif etmək və Azərbaycan torpaqlarının tarixi adlarını dəyişdirərək Ermənistanı monoetnik dövlətə çevirmək hər zaman ermənilərin işğalçılıq siyasətinin tərkib hissəsi olmuşdur. Məhz bu məqsədlə 1935-1989-cu illərdə Ermənistanda minlərlə Azərbaycan toponimi xəritələrdən silinmişdir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. "1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan

Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı, “Azərbaycan” qəzeti, 1997, 19 dekabr.
2. «Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. Bakı, 2005.
4. Azərbaycan Respublikası. 1991-2001. Bakı, «XXI əsr - Yeni nəşrlər Evi», 2001.
5. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası. // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. №12, maddə 736. Azərbaycan Respublikası Prezidentinin nəşri. Bakı: 1999.
6. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990.
7. Böyük Sovet Ensiklopediyası.Birinci buraxılış. C.3.
8. Cabbarlı H. Geçmişten günümüze Ermenistan'da Azerbaycan türkleri. s.130// "Ermeni araştırmaları" jurnalı.Ankara, 2002, №4. – 395 s.
9. Deportasiya (məqalələr toplusu), B., 1998.
10. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı,1995.
11. Əhmədov B. Əsrin əvvəllərində azərbaycanlıların deportasiyası və soyqırımı (Göyçə mahalının tarixi materialları əsasında). // Dirçəliş–XXI əsr jurnalı. 116-117/2007. s.120-124.
12. Fərəcov Ş.F. Qərbi Azərbaycan əhalisinin tarixi haqqında. // Dirçəliş – XXI əsr jurnalı. 2008.s.350-355
13. Fərəcov Ş.F.. Ermənistan SSR əhalisinin təkrar istehsal məsələsinə dair. // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. №1, 2008, s.116-121.
14. Həsənov U. İrəvan xanlığı. Bakı, 1997.
15. Həsənova L.L.. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında. Bakı, 2003.
16. Qaçqınlar və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında: Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
17. Mahmudov Y.M., Paşayev A.Ə., Şükürov K.K.. Ermənilərin Cənubi Qafqaza köçürülməsi dair (Çar Rusiyasının karantin-gömrük sənədləri əsasında). Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik. Bakı, "Elm", 2007, s.113-135.
18. Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı, 2002.
19. Məmmədov İ.,Əsədov S.. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992.
20. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996.
21. Musayev İ. Azərbaycanın Zəngəzur mahalının bir hissəsinin Ermənistana ilhaqı. Bakı, «Azərbaycan və azərbaycanlılar» jurnalı, 2002, №1, s.77-81.
22. Mustafayev A.N. XIX əsr rus statistikasında Azərbaycanın etnodemoqrafik durumuna dair bəzi dolaşıqlıqlar haqqında. Bakı Universitetinin xəbərləri. Bakı, №2, 2005, s.113-118.
23. Mustafayev A.N. XVIII əsrin sonu və XIX əsrin ilk qərinəsində Şimal-Qərbi Azərbaycanın etnodemoqrafik durumuna dair. // "Bakı Universitetinin xəbərləri". Bakı, №4, 2005, s.10-19.
24. Paşayev A. Açılmamış səhifələrin izi ilə, Bakı, 2001.
25. Paşayeva U.M. Ermənilərin Qərbi Azərbaycan torpaqlarına köçürülməsi müasir qaçqın və məcburi köçkünlər probleminin əsası kimi. I məqalə. // Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri. Bakı, 2006, №7. 1-8 s.; II məqalə. //

Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri. B., 2007, №5, s. 312-315.
26. Paşayeva U.M. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində BMT TŞ-nın mövqeyinə dair. // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85-ci il dönümü münasibətilə keçirilmiş elmi-praktik konfransının materialları. Bakı, "Bakı Universiteti" 2008. s.341-352.
27. Şükürov K.K. XIX-XX əsrin əvvəllərində ermənilərin Cənubi Qafqaza köçürülməsi haqqında yeni sənədlər (çar Rusiyasının karantin-gömrük sənədlərindən) AMEA Tarix institutunun Elmi əsərləri. Xüsusi buraxılış. 2006.
28. Verdiyeva H.Y. XIX əsrin sonu – XX əsrin əvvəllərində İrəvan quberniyasında demoqrafik dəyişikliklərə dair. // Sumqayıt Dövlət Universiteti. "Elmi Xəbərlər". Sumqayıt, 2006, cild 2, №3, s. 27-30
29. Verdiyeva H.Y. İrəvan quberniyasında bəzi demoqrafik dəyişikliklərə haqqında. // Azərbaycan Tarix Qurumu. Azərbaycan tarixi məsələləri. Bakı, 2005.s.28-33.
30. Vəlizadə İ., Muradov B.. Ermənistan Azərbaycanlılarının soyqırımı. Bakı, 1996.
31. «Qarabağ dünən, bu gün və sabah» Ümumrespublika elmi-əməli konfransın materialları. Bakı, 2002-2007. // http://azadqarabag.azerall.info
32. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası // http:/www.human.gov.az
33. Азербайджанская Республика. Документы и материалы. 1918-1920. Баку, 1998.
34. Депортация Азербайджанцев из Армении// http://www.karabakh-doc.azerall.info/#n9
35. Историческая география Западного Азербайджана. Баку, 1998.
36. Описание переселения армян азербайджанских в переделы России. – Баку, 1990.
37. Очерки истории Еревана. Ереван, 1977.
38. РГАЭ РФ (быв. ЦГАНХ СССР), фонд 1562, опись 336.
39. Электронная версия бюллетеня «Население и общество» Института демографии и Государственного университета - Высшей школы экономики. Демоскоп WEEKLY. Приложения.

## Азербайджанская диаспора Российской Федерации*

Процесс постсоветского этнического размежевания вызвал целый комплекс политических, социальных, демографических проблем, которые должны были решать новые независимые государства. Молодые государства оказались в правовом поле один на один с проблемами межнациональных отношений. Миллионы бывших советских граждан стояли пред выбором – вернуться на Родину или остаться в стране проживания. Представители титульных народов получили статус национальных (этнических) меньшинств, объединившихся в диаспоры.

Для людей, оказавшихся на момент распада СССР в инонациональном окружении за пределами своей исторической Родины, кроме выбора в пользу культуры и языка основного населения стоял и вопрос сохранения на новом месте своей национальной самобытности, культуры и языка.

Для советских историков феномен «диаспоры» не был объектом специального изучения. Для крупнейшей многонациональной державы – Советского Союза, сочетавшего в форме своего государственного устройства национально-государственные и территориально-административные элементы, - национального вопроса «не существовало». В Союзе «сложилась» новая историческая общность людей – советский народ. Для советского правительства, «вооруженного» ленинской теорией о праве наций на самоопределение, категория «этничности» имела второстепенное значение и была намертво привязана к территории проживания титульного народа. Иными словами, например, национальные проблемы азербайджанцев имели право на существование только в пределах Азербайджанской ССР.

Формирование азербайджанской диаспоры берет начало с момента восстановления независимости Азербайджанской Республики, а точнее с возвращения Г.А.Алиева к государственной власти.

Азербайджанская диаспора проходит этап становления. По сравнению с классическими диаспорами – еврейской, греческой, армянской, азербайджанская диаспора сравнительно молодая. Она складывается в результате осмысленного объединения азербайджанцев в организационные структуры (землячества, общины, общества, национально-культурные объединения), с целью сохранения национально -

* Mövzu 2005-ci ilin elmi hesabatı və bölmənin dissertantı olmuş G.T.Novruzovanın elmi tədqiqatları əsasında hazırlanıb.

культурной самобытности, языка, духовного наследия своего народа. И, если ранее этнические объединения азербайджанцев возникали стихийно, то с провозглашением независимости Азербайджана организация диаспоры берется под эгиду государства.

Формирование диспоры связано с миграцией населения.

Распад СССР в 1991 году вызвал разлом единого этнического пространства. За пределами Азербайджана оказалось более миллиона человек, превратившихся в одночасье в национальные (этнические) меньшинства.

Этот процесс вызвал к жизни целый комплекс политических, социальных, культурных, межэтнических проблем, с которыми пришлось столкнуться новым независимым странам. Одна из этих проблем: становление и формирование диаспор титульных народов бывшего СССР на постсоветском пространстве.

Самой большой и организованной азербайджанской диаспорой на пространстве СНГ является азербайджанская диаспора Российской Федерации.

В 1989 году была проведена последняя Всесоюзная перепись населения. Согласно статистическим данным переписи общая численность азербайджанского населения в СССР составляла 6.770.403, по Азербайджанской ССР - 5.084.980 человек. По союзным республикам численные показатели были нижеследующими:

Таблица 1

Численность азербайджанцев, проживающих в республиках СССР (по материалам Всесоюзной переписи населения 1989 г.)

| Союзная республика | Чис-ть азербайджанского населения. |
|---|---|
| РСФСР | 335.889 |
| Украинская ССР | 36.961 |
| Белорусская ССР | 5.009 |
| Казахская ССР | 90.083 |
| Узбекская ССР | 44.410 |
| Грузинская ССР | 307.556 |
| Литовская ССР | 1.314 |
| Молдавская ССР | 2.642 |
| Латвийская ССР | 2.765 |
| Таджикская ССР | 3.556 |
| Туркменская ССР | 33.365 |
| Армянская ССР | 84.860 |
| Киргизская ССР | 15.775 |
| Эстонская ССР | 1.238 |
| Итого | 965.423 |

Суммируя официальные показатели численности азербайджанцев в целом по стране и по союзным республикам в отдельности, видим, что подсчет ошибочен. В итоговых показателях общей численности азербайджанцев не учтено 720.000 человек.

Согласно последней советской переписи населения 1989 года в РСФСР проживало 147.021.869 человек. Русское население составило 119.865.946 человек.

Наибольшая численность азербайджанцев, проживающих за пределами своей исторической родины, была зарегистрирована в РСФСР – 335.889 человек. Из них: мужчин-221.500, женщин – 114.389. Основная часть азербайджанцев была зарегистрирована в Северо-Кавказском и Центральном экономических районах.Так, в Республике Дагестан численность азербайджанцев составила 75.463 человека, в Московской области–5.974 чел., в г.Москве – 20.797 человек.

В 1989 году из Азербайджанской ССР в РСФСР выбыло 50.526 мигрантов. Из них 22.999 человек прибыли в Северо-Кавказский, 10.802 человека – в Центральный экономические регионы**.**

С развалом Союза в начале 90-х годов в Россию прибывают экономические мигранты, потерявшие свой социальный статус в Азербайджане. Они пополняют ряды нелегалов, занимающихся неквалифицированным, непрофессиональным трудом.

Миграция прочно связана с темой этнического предпринимательства. Речь идет о постепенном включении азербайджанских мигрантов в предпринимательскую нишу землячества, в неформальную этническую экономику. По данному вопросу В.Снисаренко пишет: «Азербайджанская община активно включена в работу по поддержке своих членов в удовлетворении их базовых потребностей для жизни в инонациональной среде… Эта община обеспечивает первичную адаптацию вновь прибывающих азербайджанцев в город. А оказание такой поддержки для азербайджанцев-мигрантов через национальную общину – это и есть классический пример использования этничности в экономических интересах».

Полная версия переписи населения независимого Российского государства была проведена в 2002 году. Согласно этой переписи численность населения страны составила 145.166.731 человек. Русского населения насчитывалось 115.889.107 человек. Численность азербайджанцев увеличилась с 335.889 (1989 г.) до 621.840 человек.

Материалы Всесоюзной 1989 г. и Всероссийской 2002 г. переписей населения позволяют заключить, что причиной преобладающего расселения азербайджанцев в Южном и Центральном Федеральном округах Российской Федерации является высокий уровень экономического развития указанных регионов, что, в свою очередь, обусловлено природными факторами, развитием и размеще-

нием производства, транспортным обеспечением, высокими доходами населения. Немаловажным является и фактор исторической обусловленности. Так, за межпереписной период численность азербайджанцев в Москве увеличилась с 20.727 до 95.563 чел., в Московской области - с 5.974 до 14.651 чел., в Санкт-Петербурге - с 11.804 до 16.613 человек соответственно. Общая численность азербайджанцев в Дагестанской АР в 2002 году составила 111.656 человек.

Социально-профессиональный статус, имущественное неравенство вытесняют экономических мигрантов на окраины России. Азербайджанцы стали осваивать Сибирский, Уральский, Дальневосточный федеральные округа. Так, по переписи 2002 года в Уральском ФО зарегистрировано-100.073, Сибирском ФО - 61.105, Дальневосточном ФО - 18.132 азербайджанцев. Впервые азербайджанцы зарегистрированы в Чукотской АО, Коми-Пермяцком АО, Усть-Ордынском АО, Корякском АО, Эвенкийском АО .

Интерес представляют статистические данные по коренным малочисленным народам Российской Федерации. Сравнительные данные показали, что по итогам Всесоюзной переписи населения 1989 года численность азербайджанцев превышала численность таких народов как кумыки, лезгины, карачаевцы и другие. Статистика 2002 года показала, что численность некоренного азербайджанского населения превышает численность коренного населения России среди 16 народов.

Таблица 2

Численность коренного населения РФ и азербайджанцев по материалам Всесоюзной переписи 1989 года и Всероссийской переписи 2002 г.

| Национальность | Общая численность. 1989 | Общая численность. 2002 |
|---|---|---|
| Азербайджанцы | 335.889 | 621.840 |
| Кабардинцы | 386.055 | 519.958 |
| Осетины | 402.275 | 515.579 |
| Буряты | 417.425 | 445.175 |
| Якуты | 380.242 | 443.852 |
| Коми (коми, коми-ижемцы, коми-пермяки) | 483.578 | 434.248 |
| Кумыки | 277.163 | 422.409 |
| Лезгины | 257.270 | 411.535 |
| Карачаевцы | 150.332 | 192.182 |
| Калмыки | 165.821 | 173.996 |
| Адыгейцы | 122.908 | 128.528 |
| Балкарцы | 78.341 | 108.426 |
| Алтайцы | 69.409 | 67.239 |

| | | |
|---|---|---|
| Черкесы | 50.764 | 60.517 |
| Ненцы | 34.190 | 41.302 |
| Ханты | 22.283 | 28.678 |
| Манси | 8.279 | 11.432 |

За последнее десятилетие окончательно сформировалась элита азербайджанской диаспоры России. Элита разделена по общепринятой в науке классификации – продуктивная и правящая элита; по сферам общественной жизни – политическая и интеллектуальная элита, бизнес-элита и бюрократия.

Азербайджанцы представлены в науке и образовании, промышленном комплексе и строительстве, искусстве и медицине, праве и бизнесе, средствах масссовой информации и, даже в религии. Исходя из сказанного, мы можем отметить, что элита азербайджанской диаспоры занята в интеллектуальном и производственном потенциале Российского государства.

Интеллектуальная элита азербайджанской диаспоры представлена разными по своей профессиональной занятости людьми. Это-заслуженный деятель науки, заслуженный врач Российской Федерации, директор НИИ детской онкологи и гематологии, профессор, Президент Всероссийского Азербайджанского Конгресса (ВАК) М.Дж. Алиев; главный редактор журнала «Вопросы истории» А.А. Искендеров; ректор Смольного Университета г. Санкт-Петербург, академик Петровской АН Г.М.Иманов; д.п.н., проф., ведущий специалист Военной академии РВСН МО РФ., Президент Фонда инновационных технологий Я.М.Нейматов; академик Академии проблем кАчества РФ, Председатель Президиума Конгресса национальных объединений России З.Годжаев; д.ф.н., проф., поэт и переводчик, председатель азербайджанского культурного общества «Оджаг» Т.Д.Меликов; известный журналист, член ЦС ВАК, член Совета ФНКА АЗЕРРОС Р.Арифджанов и многие другие.

Бизнес-элита представлена президентом «Крокус-Интернэшнл», вице-президентом ВАК А.И.Агаларовым; Президентом холдинга «АСТ», вице-президентом ВАК Т.М. Исмаиловым; к.э.н., бизнесменом, почетным архитектором г.Москвы, председателем ФНКА АЗЕРРОС, членом ЦС ВАК С.К.Садыховым; Председателем Совета директоров Инвестиционной группы «Объединенный капитал», членом ЦС ВАК Н.Ахундовым и т.п.

Самой первой организацией, объединивших азербайджанцев за пределами республики еще при советской власти была общественная организация «Оджаг».

Региональная общественная организация «Общество Азербайджанской культуры «Оджаг» была зарегистрирована 3 октября

1989 года, а действовать начала еще раньше, в самый разгар «перестройки и демократизации». Она стала одной из первых национально-общественных организаций, действовавших в Москве. На учредительном собрании, которое состоялось 28 февраля 1988 года, в состав первого правления Общества были избраны известные представители азербайджанской интеллигенции, проживающих в Москве– д.и.н., профессор С.Алиев; д.т.н, профессор А.Насибов; д.и.н. Д.Исмаилзаде; кинорежиссёр Р.Атамалыбеков, поэт И.Бадалбейли, журналист Ф.Агамалыев, инженер Ф.Фараджев, востоковед Р. Алиева и др. Бессменным руководителем общества «Оджаг» является Тофик Меликов, д.ф.н., профессор Московского государственного лингвистического университета, вице-президент ВАК, председатель комитета по образованию и гуманитарным вопросам ВАК.

Вскоре после своего создания, 28 мая 1988 года общество «Оджаг» организовало одно из своих наиболее запомнившихся мероприятий. Общество, впервые в советское время, широко отметило 70-летие Азербайджанской Демократической Республики – независимого демократического государства, провозглашенного 28 мая 1918. Это событие вызвало большой резонанс не только в Москве, но и в Азербайджане. «Оджаг» каждый год проводит «круглые столы», конференции, посвященные этой знаменательной дате в истории Азербайджана. Ежегодно проводятся научно-практические конференции, посвященные карабахской проблеме, трагическим январским событиям 1990 года. Общество «Оджаг» сыграло ведущую роль в протестном движении москвичей-азербайджанцев, связанным с Бакинской трагедией 20 января 1990 года, когда советская армия учинила кровавую бойню в городе. Члены и активисты «Оджага» совместно с другими обществами организовывали акции протеста, пресс-конференции, на которых местные и зарубежные журналисты получали дивую информацию о Бакинских событиях, о действиях ской армии. Благодаря их усилиям была прорвана информационная блокада, применяемая советским государственным аппаратом.

В 1992 году была создана общественная организация «Международная азербайджанская гражданская ассамблея». Председателем общества являлся д.т.н., проф. Захид Годжаев. В 2000 году З.Годжаев был избран президентом Конгресса национальных объединений России, куда вошли более 30 диаспорных организаций России.

Если в советский период азербайджанцы объединялись в земляческие организации стихийно, то благодаря вовой базе независимого Российского государства, азербайджанцы объединились в новую организационную структуру - диаспору. Министерством юстиции РФ зарегистрированы крупные азербайджанские диаспорные организации. На федеральном уровне российские азербайджанцы учредили Фе-

деративную национально-культурную автономию азербайджанцев России (ФНКА АЗЕРРОС), Всероссийский Азербайджанский Конгресс (ВАК), Землячество азербайджанцев России. Каждая из этих организаций имеет свои региональные отделения.

В организации каждой из этих диаспорных организаций активнейшее участие принимали самые уважаемые, авторитетные российские азербайджанцы: заслуженный строитель России, академик МАИ, генеральный директор АО Строительная компания «Тверьгражданстрой» С.С.Абдуллаев; Герой Социалистического Труда, член-корр. РАН, главный советник Совета директоров международной группы компаний «ИТЕРА», вице-президент ВАК Ф.Г.Салманов; доктор исторических наук, первый директор исполнительного аппарата ВАК З.С. Нагдалиев; Председатель Совета директоров ОАО «Министрой», действительный член Международной Академии экологии и безопасности жизнедеятельности, член ЦС ВАК, Председатель Санкт-Петербургского отделения ФНКА АЗЕРРОС В.И.Мамишев; кинорежиссер с мировым именем Р.Ибрагимбеков; заслуженный врач РФ, д.м.н., проф., директор клиники многопрофильной терапии и профессиональных заболеваний г.Санкт-Петербурга Р.Ю. Аббасов и другие.

Учредительный съезд ФНКА АЗЕРРОС состоялся 15 июня 1999 года. На съезде был принят Устав, избран Совет и председатель Совета ФНКА АЗЕРРОС. Устав ФНКА АЗЕРРОС был зарегистрирован Министерством Юстиции Российской Федерации 1 октября 1999 года, получив свидетельство за номером 3794.

Основной целью ФНКА АЗЕРРОС являются – содействие сохранению и развитию азербайджанского языка, традиций, азербайджанской культуры в различных формах, становлению национального образования, содействие расширению плодотворного диалога между органами государственной власти, местного самоуправления и азербайджанскими общинами субъектов, содействие укреплению российской государственности, координация действий членов ФНКА АЗЕРРОС и т.д.

Учредителями ФНКА АЗЕРРОС являются: Московская национально-культурная автономия азербайджанцев, руководитель Керимов Агададаш Джабраил оглы; Тверская региональная национально-культурная автономия азербайджанцев «АзКА-Тверь», руководитель Абдуллаев Сардар Сулейман оглы; Ярославская региональная азербайджанская национально-культурная автономия, руководитель Ибрагимов Саявуш Мамедали оглы; Национально-культурная автономия «Азербайджан» в республике Коми, руководитель Гасымов Гасан Расул оглы; Азербайджанская национально-культурная автономия в Санкт-Петербурге, руководитель Мамишев Вагиф Имам оглы; Общественная организация «Костромская Азербайджанская национально-культурная автономия (ОО «КАНКА»), руководитель – Джафаров Шакир Адыгезал оглы.

ФНКА АЗЕРРОС имеет свои руководящие и контрольные органы.

Второй, созданной в Российской Федерации организацией азербайджанцев в России стал Всероссийский Азербайджанский Конгресс.

Всероссийский Азербайджанский Конгресс создан учредительным съездом 5 марта 2001 года.

Руководящим органом ВАК является Центральный Совет, избранный в составе 80 человек и Президиум из 15 человек.

Президентом Конгресса избран Лауреат Государственной Премии России, заслуженный врач России, доктор медицинских наук, профессор-онколог Мамед Багир Джавад оглы Алиев. Первыми вице-президентами Конгресса были достойные представители азербайджанской диаспоры России: К.А.Керимов и С.К.Фарманов – аксакалы диаспоры.

Первым вице-президентом ВАК является В.Ю. Алекперов – Президент ОАО «ЛУКойл». Вице-президентами также являются режиссер с мировым именем Р.И.Ибрагимбеков; Х.Д.Алекперов, А.С.Тагиев – руководящие работники юстиции федеральных организаций; А.И.Агаларов, Э.Б.Байрамов, Т.А.Исмаилов,А.С.Курбанов, И.А.Халилов – руководители ведущих международных и российских компаний, холдингов и предприятий; Ш.М.Гоюшев, Т.Д.Меликов, С.Г.Рагимов – руководители Ульяновской, Московской, Дагестанской региональных общественных организаций. Первым директором исполнительного аппарата ВАК был доктор исторических наук Зейнал Сафар оглы Нагдалиев.

Деятельность ВАК и его Президиума организуется в форме практической работы следующими структурными подразделениями:

Фонд экономического содействия Конгрессу; Комитет по связям с государственными органами, общественными организациями РФ; Комитет по культуре и искусству; Комитет по информационно-аналитической работе, связям со СМИ и международным контактам; Комитет по работе с молодежью; Комитет по организационно-уставной работе; Комитет по работе с регионами; Комитет по экономическим программам; Комитет по связям с правовыми органами.

Основным направлением деятельности азербайджанской диаспоры является участие в общественно-политической, социально-экономической и культурной жизни российской столицы и ее регионов.

Будучи полноправными гражданами Российской Федерации азербайджанцы участвуют в общественно-политической жизни страны. Выборы Президента Российской Федерации, выборы в Государственную Думу и в местные органы управления, баллотирование в депутаты Государственной Думы от политических партий, выборы мэра г.Москвы – вот далеко не весь спектр общественной активности азербайджанской диаспоры.

Всероссийский Азербайджанский Конгресс сотрудничает с крупнейшими российскими общественными организациями, а также с Комитетом по делам национальностей Государственной Думы РФ.

Центральное место в своей деятельности ВАК уделяет вопросам консолидации и объединения азербайджанской диаспоры в Российской Федерации. Конгресс направляет свою работу на защиту и реализацию гражданских прав азербайджанцев и выходцев из Азербайджана, сохранение национальных традиций, языка и культурного наследия азербайджанского народа, укреплению дружбы и сотрудничества между Российским и Азербайджанским государствами, распространения исторической правды о Нагорно-Карабахском конфликте, Ходжалинском геноциде.

В состав Конгресса вошло более 60 различных организаций. Более 50 региональных отделений ВАК зарегистрировано в субъектах Российской Федерации.

С лета 2002 года Всероссийский Азербайджанский Конгресс начал издавать свою газету «Азербайджанский Конгресс».

Азербайджанская диаспора России была широко представлена на первом съезде азербайджанцев мира.

**Список использованной литературы и источников:**


1. Национальный состав населения РСФСР. По данным Всесоюзной переписи населения 1989 г. с.4. М.: Республиканский информационно-издательский центр. 1990 .
2. Демографический ежегодник СССР. 1990 год.сс.562-563,М.: Финансы и статистика,1990
3. Снисаренко В.. Этническое предпринимательство в большом городе современной России (на материалах исследования азербайджанской общины Санкт-Петербурга). http //www. rambler.ru Азербайджанская община России.
4. Национальный состав населения.с.6 // Национальный состав населения и владения языками, гражданство. Книга 1.том 4. Итоги Всероссийской переписи населения 2002 года. В 14 томах. М. :ИИЦ "Статистика России",2004г.
5. Изменение численности населения, наиболее многочисленных национальностей автономных республик, краев, областей, автономных областей и автономных округов. сс.102-153.// Национальный состав населения РСФСР. По данным Всесоюзной переписи населения 1989 г. М.: Респ. инфор.-издат.центр. 1990 г.; Население по национальности и владению русским языком по субъектам Российской Федерации. сс.25-122. // Национальный состав и владение языками, гражданство. Книга 1.Том 4. Итоги Всероссийской переписи населения 2002 года в 14 томах. М.: ИИЦ «Статистика России», 2004.
6. Общество Азербайджанской культуры «Очаг-Оджаг». www.azeri.ru
7. Учредители ФНКА АЗЕРРОС. Федеральная Национально-культурная автономия Азербайджанцев России. www.azerros.ru.
8. Общероссийская общественная организация. Всероссийский Азербайджанский Конгресс. Всероссийский Азербайджанский Конгресс. http://www.vakmos.org.

# III BÖLMƏ

## XVIII-XX ƏSRLƏRDƏ AZƏRBAYCANIN ƏRAZİSİ VƏ ƏHALİSİ

### ИЛИСУЙСКОЕ СУЛТАНСТВО: ТЕРРИТОРИЯ И ЭТНИЧЕСКАЯ ИСТОРИЯ

*Э.М.ЛЕТИФОВА*
Кандидат исторический наук

Илисуйское султанство являлось одним из феодальных владений северо-западной части Азербайджана. Оно существовало со второй половины XVI века до 1844 года.

Территория султанства примыкала к территории Джаро-Белоканских вольных обществ с запада, и отделялась от неё реками Мухах-чай и Капы-чай, с юга границей султанства служила река Алазань и её приток Айри-чай, с востока река Гашга-чай, образовывавшая здесь границу с Шекинским ханством; на севере владения султанства переходили на северную сторону Главного Кавказского хребта, занимая район верховьев реки Самур (ныне эта северная часть владений бывшего Илисуйского султанства входит в состав Дагестанской республики – Э.Л.), и граничили с Кюринским ханством (1,с.73).

Для выяснения границ Илисуйского султанства весьма важный интерес представляет карта, составленная в 1873 г. и приложенная к статье И.Линевича «Бывшее Елисуйское султанство» (2).

В русской историографии XIX века бытовало мнение, согласно которому территория Илисуйского султанства, равно как и территория Джаро-Белоканских вольных обществ была якобы исконной территорией Грузинского царства, которая была завоёвана в результате «хищнического вторжения диких дагестанских племён» в XVII веке (1, с.27).

Однако, данные источников позволяют нам полностью опровергнуть подобные заявления историков Российской империи и доказать, что территория Илисуйского султанства является частью бывшей территории Кавказской Албании.

Исследователи истории Кавказской Албании К.В.Тревер (3), С.В.Юшков (4), Ф.Дж.Мамедова (5), К.Г.Алиев (6), Т.М.Мамедов (7) и

др., почти без исключения, подтверждают, что территория Илисуйского султанства составляла часть бывшей территории первой. Об этом также свидетельствуют некоторые памятники албанского зодчества, сохранившиеся по сей день на территории бывшего Илисуйского султанства.

В начале XI века западная часть Кавказской Албании (Герет) была завоёвана кахетинским царём Квирике (8,с.474). Однако, особенно укрепить свои позиции в северо-западных пределах Азербайджана Грузии удалось в период правления Давида Строителя (1089-1125), в особенности после взятия им Тифлиса в 1122 году и ликвидации Тифлисского мусульманского эмирства (9,с.22). Обратное отвоевание и возвращение этих территорий в состав Азербайджана происходит в конце XVI-начале XVII в.в. благодаря образованию и усилению государства Сефевидов.

Итак, утверждения имперских историков XIX в., а также и некоторых современных грузинских исследователей о том, что территория Илисуйского султанства, равно как и территория Джаро-Белоканских вольных обществ, якобы испокон веков принадлежала Грузии и была населена исключительно грузинами, оказываются несостоятельными при ознакомлении с источниками. Такие утверждения можно охарактеризовать лишь как грубое искажение исторических фактов, имевшее целью посеять религиозную и межэтническую рознь среди населения северо-западной части Азербайджана, в том числе и Илисуйского султанства, проживавшего бок о бок на протяжении веков в обстановке добрососедства и взаимопомощи.

Селения, входившие в состав Илисуйского султанства, подразделены в работе И.Линевича на четыре группы: Цахурскую, Илисуйскую, Карадолакскую и Сувагильскую (2,с.10). Однако так как Карадо-



лак являлся одним из кварталов с.Илису, было бы вернее подразделение селений султанства на три группы: Цахурскую, Илисуйскую или Карадолакскую и Сувагильскую (19, с.23).

Согласно сведениям И.Линевича, Цахурскую группу составляли следующие селения: Цахур – 107 дворов, Хиях – 25, Сёгут – 20, Муслах – 120, Микик – 50, Гельмец – 90, Курдул – 46. Все вышеперечисленные селения были расположены в нагорной части султанства. К этой группе причислялись И.П.Линевичем также селения Зарна – 109 дворов, Лекит – 125, Лекит-Малах – 15 (2,с.10).

Илисуйскую или Карадолакскую группу составляли селения: Сарыбаш – 149 дворов, Илису – 321, Агчай – 35, Кашкачай – 100, Юхары-Малах – 17, Ашагы-Малах – 44, Амбарчай – 64.

Сувагильскую группу составляли селения: Баш Сувагиль – 153 двора, Кас – 25, Каркай – 30, Калял – 40, Азгилли – 20, Джимджимах – 15, Кётюклю – 20, Кум – 200, Сабунчи – 5.

Селения Амирджан, Тангыт и Дайкент не входили в эти группы и находились в меньшей зависимости от султана и беков. В вышеперечисленные группы не входили и селения, находившиеся в личной зависимости от султанов: Ках, Алибегли, Мешебаш, Онджалы, Бабалы, Гораган, Шотавар, Алмалы и Сускент (2,с.15).

Часть селений составляли бекские владения: Фыстыглы – 40 дворов, Ибахлы – 27, Кичик Кётюклю – 15, Бёюк Кётюклю - 11, Узун-Тала – 5, Кара-Тала – 9, Казмалар – 40, Байдарлы – 22, Аманлы – 13, Кайсарлы – 19, Гыпчах – 59, Джалаир –47, Дегмедаглы – 35, Шихлар – 20[1].

Определение динамики численности населения Илисуйского султанства является очень сложной проблемой, так как перепись населения султанства начали проводить здесь лишь после окончательной ликвидации власти Илисуйских султанов.

Самая ранняя перепись населения Илисуйского султанства датируется 1831 годом и составлена Т.Н.Яишниковым (11, с.304-305). Ниже мы приводим составленный им список деревень с указанием числа дворов и семейств:

Таблица 1

Сведения о количестве дворов в селениях Илисуйского султанства

| № | Название деревень | Число дворов | Число семейств |
|---|---|---|---|
| 1. | Сарыбаш | 20 | 35 |
| 2. | Элису | 300 | 450 |
| 3. | Ахчай | 20 | 27 |
| 4. | Ках | 400 | 650 |

[1] Сведения о количестве дворов в селениях султанства, заимствованные и И.Линевича, относятся к 1873 году.

| | | | |
|---|---|---|---|
| 5. | Сакан | 10 | 16 |
| 6. | Кичик Малах | 7 | 9 |
| 7. | Бёюк Малах | 8 | 14 |
| 8. | Сувагиль | 100 | 180 |
| 9. | Кум | 50 | 39 |
| 10. | Сабунчи | 4 | 7 |
| 11. | Сускент | 20 | 34 |
| 12. | Амирджан | 50 | 64 |
| 13. | Кас | 15 | 18 |
| 14. | Калял | 20 | 24 |
| 15. | Зарна | 40 | 56 |
| 16. | Лекит | 15 | 18 |
| 17. | Малах | 8 | 12 |
| 18. | Мешебаш | 15 | 21 |
| 19. | Агатай | 5 | - |
| 20. | Амбарчай | 30 | 45 |
| 21. | Алибегли | 50 | 61 |
| 22. | Ибахлы | 20 | 24 |
| 23. | Бегляр | 12 | 18 |
| 24. | Базар-Тала | 3 | 7 |
| 25. | Бёюк Кётюклю | 20 | 28 |
| 26. | Кара-Тала | 4 | 9 |
| 27. | Кичик Кётюклю | 5 | 8 |
| 28. | Дамгалы | 10 | 17 |
| 29. | Кипчах | 50 | 64 |
| 30. | Кайсарлы | 13 | 17 |
| 31. | Аманлы | 12 | 14 |
| 32. | Байдарлы | 15 | 18 |
| 33. | Казмалар | 20 | 28 |
| 34. | Тангыт | 10 | 16 |
| 35. | Дайкент | 6 | 8 |
| 36. | Джалаир | 5 | 7 |
| 37. | Деймедаглы | 15 | 28 |
| 38. | Баш Сувагиль | 25 | 36 |
| Итого: | | 1.355 | 2.128 |

Согласно списку Яишникова, в 1831 году в Илисуйском султанстве проживало всего 2.128 семейств. Мы считаем,что эти данные нельзя считать точными, так как в этом списке из 52 деревень султанства перечислены всего 38.

По статистическим данным 1836 года владения Илисуйского султанства составляли 2.100 вёрст, а население – 21.000 душ мужского пола (12, с.24). Сведений о количестве населения женского пола в указанных данных не имеется.

Первое камеральное описание населения Илисуйского султанства было произведено в 1859 г. после окончательного его покорения. К этому времени население султанства составляло 2.981 дыма в 43 деревнях, входивших в Илисуйское и Карасуйское наибства (13, с.6-8). В 1871 г. в тех же 43 деревнях насчитывалось 3.456 дыма, в которых проживало 16.982 душ обоего пола (13), а в 1873 г. – 21.338 душ обоего пола (14). Сокращению численности населения по сравнению с 1836 годом способствовало, на наш взгляд, два фактора.

Во-первых, это было связано с переселенческой политикой, проводившейся Российской империей на территории султанства в 1852-1855 г.г. с целью подавления национально-освободительной борьбы, развернувшейся здесь против экспансии первой (15, с.74-76). В результате этой политики горные селения были частично уничтожены, а частично переселены на плоскость с целью содержания под контролем. Только в 1852 г. было переселено 1500 семейств (16,с.422).

Вторая же причина заключалась в отторжении царским правительством от Илисуйского султанства Горного магала (сс.Цахур, Муслах, Сёгут, Хиях, Микик, Курдул и Гельмец) и включении его в состав Самурского округа (17,с.434).

Население Илисуйского султанства было представлено тремя основными этническими группами, издревле проживавшими на северо-западной территории Кавказской Албании: цахуры, мугалы и ингилои.

Цахуры заселяли в основном оба склона Главного Кавказского хребта и северную и южную средню́ю части территории султанства. В трудах историков XIX в. цахуров, как и всех горцев вообще, называли «лезгинами» и считали их пришельцами-завоевателями, якобы захватившими восточную часть Кахетии в XVII в. (1,с.74).

Однако нет хотя бы одного источника, указывающего на переселение или вторжение цахуров значительной массой на северо-западные территории Кавказской Албании в какой-либо один период (1,с.74).

Наименование «цахур» не являлось самоназванием, а восходило к топониму Цахур, являвшемуся их главным населённым пунктом. Цахуры имеют самоназвание «йихъбы».

Этимология топонима Цахур до сих пор окончательно не выяснена. По нашему мнению, топоним Цахур образован из двух компонентов: Ца – огонь (на языке цахуров и некоторых соседних этносов-Э.Л.) и хур - селение (на лезгинском языке ) (18, с.229). Если учесть, что в областях Кавказской Албании до принятия христианства в IV в. имело место огнепоклонничество, то такое толкование этимологии топонима Цахур оказывается вполне логичным. По нашему предположению, топоним Цахур можно также связать с тюркским племенем «сак»-ов: Сак – хур, то есть «сакское поселение». Верность такого предполо-

жения, на наш взгляд, подтверждается и тем фактом, что до конца XIX в. на территории современного Гахского района, в трёх верстах от с.Гах имелся населённый пункт Сакан (19, 1, л.10).

Так, селения Илисуйского султанства Лекит, Лекит-Кётюклю, Лекит-Малах и Лек (Курдул) сохранили в своих названиях этноним албанского племени легов.

Другая народность, населявшая Илисуйское султанство – мугалы. Они в основном проживали на юге территории султанства и частично в предгорных селениях.

Историки XIX в., пытавшиеся исследовать проблему происхождения мугалов, старались доказать, что тюркский элемент, как и цахурский, в северо-западной части Азербайджана появился совсем недавно и, что указанные территории принадлежали Грузии.

Однако данные источников и топонимики позволяют отнести наличие здесь тюркских напластований уже в древности, начиная со скифского периода, затем гуннского и хазарского проникновения в начале н.э., и, наконец, огузского и монгольского периодов.

Ярким свидетельством наличия тюркского этноса на территории бывшего Илисуйского султанства ещё в древности является сохранившееся до наших дней название одного из горных перевалов в Илису – «Хун бели». Этот топоним, сохранившийся в народной памяти на протяжении многих веков, позволяет нам утверждать, что тюрки появились здесь ещё в начале н.э. и их появление в северо-западной части Азербайджана связано с перевалом «Хун бели».

Одним из древних ойконимов на территории Илисуйского султанства является Гыпчах. Селение Гыпчах сохранило название одного из крупнейших тюркских племён – кыпчаков. Известно, что кыпчаки проживали на территории Азербайджана уже с IV-V веков (20, с.825).

Другой ойконим, связанный с именем одного из кыпчакских племён «Онджа» – с.Онджалы Илисуйского султанства.

Следует отметить и связь с кыпчаками древнего названия с.Гах Илисуйского султанства. И.Линевич приводит предание, согласно которому Гах в древности называли Торагаем (2,с.15). В кыпчакско-латинском словаре «торагай» переводится как «впадина», «низменность» (21, с.288).

В ценнейшем источнике по тюркскому языку и истории «Дивану люгат-ит-тюрк», составленном в XI в. Махмудом Кашгарлы это слово приведено в форме «торуг» - «местность среди гор, где можно укрыться» (22, ч.I,с.373).

На северо-западной территории Азербайджана, в том числе и Илисуйского султанства, имеется ряд топонимов, связанных с тюркским племенем кыныков, которых М.Кашгарлы относит к одной из двадцати двух ветвей огузов, причём считает их самыми главными и первыми (22, ч.I, с.55). Имя кыныков в этом регионе сохранилось в

следующих топонимах: р.Ганых (Алазань), селения Баш Гёйнюк и Ашагы Гёйнюк Шекинского района, название горы Гонух и рода Гануглар в с.Илису.

Третий период массового появления различных тюркских племён в Азербайджане охватывает XIII-XIV в.в. и связан с монгольским завоеванием. Во время походов Хулагу-хана (1258-1265) в Азербайджане и других завоёванных территориях были поселены некоторые тюркско-монгольские племена, большинство из которых навсегда осело на занятых ими землях (23, с.69-70).

В топонимике Илисуйского султанства нашли чёткое отражение названия некоторых тюрко-монгольских племён. Селения Джалаир, Дамгалы, Гораган сохранили в своих названиях следы этих племён.

Другой топоним на территории Илисуйского султанства – Тангыт, безусловно, связан с тюркским племенем тангут, о котором сообщает Рашид ад-Дин (24,с.143). Племя тангут упомянуто также у М.Кашгарлы как «тюрки, проживающие вблизи Китая» (22, ч.III,с.362).

На территории Илисуйского султанства сохранились также топонимы Буджаг и Гарадолаг. Так, в сс.Илису и Байдарлы имеются кварталы – мехле Буджаг. Топонимы с компонентом «буджаг» сохранились в различных уголках Азербайджана: Гарабуджак в Кюрдамирском районе, с.Буджак в Огузском районе и сс.Ашагы Буджак и Юхары Буджак в Евлахском районе (25, с.30,38,62). Буджак – название одной из ветвей кыпчаков. Следовательно, топонимы Буджак также можно считать оставленными одноименными тюркскими племенами.

Что же касается топонима Гарадолаг, то это название одного из древних тюркских племён Азербайджана. Они жили в основном в Карабахе (26, с.54).

Этимологию этнонима мугал можно найти у Рашид ад-Дина: «Так как к ним (монголам-Э.Л.) была проявлена божественная помощь, то за время около четырёхсот лет от них произошло множество ответвлений и по своей численности они превысили другие (народы); вследствие же их могущества другие (племена) в этих областях также стали известны под их именем, так что большую часть тюрков (теперь) называют монголами» (24, ч.I, с.77).

По-видимому, вследствие искажения слово «монгол» постепенно приняло форму «мугал» и стало собирательным именем для всех тюркских племён, подчинённых монголами. Этнические группы, живущие в северо-западном Азербайджане, по настоящее время азербайджанцев называют мугалами, с которыми связан и ойконим Гах-мугал (27,с.74).

Третья этническая группа, проживавшая на территории Илисуйского султанства – ингилои.

Этимология этнонима ингилой до сих пор окончательно не выяснена. В научной литературе по этому поводу было распространено

мнение, что этноним ингилой произошёл от «йенгийол» - «новый путь», а сами ингилои являлись грузинами, принявшими ислам в начале XVII века (10,с.169). Однако по мнению Г.А.Гейбуллаева ингилои являются потомками гелов – племён, обитавших в северо-западной Албании, а этноним ингилой произошёл от слова «йенигелой», означающего «новообращённый» (10,с.169).

По нашему мнению ещё одним доказательством того, что предки ингилоев – гелы являлись одним из албанских племён, обитавших в её северо-западной области Камбисене, могут служить и некоторые топонимы, сохранившиеся на территории бывшего Илисуйского султанства и привлекшие наше внимание во время сбора полевого материала. Таковыми являются названия селений Гельмец, Сарвагел (древнее название с.Сарыбаш, сохранившееся в памяти местных жителей – Э.Л.) и Сувагиль. Название последнего, как мы полагаем, произошло от цахурского слова «сува» - гора и этнонима «гел». Если учесть, что с.Сувагиль Илисуйского султанства является высокогорным селением, то можно предполагать, что соседи живших там гелов называли «сувагиль», то есть «гелы, живущие в горах» (15, с.34). В пользу этого говорит также сохранение среди прочих цахурских родов в этом селении рода «Енгилавар»[1]. Предки этого рода были некогда ингилоями, а впоследствии были ассимилированы цахурами, хотя название их рода сохранило память об их происхождении.

Обстоятельство сохранения этнонима «гел» в названии селения Гельмец, население которого в настоящее время составляют исключительно цахуры, на первый взгляд также может показаться парадоксальным. Аналогичное суждение может вызвать также наличие указанного этнонима в названии Сарвагел (Сарыбаш), в котором не имеется иных следов ингилоев. В целом, в ходе сбора материала у нас сложилось мнение об этническом родстве или близости между ингилоями и цахурами. Так, в некоторых цахурских и ингилойских селениях полностью совпадают названия определённых родов. Так например, совпадают названия двух родов в ингилойском селении Загам и цахурском Микик – Таллайлар и Баллайлар (цахурский вариант – Таллер и Баллер[2]).

Естественно, что происходившие в последующие века исторические события, в особенности военные походы и административно-политические изменения оказали определенное влияние на этническую историю обитавших в регионе этносов.

Большую роль в процессе этнической интеграции этносов северо-западной части Азербайджана сыграло распространение здесь ислама,

---

[1] «Енгилавар» в переводе с цахурского означает «ингилои». Информация получена у жителя с.Сувагиль Исмаилова Нусрата Адиль оглы, 1949 г.рождения.

[2] «лер» - окончание множественного числа на цахурском языке.

начавшееся в VIII в.. Процесс исламизации населения северо-западного Азербайджана охватил длительное время.

После завоевания Джаро-Белоканских обществ и Илисуйского султанства Российской империей, часть ингилоев была постепенно обращена в христианство вследствие религиозной политики, проводившейся последней в регионе (15, с.76-79).

Очень часто политика христианизации сопровождалась превышением полномочий местного начальства, которое с целью выслужиться перед правительством, прибегало к насильственному насаждению христианства – чуждого для местного населения вероисповедания.

Таким образом, в результате религиозной политики, проводившейся в северо-западном Азербайджане, ингилои оказались разделёнными на христиан и мусульман.

**Источники и литература:**


1. Петрушевский И.П. Джаро-Белоканские вольные общества в первой половине XIX века. 2-е изд., Махачкала, 1993
2. Линевич И.П. Бывшее Елисуйское султанство. ССКГ, вып.7, Тифлис, 1873
3. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании (IV в. до н.э.- VII в. н.э.), М.-Л., 1959.
4. Юшков С.В. К вопросу о границах древней Албании. Исторические записки, М., 1937, т.I.
5. Мамедова Ф.Дж. Политическая история и историческая география Кавказской Албании. Баку, 1986
6. Алиев К.Г. Античная Кавказская Албания, Баку, 1992.
7. Мамедов Т.М. Кавказская Албания в IV-VII в.в., Баку, 1993.
8. Эсадзе С. Историческая записка об управлении Кавказом, т.I Тифлис, 1907
9. Мащмудов Й.М. Азярбайъан тарихи. Интибащ дюврц ( IX ясрин икинъи йарысы – XIII ясрин яввялляри) Бакы, 1996.
10. Гейбуллаев Г.А. Монгольские топонимы в Азербайджане. Известия АН Азерб. ССР, 1981, №4
11. Яишников Т.Н. Описание владения Илисуйского султана 1831 г. История, география и этнография Дагестана. М., 1958
12. Обозрение российских владений за Кавказом в статистическом, этнографическом и финансовом отношениях. Ч.1, СПб, 1836
13. Население Закатальского округа. ССКГ, вып.V. Тифлис, 1871
14. Сведения о количестве народонаселения в г.Закаталах и Закатальском округе по камеральному описанию 1873 г. ССКГ, вып.7, Тифлис, 1873
15. Летифова Э.М. Северо-западный Азербайджан: Илисуйское султанство, Баку, 1999
16. Письмо А.П.Ермолова к М.С.Воронцову. Архив князя Воронцова, вып.XXXVI, М., 1890

17. Проект положения об управлении Дагестанской областью. АКАК, т.12, Тифлис, 1904
18. Бушуева Е.Н. Словарь географических терминов и других слов, встречающихся в топонимии Дагестанской АССР, М., 1972
19. ГИА Азербайджанской республики. Ф.579, оп.1. Ингилойское (Закатальское) Благочиние, ед.хр.3.
20. Кляшторный С.Г. Древнетюркские рунические памятники как источник по истории Средней Азии. М., 1954
21. Куун Г. Ъодех ъуманикус. Будапест, 1981
22. Кашгарлы М. Диванц лцьат-ит-тцрк. 1-3 бюлцм. Анкара, 1985
23. Пириев В.З. Об исторической географии Азербайджана XIII – начала XV в.в. Историческая география Азербайджана, Баку, 1987
24. Рашид ад-Дин. Сборник летописей. Т.1, кн.1,2. М-Л., 1952
25. Азербайджанская ССР. Административно-территориальное деление на 1 января 1977 года. Баку, 1978
26. Ялийев Я.И., Нурийев Е.Б. Гах районунун топонимийасы. Азярб. ССР ЕА хябярляри, 1978
27. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, Т.I, Баку, 1991

# ÇUXUR-SƏƏD BƏYLƏRBƏYLİYİNİN ƏRAZİSİ

*B.Ş.ŞABİYEV*
Tarix elmləri namizədi

Səfəvilər dövlətinin inzibati-ərazi quruluşunun öyrənilməsi və bu strukturda tarixi Azərbaycan torpaqlarının yerinin müəyyənləşdirilməsi böyük tarixi əhəmiyyətə malikdir. Çox təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Səfəvi dövrü qaynaqlarında bu problemlə bağlı məlumatların qıtlığı ayrı-ayrı inzibati-ərazi vahidlərinin siyasi sərhədlərinin dəqiq müəyyənləşdirilməsinə imkan vermir.

XVI-XVII əsrlərin mühüm mənbələrindən olan Həsən bəy Rumlu, Şərəfxan Bidlisi, İsgəndər bəy Münşi və s. kimi salnaməçilərin əsərlərində Səfəvi dövlətinin inzibati-ərazi quruluşu haqqında nisbətən ətraflı məlumatlara rast gəlmək mümkün deyildir. Səfəvi dövlətinin inzibati-ərazi quruluşu haqqında nisbətən ətraflı məlumatlar XVI əsrin sonunda yazılmış Məcd əd-Din Məhəmməd əl-Hüseyninin «Zinət əl-məcalis» və XVIII əsrin ilk rübündə Mirzə Səmianın qələmə aldığı «Təzkirət əl-müluk» əsərlərində verilmişdir. Məcd əd-Din Məhəmməd əl-Hüseyninin əsəri XVI əsrin sonunda Osmanlı işğalı dövrünün inzibati quruluşunu, Mirzə Səmianın əsəri isə I Şah Abbasın ölümündən sonrakı dövrün inzibati bölgüsünü əks etdirdiyi üçün bu salnamələrdə əksini tapmış məlumatların XVI əsrin reallıqlarını necə əks etdirdiyini qətiyyətlə söyləmək mümkün deyildir (9, s.121).

Bütün bu çətinliklərə baxmayaraq qaynaqlarda və tarixi ədəbiyyatlarda əksini tapmış bilgilər əsasında Səfəvi dövlətinin mühüm inzibati vahidlərindən olan Çuxur-Səəd bəylərbəyliyinin ərazisi, siyasi sərhədlərini müəyyənləşdirməyə cəhd göstərək. Mirzə Səmianın məlumatına görə, Səfəvilər dövləti inzibati quruluşuna görə dörd valilik və 13 bəylərbəylikdən ibarət olmuşdur. Ərəb İraqı (Ərəbistan), Luristan, Gürcüstan və Kürdüstan Səfəvilər dövlətinin inzibati strukturunda valilik, Qəndəhar, Şirvan, Herat, Azərbaycan, Çuxur Səəd, Qarabağ, Astrabad, Kuhgiluyə (Fars), Kirman, Mərv (Mərvi Şahicahan), Həmədan (Qələmrovi Əlişəkər), Məşhədi-Müqəddəs, Qəzvin (Darüssəltəney) isə bəylərbəylik statusuna malik olmuşdur (4, s.100-102). Səfəvilərin hakimiyyəti dövründə tarixi Azərbaycan əraziləri dörd – Azərbaycan, Çuxur-Səəd, Şirvan və Qarabağ bəylərbəyliklərinin tərkibinə daxil edilmişdir. Tarixi ədəbiyyatlarda Çuxur-Səəd bəylərbəyliyinin ərazisi və onun tərkibinə daxil olan mahal və ya ölkələr haqqında müxtəlif məlumatlar öz əksini tapmışdır. Qafqaz Ermənistanı ərazisinin

böyük bir hissəsinin İrəvan və ya Çuxur-Səəd vilayətinin tərkibinə daxil olduğunu qeyd edən İ.P.Petruşevski bu bəylərbəyliyin Alaşkert, Bəyazid və Lori ölkələrini də əhatə etdiyini göstərmişdir (7, s.133-134). Müəllif «Təzkirət əl-müluk»un məlumatları əsasında bəylərbəyliklərin ərazisində XVI əsrlə müqayisədə bəzi dəyişikliklərin baş verdiyini müəyyənləşdirərək qeyd edir ki, XVII əsrin əvvəlinə qədər Naxçıvan ölkəsi Azərbaycan vilayətinin tərkibinə daxil idisə, XVII əsrin II yarısından etibarən isə Çuxur-Səəd bəylərbəyliyinin tərkibinə daxil olmuşdur. Ə.Ə.Rəhmaninin məlumatına görə, XVII əsrdə Çuxur-Səəd bəylərbəyliyinin tərkibinə Naxçıvan, Maku və Paşak (və ya Pasak) daxil olmuşdur (7, s.117, 133-134, 141-142). Müəllifin fikrincə Paşak Maku yaxınlığında kiçik bir rayon və qala olmuşdur (8, s.88; 9, s.123). Tədqiqatçı V.Piriyevin fikrincə, mərkəzi İrəvan şəhəri olan Çuxur-Səəd bəylərbəyliyinin tərkibinə Araz çayının hər iki sahilini əhatə edən düzənlik, XVII əsrdən etibarən Naxçıvan, Maku, Paşak və s. ərazilər daxil olmuşdur (5, s.75).

Erməni tarixçisi A.D.Papazyan Ayrarat vilayətinin mərkəzi hissəsinin, ətraf bölgələrlə birlikdə Ararat vadisinin XIV əsrin sonundan etibarən türkmənlərin başçısı Əmir Səədin adı ilə Çuxur-Səəd adlandığını qeyd edərək yazır ki, bu vilayət Axuryandan qərbdə yerləşən əyalətləri, həmçinin Qars və Kağızvan şəhərlərini də əhatə etmişdir (6, s.50). Müəllifin fikrincə XVI əsrdə yeni Osmanlı-İran sərhədləri müəyyənləşdikdən sonra bu vilayətin tərkibinə yeni nahiyə və mahal adları altında Ayraratın Varajnunik (Dərəçiçək), Niç (Abaran), Şirak (Şuragöl), Mazaz-Urq-Massyaqotn (Qarni-Vedi), Çakatk (Sürməli), Araqaqotn (Karbi). Kotayk (Qırxbulaq) əyalətləri və Sünikin Qekarkuni və Sotk (Göyçə dəniz) əyalətləri daxil olmuşdur (6, s.50). A.D.Papazyan Naxçıvan və onun ətrafındakı ərazilərin Səfəvilər dövründə «Tümən-e Naxçıvan» adı altında XVII əsrin əvvəllərinə qədər Azərbaycan, sonra isə Çuxur-Səəd bəylərbəyliyinin tərkibinə daxil olduğunu və Naxçıvan tüməninin ərazisində Sünikin Naxçıvan, Çauk (Şahbuz), Erncaq (Əlincə), Qoxtn (Azad-Ciran), Vayor Dzor (Dare-ye Eleqis) və Çxuq (Sisacan) əyalətlərinin yerləşdiyini göstərmişdir (6, s.50). Çuxur-Səəd bəylərbəyliyinə daxil olan əzəli Azərbaycan torpaqlarını tarixi Ermənistan ərazisi kimi qələmə verən A.D.Papazyan bununla kifayətlənməyərək demək olar ki, bütün Qarabağ bəylərbəyliyi, hətta Azərbaycan bəylərbəyliyi ərazisinin mühüm bir hissəsini də erməni torpaqları kimi təsvir etmişdir (6, s.49-51).

Görkəmli Səfəvişünas O.Əfəndiyev göstərir ki, mənbələrdə məlumatların azlığı Çuxur-Səəd vilayətinin ərazisini dəqiq müəyyənləşdirməyə imkan vermir. Bununla belə, müəllif XVI əsrin I rübündə İrəvan və Naxçıvanın Ustaclı elinin ölkəsi olduğunu, mərkəzi İrəvan şəhəri olan Çuxur-Səəd vilayətinin Araz çayının hər iki sahilini əhatə etdiyini qeyd etmişdir (11, s.70-71). Tarxi ədəbiyyatlarda Çuxur-Səəd vilayətinin ərazisi ilə bağlı müxtəlif mülahizələrin ortaya çıxması qaynaqlarda əksini tapmış bilgilərin qeyri-müəyyənliyi ilə əlaqədardır. Orta əsr səlnaməçilərindən Hafizi Əbru

və Əbdürrəzzaq Səmərqəndi Qaraqoyunlu tayfalarından olan Səədli elinin Naxçıvan və Sürməli bölgələrində məskunlaşdıqlarını qeydə almışlar (12, s.112). Ağqoyunlu salnaməçisi Əbubəkr Tehrani 1420-ci ildə Qara Yusifin oğlu İspəndin Çuxur-Səəd ərazisində qışladığını və Səədli camaatı tərəfindən taxta çıxarıldığını göstərmişdir (1, s.65). Həsən bəy Rumlu Qaraqoyunlu Qara İsgəndərin h. 840-cı ildə (1436-1437) Kağızmandan keçərək Çuxur-Səəd və Sürməlidə qışladığını, 1501-ci ildə İsmayıl Səfəvinin Çuxur-Səəddə Şərur adlı yerdə Əlvənd Mirzə ilə döyüşə girdiyini qeyd etmişdir. Həsən bəy Rumlunun bəzi məlumatlarında isə Çuxur-Səəd vilayəti İrəvan şəhəri ilə də eyniləşdirilmişdir (12, s.112).

XVI əsrin digər salnaməçisi Şərəf xan Bidlisinin məlumatları Naxçıvan və İrəvanın Çuxur-Səəd vilayətinə aid olduğunu göstərir (13, s.174, 245). Çuxur-Səəd vilayəti haqqında bəzi məlumatlara İsgəndər bəy Münşinin də salnaməsində rast gəlinir. Salnaməçinin məlumatına görə Qars Çuxur-Səəd və Ərzurum arasında yerləşir və Axısxa (Ahalsıx) ilə sərhədləşir (10, s.165). Bu məlumatdan göründüyü kimi Çuxur-Səəd vilayəti şimal-qərbdə Qars ilə həmsərhəd olmuşdur. XVIII əsr salnaməçisi Mirzə Səmia Çuxur-Səəd bəylərbəyliyinin ərazisi və onun tərkibinə daxil olan bölgələr haqqında nisbətən ətraflı məlumatlar vermişdir. Salnaməçinin məlumatına əsasən Çuxur-Səəd bəylərbəyliyinin tərkibinə İrəvan, Naxçıvan tüməni hakimi, Maku hakimi, Zəruzbil hakimi, Sədərək hakimi, Bəyazid hakimi, Şadili hakimi, Dunbuli eli hakimi, Maqazberd hakiminin idarəsi altında olan ərazilər daxil olmuşdur (10, s.100, 102).

Mənbələrin və tarixi ədəbiyyatlarda əksini tapmış bilgilərin əsasında belə bir nəticəyə gəlmək mümkündür ki, Çuxur-Səəd vilayəti şimal-qərb istiqamətində Şuragöl, şimal-şərqdə Göyçə gölü, cənub-qərbdə Qars vilayəti ilə sərhədləşmişdir. Şuragöl ərazisi də vilayətin tərkibinə daxil olmuş, Qars vilayəti ilə sərhəd Arpaçay boyu keçmişdir. Cənub və cənub-şərq istiqamətində Çuxur-Səəd bəylərbəyliyi Sürməli, Naxçıvan, Maku və Bəyazid qalasını da əhatə etmişdir. Onu da qeyd etmək lazımdır ki, siyasi hadisələrlə bağlı olaraq bəylərbəyliklərin siyasi sərhədləri müəyyən dəyişikliklərə məruz qalmış, heç də həmişə sabit olmamışdır. Osmanlı dövləti ilə sərhəddə yerləşən Çuxur-Səəd bəylərbəyliyinin ərazisi Səfəvi- Osmanlı qarşıdurmasının nəticəsində daha çox dəyişmişdir.

Bununla yanaşı, bəzi dövrlərdə, xüsusilə də XVI əsrin sonu –XVII əsrin əvvəllərində, XVIII əsrin 20-30-cu illərində bəylərbəyliyin ərazisi bütünlüklə Osmanlı işğalı altında olmuşdur. Osmanlı idarəçiliyi illərində bəylərbəyliyin ərazisində bəzi inzibati dəyişikliklər aparılmış, inzibati-ərazi vahidlərinin sayı artıb-azalmışdır. Osmanlı işğalı dövrlərində məmurların tərtib etdikləri «müfəssəl», «icmal» və s. səpkili dəftərlər Çuxur-Səəd bəylərbəyliyi və ya Osmanlı idarəçiliyi dövründə İrəvan əyaləti adı altında mövcud olan inzibati-ərazi vahidinin daxili bölgüsü haqqında maraqlı və ətraflı məlumatlar əks etdirir. Bu baxımdan 1590-cı il və 1728-ci il tarixli «İrəvan

əyalətinin müfəssəl dəftər»ləri daha böyük maraq doğurur. Belə ki, 1590-cı il tarixli müfəssəl dəftərə əsasən İrəvan əyalətinin 10 nahiyəsi (İrəvan, Karbi, Vedi, Aralıq, Talin, Ərmavi, Ərmus, Abnik, Abaran, Şərəbxana) olan İrəvan livası və 16 nahiyəsi (Ağcaqala, Məvaziyi-Xatun, Mülki-Arslan, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Zar, Zəbil, Əlincə, Sisyan, Azadciran, Ordubad), Şorlut, Dərənürgüt və bir qəzası (Naxçıvan) olan Naxçıvan livasından ibarət olmuşdur (3, 8-9). Maraqlıdır ki, 1724-cü il işğalından sonra Osmanlı məmurları İrəvan əyalətinin inzibati quruluşunda bir sıra dəyişikliklər aparmışdılar. Belə ki, Osmanlı məmurları 1728-ci ildə İrəvan əyaləti və 1727-ci ildə Naxçıvan sancağı üçün ayrıca müfəssəl dəftər tərtib etmiş, Zar, Zəbil və Şərur nahiyələrini Naxçıvan sancağından çıxaraq İrəvan əyalətinə birləşdirmişdilər. Bununla yanaşı 1590-cı ildə İrəvan əyalətində qeydə alınan Talin, Ərmavi, Abnik, Şərəbxana, Naxçıvan livasında Bazarçay və Ağcaqala nahiyələri ləğv edilmişdir. Eyni zamanda Maku, İğdır, Sürməli nahiyələrinin İrəvan əyalətinə birləşdirilməsi ilə bağlı olaraq əyalətin ərazisində Göyçə, Məzrəə, Xınzırək, Qırxbulaq, Dərəçiçək, Sədərək nahiyələri və Şuragöl livası yaradılmışdır. Aparılmış dəyişikliklər nəticəsində 1728-ci il müfəssəl dəftərinə əsasən İrəvan əyalətinin inzibati-ərazi quruluşunda İrəvan şəhəri, Qırxbulaq, Karbi, Maku, Xınzirək, Karni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrəə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zərzəmin nahiyələri və Şürəgəl livası mövcud olmuşdur (3, s.9). Naxçıvan sancağı isə 1727-ci il tarixli Naxçıvan sancağının müfəssəl dəftərinə görə Naxçıvan şəhəri, Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Sisiyan və Dərələyəz nahiyələrindən ibarət olmuşdu (2, s.37, 361).

Göründüyü kimi farsdilli qaynaqlardan fərqli olaraq Osmanlı mənbələrində İrəvan əyalətinin daxili quruluşu və inzibati vahidləri haqqında daha ətraflı məlumatlar verilmişdir.

Beləliklə, araşdırmalar göstərir ki, Çuxur-Səəd bəylərbəyliyinin ərazisi bəzi dövrlərdə müəyyən istisnalarla Ermənistan Respublikasının ərazisinin demək olar ki, hamısını, Türkiyə Cümhuriyyətinin bəzi ərazilərini, Cənubi Azərbaycan və Azərbaycan Respublikası ərazisinin bir hissəsini əhatə etmişdir.

**İstifadə edilmiş ədəbiyyat:**

1.Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilərin müəllifi R.Şükürova. Bakı, 1998
2. Naxçıvan sancağının müfəssəl dəftəri. Tərcümə edənlər Z. Bünyadov və H. Məmmədov. Bakı, 2001
3. İrəvan əyalətinin icmal dəftəri. Tərcümə edənlər Z. Bünyadov və H. Məmmədov. Bakı, 1996
4.Mirzə Səmia. Təzkirət əl-mülik. Ve kişeşe doktor Səid Məhəmməd Dəbirsiyaqi. Tehran, h.1368
5.Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, 2006

6.Папазян А.Д. Аграрные отношения в Восточной Армении вХУ1-ХУП веках. Ереван, 1972
7.Петрушевски И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX вв. Л., 1949
8.Рахмани А.А. Азербайджан в конце XV1 и в XVII веке. Баку, 1981
9.Рахмани А.А. Азербайджан: границы и административное деление в конце XVI-XVII вв. Историческая география Азербайджана. Баку, 1987
10.Tadhkirat al-muluk a manual of Safavid administration (crika 1137-1725). Persian text in faksimile translated and explained by Minorsky-London, 1943
11.Эфендиев О. Азербайджанское государство Сефевидов в XVI веке. Баку ,1981
12.Эфендиев О. Территория и границы Азербайджанских государств в XV-XVI вв.-Историческая география Азербайджана. Баку, 1987
13.Шараф-хан Бидлиси. Шараф-наме. Пер., пре-дис. и приложения Е. И. Васильевой.Т-П, М.,1976

# XVIII ƏSRIN ƏVVƏLLƏRINDƏ CƏNUBI QAFQAZ ƏRAZISINDƏ DEMOQRAFIK VƏZIYYƏT HAQQINDA (GƏNCƏ-QARABAĞ ƏYALƏTI ÜZRƏ)

*A.A.ABBASOVA*

XVIII əsrin əvvəllərində hakimiyyətə gəlmiş I Pyotr Rusiyanın ərazisini genişləndirmək və isti dənizlərə çatmaq üçün Cənubi Qafqaz ərazisini, o cümlədən Xəzəryanı bölgələri ələ keçirmək siyasətini reallaşdırmağa başladı. Lakin rus çarı həmin dövrdə siyasi proseslərin çox intensiv getdiyi beynəlxalq aləmdə heç bir əsas olmadan cənub bölgəsinə – qabaqcıl dövlətlərin maraqlarının toqquşduğu əraziyə yürüşə başlaya bilməzdi. Bunun üçün tutarlı bir "səbəb" lazım idi. Belə bir səbəb isə bu regionda yaşayan xristianlara - "bədbəxt ermənilərə və gürcülərə zalım müsəlmanlara qarşı mübarizədə yardım göstərmək" ideyası oldu. Bu dövrdə Cənubi Qafqazda yaşayan xristianlar arasında yalnız gürcülərin dövlət qurumları mövcud idi. Ermənilər isə bölgədə dağınıq halda yaşayırdılar. Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində yaşayan xristian əhali haqqında Osmanlı hakimiyyəti dövründə tərtib edilmiş ayrı-ayrı sancaqlara aid "müfəssəl dəftərlərdə" müəyyən məlumatlar verilir. Biz əsasən Gəncə-Qarabağ ərazilərində əhalinin etnik tərkibi haqqında məlumat verməyə çalışacağıq.

Gəncə-Qarabağ əyalətinin demoqrafik vəziyyəti haqqında məlumatları "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndən ala bilərik. "Müfəssəl dəftər"də verilən məlumatlara əsasən bölgədə yaşayan əhalinin sayı 100.000-dən çox olmuşdur. Bu bölgə haqqında danışarkən onu xüsusi qeyd etmək lazımdır ki, istər XVI əsr boyunca, istərsə də XVII əsrin sonu və XVIII əsrin əvvəllərində Osmanlı-Səfəvi qarşıdurmasında məqsəd kimi irəli sürülmüş siyasi maraqlarla yanaşı, hər iki dövlətin dini, daha doğrusu təriqət maraqları da vasitə kimi ön plana çəkilirdi. Döyüşlər zamanı insan tələfatı və əsir düşmələrlə yanaşı, Səfəvi dövlətinin ayrı-ayrı rayonlarında, o cümlədən Gəncə-Qarabağ əyalətində şiə əhalisinin qonşu, əsasən Şirvan və Təbriz əyalətlərinə köçləri başlayırdı. Köçürülən və əsir aparılan şiə təriqətli türk əhalisinin yaşayış yerləri isə təbii ki, boş qalırdı. Eyni zamanda, Gəncə-Qarabağ əyalətinin qeyri-müsəlman olan məlikləri gəlib osmanlılara itaətini bildirirdilər və bunun müqabilində öz vəzifələrində qalmaqla yanaşı, həm də yeni torpaqlar da alırdılar. Beləliklə, müşahidə olunan məcburi miqrasiyaların miqyası, boş qalmış yaşayış yerlərinin çoxluğu (40%) osmanlılarla aparılan döyüşlərdə yalnız müsəlmanların (türklərin) iştirak etməsindən

başqa, qeyri-təbii ölümün də yüksək olması belə bir fikir irəli sürməyə imkan verir ki, osmanlılar dövründə Gəncə-Qarabağ əyalətinin türk əhalisi 25 % azalmışdır. Bütün bunları nəzərə alaraq, Gəncə-Qarabağ əyalətinin əhalisinin sayının 121.975 nəfər olması, onlardan 65,9% türklər (80.340 nəfər), 31% ermənilər (37.885 nəfər) və 3,1% kürdlərdən (3.750 nəfər) ibarət olması aşkar olur (1, s.17).

Gəncə-Qarabağ əyalətinin etnik tərkibi ilə bağlı ermənilərin Rusiya çarlarına yazdıqları məktublarda göstərilən ermənilərin sayı adətən şişirdilirdi. Rusiyanın köməyi ilə müstəqil erməni dövləti yaratmaq istəyən İsrail Ori və Gəncə-Qarabağ əyalətinin dağlıq hissəsindəki məliklərin I Pyotra yazdıqları məktublarında göstərilən faktlara əsaslanan müasir erməni tarixçiləri Qarabağın dağlıq hissəsini və qonşu əyalətlərin əhalisinin hamısının ermənilərdən ibarət olduğunu iddia edirlər. Siyasi məqsədlə yazılan məktublarda əhali, onun sayı və etnik tərkibi barədə verilən məlumatların uydurma olduğunu nəzərdən keçirdiyimiz "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"nin məlumatları sübut edir. Orinin məlumatlarına əsasən 17 erməni vilayəti 116 min nəfərlik ordu yaratmaq iqtidarındadır; Sığnaqdakı ordu 50 min nəfərdən ibarətdir; Qandzasarda 40 minlik ordu var; Şoş adlı yerdə 6.900 nəfərlik qoşun yaradılıb və s.(1, s.18). Beləliklə, təkcə Qarabağın dağlıq hissəsində guya 96.900 nəfərlik ordu var imiş. Əgər orta əsrlər dövründə texnikadan daha çox canlı qüvvəyə üstünlük verildiyini, əhalinin 1/10 faizinin hərbi mükəlləfiyyət daşıdığını nəzərə alsaq, onda belə çıxır ki, Qarabağın dağlıq hissəsində 969.000 erməni var imiş. Halbuki, "müfəssəl dəftər"in məlumatlarına görə etnik mənsubiyyət və dini etiqadından asılı olmayaraq bütün Gəncə-Qarabağ əyalətinin əhalisinin sayı 121.975 nəfər olmuşdur (1, s.18).

Beləliklə, nəzərdən keçirdiyimiz 1727-ci il tarixli "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" aşağıdakı fikirləri söyləməyə əsas verir: 1) Azərbaycanın tərkib hissəsi olmuş və əhalisinin əksəriyyətinin türklərin təşkil etdiyi Qarabağda XVI əsrdən başlayaraq Osmanlı-Səfəvi qarşıdurması nəticəsində buranın türk əhalisinin xeyli hissəsi bu əyaləti tərk etmiş və bu səbəbdən də Qarabağda türk əhalisinin sayı müvəqqəti olaraq nəzərəçarpacaq dərəcədə aşağı düşmüşdür; 2) hakimiyyət dəyişikliyini düzgün qiymətləndirə bilmiş Qarabağ məlikləri boşalmış türk kəndlərini və torpaqlarını rüşvət və hədiyyələrlə ələ keçirərək burada erməniləri yerləşdirmişdilər; 3) müasir erməni tarixşünaslığının Qarabağ əhalisinin əsrlər boyu ermənilərdən ibarət olması və hətta onların burada əksəriyyət təşkil etməsi haqqında iddiası XVII əsrin sonu - XVIII əsrin əvvəllərində siyasi məqsədlərini həyata keçirmək naminə Eçmiədzin keşişi İsrail Ori tərəfindən ortaya atılmış avantüranın nəticəsində yaranmış uydurma faktlara söykənir (1, s.19).

Hətta Qarabağ əhalisinin sayı və etnik tərkibi haqqında Yermolov və Mogilyovun 1823-cü ildə tərtib etdikləri Qarabağ əyalətinin vergi dəftərinin tərkibində şovinist və millətçi əhval-ruhiyyənin özünü aşkar göstərdiyi halda belə azərbaycanlı əhalinin əksəriyyət təşkil etdiyi aydın nəzərə çarpır.

Belə ki, erməni ailəsi yerləşdirilən hər hansı bir azərbaycan kəndi erməni kəndi kimi qeydə alınmışdır. Başqa çatışmayan cəhət isə Qarabağa köçürülmüş erməni ailələrinin sayı birbaşa siyahıya alındığından, burada köçürülməyə qədər olan erməni əhalisinin sayını müəyyənləşdirmək mümkün deyil. Sənəddə 1823-cü ildə Qarabağda əhalinin say və milli tərkibi aşağıdakı kimi göstərilmişdir: cəmi 20.095 əhalinin – 15.729 ailə azərbaycanlılar, 4.366 ailə ermənilər; o cümlədən 1.111 şəhərdə yaşayan azərbaycanlı ailəsi, 421 şəhərdə yaşayan erməni ailəsi; o cümlədən 14.615 kənddə yaşayan azərbaycanlı ailəsi, 3.945 kənddə yaşayan erməni ailəsi (2, s.17).

Qarabağ xanlığının ləğvi zamanı, yəni 1822-ci ildə əhalinin nisbəti belə idi: azərbaycanlılar xanlığın 80%-ni, erməniləşmiş albanlar və gəlmə ermənilər isə 20%-ni təşkil edirdi. Həmçinin onu da qeyd etmək lazımdır ki, əhalinin azərbaycanlılardan təşkil olunan hissəsini vergidən yayındırmaq üçün kəndxudalar, naiblər onların sayını gizlədir, siyahılara salmırdılar. Əgər əyalət əhalisinin kameral təsvirini dəqiq aparmaq olsaydı azərbaycanlı əhali üç dəfə artıq olardı (3,VII).

Ümumiyyətlə, "Qafqaz Arxeoloji Komissiyasının Aktları" toplusundakı məlumatlara əsasən Rusiya imperiyasının Cənubi Qafqazı istilasınadək Azərbaycan xanlıqlarında yaşayan xristian ermənilər bu yerlərin əhalisinin çox az bir qismini təşkil etmişdir. Məsələn, Qarabağ xanlığındakı 12 min ailədən 2.500-ü, Şamaxı xanlığında olan 24 min ailədən 1.500-ü, Şəki xanlığında olan 15 min ailədən isə sadəcə üçdə biri ermənilərdən ibarət idi (4, XVIII). Lakin ümumilikdə Cənubi Qafqazda yaşayan ermənilərin bu ərazinin avtoxton əhalisi olmadığı faktdır. Antik mənbələrin çoxunda onların qərbdən – Balkanlardan, şərqə - Qafqaza, o cümlədən Azərbaycana gəldikləri göstərilir. Ermənilərin sələfləri Balkanlarda – Frakiya ərazisində yaşamış və "dəniz xalqlarının" köçü zamanı şərqə doğru hərəkət etmişdilər (5, s.20). Uzun müddət az qala bütün yer kürəsinə yayılaraq müxtəlif dövlətlərin tərkibində yaşayan ermənilər müxtəlif təbii iqlim və həyat tərzinə məruz qaldıqlarından öz ümumi cəhətlərini itirmişdilər. Rus tarixçisi İ.M.Dyakonov ermənilərin dilinin Cənubi Qafqaz ərazisindəki dillərdən olmadığı və buraya kənardan gətirildiyini göstərirdi (5, s.3-8). Özlərinə Vətən yaratmaq üçün Cənubi Qafqaz ərazisində torpaqlar ələ keçirməyə alışan ermənilər XVIII əsrdən başlayaraq Qərbi Avropanın bir sıra dövlətlərinin, sonra isə Rusiyanın hakim dairələrinə üz tutaraq onlardan yardım alaraq bu bölgədə məskunlaşmağa can atırdılar.

1832-ci il kameral təsvir materiallarına görə, Qarabağ əyalətində 32,4 min (64,8 %) azərbaycanlı və 17.4 min (34.8 %) erməni qeydə alınmışdır. Beləliklə, erməni əhalisi 1823-cü ildəki 8,4 %-ə nisbətən qısa vaxtda dörd dəfədən çox artmışdı. Sonrakı kameral təsvir materiallarına görə Şuşa qəzasında 80-ci illərin sonlarında azərbaycanlıların xüsusi çəkisi 41,5 %-ə enmiş, ermənilərin xüsusi çəkisi isə 58.2 %-ə qalxmışdı. 1897-ci il Ümum-

dünya siyahıyaalmasına görə isə həmin göstəricilər müvafiq olaraq 53% və 45 % olmuşdur (6, s.3).

Tarixi saxtalaşdıraraq "özlərinin çox böyük bir əraziyə malik dövlətlərinin olduğunu" iddia edən ermənilər "həmin dövlətin" yenidən "bərpa edilməsi" üçün dünyanın həmin dövrdəki siyasi durumundan məharətlə istifadə etməyə qalxdılar. Türkiyə və İranın Cənubi Qafqazda yeritdiyi orta əsrlərə xas olan güclü dövlətlərin işğalçı siyasətini, idarəetmə sistemində feodal zülmünə dini don geyindirərək "bütün xristian işlərinin – istər dini, istər dünyəvi – müsəlman qaydaları ilə idarə olunması" (7, s.17) kimi qələmə verərək müsəlmanların xristianlar üzərində hakimiyyətini dini hakimiyyət formasında olduğunu göstərməyə çalışırlar. İstər müsəlmanların, istərsə də xristian əhalinin yadellilərə qarşı sinfi və sosial mübarizəsinin müsəlman-xristian mübarizəsi kimi əks olunması müasir erməni tarixi ədəbiyyatında öz ənənəvi mövqeyini saxlayır.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (tərtib edən V.Quliyev). Bakı: Şuşa, 2000, 576 s.
2. Xəlilov X.D. Qarabağın elat dünyası. Bakı: Azərnəşr, 1992, 119 s.
3. Описание Карабагской провинции (составленное въ 1823 году по распоряжению главноуправлявшаго въ Грузии Ермолова). Редактор переиздания: д.и.н., проф.Т.Мустафазаде. Баку: Нурлан, 2003, 425 с.
4. Azerbaycan beygelerinde ermeni sorunu (1918-1920) Ankara: Yeni Türkiye yayınları, 2001, 344 s.
5. Вердиева Х., Гусейнзаде Р. «Родословная» армян и их миграция на Кавказ с Балкан. Баку: Элм, 2003, 168 с.
6. Кавказский календарь Российской империи 1897, ЛХIII – Елизаветская губерния. СПб., 1904.
7. Армянское войско в XVIII веке. Из истории армяно-русского военного содружества. Подготовил к изданию А. Н. Хачатрян. Ереван: Изд. АН Арм. ССР, 1968, 475 с.

## BORÇALI AZƏRBAYCANLILARININ SOYKÖKÜ

*K.H.MƏMMƏDOV*
Tarix elmləri namizədi

Tarixi Borçalı mahalı dünyanın ən qədim insan məskənlərindən biridir. Hələ XX əsrin 30-cu illərində Ceyrançöldə Udabno kəndindən tapılmış primat qalıqları bölgənin antropogenez, yəni insanın yaranma yeri olduğunu sübut edir. Dünya alimlərinin diqqətini cəlb edən ən mühüm tapıntı isə 1999-cu ildə Dmanisi (1947-ci ilədək Başkeçid) rayonu ərazisində Xram çayı sahilindəki mağaradan aşkar edilmişdir. Arxeoloqlar burada yanaşı basdırılmış ər və arvadın bütöv skeletlərini tapmışlar. Antropoloqların fikrincə kəllə quruluşuna görə dolixokran (uzunbaş) olan bu insanlar Yer kürəsində evropoid irqinin ən qədim nümunələridir. Bütövlükdə Qafqaz əhalisi öz antropoloji quruluşuna görə evropoid irqinin cənub qolunun dörd tipinə aid olunurlar. Mərkəzi Qafqaz əhalisi və gürcülər girdəbaşlı, enlisifətli kavkasion, ermənilər yastıbaşlı, naziksifətli, əyriburunlu armenoid, Qara dəniz sahillərinin əhalisi qismən sarışın, əyriburunlu, qıvrımsaçlı, qismən girdəbaşlı Pont, azərbaycanlılar isə dolixokran, nazik və düz burunlu, ortaboylu Kaspi tipinə aid olunurlar. Məsələyə aydınlıq gətirmək üçün XX əsrin əvvəllərində yaşamış görkəmli gürcü tarixçisi İ.A.Cavaxaşvilinin «Gürcü xalqının tarixi» əsərinə müraciət edək: «… kəllələrin quruluşuna görə antropologiya elmi xalqları bir neçə yerə ayırır: onlardan biri qısa başlı, yəni braxikran, digəri isə uzunbaşlı və ya dolixokrandır. Qafqazdakı ən qədim qəbirlərdən tapılan kəllələrin ölçülməsi nəticəsində müəyyən edilmişdir ki, ilk olaraq bizim diyarda uzunbaşlılar, yəni dolixokefallar yaşamışlar. Professor Virxov qeyd etmişdir ki, indiki gürcülərin və ermənilərin Qafqazın ən qədim əhalisi ilə heç bir bağlantısı yoxdur. Deməк onda gürcülər və ermənilər mahiyyətcə Qafqazın ilk yerli əhalisi deyillər. Onlar bu diyara (Qafqaza – K.M.) gəldikdə, burada ayrı xalqın xələfləri yaşayırdılar».

Borçalı ərazisindən dünya arxeologiya elmində qəbul edilmiş bütün dövrləşmələrə aid abidələr aşkar edilmişdir. Yazılı qaynaqlar burada məskunlaşmış ən qədim etnos kimi buntürklərin adı çəkilir: «İsgəndər şah Lot övladlarının törəmələrini sıxışdırıb yarıqaranlıq ölkəyə qovarkən … Kür vadisi boyunca dörd şəhərdə: Sarkine, Urbnisi, Kaspi, Odzrxedə yaşayan döyüşkən buntürk tayfaları ilə üzləşdi. Bu zaman xaldeylər tərəfindən köçürülmüş cəsur hunlar gəldi. Onlar buntürk hökmdarından yaşamağa yer istədilər və Zanavada yurd saldılar». Salnamənin naşiri Takayşvili, buntürkləri «ümumiyyətlə turanlılar» adlandırır ki, onun bu versiyası «Kartlis Sxovreba

(Gürcüstanın həyatı)» salnaməsinin məlumatları ilə təsdiqlənir. Belə ki, salnaməçinin yazdığına görə «əvvəlcə Msxeta ətrafında yerləşən türklər onu çətin alınacaq istehkama çevirərək adını Sarkine qoydular». O biri səhifədə isə deyilir: «Sarkine sakinləri buntürklər». Təəssüf ki, yuxarıdakı qaynaqların məlumatları hələ də şübhə altına alınır, qaynağın müəllifi Leonti Mroveli «anoxronizmdə» ittiham edilir, Azərbaycan türklərinin bu ərazidə XVI əsrdən gec olmayaraq yaşadıqları iddia olunur.

Msxetadakı «Samtavro qəbristanlığı»nından aşkar edilən kəllələri tədqiq edən gürcü antropoloqu M.Q.Abduşelişvili erkən tunc dövründən I minilliyin ortalarına qədər bölgə əhalisinin dolixokran olduğunu, yəni Kaspi tipinə mənsub olduğunu qeyd edir. Rus - sovet antropoloqu V.P.Alekseev isə burada dəfn olunanların əsilzadələr və döyüşçülər olduqlarını yazır. Gürcü arxeoloqu Ş.A.Mesxia bilavasitə buntürklərə aid etməsə də, m.ö.IV əsrdə indiki Gürcüstan Respublikasının cənub-şərqində, yəni Borçalı ərazisində yuxarıda adı çəkilən şəhərlərin olmasını təsdiq edir. Qazıntılar zamanı arxeoloqlar bu şəhərlərin ərazilərindən m.ö. I minilliyin ortalarına aid edilən tikili qalıqları tapmışlar. Salnamədə adı çəkilən digər şəhərlərə, o cümlədən Msxetaya gəldikdə isə Mesxia onun daha sonra, yəni «gürcü tayfalarının Arian-Kartlidən köçüb gəldikdən sonra yarandığını» güman edir.

Borçalı ərazisindəki ikinci türk etnik plastı bulqarlarla bağlıdır. Gürcü tarixçisi Z.V.Ançabadze hətta buntürklərin özlərini «qara bulqarlar» hesab edir. Bulqarların Borçalı ərazisinə gəlişi barədə erməni salnaməçisi Moisey Xorenli belə bir məlumat verir: «Vaharşakın oğlu Arşakın vaxtında Böyük Qafqaz dağı boyu Bulqar torpağında böyük iğtişaşlar oldu və onların çoxu ayrılaraq Koxanın (Kolxidanın) cənubundakı məhsuldar torpaqlarda yerləşdilər». Bu məlumat da arxeoloji qazıntılarla təsdiq olunur. Belə ki, Dunay bulqarlarının xaqanı Asparuxdan 700 il əvvəl Cənubi Gürcüstanda onunla adaş olan «pitiaxş Asparux»un adı həkk edilmiş metal lövhə tapılmışdır. Onu da deyək ki, İç Oğuzdan Trabzona gedən yolda (Borçalı ərazisində - K.M.) Dədə Qorqud boylarından birinin qəhrəmanı Qazılıq Qoca oğlu Yeynək də «altı başlı bolqar bir ər» görür. Alban tarixçisi Musa Kalankatlı da II-IV əsrlərdə Cənubi Qafqaza bulqar tayfalarından birinin - barsillərin arasıkəsilməz hücumlarından xəbər verir. Müxtəlif mənbələrdə bu tayfanın adı da fərqli şəkillərdə verilir: barselt, barsil, borşalu və s. Orta əsr ərəb müəllifi Yaqut Həməvi isə yazırdı: «Borşalı Arranda yer adıdır». Digər ərəb müəllifi Qardizi isə buranı Börüçölü adı ilə tanıyır. Bu isə Borçalı termininin həm toponim, həm də etnonim mənasında işlənildiyini göstərir. Borçalılılar erkən orta əsrlərdə Cənubi Qafqazda böyük siyasi rol oynamışdır. Yoxsa «Trdatın atası Xosrovun dövründə ermənilər qüdrətli barsillərlə dostluq» etməzdilər.

VII əsrdə Borçalı ərazisinə daha bir türk tayfası – göytürklər gəlmişlər. «628-ci ildə 2 aylıq mühasirədən sonra türkütlər Tiflisi tutaraq, şəhər hakimini ələ keçirdilər. Göytürk xaqanını təhqir etdiyi üçün onun dərisini soyub saman təpdilər və qala divarının üstündən asdılar». «Göytürklər yeni qüdrətli türk xalqının – xəzərlərin digər qohum tayfalarla birləşməsinə şərait yaratdılar. Xəzərlərdən başqa bu ittifaqa Suvar və Barsil (Borçalı – K.M.) tay-

faları da daxil oldu». Gürcüstan-Xəzər münasibətlərinə gəldikdə isə D.Baqrationi bu barədə yazırdı: «Gürcüstan və ona qonşu ölkələr, mənşələri barədə Degin (Fransa şərqşünası – K.M.) tərəfindən bəhs edilən xəzərlər tərəfindən tutuldu. Onlar şimaldan, Hetariyadan Dərbəndi keçərək gəlmişdilər». 552-ci ildə Xəzər xaqanının qızı ilə evlənən Sasani şahənşahı I Xosrov Ənuşirvan 1 il sonra 3 min türkü Dmanisi ərazisinə köçürməyə razılıq verdi. Türk tayfalarının Borçalı ərazisində məskunlaşması Cənubi Qafqazın Ərəb xilafətinin tərkibində olduğu illərdə də davam edirdi. «853-cü ildə xilafət sərkərdəsi Buğa Türk öz orduları ilə vilayətdən vilayətə keçərək, Dərbənd qapılarını açdı və Dmanisiyə 3 min ailə köçürdü». Əgər nəzərə alsaq ki, bu dövrdə «darvazaların (Dərbənd nəzərdə tutulur – K.M.) o tayında şəhərləri olan bulqarlar yaşayırdı», onda bu köçürülənlərin də bulqarlar olmasına şübhə yeri qalmır.

Səlcuqluların Cənubi Qafqaza gəlişi ilə Cənubi Qafqazda, o cümlədən Borçalıda da İslam-Türk amilinin qəti şəkildə qələbəsinə gətirib çıxartdı. 1118-ci ildə Səlcuqlulara qarşı mübarizə aparmaq məqsədilə Abxaz-Kartvel hökmdarı David Baqrationi (Aqmaşanebeli) 40 min qıpçaq türkünü Borçalı və ona bitişik bölgələrə yerləşdirdi. 1121 - ci ildə bu qıpçaqların köməyilə Didqori («Böyük donuz») döyüşündə Səlcuqlu ordusu üzərində qələbə qazana IV David Tiflis müsəlman əmirliyini ləğv etdi, Dmanisi və Ani müsəlman əmirliklərinin ərazisini işğal etdi. Bununla belə yerli əhalinin dini və etnik tərkibini nəzərə alan Baqratilər sülaləsindən olan gürcü hakimləri kəsdirdikləri pullarda Məhəmməd peyğəmbərin adını zərb etdirir, onların rəğbətini qazanmaq məqsədilə Cümə namazlarına gələrək xütbələrə qulaq asırdılar. Tiflisdə isə ümumiyyətlə donuz saxlamaq qadağan edilmişdi. IV David tərəfindən Tiflisə köçürülmüş xristian əhalisinin bir qismi 1226-cı ildə Xarəzmşah Cəlaləddin tərəfindən qovuldu, qalanları isə İslamı qəbul etdi.

XIII əsrin 20-ci illərindən başlayan monqol hücumları 60-cı illərdə bütün Cənubi Qafqazın, o cümlədən Borçalının da Elxanilər dövlətinin tərkibinə qatılması ilə nəticələndi. Başqa monqol ulusu olan Qızıl Orda ilə Cənubi Qafqaz uğrunda mübarizə aparan Elxanilər, Qızıl Ordada hakimiyyətdə olan Bərkə xanın yanından qaçıb gələn monqol feodallarını Dmanisidə yerləşdirdilər.

XIV əsrin sonlarında Cənubi Qafqaza gələn Əmir Teymur 1386-cı ildə Borçalıdakı Yağlıca düzənliyində ordugah quraraq, Tiflisdən şimalda yaşayan qıpçaq ellərini özünə tabe etdi.

XV əsrin 20-ci illərindən Azərbaycan Qaraqoyunlu dövlətinin tərkibinə qatılan Borçalı, bu dövləti əvəz edən Ağqoyunluların xüsusi diqqət yetirdikləri bir bölgə idi. Ağqoyunlu Həsən Padşah və onun oğlu sultan Yaqubun dövründə mühüm strateji məntəqə olan Ağcaqala daha da möhkəmləndirildi.

XVI əsrin I rübündən başlayaraq Osmanlı-Səfəvi müharibələrinin gedişində dəfələrlə əldən-ələ keçən Borçalı əsasən Səfəvilərin nüfuz dairəsində olmuşdur.

Borçalının həyatında ən mürəkkəb dövr XVIII əsr hesab olunur. Azərbaycanda mərkəzi hakimiyyətin zəifləməsi, feodal pərakəndəliyinin hökm sürməsi Borçalı elatlarının tez-tez yerdəyişməsinə səbəb olmuşdur.

XIX əsrin əvvəllərindən başlayaraq Rusiya ağalığının bərqərar olması Borçalı, ümumiyyətlə Cənubi Qafqazın müsəlman əhalisi üçün əsl faciə oldu. Bölgənin zorla Osmanlı və Qacarlı torpaqlarına sürgün edilən müsəlman əhalisinin (Qarapapaqlar, Ulaşlı və s.) yerinə ermənilər, aysorular və urum yunanları yerləşdirildi ki, bu da Borçalının etnik tərkibini dəyişdirdi.

XX əsrin əvvəllərində Rusiya tərəfindən qızışdırılan ermənilərin Borçalıda müsəlmanların axırına çıxmaq arzusu gözlərində qaldı. Təkcə Başkeçiddə 400 atlıdan ibarət müsəlman hərbi birləşməsi erməni quldurlarının əl-ayaq açmalarına aman vermədi. Rusiyada Romanovlar sülaləsinin devrilməsindən sonra Qafqazda milli-azadlıq mübarizəsi daha da gücləndi. 1918-ci ilin mayında Cənubi Qafqazda müstəqil dövlətlər quruldu. Borçalı ziyalıları Osmanlının himayəsi altında «Qarapapaq» dövləti qurmaq qərarına gəldilər. Borçalı ilə bağlı Azərbaycan-Gürcüstan danışıqlarının getdiyi bir dövrdə başı daim yad qoltuqlarda olan erməni siyasətbazları Borçalını qanlı müharibə meydanına çevirdilər. 1918-ci il dekabrın 17-də Borçalı üstündə başlayan erməni-gürcü müharibəsi mahalın iki yerə bölünməsi ilə nəticələndi. Bu bölgü Cənubi Qafqazda Sovet rejimi bərqərar olduqdan sonra rəsmiləşdirildi. Borçalının 2.575 kv. km. ərazisi Ermənistan Respublikasına «hədiyyə edildi».

Hazırda Ermənistana verilmiş Borçalı torpaqlarında bir nəfər də olsun borçalılı qalmamışdır. Gürcüstanın tərkibindəki Borçalı torpaqlarına isə Svanetiya köçkünlərinin yerləşdirilməsi və Qamsaxurdiya rejiminin anti-azərbaycan siyasəti nəticəsində bölgənin etnik tərkibi xeyli dəyişdirildi. Gürcüstan Respublikasında E.A.Şevardnadzenin prezident seçilməsi ilə Borçalı azərbaycanlılarının vəziyyəti xeyli yaxşılaşsa da təəssüflə qeyd etmək lazımdır ki, 2001-ci ildən Rusiya Federasiyasının ölkəyə gələn Gürcüstan vətəndaşlarına viza rejimi tətbiq etməsi Borçalı azərbaycanlılarının Rusiyaya vizasız gediş-gəlişlərini təmin etmək üçün Azərbaycan Respublikasına axın prosesini xeyli gücləndirmişdir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Məmmədov K.H.. Borçalı ərazisində erkən türklər. (M.Ə.Rəsulzadə adına BDU-nun gənc tarixçi tədqiqatçılarının elmi konfransının məruzələri). Bakı, 1991. s.125-127
2. Аббас-Кули-ага Бакиханов. Гюлистан-и Ирам. Баку, 1991. s.86
3. Артамонов М.И., История хазар. Ленинград, 1962.
4. Баялиева Т.Д. Доисламские верования и их пережитки у киргизов. Фрунзе, 1972.s.73
5. Жизнь Вахтанга Горгасала. Перевод, введение и примечания Г. В. Цулая.Тбилиси,1986. s.63
6. Йакут ал-Хамави.Муджам ал-Булдан (материалы по Азербайджану). Баку,1983
7. Кавказский календарь на 1855 год, изданный от Канцелярии наместника Кавказскаго. Тифлис, 1854.s.312

# XIX ƏSRİN II YARISINDA BAKI ƏHALİSİNİN TƏRKİBİNDƏ SOSİAL DƏYİŞİKLİKLƏR BARƏDƏ

*Y.Ə.RZAYEVA-ƏLİYEVA*

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda 12 şəhər var idi. Şəhərlərin inkişafı və ölkənin sosial-iqtisadi və siyasi həyatında onların rolunun yüksəlməsi əhalinin sayının artmasına təsir göstərirdi. 50-60-cı illərdə yenə əvvəlki kimi əhalisi daha çox olan ən iri mərkəzlər 25.6 min əhalisi olan Şamaxı, sonra Nuxa (23.3 min), Şuşa (19.3 min), Gəncə (14.9 min), Bakı (12.3 min), Quba (11.2 min) və s. şəhərlər idi (1).

Bu illərdə şəhər əhalisinin sayı 143.5 min nəfərə çatırdı ki, bu da Azərbaycanın bütün əhalisinin 12.4 %-ni təşkil edirdi.

XIX yüzilliyin sonunda şəhərlərin əhalisi xeyli artmışdı. İri sənaye mərkəzlərinin görünməmiş inkişafı və bir sıra yeni sənaye mərkəzlərinin əmələ gəlməsi islahatdan sonrakı dövrün ən xarakterik əlamətlərindən biri idi.

1897-ci il Ümumrusiya siyahıyaalma materialları əsasında Bakı şəhər əhalisinin sayı 270 minə çatmışdı ki, bu da artıq Azərbaycanın bütün əhalisinin 14.5 faizini təşkil edirdi. XIX yüzilliyin sonlarına yaxın buradakı şəhərlərdə quberniyanın bütün əhalisinin 20 %-i yaşayırdı ki, bu da müvafiq Ümumrusiya göstəricisindən xeyli yüksək idi (2).

Ümumrusiya əhəmiyyətli iri mərkəzlərə çevrilən Bakı və Gəncə şəhərlərində əhali daha sürətlə artırdı.1872-ci ildə neft sənayesində iltizam sisteminin ləğvi sənayenin bu sahəsinin sürətli inkişafı ilə əlaqədar olaraq Bakı şəhər əhalisinin sayının artmasına səbəb oldu. Nəticədə 1897-ci ildə Bakı əhalisi 111.9 min nəfər təşkil edirdi, bu da 1867-ci illə müqayisədə, demək olar ki, on dəfə artmışdı. Həmin müddət ərzində 33.6 min nəfər yaşayan Gəncənin əhalisi 2.2 dəfə artmışdı. Şamaxı şəhərinin əhalisi 6 min nəfər azalmışdı. Bu şəhərin əhalisinin azalması, Cənubi Qafqaz dəmir yolu xəttindən kənarda qalması və 1859-cu il zəlzələsi, quberniya inzibati idarələrinin Bakıya köçürülməsi ilə əlaqədar idi.

Bütövlükdə isə şəhər əhalisinin artım sürəti əhalinin ümumi artım sürəti ilə müqayisədə xeyli yüksək idi. Şəhərlərin sayı 2 dəfə artdığı halda, Şimali Azərbaycanın bütün əhalisinin sayı 1.5 dəfədən az artmışdı.

Əhalinin sürətli illik təbii artımı dövrün ümumi meyli idi. 1894-cü ildən 1898-ci ilə qədər təbii artım Bakıda 2 min nəfər, Gəncə və Naxçıvanda 1.5 min nəfər, Şuşada isə 1.3 min nəfər təşkil etmişdi (3).

Kapitalist sənayesinin inkişaf etdiyi şəhərlər üçün fəhlə sinfinin artım mənbəyi olan kəsbkarlıq xarakterik hal idi. Əsas hissəsini Cənubi Qafqazın ayrı-ayrı rayonlarının, Dağıstanın, Orta və Aşağı Volqaboyunun və Rusiyanın bəzi digər mərkəzi quberniyalarının müflisləşmiş kəndliləri, həmçinin Cənubi Azərbaycanın şimal-qərb vilayətlərindən çıxmış kəsbkarlar təşkil edən gəlmə əhalinin xüsusi çəkisi böyük şəhərlərdə xüsusilə yüksək idi. Belə ki, 1897-ci ildə Bakıda gəlmə əhali əhalinin ümumi sayının 64%-ni, Gəncədə 28%-ni, Şamaxıda 16%-ni təşkil edirdi. Bakıda gəlmə əhalinin əksəriyyəti gənc yaş qrupundan ibarət idi. Bunun da nəticəsində gənc əhali üstünlük təşkil edirdi.

Neft istehsalı ilə məşğul olan əhali, sənayenin digər sahələrində çalışan əhaliyə nisbətən daha intensiv artırdı. Bütövlükdə yerli əhali Azərbaycan şəhərlərində yaşayan əhalinin 63%-ni, gəlmə əhali isə 37%-ni təşkil edirdi. Gəlmə əhalinin ümumi sayında Şimali Azərbaycanın müxtəlif qəzalarından olan mövsümi fəhlələrin xüsusi çəkisi daha yüksək idi. Onları sənayeyə ilk növbədə daimi iş və əmək haqqı cəlb edirdi. 1880-ci ildən onların sayı ildə 30-35 min nəfərə çatmışdı. 1897-ci ildə Bakı quberniyasının şəhərlərində işləyən fəhlələrin ümumi sayının yalnız 34%-i yerli əhalidən, 10.3%-i isə Yelizavetpol quberniyasından çıxanlardan ibarət idi. Yerdə qalanlar, başqa sözlə desək, şəhər əhalisinin ümumi sayının yarısından çoxu Rusiyadan, Dağıstandan, İrəvan quberniyasından və Cənubi Azərbaycandan gələnlər idi (4).

Kapitalist münasibətləri inkişaf edib dərinləşdikcə, şəhər əhalisinin sosial tərkibində ciddi dəyişiklik baş verirdi. Hakim təbəqələrin xüsusi çəkisi o qədər də yüksək deyildi. Belə ki, tərkibinə xanların, bəylərin və rus zadəganlarının nümayəndələrinin daxil olduğu qrupun sayı çox cüzi idi. 1870-ci ildə onların sayı 6.600 nəfər təşkil edirdi ki, bu da şəhər əhalisinin 4.6%-i və Azərbaycanın bütün əhalisinin 0.6%-i qədər idi. XIX yüzilliyin sonunda onların sayı 2.3 dəfə artaraq 15.3 min nəfərə çatsa da, xüsusi çəkiləri yenə cüzi idi və 1897-ci ildə şəhərlilərin 5.6%-ni, bütün əhalinin isə 0.8%-ni təşkil edirdilər (5).

Eyni zamanda onların sayı qəzalara nisbətən, demək olar ki, bütün şəhərlərdə az idi. Bakı və Şamaxı şəhərləri müstəsnalıq təşkil edirdi. Bu şəhərlərdə əhalinin göstərilən qrupunun sayı həmin qəzalardakılara nisbətən çox idi.

Muzdlu əməkdən istifadə edən sənaye, nəqliyyat, ticarət, müəssisə və təşkilatların sahibləri və kapitaldan gələn gəlirdən istifadə edən qrup da kiçik idi. Məsələn, XIX yüzilliyin əvvəlində Bakıda onlar şəhərin iş qabiliyyətli əhalisinin yalnız 6.5 %-ni təşkil edirdi. Lakin, Bakı zəhmətkeşlərinin amansız istismarı hesabına yaradılmış maddi sərvətlərin xeyli hissəsi onlara mənsub idi. XIX yüzilliyin sonunda şəhərlərdə bütövlükdə 30 min tacir yaşayırdı ki, onlar da şəhər əhalisinin 11%-ni təşkil edirdi (6).

Həm daxili, həm də xarici topdansatış ticarət ilə məşğul olan birinci gildiya tacirlərinin əsas hissəsi Bakıda cəmləşmişdi. Yerdə qalan bütün digər şəhərlərdə II gildiya tacirləri üstünlük təşkil edirdilər. Şəhərlərin

ticarətlə məşğul olan əhalisinin əsas hissəsini isə xırda ticarətlə məşğul olan şəxslər təşkil edirdi.

XIX yüzilliyin ikinci yarısında başlayan sənaye sahəsində texniki tərəqqi ziyalıların sayının artmasına kömək etdi. Belə ki, məhsuldar qüvvələrin inkişafı və zehni əməyin tətbiq edildiyi sahələrin genişlənməsi alimlərin, mühəndislərin, texniklərin və digər mütəxəssislərin çoxalmasını tələb edirdi, dövlət aparatının və ölkənin ictimai strukturunun genişlənməsi isə ideoloji funksiyaları yerinə yetirən məmurların, qulluqçuların və ziyalıların artmasına təkan verdi. XIX yüzilliyin sonunda ziyalılar aşağıdakı əsas sosial qruplardan ibarət idi: zadəgan – mülkədar, burjua, xırda burjua ziyalıları (7).

Ziyalıların xeyli hissəsi iri şəhərlərdə, başlıca olaraq Bakı və Gəncədə toplanmışdı. Onlar öz tərkibinə görə yekcins deyildi. Peşə mənsubiyyəti baxımından Şimali Azərbaycan ziyalıları aşağıdakılardan ibarət idi: 1) maddi istehsal sahəsində işləyən ziyalılar (mühəndislər, texniklər, poçt-teleqraf və dəmiryol qulluqçuları, kənd təsərrüfatı mütəxəssisləri); 2) mədəniyyət sahəsində çalışan ziyalılar (maarif və tibb işçiləri, alimlər, ədiblər, rəssamlar və b); 3) dövlət aparatında, kapitalist müəssisə və təşkilatlarında xidmət edənlər (inzibati, məhkəmə və digər müəssisələrin məmurları, şəhər və zadəgan məmurları, sənaye və ticarət müəssisələrinin inzibati işçiləri, hüquqşünaslar və b.). Şimali Azərbaycan şəhərlərində yuxarıda adları çəkilən peşələrin 35 min nümayəndəsi yaşayırdı ki, bu da bütün şəhər əhalisinin 13%-ni təşkil edirdi (8).

Cəmiyyətin sosial strukturunda sayı 2 min nəfər olan və yaxud şəhərlilərin 1.4 %-ni və ölkə əhalisinin 0.2 %-ni təşkil edən ruhanilər mühüm yer tutmaqda davam edirdilər. 1897-ci ildə onların sayı 1.500 nəfərə qədər azalaraq şəhərlilərin 0.55 %-ni və Şimali Azərbaycanın bütün əhalisinin 0.8 %-ni təşkil etdi (9).

İş qabiliyyətli şəhər əhalisinin bir hissəsini fəhlələr təşkil edirdilər. XIX yüzilliyin sonunda Bakıda onların xüsusi çəkisi çox yüksək idi və şəhər əhalisinin 60 %-nə çatırdı.

Əmtəə kapitalist münasibətlərinin inkişafı ilə şəhərlərin ixtisaslaşması da baş verirdi. Bakı dünya neft sənayesinin mərkəzinə, Rusiyanın dəniz və dəmir yolu daşımalarının ən mühüm məntəqələrindən birinə, böyük tranzit və ticarət, maliyyə və kredit müəssisələrinin inkişaf etdiyi mərkəzə çevrilirdi.

Şimali Azərbaycan şəhərlərində sənaye və ticarət müəssisələrinin sayı xeyli artmışdı. 1900-cü ildə onların ümumi sayı 10 minə, o cümlədən Bakıda 4.365-ə, Gəncədə 1.425-ə, Nuxada 860-a, Şuşada 708-ə, Lənkəranda 485-ə çatmışdı (10).

Şəhərlərin ümumi xərcləri içərisində məcburi xərclər müxtəlif dövlət müəssisələrinin, polisin, ordunun və s. saxlanılması birinci yerdə dururdu. Şəhərlərin abadlaşdırılmasına ayrılan xərclər vacib olmayan xərclər sırasına aid edilirdi, onun miqdarı az idi və daim ixtisar edilirdi. Belə ki, 1879-1882-ci illərdə bütün xərclərin 40 %-i Bakı şəhərinin abadlaşdırılmasına ayrılmışdı, 1883-1888-ci illərdə bu 15 %, 1895-1899-cu illərdə isə 12 %-ə qədər azalmışdı.

Səhiyyə, maarif və digər ictimai ehtiyaclara ayrılan vəsait çox cüzi idi. Şimali Azərbaycanda kapitalist sənayesinin inkişafı ilə əlaqədar istehsalatda savadlı işçilərə ehtiyac yarandı. Şəhərlərdə ilk peşə məktəbləri təsis olundu. Lakin ümumtəhsil məktəbləri kimi peşə məktəblərinin də sayı çox deyildi. İşin belə təşkili şəraitində şəhər əhalisi arasında savadlıların faizi aşağı olaraq qalmaqda davam edirdi. Bakıda 1897-ci ildə 32,3 %, Şuşada 25 %, Gəncədə 23,3 %, digər şəhərlərdə isə daha aşağı idi (11).

Şəhər nəqliyyatı geridə qalırdı. Yalnız 1889-cu ildə Bakıda konka (at dəmiryolu) fəaliyyətə başladı. Su ilə təchizat yarıtmaz halda idi. Şəhərlərdə kanalizasiya yox idi, antisanitariya hökm sürürdü.

Müəyyən müsbət irəliləyişlərə baxmayaraq, bütün ölkədə olduğu kimi, Şimali Azərbaycan şəhərləri də kəskin sosial təzadları və ziddiyyətləri özündə əks etdirirdi. Şəhər əhalisi arasındakı münasibətlərin təbəqəli, antaqonist xarakteri, şəhərlərdə sənaye fəhlələrinin cəmləşməsi əməklə kapital arasındakı XIX yüzilliyin sonlarından başlayan döyüşlərdə öz əksini tapırdı (12).

1897-ci il əhali siyahıyaalma zamanı fəhlə və qulluqçuların sayı üzrə hesablanmış məlumatlar kəsbkarlıq barəsində daha dolğun təsəvvür yaradır. Məsələn, Bakı quberniyası üzrə qeydə alınmış 62 min nəfər fəhlədən 27.7 min nəfəri elə bu quberniyadan, 5.4 min nəfəri isə Yelizavetpol quberniyasından çıxmış adamlar idi (13).

XIX yüzilliyin II yarısında Şimali Azərbaycanın ictimai-iqtisadi həyatında baş verən dəyişikliklər burada burjua cəmiyyəti təbəqələrinin formalaşmasına zəmin yaradırdı.

Rusiyanın digər bölgələrinin burjuaziyasının siyasi mənafeləri ümumi idi və Bakı, Gədəbəy və başqa yerlərdə kapitalist müəssisələrinə sahib olan rus və xarici sənayeçilər və bankirlərlə qovuşurdu.

Sənaye istehsalının müxtəlif sahələri və müxtəlif inkişaf mərhələlərində burjuaziyanın milli qruplarının nisbəti eyni deyildi. Daim dəyişən bu nisbət müstəmləkə iqtisadiyyatının inkişafına xas olan meylləri əks etdirirdi. Bu da burjuaziyanın əsas formalaşma mərkəzinə çevrilmiş neft Bakısında daha açıq şəkildə özünü göstərirdi. Hələ 1872-ci ildə, iltizam sisteminin ləğv edildiyi ilk vaxtlarda, neftli sahələrin 13 sahibkarı içərisində Azərbaycan kapitalı ancaq 2 kapitalistlə təmsil olunmuşdu (14).

70-ci illərin sonu – 80-ci illərin əvvəllərində Azərbaycan kapitalı neftayırma sahəsində xeyli geniş şəkildə təmsil olunmuşdu. 1883-cü ildə Bakının 100 ağ neft zavodçusundan 40 nəfərdən çoxu azərbaycanlılar (H.Z.Tağıyev, N.Mehdiyev, A.M.Nuriyev, Q.S.Sadıqov, M.S.Səlimxanov və b.) idi (15).

Bakı rayonunda cəmlənmiş metal emalı müəssisələri sahiblərinin də tərkibi çoxmillətli idi. Azərbaycan kapitalı sənaye istehsalının bu mühüm sahəsində kifayət qədər geniş surətdə təmsil olunmuşdu. Əsrin sonunda M.Muxtarovun, demək olar ki, 950 fəhləsi, Cavanşirov qardaşlarının 300 fəhləsi olan zavodları, A.A.Dadaşovun 100 fəhləsi olan tərsanə emalatxanaları və b. iri metal emalı müəssisələri sırasında idi (16).

Milli kapital Bakı, Şamaxı, Gəncə, Nuxa, Şuşa, Naxçıvan və b. şəhərlərdə ticarət burjuaziyasının əlində cəmləşmişdi. 1897-ci ildə iki quberniyanın 20 min tacirindən 12.9 min nəfəri Bakı və 7.1 min nəfəri Yelizavetpol quberniyasında idi. 14.2 min nəfər şəhər tacirindən 7.3 min nəfəri təkcə Bakının payına düşürdü. Bu, ticarət burjuaziyasının əsas kütləsinin Bakıda cəmləşdiyini göstərir (17).

XIX yüzilliyin son rübündə Şimali Azərbaycanda ilk kredit bank müəssisələri meydana çıxmağa başladı. 1874-cü ildə açılmış ilk kredit müəssisəsinin – Bakı qarşılıqlı kredit cəmiyyətinin təsisçiləri Azərbaycan və erməni şəhər burjuaziyasının orta kapitalist təbəqələri idi (17).

Beləliklə, XIX yüzilliyin II yarısında Şimali Azərbaycanda burjua cəmiyyətinin əsas ictimai-sosial qüvvəsi olan çoxmillətli burjuaziya formalaşırdı.

XIX yüzilliyin ikinci yarısının ilk onilliklərində Şimali Azərbaycanda fəhlə kadrlarının əmələ gəlməsi prosesi hələ çox ləng gedirdi.

Bakının neftayırma zavodlarında 70-ci illərin əvvəllərinə yaxın 328 daimi və onlarla müvəqqəti fəhlə, 1883-cü ildə isə 607 fəhlə çalışırdı (19).

Şimali Azərbaycan, Rusiya, Gürcüstan, Ermənistan, Dağıstan və xüsusən də Cənubi Azərbaycandan olan minlərlə kəsbkar bir neçə il Bakı və Yelizavetpol quberniyalarının fabrik və zavodlarında, nəqliyyatında və digər sənaye sahələrində işlədikdən sonra burada məskən salır, fəhlə kadrlarına çevrilirdilər. Odur ki, Şimali Azərbaycan fəhlələri coxmillətli fəhlə sinfi kimi formalaşırdı.

1897-ci il əhali siyahıyaalma məlumatlarına görə, Bakı və Yelizavetpol quberniyalarında fəhlələrin sayı (kənd təsərrüfatı fəhlələri istisna edilməklə) 78 min nəfərə bərabər idi. Bakı quberniyasında 55 minə yaxın, Yelizavetpol quberniyasında isə 23 min fəhlə çalışırdı.

Şimali Azərbaycanda fəhlə kadrlarının formalaşmasının xüsusiyyətlərindən biri bu prosesin genişlənməsinin yüksək sürətlə getməsi idi. Bakı fəhlələrinin sayı xüsusən sürətlə artırdı. 1887-1897-ci illərdə fəhlə kadrları sayının artım sürətinə görə neft sənayesi Rusiyanın dağ-mədən sənayesi sahələri içərisində birinci yeri tuturdu (20).

XIX yüzilliyin sonuna yaxın Şimali Azərbaycanda (İrəvan bölgəsi istisna edilməklə) fəhlə və qulluqçuların ümumi sayı təxminən 162 min nəfərə (62 min nəfəri Bakıda və 97,2 min nəfəri qəzalarda) çatırdı ki, bu da əhalinin ümumi sayının 8,4 %-ni təşkil edirdi. Şimali Azərbaycanda fəhlə kadrları qeyri-bərabər şəkildə yerləşirdi. Yüzilliyin sonuna yaxın 6.065 min nəfər neft sənayesi və bir sıra digər iqtisadiyyat sahəsi fəhləsini birləşdirən Bakı sənaye rayonu ən iri sənaye və fəhlə mərkəzi idi. Bakı fəhlələri Şimali Azərbaycan fəhlələrinin əsas qüvvəsini və aparıcı dəstəsini təşkil edirdi.

1897-ci il siyahıyaalma məlumatlarına görə, Bakı və Yelizavetpol quberniyaları fəhlələri (qulluqçular da daxil olmaqla, ancaq kənd təsərrüfatı ilə məşğul olan kəndlilər istisna edilməklə) içərisində qadınlar cəmi 8,7 % təşkil edirdilər, halbuki Rusiya imperiyası üzrə bu göstərici orta hesabla 32

%-ə bərabər idi. İmperiya üzrə orta göstəricilərə nisbətən fəhlələrin aşağı savad göstəriciləri də çarizmin müstəmləkə siyasəti ilə bilavasitə bağlı idi. 1897-ci il siyahıyaalma məlumatına görə, savadlılar Rusiya fəhlələri içərisində 52,2 %, Bakı və Yelizavetpol quberniyalarında isə, hətta qara və müvəqqəti fəhlələr, balıqçılıq və kənd təsərrüfatı fəhlələri, qulluqçular nəzərə alınmaqla, 24,7 %-ni təşkil edirdi (18).

XIX yüzilliyin ikinci yarısında Şimali Azərbaycanda kapitalizmin inkişafı, iqtisadi və mədəni mərkəzlərin yüksəlişi, ümumi bazarın yaranması, cəmiyyətin strukturunun dəyişməsi, milli burjuaziyanın və fəhlə sinfinin formalaşması – bütün bu proseslər Azərbaycan millətinin təşəkkülünün ilkin obyektiv şərtləri oldu.

Formalaşmaqda olan Azərbaycan millətinin aparıcı qüvvəsinin əsasını Bakıda və Şimali Azərbaycanın digər şəhərlərində olan iri sənaye müəssisələri, gəmilərin sahibləri, mülk sahibləri, tacirlər, ziyalılar və b. təşkil edirdi.

Beləliklə, XIX əsrin II yarısında Şimali Azərbaycanda kapitalizmin inkişafı Bakı əhalisinin tərkibində sosial dəyişikliklərə gətirib çıxarır və Azərbaycan xalqının bir millət kimi təşəkkülünü sürətləndirirdi.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Кавказский календарь на 1856, 1859, 1863, 1867, 1872 гг.
2. Первая Всеобщая перепись населения Российской империи 1897 г.L XIII Елизаветпольская губерния СПб, 1904;LXI, Бакинская губерния, СПб, 1905 г.
3. Кавказский календарь на 1901 г. Отд III Тифлис, 1900, стр. 59065
4. Первая Всеобщая перепись. Елизаветпольская губерния, стр. 3
5. Там же.
6. Там же.
7. В. Ушаков Революционное движение демократической интеллигенции в России. 1976, стр. 9
8. Первая всеобщая перепись, 1897
9. Кавказский календарь на 1872, 1874 və siyahıyaalma materialları;
10. Rusiya MDTA, f, 396, siyahı 12, iş 152, v. 44;
11. Первая всеобщая перепись населения. Бакинская губерния стр. 11, Елизаветпольская губерния стр. 11.;
12. Azərbaycan tarixi. VII cilddə, IV cild (XIX əsr), Bakı, Elm, 1999, s. 275;
13. Azərbaycan tarixi. VII cilddə, IV cild (XIX əsr), Bakı, Elm, 1999, s. 307;
14. М.А.Исмаилов. К вопросу о ликвидации откупной системы в Азербайджанской нефтяной промышленности II. Вах: Труды Института истории и философии АН Азерб. ССР Т.II, Bakı, 1952, стр. 73-104
15. Azərbaycan MDTA f.389, siyahı 1, iş 9, ..2-3
16. Azərbaycan MDTA f.509, siyahı 1, iş 51, .. 12-16, 32-33
17. А.С.Сумбатзаде. Социально-экономические предпосылки победы Советской власти в Азербайджане. М., 1972.
18. Численность и состав рабочих в России, т.I, стр .14, т II, стр. 80,81, 90,91
19. Tarix institutunun elmi arxivi, iş 1643, 1649, v. 302
20. А.Т.Рошин, Формирование рабочего класса в России. М., 1958, стр. 28,32

# XIX-XX ƏSRLƏRDƏ AZƏRBAYCANDA MİQRASİYA PROSESLƏRİNİN TARİXİ KÖKLƏRİNƏ DAİR

*U.M.PAŞAYEVA*

Tarixən əhalinin müxtəlif səbəblər üzündən, təbii-coğrafi, hərbi-siyasi amillərin təsiri altında yerdəyişmələri mütəmadi baş vermişdir. Qədim dünyada müxtəlif tayfaların və xalqların miqrasiyaları, orta əsrlərdə "Xalqların Böyük Köçü" və ya Coğrafi Kəşflər gedişində yeni ərazilərin kolonlaşması yeni dövrdə daha fərqli və çeşidli şərtlər altında yeni mərhələyə daxil olmuşdur.

Bəlkə də elə onu doğuran şərtlərin və səbəblərin müxtəlifliyi üzündən, miqrasiya anlayışı özü də şərtidir və rast gəlinən tərifləri mütləq sayıla bilməz. Əksər siyasi lüğətlərdə miqrasiyanın tərifi aşağıdakı kimi verilir: "Əhalinin yerdəyişməsi, bir yerdən başqa yerə köçməsi (latınca-miqratio, miqro-köçürəm)" (bax:8;s.544). Yenə də həmin sözdən çıxış edərək immiqrasiya və emiqrasiya anlayışları ayrılır: immiqrasiya - digər dövlətin vətəndaşının müvəqqəti və ya daimi yaşayış üçün köçməsi, emiqrasiya isə - ölkə vətəndaşının xarici ölkəyə köçməsi kimi qəbul edilir (13; s.188, 611). Azərbaycan dilində miqrasiyanın hər iki forması "mühacirət" (ərəbcə "hacara" – köçmək) adı altında verilir.

Yuxarıda qeyd olunduğu kimi, yeni dövrdə miqrasiyalar xeyli fərqli səbəblər və şərtlər altında baş verdiyindən, indi nəzərdən keçirəcəyimiz təsnifat da şərti olub, yalnız XIX-XX əsrlər üçün keçərlidir. Qəbul olunmuş təsnifata görə, miqrasiya iki əsas formaya ayrılır: daxili miqrasiya - yəni ölkə daxilində əhalinin yerdəyişməsi və xarici miqrasiya - əhalinin bir ölkədən digər ölkəyə köçməsi. Miqrasiyalar, həmçinin, xarakterinə, davamlılığına, coğrafi əhatəsinə, səbəblərinə və mərhələlərinə görə də təsnif olunur (18).

1. Xarakterinə görə miqrasiyalar: könüllü, məcburi.
2. Davamlılığına görə miqrasiyalar: daimi, müvəqqəti, mövsümi.
3. Coğrafi əhatəsinə görə miqrasiyalar: qitələrarası, qitədaxili.
4. Səbəblərinə ğörə miqrasiyalar: iqtisadi, siyasi, sosial, mədəni, ekoloji.
5. Mərhələlərə görə miqrasiyalar: adaptasiya, qərarların qəbulu, ərazi yerdəyişməsi.

Yuxarıda qeyd etdiyimiz kimi, bu təsnifat şərtidir və onun xaricində miqrasiyaların köçərilik, zəvvarlıq, epizodik, sərhədyanı (tranzit), repatriasiya kimi növləri də mövcuddur. Miqrasiya növləri arasında səbəblərinə görə miqrasiyalar daha geniş yayılmış və tədqiqi vacib sayılmalıdır. Ümumiy-

yətlə, miqrasiyaların səbəbləri çoxdur, amma yuxarıdakı bölmələrdən də göründüyü kimi, başlıcası - iqtisadi və siyasidir.

İqtisadi səbəblərə bağlı olan miqrasiyalar da öz növbəsində iki növə ayrılır: yeni torpaqların məskunlaşması ilə bağlı miqrasiyalar və iş axtarışı ilə bağlı əmək miqrasiyaları. Hər ikisi XVI-XVII əsrlərdə ortaya çıxmış, XIX əsrdə geniş yayılmışdır. XX əsrin ikinci yarısından əmək miqrasiyaları pik həddinə çatmışdır.

Siyasi səbəblərə gəlincə, bunlar daha çox XIX və XX əsrin miqrasiyaları üçün səciyyəvidir və irqi, dini, milli amilləri də özündə ehtifa edir. Müstəmləkəçiliyin güclənməsi, metropoliyalardan sosial baxımdan təhlükəli elementlərin çıxarılması siyasəti, Rusiyadakı inqilabın təsirilə emiqrasiyanın güclü dalğası, faşizmin tüğyan etdiyi, SSRİ-dəki repressiyaların gücləndiyi illərdə məcburi deportasiyalar, sovet dissidentlərinin ölkəni tərk etməsi adı çəkilən miqrasiya növünün ən bariz nümunələridir. Nəhayət, 1990-cı illərdə SSRİ-də və Yuqoslaviyada məlum hadisələrdən sonra hərbi-siyasi (həmçinin milli) səbəblər üzündən güclü miqrasiya prosesləri baş vermiş, bu proseslər dünyada iri miqyasda qaçqınlar və məcburi köçkünlər problemi ilə çulğaşmışdır.

Azərbaycan həm coğrafi yerləşməsi, həm etnik tarixi, həm də hərbi-siyasi inkişafı səbəbləri ilə miqrasiya proseslərindən kənarda qalmamışdır. Hələ qədim dövrdə bir çox tayfaların və xalqların miqrasiyalarının, daha sonra “Xalqların Böyük Köçü” nün şahidi olmuş Azərbaycan ərazisi iri imperiyaların - Romanın, Sasanilərin, Bizansın, Xilafətin maraq dairəsinə daxil olduğundan, bura əhali köçürmələri də çox səciyyəvi və mütəmadi olmuşdur. XIX əsrdə İranın və Rusiyanın rəqabətinin və müharibələrinin obyektinə çevrilən Azərbaycanda yenidən müxtəlif xarakterli və səbəbli miqrasiyalar baş vermişdir. Bu miqrasiyalar sonrakı yüzillikdə davam edərək Azərbaycana əhali köçürmələri və ya digər qonşu ərazilərdən (tarixi Azərbaycan torpaqlarından) azərbaycanlıların deportasiyaları ilə də müşaiyət olunmuşdur. Bundan əlavə, XIX-XX əsrlərdə Azərbaycana əmək miqrasiyaları (məsələn, Cənubi Azərbaycandan kəsbkarlar) və ya əksinə, Azərbaycandan digər ölkələrə (xüsusilə Rusiyaya) iş axtarışında miqrasiya dalğaları da səciyyəvi sayılmalıdır.

Şübhəsiz, 200 illik bir dövr ərzində Azərbaycandakı miqrasiya proseslərini bir məqalə çərçivəsində ehtiva və tədqiq etmək mümkün deyil. Bu səbəbdən, Azərbaycanın bu günki sosial durumuna, etnik və demoqrafik göstəricilərinə daha ciddi təsir göstərmiş miqrasiya prosesləri üzərində dayanmağı vacib hesab edirəm. Bunlar aşağıdakılardır:

1) Ermənilərin Azərbaycan ərazisinə köçürülməsi.
2) Azərbaycanlıların öz tarixi torpaqlarından – Qərbi Azərbaycandan zorla köçürülməsi – deportasiyası.
3) Rusların və almanların Azərbaycana miqrasiyası.
4) Azərbaycandan əhalinin digər ölkələrə, xüsusilə Rusiyaya miqrasiyası.

Ermənilərin Azərbaycan ərazisinə kütləvi şəkildə köçürülməsi çar Rusiyasının ağalığı dövrünə aiddir. Bu, çarizmin sistemli şəkildə apardığı müstəmləkə siyasətinin tərkib hissəsi sayılmalıdır. Cənubi Qafqazda xristian əhali arasında özünə dayaq tapmaq istəyən çar hökuməti üçün erməni əhalinin demoqrafik çəkisinin artması vacib şərt idi. İşğaldan sonrakı cəmi 3 il ərzində - 1828-ci ildən 1830-cu илədək Cənubi Qafqaza İrandan 40.000, Türkiyədən - 84.000 erməni köçürülmüşdü; qeyri-rəsmi məlumatlara görə isə, onların sayı 200.000 nəfər olmuşdur (17,s.59).

Ermənilər əsasən keçmiş İrəvan, Qarabağ, Bakı, Şirvan, Naxçıvan və Gəncə xanlıqlarının ərazisində yerləşdirilirdi. Maraqlıdır ki, ermənilər Azərbaycan torpaqlarında yerləşməklə yanaşı, ən yaxşı sahələri də alırdılar və vergilərdən azad olunurdular (bax:16, s.129).

Ermənilərin Azərbaycan ərazisinə köçürülmələri XIX əsrin ortalarında da davam edir və intensiv xarakter alır. Ümumilikdə, XX əsrin əvvəllərinə doğru Cənubi Qafqaza, əslində böyük əksəriyyətlə, Azərbaycana ermənilər köçürülmüşdür (19).

Əhalinin artım dinamikasında və bölgənin demoqrafik durumunda bu kəskin dəyişikliklər, bir tərəfdən, ciddi sosial və iqtisadi problemlərə, digər tərəfdən, heç şübhəsiz, milli qarşıdurmalara, nəticə etibarilə müsəlman əhalinin soyqırımlarına belə yol açırdı.

Azərbaycan torpaqlarında erməni əhalinin yerləşdirilməsi siyasəti azərbaycanlıların Qərbi Azərbaycandan (indiki Ermənistan Respublikası ərazisindən) deportasiyası ilə paralel aparılırdı. Çar hökumətinin məqsədi-azərbaycanlıların tarixi torpaqlarının dar lokallaşması, ermənilərin yayıldıqları ərazilərin daha geniş, amma həm də kompakt "cəmlənməsi", Azərbaycan torpaqlarında "Erməni vilayəti"nin yaradılması idi. Azərbaycanlıların deportasiyası bir neçə mərhələdə həyata keçirilmişdir:

1) Türkmənçay müqaviləsinin imzalanmasından (1828-ci il) sonra aparılan deportasiya. Bu mərhələ XIX əsrin 20-ci illərinin sonu-30-cu illərinin əvvəllərini əhatə edir.
2) 1905-1907-ci illər rus inqilabı və onu müşayət etmiş milli qarşıdurmalar zamanı azərbaycanlıların zorla köçürülməsi.
3) Sovet hakimiyyəti illərində baş vermiş deportasiyalar.

Qeyd edək ki, bu sonuncu mərhələ daha genişmiqyaslı olmuşdur və öz növbəsində bir neçə mərhələyə ayrılır:

1) 1920-1921-ci illərdəki deportasiya nəticəsində Qərbi Azərbaycanın 500.000 nəfər azərbaycanlı əhalisindən cəmi 10.000-i qalmışdır (bax:3, s.93).
2) 1948-1953-cü illərdə 150.000 azərbaycanlının Kür-Araz ovalığına köçürülməsi (3, s.93; 19,s.188). Ümumiyyətlə, deportasiya sovet dövlətinin milli siyasətinin özünəməxsus vasitəsi, repressiyanın bir forması olmuşdur. İ.Stalin repressiyaları dövründə digər xalqlara, o cümlədən, çeçenlərə, almanlara, inquşlara qarşı da köçürmə siyasəti aparılmış,

sonrakı illərdə deportasiya olunmuş xalqlar bəraət alsalar da, bu, azərbaycanlılara şamil edilməmişdir.

3) 1987-ci ilin sonlarından başlayan, 1991-ci ildə başa çatdırılan deportasiya və soyqırımı. Bu illərdə azərbaycanlılar Qərbi Azərbaycan (o zamankı Ermənistan SSR) ərazisindən tamamilə çıxarılmış (250.000-ə yaxın azərbaycanlı) və Ermənistan monoetnik bir dövlətə çevrilmişdir.

Qeyd edək ki, bütün mərhələlərdə azərbaycanlıların deportasiyası böyük talanlarla, dəhşətli qətllərlə və qəddarlıqlarla müşayiət olunmuşdur.

Rusiyanın yuxarıda qeyd etdiyimiz xristianlaşdırma və köçürmə siyasətinin tərkib hissələrindən biri də Cənubi Qafqaza rus təriqətçilərinin və alman əhalisinin köçürülməsi sayılmalıdır. XIX əsrin 30-cu illərindən başlayaraq Azərbaycana da kütləvi olaraq rus təriqətçiləri-malakanlar, duxovorlar, subbotniklər və d. köçürülür. Təkcə 1849-cu ildə 2.109 rus ailəsi Azərbaycanda yerləşdirilmişdi (9) və Kaspi vilayətində rusların məskun olduğu kəndlərin sayı 15-ə çatmışdı (7, s.94). Bu təriqətçilər rus cəmiyyəti və imperiyanın mərkəzi vilayətləri üçün sosial baxımdan təhlükəli sayıldığından, onların ucqarlara köçürülməsi çar hökumətinin sosial siyasətinin effektli vasitələrindən idi.

Almanlara gəlincə, onların da Azərbaycanda yerləşdirilməsi XIX əsrin əvvəllərinə aiddir. 1818-1819-cu illərdə bölgəyə Vürtemberqdən olan 486 alman ailəsi köçürülmüşdü (6, s.81). Onların Azərbaycan ərazisində Yelenendorf (indiki Göygöl), Annenfeld (Şəmkir), Yekaterinenfeld, Aleksandergelf (hər ikisi Borçalıda-indiki Gürcüstan Respublikası) kimi koloniyaları yaranmışdı (7, s.94). Mütəxəssislərin hesablamalarına görə, XIX əsrin əvvəllərində Azərbaycan əhalisinin 0,28%-ni almanlar təşkil edirdilər (6, s.81).

XIX əsrin ikinci yarısı Azərbaycanda alman-məskunların sayı xeyli artır və 1886-cı ildə Cənubi Qafqaza köçürülmüş almanların ümumi sayının 78,7%-ni Azərbaycan almanları təşkil edir (6,s.81). Artıq XX əsrin əvvəllərində almanların Azərbaycanda sayı 15.990-a çatır, bu isə XIX əsrin əvvəlləri ilə müqayisədə 10 dəfə artım demək idi (6,s.81).

Almanlar bölgənin iqlim şəraitinə uyğunlaşmaqla yanaşı, onun iqtisadi həyatında da fəal iştirak edirlər və Azərbaycanlı əhali arasında "əməksevərliyi, düzgünlüyü, məişət mədəniyyəti, milli dəyər və adətlərə hörmətləri" ilə tanınmışdılar (5,s.84). Eyni hal yuxarıda qeyd olunan məskun rus əhalisinə də şamil edilə bilər.

XIX-XX əsrlərdə Azərbaycanın miqrasiya tarixində əmək miqrasiyaları da əhəmiyyətli yer tutur və bu prosesin də özəllikləri vardır. Belə ki, XIX əsrdə Azərbaycandan əmək miqrasiyası nisbətən zəif olmuş, əksinə, Azərbaycana Rusiyadan və İrandan (əsasən neft sənayesində çalışmaq üçün yüksək ixtisaslı rus mühəndisləri və iranlı kəsbkar-fəhlələr) iş axtarışına gələnlər sayca çox olmuşdur. XX əsrin ortalarından etibarən isə vəziyyət dəyişməyə başlamış, Azərbaycandan isə digər ölkələrə əmək miqrasiyası güclənmişdir. Keçən əsrin 80-90-cı illərində isə prosesin yeni mərhələsi-

“əqil axını” (ing. Brain Drain) başlamış, Azərbaycan dünyada geniş miqyas alan bu proseslərdən kənarda qalmamışdır. “Əqil axını” nın əsas coğrafi istiqaməti ABŞ və Kanadadır; belə ki, intellekt miqrantlarının 2/3-ni bu iki ölkə cəlb edir (14,s.91).

Əmək miqrasiyası ilk baxışdan “ziyansız” görünə bilər, amma onun nəticələri ölkənin həm iqtisadi, həm sosial, həm də mədəni inkişafına neqativ təsir baxımından böyükdür. Məsələn, azərbaycanlıların keçən əsrin ortalarından başlayaraq davam edən əmək miqrasiyası Azərbaycanın yüksək ixtisaslı işçilərinin (fəhlədən tutmuş aliminə qədər) ölkə daxilində sayca azalmasına, bəzi sənaye və elm sahələrində peşəkar çatışmazlığına və xaricdən yüksək məvacib tələb edən mütəxəssislərin çağrılmasına, nəticədə ölkədən külli miqdarda valyuta axınına gətirib çıxarır. Doğrudur, əmək miqrantlarının bir qismi yenidən Azərbaycana dönür və özlərilə hesablarındakı vəsaiti də gətirir, hansı ki, ölkəyə xeyli pul axınına səbəb olur. Amma “intelekt axını” nın ixracatçı ölkənin elmi potensialına və mədəni inkişafına vurduğu ziyan daha böyük sayılır. Üstəlik, əmək miqrasiyası donor ölkənin əhalisinin demoqrafik yaşlanmasına, kişi əhalinin sayının azalmasına (feminizasiyaya) da gətirib çıxarır. Nəhayət, azərbaycanlıların digər ölkələrdə məişət, adaptasiya problemləri və etnik, konfessional qarşıdurmalara cəlb olunması da bu prosesin neqativ tərəflərindən sayılmalıdır.

Məqalədəki qısa icmaldan göründüyü kimi, əhalinin mobilliyi - məcburi və ya könüllü miqrasiyaları XIX-XX əsrlərin siyasi, iqtisadi və mədəni həyatının ayrılmaz hissəsi olmuşdur. Azərbaycanda bu proseslərin özünəməxsus cəhətləri bura rus (və sovet) imperiyaları tərəfindən əhali köçürmələri və azərbaycanlıların tarixi torpaqlarından deportasiyası ilə müəyyən edilirdi. Qeyd olunan dövrdə Azərbaycandan miqrasiyalar əsasən əmək miqrasiyası formasında olmuş, 1990-cı illərdən onun “intelekt axını” altqrupu da yayılmışdır.

Ümumiyyətlə, miqrasiyalar təkcə əhalinin strukturuna deyil, ölkənin iqtisadi inkişafına, sosial durumuna və hətta xarici siyasətinə təsir edən amildir. Bu təsiri birmənalı pozitivə və ya neqativ qiymətləndirmək mümkün olmasa da, nəzərə almaq çox vacibdir. Elə bu səbəbdəndir ki, istər miqrant qəbul edən ölkələr, istər miqrant “ixrac” edən ölkələr, istərsə də müvafiq beynəlxalq təşkilatlar son onillikdə miqrasiya məsələləri üzrə qanunvericiliyi təkmilləşdirir, dünyada və ayrı-ayrı bölgələrdə gedən miqrasiya proseslərini və axınlarını nizamlayan mexanizmi razılaşdırır, milli maraqları nəzərə almaqla insan haqqları və demoqrafiya prinsiplərini miqrasiya siyasətində də rəhbər tuturlar.

Müasir Azərbaycan Respublikası da nəzərdən keçirdiyimiz inteqrasiya proseslərinə qoşulmuşdur, ölkədə miqrasiyanın hüquqi və təşkilati bazası yaradılmışdır. XIX-XX əsrlərdə Azərbaycandakı miqrasiya proseslərinin tarixi kökləri nəzərə alınaraq, milli maraqların müdafiəsi şərtilə, Azərbaycan əhalinin və işçi ehtiyatlarının miqrasiyası üzrə gedən inteqrasiyaya və

beynəlxalq təsərrüfatın beynəlmiləlləşməsi proseslərinə fəal qatılmışdır. Bu proseslər artıq XIX-XX əsrlərdə olduğu kimi, məcburi və ya pərakəndə xarakter daşımır, əksinə əhali yerdəyişməsini ciddi dövlət nəzarətinə almaq, mədəni özəlliyi qorumaq, iqtisadi və sosial tərəqqini təmin etmək, elmi potensialı müdafiə etmək məqsədi daşıyır.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Əliyev H.Ə. 31 Mart azərbaycanlıların soyqırım günü elan olunması haqqında fərman // “Azər-baycan”, 27.03.1998

2.Həsənov S. 1988-ci ildə Ermənistan ərazisindən azərbaycanlıların deportasiyası // Tarix və onun problemləri, 1999, №2, s.172-176

3.Məhərrəmova S. Qərbi Azərbaycanın aborigen türk əhalisinin tarixi-etnik torpaqlardan deportasiyasına dair // Tarix və onun problemləri,1999, №2, s.93-94

4.Zeynalov İ.X. Azərbaycanda demoqrafik vəziyyət (1987-2000-ci illər) // Bakı Universite-tinin Xəbərləri, 2002, №1,s.105-114

5.Ахундова Т. К вопросу о немецких поселениях в Азербайджане (колония Еленендорф)// Tarix və onun problemləri,1999, №2, s.82-84

6.Вердиева Х.Ю.Динамика численности немцев в Северном Азербайджане в XIX-нач. XX вв. // Tarix və onun problemləri, 1999, №2, s.80-82

7.Гусейнов Р.А., Вердиева Х.Ю. История Азербайджана. С древнейщих времен по 1920 г.-Баку: «Озан», 2000-180 с.

8.Иллюстрированный энциклопедический словарь.-Москва: «Большая Российская эн-циклопедия», 2004-1038 с.

9. «Кавказ»,15.05.1850 г.

10.Кавказский календарь на 1917 г. Тифлис, 1916

11.Каменский А.Н. Проблемы международ-ного трудового обмена и Россия. - Москва, 1999-401 с.

12.Каменский А.Н., Ионцев В.А. Россия и международная миграция населения // Международная интеграция населения в России. Москва, 1998 г.

13.Краткий политический словарь.-Москва; Политиздат, 1989-623 с.

14.Максаковский В.П. Географическая картина мира.Кн.1-Москва: «Дрофа», 2004-485с.

15.Первая всеобщая перепись населения Российской империи 1897 г. Бакинской, Елизаветпольской, Эриванской губернии. СПб.,1903-1905

16.Свод материалов для исследования экономического быта государственных крестьян Закавказского края, Т.2, Тифлис, 1887

17.Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб.,1911

18. http: // www.migracio.ru

19.http:// monderusse.revues.org/docannexe4079.htm

# ТЕРРИТОРИАЛЬНЫЕ ИЗМЕНЕНИЯ НА ЮЖНОМ КАВКАЗЕ С ОКТЯБРЯ 1917 ПО МАЙ 1918 ГОДА

*С.О.МУСТАФАЕВА*

Одним из важнейших атрибутов каждого государства является его граница. Вопросы, связанные с территориальными изменениями на Южном Кавказе, всегда вызывали и вызывают особый интерес. Сегодняшние межэтнические территориальные конфликты в Карабахе, Абхазии, Южной Осетии уходят корнями в прошлое, в начало прошлого века и, следовательно, выявление причин их возникновения может способствовать урегулированию противоречий в регионе. Основными источниками для изучения проблемы территориальных изменений на Южном Кавказе с октября 1917 по май 1918 года являются сборники документов и фонды Государственного архива Азербайджанской Республики.

После прихода большевиков к власти в октябре 1917 года, в стране сложилась новая политическая ситуация. С этого момента на территории Южного Кавказа прекратилось действие центральной Российской власти. 2(15) ноября 1917г. Большевики провозгласили «Декларацию прав народов России». В подписанной В.И.Лениным (Председатель Совета народных комиссаров Советской России) и И.В.Сталиным (народный комиссар по делам национальностей) декларации говорилось о «праве народов России на свободное самоопределение вплоть до отделения и образования самостоятельного государства» (4, с.14-15). 20 ноября (3 декабря) 1917г. Советское правительство обратилось «Ко всем трудящимся мусульманам России и Востока», где говорилось: «Устраивайте свою национальную жизнь свободно и беспрепятственно. Вы имеете право на это» (4, с.34). В действительности эти документы носили декларативный характер. Большевики продолжали придерживаться политики царской правительства о единой и не делимой России.

Новую большевистскую власть, пришедшую путем вооруженного восстания, то есть, незаконным путем, на Южном Кавказе не приняли. Еще 9(22) марта 1917 г. Решением Временного правительства было ликвидировано Кавказское наместничество и вместо него для управления краем создан Особый Закавказский комитет (ОЗАКОМ) под председательством В.А.Харламова (6, с.776). 11(24) ноября в Тифлисе

представители политических сил Закавказья провели с ОЗАКОМом совещание. Его участники решили, что до созыва Учредительного Собрания Южный Кавказ должен управляться самостоятельно. 15(28) ноября «Вследствие чрезвычайных обстоятельств политического момента и отсутствия центральной общегосударственной власти» ими создается временное правительство – Закавказский комиссариат, принявший на себя всю полноту власти в пределах Закавказского края. Комиссариат возглавил Е.Гегечкори (5, с.7).

В ноябре 1917 г. между Советским правительством и Османской империей – участниками Первой мировой войны была достигнута договоренность о начатле мирных переговоров. В результате переговоров в Брест-Литовске между Россией и странами Четверного союза (Германия, Болгария, Австро-Венгрия и Турция) 2(15) декабря был подписан договор о перемирии (4, с.47-51). 5(18) декабря этого же года в г.Эрзинджане между русскими и турецкими армиями, действующими на Кавказско-Турецком театре войны (от Черного моря до линии Мерване-Чарчалан включительно) был подписан договор о перемирии из 14 пунктов и в дополнение к нему акт, устанавливающий на время перемирия демаркационную линию между ними (4, с.53-57). 9(22) декабря в Брест-Литовске началась мирная конференция вышеуказанных государств. Вразрез с подписанным выше соглашением 29 декабря (11 января) Лениным был подписан декрет Совета Народных Комиссаров о «Турецкой Армении»[1], по которому большевистское правительство поддерживало право армян оккупированной Россией «Турецкой Армении» на свободное самоопределение вплоть до полной независимости. Претворение в жизнь этого декрета было возложено на Чрезвычайного Военного комиссара по делам Кавказа С.Т.Шаумяна (4, с.74-75).

В январе 1918 г. турецкая сторона предложила Закавказскому правительству послать своих уполномоченных делегатов в Брест-Литовск, где «…делегаты Срединных Держав, собравшихся в Брест-Литовске, готовы приложить все свои старания к признанию независимости Закавказского Правительства….» (5, с.52). Это предложение говорило о том, что Турция хотела видеть Закавказье независимым государством. Не получив положительного ответа на данную телеграмму, Турецкое правительство стало рассматривать Закавказье как часть Российской республики.

После разгона Учредительного Собрания, просуществовавшего один день 5(18) января 1918 г., 10 (23) февраля в Тифлисе, после долгих дискуссий, был созван Закавказский Сейм, парламент, который состоял из депутатов от Закавказья бывшего Учредительного Собрания. Закавказский Сейм сменил, таким образом, Закавказский ко-

---

[1] «Турецкая Армения» - северо-восточная часть территории Турции

миссариат. Главным вопросом повестки дня Сейма был вопрос о войне (о мире) с Османской империей. 16 февраля Закавказский Сейм принял основные положения по вопросу о мире с Турцией, состоящему из 4 пунктов. Первые два пункта касались правомочности Закавказского Сейма заключать договор с Турцией. Интерес представляют следующие два пункта «3: В основание заключаемого мирного договора должно лечь восстановление государственных границ России с Турцией, существующих к моменту объявления войны в 1914 г.; 4: Делегация добивается права на самоопределение для Восточной Анатолии, в частности, автономии турецкой Армении в рамках турецкой государственности» (5, с.83-84).

3 марта 1918 г. в Брест-Литовске был подписант мирный договор между Россией, с одной стороны, Германией, Австро-Венгрией, Болгарией и Турцией – с другой. По этому договору округа Ардаган, Карс и Батум перешли в состав Османской империи (4, с.121). В этот же день был заключен русско-турецкий Дополнительный договор к вышеуказанному соглашению. II статья договора гласит: «Договаривающиеся стороны в течение трех месяцев после ратификации настоящего договора образуют две смешанные русско-турецкие комиссии. Задачей первой комиссии является восстановление пограничной линии, разделяющей Россию и Турцию, начиная от места, где все три границы – русская, турецкая и персидская сходятся до места, где пограничная линия доходит до границ 3 санджаков: Карса, Ардагана и Батума. На этом протяжении комиссия будет руководствоваться пограничной линией, существовавшей до войны. Пограничные знаки, разрушенные во время военных действий, будут там восстановлены и исправлены согласно картам и протоколам комиссии по демаркации 1880г.

Вторая комиссия установит русскую границу и границу трех санджаков, подлежащих эвакуации Российской Республики в соответствии со вторым абзацем статьи 4 и коллективного мирного договора. Граница там будет восстановлена в том виде, как она существовала до русско-турецкой войны 1877-78 года» (4, с.200-201). Одним словом, между Россией и Турцией должна была быть установлена граница, существовавшая до русско-турецкой войны 1877-1878 гг.

В декларации Оттоманской делегации от 3 марта 1918 г. говорится: «Что же касается неучастия делегатов Закавказья на конференции в Брест-Литовске, то само собою ясно, что именно несуществованием на Кавказе независимого государства во время указанных переговоров и объясняется поведение Закавказского Правительства, считавшего себя членом Российской Федеративной Республики, а также его воздержанием от посылки своих представителей на конференцию». В доказательство своих слов Оттоманская делегация приводит в декларации содержание письма Гегечкори от 23 января 1918 г., где в

частности говорится, что: «Правительство Закавказья поставлено в необходимость согласовать свое поведение и свои действия, в виду прекращения военных действий, с поведением и актами других автономных государств, составляющих территориальное единство Российской Республики….» (5, с.118-119). Факт того, что Закавказское Правительство не было абсолютно независимым государством, находит свое подтверждение в словах одного из выступающих на объединенном заседании президиума Закавказского Сейма, Закавказского Правительства и представителей фракций Сейма 25 марта 1918 г. Здесь при обсуждении вопроса об объявлении независимости Закавказья было сказано, что «объявление независимости теперь создаст ряд больших затруднений, из которых наиглавнейшее первое: это в финансовой системе Закавказья, так как Закавказские боны, обеспечиваемые Государственным Банком России, с объявлением независимости теряют свою силу, и нет гарантии, что Турция со своими союзниками возьмет на себя финансовую поддержку…» (5, с.144).

Закавказский сейм заявил о непризнании Брест-Литовского договора. Н.Жордания, выступая 11 марта 1918 г. на заседании Закавказского сейма заявил: «Батум для нас – это то же, что Петроград для России и Смирна для Турции. Это единственный выход в Черное море, - и, благодаря этому, Закавказье получило возможность развиваться в экономическом и культурном отношениях и, вообще, уподобиться европейским странам. Батум связан с Европой Черным морем. Если возьмете Батум, то Баку останется изолированным и его промышленность зачахнет. …Возьмем мы город Карс. Этот город из себя представляет первоклассную крепость и вообще вся Карсская область впирается в сердце Закавказья, и та власть, которая будет господствовать в Карсе и в области, будет господствовать во всем Закавказье. У нас не будет естественных границ для того, чтобы свои границы обеспечить» (5, 94-95).

12 марта в Трабзоне (Трапезунд) начались переговоры между представителями Закавказского Сейма и Османской империей о заключении мира между ними. Вследствие того, что Закавказье еще не декларировало свою независимость, турки не считали переговоры в Трапезунде конференцией, Оттоманское правительство лишь желало познакомиться с новым положением Закавказья и заключить добрососедские торговые и иные договоры.

Председателем Закавказской делегации в Трапезунде был А.Чхенкели. Закавказская делегация, не признавая Брест-Литовского договора, отстаивала границу, существующую между Россией и Турцией до Первой мировой войны. Турецкая делегация, ссылаясь на нормы международного права (Закавказье de facto представляло из себя Государство, но еще не декларировало о своей независимости и

поэтому de jure считалась частью России), отвергла заявление Закавказской делегации о недействительности Брест-Литовского договора в части, касающейся Кавказа. Турция предъявила требование «определить и декларировать официальную форму Закавказского правительства, границы и территории…» (1, с.29). Оттоманская делегация выступила и против 4 пункта («о самоопределении Восточной Анатолии») основного положения данного Сеймом закавказской делегации, видя в нем вмешательство во внутренние дела (5, с.111). Она сообщила, что «окончательное и официальное признание Кавказской Республики может состояться лишь при помощи особого положения в договоре, который будет заключен и переговоры по поводу последнего могут быть начаты лишь после отказа от каких-бо то ни было претензий на Батумский, Ардаганский и Карсский санджаки» (5, с.139).

В ответной декларации Закавказской делегации сообщается: «о форме правления Закавказского государства, которая вырабатывается Сеймом и есть основание думать, что будет установлена демократическая федеративная республика; о территории Закавказского государства, в которую входят губернии: Бакинская, Елисаветпольска, Эриванская, Тифлисская, Кутаисская; области Батумская и Карсская; округа Сухумский и Закатальский. Вопрос о Дагестанской области и Черноморской губернии остается открытым впредь до делегирования их представителей в Закавказский Сейм» (1, с.37). Турция упорно настаивала на декларировании независимости Закавказья. Независимое Закавказье турки считали необходимым и желательным, так как создается буфер между Россией и Турцией (5, с.142). По поводу турецких требований участник конференции А. Хатисов писал в своих мемуарах: «…а) турки какой бы то ни было ценой хотят получить Карс, Батуми, Ардаган, б) хотят создать барьер между Турцией и Россией в виде Закавказской республики, которая бы и фактически и де-юре была независима и отделена от России» (7, с.174).

На последнем заседании Трапезундской конференции 5 апреля Закавказская делегация выступила с декларацией, в которой говорилось о территориальных уступках. Согласно этой декларации, подготовленной А.Чхенкели, к Турции отходили: весь Ольтинский округ, южная часть Ардаганского, юго-западная часть Карсского и западная часть Кагызманского округов. Закавказская делегация предлагала установить следующую государственную границу между Турцией и Закавказьем: «От летнего поста Когаджи, что в 18-ти верстах к юго-западу от Кагызмана, через гору Ах-Булаг, по водораздельному хребту по прямой линии на Олухлы и на высоту 6216, оттуда на высоту 6265, на гору Баш-Кая, на гору Зиарет (7543), на высоту 8138 и далее по административной границе Карсского и Ардаганского округов на гору Буга-Тапа и высоту 7686, откуда севернее Гельской долины на высоты

7350-7469-7862 и далее через гору Шано на гору Барзы-Гель (8057) на гору Сари-Гюней, перевал Зиаретский, отсюда по водораздельной линии на высоту 8204 и далее на гору Хоросан. Далее по южной административной границе Батумской области до горы Беюк-Сырт и по государственной границе до моря.

На восток от летнего поста Когаджи вплоть до Персии границей остается прежняя государственная граница». В декларации также была «изъявлена готовность Закавказской делегации войти в соглашение с Оттоманской делегацией для совместной выработки такой постановки армянского вопроса, который Оттоманская делегация сочтет приемлемой для себя….» (5, с.154-155). Однако Турция продолжала настаивать на признании условий Брест-Литовского договора.

10 апреля Закавказская делегация, после ряда удач Турции на Кавказском фронте, заявила, что принимает Брест-Литовский договор, и готова вести дальнейшие переговоры, основываясь на нем. Однако, несмотря на заявление Закавказской делегации о признании условий Брест-Литовского договора, этот вопрос продолжал обсуждаться на заседании Закавказского Сейма 13 апреля 1918 г. По мнению Е.П.Гегечкори, выступившего на этом заседании, признание Брест-Литовского договора означало бы, что Закавказье, как независимая Республика, перестает существовать и становится провинцией Турецкой Империи. Арутюнян заявил в своем выступлении, что Турция не остановится на условиях Брест-Литовского договора «она пойдет далее и осуществит свою давнюю программу, программу объединения Константинополя с Баку сплошной мусульманской массой…» (5, с.174-175).

Вследствие того, что мирного соглашения по вопросу о границах между Турцией и Закавказским правительством не было достигнуто, 14 апреля 1918 г. Закавказская делегация была отозвана в Тифлис (5, с.184). 22 апреля Закавказский Сейм провозгласил Закавказье независимой Демократической Федеративной Республикой. Председателем Закавказского правительства стал министр иностранных дел А.Чхенкели. На следующий день 23 апреля 1918 г. было послано заявление Оттоманской империи о том, что Закавказское правительство принимает условия Брестского договора (5, 221-224).

После отъезда Закавказской делегации из Трапезунда возобновились военные действия, вследствие чего вопрос о границах между Турцией и Закавказским государством вступил в новую фазу. Теперь, по мнению Оттоманского правительства, Брестский договор не мог быть основой для урегулирования территориальных и других вопросов между этими странами. Турецкая сторона полагала урегулировать все вопросы в порядке соглашений между Оттоманской империей, с одной стороны, и Закавказьем, с другой (5, с.276).

В телеграмме от 28 апреля 1918 г. Главнокомандующего Кавказским фронтом Вехиб-паши о признании независимости Закавказья есть информация о том, что Северный Кавказ объявил свою независимость и нотифицировал ее перед Императорским Правительством Турции и другими державами и, что «Делегаты Северного Кавказа, находящиеся в Константинополе, выедут в Батум вместе с Оттоманской делегацией и предпримут шаги к объединению их страны с Закавказьем» (5, с.253).

В апреле 1918 г. мусульманское население Ахалцихского и Ахалкалакского уездов обратилось к Османской империи с просьбой присоединить этот край к Турции. В постановление делегатов этого региона сказано «ввиду близкого окончания войны Турции с Закавказьем и возможности установления государственных границ Турции в пределах до войны 1877-1878 гг., причем территория наших двух уездов останется в пределах Закавказья, и принять во внимание: территория Ахалцихского и Ахалкалакского уездов была насильственно отторгнута от Турции в 1828 г., а до того времени около трех веков была под ее властью; что эти уезды с трех сторон окружены грузинами и армянами, для спасения мусульман названных уездов от полного истребления и, ввиду невозможности мирной жизни мусульман в составе Закавказья, и тем более в составе Грузии, просим Турецкое Правительство присоединить по мирному договору к территории весь Ахалцихский уезд и часть Ахалкалакского уезда» (5, с.310-312).

На совместном заседании 3 мая 1918 г. всех мусульманских сеймовских фракций после продолжительного обсуждения вопроса об устройстве Закавказья, во время которого особенное внимание обращалось на то, федеративное или конфедеративное должно быть устройство края, было решено «всемерно поддерживать идею конфедерации Грузии, Армении и Азербайджана вместе с Северным Кавказом при чем Азербайджан и Северный Кавказ федерируют между собой» (3, л.34).

На Батумской конференции, начавшейся 11 мая 1918 г., турецкая делегация вновь заявила о том, что границы, установленные Брестским договором не могут быть приемлемы, они должны будут исправлены соответственно изменившимся обстоятельствам и предлагала проект, по которому к Турции кроме Карсской, Ардаганской и Батумской провинций, должны были быть присоединены Ахалкалакский и Ахалцихский уезды Тифлисской губернии, Сурмалинский, Александропольский и большая часть Эчмиадзинского уездов Иреванской губернии, а также железнодорожная линия Карс-Александрополь-Джульфа (2, с.194). На Батумской конференции принимала участие, кроме Закавказской делегации, в качестве полноправного члена конференции, делегация правительства союза горцев Северного Кавказа. Она объявила об отделении от России и «образовании независимого государства с территорией от Черного моря до Каспийского» (1, с.92).

Из доклада члена делегации Закавказского Мусульманского Совета Н.Б.Усуббекова, вернувшегося из Батума, на чрезвычайном заседании бывших членов мусульманского Закавказского сейма 27 мая 1918 г. видно, что самым главным залогом процветания Закавказья, по мнению турецкой делегации, является солидарность и единение Закавказских народов, для достижения чего необходимо будет некоторая территориальная уступка армянам со стороны Азербайджана (3, л.46). Таким образом, Турция с целью отвести от своих границ армянскую проблему выступала за создание армянского государства на территории Южного Кавказа и советовала Азербайджану отказаться от ряда своих территорий. И уже в ходе Батумской конференции Азербайджан под давлением Турции вынужден был отказаться от города Иревана, так как «для образования армянской федерации им нужен политический центр, а таковым после отхода Александрополя к Турции может быть только Эривань, а потому уступка Эривани армянам является неизбежной» (3, л.51-52).

Все это время Россия, считая Кавказ своей территорией, но, не имея необходимых военных сил для удержания в руках этого региона, пыталась дипломатическими методами противостоять созданию независимых государств на Кавказе и размещению там войск других государств, в частности Турции. С целью надавить на Турцию с помощью ее союзников, в мае 1918 г. начались переговоры между Россией и Германией.

Недоверие по отношению друг к другу, территориальные проблемы, а также противоречия, связанные с Карсом, Ардаганом и Батумом, явились главной причиной распада в мае 1918 г. Закавказской республики и образования трех независимых государств –Азербайджана, Грузии и Армении.

**Использованная литература:**

1. Аркомед С.Т. Материалы по истории отпадения Закавказья от России. Тифлис, 1931
2. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку, 1998
3. ГААР, ф.970, оп.1, д.1
4. Документы внешней политики СССР. В 7-ми т. Т.1. М., 1959
5. Документы и материалы внешней политики Закавказья и Грузии. Тифлис, 1919
6. История Азербайджана. В 3-х т. Т.II. Баку: Академия наук АССР, 1960, 953 с.
7. Шамсутдинов А.М. Участие султанской Турции в интервенции против Советской России в 1918г. //Ученые записки института востоковедения. т. XIV. М.: Академия наук СССР, 1956, 163-196 с.

# XX ƏSRIN ƏVVƏLLƏRINDƏ AZƏRBAYCANDA ÇARIZMIN KÖÇÜRMƏ SIYASƏTINƏ DAIR

*H.O.ƏHMƏDOV*
Tarix elmləri namizədi

Şimali Azərbaycan çar Rusiyası tərəfindən işğal edildikdən sonra burada əhalinin yerdəyişməsi və ölkəyə imperiyanın daxili rayonlarından rus əhalisinin köçürülməsi prosesi özünü açıq biruzə vermişdi. Bu proses XX əsrin əvvəllərində daha aydın xarakter kəsb etmişdi.

XX əsrin əvvəllərində çarizmin Azərbaycanda köçürmə siyasəti siyasi, hərbi-strateji və iqtisadi xarakterli tamamilə dəqiq vəzifələri həll etdi. Belə ki, 1905-1914-cü illərdə çarizm köçürmə siyasətində başlıca vəzifəni Azərbaycanın çöl (düzənlik) rayonlarının müstəmlə-kələşdirilməsində görürdü. Çarizm məmurları burada sənaye pambıqçılığının mərkəzini yaratmağa çalışırdı. Çöl arealında başlıca yeri qədim çağlardan Azərbaycanda əkinçilik mədəniyyətinin ən qədim ocaqlarından biri olan Muğan çölü tuturdu. Coğrafi cəhətdən Muğan düzü Kür-Araz ovalığının sağ sahil zonasında yerləşmişdi. Onun sərhədləri cənubda Talış dağları silsiləsinə, şərqdə isə kiçik Bolqar çaya söykənirdi. Bakı quberniyasının cənub-qərb hissəsini təşkil edən Muğan düzü başlıca olaraq Cavad qəzasının tərkibinə və qismən də Lənkəran qəzasının tərkibinə daxil idi. Bölgənin yerdə qalan hissəsi isə İran hüdudlarında yerləşirdi (1, s.1).

Muğan düzünün tədqiqatçısı L.Ruma çarizmin köçürmə siyasətini aşağıdakı kimi səciyyələndirirdi:

"Hökumət dövlət bataqlıqlarını əsas götürərək: 1) siyasi: diyarın birləşdirilməsi; 2) iqtisadi: boş qalmış torpaqların dirçəldilməsi və diyarın məhsuldar qüvvələrinin yüksəldilməsi, kənd təsərrüfatının çoxgəlirli sahələrinin tətbiqi və inkişafı; 3) strateji: Muğan və Mil düzləri-İran sərhəddində yerləşməsi" məsələlərini ön plana çəkirdi (2, s.196).

1902-ci ildə Bakı quberniyasında rus mənşəli köçkünlərin sayı 42.452 nəfərə , Yelizavetpol quberniyasında isə - 8.089 nəfərə çatırdı (3,146). 1910-cu il məlumatına görə Yelizavetpol quberniyasında 772 köçkün, Bakı-Dağıstan ərazisində isə - 1.425 köçkün yerləşdirilmişdi.

Qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində suvarma kanallarının çəkilməsi ilə əlaqədar olaraq qəsəbələrin salınması və onların rus köçkünləri ilə məskunlaşdırılması prosesi canlandı. Bu halda söhbət rus köçkünləri üçün rayon massivləri salınması yolu ilə Muğanın müntəzəm məskun-

laşdırılması haqqında gedir. Tam əsasla demək olar ki, Azərbaycanda quraq çöllərin suvarılması üçün irriqasiya qurğularının tikintisi prosesi məskunlaşma prosesi ilə paralel aparılmışdır. Məlumata görə, 1902-1916-cı illərdə bütün Muğanda 55 qəsəbə və 21 məntəqə salınmış, 21.094 nəfərdən ibarət 3.620 ailə məskunlaşdırılmışdır. A.Brilinskinin məlumatına görə 1915-ci ildə Muğanda 53 rus məntəqəsi yaradılmışdı (4, s.18).

Siyahıyaalmaya görə, artıq 1917-ci ildə Muğanda 121 məskən fəaliyyət göstərirdi ki, onlardan da 67-ni azərbaycanlı kəndləri təşkil edirdi. Deməli, Muğan düzündə rus təsərrüfatları bütün təsərrüfatların yarısını təşkil edirdi (5, s.100).

Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində rus əhalisi XX əsrin əvvəllərində şəhərlərdə və kənd yerlərində bərabər yerləşmişdi. Rus əhalisinin pravoslav və sektant hissəsinin sayına gəldikdə isə şəhərlərdə pravoslav hissəsi üstünlük təşkil edirdi. XX əsrin əvvəllərində intensiv məskunlaşma rayonlarında (Muğan, Cavad qəzası) rus kənd əhalisinin pravoslav hissəsi sektant hissəsini xeyli üstələmişdi. Məsələn, Bakı quberniyasının Göyçay və Şamaxı qəzalarında və Yelizavetpol quberniyasının Qazax qəzasında pravoslavlar üstünlük təşkil edirdi.

Bu dövrdə hökumət qarşısında duran vəzifələr həm dövlət sərhədlərinin möhkəmləndirilməsindən, həm də yeni torpaqların mənimsənilməsindən ibarət idi. Praktiki olaraq bu, öz əksini rus elementinin simasında özünə dayaq yaradılmasında və Rusiya imperiyasının ucqarlarının məskunlaşdırılmasında tapırdı.

1909-cu ildə köçürmə hərəkatı daha böyük miqyas aldı. 1912-ci ildən isə bu prosesdə enmə müşahidə olunmağa başladı. Beş il ərzində Yelizavetpol quberniyasında cəmi 935 ailə, Bakı quberniyasında isə 3.150 ailə məskunlaşmışdı. 1903-1905-ci illər ərzində rus kənd əhalisinin məskunlaşdırılması isə aşağıdakı qaydada baş vermişdir: Bakı quberniyasında 34.210 nəfər, Yelizavetpol quberniyasında isə 11.974 nəfər yerləş-dirilmişdir.

Ümumiyyətlə, bu dövrdə Muğan düzünün fəal məskunlaşdırılması 1901-1902-ci illərdə başlanmışdı. İrriqasiya qurğularının tikintisi yeni qəsəbələrin meydana çıxmasına səbəb oldu: Nikolayevka, Alekseyevka, Pokrovka, Mixaylovka, Aleksandrovka. Bunların ardınca 1907-1908-ci illərdə Şapoşnikova, Otradnoye, Nikonovka, Vladimirovka, Xersonovka, Novo-Donetskoe, İllarionovka, Şatilovka, Suslovka qəsəbələri yarandı.

Rus məskənlərinin adları və yaranması ilə əlaqədar bəzi qeyri-dəqiqliyə və düzgün olmayan adlara da təsadüf olunurdu. A.Brilinskinin məlumatına görə 1915-ci ildə Muğanda 53 rus məskəni yaradılmışdı, 1916-cı il tədqiqatlarına görə Muğanda 55 qəsəbə vardı, 1917-ci il siyahıyaalınmasına görə 54 rus məskəni və s. vardı (6, s.33).

Azərbaycanda rus məskənlərinin yaradılması haqqında Bakı qubernatoru Aleşevskinin və Yelizavetpol quberniyasının qubernatoru Lutsaunun hesabatlarında müəyyən məlumatlara təsadüf olunur. Bakı qubernatoru

Novo-Nikolayevka, Novo-Aleksandrovka, Kozlyakovka, Yermolovka, Şirvanskoe, Qriqoryevka, Pokrovskoe, Alekseevka və b. qəsəbələrin salındığını qeyd edir. 1908-ci il hesabatında qeyd olunurdu ki, köçkünlər gələcəyə ümidlə baxır, hökumət onların taleyi ilə maraqlanır və bu düzən zonalarda onları sığınacaqla təmin edirdi. Bir qayda olaraq ruslar müstəqil qəsəbələr və rus, azərbaycanlı, erməni, yunan, yəhudi və b. millətlərə məxsus olan məskənlər də yaradırdılar.

Azərbaycanda pravoslav və sektant əhalisinin yerləşməsi məskunlaşma rayonları üzrə qeyri-bərabər paylanmışdı. Lakin pravoslav əhalisinin sayı daha çox idi, nəinki sektantların. Bu isə çar mütləqiyyətinin köçürmə siyasətinin xüsusiyyətləri ilə əlaqədar idi.

Qeyd etmək lazımdır ki, bir çox kəndlərin adları çar familiyaları və Qafqaz Ali İdarəsinin başçılarının familiyaları ilə əlaqədar idi: - Aleksandrovka, Alekseyevka, Vladimirovka, Vorontsovka, Qolitsino, Daşkova, Yekaterinovka, Konstantinovka, Rozaliovka. Azərbaycanın rus toponimiyası haqqında xüsusi tədqiqat L.Q.Quliyevaya məxsusdur (7, s.19).

Kəndlərin bəzilərinin adları isə alayların yerləşdirilməsi və ya sərkərdələrin adları ilə əlaqədar idi: Minqrel alayı əsgərlərinin ilk məskunları olduqları kənd - Minqreliya adlanırdı. Polkovnik P.N.İvanovun şərəfinə isə İvanovka kəndi (o, eyni zamanda Lənkəran qəzasının rəisi idi) adlanırdı.

Bir çox kəndlər Rusiyanın hərbi tarixi ilə, xüsusilə sərkərdələrin adları ilə əlaqədar idi.

Qusar və Xankəndi qəsəbələri qərargahların yerləşməsi ilə əlaqədar bu adları almışdı: Qarabulaq, Altı-Ağac, Çuxur-Yurd məskunlaşma yerlərinin adları ilə əlaqədar idi.

Təsdiq edilmiş qaydaya uyğun olaraq xüsusi torpaq komissiyası köçkünlər üçün coğrafi şəraitə uyğun olaraq torpaq sahələri paylamışdı. Məsələn, soyuq yüksək dağlıq zolaqda adambaşına 12 desyatin, orta mülayim zonada 8 desyatin, düzənlik isti zonada isə 4 desyatin əlverişli torpaq sahəsi ayrılırdı.

1900-cü ildə aparılmış hesablamalara görə Əkinçilik Nazirliyi tərəfindən müstəmləkə fonduna köçkünlər üçün 300.000 desyatin torpaq verilmişdi. Diyarın kolonizasiya məqsədilə yararlı torpaq ehtiyatlarının sahəsi bir milyon desyatin idi. Bu milyon desyatin torpağın tərkibinə daxil idi: Yelizavetpol quberniyasında Mil düzənliyi, Tiflis quberniyasında Şirvan çölü, həmçinin İrəvan quberniyasında Kurtin torpaqları daxil idi.

Ümumiyyətlə, XIX əsrin sonu - XX əsrin əvvəllərində çar Rusiyasının həyata keçirdiyi köçürmə siyasəti nəticəsində Şimali Azərbaycanın bir sıra bölgələrində etnik mənzərə dəyişmişdir. XX əsrin əvvəllərində kəndlərdə və şəhərlərdə sistemli şəkildə davam etdirilən bu siyasət rusların müsəlmanların yaşadıqları kəndlərdə yerləşdirilməsinə xidmət edirdi. Buna görə də həmin dövrdə Azərbaycanın əhalisinin müəyyən hissəsi, təkcə Bakı əhalisinin isə 30%-i ruslardan ibarət oldu. Çarizm müxtəlif millətlərdən ibarət əhalisi olan kəndlərlə yanaşı, ayrıca rus köçkünləri üçün kəndlər də salırdı ki, bu da

Azərbaycanda toponimlərin süni surətdə dəyişdirilməsinə, ruslaşdırılmasına xidmət edirdi. Bu zaman vəziyyəti daha da ağırlaşdıran səbəblərdən biri də o idi ki, ermənilər Ramana, Balaxanı, Sabunçu, Zabrat kəndlərindən azərbaycanlıların köçürülməsini tələb edirdilər. Lakin əhalinin ayağa qalxması və milli burjuaziyanın qətiyyətli mövqeyi bu çirkin planları pozdu.

**İstifadə edilmuş ədəbiyyat:**


1. Мелик-Саркисян С.А. Муганская степь: естест-венно-исторический сельскохозяйственный очерк.- СПб., 1897, 496 с.
2. Рума Л. Очерки и исследования. Выпуск 1. Из жизни и колонизации Муганской степи. - СПб., 1913, 385 с.
3. Канадеев И.Н. Очерки Закавказской жизни. Т.1,- СПб., 1902, 348 с.
4. Брилинский А. В. Краткие сведения об орошении и засолонении почв на Мугани в связи с ее колонизацией. - Баку, 1915, 223 с.
5. Авдеев М.Н. Население современной Мугани. Баку, 1975, 468 с.
6. Багиров Ф.И. Переселенческая политика царизма в Азербайджане. М., 2009, 704 с.
7. Гулиева Л.Г. Русская топонимия в Азербайджане. К вопросу о русской ойкономии / Ученые записки вузов/. М., высш. и сред. образов. Аз.ССР, 1977, №1, сер.12, языки и литература, -с. 17-21

# XX ƏSRDƏ NAXÇIVAN ƏHALİSİNİN SAY DİNAMİKASI VƏ YERLƏŞMƏSİ

*X.Q.BABAYEV*

Azərbaycan Respublikasının özünəməxsus demoqrafik inkişaf xüsusiyyətlərinə malik regionlarından biri də Naxçıvan Muxtar Respublikasıdır. Bu diyarın demoqrafik məsələlərinin öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Respublika ərazisinin 6.4 %-ni təşkil edən Naxçıvan MR Kiçik Qafqazın cənub-qərb qurşağında yerləşir. O şimaldan və şimal-şərqdən Ermənistan Respublikası (246 km.) cənubdan və cənub-qərbdən İran İslam Respublikası (204 km.) və Türkiyə Cümhuriyyəti ilə (11 km.) həmsərhəddir. Ermənistan Respublikası ilə Naxçıvan MR-ı arasındakı sərhəd əsas etibarı ilə Zəngəzur və Dərələyəz dağ silsilələrinin yüksək su ayrıclarından keçir. Türkiyə ilə İran arasında Naxçıvan MR-nın sərhədini 174 km. uzunluğu Araz çayı təşkil edir.

Müstəqilik gazandıgdan sonra keçirilmiş Azərbaycanın ilk əhali siyahıyaalmasının (1999) məlumatlarına əsasən burada yaşayan əhalinin ümumi sayı 354.1 min nəfər təşkil etmişdir. Onların 99.6 min nəfəri və ya 28.1 %-i şəhər yerlərində, 254.5 min nəfəri və ya 71.9 %-i isə kənd yerlərində yaşayırlar. Muxtar Respublika əhalisinin 174.5 min nəfəri, yəni 49.3 %-i kişilər, 179.6 min nəfəri, yəni 50.7 %-ni isə qadinlar təşkil edir (1, s.18).

Naxçıvan bölgəsi əhalisinin say dinamikasının dəyişməsi haqqında fikirlər müxtəlifdir. Bu hər şeydən əvvəl Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan bu ərazinin sərhədlərinin zaman-zaman təhrif olunması ilə əlaqədardır. 1928-1932-1942 və 1963-cü illərdə Azərbaycan SSR, o cümlədən Naxçıvan MR ərazisinin topoqrafik xəritələri tərtib edilərkən sovet kartoqrafları bilərəkdən Naxçıvanın ziyanına Ermənistan SSR-in xeyrinə yönəldilən çoxlu təhriflərə yol vermişlər (2,s.194).

1897-ci ildə Rusiya imperiyasında keçirilmiş ilk ümumi əhali siyahıyaalma məlumatlarına əsasən, Naxçıvan və Şərur-Dərələyəz qəzaları birlikdə götürüldükdə 177.309 nəfər, o cümlədən Naxçıvan qəzasında 100.777 nəfər, Şərur-Dərələyəz qəzasında 76.538 nəfər əhali yaşamışdır. Hər iki qəzada birlikdə əhalinin 115.711 nəfərini və ya 65.3 %-ni mənbədə tatar adlandırılan azərbaycanlılar (o cümlədən Naxçıvan qəzasında 64.151 nəfər və ya 63,7% Şərur-Dərələyəz qəzasında 51.6 min nəfər və ya 67.4 % , Naxçıvan şəhərində 6.161 nəfər və ya 70.0 %, Ordubad şəhərində 4.1 min nəfər və ya 88.6 % , Baş Noraşendə 597 nəfər və ya 68.8 % ), 55.398 nəfəri və ya

31.2 %-i əsasən 1828-ci il Türkmənçay müqaviləsindən sonra İran və 1829-cu il Ədirnə müqaviləsindən sonra Osmanlı ərazisindən köçürülən ermənilər (o cümlədən Naxçıvan qəzasında 34.672 nəfər və ya 34.4 % , Şərur – Dərələyəz qəzasında 20.726 nəfər və ya 27.1 % Naxçıvan şəhərində 2.263 nəfər və ya 25.7 %, Ordubad şəhərində 284 nəfər və ya 6.1 %, Baş Noraşendə 132 nəfər və ya 15.2 %), 4400 nəfəri və ya 24.8 % -i kürdlər (o cümlədən Naxçıvan qəzasinda 639 nəfər və ya 0.63 %, Şərur-Dərələyəz qəzasinda 3761 nəfər və ya 4.9 % ), 1136 nəfəri və ya 0.64 %-i ruslar, 664 nəfəri və ya 0.37 % -i sair millətlərdən olanlar təşkil etmişdilər (3, s.66-67).

Naxçıvan MR-ın hazırkı ərazisində əhalinin artımı 1897-ci ildən 1917-ci ilədək 5% olmuşdur.Qeyd etmək lazımdır ki, əhalinin sayı 1917-ci ildən 1920-ci ilədək nəinki artmamış, hətta 52.000 nəfərə dək və yaxud 38% azalmışdır (4, s.39).

Müqayisə edilən dövrdə Muxtar Respublika əhalisinin azalmasına səbəb 1905-1906 və 1915-1918-ci illərdə ermənilərin müsəlman əhaliyə qarşı törədikləri qırğınlar olmuşdur. Həmin dövrdə baş verən bu qanlı gırğınlar nəticəsində əhali kütləvi sürətdə başqa yerlərə, xüsusilə İrana qaçmış, misli görünməmiş aclıq nəticəsində böyük tələfata uğramışdır (3,s.68).




Naxçıvan MR-nın itirilmiş torpaqları

* Qeyd: S.Babayev.Naxcıvan MR-nın coğrafiyası. Bakı, 1999, s.191

Belə ki, 1905-ci il mayın əvvəlində Naxçıvanın Cəhri, Tumbul, Əliyabad və s. kəndlərində azərbaycanlılar ermənilər tərəfindən amansızlıqla qətlə yetirilmişdir. Noyabr ayında kazakların köməyi ilə Cəhri kəndi büsbütün yandırılmış, Xanlıqlar, İtqapan kəndləri dağıdılmış, Naxçıvan şəhərində isə 35 dükan, 75 anbar və bazar yandırılmışdır. Bu qanlı hadisələr

zamanı bölgədə dinc əhalidən yüzlərcə ölən və yaralanan olmuşdur. Xeyli naxçıvanlı İran ərazisində sığınacaq tapmışdır (5, s.517).

1906-ci ildə də qırğınları davam etdirən ermənilər avqust ayında Ordubad şəhəri və ətraf ərazilərdə əhaliyə divan tutmuşdular. Təkcə Qapan ərazisində 62 nəfər azərbaycanlı qadın və uşaq vəhşicəsinə qətlə yetirilmişdir (6, s.133).

Erməni qırğınları 1918-1920-ci illərdə də davam etmişdir. 1918-ci il yanvarın 17-də ermənilər Əznəbürt (Çalxanqala) kəndinə hücum edib 22 nəfər azərbaycanlını qətlə yetirmişlər (7,s.10). Təkcə Yaycı kəndində öldürülənlərin sayı 2500 nəfər olmuşdur. (8, s.44).

Osmanlı rəsmi dairələri tərəfindən verilən məlumatlara əsasən Araz-Türk höküməti dövründə ermənilərin törətdikləri cinayətləri öyrənmək olar. Bu məlumatlardan bəlli olur ki, Naxçıvana hücum edən ermənilər 1.204 nəfər musalman-turk öldürmüşdülər. Vedibasarda da 2.000 nəfəri xırmanda öldürmüş, 40 qadın və uşağı bir yerə yığaraq yandırmışdilar (9,s.120).

1919-cu ilin avqustunda Naxcıvan ve Şərur ərazilərində 45 müsəlman kəndi dağıdılmıs, əhalisi xüsusi amansızlıqla qətlə yetirilmişdir. Ermənilərin verdikləri gizli əmirlərdə deyilirdi ki, bu ərazilərdə bir nəfər də müsəlman qalmamalı, hamısı oldürüləræk Araz çayına tökülməlidir (10,I, s.348).

Gümru və Naxcıvan cəbhələrində bəzi müsəlman kəndlərini isğal edərək 4.000-ə qədər müsəlmanı amansızlıqla öldürmüşdülər (10, I, s.348).

1918-1920-ci illərdə Naxçıvanın təkcə Şərur və Sədərək məntəqələrinin 56 kəndində ermənilər tərəfindən törədilən qırğın nəticəsində 428 kişi qətlə yetirilmiş, 2.286 ev dağıdılmış, 7.178 ailə evsiz-eşiksiz qalmış, 6.740 nəfər aclıq və xəstəlikdən ölmüşdür (10, II, s.937).

Dərələyəz qəzasının 54 kəndində törədilən soyqırım nəticəsində 57.240 nəfər qətlə yetirilmiş, 9.735 ev dağıdılmışdı (10, II, s.937).

Yuxarıda qeyd edilən bu hadisələr nəticə etibarı ilə Naxçıvan bölgəsi əhalisinin azalmasına gətirib çıxarmışdır.

XX əsrin əvvəlində əhalinin azalma səbəblərindən biri də yolxucu xəstəliklərin yayılması olmuşdur. Təkcə, 1908-ci ilin 3 ayı ərzində Naxçıvan qəzasında 1.682 nəfər taun və vəba xəstəliyinə yoluxmuş, bunların da 1.300 nəfəri tələf olmuşdur (4, s.50).

1904-cü ildə Naxçıvan vilayətində vəba epidemiyası zamanı tibbi yardım göstərilmədiyindən Şərur dairəsinin Daşarx və Dəmirçi kəndlərində vəbadan 102 nəfər adam tələf olmuşdu. Halbuki, qonşu erməni kəndlərində vəbaya qarşı vaxtında tədbirlərin görülməsi nəticəsində cəmi 7 nəfər adam ölmüşdü (4, s.50). Bu fakt Çar hökümətinin səhiyyə sahəsində belə müsəlmanlara, o cümlədən də azərbaycanlılara qarşı ikili siyasət yeritdiyini göstərir.

1919-cu ildə Azərbaycan Xalq Cumhuriyyəti nümayəndə heyətinin Versal sülh konfransının sədrinə təqdim etdiyi notada Naxçıvan qəzasında 62.5 % azərbaycanlı, 37.6 % erməni; Şərur-Dərələyəzdə 72.3 % azərbaycanlı, 27.1

% erməni; Sürməlidə 68 % azərbaycanlı, 30.4 % erməni; İrəvan qəzasında 60.2 % azərbaycanlı,37.4 % erməni yaşadığı göstərilirdi (11, s.265).

1920-ci il iyulun 28-də Naxçıvan Sovet Respublikası elan olundu. 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilimiş rəy sorğusunda Naxçıvan əhalisinin 90 %-dən çoxu Naxçıvan mahalının muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi. Naxçıvanın Azərbaycan himayəsi altında muxtar ərazi statusu RSFSR-lə Türkiyə arasında bağlanmış Moskva müqaviləsində (1921-ci il) və Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında imzalanmış Qars müqaviləsində (1921-ci il) təsbit edildi (5,s.387).

Azərbaycan SSR MİK-in 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvana Muxtar Sovet Sosialist Respublikası statusu verildi (5, s.387).

Sovet hakimiyyətinin qurulduğu ilk illərdə Muxtar Respublikada əhalinin bir qisminin keçmiş SSRİ-nin və Azərbaycan SSR-nin iri şəhərlərinə daimi yaşamağa, işləməyə, təhsil almağa köçüb getmələri, habelə əhalinin doğum, ölüm və təbii artım göstəricilərinin nisbətən aşağı düşməsi və s. amillər əhalinin sayca azalmasına təsir göstərmişdir (1,s.19). Nəticədə 1897-ci ildən 1924-cü ilədək keçən dövr ərzində Muxtar Respublika əhalisinin sayı 1,7 dəfə (69%) azalmışdır.

Sonrakı illərdə, yəni Naxçıvan Muxtar Respublikasinin yarandığı 1924-cü ildən keçən dovrdə isə bütünlükdə Azərbaycanda oldugu kimi Naxçıvan Muxtar Respublikasında da əhalinin doğum, ölüm və təbii artım göstəricilərində, habelə miqrasiya, prosesində tədricən müəyyən müsbət dəyişikliklər yaranmağa başlamış və bu dəyişikliklər əhalinin artımına zəmin yaratmışdır. Bunu Naxçıvan MR-də əhalinin artım dinamikasını xarakterizə edən aşağıdakı cədvəldən də aydın görmək olar (3, s.69).

Cədvəl 1

Naxçıvan Muxtar Respublikasi əhalisinin
say dinamikasi və quruluşu

| İllər | Cəmi əhali (min nəfər) | Şəhər yerlərində% | Kənd yerlərində % | Şəhər əhalisi % | Kənd əhalisi % |
|---|---|---|---|---|---|
| 1897 | 177.3 | Xx | xx | xx | Xx |
| 1924 | 90.0 | 11.0 | 79.0 | 12.2 | 87.8 |
| 1926 | 104.9 | 14.7 | 90.2 | 14.0 | 86,0 |
| 1939 | 126.6 | 22.5 | 104.1 | 17.8 | 82.2 |
| 1950 | 102.0 | 27.0 | 85.0 | 24.1 | 75.9 |
| 1959 | 141.361 | - | - | - | - |
| 1969 | 141.0 | 38.0 | 103.0 | 27.0 | 73.0 |
| 1970 | 205.7 | 51.0 | 154.7 | 24.8 | 75.2 |
| 1979 | 240.0 | 63.0 | 177.0 | 26.3. | 73.7 |
| 1980 | 248.5 | 66.0 | 182.5 | 26.6 | 73.4 |
| 1985 | 275.5 | 78.0 | 197.5 | 28.3 | 71.1 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1989 | 295.0 | 89.0 | 206.0 | 30.2 | 69.8 |
| 1990 | 307.2 | 90.8 | 206.4 | 29.6 | 70.4 |
| 1993 | 326.1 | 94.8 | 231.3 | 29.1 | 70.9 |

SSRİ yarandıqdan sonra kecirilən ilk siyahıyaalmaya (1926) əsasən Naxçıvan MR əhalisinin sayı cəmi 104.909 nəfər olmuşdur. Bunlardan, 104.656 nəfəri SSRİ-nin, 253 nəfər isə xarici ölkələrin vətəndaşları idi. Həmin siyahıyaalma materiallarına əsasən,burada əhalinin milli tərkibi, şəhər və kənd əhalisinin bölgüsü aşağıdakı kimi olub.

Cədvəl 2

1926-cı il Ümumittifaq siyahıyaalma materialları əsasında
Naxçıvan MSSR-n əhalisinin tərkibi

| Milliyət | Say tərkibi | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Bütün əhali | | | Şəhər əhalisi | | | Kənd əhalisi | | |
| | kişi | qadın | cəmi | kişi | qadın | cəmi | kişi | qadın | cəmi |
| Rus | 1.447 | 390 | 1.837 | 1.212 | 326 | 1.538 | 235 | 64 | 299 |
| Ukraynalı | 82 | 10 | 92 | 72 | 4 | 76 | 10 | 6 | 16 |
| Belarus | 6 | 1 | 7 | 5 | 1 | 6 | 1 | 0 | 1 |
| Polyak | 24 | 14 | 38 | 22 | 12 | 34 | 2 | 2 | 4 |
| Latış | 4 | 2 | 6 | 4 | 2 | 6 | 0 | 0 | 0 |
| Litvalı | 2 | 1 | 3 | 2 | 1 | 3 | 0 | 0 | 0 |
| Alman | 10 | 3 | 13 | 10 | 3 | 13 | 0 | 0 | 0 |
| Yunan | 15 | 1 | 16 | 1 | 1 | 2 | 14 | 0 | 14 |
| Yəhudi | 24 | 14 | 38 | 23 | 12 | 35 | 1 | 2 | 3 |
| Dağ yəhudiləri | 1 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 | 1 |
| Karayim | 2 | 4 | 6 | 2 | 4 | 6 | 0 | 0 | 0 |
| Mordvalı | 20 | 0 | 20 | 16 | 0 | 16 | 4 | 0 | 4 |
| Çuvaş | 1 | 0 | 1 | 1 | 0 | 1 | 0 | 0 | 0 |
| Tatar | 11 | 6 | 17 | 10 | 6 | 16 | 1 | 0 | 1 |
| Gürcü | 21 | 15 | 36 | 18 | 13 | 31 | 3 | 2 | 5 |
| Çərkəz | 1 | 1 | 2 | 1 | 1 | 2 | 0 | 0 | 0 |
| Çeçen | 1 | 0 | 1 | 1 | 0 | 1 | 0 | 0 | 0 |
| Ləzgi | 3 | 1 | 4 | 0 | 1 | 1 | 3 | 0 | 3 |
| Erməni | 5.643 | 5.633 | 11.276 | 777 | 658 | 1.435 | 4.866 | 4.975 | 9.841 |
| Aysor | 3 | 9 | 12 | 3 | 2 | 5 | 0 | 7 | 7 |
| Boşlar | 3 | 2 | 5 | 0 | 0 | 0 | 3 | 2 | 5 |
| Osetin | 2 | 1 | 3 | 2 | 1 | 3 | 0 | 0 | 0 |
| Kürd | 1.369 | 1.280 | 2.649 | 3 | 3 | 6 | 1.366 | 1.277 | 2.643 |
| Yezid | 10 | 12 | 22 | 0 | 0 | 0 | 10 | 12 | 22 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Fars | 42 | 11 | 53 | 35 | 10 | 45 | 7 | 1 | 8 |
| Türk | 46.739 | 41.694 | 88.433 | 6.029 | 5.354 | 11.383 | 40.710 | 36.340 | 77.050 |
| Osmanlı türkləri | 8 | 8 | 16 | 1 | 6 | 7 | 7 | 2 | 9 |
| Başqaları | 26 | 22 | 48 | 8 | 9 | 17 | 18 | 13 | 31 |
| SSRİ vətəndaş-larının cəmi | 55.520 | 49.136 | 104.656 | 8.258 | 6.431 | 14.689 | 47.262 | 42.705 | 89.967 |
| Xaricilər | 166 | 87 | 253 | 9 | 4 | 13 | 157 | 83 | 240 |

**Mənbə**: Всесоюзная перепись населения 1926 года. М.: Издание ЦСУ Союза ССР, 1928-29. Том 10-16. Таблица VI. Население по полу, народности.

1939-cu il siyahıyaalma materiallarından məlum olur ki, Naxçıvan MR-ın əhalisinin milli tərkibində dəyişikliklər baş vermişdir. Belə ki, əhalinin tərkibində Orta Asiyada yaşayan millətlərin nümayəndələri də qeydə alınmışdır.

Cədvəl 3

Naxcıvan MR-ı əhalisinin milli tərkibi
(1939-cu il Ümumittifaq siyahıyaalma materialları əsasında)

| Milliyət | Cins | | |
|---|---|---|---|
| | Kişilər | Qadınlar | Hər iki cins |
| Cəmi | 65.179 | 61.517 | 126.696 |
| Rus | 1.393 | 1.156 | 2.549 |
| Ukraynalı | 252 | 108 | 360 |
| Belarus | 31 | 2 | 33 |
| Gürcü | 18 | 14 | 32 |
| Azərbaycanlı | 55.644 | 52.885 | 108.529 |
| Erməni | 6.853 | 6497 | 13.350 |
| Özbək | 3 | 1 | 4 |
| Türkmən | 1 | | 1 |
| Tacik | 1 | | 1 |
| Qazax | 6 | | 6 |
| Qırqız | 1 | 1 | 2 |
| Karel | 1 | | 1 |
| Komi | 2 | | 2 |
| Başqırd | 3 | | 3 |
| Udmurt | 3 | | 3 |
| Tatar | 29 | 23 | 52 |
| Mariy | 3 | | 3 |
| Mordva | 8 | 1 | 9 |
| Çuvaş | 6 | | 6 |

| | | | |
|---|---|---|---|
| Alman | 9 | 11 | 20 |
| Burət | 1 | | 1 |
| Yahudi | 31 | 31 | 62 |
| Kabardin | 1 | 3 | 4 |
| Çeçen | | 1 | 1 |
| Osetin | 12 | 12 | 24 |
| Lak | 1 | | 1 |
| Ləzgi | 25 | 9 | 34 |
| Moldavan | 1 | 3 | 4 |
| Adıgey | 1 | 2 | 3 |
| Talış | | 1 | 1 |
| Assiriyalı | 3 | 3 | 6 |
| Yunan | 3 | 10 | 13 |
| Fars | 12 | 4 | 16 |
| Kürd | 794 | 715 | 1509 |
| Latış | 3 | 2 | 5 |
| Polyak | 11 | 6 | 17 |
| Türk | 2 | 2 | 4 |
| Digər millətlər | 1 | 1 | 2 |
| Milləti göstərilməyib | 10 | 13 | 23 |

**Mənbə:** Всесоюзная перепись населения 1939 года. Таблица 15д. Национальный состав населения. РГАЭ. Ф.1562 Оп. 336 Д.970.

Bu müddət ərzində əhalinin sayının çoxalması əsas etibarı ilə onun təbii artımı hesabına olmuşdur.Naxçıvan MSSR-də qısa bir müddət ərzində əhalinin orta illik artımı 1,73 % təşkil edirdisə, bütün SSRİ üzrə bu rəqəm 1,23 % -ə bərabər idi. Naxçıvanda həmin dövrdə əhali artımına mane olan mühüm məsələlərdən biri də siyasi represiyalar idi. Belə ki 1930-cu ildə qondarma "Milağ işi" adı altında irəli sürülən saxta ittiham materialları əsasında Culfa rayonunun Milağ, Qazançı, Teyvaz, Ərəfsə kəndlərinin 13 nəfər sakini güllələndi, onlarla ailə isə Qazaxıstana sürgün edildi (12, s.63). Bu cədvəldən göründüyü kimi Muxtar Respublika əhalisinin sayı 1926-1939-cu illərdə əvvəlki dövrlərlə müqayisədə daha sürətlə artaraq 126,6 min nəfərə çatmışdır.

Azərbaycan SSR Baş Siyasi İdarəsinin məhkəmə kollegiyasının 1930-cu il 7 iyul tarixli qərarı ilə Şahbuz rayonunun Keçili, Külüs və kəndlərindən həbs edilmiş 13 nəfər güllələnmiş, 33 ailə isə Qazaxıstana sürgün edilmişdi (12, s.63).

1937-ci ildə 185 Naxçıvanlı ailə Qazaxıstanın Taldı-Kurqan vilayətinə sürgün edilmişdi (12, s.106).

1937-ci il avqustun 5-dən 15-dək Muxtar Respublikada 9.559 nəfər tutulmuşdur. Onlardan bir qismi güllələnmiş və həbsə məhkum edilmiş, böyük bir hissəsi isə Qazaxıstanın Kustanay, Semipalatinsk, Taldı-Kurqan, Pavlodar və b.

ərazilərinə sürgün olunmuşdular. Bu həbs əməliyyatlarında iştirak edən XDİK əməkdaşlarının 95 %-dən çoxunu ermənilər təşkil edirdi (12, s.300).

Ermənilər bu yolla öz havadarlarının əli ilə Naxçıvanda əhalinin sayını azaltmağa çalışırdılar.

1926-1939-cu illərdə artımın cəmi 22.3 min nəfər olması eyni zamanda Naxçıvan ərazisinin bir hissəsinin Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistana qatılması ilə bağlıdır. Belə ki, 1929-cu il fevralın 18-də Zaqafqaziya MİK-nin qərarı ilə Moskva və Qars müqavilələrinin şərtləri kobud sürətdə pozularaq Muxtar Respublikanın 657 kv.km. ərazisi Ermənistana ilhaq edilmiş, 1930-cu ildə isə Əldərə, Lehvaz, Nüvədi və s. yaşayış məntəqələri Ermənistana birləşdirilmişdi (5, s.421).

II Dünya müharibəsinin mənfi nəticələri Naxçıvandan da təsirsiz ötüşməmişdir. Yuxarıdakı 1 saylı cədvəldən də göründüyü kimi 1939-cu il Umumittifaq siyahıyaalma materialları ilə müqayisədə 1950-ci ildə Muxtar Respublika əhalisinin sayı 14.6 min nəfər (11,5 %) azalmışdır (13, s.67).

Naxçıvan MR-da əhalinin ən sürətli orta illik artımı 60-70-ci illərə təsadüf etmişdir.Bu illər bütünlüklə Azərbaycanda əhalinin demoqrafik inkişaf səviyyəsinin ən yüksək göstəriciyə malik olduğu dövr kimi səciyyələnir.1959-1970-ci illərin əhali siyahıyaalınmasında Naxçıvan MR-da əhalinin sayı 43% (Azərbaycan SSR-də 38,4 %, keçmiş SSRİ-də 15,8%), o cümlədən şəhər yerlərində 29.2 % (Azərbaycan SSR-də 45,1 %, keçmiş SSRİ-də 36.0 %), kənd yerlərində 48.1 % (Azərbaycan SSR-də 32.2 % artmış, SSRİ-də 2.9 % azalmışdır) artmışdır.Həmin dövrdə bütünlükdə keçmiş SSRİ-də əhalinin orta illik artım sürəti 1.4 %, Azərbaycan SSR-də isə 3.5 % olduğu halda Naxçıvan MR-da 3.9 % təşkil etmişdir. Bu hər şeydən əvvəl həmin dövrdə Naxçıvan MR-da əhalinin hər 1000 nəfərinə düşən doğum və təbii artım göstəricilərinin keçmiş SSRİ-də və Azərbaycan SSR-dəkindən xeyli yüksək olması ilə bağlı idi. (1, s.19-20)

SSRİ-dövründə kecirilən Ümumittifaq siyahıyaalmalara əsasən Naxçıvan MSSR- n əhalisnin say dinamikası aşağıdakı kimidir:

Cədvə4

Ümumittifaq siyahıyaalma materialları əsasında Naxçıvan Muxtar Respublikası əhalisinin say dinamikası

| 1926 | 1939 | 1959 | 1970 | 1989 |
|---|---|---|---|---|
| 104.656 | 126.696 | 141.361 | 202.187 | 293.875 |

Naxçıvan MR-da doğumun yüksək səviyyədə olmasının əsas səbəblərindən biri əhalinin əksər hissəsinin yerli əhalidən, yəni azərbaycanlılardan ibarət olmasıdır.Belə ki, Muxtar Respublikada 16-49 yaşında ana olan bütün qadınların 1960-cı ildə 98 %-dən çoxu və 1970-ci ildə isə 97.1 %-i azərbaycanlı idi. 1970-ci ildə Azərbaycan SSR-də həmin yaşlarda ana olan

qadınların 83.0 %-ni azərbaycanlılar, 4.6 %-ni ruslar, 5.9%-ni ermənilər, 6.5 %-i isə başqa millətlər olmuşdur (14, s.65).

1 saylı cədvəldən də məlum olduğu kimi Naxçıvan MR-də əhalinin sayı 1970-90-ci illərdə 48.6 % artaraq 205.7 min nəfərdən 305.7 min nəfərə çatmışdır.

Müsbət haldır ki, 90-cı illərin sosial iqtisadi çətinliklərinə baxmayaraq Naxçıvan MR-sı əhalisinin sayı 1 saylı cədvəldən də göründüyü kimi 15.8 % artaraq 305.7 min nəfərdən 354.1 min nəfərə çatmışdır.

Naxçıvan MR-da əhalinin sürətlə artımını təmin edən amillərdən biri olan çoxuşaqlılıq ənənəsinin qorunub saxlanılması, səhiyyə sisteminin inkişafı nəticəsində ölüm səviyyəsinin aşağı düşməsi və s. digər amillər bölgənin demoqrafik inkişaf potensialı üçün geniş imkanlar açır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Naxçıvan statistika güzgüsüsndə.Tarixi-statistik məcmuə. Bakı, “Səda” 1999-cu il, 128 s.
2. Babayev.S Naxçıvan Muxtar Respublikasının coğrafiyası Bakı 1999, 226 s.
3. Nadirov A,Nuriyev Ə, Muradov Ş. Naxçıvan iqtisadiyyatı XX əsrdə Bakı, elm, 2000, 104 s.
4. Nadirov A. Naxçıvan MSSR Bakı, 1959, 123 s.
5. Naxçıvan enisklopediyası Bakı, 2002, 594 s.
6. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni müsəlman davasının tarixi Bakı, 1991, 144 s.
7. Əliyev M.B. Qanli günlərimiz (1918-1920,Naxçıvan), Bakı, 1993, 142 s.
8. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti(1917-1921-ci illər) Bakı, 1996, 328 s.
9. İbrahim Ethem Atnur. Muxtariyyət ərəfəsində Naxçıvan NDU, “Qeyrət” nəşriyyatı 1999, 442 s.
10. Ermənilər tarafından yapılan katliam belgeleri (1914-1919).I Ankara,T.C. Baş Bakanlık Devlet Arşivleri Genel Müdürlüyü Osmanlı Arşivi Dairə Başkanlığı yayın N 50,2001,740 s.,II 2001,1345 s.
11. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində(1918-1920-ci illər) Bakı,1993,362s.
12. Zeynaloğlu S. Tarixin qan yaddaşı Bakı, 2001
13. Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A.. Sovet Naxçıvanı Bakı, 1984.
14. Azərbaycan SSR EA xəbərləri, N1 iqtisadiyyat seriyası Bakı 1972, 81 s.

# ERMƏNİSTAN SSR-DƏ AZƏRBAYCANLILARA QARŞI SOYQIRIM SİYASƏTİ

*Ş.F.FƏRƏCOV*

XX əsrin 20-ci illəri ərəfəsində Azərbaycanda və ümumiyyətlə, Qafqazda siyasi vəziyyət çox gərgin idi. Rusiyada baş verən Fevral inqilabı, car Rusiyasının iflası, hakimiyyəti bolşeviklərin ələ alması ilə əlaqədar Qafqaz regionunda yeni münasibətlər yarandı. Qafqaz respublikalarının öz müqəddəratını müəyyənləşdirməyə cəhd göstərmələri, onların arasında münaqişələrə səbəb oldu.

Azərbaycan Xalq Cümhuriyyətinin təşkili və fəaliyyəti, digər hadisələr dövrü səciyyələndirən əsas cəhətlərdir. Digər əsas cəhətlərdən biri də Azərbaycan ərazisinin yenə də iki hissəyə parçalanmış halda qalması idi.

1920-ci ilin aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı və onun ərazisində Azərbaycan Sovet Sosialist Respublikası təsis yarandı. Onun sahəsi 97,298 kv.km olmuşdur. Azərbaycan və Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə əlaqədar Azərbaycan öz ərazisinin bir hissəsini itirmiş və nəticədə sahəsi 86,6 min kv.km olmuşdur.

Bolşevik təcavüzü əslində Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan SSR ilk vaxtlarda yarandığı gündən müstəqil respublika elan olunsa da tədricən onun müstəqilliyi formal xarakter almağa başladı.

XX əsrin ilk rübündə Azərbaycan torpaqlarının zəbt olunması prosesi başladı. Bu proses müxtəlif mərhələlərdə həyata keçirilmişdir:

- 1918-1920-ci illərdə – Azərbaycan Xalq Cümhuriyyəti dövründə;
- 1920-ci ilin aprel-noyabr aylarında Azərbaycan SSR elan olunduğu gündən Ermənistanda sovet hakimiyyəti qurulanadək;
- 1920-ci ilin noyabrından 1921-ci ilin fevralınadək – Gürcüstanda Sovet hakimiyyəti qurulanadək;
- ZSFSR-in təşkili və onun SSRİ tərkibinə daxil olmasına kimi - «müstəqil» Zaqafqaziya sovet respublikalarının fəaliyyət göstərdiyi dövrdə Azərbaycanda baş verən aprel çevrilişindən sonra da ermənilər Azərbaycana qarşı torpaq iddialarından əl çəkməmişlər.

Onlar hələ Azərbaycan Xalq Cümhuriyyəti vaxtında mübahisəli ərazilər kimi qələmə verdikləri əslində isə mübahisəli ərazilər olmayan Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ və Şərur Dərələyəz ərazilərini ələ keçirmək niyyətində idilər (4, s.136-137).

29 noyabr 1920-ci ildə Ermənistan SSR yaradıldıqdan sonra ermənilərin Azərbaycana qarşı iddiaları daha da artdı. Minlərlə azərbaycanlı öz ata-baba yurdundan didərgin düşdülər.

XX yüzilliyin 20-ci illərində yeni qurulmuş sovet hakimiyyətinin hər yerində federasiyalaşdırma siyasəti həyata keçirildi. Ermənistanı müttəfiq respublikalardan biri etmək üçün Azərbaycan torpaqları hesabına Ermənistana yeni ərazilər bəxş edilmişdi. Sovet hakimiyyəti illərində ermənipərəst yönüm, xristian təəssübkeşliyi, müsəlman-türk xalqlarına qarşı ayrı-seçkilik siyasəti ögey münasibətlə səciyyələnirdi (3, s.6).

XX əsrin əvvəllərində İrəvan ərazisində, Azərbaycan və digər qonşu dövlətlərdə olduğu kimi yeni kapitalist münasibətlərinin yaranması, istehsalda yeni texnikanın tətbiqi kənd təsərrüfatında müəyyən inkişaf prosesləri gedirdi. Bu illər ərzində milli şüurun oyanması, mədəniyyətdə yüksəliş üçün şərait yaranmışdı. Cənubi Qafqazda Sovet hakimiyyəti qurulduqdan sonra digər qonşu xalqlar kimi Qərbi azərbaycanlıların həyatında dəyişikliklər baş verdi. Sovet işğalından sonra bir sıra tədbirlər həyata keçirildi ki, bu da əhalinin demoqrafik vəziyyətinə və həyat tərzinə ciddi təsir göstərmişdi. Sovet hakimiyyətinin ilk günlərindən həyata keçirilən kütləvi kollektivləşdirmə «hərbi kommunizm» kimi mürtəce siyasət əsrlər boyu ənənəsi olan kənd təsərrüfatına, qoyunçuluq və maldarlıq təsərrüfatlarına ciddi təsir göstərirdi. İlk kolxozlar yaradılanda əhalinin var-yoxu zorla əlindən alınır, şəxsi təsərrüfatları dağıdılırdı. Aparılan düşünülməmiş siyasət nəticəsində əhali arasında kütləvi aclıqlar baş verirdi. Xalq təsərrüfatının bərpası və sənayeləşdirmə nəticəsində 30-cu illərin ikinci yarısında iqtisadiyyatda müəyyən yüksəliş əldə olundu.

Sovet hakimiyyətinin ilk illərində Qərbi azərbaycanlıların milli mədəniyyətinə də qarşı hücumlar başladı. Proletar mədəniyyəti yaradılması adı altında millətimizə yad mədəniyyət, rus mədəniyyəti yaymağa cəhd edilirdi. Azərbaycanda olduğu kimi Qərbi Azərbaycanda da milli ziyalılarımıza qarşı repressiya siyasəti yeridilirdi. Xalqın önündə gedən ziyalılarımızı Sibirə, Orta Asiyanın qumlu səhralarına sürgün edir, çoxunu güllələyirdilər. Repressiya olunanlar arasında hətta sıravi kolxozçu, adi çoban da olurdu. Qərbi Azərbaycan ərazisində bu dövrdə demoqrafik vəziyyət də mürəkkəb səciyyə daşımışdır. Belə vəziyyət bu bölgədə baş vermiş hərbi-siyasi hadisələrin, milli münaqişələrin, Rusiyanın köçürmə siyasətinin Sovet dövlətinin ermənipərəst mövqedən çıxış etməsi amillərin təsiri altında formalaşmışdır. Sovet hakimiyyəti elə ilk günlərindən Qərbi Azərbaycan əhalisi Azərbaycan SSR əhalisindən, demək olar ki, təcrid vəziyyətinə salınmış, bolşeviklərin sayəsində üstün mövqeyə nail olmuş ermənilər hegemon millətə çevrilmişdilər.

Ermənilərin hegemon millətə çevrilməsi, Rusiyanın bu bölgələrdə yeritdiyi ermənipərəst demoqrafik siyasət Azərbaycan xalqı üçün faciəli sonluqla bu günə qədər də davam edir.

Ümumittifaq siyahıyaalma (1926, 1939, 1959, 1970, 1979 və 1989-cu illər) materialları əsasında demoqrafik proseslərin öyrənilməsi göstərdi ki, Qərbi azərbaycanlıların tərkibində kəmiyyət və keyfiyyət dəyişikləri baş vermişdir. Ermənistan ərazisində sovet hakimiyyəti qurulmamışdan əvvəl əhalinin 60 faizini azərbaycanlılar təşkil edirdi. Sovet hakimiyyəti qurulduq-

dan sonra azərbaycanlıların say dinamikasının kəskin azalması azərbaycanlılara qarşı aparılan siyasətin nəticəsi idi (2, s.51).

Apardığımız araşdırmalar onu göstərir ki, Qərbi Azərbaycana Sovet işğalı dövründə Qafqaz diyarında gedən köklü və çoxtərəfli dəyişikliklərə, təbii olaraq məruz qalmışlar. XX əsrin ilk onilliklərində Yaxın (Türkiyə, Rusiya, İran) və uzaq (İngiltərə, ABŞ, Fransa) xarici dövlətlər, özlərinin geosiyasi və strateji əhəmiyyətlərinə görə Cənubi Qafqazın bütün bölgələrini öz maraq dairələrinə daxil etmiş, digər tərəfdən isə ermənilər əsassız olaraq ərazi iddiaları ilə Azərbaycana qarşı çıxmışdı.

Yuxarıda adları çəkilən dövlətlərin Azərbaycanın ətrafında toqquşan mənafeləri, ermənilərin onlardan faydalanmaq niyyətləri Azərbaycan-Ermənistan müharibəsi ilə nəticələndi.

Bolşeviklərin «səxavəti» ucbatından Ermənistana hədiyyə edilən Zəngəzur əslində Azərbaycanın parçalanması idi. Bu planın həyata keçirilməsi əslində ermənilərin yüzilliklərlə arzuladıqları məqsədlərinin yerinə yetirilməsi idi. Zəngəzurun verilməsi Azərbaycanı Naxçıvandan və Türkiyədən təcrid etmək idi.

Ermənistan SSR də demoqrafik proseslərin təhlili göstərir ki, burada yaşayan millətlər içində məhz ermənilər üçün daha əlverişli şərait yaradılmış erməni əhalisinin saxta say üstünlüyü təmin edilmişdir. Süni surətdə erməni millətinin say dinamikasının artırılması, əksinə azərbaycanlıların say dinamikasının saxtakarlıqla aşağı salınması XX əsrin ilk illərindən Ermənistan dövlətinin ən ümdə problemlərindən biri olub.

Bölgədə yeni erməni axınları üçün əlverişli şərait yaradılmış, azərbaycanlılar isə öz ata-baba torpaqlarında milli azlığa çevrilmişdilər.

XX əsrin əvvəllərindən 1980-ci illərin sonuna kimi ermənilərin azərbaycanlilara qarşi törətdikləri vəhşiliklər Azərbaycan tarixinin ən faciəli səhifələrindən biridir. Soyqırım probleminin hərtərəfli şəkildə araşdirilmasi Azərbaycan tarix elminin aktual məsələlərindəndir. Bu fikri Azərbaycan respublikasi prezidentinin «Azərbaycanlıların soyqırımı haqqında» 1998-ci il 26 mart fərmanında birmənalı şəkildə irəli sürülmüşdür (1, s.252).

Azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırım siyasətinin yüksək elmi-siyasi səviyyədə araşdırılması bir sıra vəzifələrin həllini zəruri edir. Bu vəzifələrin həllində problemin təkzibedilməz sənəd və materiallarla təmin olunması vacibdir. Bunun üçün ermənilərin azərbaycanlılara qarşı soyqırımını təsdiq edən bütün sənəd və materiallar toplanmalı, arxeoqrafik baxımdan şərhini tapmalı və çap olunmalıdır.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Arzumanlı V., Mustafa N.. Tarixin qara səhifələri. Deportasiya, soyqırım, qaçqınlıq. Bakı 1998, "Qartal" Nəşiriyyatı, 280 s.
2. Məmmədov İ., Əsədov S.. Ermənistan azərbaycanlıları və onların acı taleyi.Bakı,1992,72 s.
3. Paşayev A.. Köçürülmə. Bakı, 1995, 38 s.
4. Piriyev V. Azərbaycanın tarixi coğrafiyası. Bakı 2002,. "Araz" nəşriyyatı. 152 s.

# IV BÖLMƏ

## ÜMUMİ TARİX MƏSƏLƏLƏRİ

### ELDƏNİZLƏRİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCANIN BEYNƏLXALQ TİCARƏT ƏLAQƏLƏRİ

***Y.H.GÖZƏLOVA***
Tarix elmləri namizədi

Eldənizlərin hakimiyyəti dövrü (1136-1225) Azərbaycanın təkcə dövlətçilik tarixinin, siyasi inkişafının deyil, həm də iqtisadiyyatının yüksəlişi dövrü olmuşdur. Mütəxəssislərin əksəriyyəti belə bir fikirdə yekdildirlər ki, XI yüzilliyin ikinci yarısı – XII yüzillikdə Ön Asiya ölkələrində, o cümlədən Azərbaycanda iqtisadi və mədəni həyatın inkişafı davamlı getmişdir (10, s.188, 205; 13, s.290-292; 6, s.48-53). Xilafət dövründə olduğu kimi, bu yüzilliklərdə də müxtəlif inkişaf səviyyəli ölkələrin vahid, ümumi iqtisadi sistemə cəlb edilməsi və həmin ölkələrin öz daxili imkanları istehsal münasibətlərinin və məhsuldar qüvvələrin inkişafının yeni mərhələsini doğurmuşdur.

Hələ IX əsrdə Azərbaycan şəhərləri iqtisadi həyatın aparıcı funksiyalarını özündə cəm etmişdi; sənətkarlığın bir çox sahələrinin (toxuculuq, boyaqçılıq, zərgərlik, şüşə istehsalı) inkişafının yüksək dinamizmi şəhərlərin ixtisaslaşması ilə də sıx bağlı idi. Bu inkişaf öz növbəsində sənətkarlıq sahələrində texniki və sosial dəyişiklikləri doğururdu. IX-X əsrlərdə Azərbaycan şəhərlərindəki ənənəvi ixtisaslaşmanın saxlanması ilə yanaşı, XI-XII əsrlərdə yeni sənətkarlıq və ticarət mərkəzlərinin meydana çıxması da müşahidə olunurdu.

Ərəb müəlliflərinin məlumatları və arxeoloji-numizmatik materiallar Azərbaycanın ən iri şəhərlərinin ticarət-sənətkarlıq əhəmiyyətini XI-XII əsrlərdə qoruyub saxladığını söyləməyə əsas verir. Lakin eyni zamanda Xilafət dövründə kiçik şəhər olaraq fəaliyyət göstərən bəzi şəhərlərin istehsalının genişlənməsi hesabına artması və ticarət mərkəzlərinə çevrilməsi də tarixi faktdır.

XI-XIII əsr ərəb mənbələri içərisində Yaqut əl-Həməvinin "Mu'cəm əl-buldən" və Zəkəriyyə əl-Qəzvininin "Asar əl-biləd və əxbar əl -'ıbad" əsərlərində Azərbaycanın ticarət əlaqələrində bu dövrdə baş verən dəyişikliklər daha aydın əks olunmuşdur. Bu, daha çox bəzi şəhərlərdə baş verən sənətkarlıq ixtisaslaşması və bununla əlaqədar olaraq ticarət yollarında yeni

məntəqələrin meydana çıxması ilə bağlı nyuanslara aiddir. Səlcuq işğallarından sonra və Eldənizlərin hakimiyyəti dövründə Azərbaycan şəhərlərində sənətkarlığın və ticarətin inkişafının səviyyəsi məhz bu iki müəllif tərəfindən daha aydın təsbit olunur.

İpək emalı və ipək parça istehsalı (şərbaflıq) XI-XII əsrlərdə başlıca sənətkarlıq sahəsi olaraq qalırdı. Məhz yerli ipək istehsalı Azərbaycan ipəyini beynəlxalq ticarətin qiymətli obyekti kimi irəli çıxara bilmişdi. Xilafət dövründə ipəkçilik mərkəzi olan Bərdənin yerini Eldənizlərin dövründə Gəncə tutur. Bir çox sənətkarlıq sahələrinin inkişafına baxmayaraq, Gəncə daha çox ipək emalı və ipək parça istehsalı ilə məşhur idi. Zəkəriyyə əl-Qəzvini yazır: "(Gəncənin) əhalisi barama qurdları becərməkdə və ipək toxumaqda mahirdir" (26, s.351). Gəncə ipəyinin xarici bazarda geniş istehlakı şəhərin beynəlxalq ticarət əlaqələrində stimul rolu oynayırdı. Gəncə ipəyi "zərifliyi ilə digər ölkələrdə (toxunan ipəkdən) üstün idi" (26, s.351). Zərif ipək parçalarla yanaşı, Gəncənin ixracatında digər toxuculuq məmulatları da mühüm yer tuturdu. Bu şəhərdən digər ölkələrə "əl-gənci" və "əl-qutni" (pambıq parçadan) adlı paltarlar, "həzz çalma" (əl-ama'im əl-həzz) ixrac olunurdu (26, s.351). XIII əsrin müəllifi Sibt ibn əl-Cavzi Azərbaycanın Şərq ölkələri ilə ticarətində Gəncə tacirlərinin fəal iştirak etdiyini yazır (bax: 10, s.190).

Eldənizlərin dövründə xarici ticarət əlaqələrində Beyləqanın adı mənbələrdə tez-tez çəkilir. Ümumiyyətlə, Azərbaycanın beynəlxalq ticarət əlaqələrində Beyləqan hələ IX əsrdən iştirak etmişdir: şəhər Azərbaycanın şimal vilayətlərini təkcə cənubla deyil, Qafqazın qərb şəhərləri ilə də əlaqələndirirdi (bax: 5, s.32, 116). Amma tədqiqatçılar Beyləqanın ticarət-sənətkarlıq mərkəzi kimi yüksəlişini məhz XII əsrə aid edirlər (10, s.196-197; 13, s.312; 2, s.312). Qeyd edək ki, XII əsrin əvvəllərində səlcuq dövlətindəki siyasi pərakəndəliyin nəticəsi olaraq Beyləqan demək olar ki, muxtar şəhərə çevrilmişdi (15, s.157). Amma 1161-ci ildə Eldənizlərin hakimiyyəti altına keçdikdən sonra şəhərin əlaqələri nəinki zəifləmədi, əksinə sabitlik əldə etdi. Yaqut əl-Həməvi və Zəkəriyyə əl-Qəzvini Arranın şəhərlərini sadalayarkən, Gəncə, Bərdə, Şirvan və Beyləqanın adını ilk olaraq çəkirlər (4, I, s.183; 26, s.331). XII əsrdə Azərbaycanın Hindistan, Çin, Suriya və Misirlə əlaqələrində Beyləqan bilavasitə iştirak edirdi. Arxeoloji qazıntılar nəticəsində şəhərin XII əsrə aid mədəni təbəqələrindən "minai" tipli qablar, Hindistandan gətirilmiş "kauri" (*cuprea moneta*) balıqqulaqları, seladon qab qırıqları və Yaxın Şərq mənşəli zər naxışlı qab qırıqları aşkar olunmuşdur (1, s.54; 3, s.76, 86; 9, s.22).

Qeyd edək ki, Çin və Hindistanla Azərbaycanın digər şəhərləri də ticarət əlaqələri saxlayırdı. Çində hazırlanan yaşıl rəngli şirəli seladon qablar Şərq ölkələrində "mərtəbani" adlanırdı və çox yüksək qiymətləndirilirdi (9, s.54; 14, s.31). Mənbələrdə Çindən Azərbaycana ixrac olunan mallar içərisində "qızılı sapla (güləbətinlə) tikilmiş parça" (diba-i xitai) adına da rast gəlinir (16, s. 204, 211). Çin və Hindistanla Azərbaycanın ticarət əlaqələri birtərəfli deyildi;

mənbələrdə Çinə və Hind okeanı ölkələrə Azərbaycandan xalçalar və duz ixrac olunması haqqında məlumatlar vardır (bax: 5, s.117, 119, cədvəl 6).

Azərbaycanın ixracatına gəlincə, X əsr mənbələrindən fərqli olaraq, XI-XIII əsrin mənbələri Azərbaycan mallarının konkret idxalatçılarını göstərmirlər. Hərçənd ki, Yaqut əl-Həməvi Azərbaycanın bu və ya digər şəhərinin ixracatı haqqında məlumat verərkən tez-tez "Şərq və Qərb ölkələrinə ixracat"dan yazır. Görünür, bir neçə əsr ərzində (IX-XII əsrlər) Azərbaycan mallarının ənənəvi idxalatçıları dəyişilməz qalmışdı. Ümumiyyətlə, orta əsr ticarəti üçün böyük "sıçrayışlar" xarakterik olmamışdır. Amma bir fakt şübhəsizdir ki, sənətkarlıqda baş verən mühüm dəyişiklər sayəsində XII əsrdə Azərbaycanın beynəlxalq ticarət əlaqələrinə ölkənin bir çox şəhərləri cəlb olunmağa başlayır.

Orta əsrlərdə Ön Asiya və həmçinin Avropa ölkələrində çox yüksək qiymətləndirilən ipək məmulatları, zərif parçalardan hazırlanmış paltarların ixracatçıları içərisində Azərbaycan şəhərlərinin də öz yeri var idi. Buradan ixrac olunan parçalar içərisində atlas, əl-əttabi, siqlətun, əl-xuvayyat xarici bazarlarda geniş istehlak olunurdu (4, I, s.822; 26, s.227). Bu parçaların əsas istehsalçıları Təbriz sənətkarları idi. Təbriz, Urmiya, Uşnuh şəhərlərinin istehsalı olan Azərbaycan xalçaları da xarici bazarlarda (Xilafət dövründə olduğu kimi) böyük tələbata malik idi. Xüsusilə Təbrizin iri xalçaları (naxx) və Urmiyanın səccadələri məşhur idi (16, s.197, 204).

XI və xüsusilə XII əsrdə Azərbaycanın iqtisadi həyatında baş verən mühüm hadisə – Təbrizin istər siyasi, istərsə də ticarət-sənətkarlıq mərkəzi kimi yüksəlişi olmuşdur. Yuxarıda adları çəkilən sənətkarlıq sahələri XII əsrdə Azərbaycanın iqtisadi sistemində şəhərin yerini müəyyən etmişdir. Orta əsrlər ticarəti üçün xarakterik olan cəhət – əsas ticarət yolları ilə sənətkarlıq mərkəzlərinin qarşılıqlı asılılığı Təbrizin hərbi-strateji əhəmiyyətinə başlıca təsir göstərmişdir. Bununla əlaqədar R.Ə.Hüseynov da yazır: «Təsadüfi deyil ki, səlcuqlar qərbə doğru, ticarət magistralları ilə irəliləyirdilər» (13, s.304). X əsrin sonlarında Rəvvadilərin paytaxtı olan Təbrizin iri ticarət mərkəzinə çevrilməsi XI əsr boyu davam edir. XI əsrdə şəhərin təsərrüfat ixtisaslaşması və tədricən ölkənin ümumi təsərrüfat sistemində sabit yer əldə etməsi, Eldənizlərin dövründə isə onun yenidən paytaxt şəhərə çevrilməsi baş verir. Zəkəriyyə əl-Qəzvini Təbrizi Azərbaycanın əsas şəhəri adlandırır (26, s.227; həmçinin bax: 22, s.302).

Təbrizin yüksəlişi təbii ki, Azərbaycanın ticarət marşrutlarında bəzi dəyişikliklərlə müşayiət olunmuşdur (baxmayaraq ki, ticarət yolları bu dövrdə mühafizəkar olub çox nadir hallarda öz istiqamətini dəyişirdi). Əgər IX-XI əsr mənbələri ilə XIII əsr mənbələrinin təsvir etdikləri marşrutları müqayisə etsək, Azərbaycanın cənub şəhərləri ilə Qərbi Qafqaz və Kiçik Asiya şəhərləri arasında mövcud olan ticarət yollarında Təbrizin və Uçan, Xalxal, Əhər kimi kiçik şəhərlərin XII əsrdə fəallaşdığını görə bilərik. Məsələn, Xilafət dövründə Marağa-Dəbil marşrutu Urmiya gölünün sol sahili ilə Dəhərrəqan –

Urmiya (şəhər) – Salmas – Xuveyy – Nəşava – Dəbil xətti ilə keçirdisə, XII əsrdə Ərdəbil – Təbriz – Salmas – Xoy (Xuveyy) – Naxçıvan (Nəşava) – Dəbil və Ərdəbil – Təbriz – Mərənd – Naxçıvan – Dəbil ticarət yolları üstün mövqe tutur (4, I, s.198, III, s.120, IV, s.503). X əsrdə Marağadan Urmiyaya ticarət yolu birbaşa şimala və şimal-qərbə yönəlirdisə, XI-XII əsrlərdə Urmiyadan Salması keçməklə Təbrizə yol açılırdı (4, I, s.219); tacirlər Kiçik Asiya şəhərlərinə getmək üçün artıq Təbrizdən gəlib keçirdilər. Uçan, Əhər, Xalxal, Xunəc şəhərləri Təbriz və Ərdəbil vasitəsilə Qafqaz şəhərləri ilə əlaqələr saxlaya bilirdilər. Başqa sözlə desək, Eldənizlərin dövründə Azərbaycanın ən kiçik şəhəri belə beynəlxalq ticarətə qatılır.

Azərbaycanın geniş iqtisadi əlaqələr saxladığı Fars əyaləti və Orta Asiya XI əsrin sonu – XII əsrdə də ənənəvi rolunu saxlamışdı; bu əlaqələrdə vasitəçilər Zəncan, Qəzvin və Rey idi. Mənbələr Azərbaycanın ən kiçik şəhərlərinin də Zəncanla əlaqələrə malik olduğunu göstərir (məsələn, bax: 4, II, s.500; 22, s.388). Trapezundla əlaqələr isə Tiflisin və Suxuminin vasitəsilə saxlanılırdı (22, s.389).

X əsrdə Xəzər xaqanlığının darmadağın edilməsi Azərbaycanın Bab əl-Əbvab və Bakı kimi şəhərlərinin şimal ölkələri ilə əlaqələrinin xeyli zəifləməsinə səbəb olmuşdu. Bunu istər Cənubi-Şərqi Avropa ölkələrinin numizmatik materiallarında müsəlman sikkələrinin nəzərə çarpacaq dərəcədə azalması, istərsə də səlcuq və monqol dövrü mənbələrində bu ticarət haqqında məlumatların epizodik xarakter alması göstərir (5, s.121-122). Məsələn,Yaqut əl-Həməvi və Əbu-l-Fida şimalla ticarətdə birinci dərəcəli rol oynayan Xəzər dənizinin şərq və cənub-qərb limanları haqqında əvvəlki müəlliflərin – əl-İstəxri və İbn Havqəlin məlumatlarını təkrarlamaqla kifayətlənirlər (4, I, s.442; 23, s.390-391. Müqayisə et: 25, s.219-227 və 24, s.398). Bununla yanaşı, Azərbaycanın Şərqi Avropa ilə ticarətinin XI-XII əsrlərdə davam etməsi şübhəsizdir. Çünki bu dövrdə Azərbaycan hələ də Şərqi Avropadan Yaxın Şərqə çox gəlirli olan xəz ixracatının vasitəçisi idi. Çox güman ki, Azərbaycanın Şərqi Avropa ilə əlaqələri bu dövrdə Bulqarın vasitəsilə həyata keçirilirdi, çünki bu şəhər İtilin darmadağın edilməsindən (966-cı il) sonra xəz ticarətinin mühüm mərkəzi olmuşdur (1399-cu il rus yürüşünədək) (5, s.122).

XI əsrin ikinci yarısı – XII əsrdə Azərbaycan cəmiyyətində baş verən iqtisadi proseslər, o cümlədən, məhsuldar qüvvələrin artması, ticarətin və əmtəə-pul münasibətlərinin genişlənməsi "gümüş böhranı" fonunda baş verirdi. Qeyd edək ki, XI-XII əsrlərdə Azərbaycanda (və həmçinin Ön Asiyanın digər rayonlarında) kəmiyyət baxımından birinci yerdə mis, daha sonra isə gümüş və qızıl sikkələr dururdu. Bu, mənbələrdə də təsbit olunur. Məsələn, Zəkəriyyə əl-Qəzvini yazır: "Azərbaycanın əksər şəhərlərinin pulu misdir, ondan fils zərb edirlər" (26, s.227). Xüsusilə bu hal XI əsrlə XII əsrin hüdudlarına aiddir; bu dövrdə gümüş böhranı güclənir, səlcuq imperiyasının parçalanması və müxtəlif sultanlıq və əmirliklərin yaranması baş verir.

Beynəlxalq ticarət əlaqələrinin pul tədavülü ilə qarşılıqlı təsirinin ikinci təzahürü XI-XII əsrlərdə Ön Asiyada bir neçə pul sisteminin mövcud olması idi. Şəhərlərin artması, əmtəə-pul münasibətlərinin inkişafı, ticarət əlaqələrinin genişlənməsi müxtəlif ölkələrin mis sikkələrinin fəallaşmasına səbəb olurdu. Eldənizlərin mis sikkələri bütün Cənubi Qafqaz və qonşu ərazilərdə tapılmışdır (17, s.86-89). Eldənizlərin Təbriz, Ərdəbil, Naxçıvan, Beyləqan, Bərdə və çox güman ki, Həmədanda zərbxanaları fəaliyyət göstərirdi (12, s.111). Eyni zamanda Azərbaycan ərazisində İraq və Konya sultanlıqlarının mis pulları aşkar olunmuşdur (12, s.106).

Yerli gümüş sikkələrinin aşağı əyarlı olması Azərbaycan ərazisində səlcuq dirhəmlərinin yayılmasına səbəb olmuşdu. Bundan əlavə, Bizansın da XI-XII əsr gümüş pulları Azərbaycan dəfinələrindən aşkar olunmuşdur (20, s.48). İraq, Konya sultanlıqlarının mis pullarının, səlcuq dirhəmlərinin və Bizans sikkələrinin Azərbaycan ərazisində aşkar olunması eyni zamanda Azərbaycanın sıx iqtisadi əlaqələrini əks etdirir. Qızıl sikkələrə gəlincə, dəfinələrdə Eldənizlərin və Şirvanşahların qızılına rast gəlinməmişdir. Çox güman ki, Eldənizlərin qızıl pul zərb etmək hüququ olmamışdır; əks halda numizmatik tapıntılarda onların nümunələrinə rast gəlinərdi. Azərbaycan numizmatikasına məlum olan ilk qızıl sikkə (Azərbaycan ərazisində zərb olunan) 272-ci hicri ilində (885) zərb olunan Abbasi dinarı, sonuncu qızıl sikkə isə Marağada zərb olunmuş Salari dinarıdır (347/958-ci il) (7, s.14; 8, s.17). Bu tarixi faktlara baxmayaraq, biz İraq sultanlığının faktik olaraq hakimi olmuş Qızıl Arslanın adına qızıl sikkə zərb olunmamasını izaholunmaz hal hesab edirik.

Bu dövrdə Qafqazda və həmçinin Azərbaycanda səlcuq qızıl dinarı və Bizans solidi yayılmışdı. Qızıl ümumi ödənc vasitəsi və beynəlxalq valyuta rolunu oynayırdı. Yəni qızıl Ön Asiyanın pul sisteminin əsasını təşkil edirdi; lakin mübadilədə, o cümlədən beynəlxalq mübadilədə mis çoxluq təşkil edirdi.

Yuxarıda nəzərdən keçirdiyimiz tarixi faktlar, arxeoloji və numizmatik materiallar XI əsrin ikinci yarısı – XII əsrdə və monqol işğalı ərəfəsində Azərbaycanın beynəlxalq ticarət əlaqələrinin artan xarakter daşıdığına dəlalət edir. Azərbaycanın geosiyasi mövqeyi – mühüm ticarət yollarının kəsişmə nöqtəsi olması, istehsalının və əmtəə təsərrüfatının yüksək səviyyəsi ticarət əlaqələrinin davamlı inkişafına şərait yaradırdı. Eldənizlərin hakimiyyəti dövrü təkcə xarici ticarət əlaqələrində deyil, Azərbaycanın bütövlükdə sosial-iqtisadi tarixində ayrıca bir mərhələni təşkil etmişdir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Babayev İ.A., Əhmədov Q.M. Qəbələ (tarixi-arxeoloji oçerk). Bakı, 1981.
2. Dostiyev T.M. Bakı, Şabran və Dərbənd şəhərlərinin IX-XV əsrlərdə beynəlxalq ticarətdə iştirakı – Azərbaycanın beynəlxalq əlaqələrində Bakının rolu. III Bakı Beynəlxalq Simpoziumunun materialları. Bakı, 1997.
3. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı, 1979.

4. Əl-Həməvi Əbi Abdallah Yaqut. Kitab mu'cəm əl-buldən. Cild 1-4. Tehran, 1965.
5. Gözəlova Y.H. IX-XII əsrlərdə Azərbaycanın beynəlxalq ticarət əlaqələri. Bakı, 2005.
6. Mahmudov Y.M. Azərbaycan tarixi. İntibah dövrü. Bakı, 1997.
7. Азимова Л.А. Денежное обращение Азербайджана в IX-XI вв. (по данным нумизматики) - Автореферат…к.и.н. Баку, 1986.
8. Алиев З.М. Денежное обращение Азербайджана (VII-IX вв.) - Автореферат…к.и.н. Кемерово, 1990.
9. Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджана с Индией. Баку, 1990.
10. Буниятов З.М. Государство Атабеков Азербайджана (1136-1225). Баку, 1978.
11. Гордлевский В.А. Государство Сельджукидов Малой Азии – Избранные сочинения, т.1. Москва, 1960.
12. Гусейнов Р.А. Из истории денежного обращения в Передней Азии в XI-XII вв. – Нумизматика и эпиграфика, 1971, т.9.
13. Гусейнов Р.А. Сельджуки и Закавказье – Диссертация … д.и.н. Баку, 1969 (müəllifin icazəsi ilə).
14. Джидди Г.А. Средневековый город Шемаха в IX-XVIII вв. Баку, 1981.
15. Минорский В.Ф. История Ширвана и Дербенда в X-XI вв. Москва, 1963.
16. Михлуко-Маклай Н.Д. Географическое сочинение XIII века на персидском языке – Ученые Записки Института Востоковедения АН СССР, 1954, IX.
17. Пахомов Е.А. Монетное обращение Азербайджана в XII и начале XIII в. – Труды Государственного Исторического Музея, Нумизматический сборник, вып.26, ч.2. Москва, 1957.
18. Раджабли А.М. Нумизматика Азербайджана. Баку, 1997.
19. Садр ад-Дин Али ал-Хусейни. Ахбар ад-даулат ас-селджукийа / Издание текста, перевод, прим. и приложения З.М.Буниятова. Москва, 1980.
20. Сейфеддини М.А. Монетное дело и денежное обращение в Азербайджане в XII-XIV вв. Книга I. Баку, 1978.
21. Семенова Л.А. Салах ад-Дин и мамлюки в Египте. Москва, 1966.
22. Cosmographie de Shems ed-din Aboo Abdallah Mohammed ed-Dimechqui. S-Petersburg, 1866.
23. Geographie d'Aboulfeda, texte arabe, publie d'apres… par M.Reinaud et Mac Guckin de Slane. Paris, 1840.
24. Opus Geographicum auctore Ibn Haukal. – Bibliotheca Geographicum Arabicorum, Pars II.
25. Viae regnorum. Descriptio ditionis moslemicae auctore al-Istakhri – Bibliotheca Geographicum Arabicorum, Pars I.
26. Zakarija Ben Muhammed Ben Mahmud el-Cazwini's Cosmographie. Wiesbaden, 1967.

# ПУБЛИЦИСТИКА АХМЕД БЕКА АГАОГЛЫ В ГАЗЕТЕ «КАСПИЙ» О МЕЖДУНАРОДНОМ ПОЛОЖЕНИИ В НАЧАЛЕ XX ВЕКА

*САИДА АЛИ КЫЗЫ*
Кандидат исторических наук

Жизнь, творчество и деятельность Ахмед бека Агаоглы – мыслителя, ученого-востоковеда, известного публициста, просветителя, общественно-политического деятеля, участника национально-освободительного движения, одного из членов Парламента Азербайджанской Демократической Республики (1918-1920 гг.), всегда привлекали и продолжают привлекать пристальное внимание научной общественности.

А. Агаоглы, являясь одним из видных идеологов азербайджанской национальной буржуазии, был высокообразованным человеком своего времени. Родился он в 1869 году в Карабахе в городе Шуше в бекской семье, которая отличалась огромной тягой и любовью к просвещению, наукам и искусству. Генезис и эволюция его характера и взглядов, мировоззрения зиждятся именно на этой основе.

Первоначальное образование А.Агаоглы получил в местной школе, где основательно изучил арабский и фарсидский языки, затем продолжил свое образование в русской школе. Окончил Тифлисскую гимназию. В 1888 – 1894 годах обучался в Париже в юридической школе «Колледж де Франсе», также окончил один из древнейших университетов мира – Сорбоннский. Ахмед бек Агаоглы один из первых азербайджанцев, получивших высшее образование в Западной Европе. В период обучения он глубоко овладел французским, английским, немецким, греческим и латинским языками, а также ознакомился с историей и современной жизнью многих стран Европы и Востока (2).

Среди преподавателей А.Агаоглы были такие известные французские ученые - востоковеды как Ернест Ренан, Джеймс Дармстетер, Барбъер де Мейнард, Чарлз Шефер, Ипполит Тайн и др. Будучи во Франции он сблизился также с эмигрировавшими сюда «младотурками» и видным мусульманским общественным деятелем Джамаладдином Афгани, чьи взгляды оказали огромное влияние на будущее мировоззрение А.Агаоглы (5).

Уже в студенческие годы, по настоянию и с благословения своих преподавателей, Ахмед бек начал публиковать в Западной и русской печати свои первые научные статьи, посвященные в основном истории и религии Востока. В 1892 году, когда ему было 23 года он выступил

на IX Международном Востоковедческом Конгрессе в Лондоне с докладом на тему: « Источники шиизма». Доклад вызвал огромный интерес и по решению конгресса был издан Кембриджским университетом на 7-ми европейских языках (1, 4). Дочь Ахмед бека Сурайя Агаоглы в своих воспоминаниях отмечает, что шах Ирана за этот доклад наградил отца драгоценным бриллиантовым кольцом ( 3).

По возвращению на Родину А.Агаоглы предпринял безуспешную попытку создания печатного органа на азербайджанском языке. Работал в родном городе Шуше преподавателем французского языка, одновременно сотрудничал в Российской, Кавказской и местной прессе. Следует отметить, что наиболее тесно А.Агаоглы был связан с газетой «Каспий», которая выходила на русском языке с 1881 по 1919 год и была самым долговременным изданием в Азербайджане в конце XIX - начале XX века. На страницах «Каспия», где уже начиная с 1897 года по приглашению известного миллионера и мецената Г.З.Тагиева он работал и возглавлял литературно-критический отдел, периодически А.Агаоглы выступал с различными статьями и публикациями на общественно-политические темы. А.Агаоглы прекрасно разбирался в проблемах истории, современной международной политики, глубоко знал жизнь народов Востока и Запада. И не случайно, что именно это богатейшее наследие его публицистики привлекло наше внимание и явилось предметом источниковедческого анализа. К месту будет отмечено, что в целом из-под пера А.Агаоглы вышло свыше 20-ти трудов и более 1000-и научно и научно-публицистических статей. В последние годы своей жизни он сам как-то отметил, что если собрать воедино все мои статьи, можно проложить широкую дорогу из Стамбула в Баку.

Статьи А.Агаоглы в газете «Каспий» публиковались еще с 1894 года. Они посвящались самым актуальным и злободневным вопросам современности, отличались широким кругозором, глубиной познания, тщательным анализом, прекрасным знанием описываемого предмета и в то же время простотой, лаконичностью и доступностью изложения. Читатель всегда находил в них ответы на многие интересующие его вопросы и проблемы современности. Сведущие читатели ждали его статьи и номера газеты, в которых не было его статей казались неинтересными.

В начале века А.Агаоглы уже был известен и как политический обозреватель международной жизни. Известно, что эти годы характеризуются обострением противоречий между двумя военными группировками – Тройственным Союзом и Антантой, борющимися за передел уже поделенного мира. В это время особенно обострились противоречия между Россией и Японией. Западные страны всячески подталкивали эти два государства на путь войны, что и привело в конечном итоге к развязыванию первой войны XX столетия - русско-японской войны 1904-1905 гг.

В газете «Каспий» опубликовано огромное количество обзоров, статей А.Агаоглы, посвященных важнейшим мировым событиям этого времени. Острое перо публициста метко изобличало захватнические устремления крупных держав Запада, колониальную политику на мусульманском Востоке, столкновения их политических и экономических интересов в других регионах. Он подвергал анализу ситуацию на Балканах, Дальнем Востоке, рассматривал предпосылки зарождения и ход военного конфликта между Россией и Японией.

В преддверии нового столетия, 1 января 1901 года А.Агаоглы опубликовал политический обзор, в котором был дан анализ международной политики европейских государств и США в отношении стран Востока (6 ). Публицист отмечал, что мировое значение всего Востока, постепенно обозначившееся за предыдущие годы, отныне будет одним из главнейших факторов в человеческих судьбах. И это он связывал с экспансионизмом Запада, злодеяниями «цивилизованных» завоевателей в этих странах, вызывавшими глубокую ненависть и чувство отмщения, борьбу за свободу и независимость. «Потерпит ли какой-нибудь народ в Европе, чтобы иностранцы наложили на него руку?» - спрашивал автор. По его мнению, не менее опасным было и то, что Европа не только совершает «это варварство, но и старается путем воспитания увековечить его в сознании своих граждан» (6).

На основе анализа международной ситуации А.Агаоглы предсказывал неизбежность вооруженного противостояния в какой-нибудь части Востока (в Китае, Египте, Судане, Красном море, Персидском заливе, у подножия Гималаев). По его мнению, очевидным фактом этого является начавшаяся борьба за Персидский залив. Он считал, что эта борьба новый фатальный узел, где еще раз столкнутся политические интересы и разыграется новая трагикомедия европейского культуртрегерства (7).

Пророчество А.Агаоглы оказалось верным и не заставило себя долго ждать. Уже через три года А.Агаоглы раскрывал подоплеку трагедии, разыгравшейся на Дальнем Востоке.

В начале 1904 года, когда особенно обострилась обстановка на Дальнем Востоке, шли переговоры между Россией и Японией, и в то же время обе стороны вели приготовления к войне, А.Агаоглы откликаясь на эти события 14 января 1904 года опубликовал в «Каспии» интересную статью под названием «Панмонголизм или новое азиатское пугало», где анализировал публикации столичной газеты «Новое время» по поводу обострения ситуации на Дальнем Востоке и осуждал милитаризацию Запада, обусловленную его захватническими устремлениями (8). По его словам, этому немало способствовали «зловещие пророки», всячески варьирующие слухи о мнимой опасности панисламизма, а в последнее время и панмонголизма («желтая опасность»).

Причина - попытка оправдать свои планы полного порабощения Востока. Как-бы предостерегая Запад от провоцирования военных конфликтов, он писал, что от него (Запада–С.А.) зависит, ответит ли Восток чем-либо более возвышенным, чем милитаризм и разные «паны» (8).

29 января 1904 года газета «Каспий» опубликовала «Высочайший Манифест» Николая II от 27 января 1904 года об объявлении (о начале) войны. Манифест был опубликован на 2-й странице газеты. Здесь же рядом помещена объемистая статья А.Агаоглы «Россия как искупительница Европы», где даны исчерпывающий и всесторонний анализ причин и прогнозы дальнейшего хода и результатов начавшейся войны (9). А.Агаоглы писал: «Начинается война, самая ужасная из всех когда-либо бывших. Она уже объявлена формально и кровавая заря, вспыхнув на Дальнем Востоке, оповестила мир о наступающих днях смерти и страданий… По всему видно, что Япония давно готовилась к этой войне, что она была решена для нее давно и что только теперь она сочла минуту подходящую для ее начала. …Россия шла на все уступки, на все компромиссы лишь бы избегнуть войны, но чем больше уступала Россия, тем требовательнее становилась Япония» (9).

Автор статьи откровенно обвиняет и обличает Западные государства в разжигании этой войны. Он пишет: «Вот уже почти четверть века, как Запад напряженно вызывает на помощь войны все адские изобретения своего воображения и ума; он поставил на ее служение всю свою технику, науку, промышленность, а громадная часть ее жизненных ресурсов идет на ее поддержание.

И в конце-то концов ловко же устроился этот Запад!

Он вооружил с головы до ног два самых свежих, самых бодрых народа Востока и, поставив их одного против другого, напустил их друг на друга. Теперь он может испытать на деле и на чужой шкуре силу той войны, которая как страшный кошмар беспокоила его так долго.

Зрелище это тем приятнее, тем «привлекательнее», что каковы бы не были его результаты, они всегда пойдут на пользу той же Европы».

Будучи хорошо осведомленным в соотношении сил и прогнозируя исход войны А.Агаоглы писал: «Очевидно, что Япония, как бы она не была сильна и хорошо вооружена, храбра и воинственна не в состоянии будет преодолеть окончательно Россию. Эта последняя слишком обширна, слишком велика, чтобы ее окончательно преодолеть. Конечно, Япония может одерживать над нею победы, но эти победы в конце концов не приведут ни к территориальному расширению Японии, ни даже к окончательному укреплению Японии на материке; этого ей не позволят ни Россия, ни тот же Запад» (9).

Автор считал, что война будет иметь для Запада один несомненный и весьма положительный результат: страшное ослабление обоих противников, а это главное для Европы, единственное желание Нового и Старого светов (9).

Касаясь вопроса об отношении Запада к Востоку вообще, А.Агаоглы писал: «У нас нередко, а за последнее время и весьма часто поговаривают о какой-то якобы всеевропейской солидарности, о братстве по расе, религии и культуре между народами Запада, о необходимости созвать европейскую конференцию с целью бороться общими силами против наводящего ужас пробуждающегося желтого дракона Востока. Мы увлекаемся по наивности душевной этими фантасмагориями, как дети увлекаются рассказами о феях.

На самом же деле, мы не желаем примириться с мыслью, что Запад презирает, ненавидит и третирует нас, как одну из отраслей того же Востока» (9).

А.Агаоглы анализируя международную обстановку считал, что народы Востока должны объединиться против Запада, который всячески желает их ослабления и обособленности. «Если бы мы сумели вовремя отрезвиться от гипноза Европы и раз навсегда решили, что наша будущность, как живущих на Востоке, связана с будущностью Востока, мы и политику нашу по отношению к нему направили бы сообразно этим взглядам. Тогда бы легче было нам спеться и с Японией, и с Китаем, и со всяким пробуждающим признаки жизни народом на Востоке.

Ключ Азии очутился бы в наших руках. Идя рука об руку с народностями Азии, мы могли бы диктовать нашу волю Европе. Эта последняя, изнемогая под тяжестью осложнившихся до крайности социальных и экономических условий, заговорила бы иным языком. Но более дальновидная и зоркая, чем мы, она опередила нас и тут. Ей нужно было, во что бы то ни стало, помешать осуществлению этой солидарности Востока.

На последнем она достигла этого, создав с одной стороны, очаг неугасаемой «желтой ненависти» желтой расы к Европе и всему европейскому, а с другой, сделав Россию искупительницею и жертвою этой ненависти» (9).

В октябре 1904 года, характеризуя международную обстановку через девять месяцев после начала войны, в другой своей статье он разъяснял, что европейские, американские милитаристские круги десятилетиями напрягали свои умы, чтобы изобрести наиболее смертоносные и разорительные орудия, накапливали их в ужасающих размерах, ценой неимоверных жертв. И все это должно было разразиться и разразилось в данном случае в результате настойчивого науськивания Японии на Россию, в особенности со стороны Америки. И теперь, - писал он, когда обе стороны достаточно пролили крови и истощились, для зачинателей этой бойни, желательно ее прекращение (10).

Острое перо публициста раскрывало также парадоксы эпохи, которые выражались во взаимоисключающих действиях, казалось бы, развитых и культурных государств (12). Он писал: «Европа потеряла нить - с одной стороны традиции гуманизма, движение вперед во имя

нравственного, умственного и экономического освобождения масс, с другой – увлечение огнем и мечом». Мысль свою А.Агаоглы подкреплял конкретными фактами из внешнеполитической жизни крупных держав Европы.

Выступление Ф.Рузвельта с предложением созыва мирной конференции было расценено им как ловкий предвыборный политический маневр, могущий обеспечить ему очередное избрание на пост президента (10). Ровно через месяц А.Агаоглы опубликовал статью, посвященную итогам выборов в США, которые завершились победой республиканцев и их лидера Ф.Рузвельта. Он писал, что кандидат республиканской партии противопоставил «серенькой» программе демократов широкую программу империализма, участия в мировой политике, развития торговой конкуренции и торжества американских миллиардов. Вывод автора заключался в том, что Белый дом по-прежнему остается в распоряжении покорного слуги американской буржуазии, мечтающей о мировом господстве. Автор называл партию Рузвельта буржуазно- империалистической, присвоившей себе ярлык «республиканской» (11).

Он считал, что подобные факторы чрезвычайно опасны для будущего человечества и выражал большое беспокойство по поводу того, что все народы, воспринимающие западную цивилизацию, вместе с благами науки, искусства и усовершенствованных учреждений, пропитываются так же хищническими началами. По его мнению, пока европейская цивилизация носит этот характер (инстинкты преобладания и захватов), человеческая кровь и слезы будут ее неотъемлемыми атрибутами (10).

Таким образом, публицистика Ахмед бек Агаоглы отражает реалии на международной арене и борьбу капиталистических держав за мировое господство в начале XX века.

**Использованная литература:**


1. Akçura Yusuf. Türkçülük, türkçülügün tarihi gelişimi. Türk kültür yayını. İstanbul, 1978, стр. 198.
2. Akçuraoğlu Yusuf. Türk yili 1928. İstanbul, 1928, стр. 419-434.
3. Əhməd bəy Ağaoğlu. Seçilmiş əsərləri, Bakı стр. 386.
4. Mirəhmədov Ə. Əhməd bəy Ağayev. В кн. « Fikrin karvanı» , Bakı, 1984.
5. Ülken Hilmi Ziya. Türkiyede Çağdaş düşünce tarihi. Ülken yayınları, İstanbul, 1994; Ufuk Özcan. Ahmet Ağaoğlu ve rol degişikligi. İstanbul, 2002, стр. 21-23.
6. Газета «Каспий», 1901, 1 января.
7. Там же, 1901, 6 января.
8. Там же, 1904, 14 января.
9. Там же, 1904, 29 января.
10. Там же, 1904, 12 октября.
11. Там же, 1904, 30 ноября.
12. Там же, 1904, 12 ноября.

# MƏCBURİ MİQRASİYA VƏ BEYNƏLXALQ HÜQUQ

*U.M.PAŞAYEVA*

Hal-hazırda beynəlxalq miqrasiya hüququ, kifayət qədər köhnə beynəlxalq hüquqi sənədlər, müasir regional realiyalar və dövlətlərin zəngin milli praktikası üzərində qurulmuş çox mütəhərrik mexanizmdir. Onun ayrılmaz hissəsi sığınacaqdır - vətəndaşı olduğu və ya yaşadığı ölkəni tərk etməyə məcbur olmuş şəxsi dövlətin himayə etməsindən ibarət olan xüsusi beynəlxalq hüquqi institutdur. Bu institutu təşkil edən elementlər aşağıdakılardır:

- Şəxsin təhlükəsizliyinin təminatı;
- Şəxsin təqib oluna biləcəyi ölkəyə verilməməsi və ya göndərilməməsi;
- Şəxsə insanın əsas hüquq və azadlıqları vermək.

Sığınacaq hüququnun əsası dövlətin suverenliyidir, çünki bir sıra beynəlxalq sənədlərə müvafiq olaraq, öz ərazisində sığınacaq vermək preroqativi hər bir dövlətin yalnız özünə məxsusdur. 1967-ci il Ərazi sığınacağı haqqında Bəyannamənin 3-cü bəndinin 1-ci maddəsində deyilir: “Sığınacaq verilməsi üçün əsasın qiymətləndirilməsi onu verən ölkəyə məxsusdur”(1). 1977-ci il Ərazi sığınacağı haqqında Avropa Konvensiyasının 2-ci bəndi dövlətlərin sığınacaq, o cümlədən humanitar vəziyyətlə əlaqədar sığınacaq vermək hüququnu elan edir. Buna baxmayaraq, dövlətlər heç də öz suverenliyini mütləq universal beynəlxalq hüquqi razılaşma, məsələn, Ərazi sığınacağı haqqında Konvensiya kimi sənədlə məhdudlaşdırmağa can atmırlar. Vahid sənəd yaratmaq ideyası XX əsrin 70-80-ci illərində Ərazi sığınacağı haqqında Konvensiya layihəsi üzərində iş zamanı rədd edilmişdir. O zaman dövlətlər sığınacaq verilməsi üçün öhdəliklərin reallaşdırılmasına vahid yanaşma yolunu tapa bilməmişdilər. Bəyannamə isə, yalnız tövsiyə qüvvəsinə malikdir.

Dövlətlərin başqa dövlət suverenliyinə toxunmaqdan ehtiyat etməsini 1954-cü il Amerika dövlətləri Təşkilatının qəbul etdiyi Ərazi sığınacağı haqqında Karakas konvensiyasının 1-ci maddəsi olduqca aydın əks etdirir: “Hər bir dövlət öz ərazisinə lazım bildiyi insanları buraxmaqla suverenliyini həyata keçirmək hüququna malikdir, ancaq bu hüququn həyata keçirilməsi hər hansı bir başqa dövlətin şikayətinə səbəb olmamalıdır”(2).

Beynəlxalq hüquqda insanın fundamental hüquq və azadlıqlarının həyata keçirilməsi dövlətin hüququ ilə tənzimlənir. Miqrasiyaya münasibətdə dövlət hüququ immiqrasiya norma və qaydalarının təyin edilməsi kimi, fərdin hüququ kimi isə immiqrantların hüquqi statusunun tanınması

mexanizmi və olduğu ölkədə onun həyata keçirilməsinin təminatı kimi çıxış edir. "İnsan haqqlarının ümumi bəyannaməsi"nin 14-cü maddəsi hər bir fərdə öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək hüququ verir. 1966-cı il mülki və siyasi hüquqlar haqqında Beynəlxalq paktda həmin ifadə 2-ci bənd 12-ci maddədə əks olunmuşdur (3).

Təəssüf ki, Rusiya vətəndaş cəmiyyəti beynəlxalq hüquqda qəbul edilmiş "qaçqın" məfhumunu qavramağa tam hazır deyil. Mövcudluğunun son illərində və dağılması dövründə SSRİ-də başlanmış etnik münaqişələr nəticəsində Rusiya Federasiyasına (RF) axışan bütün köçkünləri qaçqın adlandırmağa başlamışlar. Eyni zamanda kütləvi informasiya vasitələrinin istifadə etdiyi bu məişət yanaşması "qaçqın" məfhumunun mahiyyətini qətiyyən aydınlaşdırmır.

"Qaçqın" ifadəsinin standart beynəlxalq hüquqi təyinatı, hər şeydən əvvəl, qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasında əks olunmuşdur və buraya aşağıdakı prinsipial komponentlər daxildir:

- öz ölkəsinin hüdudlarından kənarda olma:
- öz dövləti tərəfindən müdafiənin olmaması;
- öz həyatı, azadlığı və təhlükəsizliyi üçün əsaslandırılmış qorxu;
- irqi əlamətlərinə, dini, vətəndaşlıq, siyasi görüşlərinə, müəyyən sosial qrupa məxsusluğuna görə təqib olunma mümkünlüyü və ya təqib olunma;
- göstərilən səbəblər nəticəsində öz ölkəsinə qayıtmağın mümkünsüzlüyü və ya arzuolunmazlığı (4).

Qaçqınlar haqqında RF-nin 1993-cü il qanunu 1997, 1998 və 2000-ci illərdəki əlavə və dəyişikliklərlə qaçqın təyininə şəxsin xarici vətəndaş və ya vətəndaşlığı olmayanlar kateqoriyasına aidiyyət əlamətini əlavə etməklə bu komponentlər dəstini praktik olaraq tam əks etdirir. Bundan əlavə, qanun öz ölkəsini iqtisadi səbəblər və ya təbii və texnogen xarakterli fövqəladə hadisələr nəticəsində tərk etmiş şəxsləri buradan istisna edir (bu b.2 m.2-də xüsusi olaraq vurğulanır). RF ərazisində qaçqınların tanınması praktikasından danışarkən bu qanunun seçkili xarakter daşıdığını qeyd etmək lazımdır; bu, əsasən İraq, Əfqanıstan, Konqo, Efiopiya, Şri-Lanka və s. kimi xarici ölkələrin vətəndaşlarına şamil edilirdi. SSRİ üzrə keçmiş həmvətənləri isə Rusiyaya immiqrasiya etməyə RF-da vətəndaşlıq və məcburi köçkün statusu almaq vasitəsilə vadar etmək nəzərdə tutulurdu.

Qeyd etmək lazımdır ki, qaçqının hüquqi statusu beynəlxalq xarakter daşıyır, həm də hər hansı bir dövlətin insanı qaçqın kimi tanımaq haqqında mənfi qərarı müraciət edilən digər bir dövləti onu tanımaq xahişinə baxmaqdan azad etmir.

Bu gün 141 ölkə qaçqın statusu haqqında 1951-ci il Konvensiyasının iştirakçısıdır. BMT yarandığı ilk gündən öz səylərini dünyanın müxtəlif yerlərində olan qaçqınların müdafiəsinə yönəltmişdir. 1951-ci ildə BMT-nin qaçqınlarla iş üzrə Ali Komissarlığı İdarəsi (BMT QAKİ) yaradılarkən onun mandatı təqribən 1 milyona yaxın qaçqına şamil edilmişdi. XXI əsrin

əvvəllərində onların sayı təqribən 17,5 mln. qədər artmışdır, 2,5 mln. qaçqına isə BMT-nin fələstinli qaçqınlara kömək və işlərin təşkili üçün Yaxın Şərq agentliyinin mandatı şamil edilir; bundan əlavə ölkə daxilində yerini dəyişmiş 25 mln. adam hesabdadır.

Təkcə 2001-ci ildə, qəbul edilməsinin 50 ili tamam olanda dünyanın müxtəlif ölkələrində BMT QAKİ-si 21 milyondan çox insanı öz qayğısı altına almışdır.

1951-ci ildə qaçqınların əksəriyyətini avropalılar təşkil edirdi. Bu gün isə Asiya və Afrikadan olan qaçqınlar çoxluq təşkil edir. Əvvəlki illərdən fərqli olaraq, indiki qaçqın axını ayrı-ayrı insanların qaçqınlığı deyil, daha çox kütləvi gediş forması alır. Hal-hazırda qaçqınların 80 %-ni qadınlar və uşaqlar təşkil edir.

Avropa Birliyinin (AB) inkişafı prosesində ənənəvi olaraq qaçqınlar probleminə böyük diqqət ayrılırdı. 28 iyul 1951-ci ildə Qaçqın statusu haqqında Konvensiya qəbul edildikdən sonra burada onun müddəalarını inkişaf etdirən və tamamlayan bütöv sənədlər bloku formalaşmışdır. Yalnız bunların ən əsaslarını sadalayırıq. AB-nin sənədləri: Sığınacaq verilməsi haqqında AB üzvü olan ölkələrdən birində verilmiş ərizəyə baxılmasına məsuliyyət daşıyan ölkəni müəyyənləşdirən 1990-cı il Dublin Konvensiyası; İqtisadi ittifaq dövlətləri (Benilyuks, Almaniya Federativ Respublikası və Fransa Respublikası) arasında Ümumi sərhədlərdə tədricən nəzarətin götürülməsinə dair 14 iyun 1985-ci il Şengen razılaşmasının tətbiqi haqqında 1990-cı il Konvensiyası; sığınacaq verilməsi prosedurlarının minimal zəmanətləri haqqında AB Şurasının 20 iyun 1995-ci il Qətnaməsi; Qaçqın statusu barədə 28 iyul 1951-ci il Cenevrə Konvensiyasının 1-ci maddəsində ”qaçqın” termininin müəyyənləşdirilməsinin razılaşdırılmış tətbiqi üzrə AB haqqında Razılaşmanın 3-cü bəndinə əsasən Şuranın müəyyən etdiyi l4 mart 1996-cı il Müştərək pozisiyası (6,12).

1951-ci il Konvensiyası əsasən Avropada müharibədən sonra qaçqınlar problemini həll etmək üçün hazırlanmışdı və 1-ci maddənin “B” bölməsi dövlətlərə onun təsirini yalnız Avropa qaçqınlarına tətbiq etməklə məhdudlaşdırmağa imkan verirdi. “Qaçqın” məfhumunun təyini altına düşən insanların dairəsinin genişlənməsi qaşqın statusuna aid 1967-ci il Protokolunun qüvvəyə minməsindən sonra baş vermişdir. Həmin sənəd İqtisadi və Sosial Şura və BMT Baş Assambleyası tərəfindən nəzərə alınmışdır və bunu Baş katibə, 1951-ci il Konvensiyasına qoşulmuş dövlətlərə, BMT üzvü olan dövlətlərə və digərlərinə göndərmək həvalə edilmişdir.

Qaçqın statusu barədə 31 yanvar 1967-ci il Protokolunun əsas məqsədi qaçqın statusu haqqında coğrafi (“Avropada baş vermiş hadisələr”) və müvəqqəti (“1 yanvar 1951-ci ilə kimi baş vermiş hadisələr”) əlamətləri daxil edən 28 iyul 1951-ci il Konvensiyasının təsir dairəsinin məhdudlaşdırılmasını aradan qaldırmaq idi. Buraya 1951-ci il Konvensiyasının 2-34-cü maddələrini “yeni” qaçqınlara tətbiq etmək öhdəliyi daxildir. Bununla

yanaşı, Protokol 1951-ci il Konvensiyasına qoşularkən müvafiq bəyanat vermiş ölkələrə coğrafi məhdudiyyəti saxlamağa imkan verirdi (7).

1951-ci il Konvensiyası və 1967-ci il Protokolunun ratifikasiyası (təsdiq edilməsi) bilavasitə milli hüquqa təsir edir. Bəzi ölkələr resepsiya praktikasını tətbiq edir, yəni onlar yuxarıda adları çəkilən beynəlxalq aktları onları tətbiq etmək haqqında qanun qəbul etməklə dəyişikliksiz mənimsəyirlər. Məsələn, Belçika parlamenti 26 iyun 1953-cü ildə Konvensiyanı təqdir edən qanun qəbul etmişdir. Həmin prosedurlar AFR (1 sentyabr 1953-cü il Federal qanunu), Avstriya, Fransa, İsveçrədə də həyata keçirilmişdir. Ancaq ölkələr daha çox transformasiya üsulundan istifadə edirlər, yəni qaçqın statusunu tənzimləyən xüsusi qanun çıxarırlar. Avstriya, AFR və Fransada Konvensiyanın ratifikasiyasından bir qədər sonra insanların qaçqın statusu almaq səlahiyyətinin müəyyənləşdirilməsinin bütün praktik aspektlərini möhkəmləndirən xüsusi qanunlar qəbul edilmişdir. Bundan əlavə, ölkələr müvafiq inzibati prosedurlar da daxil edə bilərlər, belə prosedurlar, məsələn, 1993-cü ildə qaçqınlar haqqında xüsusi qanun qəbul edilənə kimi Böyük Britaniyada mövcud idi.

Ratifikasiya zamanı, 1951-ci il Konvensiyasına və 1967-ci il Protokoluna qoşularkən bəzi ölkələr qeydlər etmişlər: məsələn, daha çox əlverişli şərait yaratma rejimini yada salmağı qaçqınlara xüsusi və ya regional adətlər, iqtisadi və ya siyasi razılaşmalarda nəzərdə tutulmuş üstünlük kimi şərh etmək olmaz. Digər ölkələr ümumiyyətlə yalnız xaricilərə tətbiq edilən standartlarla təminatı vəd edərək daha çox əlverişli şərait yaratma rejimini birbaşa rədd etmişlər, bəziləri isə 17-ci maddəni tövsiyə kimi qəbul edir və ya bunu qanunda yol verildiyi kimi tətbiq etməyə razılaşırlar. Bir sıra dövlətlər ən geniş spektrli məsələlərdə milli rejimin qaçqınlara tətbiq edilməməsi haqqında qeydlər etmişlər, buna dini etiqad və dini təhsil, müəllif hüququ və sənaye sahibkarlığı hüququ, məhkəməyə müraciət, pulsuz hüquqi kömək və məhkəmə xərclərini ödəməkdən (girov) azad edilmə hüququ, imtiyazlar sistemindən istifadə və s. daxildir. Qeyd etmək lazımdır ki, bəzi qeydlərin əsaslandırılması “şübhəlidir”.

MDB ölkələri, ya Konvensiya və qanunun paralel qəbulunu, ya da 1951-ci il Konvensiyasının sonradan ratifikasiyalaşdırılması yolu ilə milli qanunun qəbul edilməsi praktikasını mənimsəmişlər. Azərbaycan Respublikası həmin sənədlərə 1992-ci ilin sonlarında, RF isə 1993-cü ildə qoşulmuşdur.

MDB dövlətləri tərəfindən qaçqınlar probleminin hüquqi tənzimlənməsi iki istiqamətdə aparılır: məsələnin həllinin beynəlxalq hüquqi əsaslarının formalaşdırılması yolu ilə və qaçqın statusunu tənzimləyən milli qanunvericiliyi yaratmaq yolu ilə. Bu proses qarşılıqlı şərtləndirilmiş xarakter daşıyır, çünki mövcud beynəlxalq hüquqi sənədlərə qoşulma, regional xarakterli müvafiq sənədlərin qəbul edilməsi bilavasitə problemin dövlətdaxili tənzimlənmə xarakterinə təsir göstərir (9).

Ümumiyyətlə, bu ölkələrdə nəzarət edilməyən miqrasiya problemi təhlükəli xarakter almışdır, kriminogen vəziyyət artdığına görə onların təhlükəsizliyinə də ziyan dəyir.

İri geosiyasi dəyişikliklər, sosial-iqtisadi böhran, yerli olmayan millətlərin hüquqlarının pozulması və etnik münaqişələr kütləvi miqrasiya axınına səbəb olmuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi daha çox qaçqın axınına səbəb olmuşdur.

Keçmiş SSRİ ərazisində qaçqınların və yerini dəyişmiş insanların problemləri BMT QAKİ və BMT-nin digər müəssisələrini beynəlxalq humanitar təşkilatlarla birlikdə postsovet məkanında öz fəaliyyətini müqavilələr əsasında başlamağa vadar etmişdir (8). 1991-1992-ci illərdə BMT QAKİ Moskvada və bir neçə MDB ölkəsində öz iştirakını təmin etmiş və qaçqınlarla bağlı problemlərin həlli ilə məşğul olmuşdur. Azərbaycanda on minlərlə köçkünə humanitar yardım göstərir və onları müdafiə edir, təhlükəsizlik və etibarlılıq şəraitində repatriasiyaya kömək etməyə çalışır.

Nəzərdən keçirilən problemin beynəlxalq hüquqi tənzimlənməsində irəliləyiş 24 sentyabr 1993-cü ildə Moskva şəhərində Ukrayna və Moldovadan başqa, digər MDB ölkələri başçıları tərəfindən imzalanmış “Qaçqın və məcburi köçkünlərə yardım haqqında” Razılaşmadır. İştirakçı dövlətlər (RF, Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan Respublikaları) Razılaşmanın preambulasında hamının qəbul etdiyi beynəlxalq hüquq və humanizm prinsiplərinə sədaqətlərini, çətinlik və məhrumiyyətlərə düçar olmuş insanların taleyinə görə məsuliyyətlərini elan edir, beynəlxalq razılaşmalara uyğun olaraq qəbul edilmiş və insan hüquqlarının müdafiəsinə yönəldilmiş öhdəliklərini təsdiq edir və qaçqın və məcburi köçkünlərə köməyin zəruriliyini etiraf edirlər (10,11). Razılaşma qaçqınlar haqqında 1951-ci il Konvensiyasını “qaçqın” anlayışına verilən yeni meyarla – “silahlı və millətlərarası münaqişələrin qurbanları” ifadəsi ilə tamamlanmış və beynəlxalq hüquqi terminologiyaya yeni miqrantlar kateqoriyasını - “məcburi köçkünlər”- daxil etmişdir, bu, qaçqınlardan yalnız vətəndaşlıq meyarı ilə fərqlənir. Bu meyarların bir-birinə uyğun gəlməsi onlar üçün eyni hüquqi rejim müəyyən edilməsini şərtləndirmişdir.

Azərbaycan öz müstəqilliyini bərpa etməklə beynəlxalq münasibətlər və beynəlxalq hüquq subyekti olmuşdur. Əksər ölkələr kimi, Azərbaycan da miqrasiya prosesinə cəlb edilmişdir. Sovet dövründə əmək, nikah və təhsil miqrasiyası kimi klassifikasiya edilən miqrasiyadan fərqli olaraq, hazırki miqrasiya yeni “qaçqın” əlavəsi olan “məcburi” anlayışı ilə də tamamlanır.

1980-ci illərin sonu – 1990-cı illərdə Ermənistanın başladığı millətlərarası münaqişə və etnik təmizləmə nəticəsində Azərbaycana miqrasiya axını gözlənilməz dərəcədə genişləndi. Azərbaycanlıların Ermənistandan kütləvi axını, onların Azərbaycanda yerləşdirilməsi respublikanın sosial-iqtisadi və siyasi vəziyyətinə mənfi təsir göstərdi. Bu miqrasiya prosesinin tənzimlənməsi və idarə olunması məqsədilə suveren Azərbaycan Respub-

likası Qaçqın və Məcburi köçkün statusu haqqında qanun qəbul etmək məcburiyyəti qarşısında qalmış oldu. Bu qanun 29 sentyabr 1992-ci ildə qəbul edilmiş və 30 sentyabr 1992-ci ildən qüvvəyə minmişdir. Həmçinin, Qaçqınların və Məçburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında Azərbaycan Respublikasının 21 may 1999-cu il qanununda bir çox məsələlər açıqlanır.

Bu qanun beynəlxalq normalara müvafiq olaraq qaçqın və məcburi köçkün statusunu və Azərbaycan Respublikası ərazisində onun həyata keçirilməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. Həmin Qanunun 1-ci maddəsində "qaçqın" və "məcburi köçkün" anlayışları izah edilir.

Azərbaycan Respublikası ərazisində "qaçqın" Azərbaycan Respublikasının vətəndaşı olmayan, yaşadığı dövlətin müdafiəsindən istifadə edə bilmədiyi və ya milli, irqi və vətəndaşlıq əlamətlərinə, etiqadına, dilinə görə, həmçinin siyasi görüşləri, müəyyən sosial qrupa mənsubluğuna görə təqib olunmaq təhlükəsi olduğu üçün, ailəsi, həyatı və əmlakı real təhlükə altında olduğuna görə bu müdafiədən istifadə etmək istəmədiyi üçün daimi yaşadığı ölkənin hüdudlarından kənarda olan şəxslər hesab edilir.

Azərbaycan Respublikası ərazisində "məcburi köçkün" Azərbaycan Respublikası ərazisində daimi yaşayış yerini tərk etmək məcburiyyətində qalaraq başqa yerə köçmüş şəxslər, və ya başqa ölkədə daimi yaşayış yerini tərk etməyə məcbur olmuş Azərbaycan Respublikasına gəlmiş Azərbaycan Respublikasının vətəndaşları hesab edilir (13).

Azərbaycan Respublikasının "İmmiqrasiya" haqqında qanunu 1999-cu ildə qəbul edilmişdir. 1990-cı illərdə immiqrantların böyük hissəsini etnik azərbaycanlılar (Ermənistandan gəlmiş qaçqın və məcburi köçkünlər, Gürcüstanın azərbaycanlı əhalisinin bir hissəsi, Özbəkistandan gəlmiş məhsəti türkləri və azərbaycanlılar, keçmiş Sovet İttifaqının digər respublikalarından tarixi vətənlərinə qayıtmaq istəyənlər) təşkil edirdi ki, bu da adaptasiya prosesini xeyli asanlaşdırırdı. İmmiqrasiya prosesinin mühüm xüsusiyyəti ondan ibarət idi ki, bunun əsas səbəbi Azərbaycanın miqrasiya cəlbediciliyi deyil, SSRİ-nin etnoslararası və millətlərarası münaqişələr şəraitində dağılması idi.

Bu məsələləri tənzimləyən hüquqi-normativ baza təkmilləşdirilməlidir. Eyni zamanda, bir ölkədəki immiqrasiya prosesinin xarakterini dünya tendensiyalarının tərkib hissəsi kimi nəzərə almaqla Azərbaycan Respublikası qanunlarının miqrasiya proseslərini tənzimləyən beynəlxalq konvensiyalara uyğun olması xüsusi zərurət təşkil edir. Söhbət xüsusən "Mülki və siyasi hüquqlar haqqında beynəlxalq konvensiya" (1966), "İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq konvensiya" (1966), "Miqrantlar və onların ailə üzvlərinin hüquqları haqqında konvensiya" (1990) və Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsindən gedir.

AB və Azərbaycan arasında Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Saziş (TƏS) 22 aprel 1996-cı ildə imzalanmışdır, Azərbaycan tərəfindən 8

oktyabr 1996-cı ildə təsdiq edilmiş və 1 iyul 1999-cu ildə qüvvəyə minmişdir. AB Gürcüstan və Ermənistan da daxil olmaqla keçmiş İttifaqın demək olar ki, bütün ölkələri ilə TƏS bağlamışdır. Bu müqavilə siyasət, ticarət və investisiyalar sahəsində ikitərəfli dialoq üçün bir növ platforma, həmçinin uğurlu regional inkişaf üçün şərait yaratmışdır. Müqavilədə nəzərdə tutulmuş siyasi və iqtisadi əməkdaşlığın əsas məqsədi AB və Cənubi Qafqaz ölkələri arasında mehriban qonşuluq münasibətlərinin yaradılması və möhkəmləndirilməsidir. 17 yanvar 2004-cü ildə TƏS dəstək layihəsi bağlanmışdır; bu layihə ölkəmizə texniki kömək göstərmək yolu ilə razılaşmanı həyata keçirmək məqsədi güdür. Azərbaycan Respublikasında miqrasiyaya dair bir sıra Qanunlar qəbul edilmişdir.

Miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, idarəetmə sisteminin inkişaf etdirilməsi, miqrasiya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə Dövlət Miqrasiya Xidmətinin (DMX) yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin 19 mart 2007-ci il fərmanı və Azərbaycan Respublikasının DMX haqqında Əsasnamədən irəli gələn müddəalar, həmçinin "Miqrasiya proseslərinin idarə olunmasında "bur pəncərə" prinsipinin tətbiqi ilə əlaqədar 20 iyul 2009-cu il Azərbaycan Respublikası Prezidentinin fərmanı və 30 iyun 2009-cu il Qanunu ilə tənzimlənir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Международные акты о правах человека. М., 1998. С. 405.
2. Юридический справочник мигранта. М., 2002. С. 125.
3. Права человека: Сборник международных документов. М., 1998. С. 14, 31.
4. Подробный анализ указанных компонентов //bax: Гудвин-Гилл Г.С.Статус беженца в международном праве. М., 1997.
5. Потапов В.И. Статус беженца в международном праве. М., 1986.с.10.
6. Конвенция о статусе беженцев (заключена г. Женеве 28.07.1951) //Бюллетень международных договоров. 1993. № 9. С. 6 – 28.
7. Протокол, касающийся статуса беженцев (подписан в г. Нью-Йорке 31.01.1967 г.) //Бюллетень международных договоров. 1993. № 9. С.28 – 31.
8. 8.Подробные сведения об этих критериях содержатся в издании УВКБ ООН «Положение беженцев в мире» 1997 года издания.
9. Беженцы: динамика перемещений. М., 1987
10. Крылова Н.С. Содружество наций. Политико-правовые проблемы. М., 1991. С. 15.
11. Соглашение о помощи беженцам и вынужденным переселенцам (Москва, 24 сентября 1993 года). Соглашение ратифицировано Российской Федерацией Федеральным законом от 22 ноября 1994 г. № 40-ФЗ //Бюллетень международных договоров. 1995. № 5. С. 3.
12. Европейский союз: факты и комментарии. М., 2003. Вып. 33–34.
13. http://www.eiropaskustiba.lv/ru/azerbaijan

# AZƏRBAYCAN DİASPORU

*G.T.NOVRUZOVA*

Postsovet etnik parçalanmaları prosesi yeni müstəqil dövlətlərin həll etməli olduğu siyasi, sosial, demoqrafik problemlərin bütöv bir kompleksini yaratdı. Gənc dövlətlər hüquqi müstəvidə millətlərarası münasibətlər problemləri ilə üz-üzə qaldılar. Milyonlarla keçmiş sovet vətəndaşı Vətəninə qayıtmaq və ya yaşadığı ölkədə qalmaq seçimi qarşısında qaldı. Titullu xalqların nümayəndələri milli azlıqlar statusu alaraq diasporlarda birləşdilər.

SSRİ dağılan anda öz tarixi Vətəninin hüdudlarından kənarda, qeyri millətlərin əhatəsində olan insanlar üçün əhalinin əsas hissəsini təşkil edən xalqın mədəniyyətini və dilini qəbul etmək seçimindən başqa, həm də yeni yaşayış yerində öz milli özünəməxsusluğunu, mədəniyyətini və dilini qoruyub saxlamaq məsələsi gündəmdə dururdu.

«Diaspora» fenomeni sovet tarixçiləri üçün xüsusi tədqiqat obyekti olmamışdır. Çoxmillətli böyük dövlət olan və özünün dövlət quruluşu formasında milli dövlət və inzibati ərazi elementlərini birləşdirən Sovet İttifaqında milli məsələ deyilən məsələ «yox idi». Sovet İttifaqında insanların yeni tarixi birliyi – sovet xalqı «yaranmışdı». Millətlərin öz müqəddəratını təyin etməsi hüququ haqqında Lenin nəzəriyyəsi ilə «silahlanmış» Sovet hökuməti üçün «etnik» kateqoriya ikinci dərəcəli əhəmiyyətə malik idi və əsas xalqın yaşadığı əraziyə həmişəlik bağlı idi. Başqa sözlə, məsələn, azərbaycanlıların milli problemləri ancaq Azərbaycan SSR-nin hüdudlarında mövcud ola bilərdi.

Azərbaycan diasporunun təşkilati cəhətdən təşəkkül tapması Azərbaycan Respublikasının müstəqilliyinin bərpası, daha dəqiq desək, Heydər Əliyevin hakimiyyətə qayıdışından başlanır. H.Əliyev Azərbaycan millətinin vahidliyinin ideoloji əsaslarını işləyib hazırlamışdı. Dünya azərbaycanlılarının I qurultayında Ümummilli lider H.Əliyev qeyd edirdi: «Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir. Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan diasporu son illər təşkilatlanır və Azərbaycan icmaları, diasporu yaşadıqları ölkədə,

ümumiyyətlə, beynəlxalq aləmdə artıq özlərini göstərirlər. Amma bu, bizim diasporun formalaşmasının ilkin mərhələsidir. Hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər. O ölkənin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də müxtəlif ölkələrdə də Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır» (2, s.21-24).

Azərbaycanda demoqrafik tədqiqatların həyata keçirilməsi dövlət tərəfindən stimullaşdırılır. Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 1999-cu il tarixli fərmanı ilə «Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası» təsdiq edilmişdir. Həmin «Konsepsiya» əhalinin kəmiyyət və keyfiyyət tərkibinin yaxşılaşdırmasına yönəldilən dövlət siyasətinin məqsədli prioritetlərini müəyyənləşdirir, əhalinin sosial müdafiəsini və sağlamlığının qorunmasını gücləndirir, xarici miqrasiya proseslərini qaydaya salır. «Konsepsiya»da demoqrafiya sahəsində milli prioritetlər demoqrafiya ilə bağlı elmi tədqiqatların genişləndirilməsi, təhsil müəssisələrində demoqrafiya kursunun tədrisi, əhalinin bu sahəyə dair biliklərinin artırılması məsələləri kimi qeyd olunmuşdur (3).

Diasporologiya yeni tarixi fənnlərinldən biridir. Fikrimizcə müasir Azərbaycan diasporologiyasının qarşısında aşağıdakı vəzifələr durur:
- xaricdə yaşayan azərbaycanlıların coğrafi məskunlaşmasının və demoqrafik göstəricilərin öyrənilməsi;
- Azərbaycan diasporunun təşəkkül tapmasının və inkişafının tədqiqi;
- diasporun Azərbaycanla və azərbaycanlıların yaşadıqları ölkələrdə əlaqələrinin möhkəmləndirilməsindəki rolunun araşdırılması;
- bu ölkələrin ictimai-siyasi həyatında azərbaycanlıların iştirakını müəyyənləşdirilməsi;
- Azərbaycan diasporunun tarixi Vətəni ilə əlaqələrinin gücləndirilməsinin öyrənilməsi;
- xaricdəki Azərbaycan lobbisinin siyasi viə iqtisadi potensialının və ondan istifadə imkanlarının müəyyən edilməsi və s.

## АЗЕРБАЙДЖАНСКАЯ ДИАСПОРА

Масштабы современных трансграничных миграций, их условия, изменения правового положения мигрантов по-новому поставили задачу перед обществом – роль миграций в формировании этнических диаспор.

Дело в том, что термин этническая диаспора в последние годы стал чрезвычайно популярен, причем сфера его настолько широка, что возникают сомнения по поводу правомерности его использования в

качестве научного понятия.

Так что же такое «диаспора»?

Нигде в мире нет правового определения диаспоры. Политологических определений несколько. Есть определение, содержащееся в энциклопедиях, словарях. Но оно полностью совпадает с определением этнической группы (4).

Долгое время под диаспорой понимались классические еврейская, армянская, греческая диаспоры, которые представляли собой нечто уникальное. Но постепенно положение менялось, рассеяние становилось все более частым явлением, и возникал вопрос, что следует, а что не следует называть диаспорой.

Так, данный термин применяют также и как синоним национального меньшинства или эмиграции, в качестве определения диаспоры как некоторой структуры, даже организации, образованной в результате свободного выбора ее членов. Современная диаспора становится временным прибежищем для человека, оказавшегося в непривычной для него социо-культурной среде, адаптация и укоренения в которой на какое-то время выходит на первый план.

«Диаспора» применительно к постсоветскому пространству является этническим сообществом. Размещение представителей титульных наций бывшего СССР на территории какой-либо одной из пятнадцати союзных республик не вызвано насильственным выселением, угрозой геноцида или действием каких-то отдельных социально-исторических факторов.

Процесс развития азербайджанской диаспоры на новом политическом пространстве поставил перед Азербайджанской Республикой вопросы решения отношений «Диаспора-Родина» и «Родина-Диаспора».

Формирование азербайджанской диаспоры берет начало с момента восстановления независимости Азербайджанской Республики, а точнее с возвращения Г.А.Алиева к государственной власти.

Московский аналитик, заведующий отделом межнациональных отношений Института военного и политического анализа С.Маркедонов в статье «Начало пути» отмечает, что «Одним из основных политических лозунгов нового государства стал «Азербайджан - родина всех азербайджанцев». В 1991 г. по инициативе Г.Алиева (на тот момент главы Парламента Нахичеванской автономии в составе Азербайджана) день 31 декабря был объявлен Днем солидарности азербайджанцев всего мира. Впоследствии, став президентом Азербайджана, Г.Алиев обозначил проблему консолидации диаспоры как одну из приоритетных государственных задач. 24 декабря 1998 г. президент Азербайджана Г.Алиев выступил с Обращением «Ко всем азербайджанцам мира». В нем прозвучал тезис о необходимости сделать «необратимой» азербайджанскую независимость» (5).

Г.А.Алиевым было выработано идеологическое обоснование единства азербайджанской нации. На I Съезде азербайджанцев мира общенациональный лидер отмечал: «После обретения Азербайджаном государственной независимости азербайджанство, как ведущая идея, стала основной идеей для азербайджанцев, живущих как в Азербайджане, так и во всем мире. Мы должны сплотиться вокруг этой идеи. Азербайджанство означает сохранение своей национальной принадлежности, сохранение национально-духовных ценностей и вместе с тем обогащение их синтезом, интеграцией с общечеловеческими ценностями, а также обеспечение развития каждого человека…. С удовлетворением хочу отметить, что азербайджанская диаспора в последние годы стала более организованной, и азербайджанские общины, диаспора уже проявляют себя в своих странах и в целом в международном сообществе. Однако это лишь первый этап формирования нашей диаспоры. Все: и вы, и мы должны еще многое сделать для создания мощной азербайджанской диаспоры, чтобы азербайджанцы, живущие в различных странах, стали сильнее. Стали экономически крепче с тем, чтобы могли принять активное участие в общественно-политической жизни своих стран. Чтобы могли оказать воздействие на жизнь этих стран. Чтобы, таким образом, наряду с пропагандой в различных странах независимости Азербайджана, его внешней политики оказали содействие решению проблем Азербайджана. Думаю, что азербайджанцы мира должны идти по этому пути, на этом пути еще много неиспользованных возможностей. ... для каждого человека национальная принадлежность является источником гордости. Я всегда гордился и сегодня горжусь тем, что я азербайджанец…

Равно как независимый Азербайджан является молодым государством, молоды и солидарность Азербайджана, и единство азербайджанцев мира, и азербайджанские общины в различных странах. Однако сегодня мы вступили в новый этап. Мы формируемся, наша независимость крепнет, организация азербайджанцев, живущих в зарубежных странах, происходит значительно быстрее, и все мы вместе будем развивать азербайджанство, мы сделаем его постоянным, вечным» (6, с. 21-24).

Указом Президента Азербайджанской Республики от 5 мая 2002 года был создан Государственный Комитет по работе с азербайджанцами, проживающими за рубежом. Был принят «Закон Азербайджанской Республики о государственной политике, связанной с азербайджанцами, проживающими за рубежом». Закон, подписанный 27 декабря 2002 года, устанавливает цель и принципы государственной политики Азербайджана с соотечественниками, основы деятельности государственных органов, связанной с осуществлением данной политики.

Данный закон направлен на: содействие созданию условий для

нормальной жизнедеятельности соотечественников, их добровольной интеграции в политическую, социальную, культурную и экономическую жизнь стран проживания при сохранении собственной самобытности и всесторонних связей с исторической Родиной – Азербайджаном; сохранение культурно и интеллектуального потенциала азербайджанской диаспоры; оказание поддержки самоорганизации соотечественников, формирование организованной структурированной азербайджанской диаспоры и т.д.

В отношениях азербайджанского государства с диаспорой приоритет составляют указания общенационального лидера Г.Алиева, сказанные на I съезде азербайджанцев мира: «…независимо от места проживания, тяжести и трудности положения каждый должен думать о своей родине. Это независимый Азербайджан. Значит, независимо от того, где ты находишься, в какой стране проживаешь, ты всегда должен думать об Азербайджане, независимости Азербайджана, территориальной целостности, настоящем и будущем азербайджанского народа».

Формирование и становление азербайджанской диаспоры, союзы с турецкой и еврейской лоббистской организациями стали предметом изучения, созданного в 2001 году армянского фонда НОФ «Нораванк». Сотрудник «Нораванк» А.Наапетян в своей статье «Процесс становления азербайджанского лоббинга: общие данные» прослеживает стратегическую линию работы Государственного Комитета АР по работе с азербайджанцами, проживающими за рубежом, направленную на стратегию совместных работ азербайджано-турецких лоббистских организаций. Он пишет: «Два обстоятельства сыграли роль некоего «катализатора» и ускорили процесс формирования азербайджанской «диаспоры»: прежде всего, зарубежные азербайджанские союзы начали работать с уже существующими турецкими лоббистскими организациями. Особенно в фазе становления структуры это существенным образом помогло азербайджанской стороне в решении организационных, юридических вопросов, создании связей и, конечно же, усилило потенциал азербайджанских структур и расширило антиармянский фронт…».

Далее армянский оппонент сам отмечает, что: «Организация азербайджанских общин является элементом доктрины национальной безопасности Азербайджанской Республики, однозначно свидетельствует, что Азербайджан продолжит целенаправленную работу и добьется перманентного прогресса в этом направлении. В этом аспекте противостояние между армянской диаспорой и азеро-турецкими общинами и их целенаправленная антиармянская деятельность в ближайшие годы станет одним из вызовов, стоящих перед РА» (7).

Если во главе идеи Азербайджанства стоит идея «Азербайджанцы мира = Азербайджанцы, проживающие на исторической Родине + Азербайджанцы, проживающие за рубежом», то у армянских поли-

тиков главной актуальной задачей является формирование эффективных механизмов отношений «церковь-государство-общество». На развитие этих механизмов брошены интеллектуальные силы как внутри самой Армении, так и армянской диаспоры.

В статье «Динамика распространения азербайджанского лобби» все тот же А.Наапетян пишет: «Очевидно, что в направлении организации зарубежных общин Баку сегодня работает более целеенаправленно, нежели Ереван. Хронологическая «давность» армянской диаспоры, деятельность традиционных партий, в частности АРФД, и количественное превосходство армянских общин в некоторых странах (США, Франция, Ливан, Сирия, Уругвай, Аргентина и т.д.), пока что обеспечивают некую «победу» армянской диаспоры над азербайджано-турецкими общинами. С другой стороны, нужно учитывать, что в ряде стран (Бельгия, Голландия, Швеция, Германия) общая численность азербайджано-турецкого населения многократно превышает количество армян. В РФ и Украине существуют огромные азербайджанские общины, и их самоорганизация, вкупе с совместной с Баку деятельностью, с годами может стать серьезнейшим фактором. В последние годы Баку проводит четкую работу по укреплению сотрудничества с еврейскими лоббистскими структурами… Создается впечатление, что власти Баку поставили цель использовать возможности азербайджанских евреев в своих планах по налаживанию тесных связей с еврейским лобби. Отношения между Азербайджаном и Израилем важны и могут стать предметом отдельного исследования».

Итак, мы видим, что набирающая силу азербайджанская диаспора стала решающим фактором во внешней политике Азербайджанской Республики. Это подтверждают и армянские оппоненты, создавшие специальные структуры стратегического исследования, изучающие проблемы развития азербайджанской диаспоры на пространстве СНГ, Ближнего и Дальнего Зарубежья… «Для армянской стороны весьма целесообразно, как минимум, исследовать азербайджанскую и турецкую диаспоры, иметь четкие представления о потенциале и программе этих структур, по мере возможностей разработать определенную стратегию противодействия» (8).

Азербайджанская диаспора проходит этап становления. Она складывается в результате осмысленного объединения азербайджанцев в организационные структуры (землячества, общины, общества, национально-культурные объединения), с целью сохранения национально-культурной самобытности, языка, духовного наследия своего народа. И, если ранее этнические объединения азербайджанцев возникали стихийно, то с провозглашением независимости Азербайджана организация диаспоры берется под эгиду государства.

В 9-11 ноября 2001 года в г.Баку был проведен I съезд азербайджанцев мира. II съезд азербайджанцев мира был проведен в марте 2006 года. На этих форумах были приняты программные документы, избран координационный совет, приняты обращения к азербайджанцам мира, к мировой общественности, международным организациям, главам государств и парламентариям в связи армяно-азербайджанским, Нагорно-Гарабахским конфликтом.

Азербайджанская диаспора широко была представлена на I и II съездах азербайджанцев мира. Так, на I съезде самой многочисленной и представительной была делегация азербайджанцев России - 200 человек. В состав делегации из стран Европы входило 79 человек. Наиболее многочисленной европейской делегацией была делегация из Германии - 17 человек. США и Канада была представлена пятнадцатью, Австралия - тремя делегатами.

18 декабря 2008 года была принята «Хартия солидарности азербайджанцев мира».

Хартия солидарности азербайджанцев мира опирается на Конституцию Азербайджана, Закон «О государственной политике, связанной с проживающими за рубежом азербайджанцами», Всеобщую Декларацию прав человека ООН, Европейскую конвенцию «О защите прав и основных свобод человека», Конвенцию ООН «О ликвидации всех форм расовой дискриминации», Рамочную конвенцию Совета Европы «О защите национальных меньшинств», «Концепцию национальной безопасности», утвержденной Президентом И.Алиевым, другие отечественные и международные правовые акты по защите и развитию прав и основных свобод человека, этнокультурного разнообразия, национальных ценностей. Хартия солидарности азербайджанцев мира является идеологической концепцией, которая преследует цель обеспечить активное участие азербайджанцев мира в защите национальных интересов азербайджанского народа и государства, использует решимость и волю живущих в зарубежных странах азербайджанцев к сплочению вокруг единой идеи во имя интересов исторической родины, устанавливает идеологические, социально-философские, политические и нравственные аспекты этой сплоченности, сочетает в себе светские и гуманитарные ценности, диалог восточной и западной культур, тенденции тюркизма и европеизма.

Целями Хартии также являются повышение общественно-политической активности азербайджанцев, решение проблем, возникающих в процессе интеграции в общество, сохранение национально-духовных ценностей и определение методологии их пропаганды. Данный документ регулирует достижение более тесной сплоченности проживающих в зарубежных странах азербайджанцев вокруг национальных интересов азербайджанской государственности и исторической роди-

ны, расширение возможностей сотрудничества нашей диаспоры с диаспорами других народов, подготовку реальной почвы для формирования сильного азербайджанского лобби.

## Расселение Азербайджанцев на пространстве СНГ

**Азербайджанская диаспора Казахстана.** После обретения независимости в странах СНГ впервые были проведены национальные переписи в соответствии с рекомендациями ООН. Одним из пионеров переписного процесса на постсоветском пространстве стал Казахстан, где первая самостоятельная национальная перепись населения была успешно проведена в период с 25 февраля по 4 марта 1999 года.

Основную этническую картину Казахстана по переписям 1979, 1989, 1999 годов составляют 10 крупных этносов – казахи, русские, украинцы, узбеки, немцы, татары, уйгуры, белорусы, корейцы и азербайджанцы.

Согласно переписи населения 1999 г. в Республике Казахстан проживало 78.295 азербайджанцев. Основная их часть расселена на юге страны - в Южно-Казахстанской (24.732), Алматинской (16.073), Жамбылской (10.595) областях. В г. Алматы в 1999 г. насчитывалось 6.529 азербайджанцев (9).

Численность азербайджанского населения в Республике Казахстан, благоприятные условия, созданные администрацией республики для развития национальных автономий позволило азербайджанцам объединиться в диаспорные организации, издавать свои газеты, отмечать национальные праздники Азербайджана, открывать воскресные школы и т.д.

В июне 1997 года в Республике Казахстан с официальным визитом побывал общенациональный лидер азербайджанского народа Гейдар Алиев. На встрече с представителями азербайджанской диаспоры он отмечал, что «…доволен отношением к азербайджанцам. Большинство из них говорит на казахском языке. Это говорит о том, что азербайджанцы смешались с местным населением, являются полноправными гражданами Казахстана. Считаю, что Вы будете достойными гражданами Республики Казахстан, будете служить Казахской государственности, азербайджанской диаспоре в Казахстане» (1).

В Казахстане, проживают 130 национальностей – 35 из них ассоциированы в соответствии с Законом Республики Казахстан «Об общественных объединениях» в 365 национально-культурных объединений. 31 национальное объединение - члены Ассамблеи народов Казахстана и Совета АНК.

В Республике Казахстан действуют азербайджанские диаспорные организации.

29 мая 1992 года учрежден в г.Алматы и зарегистрирован в Министерстве юстиции Республики Казахстан Азербайджанский Культурный Центр (АКЦ) «Туран». В 2000 году Азербайджанский культурный центр «Туран» решением общего собрания Алматинского общества азербайджанцев «Озан», «Ташкентского азербайджанского, культурного центра» и «Бишкекского азербайджанского культурного центра» был преобразован в Конгресс «Туран».

Конгресс азербайджанцев «Туран» принимает активное участие в общественно-культурной жизни Республики Казахстан. Учащиеся воскресной школы не раз становились призерами ежегодных конкурсов на лучшую воскресную школу. Кроме казахстанских праздников, АКЦ ежегодно торжественно отмечает 28 мая - День возрождения Азербайджана, День памяти жертв 20 января, праздник весны - «Новруз», 31 декабря - День солидарности азербайджанцев всего мира.

Азербайджанский национально-культурный центр «Ватан» создан 22 марта 1993 года по инициативе почтенных азербайджанцев города и области. В этот день на учредительной конференции с участием 116 азербайджанцев был принят устав центра, утверждена структура центра: совет старейшин, в который вошли самые уважаемые аксакалы диаспоры и избрано правление центра. В феврале 2001 года образовано молодежное объединение центра. Центр возглавляет Почетный гражданин города Павлодара Махмудов Джафар Джафарович.

Азербайджанская община Костанайской области зарегистрирована 22 сентября 1995 года. В настоящее время общину возглавляет Иманов Гумбат Бахадурович. Община определила свои цели и задачи - содействие возрождению и сохранению азербайджанского языка, культуры, традиций, обычаев и ремесел азербайджанского народа, оказание правовой и социальной помощи ветеранам, инвалидам и другим нуждающимся членам общины, содействие укреплению мира и дружбы между народами (10).

Непосредственное участие члены общины, творческий коллектив музыкантов азербайджанской диаспоры принимают в мероприятиях, проводимых областной Ассамблеей народов Казахстана, национально-культурными центрами и общинами области.

В Алматы Азербайджанский городской культурный центр «Озан» был образован 1996 году. Председателем является И.Я.Кулиев, кандидат биологических наук, заместителем - Н.Г.Мамедов, заслуженный геологоразведчик Казахской ССР.

Имя Н.Г.Мамедова занесено в «Золотую книгу Почета» Республики Казахстан.

При обществе функционирует азербайджанская воскресная школа, расположенная в Доме дружбы. Школа способствует изучению родного азербайджанского и государственного казахского языков,

народных традиций, обычаев, обрядов, фольклора, литературы и истории двух государств – Азербайджана и Казахстана.

Азербайджанский областной культурный центр «Гобустан» создан 29 мая 1998 года. Эта общественная организация, объединяющая на добровольных началах азербайджанцев, проживающих на территории Алматинской области, заинтересованных в сохранении и развитии обычаев, родного языка, культуры и истории своего народа.

В Астане функционирует Азербайджанское Общественное Объединение «Хазар», которое было официально зарегистрировано в 2000 году. Возглавляет его Адаев Видади Умуд оглы. В том же году начала свою работу воскресная азербайджанская школа, в которой учится около 50 учеников. Они занимаются изучением азербайджанского языка, музыки, истории. С 2007 года школа перешла на государственное обеспечение.

Региональный азербайджанский НКЦ «Нахичеван» действует в Талдыкорганском регионе Казахстана. Азербайджанский центр «Нахичеван» был зарегистрирован в поселке Балпыкби Коксуского района в ноябре 2002 года. Председателем НКЦ «Нахичеван» является Фахреддин Магеррамов.

Региональный азербайджанский НКЦ «Нахичеван» стал инициатором и одним из организаторов «круглого стола», обсуждавшего вопросы консолидирующей роли казахского языка для построения единого казахстанского общества, с участием всех НКЦ области в августе 2006 г. в Коксуском районе.

В марте 2001 года делегация азербайджанцев из Казахстана участвовала в форуме Общественных объединений азербайджанцев (г.Москва), проживающих в СНГ и Балтии, на I (ноябрь, 2001 г.) и II (март,2008 г.) съездах азербайджанцев мира в г.Баку. Президент Конгресса «Туран» М.Новрузов вошел в состав Координационного Совета Азербайджанцев мира. На I съезде Республику Казахстан в Баку представляли десять человек. Это – Назир Мамедов- вице-президент Конгресса; Гахраман Баширов - член президиума Конгресса, бизнесмен; Исмаил Гулиев- к.б.н., член Ассамблеи народов Казахстана; Татьяна Убуби – ответственный секретарь Алматинского государственного университета, член президиума Конгресса, председатель женского комитета; Адалет Аллахвердиев- член президиума Конгресса, председатель НКЦ Восточного Казахстана, бизнесмен; Али Наджафов - председатель Джамбульского НКЦ, директор оздоровительного лагеря «Балауса»; Ислам Гурбанов – председатель НКЦ Южного Казахстана, бизнесмен. Награжден орденом «Народов Мира»; Джафар Махмудов - член Ассамблеи народов Казахстана, Почетный гражданин города Павлодар, I заместитель начальника трамвайного управления ( 11).

С 2003 года Конгресс азербайджанцев Казахстана «Туран» возглавляет Абульфаз Хасмедов.

Длительное проживание азербайджанцев в Казахстане показало их трудолюбивый и миролюбивый характер. Они трудятся во всех сферах жизни республики. Среди активистов азербайджанской диаспоры нужно отметить Рубабу Гаджиеву –ответственного секретаря Конгресса «Туран», Асли Осман –к.ф.н, члена Ассамблеи народов Казахстана, председателя национально-культурного центра (НКЦ) г.Алматы, член президиума Конгресса «Туран», делегата I съезда азербайджанцев мира.

Особым уважением среди азербайджанской диаспоры пользуются те труженики, которые используют многие годы свои силы и знания для процветания Казахстана. В развитие науки и культуры, например, внесли свой вклад Т. Кулиев - доктор сельскохозяйственных наук, И.Кулиев- кандидат биологических наук, К.Алиев и Ж.Мамедова - юристы, В.Рахманов - скульптор, И.Амирахов - певец, А.Алазова- хореограф, Л.Кулиев - музыковед, М.Новрузов - культоролог. Среди азербайджанцев много хороших врачей - отец и сын Шакаралиевы, М.Алиев, А. Мамедов и другие.

Г.Мамедов - почетный разведчик недр СССР и Республики Казахстан, заслуженный геолог-разведчик Казахстана, занесен в Золотую книгу Почета Республики и награжден Почетной грамотой Президиума Верховного Совета Казахской ССР.

Видади Кара оглы Салахов - первый гражданин Казахстана, удостоенный Европейского ордена «Золотой орел». Орден присуждают за практическую реализацию идеи Евразийства. В 2008 году Итальянской Академией наук была присуждена награда «Почетный ученый города Рима» и ученая степень магистра философии Видади Салахову за выдающийся вклад в дело гуманитарного прогресса евразийского пространства (12).

16 июня 2006 года был выпущен первый номер газеты «Вэтэн». Учредителем и руководителем издания является президент Конгресса азербайджанцев Казахстана Абульфаз Хамедов. Выпуск первого номера был приурочен к 70-летию азербайджанской диаспоры Казахстана, становление которой приходится на период насильственной депортации азербайджанцев в Казахстан в период сталинских репрессий. Главный редактор газеты Абульфаз Хамедов, говоря о депортации, отмечает: «Мы видим, во всех отношениях, самыми первыми в Казахстан были высланы азербайджанцы. Только в Джамбульской области детям репрессированных азербайджанцев присвоено 11 званий Героев Социалистического Труда» (13).

В Казахстане издается ежемесячная международная общественно – политическая газета «Туран экспресс», возглавляемая Видади Салаховым (14).

28 ноября 2008 года в столице Республики Казахстан начал работу I съезд Союза азербайджанских культурных центров Казахстана. На съезде выступил президент Ассоциации азербайджанцев Казахстана В. Салахов. В своем выступлении он отметил, что «Сегодня принимаются огромные усилия для того, чтобы в Казахстане была прочная дружба народов, национальностей. Думаю, что в это политически благородное дело азербайджанцы тоже должны вносить свой вклад… Наша диаспора по многочисленности занимает где-то шестое место по республике. Основная ее часть - это те, кто родился в самой республике» (15). Главной целью проведения Всеказахстанского курултая азербайджанцев является создание единой республиканской ассоциации, которая будет координировать деятельность всех азербайджанских культурных центров. Созданная структура будет стремиться к объединению тюркоязычных народов, проживающих в Казахстане, способствовать интеграции азербайджанской диаспоры в общественно-политическую жизнь республики.

Азербайджанцы Казахстана неотделяют себя от выполнения задач, поставленных перед казахским обществом. Представители азербайджанской общины полностью поддерживают Послание Президента Республики Казахстан Н.А.Назарбаева «Новый Казахстан в новом мире» и готовы участвовать в реализации поставленных в нем задач. «На прошедшем недавно собрании элиты нашей диаспоры мы взяли на себя некоторые инициативы, в частности по строительству новых школ и детсадов» (16).

Таким образом, азербайджанцы Казахстана - это состоявшиеся полноправные граждане страны, состоявшаяся реальность.

Азербайджанская диаспора Казахстана находится на пути становления. Организационные решения остались позади. Впереди целеенаправленная работа по: усилению влияния азербайджанской диаспоры на межгосударственные отношения Азербайджанской Республики и Республики Казахстан; формированию азербайджанской элиты; усилению взаимосвязей с Посольством Азербайджана в РК; созданию информационных ресурсов диаспоры; созданию ежедневного информационного Интернет-издания по подобию «Azeri.ru - Азербайджанцы в России», на котором бы соотечественники, проживающие в Республике Казахстан и Средней Азии могли получать достоверную информацию о событиях в Азербайджане и регионах, а также освещать и обсуждать вопросы волнующие диаспору. Существует реальная необходимость в создании интернет-сайтов у областных организаций диаспоры.

В перспективе у азербайджанской диаспоры в Республике Казахстан сотрудничество с представительством Фонда Гейдара Алиева, совместное участие в пропаганде Азербайджана на международной арене, формировании объективного общественного мнения о нашем

народе, донесения правды об армяно-азербайджанском, Нагорно-Гарабахском конфликте и т.д.

**Азербайджанская диаспора Украины.** Первая Всеукраинская перепись населения была проведена в 2001 году. Особенностью национального состава населения Украины является его многонациональность. По данным Всеукраинской переписи населения, на территории страны проживали представители свыше 130 национальностей и народностей. В национальном составе населения Украины подавляющее большинство украинцев, численность которых составляла 37541,7 тыс. человек, или 77,8% от общей численности населения. За годы, прошедшие после переписи населения 1989 года, численность украинцев возросла на 0,3%, а их удельный вес среди жителей Украины - на 5,1 процентного пункта.

На втором месте - русские. Их количество, по сравнению с переписью 1989 года, уменьшилось на 26,6% и составляло на дату переписи 8334,1 тыс. человек. Удельный вес русских в общей численности населения уменьшился на 4,8 процентного пункта и составил 17,3%.

После провозглашения независимости, более того, после «оранжевой революции» наблюдается сужение культурного и информационного пространства, использования русского языка, наблюдается уменьшение численности и дискриминация прав этнически русского и русскоязычного населения, вытеснение их из органов государственного управления, социальная незащищенность и т.д.

Несмотря на столь «неблагоприятные условия» для инонационального населения Украины численность азербайджанцев к 2001 году выросла и составила 45,2 тыс. человек. В 1989 году численность азербайджанцев на Украине составляла 36.961 человек. С 1989 года по 2001 год численность азербайджанского населения выросла на 8.239 человек.

Основное расселение азербайджанцев на Украине приходится на послевоенные годы. Если по итогам Всесоюзной переписи населения 1959 года численность азербайджанцев составила 6,7 тысяч человек, то к 1989 году их численность возросла и составила 37 тысяч человек (17).

Численность азербайджанского населения Украинской ССР по итогам Всесоюзных переписей населения и Всеукраинской переписи 2001 года (тысяч чел.)

| | Годы проведения Всесоюзных переписей населения | | | | Всеукраинская перепись |
|---|---|---|---|---|---|
| | 1959 | 1970 | 1979 | 1989 | 2001 |
| Азербайджанцы | 6,7 | 10,8, | 17,2 | 37 | 45,2 |

Численность азербайджанского населения Украинской ССР по итогам Всеукраинской переписи 2001 года составило 45.200 человек.

Наибольшая численность азербайджанцев проживает в Донецкой (8,0 тыс.чел), Харьковской (5,6 тыс. чел.) и Днепропетровской (5,6 тыс. чел.) областях (18). В столице Украины г.Киеве зарегистрировано 2,6 тысяч азербайджанцев.

Азербайджанцы Украины объединились в землячества, в диаспору.

21 марта 1999 года азербайджанцы, проживающие на Украине, первыми на пространстве СНГ учредили национальное объединение – Конгресс Азербайджанцев Украины (КАУ). Первым Председателем Конгресса был избран Октай Эфендиев.

Всего на Украине зарегистрировано 30 региональных организаций. Руководителями Региональных организаций Конгресса Азербайджанцев Украины являются (19):

| | |
|---|---|
| Днепропетровская областная региональная организация КАУ | Гаджиев Гудрат Али оглы |
| Донецкая областная региональная организация КАУ -www.azkongress.com | Искендеров Манаф Джавад оглы |
| Житомирская областная региональная организация КАУ | Гасилов Саатхан Али оглы |
| Запорожская областная региональная организация КАУ | Ибрагимов Мирягуб Мирибрагим оглы |
| Ивано-Франковская областная региональная организация КАУ | Туранли Фархад Гардашхан оглы. |
| Крымская республиканская региональная организация КАУ | Гумбатов Рагим Агалар оглы; Главный редактор газеты «Миллет» |
| Львовская областная региональная организация КАУ | Гулиев Расим Шагабович |
| Николаевская областная региональная организация КАУ | Бадалов Кабир Талиб оглы |
| Одесская областная региональная организация КАУ | Сарыев Эльхан; |
| Региональное отделение г.Новомосковска Днепропетровской областной региональной организации КАУ | Гусейнов Шикар Гасим оглы |
| Региональное отделение г.Павлограда Днепропетровской областной региональной организации КАУ | Шукуров Максуд Гилал оглы |
| Севастопольская областная региональная организация КАУ | Бадалов Чингиз |
| Сумская областная региональная организация КАУ | Салманова Мехрибан |
| Тернопольская областная региональная организация КАУ | Бабанлы Шахин Расимович |
| Харьковская областная региональная организация КАУ | Аббасов Гурбан Ибрагим оглы |

| | |
|---|---|
| Черкасская областная региональная организация КАУ | Ширинов Айдын |
| Черниговская областная региональная организация КАУ | Мурадов Елданиз Мостан оглы |

На встрече с общенациональным лидером азербайджанского народа Гейдар Алиевым в мае 2002 года Председатель КАУ О.Эфендиев заявил, что «Конгресс является единственной организацией азербайджанцев Украины, основанной на национальных принципах, он не имеет альтернативы и работает на принципах централизма. Конгресс работает в тесной связи с областями, и это обеспечивает консолидацию азербайджанцев» (20).

В 2006 году новым председателем КАУ стал Акиф Гюльмамедов.

Прошел регистрацию и успешно работает Международный благотворительный фонд «Украино-Азербайджанской дружбы (МБФУАД)». Фонд осуществляет свою деятельность в соответствии с Конституцией Украины, Законом Украины «О благотворительности и благотворительных организациях». Благотворительная деятельность МБФУАД осуществляется в интересах граждан Украины и Азербайджана, а также их диаспор на территории других стран (21).

Региональные организации Конгресса Азербайджанцев Украины имеют свои органы печати. Здесь можно отметить газеты «Голос Азербайджана»-главный редактор Эльшан Новрузов, «Millet - Миллет» - главный редактор Рагим Гумбатов.

Газета «Millet-Миллет» - орган печати Крымской республиканской региональной организации КАУ.

Газета «Millet» зарегистрирована Республиканским комитетом по информации АР Крым 30 октября 2000 года - регистрационное свидетельство КМ 605. Учредителем газеты является Крымская республиканская региональная организация КАУ. Интернет-сайт газеты alybika@rambler.ru;

Конгресс азербайджанцев Украины,Фонд поддержки политики тюркоязычных государств, Международный благотворительный фонд «Украино-Азербайджанской дружбы (МБФУАД)», посольство Азербайджана на Украине 19 января 2009 года провели презентацию книги руководителя администрации Президента Азербайджана, академика Р.Э. Мехтиева «Реалии геноцида азербайджанцев». Церемония была посвятщена 19 годовщине трагедии 20 января (22).

На первом съезде Азербайджанцев Мира диаспору Украины представляли 42 человека. Помимо региональных руководителей КАУ среди делегатов съезда были: Багиров Мамед - доктор медицинских наук, заведующий кафедрой пульмонологии Института усовершенст.-вования врачей Украины; Гулиев Вилаят- депутат Киевского горсовета,

генеральный директор совместного предприятия «Украина-Италия»; Алекперов Микаил –доктор технических наук, академик Международной академии кадров; Яхьяев Шакир- член президиума КАУ, председатель мусульманского общества г.Киева; Самедов Ахмед-доктор технических наук, профессор Киевского Национального Политехнического Института; Гюльмамедов Акиф – член Совета КАУ, Заслуженный энергетик Украины, Председатель Совета «Энергодорстроймеханизация»; Новрузов Эльшан – член Совета КАУ, главный редактор газеты «Голос Азербайджана», Меджидов Тельман- сопредседатель Совета КАУ, президент фирмы «Согдиана»; Мамедов Руслан-зампредседатель КАУ, адвокат; Дубенко Оксана-член КАУ, дочь Национального Героя Азербайджана Виктора Серегина и др. (23).

## Азербайджанская диаспора Прибалтийских Республик

«Азербайджанская диаспора является важным элементом латвийского общества. Диаспора любой страны обогащает своей культурой и языком. Наша цель заключается в интеграции латвийского общества. Нашей целью является гражданин Латвии, который сохраняет свои корни, будь они латышскими или азербайджанскими. Мы не стремимся никого ассимилировать»- заявил во время своего визита в Азербайджан президент Латвии Валдис Затлерс (24)/

Общество Азербайджанцев Латвии «Азери» создано в 1988 году. Общество «АЗЕРИ» действует в рамках Конституции Латвийской Республики, руководствуясь законами «Об общественных организациях и объединениях» и Законом «О свободном развитии национальных и этнических групп Латвии и их права на культурную автономию». Общество «Азери» уважает суверенитет и целостность Латвии, активно участвует в общественно-политической жизни Латвии, соблюдая все законы Латвийского государства.

Общество Азербайджанцев Латвии «Азери» объединяет всех азербайджанцев в Латвии. Так, по состоянию на май месяц 2002 года в Латвии проживает 1.704 азербайджанца. Общество «Азери» знакомит жителей Латвии с историей и культурой Азербайджана, широкомасштабно отмечает все исторические, государственные и национальные даты Азербайджана, используя СМИ Латвии, в том числе радио и телевидение.

Общество «Азери» имеет свою национальную воскресную школу, в которой учат детей азербайджанцев родному языку, истории и культуре Азербайджана и Латвии. Директором школы является С.Залова.

Пропагандируя культуру и историю Азербайджана в Латвии, способствует интеграции национальных и этнических групп в культурную сферу страны, достижению взаимопонимания с коренным населением, гармоничным межнациональным отношениям.

Председателем общества азербайджанцев Латвии «Азери» является Ахмедов Улдузхан.

С 2006 г. действует также молодёжный центр «Азери». Председателем центра является Салимов Амиль. Молодежный центр создан для активной работы азербайджанской молодежи в обществе, её к интеграции в латвийское общество, ознакомления жителей Латвии с культурой и обычаями Азербайджана, создания тесных связей с молодежью Азербайджана.

В Латвии также действуют Латвийское общество азербайджанцев «АзериВахдат»- руководитель Алирза Гусейнов и азербайджанский культурный центр «Оджаг» – руководитель Тельман Керимов.

В 2006 г.в Латвии учрежден Конгресс азербайджанцев Балтийских государств (Латвии, Литвы, Эстонии). Председателем Конгресса избран У.Ахмедов. Конгресс азербайджанцев Балтийских государств учрежден в Риге по инициативе организаций азербайджанских диаспор, действующих в Латвии, Литве и Эстонии. В Конгресс входят: общество азербайджанцев Латвии «Азери», община азербайджанцев Литвы - председатель Маир Гамзаев и Азербайджанский культурный центр в Эстонии «Айдан», председатель-Ниязи Гаджиев.

В 1998 году была создана азербайджанская община Эстонии. Азербайджанская община Эстонии включает в себя несколько организаций: – Азербайджанская Община Эстонии, Азербайджанская Община Эстонии XXI века, Азербайджанский культурный центр «Айдан», Эстонско-Азербайджанское объединение «OCAQ», Культурный образовательный центр «Бакинцы», Объединение азербайджанской молодежи «Наследие».

Азербайджанская община Эстонии единственная на сегодня община, которая имеет в Таллинне частный азербайджанский детский сад.

В рамках государственной программы Министерства образования Эстонии «Ознакомление с национальными меньшинствами Эстонии» в 2009 году прошла презентация книги «Азербайджанцы». В книге представлена информация об истории, культуре, национальной кухне Азербайджана. Широкое место в издании уделено армяно-азербайджанскому конфликту, оккупации азербайджанских земель. Книга подготовлена директором азербайджанской школы С.Керимовой и преподавателем С.Алиевой, Центром культуры Азербайджан-Эстония «Айдан».

## Формирование Азербайджанской диаспоры в странах Европы и Америки

**Азербайджанская диаспора Европы.** В апреле 2004 года в г.Берлине состоялся учредительный Конгресс азербайджанцев Европы (КАЕ). Основными целями КАЕ являются создание и укрепление структур,

перспективы развития азербайджанской диаспоры в Европе, укрепление связей азербайджанцев, проживающих в Европе со своей исторической родиной, обеспечение морального, политического единства и солидарности азербайджанцев мира, защита их национальных, социальных и гражданских прав, совместное сохранение национально-духовных ценностей и координация деятельности азербайджанских общин и объединений в регионе. В Конгрессе азербайджанцев Европы представлено более чем 40 диаспорских организаций.

Весной 2006 года по инициативе общества «Нидерланды-Азербайджан» был учрежден Конгресс, объединяющий 15 азербайджанских общин и пять организаций, действующих в Бельгии, Нидерландах и Люксембурге – Конгресс азербайджанцев Бенилюкса (КАБ). Основными направлениями работы КАБ являются укрепление связей соотечественников с исторической родиной, обеспечение единства тюркских общин Европы, совместная защита национально-культурных ценностей и их пропаганда в Европе.

**Азербайджанская диаспора США и Канады.** Диаспорские организации азербайджанцев, проживающих в США, все активнее интегрируются в общественно-политическую и культурную жизнь этой страны. Их пропагандистские и просветительские усилия направлены не только на позиционирование интересов Азербайджана в Соединенных Штатах, но и объединение соотечественников с целью обеспечения устойчивой связи с исторической родиной, сохранения национальных традиций.

Старейшей диаспоральной организацией азербайджанцев в США является Азербайджанское общество Америки (ASA), созданное в 1957 году потомками основателей АДР и которое ныне возглавляет Томрис Азери. До восстановления независимости Азербайджана в 1991 году ASA являлась единственной признанной организацией азербайджанской диаспоры США, функционирующей в штатах Нью-Йорк, Пенсильвания и Нью-Джерси.

В 2006 г.был организован Азербайджано-американский совет (ААС), который является общественной организацией и занимается в основном просветительской и пропагандистской деятельностью. Цель ААС - укрепление азербайджанского самосознания среди представителей диаспоры посредством просветительских и культурных проектов, а также активное вовлечение азербайджанцев в общественно-политическую жизнь США как на федеральном уровне, так и в отдельных штатах.

ААС тесно сотрудничает с Американо-еврейским комитетом (AJC) — самой крупной и старой организацией еврейской диаспоры в США, а также с Ассамблеей американо-турецких ассоциаций (АТАА).

С января 2008 года начала действовать «Сеть азербайджанцев США (USAN)», основателем которой является Адиль Багиров. USAN привлекает постоянно проживающих в США азербайджанцев для

участия в массовых электронных рассылках по адресам законодателей, административных госструктур и СМИ. Соответственно USAN играет роль политического механизма для виртуального влияния азербайджанцев на американское законодательство.

Членами правления USAN являются Томрис Азери, президент Азербайджанского общества Америки (ASA); Джейхун Моллазаде, кандидат исторических наук, развивавший двусторонние дипотношения между АР и США в начале 90-х годов, а затем издававший журнал Caspian Crossroads и возглавляющий Бизнес-совет Азербайджан-США (USABC) в Вашингтоне; Джавид Гусейнов (Западное побережье США, президент AAC - Совет азербайджанцев Америки), Лейла Мамедова (Восточное побережье США), а также секретарь USAN Юсиф Бабанлы (Южный регион США, вице-президент AAC) и казначей организации Бедир Мамедли (Восточное побережье США, вице-президент ASA).

Цель новой организации - уточнить, упорядочить, увеличить и усилить количество политически активных азербайджанцев и проазербайджанских жителей США (в первую очередь граждан и обладателей Green Card США азербайджанского происхождения - так называемых «азербайджанских американцев»). Члены USAN – азербайджанская и тюркские диаспоры, - должны играть более заметную роль в общественно-политической жизни Америки, лучше знать свои гражданские права и обязанности. USAN считает необходимым создание первой единой (безопасной, конфиденциальной) базы данных азербайджанских американцев, заложив основу постоянного успеха азербайджанской диаспоры на общественно-политическом, гуманитарном и социально-экономическом поприще на федеральном, штатном и муниципальном уровнях.

Ассоциация сотрудничества «Канада-Азербайджан» была создана в 2001 году, и работает по 4 направлениям: политическому, экономическому, социальному и образовательному. Президентом Ассоциации является профессор университета Ватерлоо в Канаде Ильхам Ахундов.

В Канаде существует 15 организаций азербайджанцев в разных провинциях и городах. Вот только некоторые из них: «Ассоциация азербайджанцев Квебека»; «Ассамблея азербайджанских ассоциаций Канады» в Торонто; осуществляющий деятельность в Эдмонтоне культурный центр «Альберта-Азербайджан» и др. Диаспорные организации азербайджанцев в Канаде координируют свою деятельность по самым важным для любого азербайджанца вопросам. С целью координации работы в 2006 году была создана Ассамблея азербайджанских организаций в Канаде.

В Оттаве создана «Община Азербайджанцев Оттавы» председателем, которой является Асиф Керимов. Основной целью «Общины» является привлечение азербайджанской молодежи, проживающей в

Канаде, налаживание и развитие связей между соотечественниками. Организация также планирует осуществлять совместно с молодыми азербайджанцами Канады различные проекты с целью доведения до общественности Канады правдивой информации об Азербайджане.

Ассамблея азербайджанских организаций Канады (ААОК) учреждена 17 декабря 2006 года совместным решением 8 азербайджанских диаспорских организаций. В Ассамблею входят ассоциация азербайджанцев Квебека, ассоциация дружбы Канада-Азербайджан, община азербайджанцев Онтарио, канадская ассоциация азербайджанского сотрудничества, азербайджанский торговый центр Канады, канадское общество азербайджанских студентов, канадская ассоциация азербайджанских женщин.

В Канаде действует Азербайджанский центр стратегических исследований. Возглавляет центр политолог Аслан Халиди.

## Конгресс азербайджанцев Ближнего Востока

Конгресс азербайджанцев Ближнего Востока учрежден в 2007 году в израильском городе Ришон Ли-Цеон. Президентом Конгресса избран Алекс Шапиро Сулиман.

Работа Конгресса направлена на: налаживание контактов между живущими на Ближнем Востоке азербайджанцами и пропаганде среди них идеи азербайджанства, укреплении их связей с исторической родиной, сохранении азербайджанского языка, пропаганде истории и культуры Азербайджана, доведения до израильской общественности правды об армяно-азербайджанском Нагорно-Гарабахском конфликте.

## Заключение

Востребованность в каждой из стран проживания созидательного потенциала, который несут с собой азербайджанцы – деловые люди и бизнесмены, ученые и работники культуры и искусства, работники здравоохранения и люди свободных профессий очевидна. Азербайджанцы увереннее занимают место в общественно-политической, экономической и социальной жизни в стране проживания. Достойная интеграция азербайджанцев в новое общество позволила им самоорганизоваться и образовать диаспорные организации.

Основными целями и задачами национальных объединений азербайджанцев являются: освоение исторического и культурного наследия азербайджанского народа, содействие культурной жизни азербайджанцев в стране проживания, ознакомление с достижениями Азербайджанской Республики в различных областях материальной и духовной культуры, защита конституционных и гражданских прав соотечествен-

ников, содействие развитию дружественных связей между народами и расширению всестороннего экономического и культурного сотрудничества между странами.

Азербайджанская диаспора также может играть роль политических и экономических посредников.

**Список использованной литературы и источников:**


1. Arzumanlı V. Azərbaycan diasporu (reallıqlar, qayğılar, problemlər). ss.110-111. Bakı,"Qartal", 2001.
2. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin nitqi. Dünya azərbaycanlılarının I qurultayı. 9-10 noyabr 2001-ci il. Ss..21-24 / Dünya Azərbaycanlılarının qurultayı (9-10 noyabr 2001-ci il). Bakı: Azərnəşr, 2002.
3. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli, 290 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Azərbaycan Respublikasının Qanunvericilik toplusu. №12, maddə 736. Azərbaycan Respublikası Prezidentinin nəşri. Bakı: 1999.
4. Словарь иностранных слов. М.: Русский язык, 1980, с.165.
5. Маркедонов С. «Начало пути». http://arabeski.globalrus.ru
6. Наапетян А.. Процесс становления азербайджанского лоббинга: общие данные. http: //www.noravank.am/ru/ .
7. Наапетян А. «Динамика распространения азербайджанского лобби» все тот же. http: //www.noravank.am/ru/ .
8. там же.
9. Национальный состав населения Республики Казахстан. Т.4, часть 1. Население Республики Казахстан по национальностям, полу и возрасту /. Итоги переписи населения 1999 года в РК. - Алматы, 2000, с.13-16.
10. Азербайджанская диаспора Костанайской области «Бирлик». http://www.kostanay.kz.
11. Dünya azərbaycanlılarının I qurultayının nümayəndələrinin siyahısı. ss.290-291. Dünya Azərbaycanlılarının qurultayı (9-10 noyabr 2001-ci il). Bakı: Azərnəşr, 2002.
12. Ворота Востока и Евразии (2008-01-17); Малая Ассамблея народов Казахстана Алматинской области. www.mank-taldyk.kz; www/kaz-az.narod.ru- Сайт Наргили Мамедовой.
13. Лидер диаспоры азербайджанцев Казахстана удостоен звания «Почетный ученый города Рима». Национальное информационное агенство «Казинформ» www.inform.kaz.
14. В Алма-Ате презентована газета азербайджанской диаспоры Казахстана. www.regnum.ru /16.06 2007/.
15. В Астане проходит I съезд Союза азербайджанских культурных центров Казахстана. Курмат Самархан - Национальное информационное агентство «Казинформ». www.inform.kz.
16. В традициях кроется сила любого народа-Конгресс азербайджанцев Казахстана. Казинформ.. Сара Мустафина.
17. Тульский М. Итоги переписи 20001 года на Украине. Специально для «Демоскопа» №113-114 19 мая - 1 июня 2003.

18. Численность и состав населения Украины по итогам Всеукраинской переписи населения 2001.Всеукраинская перепись населения 2001 года. Государственный комитет статистики Украины. www.ukrcensus.gov.ua/rus/.
19. Региональные организации Конгресса азербайджанцев Украины (КАУ). Крымская азербайджанская община www.rambler.ru
20. Из беседы Президента Азербайджанской Республики Гейдара Алиева с азербайджанцами, проживающими в Украине. – Украина, 20 июля 2002 года. Диаспора. http://www.library.aliyev-heritage.org
21. Международный благотворительный фонд «Украино-Азербайджанской дружбы (МБФУАД). http://www.mbfuad.org.
22. В Киеве пройдет презентация книги Рамиза Мехтиева «Реалии геноцида азербайджанцев». Регионы. Азербайджан. Общество. www.novosti.az
23. Dünya azərbaycanlılarının I qurultayının nümayəndələrinin siyahısı. ss.314-316. Dünya Azərbaycanlılarının qurultayı (9-10 noyabr 2001-ci il). Bakı: Azərnəşr, 2002.
24. Интервью АПА с Президентом Латвии Валдисом Затлерсом. www.day.az

# İSLAM KONFRANSI TƏŞKILATININ AZƏRBAYCANLA ƏLAQƏLİ QƏTNAMƏLƏRİNDƏ QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏR PROBLEMİ

*S.Z.QULİYEVA*

İslam Konfransı Təşkilatı (İKT) Ermənistan Respublikasını təcavüzkar kimi tanıyan ilk beynəlxalq təşkilatdır. 1992-ci ilin martında Dağlıq Qarabağda gedən hərbi əməliyyatlar, müharibə vəziyyəti və müharibənin nəticələrinin öyrənilməsi üçün vəziyyətlə tanışlıq məqsədilə İKT-nin Baş katibi Həmid əl-Qabid müavini Məhəmməd Möhsinin rəhbərliyi ilə Azərbaycana komissiya göndərmiş, komissiya üzvləri Dağlıq Qarabağdakı vəziyyətlə tanış olmuş, problemin həlli yollarının araşdırılması məqsədilə respublika rəhbərliyi, həmçinin Ermənistan, İran, Türkiyə və Rusiyada olmuş və bu dövlətlərin xarici işlər nazirliklərinin rəsmi nümayəndələri ilə görüşmüşlər. Komissiyanın işinin nəticəsində Baş katib Həmid əl-Qabid 1992-ci il martın 31-də atəşin dayandırılması, Dağlıq Qarabağın müsəlman icmasına kömək göstərilməsi barədə dünya dövlətlərinə və beynəlxalq təşkilatlara müraciət etmişdir (2, s. 42).

Xarici işlər nazirlərinin V Fövqəladə İslam konfransının (17-18 iyun 1992, İstanbul) Yekun qətnaməsində Ermənistanın təcavüzü barədə məlumat verilib və təşkilat Azərbaycanı müdafiə edəcəyini bildirmişdir (7). Təşkilatın ilk qətnaməsi isə 1993-cü ildə qəbul edilmişdir. Xarici işlər nazirlərinin XXI İslam konfransında (25-29 aprel 1993, Kəraçi) qəbul edilmiş "Ermənistanla Azərbaycan arasında münaqişə haqqında" adlanan 12/21P saylı qətnamədə qaçqın və köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələrinə imkan yaratmağa çağırış; üzv dövlətlər, İslam İnkişaf Bankı və digər islam qurumlarının Azərbaycan Respublikasına təcili humanitar kömək göstərmələri barədə bəndlər qeyd olunmuşdur.

1994-cü ilin mayında atəşkəsin elan edilməsindən sonra Dağlıq Qarabağ münaqişəsinə qiymət verilməsi və həlli istiqamətində tədbirlərin həyata keçirilməsi istiqamətində daha mütəşəkkil fəaliyyət üçün İslam Sammitləri və Xarici işlər Nazirlərinin İslam konfranslarında qətnamələrin preambula və bəndləri daha da təkmilləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidenti H.Ə.Əliyev 1994-cü il iyulun 9-dan 12-nə qədər Səudiyyə Ərəbistanında səfərdə olarkən İKT-nin Baş katibini əvəz edən Osman Motari ilə görüş zamanı müharibənin yaratdığı problemlərə toxunaraq demişdir ki, Ermənistanın Azərbaycana təcavüzü

nəticəsində qaçqına çevrilən bir milyon adam və bu mühitdə şəhid olanlar müsəlmanlardır. İKT bunu nəzərə almalı və bu məsələyə ciddi diqqət yetirməlidir (1, s.215-217). Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin VII (13-15 dekabr 1994, Kasablanka) və VIII (7-11 dekabr 1997, Tehran) İslam sammitlərində İslam dövlətlərinin dövlət və hökumət rəhbərləri ilə görüşləri, gərgin və yorulmaz fəaliyyəti Azərbaycan tərəfinin redaktəsi ilə müzakirəyə təqdim olunan qətnamələrin qəbul edilməsi ilə nəticələnmişdi (1; 3, 3 kitab, s.11-26; 13 kitab, s.128-163). Məsələn, Xarici işlər nazirlərinin XXX İslam konfransında (28-20 may 2003, Tehran) qəbul edilmiş "İslam Konfransı Təşkilatı Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 13/30-P saylı qətnamənin preambulasında və qərar hissəsində qaçqın və məcburi köçkünlərin vəziyyəti və onlara kömək barədə olan bəndlərə nəzər saldıqda ilkin qətnamə ilə müqayisədə aşağıdakı dəyişiklikləri müəyyən etmək olur (7).

Preambulada "Ermənistan təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və köçkünün aqibəti və humanitar problemlərin böyük həcmindən təsirlənərək" hissəsi əlavə olunub.

Qərar hissədə isə aşağıdakı bəndlər əlavə olunub:

"2. Təcavüz nəticəsində işğal edilmiş Azərbaycan ərazisində mülki Azərbaycan vətəndaşlarına qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirir...

15. Qaçqın və köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələrinə imkan yaratmağa çağırır.

16. Qaçqın və köçkünlərə humanitar yardım göstərmiş bütün üzv dövlətlərə öz təşəkkürünü bildirir və digər dövlətləri onlara yardım göstərməyə çağırır.

17. Azərbaycan Respublikası ərazisində 1 milyondan artıq qaçqın və köçkünün qarşılaşdığı kəskin humanitar vəziyyətlə əlaqədar narahat olduğunu bildirir və üzv dövlətlər, İslam İnkişaf Bankı və digər islam institutlarından Azərbaycan Respublikasına təcili maliyyə və humanitar yardım göstərmələrini xahiş edir..."

Xarici işlər nazirlərinin XXII İslam konfransından (1994, Kasablanka) başlayaraq qəbul edilən "Azərbaycan Respublikasına İqtisadi yardım haqqında qətnamə"nin də preambulasında "hərbi əməliyyatlar nəticəsində doğma yurdlarından zorla qovulmuş azərbaycanlıların vəziyyəti, onların hüquqlarının pozulması, İKT-yə üzv dövlətlərin və müvafiq təşkilatların, o cümlədən beynəlxalq təşkilatlarınköməyi qiymətləndirilir, Baş katibin məruzəsi nəzərə alınaraq Azərbaycan xalqının əzabları yüngülləşdirmək məqsədilə Azərbaycan hökumətinə lazımi iqtisadi və humanitar yardım göstərməyə, beynəlxalq təşkilatları Azərbaycanı təcili maliyyə və humanitar yardım ilə təmin etməyi davam etdirməyə" dəvət qərara alınır.

İKT-nin əsas maliyyə strukturu olan İslam İnkişaf Bankı 1992-1994-cü illər ərzində qaçqın və məcburi köçkünlərə 74 mln dollar məbləğində humanitar

yardım etmişdir. Bu yardımın əsasını ərzaq, geyim və tibb ləvazimatı təşkil etmişdir. İran İslam Respublikasının Qızıl Aypara cəmiyyəti İmişli, Biləsuvar və Saatlı rayonlarında 8, Türkiyə Qızıl Ay cəmiyyəti isə Bərdə və Ağcabədi rayonlarında 2 çadır şəhərciyi salmışlar. 1993-1994-cü illərə aid məlumatlarda bu şəhərciklərdə 62 min köçkünü yaşadığı qeyd olunur (6, s. 56-57).

Beynəlxalq İslam Nicat Təşkilatı isə Bərdə rayonunda yerləşdirilmiş 10 min (bəzi mənbələrdə 8.300) nəfər, Sumqayıtda 3 min (bəzi mənbələrdə 2.700) nəfər qaçqını himayəyə götürmüş, onların tam təminatını və tibbi yardımı öhdəsinə götürmüşdür.

Həmin dövrdə İran İslam Respublikası 100 min qaçqına, Türkiyənin Qızıl Ay təşkilatı 15-20 min qaçqına himayədarlıq etdiyi barədə məlumatlar vardır. Birləşmiş Ərəb Əmirliyi müntəzəm olaraq Azərbaycanın qaçqın və məcburi köçkün düşmüş əhalisinə humanitar yardımlar göndərir. Təkcə 1996-cı ilin avqustunda qaçqınlara yardım üçün 300 tona yaxın ərzaq göndərmişdir. 1997-ci ildə Liviyanın "İslama çağırış" cəmiyyətinin təşkilatçılığı ilə Azərbaycan qaçqınlarına ərzaq, tibbi lavazimat və s. ilə humanitar yardım göstərilmişdir. Pakistan Respublikası Azərbaycanın qaçqın və məcburi köçkün düşmüş əhalisinə, ümumilikdə 25 todan artıq pal-paltar və dərman ləvazimatlarından ibarət olan humanitar yardım göndərmişdir. Qatar dövlətinin azərbaycanlı qaçqın və məcburi köçkünlərə humanirat yardımları barədə əldə edilən məlumat belədir: 1995-ci ildə 141, 430, 1996-cı ildə 277, 760, 1997-ci ilin birinci yarısında isə 100 min ABŞ dolları məbləğində. Türkiyə BMM-nin başçısı Ömər İzqi 2002-ci ilin fevralında Bakıya səfəri zamanı bildirmişdir ki, Türkiyə bu illər ərzində Azərbaycan qaçqlınlarına 18 mln dollar həcmində yardım göstərilmişdir (4, s. 284, 295; 5, s. 402).

1996-cı il oktyabrın 16-17-də Bakıda "Azərbaycanda qaçqın və məcburi köçkünlərin problemlərinə dair" beynəlxalq konfrans keçirilmişdir. Konfransda İslam dünyasının nüfuzlu şəxsiyyətləri və bir sıra müsəlman xeyriyyə təşkilatları iştirak etmişdir. Konfransın işinin nəticəsi olaraq İslam dünyasına Azərbaycan qaçqınlarına humanitar yardım edilməsi barədə bir daha müraciət edilmişdir.

Ümumiyyətlə, respublikaya humanitar yardımlar həm İKT qətnamələrinə uyğun olaraq, həm də üzv dövlətlərlə ikitərəfli əməkdaşlıq xətti ilə göndərilirdi.

Azərbaycan Respublikasının iqtisadi vəziyyəti, o cümlədən adambaşına düşən illik gəlirlərin həcminin artmasını əsas tutaraq, digər beynəlxalq təşkilatlar kimi, İslam ölkələrinə aid humanitar təşkilatlar da qaçqınlara və məcburi köçkünlərə yardımı dayandırmış və ya həcmini kəskin azaltmışlar. Buna baxmayaraq, İKT bütün rəsmi sənədlərində Azərbaycan ərazilərinin işğaldan azad olunmasına, qaçqın və köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələrinə imkan yaratmağa və onların yaşayışına kömək etmək üçün humanitar yardımı davam etdirməyə çağırır (5; 8).

**İstifadə edilmiş ədəbiyyat:**


1. Azərbaycan beynəlxalq aləmdə. 5 cilddə. Cild 1. B.: Göytürk, 1996.
2. Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar. Bakı, 2004
3. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 27 kitab. Bakı: Azərnəşr, 1997-2009.
4. Heydər Əliyev və Şərq: 6 cilddə. V kitab: İKT dövlətləri. - Bakı: Çaşıoğlu, 2005. - 357 s.
5. Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, Azərbaycan, 2005. – 752 s.
6. Əhmədzadə Ə. Qaçqınlar və Qızıl aypara cəmiyyəti. s. 56-57. // Azərbaycan Respublikası Ali Soveti və BMT-nin qaçqınları işi üzrə ali komissarlığının təşkil etdiyi Qaçqınlara dair qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə həsr olunmuş beynəlxalq konfransın materialları. 22-24 noyabr 1994-cü il. Bakı. Azərbaycan. – 95 s.
7. İslam Konfransı Təşkilatı Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında 13/30-P saylı Qətnamə. // http://www.mfa.gov.az
8. İslam Konfransı Təşkilatı Azərbaycan Respublikasına İqtisadi yardım haqqında 21/30-E saylı Qətnamə. // http://www.mfa.gov.az
9. Final Communique of the Fıfth Extraordınary sessıon of the Islamic Conference of Foregn Ministers. Istanbul, Republic of Turkey, 16-17 Zul hijjah 1412h (17-18 june 1992) // http://www.oic-oci.org/english/conf/fm/All%20Download/5Ext/5Ext-FC-En.pdf

# AVROPA İTTİFAQININ YARDIM PROQRAMLARI VƏ AZƏRBAYCAN (1999-2004- CÜ İLLƏR)

*LEYLA VAQİFQIZI*

1999-cu ildə Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) qüvvəyə mindikdən sonra ikitərəfli münasibətlər daha böyük sürətlə inkişaf etməyə başladı. Təsadüfi deyil ki, Avropa İttifaqının əksər proqramları da 1999/2000-ci ildən gerçəkləşir. Bu proqramları əsasən aşağıdakı kimi qruplaşdırmaq olar:

EXAP-Avropa İttifaqının Fövqəladə Yardım Proqramı, EHA-Fövqəladə Humanitar Yardım proqramı, FEOGA-Avropa Kənd Təsərrüfatı İdarəetmə və Zəmanət Fondu, FSP-Ərzaq Təhlükəsizliyi Proqramı, REHAB-Avropa İttifaqı Bərpa Proqramı (7).

Qeyd etmək yerinə düşər ki, bu proqramların içərisində Azərbaycanda aparılan iqtisadi islahatları dəstəkləyən proqramlar üstünlük təşkil edir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı Azərbaycan Respublikası ərazisinin 20%–nin işğal edilməsi, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və apardığı işğalçılıq siyasəti nəticəsində 1 milyona yaxın azərbaycanlının öz doğma yurdlarından qaçqın və məcburi köçkün düşməsi, şübhəsiz, ölkə iqtisadiyyatı üçün böyük maneə idi. Hökumətin istər iqtisadi islahatlar, istər sabit sosial siyasət aparması üçün imkanlar məhdud idi; büdcə vəsaiti çatışmırdı. Bu məhdudiyyətləri nəzərə alan Avropa İttifaqının Ümumi işlər üzrə Şurası özünün 29 iyun 1998-ci il tarixli sessiyasında qərara aldı ki, “dəqiq müəyyənləşmiş” proqramlar formasında Azərbaycana qrant dəstəyini artırmalıdır (1). EXAP da iqtisadi inkişaf məqsədlərinə çatmaq və ölkədə sosial şəraiti yaxşılaşdırmaq niyyətilə yaradıldı; məqsəd – ölkənin inkişafına töhfə verəcəyi gözlənilən texniki sosial infrastruktur layihələrinə sərmayə qoymaq idi.

İlk illərdə Avropa Komissiyası Azərbaycana 3 tranşda (1998, 1999 və 2000-ci il) 30 mln. (ekyu) ayırdı. EXAP daxilində maliyyələşdirilən və həyata keçirilən layihələr Azərbaycan Respublikasının dövlət büdcəsinə daxil idi, Azərbaycan hökumətinin və Avropa Komissiyasının birgə razılığı ilə seçilmişdi (1). Avropa Komissiyası Proqramın icrasına nəzarət etmək və onun Avropa Komissiyası qaydaları ilə uyğunluğunu təmin etmək üçün Texniki Yardım Qrupu da təyin etdi. Layihənin icrası üçün Azərbaycan hökuməti tərəfindən Azərbaycan ərazilərinin bərpası və yenidən qurulması agentliyi təşkil edildi. Layihələrin icrası üçün 2000-ci ildən başlayaraq açıq tenderlər keçirməklə müqavilələr imzalandı: bütün layihələr yerli podratçılar tərəfindən icra olunmuş, bəzi xidmət və təchizat müqavilələri isə beynəlxalq

şirkətlər tərəfindən həyata keçirilmişdir (1). Birinci və ikinci tranş üzrə bütün layihələr müvəffəqiyyətlə başa çatmışdır. Tamamlanmış layihələr sonrakı idarəetmə və xidmət üçün müvafiq təşkilatlara təhvil verilmişdir.

EXAP üzrə üçüncü tranşda səhiyyə və sosial rifah sahəsinə, sosial infrastrukturun bərpasına yönələn layihələrə də eyni qaydada - 10 mln. avro (ekyu) ayrılmışdır. Bu proqram daxilində əsasən infrastrukturun bərpası və avadanlıq təchizatı nəzərdə tutulsa da, abadlaşdırılmış və təchiz olunmuş binaların son mərhələdə Azərbaycan əhalisinə xidmətin yaxşılaşdırılması məqsədi daşıması da qeyd olunmalıdır. Üçüncü tranşın ən məşhur layihələri – M.F.Axundov adına Mərkəzi Kitabxanada kitab saxlama şəraitinin yaxşılaşdırılması, Bakıda 9 xəstəxananın bərpası və avadanlıqla təchizatı, Bakı radiaktiv izotopları saxlama mərkəzi, əlil uşaqlar və xəstələr üçün 9 mərkəzin bərpası və avadanlıqla təchizatı, daşqınların qarşısının alınması tədbirləri sayıla bilər (1).

İqtisadi islahatların keçirilməsinə yardım siyasətinin tərkib hissəsi kimi Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin Avropa İttifaqı tərəfindən dəstəklənməsi də önəmlidir. Bu dəstəyin prioritet məqsədləri – insan resurslarının inkişafı, əlaqə, koordinasiya və məsləhətlərin həyata keçirilməsi, nazirliyin regional ofisləri üçün yeni vəzifələrin müəyyən olunması, nazirliyin strukturunda dəyişikliklər aparılması, avadanlıqla təchizatı olmuşdur. İnsan resurslarını inkişaf etdirmək məqsədilə iqtisadi siyasət və proqramlaşdırma departamenti pilot qurum kimi seçilmişdir. Departamentin işçiləri üçün investisiya layihələrinin qiymətləndirilməsinin ibtidai metodlarına dair təlim kursları keçirilmişdir (1). Əlaqə koordinasiya və məsləhətlərin həyata keçirilməsi seminar və təlim kursları, müvafiq məsələlərə aid ədəbiyyatların təqdimi yolu ilə baş vermişdir.

İqtisadi İnkişaf Nazirliyinin regional ofisləri üçün yeni vəzifələri müəyyən edən digər hədəf regional ofislər üçün daha yaxşı idarəetmə mərkəzi kimi fəaliyyət göstərməsini təmin edən katibliyin işçilərinin idarəetmə bacarıqlarının qüvvətləndirilməsini, Regional İnkişaf Proqramının 600.000 yeni iş yerinin açılmasına olan tələbatı kontekstində iş aparılması olmuşdur (1). Bundan əlavə, Layihə Regionların İnkişaf Proqramı ilə Yoxsulluğun azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramının arasındakı fərqlərin müəyyən edilməsində də yardımçı olmuşdur.

EXAP çərçivəsində Avropa Komissiyasının maliyyə dəstəyilə Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda 200-dən 1000-ə qədər işçisi olan müəssisələri dəstəkləmək üçün Müəssisələrin Sansiyası (sağlamlaşdırılması) layihəsini də həyata keçirmişdir. 2003-cü ildə başlamış layihə çərçivəsində idarəetmə mədəniyyətinə, bazar iqtisadiyyatına fəaliyyət göstərmək və rəqabət aparmaq qabiliyyətinə xüsusi diqqət verilmişdir (7). Bundan əlavə, Avropa Yenidənqurma və İnkişaf Bankı 30-dan 100-ə qədər işçisi olan kiçik müəssisələrin dəstəklənməsi üçün yerli məsləhətçilərin köməyilə Biznes Məsləhət Xidməti Proqramını da həyata keçirməyə başlamışdır ki, bu da öz növbəsində yerli peşəkar məsləhətçi sektorunu inkişaf etdirməyə imkan verir.

Avropa Birliyinin sosial proqramları içərisində FEOGA özəl yer tutur və təkcə Azərbaycan deyil, bütün Birlik üzvləri üçün işləmə mexanizminə malikdir. Kənd Təsərrüfatı sahəsində Təmayül və Təminat Fondu (EAGGF və ya FEOGA) hələ 1962-ci ildə təsis olunmuşdur. FEOGA təsis məqsədlərinə müvafiq olaraq öz büdcəsini iki istiqamətə sərf edir: təmayül və təminat. FEOGA -nın vəsaitinin 90%-i təminat fonduna ayrılır və vahid kənd təsərrüfatı qiymətlərinin saxlanması məqsədi daşıyır (8, s.605). Təmayül Fondu isə aqrar-sənaye kompleksinin inkişafı üçün keçirilən tədbirləri maliyyələşdirir (8, s.607).

1995-ci ildən etibarən Avropa Birliyi Azərbaycanla FEOGA çərçivəsində də əməkdaşlıq edir. Belə ki, 1995-1996-cı illərdə bu fond Azərbaycana 65 mln. avro (ekyu) vəsait ayırmışdır (1;7). FEOGA çərçivəsində Aqrar Kredit Fondunun inkişafını dəstəkləyən layihə irəli sürülmüşdür ki, onun da məqsədi – Azərbaycanda kənd infrastrukturunun inkişafına xidmət göstərən özəl və tam lisenziyalı bankın yaradılması olmuşdur (1). Layihə fəaliyyətə 2001-ci ildə başlamış və 2004-cü ildə başa çatdırılmışdır.

Qeyd edək ki, Azərbaycan iqtisadiyyatının dirçəldilməsinə və inkişafına yönəldilmiş proqramlar içərisində sosial proqramlar da önəmli olmuşdur. FSP (Ərzaq Təhlükəsizliyi Proqramı) bu qəbildəndir. Avropa Komissiyasının FSP layihəsinin əsas məqsədi - ərzaq təhlükəsizliyinin təminatındakı problemlə mübarizə aparmaqdır. Ərzaq Təhlükəsizliyi Proqramı Azərbaycanda hələ 1996-cı ildən həyata keçirilməyə başlanmışdır. 1996-1999-cu illərdə bu proqram üzrə respublikaya 56,5 mln. avro (ekyu) ayrılmış, 2003-cü ildən etibarən qrant verilməsi də bərpa olunmuşdur (7). Ümumilikdə isə FSP üzrə Azərbaycana ayrılmış vəsait (1996-2005-ci illər) 77,3 mln. avro təşkil etmişdir (7).

FSP də sadaladığımız digər proqramlar kimi əhəmiyyətli hökumət islahatlarını və yenidənqurmanı dəstəkləməklə, məqsədi ölkədə yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramı çərçivəsində "bazarın liberallaşdırılması, dövlət idarəçiliyinin təkmilləşdirilməsi, sosial yardımın idarəsi, kənd təsərrüfatında islahatlar" keçirilməsinə yardımçı olmaqdır (1).

FSP-nin Azərbaycan üçün əsas nəticələri – Kənd Təsərrüfatı Nazirliyində strukturun təkmilləşdirilməsi, Taxıl Məhsulları Dövlət Şirkətinin özəlləşdirilməsi, torpaq islahatını sürətləndirmək üçün 9 regional kənd təsərrüfatı idarəsinin və 9 kadastr mərkəzinin yaradılması, kəndlərdə mikrokreditləşmə siyasətinin dəstəklənməsi olmuşdur (1).

Ümumiyyətlə, 1992-2004-cü illər ərzində Avropa İttifaqı Azərbaycan Respublikasına toplam 369,29 mln. avro vəsait ayırmış və Humanitar Yardım Ofisi – ECHO bu sosial yardımların təqdim olunmasına birbaşa nəzarət etmişdir (4). Fövqəladə Yardım (EXAP) və Fövqəladə Humanitar Yardım (EHA) proqramları ilə yanaşı, müharibədən zərər çəkmiş Füzuli, Ağdam, Ağcabədi rayonlarında infrastrukturun yenidən qurulması üzrə Bərpa Proqramı (REHAB) da 1996-2000-ci illərdə iri miqyaslı işlərə imkan yaratmışdır.

Avropa İttifaqı Komissiyası azad edilmiş ərazilərin dirçəldilməsi və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı zərər çəkmiş Azərbaycan əhalisinin yaşayışı üçün məqbul şəraitin təmin edilməsi istiqamətində Azad Edilmiş Ərazilərin Bərpası və Yenidən qurulması Agentliyinin (ABU)

fəaliyyətini dəstəkləmiş, 1996-cı ildə isə Azərbaycan hökuməti zərər çəkmiş ərazilərin bərpasına başlamaq haqqında qərar qəbul etmişdir və bu məqsədlə Bərpa və Yenidənqurma üzrə Dövlət Komissiyası (BDK) yaradılmışdır (4;1).

Artıq 1997-ci ildə Avropa İttifaqı REHAB proqramı çərçivəsində Füzuli rayonunun 22 kəndində infrastrukturun bərpasına 3 mln. ekyu sərf etmiş və bu vəsaiti əsasən elektrikləşdirmə, su təchizatı, dəmir yolları sahələrinə ayırmışdır (4). Proqramın ən böyük nailiyyəti 60.000 ha. kənd təsərrüfatı üçün yaralı torpağı su ilə təmin edən suvarma sisteminin bərpası sayılır ki, bu da Füzuli, Ağdam və Ağcabədi rayonlarında 20.000 ailəyə kömək etmişdir (1). Proqramın toplam büdcəsi isə 18,17 mln. avro olmuşdur (7).

Avropa İttifaqının Azərbaycan Respublikası üçün nəzərdən keçirdiyimiz sosial yardım proqramları, göründüyü kimi, ilk növbədə, ölkədə sosial rifahı yüksəltməklə sosial sabitliyə nail olmaq, hökumətin apardığı iqtisadi islahatları dəstəkləmək və bölgədəki ümumi sosial – iqtisadi mühiti əlverişli etmək məqsədi daşımışdır. Layihələr qarşıya qoyulan məqsədə nail olmuş, 1999-2005-ci illər ərzində, yəni Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq və Əməkdaşlıq sazişinin imzalanmasından keçən 5 il müddətində ən zəruri yardımı təqdim etmiş və humanitar yardım əlaqələrindən iki bərabər hüquqlu əməkdaş arasında dəstək və əməkdaşlıq əlaqələri səviyyəsinə keçməsinə imkan vermişdir.

**İstifadə edilmuş ədəbiyyat:**


1. Avropa İttifaqı - Azərbaycan. Azərbaycanda proqram və layihələrin həyata keçirilməsinə və idarə olunmasına dəstək ofisi olan Avropa Evi tərəfindən nəşr edilmiş məlumat bülleteni- “Azərbaycan” qəzeti, 23 iyun 2005-ci il, №142 (4061).
2. Avropa İttifaqı və Azərbaycan: iqtisadi əlaqələrin vəziyyəti və inkişafı – “Azərbaycan” qəzeti, 3 iyun 2001-ci il, №124(2837).
3. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar. I-V cildlər. Bakı: “Şuşa” nəş-tı, 1996-2001. I c.- 267s., II c.-761s., IIIc.-776s., IVc.-520s., Vc.-628s.
4. Calal Alpman. ABY və AB Bərpa proqramında əməkdaşlıq edir- “Azərbaycan” qəzeti, 3 aprel 1998-ci il, №74 (1883).
5. Pənahov Vüqar. Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı yüksələn xətlə inkişaf edir-“Respublika” qəzeti, 4 yanvar 2005-ci il, №001 (2242).
6. Sadıqlı F.O, Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. “Azərbaycan” qəzeti, 6 iyun 2002-ci il, № 127 (3139).
7. Yardımdan dəstəyə, dəstəkdən əməkdaşlığa- “Azərbaycan” qəzeti, 24 yanvar 2003-cü il, №18 (3331).
8. Европейский Союз. Основополагающие акты в редакции Лиссабонского договора с комментариями. Москва: “Инфра- М”, 2008.- 704 с.
9. Соглашение о партнерстве и сотрудничестве между ЕС и Азербайджаном 1996 г. htpp//eulaw.edu.ru/documents/legislativn/ua /pca_azer.htm
10. TACİS- http://ru.wikipedia.org/wiki/TACİS

# AZƏRBAYCANDA TOXUCULUĞUN İNKİŞAFI TARİXİNDƏN

*Y.M.ABDULLAYEVA*

Azərbaycanın təbii sərvətlərinin bolluğu-geniş xammal ehtiyatlarına malik olması, qoyunçuluğun inkişafı üçün təbii-coğrafi şəraitin əlverişliliyi burada toxuculuq sənətinin qədim zamanlardan meydana gəlib inkişaf etməsinə zəmin yaratmışdı. Aparılan arxeoloji qazıntılar və arxeoloji materialların tədqiqi toxuculuğun Azərbaycan ərazisində qədim əhalinin məşğuliyyət sahələrindən biri olduğunu göstərməklə yanaşı, yun, pambıq və ipək istehsalının da ənənələrini üzə çıxarmağa imkan verir. Məsələn, Qobustanın son mezolit dövrünə aid yaşayış məskənlərində aşkar olunmuş arxeoloji tapılılar hörmə sahəsindəki primitiv texniki vərdişlərdən (bax: 6, s.259), Mingəçevir və Naxçıvan abidələrinin materialları isə eneolit dövrü toxuculuq alətlərinin inkişafından xəbər verir (8, s.85; 9, s.223; 10, s.32-33; 11, s.68 və s.). Sonrakı dövrdə toxuculuqda kətan, yun, pambıq və ipəyin xammal kimi istifadəsini isə həm arxeoloji materiallar, həm də yazılı mənbələrdəki məlumatlar təsdiqləyir (8, s.84-85; 11. s.152; 12, s.257).

Azərbaycanda toxuculuğun ənənəvi sahələrinə gəlincə, etnoqraflar birmənalı olaraq kətançılığı, şalbafçılığı, xalçaçılığı, bəzzazlığı və şərbafçılığı ilk olaraq qeyd edirlər (2, s.78-81; 6, s.251 və s.). Onların da içərisində kətançılıq xeyli maraq doğurur, çünki kətan "parça toxuculuğunda tətbiq edilən lifli bitkilərin ən qədim növü" sayılır (6, s.260). Kətandan toxuma məmulatının hazırlanması artıq tunc dövrünə aid edilir (11, s.152; 12, s.257). Xilafət dövründə isə Azərbaycan Misirlə yanaşı, dünyanın məşhur kətançılıq mərkəzinə çevrilmişdi (4, s.74). Kətandan əsasən üst paltarları, qadın baş örtükləri və çalmalar tikilirdi.

Toxuculuqda geniş istifadə olunan digər xammal növü, heç şübhəsiz, yun sayılmalıdır. Azərbaycanda, yuxarıda qeyd etdiyimiz kimi, əlverişli təbii-coğrafi şərait qoyunçuluğun inkişafını doğurmuşdu və bu da öz növbəsində, yun ip istehsalının, həmçinin yun toxuculuğunun yaranmasına imkan vermişdi. Eneolit və tunc dövrünə aid arxeoloji materiallar (6, s.261), antik müəlliflərin məlumatları (13, s.607) Azərbaycanda yun toxuculuğunun inkişaf ənənələrini üzə çıxarmağa imkan verir. Orta əsrlərdə Təbriz və Mərənd yun parça istehsalı üzrə ixtisaslaşmışdı və bütün müsəlman Şərqində yüksək qiymətləndirilirdi (4, s.74).

Yun istehsalı Azərbaycanda yüksək keyfiyyətli xalça istehsalının geniş miqyaslı inkişafını doğurmuşdu. Hələ antik müəlliflər bu bölgənin xalçalarının yüksək keyfiyyətindən xəbər verirdilər (14, s.352). Eramızın ilk əsrlərində isə xalçaçılıq artıq Azərbaycanın müstəqil sənət sahəsinə çevrilmişdi (6, s.272). Yun istehsalının əsas mərkəzləri olan Təbrizin və Mərəndin xalçaları müsəlman Şərqində "məhfur" adı ilə tanınırdı (4, s.75). Azərbaycan xalçalarının şöhrəti, bir tərəfdən, yüksək keyfiyyətli yunla, digər tərəfdən, istifadə olunan yerli boyaqların çeşidi ilə izah olunurdu.

XIII-XIV əsrlərdə monqol yürüşlərinin və hakimiyyətinin dağıdıcı olmasına baxmayaraq, Azərbaycanda yun parça və xalça istehsalı genişlənmişdi və hətta yun istehsalının yeni mərkəzləri (Naxçıvan, Xoy ) meydana çıxmışdı (7, s.244). Bu da ilk növbədə Hülakilərin beynəlxalq ticarətə böyük əhəmiyyət verməsi və Azərbaycanın toxuculuq məmulatlarının ixracında maraqlı olması ilə bağlı idi. XVI əsr isə Azərbaycan xalçaçılığının inkişafında yeni bir mərhələ sayılır: bu dövrdə süjetli xalçaçılıq tərəqqi edir (6, s.272-273). Sonrakı yüzilliklərdə Bakı, Şamaxı, Quba, Şuşa, Ərdəbil və Marağa xalçaçılığın mərkəzlərinə çevrilir və xüsusi məktəblər yaranır (3).

Azərbaycanda yerli xammalla əsaslanan toxuculuq sahələrindən biri də pambıq parça istehsalı idi. Erkən orta əsrlərdən başlayaraq pambıqçılıq əhalinin başlıca təsərrüfat sahələrindən birinə çevrilmişdi: mənbələr Kür çayı sahillərində pambıq əkininin geniş yayıldığını xəbər verir (1, s.45-46).

III-VIII əsrlərə aid arxeoloji materiallardan bəlli olur ki, "həmin dövrdə Azərbaycanda əkilən pambıq müasir pambıq növlərinə çox yaxındır" (1, s.195). Xilafət dövründə Gəncə, Naxçıvan, Bərdə, Təbriz və Xoy pambıq parça istehsalının mərkəzlərinə çevrilir. Sonrakı dövrdə pambıqçılıq təsərrüfatı ilə sıx bağlı olan bez istehsalı geniş yayılır və Naxçıvanın çit süfrələri, "qələmkar" parçaları Təbrizin, Gəncənin bez parçaları böyük şöhrət qazanır (6. s.280). Bu ənənəvi mərkəzlər XIX əsrdə də pambıq parça istehsalı üzrə öz mövqeyini saxlayır.

İpək parça istehsalı da Azərbaycanda qədim ənənələrə malik idi. Qiymətli xammal növü olmaqla yanaşı, ipək həm də beynəlxalq əhəmiyyətli əmtəə idi. Uzun müddət onun istehsal texnologiyası avropalılara məlum olmamış, Şərq ipəyi inhisarçı hüquqlarını saxlamışdı. Alban müəllifi Moisey Kalankatuklu Azərbaycanın təbii sərvətləri içərisində ipəyin də adını çəkir (5, s.17). Erkən orta əsrlərdə Azərbaycanda ipəkçiliyin əsas mərkəzi Bərdə (Partan), bir qədər sonrakı dövrdə Gəncə və Şamaxı olmuşdur. X əsrin ərəb müəllifi İbn Havqəl yazır ki, Azərbaycanda "müxtəlif cür əla, bahalı mallar hazırlayırlar" (4, s.73); bu məmulatlar əsasən ipək paltarlar, örtüklər və pərdələr idi. XIII əsrin müəllifi Zəkəriyyə əl-Qəzvini isə Gəncə ipəyindən bəhs edərək yazır: "Gəncə ipəyi zərifliyi ilə digər ölkələrdə toxunan ipəkdən üstündür" (4, s.115).

Monqol hakimiyyəti dövründə Azərbaycanda olmuş Italyan səyyahı Marko Polo Şirvan ipəyi haqqında yazır: "Burada çoxlu ipək var; burada

ipək və qızılı parçalar istehsal olunur. Belə gözəl parçalara heç yerdə təsadüf etmək olmaz" (7, s.244). Qeyd etmək yerinə düşər ki, Şirvan ipəkçiliyi öz mövqeyini XIX əsrədək saxlaya bilmişdir. Xüsusilə Şamaxı XIX əsrin sonlarınadək karxana şərbaflığının mərkəzi olaraq qalmışdı (6, s.289).

Məqalədəki qısa icmaldan göründüyü kimi, Azərbaycanda toxuculuq istehsalı çox qədim tarixə malik olmaqla yanaşı, əsrlər boyu tərəqqi etmiş, Azərbaycanın xarici bazarlarda rəqabətə dözümlü ixracatına imkan vermişdir. Böyük təkamül yolu keçən Azərbaycan toxuculuğunun ən geniş yayılmış sahələri isə yun və ipək istehsalı olmuşdur. Hətta XVIII-XIX əsrlərdə, yəni Avropanın fabrik istehsalının yarandığı və genişləndiyi dövrdə də Azərbaycanın toxuculuq sənəti rəqabətə (bəzi istisnalar olmaqla) dözə bildi: xalçaçılıq və ipəkçilik öz ənənələrini qoruyub saxladı və müasir dövrə fəxarətli "Azərbaycan xalçası", "Azərbaycan ipəyi" brendlərini gətirməyi başardı!

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycan tarixi. 7 cilddə. II cild. Bakı, 1998.
2. Həvilov H. Azərbaycan etnoqrafiyası. Bakı, 1991.
3. Kərimov L. Azərbaycan xalçası. Bakı. 1961.
4. Gözəlova Y.H. IX-XII əsrlərdə Azərbaycanın beynəlxalq ticarət əlaqələri. Bakı, 2005.
5. Moisey Kalankatuklu. Albaniya tarixi. Bakı. 1993.
6. Mustafayev A.N. Azərbaycanda sənətkarlıq. Bakı, 1999.
7. Piriyev V. Azərbaycan VIII-XIV əsrlərdə. Bakı, 2003.
8. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə. Bakı, 1961.
9. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахчиванской АССР. Баку, 1982.
10. Асланов Г.М. К изучению раннесредневековых памятников Мингечавура // КСИИМК, вып. 60. Москва, 1955.
11. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечавур. Баку, 1959.
12. Голубкина Т.И. Ажурные ткани из кувшинного погребения Мингечаура // СА, 1971, №3.
13. Латышев В.В. Известия древних писателей о Скифии и Кафказе. СПб., 1890, т.1.
14. Руденко С.И. Культура населения горного Алтая в Скифское время. Москва-Ленинград, 1953.